NİZAMİ XUDİYEV

SEÇİLMİŞ əsərləri

V CİLD

NİZAMİ XUDİYEV ❋ SEÇİLMİŞ əsərləri

Nizami Xudiyev

ZAMANIN AXARI İLƏ

(II hissə)

Məqalələr
Rəylər
Müsahibələr
Xatirələr
Çıxışlar
Ssenarilər

SEÇİLMİŞ ƏSƏRLƏRİ

V cild

«Elm və təhsil»
Bakı – 2013

Elmi redaktoru: **Qəzənfər Kazımov**
filologiya elmləri doktoru, professor

Rəyçilər: **Adil Babayev**
filologiya elmləri doktoru, professor

Rüfət Rüstəmov
filologiya elmləri doktoru, professor

N. M. Xudiyev. Zamanın axarı ilə (V cild) II hissə.
Bakı, "Elm və təhsil", 2013, 724 səh.

«Zamanın axarı ilə» kitabının I cildi 2004-cü ildə «Azərnəşr» tərəfindən nəşr olunmuşdur. Kitabın II cildinə də müəllifin müxtəlif dövrlərdə qələmə aldığı elmi-publisistik məqalələri, qəzetlərdə çap olunmuş müsahibələri, bir sıra elmi əsərlərə verdiyi rəylər, Milli Məclisdə etdiyi bəzi çıxışlar, dövlətçiliklə, türkçülüklə, tariximizlə bağlı televiziya filmlərinə yazdığı ssenarilər daxil edilmişdir.

Geniş oxucu kütləsi üçün nəzərdə tutulmuş bu kitabdan elmi işçilər, aspirantlar, tələbələr faydalana bilərlər.

$\frac{4602000000}{N098-2013}$ ***qrifli nəşr***

© "Azərnəşr, 2008
© «Elm və təhsil», 2013

GÖRKƏMLİ ALİM, LƏYAQƏTLİ ZİYALI

Görkəmli dilçi-alim, tanınmış türkoloq, millət vəkili, əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Nizami Mənafoğlu Xudiyev artıq 57 illik ömür yolunu arxada qoydu. Ömür yoluna mirvari tək düzülən illərin hər biri onun bioqrafiyasına, ömür kitabına parlaq səhifələr yazıb. Bu parlaq səhifələrin arxasında isə ləyaqətli bir alimin, elm adamının, dövlət xadiminin gecəli-gündüzlü gərgin çalışmaları, elmi araşdırmaları, tədqiqatları, bir sözlə, hərtərəfli, genişmiqyaslı fəaliyyəti dayanır.

Onun ömrü gözəl təbiətli, min bir nemətli uzaq Şahbuzdan, qeyrətli bir Azərbaycan kişisinin, Azərbaycan ziyalısının halal ocağından başlayıb. Şahbuzdan baş alan kiçik bir cığır onu geniş yollara qovuşdurub.

Nizami Xudiyev 1949-cu il aprel ayının 1-də Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunda anadan olub.

Uşaqlıq və yeniyetməlik illərini Şahbuzda – Naxçıvanda yaşayan Nizami Xudiyev ömrünün ən əziz xatirələrinin də o yerlərlə bağlı olduğunu söyləyir: «Naxçıvan mənim üçün çox əziz, doğma bir ocaqdır, məkandır. Bura ta qədimdən müqəddəs insanların yaşayış məskəni olub. Əshübi-Kəhf ziyarətgahı, türbələr, Möminə xatun məqbərəsi, baxdıqca uzanan Şərur düzləri, bol meyvəli Ordubad bağları, yamyaşıl Şahbuz yaylaqları, bu torpağın fəxri olan Əcəmi, Cavid, Ordubadi, Mirzə Cəlil yada düşür…

Naxçıvan gözəlliklər səltənətidir, Şahbuz isə onun gözüdür. Atam bu torpağın övladıdır. Şahbuz mənim dədə-

baba yurdumdur. Bu yurda məni çox möhkəm tellər bağlayır, uşaqlığımın daş yaddaşı bu yerlərlə bağlıdır. Qəribədir ki, o illərin hər anını yaxşı xatırlayıram, heç nə, hətta adi məqamlar da yadımdan çıxmayıb…»

Uşaqlıq və yeniyetməlik illərindən bir az xiffətlə, amma həm də fəxarətlə danışan Nizami Xudiyev doğulduğu torpağın tarixini, keçmişini gözəl bilir, ulu bir nəslin nümayəndəsi olmasından qürurla söhbət açır. O deyir: «Kəndimizdə (Şahbuz rayonu Badamlı kəndi) onun tarixinə, maddi və mənəvi miraslarına ehtiramla yanaşırlar. Məsələn, kəndimizdə elə bir adam tapılmaz ki, ən azı yeddi arxa dönənini tanımasın. Ayrı-ayrı kişilərin adıyla çağırdan tayfalar zəncirvari halqa kimi yaddaşlardadır. Alqocalı, İsmayıllı, Gardalı, Lahıclı, Məmmədli, Qaraboyalı tayfalarının nümayəndələri indi nəsil şəcarəsinin şərəfini qorumaları ilə fəxr edirlər. Yaxşı bilirlər ki, əməlləri yaxşılığından, pisliyindən asılı olmayaraq, ən azı yaddaşımızın tarixində qalır. Kəndimizin tarixində özünəməxsus yeri olan bizim tayfa Alqocalı adlanır. Bu ad ulu babalarımdan birinin adı ilə bağlıdır…»

Dosta dost, düşmənə amansız olan ulu babalarının Vətən, xalq üçün gördüyü böyük işlərdən, onların xeyirxahlığından, mərdliyindən danışan Nizami Xudiyev bu gün öz sələflərinin əməllərinin davamçısı olmasından haqlı olaraq qürur duyur…

Görkəmli alim üçün orta məktəb illəri də unudulmazdır. O, şagirdlik dövründə yalnız əla qiymətlərlə oxuyub, müəllimlərin sevimlisi olub. Əvvəlcə Şahbuz qəsəbə orta məktəbində təhsil alıb, sonra isə ailələri atasının dövlət işi ilə əlaqədar olaraq Naxçıvana köçüb və o, Naxçıvan şəhər 1 saylı və 2 saylı orta məktəblərində və yenidən Şahbuzda təhsilini davam etdirib. Nizami müəllim bu gün fəxrlə deyir ki,

özümə məbəd saydığım bu məktəblər xalqımıza böyük şəxsiyyətlər, alimlər verib, ziyalılar bəxş edib.

Naxçıvanın görkəmli dövlət adamlarından, nüfuzlu ziyalılarından, sayılıb-seçilən müəllimlərindən biri olan atası Mənaf Xudiyevin onun ədəbiyyatçı, dilçi olmasında, elm yolunu seçməsində böyük rolu olub. Atasının: «Ədəbiyyat bir dünyadır, əbədi bir yoldur. Söz sənəti ən qüdrətli sənətdir, çünki söz bu dünyada əbədi yadigar qalır. Amma bunun üçün çox oxumalısan, kitablarla dostluq etməlisən. Əsl ədəbiyyat mənsub olduğu xalqın görən gözü, eşidən qulağı, danışan dili, duyan qəlbi olmalıdır. Orxon-Yenisey daşlarında, «Dədə-Qorqud» eposunda əbədiləşən, Nizami poemalarında, Nəsimi, Füzuli, Xətai qəzəllərində əlçatmaz zirvələr fəth edən Azərbaycan ədəbiyyatı milli-mənəvi dünyamızın əbədiyyət yoludur. Səhhətin, Sabirin, Mirzə Cəlilin, Səməd Vurğunun, Rəsul Rzanın, Məmməd Arazın, Bəxtiyar Vahabzadənin, İslam Səfərlinin yaradıcılığı xəlqiliyi, vətəndaş qayəsi, amalı ilə bu əbədi yolun davamıdır. Bu yolun halal yolçusu olmaqdan şərəfli nə ola bilər!…Unutma, elmlə məşğul olanlar isə Allaha, Yaradana sarı yol gedirlər…» fikrini özünə həyat kredosu seçən Nizami Xudiyev elə taleyini də Azərbaycan sözünün taleyinə bağlayır. Görkəmli alimin valideynləri ilə bağlı xatirələri olduqca maraqlıdır. Onun atasına həsr etdiyi və bu günlərdə işıq üzü görmüş «Mənalı ömür yolu» kitabının səhifələrində, hər şeydən əvvəl, bir övlad kimi onu bu dünyaya bəxş edən, onun bioloji varlıqdan şəxsiyyətə ucalmaq yoluna işıq salan valideynləri haqqında ən əziz xatirələrini böyük səmimiyyətlə oxucularla bölüşür: «… Sadə bir ziyalı ailəsində doğulmuşam: atam müəllim olub, anam isə ailəsinə, ocağına möhkəm tellərlə bağlı olan, ailə-ər-uşaq qayğısı çəkən əsl Şərq qadını. Gözümü açanda əziz valideynlərimi görmüşəm başımın üstə. İlk duyduğum nəfəs də, ilk eşitdiyim səs də

onlarınkı olub. Anamın ruhumu oxşayan nazlı laylaları, atamın xoş, nəvazişli pıçıltıları indi də yaddaşımdadır. Və bunlar səs yaddaşımın ən əziz, ən məhrəm səsləridir. Atamın öyüdləri qalıb yadımda, anamın əlinin istisi indi də mənimlədir. Onların üz cizgiləri, çöhrələrindəki riyasız məsumluq, təmizlik indi də gözümün önündədir… Tanrıya şükranlıq edirəm ki, atalı dünyamın bol-bol işığını, sevincini görmüşəm. Atamın gözlərindəki aydınlıq, sönməyən işıq ömrüm boyu mənə arxa, kömək, dayaq olub. O işıq əllərimdən tutub, yerimək öyrədib, beynimi, düşüncələrimi nura qərq edib, fikrimi formalaşdırıb. Atam həyatda ilk bələdçim, ilk məsləhətçim, ilk yolgöstərənim olub. O, mənə həyatı sevdirib, zəhmətə alışdırıb, xeyirxahlıq öyrədib. Hər şeyə görə atamın gözlərində gördüyüm o parlaq işığa borcluyam. Hər dəfə onun xəyalı ilə danışanda tez-tez işlətdiyi bir kəlamı xatırlayıram: «Özünüzü idarə edərkən ağlınızı, başqalarına rəhbərlik edərkən isə qəlbinizi eşidin». O, belə bir rəhbər işçi olub. İndi mən özüm illər keçəndən sonra da yeni bir işə başlayanda atamı xatırlayır, «belə məqamda o necə hərəkət edərdi?» deyə düşünürəm. Və bu düşüncələr məni yanlış addım atmaqdan qoruyur…»

1966-cı ildə V. İ. Lenin adına APİ-nin (indiki ADPU-nun) filologiya fakültəsinə daxil olan Nizami Xudiyev tələbəlik illərində də yaşıdları orasında seçdir, «Nizami Gəncəvi» təqaüdü ilə oxuyub, fakültə komsomol təşkilatının katibi vəzifəsində işləyir.

Nizami Xudiyevin tələbəlik illəri ilə bağlı xatirələri də zəngindir. Alim öz tələbəlik illərini «mənim əziz illərim» adlandırır. Onun hələ 1970-ci ildə tələbə ikən «Gənc müəllim» qəzetində çap etdirdiyi «Pillələr» adlı məqaləsində oxuyuruq: «… 1966-cı ildə Cəlil Məmmədquluzadə adına Şahbuz qəsəbə orta məktəbini bitirib sənədlərimi V. İ. Lenin

adına APİ-nin filoloji fakültəsinə təqdim etdim. Xoşbəxtlik nəsibim oldu. İnstituta daxil oldum. Tələbəlik həyatı məni öz qoynuna aldı. Qrup komsomol təşkilatının katibi seçildim. İlk semestr imtahanlarından müvəffəqiyyətlə çıxdım. Tələbəlik həyatımın birinci pilləsini əla qiymətlərlə başa çatdırdım.

1968-ci il. Fakültə komsomol təşkilatının katibi seçildim. Bir tərəfdən dərslər, bir tərəfdən də ictimai iş daha səylə çalışmağımı tələb edirdi. Yuxusuz gecələrin, gərgin əməyin nəticəsi olaraq həyatımın ikinci pilləsini də əla qiymətlərlə başa çatdırdım.

1969-cu. Bu il həyatımda daha əlamətdardır. Nizami adına təqaüdə layiq görüldüm…»

İndi illər keçəndən sonra da Nizami müəllim tələbəliyini unutmur, bu barədə söhbət düşəndə deyir: «Xatirələr o qədərdir ki, sonu görünmür, hər biri yaddaşımdan boylanır. O xatirələrdə daim oxumaq, öyrənmək istəyimiz də var, tələbə dostlarımla birgə sevincli günlərimizin sədası da, müəllimlərimizin həyat qədər dəyərli tövsiyələri də… Tələbəlik illərinin insanın həyatında mühüm rolu danılmazdır. O illər bizi elmə, biliklərə daha dərindən yiyələnmək üçün səfərbər etdi, dünyagörüşümüzü zənginləşdirdi, bizi həm də fəal ictimaiyyətçi, təşkilatçı kimi yetişdirdi. O illərdə gözəl alimlərdən dərs aldıq, öyrəndik. Tələbəlik illəri mənim nəzərimdə, həm də yaxşı dostlar deməkdir. Mən o illərdə çoxlu dost qazandım. Bunu xüsusi vurğulamaqda məqsədim var… Mən instituta qəbul olandan sonra atam tez-tez Bakıya gələr, müəllimlərimlə, dostlarımla görüşərdi. Xüsusilə də kimlərlə dostluq etməyim onun üçün çox önəmli idi. Dostlarımla yaxın tanışlıqdan sonra rahatlıq tapar, arxayın olardı. Deyərdi ki, gərək dostunu tanıyasan, dostunu tanımayan adamın heç özü də tanınmağa layiq deyil. Onu da deyərdi ki, əgər insanın özünə inandığı qədər inana biləcəyi

dostları varsa, ondan xoşbəxt adam yoxdur. Bir fikrini də heç vaxt unuda bilmirəm: valideyn övladlarının cəmiyyətdəki hərəkətlərini nəzarətdə saxlamalı, onun yaxşı dostlar seçməsinə kömək etməli, pis adamlarla dostluq etməsinə yol verməməlidir. Atam mənim dostlarımı yaxşı tanıyırdı və tələbə dostlarımla mənə fərq qoymurdu…».

Təbii ki, hər bir insanın mənəvi cəhətdən yetkinləşməsində, savad, bilik qazanmasında, dünyagörüşünün zənginləşməsində mühüm mərhələ olan tələbəlik illəri unudulmazdır. Həmin illərdə qazanılanlar heç vaxt yaddaşdan silinmir, insana ömrünün sonrakı mərhələlərində daha çox gərək olur. Tələbə elmi cəmiyyətindəki ilk araşdırma, geniş toplantıda ilk məruzə, qəzetdə çıxan ilk məqalə, görkəmli yazıçı və şairlərlə keçirilən görüşdə ilk həyəcanlı çıxış – tələbəlik illərinin yaddaqalan və heç vaxt unudulmayan bu məqamları da, heç şübhəsiz, Nizami Xudiyevi böyük elm və yaradıcılıq dünyasına aparan ilk və çox uğurlu addımlardır. Bu addımlar davamlı çalışmalar, axtarışlar və araşdırmalarla daha da möhkəmlənir, onun sabahına olan inamı daha da artırır.

Ali məktəbdə təhsilini fərqlənmə diplomu ilə başa vuran Nizami Xudiyevi komsomol işinə irəli çəkmək istəyirlər, ona MK-da şöbə müdiri vəzifəsi təklif edirlər. Çoxları belə bir perspektiv üçün adam axtardığı, fürsət gəzdiyi bir vaxtda o, atasının məsləhəti ilə bu təklifi qəbul etmir. Görkəmli alim özü bu hadisəni belə xatırlayır: «… Atama məsələnin nə yerdə olduğunu deyəndə, düşünürdüm ki, sevinəcək, təbrik edəcək. Amma o, nəinki sevinmədi, hətta bir qədər məyus oldu. «Oğul, vəzifəni hu gün verərlər, sabah alarlar. Heç bir vəzifə əbədi deyil. Sən elə bir sərvət qazan ki, əbədi olsun, onu heç kim əlindən ala bilməsin. Vaxtı çatanda vəzifə özü gələcək, hələlik sən elmlə çox ciddi məşğul olmalı, müdafiə etməlisən. Belə

olsa, ən böyük sərvət sahibi olacaqsan, onu səndən heç vaxt heç kim ala bilməyəcək. Özü də bunu indi, cavan vaxtı etməlisən, sonra gec olar. Ataların bir sözünü unutma: «Daş-qaş əvəzinə özünə bilik yığsan, daha çox tanınarsan. Ən qiymətli daşı salıb itirə bilərsən, ən sadə biliyi isə səndən heç kəs ala bilməz».

Atam heç institut üzrə partiya komitəsinin katibi olmağımla da razılaşmadı. Atamın nə qədər haqlı olduğunu sonralar anladım, Mən Həmkarlar İttifaqı Komitəsinin sədri işlədiyim dövrdə dörd partkom dəyişdirildi. Atamla söhbətim sanki taleyimin dönüş nöqtəsi oldu. Və mən vəzifəni yox, elm yolunu seçdim. Bu, atamın göstərdiyi yol idi. Əbdüləzəl Dəmirçizadə, Məmmədhüseyn Təhmasib, Feyzulla Qasımzadə, Fərhad Fərhadov, Cavad Bağırov, Afad Qurbanov, İsmayıl Şıxlı, Əhəd Hüseynov, Azər Hüseynov, Əziz Əfəndizadə, Əbdül Əlizadə kimi mütəfəkkir alim-müəllimlərdən aldığım dərs də əlimdən tutdu. Professor Əbdüləzəl Dəmirçizadənin rəhbərliyi ilə namizədlik, sonra isə doktorluq işi müdafiə etdim. Atamın sözü olmasın, dilimizə, ədəbiyyatımıza üz tutaraq, ədəbiyyatın qapılarını açdım. Müdafiədən sonra isə vəzifələr özü məni tapdı. Əvvəlcə prorektor, sonra rektor oldum…»

Bəli, Nizami Xudiyev uzun illər Şahbuz Rayon Partiya Komitəsinin birinci katibi, Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sədri, Ali Sovetin Rəyasət Heyətinin sədr müavini, Naxçıvan Vilayət Komitəsinin orqanı olan «Şərq qapısı» qəzetinin baş redaktoru və s. məsul vəzifələrdə işləmiş, iki çağırış Naxçıvan MSSR Ali Sovetinin deputatı olmuş atası Mənaf Xudiyevin məsləhəti ilə elm yolunu seçir.

1970-ci ildə ali məktəbdə təhsilini fərqlənmə diplomu ilə başa vuran Nizami Xudiyevin savad və biliyini, təşkilatçılıq qabiliyyətini, gözəl insani keyfiyyətlərini nəzərə alan

müəllimlərinin, görkəmli alimlərin tövsiyəsi, Elmi Şuranın qərarı ilə onu «Azərbaycan dilçiliyi» kafedrasında müəllim saxlayırlar. Bu, 21 yaşlı gəncə çox böyük etimad idi və bu etimadı yalnız böyük zəhmətlə doğrultmaq olardı.

Nizami Xudiyev görkəmli alimlərlə çiyin-çiyinə işlədiyi elmi mühitdə özünün zəhmətkeşliyi, tədqiqatçılıq məharəti və erudisiyası ilə bu yüksək etimadı doğrultdu. Bu yolda, əlbəttə, Azərbaycan dilçilik elminin korifeyi, professor Ə. Dəmirçizadənin alim həssaslığı və elmi intuisiyası da böyük rol oynayıb. Ümumiyyətlə, bir elm adamı kimi Nizami Xudiyevin bəxti onda gətirib ki, o, sözün həqiqi mənasında klassik elm məktəbi keçib. Yəni, onun təhsil aldığı Azərbaycan Dövlət Pedaqoji Universiteti, xüsusən «Azərbaycan dilçiliyi» kafedrası filologiyamızın, dilçilik elmimizin ağırlıq mərkəzlərindən biri idi. Şübhəsiz ki, professor Ə Dəmirçizadə kimi nəhəng bir alimlə birgə çalışmaq Nizami Xudiyevin elmi bioqrafiyasında şərəfli bir səhifə olub. O, Ə. Dəmirçizadə kimi müdrik bir zəka sahibinin yanında həqiqi elm məktəbi keçib. Bu sanballı alimlə eyni kafedrada çiyin-çiyinə işləyən, onun elm çeşməsindən bəhrələnən və alimlik etimadını doğruldan Nizami Xudiyev tezliklə bütün institutun fəxrinə çevrilir. Dünən tələbə kimi mühazirə və seminarlara gəldiyi auditoriyalara indi o, müəllim kimi daxil olur, az qala öz həmyaşıdları və özündən böyüklərə dərs keçirdi. Tələbələr onu özlərinə təkcə sevimli müəllim yox, həm də bir dost, bir hami bilirdilər. Şövqlə dərs deməyi ilə auditoriyalara yeni bir ruh gətirən bu gənc müəllim işini yalnız mühazirə oxuyub, seminar aparmaqla bitirmirdi. O, həm də tələbə elmi cəmiyyətlərinin, idman tədbirlərinin, kütləvi görüş və gəzintilərin, ənənəvi bayram mərasimlərinin təşkilatçılarından idi.

Professor Nizami Xudiyev öz sevimli müəllimi Əbdüləzəl Dəmirçizadəni belə xatırlayır: «… Biz tələbələr ona tarix

yaşlı, tarix yaddaşlı əlçatmaz bir varlıq, Azərbaycan dilçilik elminin canlı klassiki, əfsanəvi ustadı kimi baxırdıq. O, qeyri-adi elmi nəzəri fikirləri, analitik məntiqi, çox halda ciddi elmi təfəkkür tərzi ilə bizi valeh edir, ovsunlayır, heyrətləndirir, daxilən ucaldırdı. Professor Əbdüləzəl Dəmirçizadə hələ tələbəlik illərimizdə, yəni öz sağlığında, diri ikən qəlbimizdə heykəlləşmişdi. Öz rəftarı, geyimi, danışıq tərzi, münasibəti, ciddiliyi, elmi fədakarlığı, prinsipial, dəyişməz elmi mövqeyi ilə «professor» obrazı yaratmışdı və o zaman, elə indinin özündə də Azərbaycan dilçilik mühitində «professor» deyəndə hamı bilir ki, söhbət Əbdüləzəl Dəmirçizadədən gedir. Söhbət elə bir alimdən, elmi fikir nəhəngindən gedir ki, o, bütün yaradıcı ömrünü, misilsiz alim taleyini Azərbaycan dilçiliyinin inkişafına, tərəqqisinə həsr etmişdi».

Professor Nizami Xudiyev ictimai-pedaqoji fəaliyyətlə yanaşı, həm də daim türkdilli respublikalarda səfərlərdə olur, maraqlı elmi araşdırmaları də qəzet və jurnallarda mütəmadi çıxışlar edirdi. O vaxt üçün bir növ cəsarət timsalı sayılan bir sıra ümumtürk mətnlərinin, daş yazılı abidələrin, ortaq ədəbi mənbələrin haqqında geniş auditoriyalarda, mətbuatda çıxışlar edir, maraqla elmi mülahizələr söyləyirdi. Bu uğurlara isə hamıdan çox onu elm yoluna istiqamətləndirən atası Mənaf Xudiyev və bir də Azərbaycan dilçilik elminin ağsaqqalı professor Ə. Dəmirçizadə sevinirdi. Böyük alim öz yetirməsinin uğurlarını yüksək qiymətləndirərək, mötəbər toplantılarda onun haqqında ağızdolusu, həm də iftixarla danışırdı. Gənc alimin sonrakı uğurları sübut edir ki, bu işıqlı zəka sahibi Nizami Xudiyev haqqında danışarkən, ilk növbədə, dilimizin, xüsusilə özünə daha doğma olan ədəbi dil tarixi və müasir dil proseslərinin tədqiqi sahəsində layiqli, istedadlı, ən başlıcası, elmi perspektivinə inandığı varisi haqqında söhbət açırmış. Yüzlərlə gənc tədqiqatçıya xeyir-dua verən böyük

alimin bu inamı tezliklə doğruldu. Nizami Xudiyev öz sələfinə layiq alim kimi yetişdi.

Az zamanda o, həm də türkoloq alim kimi məşhurlaşdı. Vətənimizdə və digər ölkələrdə, o cümlədən Moskva, Nalçik, Bişkek, Ufa, Aşqabad, Daşkənd, Gülüstan, Alma-Ata, Ankara, İstanbul, İzmir, Adana, Konya və başqa şəhərlərdə keçirilən elmi konfrans, türkoloji qurultay və beynəlxalq simpoziumların nümayəndəsi olan Nizami Xudiyev bu mötəbər toplantılarda sanballı elmi məruzələrlə çıxış edərək türkologiya sahəsində tədqiqatları ilə dünya alimlərinin diqqətini cəlb etdi. Və artıq elmi ictimaiyyət onu həm də bu sahədə öz sözünü demiş türkoloq alim kimi tanıyır.

Beləliklə, Nizami Xudiyev 1978-ci ildə namizədlik, 1990-cı ildə doktorluq dissertasiyaları müdafiə edir. özünün dediyi kimi, vəzifələr də özü gəlib onu tapır. ADPU-da müxtəlif məsul vəzifələrdə çalışır. 1979-1991-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Həmkarlar İttifaqı Komitəsinin sədri, 1991-1994-cü illərdə birinci prorektor, 1994-1996-cı illərdə rektor olur. Özünü dərin elmi təfəkkürlü alim, yüksək təşkilatçılıq bacarığına malik rəhbər işçi kimi göstərir.

Alimin davamlı axtarışları, gərgin çalışmaları elmi fəaliyyətində xüsusilə qabarıq nəzərə çarpır. Azərbaycan dilçilik elminin inkişafında professor Nizami Xudiyevin xidmətləri danılmazdır. İndi görkəmli alim 50-yə yaxın monoqrafiya, dərslik və dərs vəsaitinin, 40-dan artıq sənədli televiziya filminin ssenarisinin müəllifidir. O, həmçinin 2-ci sinif üçün «Azərbaycan dili» və «Oxu», 4-cü sinif üçün «Azərbaycan dili», 5-ci sinif üçün «Azərbaycan dili», 10-11-ci siniflər üçün «Azərbaycan dili», rus məktəblərinin 10-cu sinfi üçün «Azərbaycan dili», kar uşaqlar üçün «Ana dili» (4-cü sinif) və «Azərbaycan dili» (5-ci sinif) dərsliklərinin müəlliflərindən biridir.

Gərgin elmi araşdırmaların məhsulu olan «Azərbaycan ədəbi dilinin təşəkkülü», «Tərcümə ədəbiyyatı və ədəbi dilimiz», «Azərbaycan ədəbi dilinin tarixi», «Azərbaycan ədəbi dilinin sovet dövrü», «Heydər Əliyev və Azərbaycan dili», «Yazıçı dili və üslubu», «Radio, televiziya və ədəbi dil», «Xalqın tarixi haqqı: dilimiz, varlığımız», «Xalq və dövlət naminə», «Zamanın axarı ilə» və digər fundamental əsərləri Nizami Xudiyevin Azərbaycan dilçilik elminə sanballı töhfəsidir və müəllifinə, sözün həqiqi mənasında, böyük şöhrət gətirib.

Alimin 1995-ci ildə çap olunan «Azərbaycan ədəbi dili tarixi» kitabını Azərbaycan xalqının qədim tarixini heç bir süni konsepsiyaya əsaslanmadan tarixi-elmi, linqvistik, materialların işığında obyektiv şərh edən kitab saymaq olar. Bu əsərdə alim yeni mənbələrə əsaslanaraq Azərbaycan ədəbi dilinin çoxəsrlik tarixi və inkişaf dövrlərini təhlil edir. Kitabda Maday və Alban dövrünü səciyyələndirən saysız elmi, linqvistik faktlar ölkəmizin ərazisində çox qədim dövrlərdən türk tayfalarının mövcud olduğunu təsdiq edir. Kitabdakı tədqiqat ona görə uğurludur ki, burada mühafizəkarlığa qarşı cəsarətli etiraz var. Müəllif yazır: «… sovet tarixşünaslığında belə bir ənənə formalaşmışdı ki, guya türklər Azərbaycan ərazisinə sonralar, yəni III-IV əsrlərdən IX-XI əsrlərə qədərki dövrdə müxtəlif mərhələlərlə gəlmişlər. Belə mülahizələr Azərbaycan xalqının və dilinin tarixini tamamilə təhrif edir. Sovet dövründə, xüsusilə 30-cu illərdən etibarən Qafqaz bütünlükdə türklərdən «alınıb» qeyri-türklərə (Qafqaz dillilərə, hind-Avropa və ümumiyyətlə, kimliyi bilinməyən, «qeyri-türk dillilərə») verildi». Alim doğru olaraq qeyd edir ki, elə bu minvalla da Azərbaycan xalqının və Azərbaycan dilinin tarixi faktlar əsasında yox, hakim ideologiya əsasında şərh edilirdi. Müəllif bu cür zəruri qeydləri ilə yanaşı, kitabda

türk etnos və dillərinin qədim və aparıcı mövqeyini işıqlandırarkən İran və qafqazdilli tayfaların bu ərazidəki tarixi rolunu da unutmayıb,

Professor Qəzənfər Kazımov Nizami Xudiyevin bu kitabını Azərbaycan ədəbi dilinin hərtərəfli elmi tədqiqi sahəsində nailiyyəti hesab edərək yazır ki, o, xalqın tarixinin və dilinin minilliklər boyu keçdiyi həqiqi, təbii inkişafın tədqiqi sahəsində böyük yenilikdir, həmçinin tarixçi və dilçilərin tədqiq və araşdırmalarını çox uğurlu şəkildə ümumiləşdirməklə xeyirxah bir niyyətə xidmət edən dərslik kimi çox dəyərlidir.

«Heydər Əliyev və Azərbaycan dili» kitabında isə professor Nizami Xudiyev həm ədəbi dilimizin vüsətini, həm də öz parlaq nitqləri ilə ayrı-ayrı üslubların valehedici vəhdətini göstərən və sözün həqiqi mənasında, dövrümüzün ictimai-siyasi natiqlik məktəbi sayılan Heydər Əliyevin mükəmməl natiq obrazını ustalıqla, təbii və canlı boyalarla yaratmışdır. Bu əsər bir tərəfdən Nizami Xudiyevin daim Azərbaycan dilinin qayğısını, təəssübünü çəkən Heydər Əliyev kimi fədakar və nəhəng bir şəxsiyyətə alim, vətəndaş ehtiramıdırsa, digər tərəfdən, elmi məzmunuma, aktuallığına, predmetinə orijinal yanaşma tərzinə görə təkcə dilçiliyimizdə yox, bütövlükdə mədəniyyətimizdə mühüm hadisədir.

Professor Nizami Xudiyevin siyasət nəhəngi olan Heydər Əliyevin natiqliyi barədə yazmasının iki səbəbi var. Əvvəla, Heydər Əliyevin siyasi məsləkdaşı kimi onunla daim təmasda olub, bu böyük şəxsiyyətin alovlu, məntiqli çıxışlarını ardıcıl izləyib və onun natiqlik təcrübəsini ümumiləşdirib yaymaq ehtiyacı müəllifi bu vacib işə sövq edib. Digər tərəfdən, dil tarixi ilə məşğul olanlar ayrı-ayrı dövrlərdə yaşamış görkəmli şəxsiyyətlərin dilin inkişafındakı xidmətlərini daha dəqiq və düzgün qiymətləndirə bilirlər. Bu mənada, professor Nizami

Xudiyevin məhz Heydər Əliyev dilinə müraciət etməsi çox qanunauyğun bir haldır.

Kitabda, həmçinin Heydər Əliyevin gənc nəslin ana dilini düzgün, hərtərəfli, elmi əsaslar zəminində mənimsəməsi ilə bağlı dəyərli məsləhətlərinə, o cümlədən ana dilinin hər bir şəxsin mənəvi inkişafında, sosial-psixoloji cəhətdən formalaşmasında, mükəmməl insan-şəxsiyyət kimi yetişməsində rolu məsələlərinə xüsusi diqqət yetirilir. Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan dili haqqında fikirləri, mülahizələri, qeydləri, onun dil siyasəti, dil quruculuğu sahəsində gördüyü işlər, hər bir azərbaycanlıya ana dilini qorumaq, işlətmək və yaymaq haqqında tövsiyələri ümumiləşdirilir. Bu cür əsərlər məhz ana dilinə, öz xalqına, onun müdrik rəhbərinə sonsuz məhəbbət bəsləməyin nəticəsində yarana bilər.

Professor Nizami Xudiyevin «Sabaha inamla» kitabı isə ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunu ləyaqətlə davam etdirən, artıq bütün dünyada ciddi simalı dövlət başçısı, siyasi lider kimi qəbul olunan, Azərbaycanın tərəqqisi, yüksəlişi, dünya inteqrasiyası yolunda böyük işlər görən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə həsr olunub. Müəllif yazır: «…Məncə, xalqımız üçün son dərəcə misilsiz, heç bir tarixi şəxsiyyətlə müqayisəyə gəlməz dərəcədə böyük işlər görən Heydər Əliyevin Azərbaycana bəxş etdiyi ən qiymətli, ən əvəz olunmaz xidmətlərdən, yadigarlardan biri də İlham Əliyevdir. O, müasir Azərbaycan gəncliyinin, yeni Azərbaycan dünyasının ümidlərini, arzu və istəklərini, «əbədi və dönməz» dövlət müstəqilliyimizlə, milli istiqlalımızla bağlı daha böyük, daha xoşbəxt perspektivlərini təmsil edir. Onun istiqlalçı, islahatçı təfəkkürü, sarsılmaz milli mövqeyi Heydər Əliyevin kursu, platforması ətrafında birləşir…»

Onu da qeyd edək ki, Nizami Xudiyev «Sabaha inamla» kitabını 2002-ci ildə yazıb. Zaman, dövr isə görkəmli alimin fikirlərinin qədər məntiqli, nə qədər obyektiv, nə qədər dəqiq olduğunu sübut etdi. Fikrimizcə əlavə şərhə ehtiyac yoxdur.

Alimin son illərdə işıq üzü görmüş «Xalqın tarixi haqqı: dilimiz, varlığımız», habelə «Zamanın axarı ilə» (I cild) kitabları da ədəbi ictimaiyyət tərəfindən böyük diqqət və maraqla qarşılandı.

«Xalqın tarixi haqqı: dilimiz, varlığımız» kitabı xalqımızın soy kökünə, dilimizə, varlığımıza ayna tutur, bu böyük mənəvi dəyərlərimizə vurulan zərbələrə tutarlı cavab verir. Professor Nizami Xudiyev bu kitabı ilə bir daha göstərdi ki, qədimdən-qədim düşmənlərimizin işğalçı olduğunu sübuta yetirməyin ən doğru yolu Azərbaycan xalqının tarixi haqqını keçmiş zamanın dərinliklərindən üzə çıxarmaq, xalqın kökünə endirilən baltalara öz sözünü, əsərini sipər etməkdir.

«Xalqın tarixi haqqı: dilimiz, varlığımız» kitabına «Vətəndaş qayələri və elmi səriştə» adlı ön söz yazan görkəmli yazıçı Elçin də belə bir cəhəti vurğulayır ki, ictimai fikrimizi formalaşdırmaq işığında olan qələm sahiblərimiz yaranmış münbit zəmində – müstəqilliyimizin verdiyi imkandan ciddi elmi vətəndaş qeyrəti ilə istifadə etməli, fədakarlıq nümunəsi göstərməlidirlər və artıq professor Nizami Xudiyev belə bir nümunəni göstərib.

Həqiqətən də Azərbaycan xalqının milli-mənəvi sərvətləri uğrunda elmi mücadilə dil tariximizi və ümumiyyətlə, tariximizi saxtalaşdırmaq cəhətlərinə kəsərli elmi cavab verməkdir. Və bu cür bacarıq ««Xalqın tarixi haqqı: dilimiz, varlığımız» kitabında özünü qabarıq şəkildə göstərir. Elə bu baxımdan da professor Nizami Xudiyevin kitabı müstəqil Azərbaycan Respublikasının dünya birliyində

özünütəsdiq prosesində həm elmi, həm də siyasi-ictimai əhəmiyyət daşıyır. Bu kitab xalqın tarixi haqqını qorumaq yolunda çox uğurlu, gərəkli və cəsarətli bir addımdır. Oxucuların bu kitabdan öyrənəcəyi, ibrət götürəcəyi məqamlar çoxdur.

«Zamanın axarı ilə» (I cild) kitabında isə alimin ədəbi dilimiz, onun problemləri, inkişaf və zənginləşmə yolları, ədəbi dilin tarixi, nitq mədəniyyəti və s. mövzularda məqalələri, müsahibələri toplanıb. Müxtəlif vaxtlarda qələmə alınmış bu yazılarda müəllifin bir alim, ziyalı, vətəndaş mövqeyi daha aydın görünür, onun xalqına, Vətəninə, tarixinə, dilinə böyük diqqət və məhəbbəti özünü qabarıq şəkildə büruzə verir. Kitabda janr və üslub xüsusiyyətlərinə görə bir-birindən fərqli olan 83 adda əsəri çap olunub. Bu əsərlər arasında «Zamanın yaddaşı» bölməsində müəllifin ümummilli liderimiz Heydər Əliyevlə bağlı qələmə aldığı «Heydər Əliyev fenomeni» məqaləsi diqqəti xüsusilə cəlb edir. «Heydər Əliyev və Azərbaycan dili», «Heydər Əliyev: müstəqilliyimiz, dövlətçiliyimiz», «Heç vaxt silinməyən yaddaş», «Siyasi nüfuz və qüdrətin təzahürü», «Xeyirxahlığın ali nümunəsi», «Böyüklük… sadəlik», «Azərbaycanın işıqlı gələcəyinin təminatçısı», «Həmişə zirvədə» adlı yarımbaşlıqlarla yazılmış bu məqalə səciyyəsi və mündəricəsi etibarilə siyasi xarakter daşısa da, məqalənin dilinə səmimi, lirik bir ovqat hakimdir.

Bu kitab haqqında filologiya elmləri namizədi Xanəli Kərimli «Zamanın axarı dəyişkən olur» adlı məqaləsində yazır: «… bu başlığı təsadüfən seçmədik. Təbii ki, zaman dəyişir və dəyişdikcə də yeni məzmun və mahiyyət kəsb edir. Fikrimizcə, bütün zamanların axarında dəyişməyən bir şey var ki, o da özünə hörmət qoyan şəxsiyyət və mənliyinin dəyərini dərindən dərk edən insanın mövqeyi, əqidəsi, bir də

onun vaxtında, zamanında yaratdığı maddi və mənəvi dəyərlərdir. «Zamanın axarı ilə» kitabı Nizami Xudiyevin ömrünün, gününün yaddaşından, yaşadığı zamanın bətnindən damla-damla süzülüb gələn mənəvi bir dəyərdir ki, bu dəyər gələcək zamanlar üçün dəyişilməz olaraq qalacaqdır». Bu fikirlər kitab haqqında çox şey deyir və fikirlərlə razılaşmamaq mümkün deyil.

Nizami Xudiyevin bir sıra kitab və məqalələri xarici ölkələrdə (İran, Türkiyə, Rusiya, Almaniya, İraq, İsveçrə, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və s.) nəşr edilmişdir.

Professor Nizami Xudiyev bu gün pedaqoji fəaliyyətini də uğurla davam etdirir, geniş auditoriyalarda tələbələr qarşısında mühazirələr oxuyur, onlara ana dilimizin gözəlliklərini, incəliklərini sevə-sevə tədris edir, öz zəngin biliyini böyük səxavətlə tələbələrinin yaddaşına köçürür. Tələbələri onu həm də həssas qəlbli bir pedaqoq kimi sevirlər. Onun yetişdirdiyi gənc alimlər isə bu gün fəxrlə onunla çiyin-çiyinə universitet auditoriyalarında dərs deyirlər.

Zəngin müşahidə qabiliyyətinə, həssas qəlbə, analitik təfəkkürə malik olan professor Nizami Xudiyev həm də gözəl publisistdir. Ana dilimizin incəliklərinə dərindən bələd olması bu sahədə özünü daha qabarıq göstərir. Bu mənada, onun portret oçerkləri daha çox yadda qalır. Alimin ulu öndər Heydər Əliyev haqqında «Heydər Əliyev fenomeni», «Dərin zəka və yaddaş sahibi» adlı oçerkləri xalqımızın bənzərsiz övladı haqqında ən dəyərli publisistik yazılardan hesab oluna bilər. «Heydər Əliyev fenomeni» oçerkində oxuyuruq: «… Heydər Əliyev. Müdrikliyi, uzaqgörənliyi, titanik fəaliyyəti ilə dünyanın ən nəhəng sayseçmə siyasətçiləri ilə bir sırada özünə əbədi yer alan ən böyük azərbaycanlı. Adı Azərbaycanın, bütövlükdə türk dünyasının tarixinə qızıl hərflərlə yazılmış dahi. Belə dahilər, bu cür hərtərəfli düşüncə

və dərrakəyə, təfəkkürə malik insanlar isə hər əsrin və hər xalqın bəxtinə düşmür! Bu siyasət korifeyinin heç bir təbliğ təntənələrinə ehtiyacı olmasa da, biz dönə-dönə ona qayıdacağıq, o səbəbdən ki, özümüzün ona ehtiyacımız var!...»

Nizami Xudiyevin xalqımızın tanınmış övladları haqqında, o cümlədən Şıxəli Qurbanov, İsmayıl Şıxlı, Cavad Heyət, Rəhim Rəhimov, Budaq Budaqov, Murtuz Ələsgərov, Məmməd Araz, Mövlud Süleymanlı və başqaları barədə portret oçerkləri də çox oxunaqlı və təsirlidir. Müəllif oxucuya öz qəhrəmanının daxili aləmini parlaq detallarla çatdırmaqla bərabər, həm də onların cəmiyyətdəki mövqeyi, fəaliyyəti, Vətən, xalq qarşısında xidmətləri haqqında dolğun təsəvvür yaratmağa müvəffəq olur. Onun nəzərində Şıxəli Qurbanov «...gözəl yazıçı-dramaturq, böyük alim, görkəmli ictimai xadim», İsmayıl Şıxlı «...qətiyyətli, prinsipial, xeyirxah, qayğıkeş, sözü keçən alim-pedaqoq», Əbdül Əlizadə «...saflığını, təmizliyini, ucalığını qoruya bilən gözəl alim», Məmməd Araz «...şeirində hər sözün, hər kəlmənin yeri olan böyük şair», Murtuz Ələsgərov «...özündə bir çox ümummilli maraqları, həşəri dəyərləri birləşdirən və haqqını əməlləri ilə təsdiq edən ağsaqqal», Cavad Heyət «...dünya miqyasında tanınmış cərrah və tədqiqatçı, ədəbi dilimizin təbibi», Budaq Budaqov «...əsl elm və ziyalılıq fədaisi», Rəhim Rəhimov «...həqiqi vətəndaş, müdrik el ağsaqqalı», Mövlud Süleymanlı «...hər əsərinə, hər cümləsinə, hər kəlməsinə ciddi yanaşan yazıçı»dır.

Nizami Xudiyevin bu yaxınlarda işıq üzü görmüş, əziz atasının 85 illik yubileyinə həsr etdiyi «Mənalı ömür yolu» kitabı isə onun əsl yazıçı qələminə, yazıçı səriştəsinə sahib olduğunu sübut edir. Alim uşaqlığı, valideynləri, böyüyüb boya-başa çatdığı doğma ocağı, el-obası, həmçinin tələbəlik

illəri, müəllimləri haqqında xatirələrini o qədər canlı, oxunaqlı bir dillə, üstəlik, böyük səmimiyyətlə qələmə alıb ki, onun zəngin təxəyyülə malik gözəl bir yazıçının qələmindən çıxdığına əmin olursan.

Bəs görəsən, bu qədər uğur qazanmağın səbəbi nədir? Bu barədə suala alim özü belə cavab verir: «Bilirsiniz, mən belə düşünürəm ki, həyatda hər şey zəhmətlə, əməklə bağlıdır. İstedad dediyimiz o məfhumun özü də 99 faiz tər tökməkdən, çalışmaqdan ibarətdir. Rəhmətlik atam həmişə deyərdi ki, çəkilən zəhmət üz ağardar, zəhmətdən, əməkdən qorxmayın…»

Nizami Xudiyev 1996-cı ilin sentyabr ayında Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkətinə sədr təyin olunur. Bu vaxt artıq o, ölkəmizdə və ondan kənarda görkəmli dilçi-alim, ictimai xadim, nüfuzlu ziyalı kimi tanınırdı. Lakin bu təyinat həm 40 yaşlı televiziyanın «ömrü»nə, həm də alimin özünün yeni araşdırmalarına, yeni uğurlarına təkan verir, ekran-efirin problemlərinin həllini daha da tezləşdirir, bu mühüm ideoloji mərkəzə yenilik, təzə yaradıcılıq ab-havası gətirir. Özü bu vəzifəyə təyinatını belə yada salır: «…Heydər Əliyevin elmimizə, təhsilimizə, müəllimlərə, ziyalılara qayğısı hədsiz idi və bu qayğıdan mənə də pay düşüb. Xoşbəxtəm ki, 1996-cı ildə Heydər Əliyevin fərmanı ilə məsul dövlət vəzifəsinə – Dövlət Teleradio Verilişləri Şirkətinin sədri vəzifəsinə təyin olunmuşam, o dahi insanın xeyir-duasını almışam. Həmin günü ömrümün ən unudulmaz günü hesab edirəm. Əlbəttə, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, dahi şəxsiyyət, müdrik insan, dünyanın siyasi elitasında çox yüksək mövqedə dayanan mərhum Prezidentimiz Heydər Əliyevin mənə göstərdiyi bu böyük etimaddan şərəf duyuram. Və elə o vaxt da yaxşı bilirdim ki, bu etimadı doğrultmalıyam. Başqa cür də ola bilməzdi. Heydər Əliyevin Azərbaycanı dünya

ölkələri sırasına çıxarması, dövlətçiliyimizin qorunmasındakı və möhkəmləndirilməsindəki əvəzsiz xidmətləri, respublikamızda yaratdığı sağlam mühit, elmə, təhsilə, mədəniyyətə yüksək qiymət verməsi hər kəsi səfərbər etməliydi. Elə teleşirkətdə aparılan struktur dəyişikliyi, yeni, müasir texnoloji avadanlıqlar hesabına dünyanın hər guşəsində yayımlanan və az qala hər gün təkmilləşən, yeniləşən proqramlarımız bu məqsədə, bu amala xidmət edir».

Həqiqətən də, Nizami Xudiyevin ideyası, məsləhəti, xeyir-duası ilə həyata keçirilən böyük telelayihələr, ekran-efirə vəsiqə qazanan yeni-yeni verilişlər, radio və televiziyaya aid yazdığı son dərəcə sanballı kitablar, bir sıra irihəcmli teleproqramların və aktual mövzuda sənədli filmlərin ssenarisi onun bu etimadı ləyaqətlə doğrultduğunu sübut etdi.

Nizami Xudiyev Teleradio Verilişləri Şirkətinə gəldiyi ilk gündən televiziya və radio verilişlərinin keyfiyyətinin yüksəldilməsinin, forma cəhətdən zənginləşməsinin qayğısına qaldı və buna nail oldu. Televiziya və radiomuzun beynəlxalq nüfuzunun artması, ekran və efir dilinin zənginləşməsi, saflaşması, verilişlərdə ədəbi dil normalarının gözlənilməsi, yüksək nitq mədəniyyəti tələblərinə əməl olunması da professor Nizami Xudiyevin adı və fəaliyyəti ilə bağlıdır. Ekran və efirdən çoxmilyonlu auditoriyaya yönəldilən «Xəbərlər», «Səhər», «Dialoq», «Ailələr, talelər», «Molla Nəsrəddin», «Türk abidələri», «Turan», «Axşamınız xeyir», «Respublika», «Şəbəkə», «Xudafərin» və digər verilişlər tamaşaçı və dinləyicilərin maraqla izlədikləri proqramlara çevrildi.

Nizami Xudiyevin daha böyük xidmətlərindən biri də Dövlət Teleradio Verilişləri Şirkətində aparılan böyük quruculuq, abadlıq işləri, onun dünya standartlarına, müasir tələblərə uyğunlaşdırılması, son dövrün texniki nailiyyətlərini

özündə əks etdirən avadanlıqlarla təminatına nail olması, yaradıcı və texniki işçilərin problemlərinin həlli istiqamətində həyata keçirdiyi müsbət və təqdirəlayiq işlər idi. Nizami Xudiyev televiziya və radionu həm də öz dəyərli, sanballı kitablarında işıqlandırdı, uzun illər ömürlərini radio və televiziyaya həsr etmiş insanların əməyini qiymətləndirdi, əmək haqları, qonorarlar artırıldı. Teleradio Verilişləri Şirkətinin çoxlu sayda əməkdaşı məhz onun diqqəti və təqdimatı ilə dövlət mükafatlarına, fəxri adlara, təqaüdlərə layiq görüldü.

Dövlət Televiziya və Radiosu Azərbaycan həqiqətlərinin, dövlətimizin uğurlu daxili və xarici siyasətinin bütün dünyaya çatdırılmasında böyük rolu olan bir ideoloji mərkəzə çevrilib. Dövlət Televiziyasının verilişləri dünyaya yayımlanır. Azərbaycan radiosunun səsi planetimizin çox yerində eşidilir. Bu radionun efirindən xarici ölkələrə, ərəb, fars, türk, ingilis, alman, fransız, rus dillərində verilişlər yayımlanır. «Beynəlxalq Azərbaycan radiosu» gün ərzində 50 saata qədər veriliş yayır. Bu proqramlar müstəqil Azərbaycanın səsinə çevrilib. Bu verilişlərdə yayımlanan həqiqətlər uzaq Amerikada, Qərbi Avropada, Mərkəzi Asiyada, Yaxın Şərqdə, bir sözlə, uzaq ölkələrdə eşidilir. İndi sərhədlərimizdən uzaqda Azərbaycanın səsini eşidən ən azı iki milyonluq dinləyici auditoriyası var. Buna görə də radionu həm də respublikamızın xaricə açılan pəncərəsi hesab edən professor Nizami Xudiyev öz əsərlərində xalqımızın azadlıq mübarizəsini, dövlət quruculuğu sahəsindəki uğurları, cəmiyyətdə gedən demokratik dəyişiklikləri əks etdirən verilişlər, proqramlar haqqında da geniş söhbət açır.

Qeyd etdiyimiz kimi, Nizami Xudiyev, həmçinin radioteleviziya ilə bağlı sanballı tədqiqat əsərləri də yazıb. Professorun Azərbaycan radiosunun 75, Azərbaycan

televiziyasının 45 illiyi qarşısında çap etdirdiyi, böyük və ağır zəhmətin bəhrəsi olan sanballı «Radio, televiziya və ədəbi dil» adlı elmi-publisistik kitabı bu unikal sahənin ədəbi dil xəzinəsini kompleks elmi-tədqiqata cəlb etdi və bu toplu alimlər, mütəxəssislər dilçilər tərəfindən yüksək qiymətləndirildi, Nizami Xudiyevin ekran, efir dili ilə bağlı apardığı fəal müşahidələrinin nəticəsi olan tədqiqat əsəri kimi dəyərləndirildi. Həm ekran və efir məhsullarından, həm onları yaradanlardan, həm də bu məhsulların yaradılması üçün əsas ifadə vasitəsi olan dildən söhbət açan bu kitabı professor Müseyib Məmmədov «dil mədəniyyətimizin bu sahədə olan boşluğunu doldurmaq üçün atılan mühüm bir addım» kimi qiymətləndirir.

Professor Nizami Xudiyevin ssenarisi əsasında çəkilmiş və Azərbaycanın tarixinə, keçmişinə, zəngin maddi-mənəvi sərvətlərinə, habelə görkəmli şəxsiyyətlərinə, ziyalılarına, alimlərinə həsr olunmuş sənədli filmlər də tamaşaçıların böyük diqqət və marağına, rəğbətinə səbəb olmuşdur. Həsən bəy Zərdabi, Məmməd Araz, Cavad Heyət, İsmayıl Şıxlı, Məmmədhüseyn Təhmasib, Lətif Hüseynzadə haqqında sənədli filmlər, həmçinin dörd hissəli «Türk dünyası. Qitədən-qitəyə», dörd hissəli «Türklər» filmləri yüksək məziyyətlərinə görə milli televiziyamızın qızıl fonduna daxil edilib. Alimin «Əbədiyyət ünvanı» adlı filmi Naxçıvan Muxtar Respublikasının 80 illiyinə həsr olunub. Bu film «Min illərin xatirəsi», «Heydər Əliyev və Naxçıvan» və «Yeni yüksəliş yollarında» adlı üç hissədən ibarətdir. Görkəmli alimlər, tanınmış jurnalist və publisistlər bütün bu filmlər haqqında müxtəlif mətbu orqanlarında geniş və maraqlı məqalələr çap etdirmiş, onları çox yüksək qiymətləndirmişlər.

Hərtərəfli fəaliyyəti, elmi yaradıcılığı ilə diqqət mərkəzində olan professor Nizami Xudiyev həm də ölkənin

ictimai-siyasi həyatında fəal iştirak edən ictimai xadim kimi tanınır. Müəllimlikdən rektorluğa qədər yüksələn Nizami Xudiyevin təcrübəsi, peşəkarlığı, qabiliyyəti, idarəçilik bacarığı universitet səviyyəsindən çıxıb respublika miqyasına sirayət etdikcə onun daha mötəbər məqamlarda yeri göründüyünü duyan xalq 1995-ci ildə və təkrarən 2000-ci ildə onu özünə elçi seçdi. O, iki dəfə dalbadal 2 saylı Şərur-Babək seçki dairəsindən, 3-cü dəfə 56 saylı Xaçmaz kənd seçki dairəsindən Milli Məclisə deputat seçildi və elə ictimai-siyasi fəaliyyətinin ilk dövrlərində də qanunvericilik sahəsində səriştəliliyini, dövlətçilik və vətəndaşlıq mövqeyini sübut etdi. Millət vəkili Nizami Xudiyev Milli Məclisdə dövlət quruculuğu, iqtisadi islahatlar, mədəniyyət və təhsil sahəsində qanun layihələrinin müzakirəsi zamanı tutarlı təklif və mülahizələri, işgüzar çıxışları ilə seçilir, fəal mövqeyi ilə yadda qalır. Təbii ki, Milli Məclisin üzvü olması Nizami Xudiyevin fəaliyyət imkanlarını daha da artırdı və qətiyyətli demək olar ki, o, bu gün ən fəal millət vəkillərindən biridir. Özünün və sözünün qiymətini bilən professor Nizami Xudiyev həmişə qanunların qəbul olunduğu həlledici məqamlarda obyektiv və qətiyyətli çıxışları ilə seçicilərin etimadını doğruldur.

Professor Nizami Xudiyev ölkəmizin ən nüfuzlu partiyası olan Yeni Azərbaycan Partiyasının sadiq və layiqli üzvlərindən, onun ali orqanlarında (İdarə Heyətinin üzvü) təmsil olunan partiyadaşlarından biridir. Və böyük bir məktəb – Heydər Əliyev məktəbi keçdiyini, bu məktəbə sadiq qaldığını dəfələrlə sözdə deyil, əməli işdə təsdiqləyir. Özünü Heydər Əliyev liderlik məktəbinin məzunu hesab edən Nizami Xudiyev bu barədə belə deyir: «Xalqımızın böyük lideri, əvəzolunmaz şəxsiyyət, nəhəng siyasətçi Heydər Əlirza oğlu Əliyevin müasiri olmaq səadəti mənə də nəsib olub. Ağlım kəsəndən

onun nümunəsi məni ahənrüba kimi özünə çəkib. Bu qüdrətli insanın ömür yolundan çox təsirlənmişəm. Onun ağlı, müdrikliyi, uzaqgörənliyi, fəaliyyəti, bütövlükdə həyatı hər kəs üçün nümunədir. Bu nümunədən görüb-götürməliyik, hər birimiz onun ibrətamiz həyat yolundan öyrənməliyik. Əlbəttə, onun müasiri olub, ondan öyrənməmək qeyri-mümkündür. Ondan öyrənməyin özü bir xoşbəxtlikdir. Mən bu gün fəxrlə deyirəm ki, Heydər Əliyev dövrünün yetirməsiyəm, onun zəmanəsinin övladıyam, onun liderlik məktəbində dərs almışam…»

Nizami Xudiyev dövlət, hökumət və parlament nümayəndə heyətinin tərkibində dəfələrlə xarici ölkələrdə respublikamızı təmsil etmişdir.

Bəli, elmdə, siyasətdə qazandığı uğurlar, mötəbər qurumda – Milli Məclisdəki fəaliyyəti, onun tribunasından ağıllı, cəsarətli, dərrakəli, məntiqli çıxışları, habelə dövlət, hökumət və parlament nümayəndə heyətlərinin tərkibində xarici ölkələrdə, nüfuzlu beynəlxalq təşkilatlarda Vətənimizi ləyaqətlə təmsil etməsi professor Nizami Xudiyevin hərtərəfli, çoxsahəli fəaliyyətindən xəbər verir.

Görkəmli alim BDU nəzdində filologiya üzrə elmlər namizədi və elmlər doktoru alimlik dərəcəsi almaq üçün dissertasiyaların müdafiəsini keçirən Təhsil Nazirliyi və Milli Elmlər Akademiyasının Birləşmiş İxtisaslaşmış Şurasının üzvü (1997), Azərbaycan Ziyalılar Cəmiyyəti İdarə Heyətinin (1998), Jurnalistlər Birliyinin (1998) və Yazıçılar Birliyinin (1999) üzvüdür.

Nizami Xudiyevin elmi-pedaqoji fəaliyyəti və yaradıcılıq uğurları bir sıra yüksək mükafatlara layiq görülüb: Ali Sovetin fəxri fərmanı (1981), «Araz» (1992), «Nailiyyət» (1995), «Akademik Yusif Məmmədəliyev adına medal və mükafat» (1996), «İnam» (1997), «Vətən» (1998), «Qızıl

qələm» (2001), «Abdulla Şaiq» (2001), «Həsən bəy Zərdabi» (2004), Azərbaycan Respublikası «Vektor» Beynəlxalq Elm Mərkəzinin «İlin ziyalısı» beynəlxalq diplomu (2004) və s.

Nizami Xudiyev Azərbaycan Respublikasının əməkdar elm xadimi, Lülfi Zadə adına Amerika Beynəlxalq Müasir Elmlər Akademiyasının həqiqi üzvü (2001) və Nyu-York Elmlər Akademiyasının həqiqi üzvüdür (2001). İngiltərənin Kembric Beynəlxalq Bioqrafiya İnstitutu Azərbaycan alimini yüksək elmi nailiyyətlərinə görə XX və XXI əsrlərin tanınmış iki min ziyalısı arasından seçərək 2001-ci il üçün «İlin beynəlxalq ziyalısı» etan etmiş və onu qızıl medala layiq görmüşdür. Eyni zamanda Kembric Beynəlxalq Bioqrafiya İnstitutu professor Nizami Xudiyevi 2002-ci ildə «XXI əsrin intellektualı» seçərək onu xüsusi medal və diplomla təltif etmiş, adı «XXI əsrin ən görkəmli ziyalısı» (ilk nəşr) kitabına daxil edilmişdir.

Nizami Xudiyey həmçinin elmi uğur və fəaliyyətinə görə Kembric Beynəlxalq Bioqrafiya İnstitutu baş direktorunun müavini vəzifəsinə (2002) seçilmişdir.

Görkəmli alim 2002-ci ildə Amerika Birləşmiş Ştatları Bioqrafiya İnstitutunun da üzvü seçilmiş və adı «XXI əsrin böyük ziyalıları» (ali nəşr) kitabına daxil edilmişdir.

Professor Nizami Xudiyev 2004-cü ildə Ankara şəhərində keçirilən Türk dili qurultayında «Türk dilinə xidmət» ödülü ilə mükafatlandırılmışdır. Həmçinin Amerikanın Dünya Ədəbiyyatı Akademiyasının «Humanitar və fəlsəfə elmləri üzrə Sokrat sədri» (2004) seçilmiş və Kembric Beynəlxalq Bioqrafiya İnstitutunun «Beynəlxalq şərəf ordeni» ilə (2004) təltif olunmuşdur.

O, dəfələrlə Maarif, Ali məktəb, Elmi İdarə İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin üzvü, Azərbaycan Həmkarlar İttifaqının XVI qurultayında gənclər arasında iş

komissiyasının sədri, Ümumittifaq Maarif, Ali Məktəb, Elmi İdarə İşçiləri Həmkarlar İttifaqının qurultaylarının, Azərbaycan müəllimi qurultaylarının, Dünya azərbaycanlılarının I və II qurultaylarının nümayəndəsi olmuşdur.

Bu sıranı Nizami Xudiyevin redaksiya heyətinin üzvü olduğu nüfuzlu qəzet və jurnalların adlarını sadalamaqla xeyli uzatmaq olar.

Bəli, müdriklər elm və insanı üz-üzə dayanaraq bir-birlərini əbədi əks etdirən parlaq güzgüyə bənzədirlər. Bu prizmadan yanaşsaq, hər bir alimin araşdırmaları, tədqiqatları, kitabları da bir aynadır və həmin aynada elm adamının intellekti, xarakteri və istedadı çox aydın əks olunur. Nizami Xudiyevin elmini, çoxşaxəli fəaliyyətini əks etdirən ayna isə çox parlaq və şəffafdır.

Professor Nizami Xudiyevin ləyaqətli ömür yolu gənc nəslə əsl örnək olası bir ömürdür. Onun bir xidməti də gənclərə diqqət və qayğı ilə yanaşmasıdır. O, harada işləməsindən asılı olmayaraq, gəncləri həmişə diqqətdə saxlayır, düzgün həyat yolu seçmələrində onlara yardımçı olur. Görkəmli alimin bugünkü gənclər haqqında fikri belədir: «Gənclik ömrün elə bir çağıdır ki, ondan səmərəli istifadə olunmasa, sabah üçün heç nə qazanmaq olmaz. Müdriklərin fikridir: «Gənclik ay işıqlı gecələr kimidir, ağıllı adamlar bu gecələri yatmazlar, həm də ona görə ki, cavanlıqda dözümü olan qocalıqda xoşbəxt olar». Gəncləri sabaha istiqamətləndirmək işində isə böyüklərdən çox şey asılıdır. Onlara qarşı tələbkar, amma həm də diqqətli, səmimi olmaq lazımdır. Bu gün çox yaxşı haldır ki, Azərbaycanın ləyaqətli, ağıllı, tərbiyəli gəncliyi var. Hər şeyi çox məsuliyyətlə dərk edən gənclərimiz az deyil. Belələrinə irəli getmək, özlərini təsdiq etmək üçün kömək etmək lazımdır. Onların yolunda yaşıl işıq yandırmaq gərəkdir. Hər alim çalışmalıdır ki,

özümdən sonra tələbəsi onun yolunu davam etdirsin. Hər bir müəllim elə etməlidir ki, ömrünü həsr etdiyi şagirdi sabah özünü doğrultsun. İndi elmi-texniki tərəqqi dövrüdür, inkişaf dövrüdür. Zamanla ayaqlaşmaq, zamanın nəbzini tutmaq lazımdır. Gənclərə sözüm budur ki, işdən qorxmasınlar, öyrənmək heç vaxt gec deyil. Keykavusun oğluna nəsihətlərindən biri belədir: «Bədənini elm və sənət kəsb etməyə öyrət. Bilmədiyin şeyi öyrənməyə çalış. Bunun sənə iki faydası ola bilər: ya bildiyin şeyi təcrübədən keçirmiş olarsan, ya bilmədiyin şeyi öyrənərsən». Bir də qoy gənclərimiz ana dilimizi sevsinlər, Vətənimizi sevsinlər, adət-ənənələrimizə, mənəvi dəyərlərimizə hörmət qoysunlar, tariximizi öyrənsinlər».

Vətənpərvər ziyalı, Azərbaycanımızın heç bir dərdinə, probleminə biganə qalmayan professor Nizami Xudiyev də bu gün torpaqlarımızın erməni tapdağında olmasından narahatdır, bu dərd bir vətəndaş kimi onun da qəlbini göynədir. İndi Qarabağla bağlı xatirələri onu xəyalən o yerlərə aparır. Alim hərbi xidmətini Xankəndində keçirib. Əsgərlikdə olarkən atasının onu görmək üçün Xankəndinə gəlməsi, onu Şuşaya aparması, birlikdə Cıdır düzünü gəzmələri onun üçün indi əlçatmaz, amma əziz xatirələrdir. O, həmin xatirələri həm də böyük ağrı ilə xatırlayır: «…Atam icazə alıb hərbi hissədən məni Şuşaya apardı. Amma bundan əvvəl həmişə məktublarında mənə yazırdı ki, Nizami, Qarabağ ulu mədəniyyətimizin qədim mərkəzlərindəndir, Şuşa bütöv bir tarix kitabıdır, Azərbaycan tarixinin qan yaddaşıdır, imkan olanda Şuşanı gəz, Gövhər ağa məscidinə, tarix-diyarşünaslıq muzeyinə, Bülbülün, Üzeyirin, Nəvvabın muzeylərinə get, Vaqifin məqbərəsini ziyarət elə, Xan qızı Natəvanın çəkdirdiyi bulağa bax, Şuşanın tarixini öyrən… İndi budur atamla, bir də onun vaxtilə institutda, Partiya məktəbində birgə oxuduğu

dostları ilə Cıdır düzünə qalxmışıq. O vaxt mən çox gənc idim. Amma onda gördüyüm Cıdır düzü indi də gözlərimin önündədir. Ucsuz-bucaqsız bu məkan qarşımızda gül-çiçək dənizi kimi dalğalanırdı. Göz işlədikcə uzanan hu cənnətməkan, Topxana meşəsinə enən yamacda dəli-dolu sıldırımlar, qayalıqlar köksündə qədim qəsrin divarları, dərənin dibində gümüş kəmərə bənzər çay… Atam isə orada da şakərindən qalmır, Şuşada, Cıdır düzündə hər şeyi bir-bir mənə göstərir, tarixini söyləyir, «Qarabağnamə»lərdən sitatlar gətirirdi: «Qarabağ ən qədim sivilizasiya ocağı olan Azıx mağarasının vətənidir. Azıx, Qarabağ kimindirsə, bütün Qafqaz da onundur» deyirdi… Çox təəssüf, indi bunları düşünə-düşünə tariximizi, keçmişimizi, itirdiklərimizi xatırlayıram. Bu gün Şuşa, Xocalı, Laçın, Ağdam, Cəbrayıl, Füzuli, Xocavənd, Kəlbəcər, Qubadlı, Zəngilan, Ağdərə, Xankəndi kimi cənnət guşələr düşmən caynağındadır… Amma heç şübhəsiz, belə qalmayacaq. Ermənilər törətdikləri hər bir cinayətə görə cavab verəcəklər. Tezliklə haqq qılınc kimi sıyrılacaq. Bağlı qapıların tilsimi açılacaq… Bunun üçün biz həm də gənclərimizin vətənpərvərlik ruhunu, milli ruhunu yüksəltməliyik…»

Görkəmli alim, ictimai xadim, professor Nizami Xudiyev həm də ləyaqətli ailə başçısıdır. Onun övladları bu gün cəmiyyətimizdə fəal mövqeyi ilə seçilən gənclərdir.

Alimin böyük qızı Aytən Azərbaycan Dövlət Tibb Universitetinin ginekologiya kafedrasının assistentidir.

Oğlu Nazim Bakı Şəhər Prokurorluğunda idarə prokuroru, hüquq elmləri namizədidir.

Kiçik qızı Günel Azərbaycan Dövlət Tibb Universitetini bitirib. Nizami rayon 7 saylı doğum evində həkimdir.

Alim altı nəvəsindən eşitdiyi «baba» kəlməsini ən sevimli söz hesab etdiyini də söyləyir. Övladları haqqında fikri isə

belədir: «Rəhmətlik atam həmişə Məhəmməd Peyğəmbərimizin bir kəlamını sitat gətirərdi: «Atanın övladlarına öyrətdiyi ən yaxşı şey ədəbdir». Mən atamın bu tövsiyəsini övladlarımın tərbiyəsində əsas götürmüşəm. İndi həqiqətən görürəm ki, övlad üçün tərbiyədən yaxşı miras yoxdur. Xoşbəxtəm ki, övladlarım mənim etimadımı doğruldurlar…»

Nizami Xudiyev «Boş vaxtınızda nə ilə məşğul olursunuz? Hobbiniz nədir?» sualına belə cavab verir: «Alimin boş vaxtı olmaz… Təbii ki, boş vaxtım çox az olur. Milli Məclisin iclasları, alim kimi oxuduğum mühazirələr, tədqiqat işlərim, araşdırmalarım məndən gərgin iş rejimi və vaxta qənaət etməyimi tələb edir. Vaxt da ki, balıq kimi adamın əlindən elə sürüşüb düşür ki, heç xəbərin olmur. Atalar, doğrudan da, gözəl deyiblər ki, vaxt qızıldır. Amma sözsüz ki, çox sevdiyim məşğuliyyətlərə də vaxt tapa bilirəm. Dövrü mətbuatı, demək olar ki, hər gün vərəqləyirəm. Əlimə fürsət düşən kimi bədii ədəbiyyat oxuyuram. Təbiətin qoynumda olmağı çox sevirəm. Anamla söhbətləşməkdən, bir də nəvələrimlə əylənməkdən zövq alıram. Xalq musiqimizin, muğamlarımızın vurğunuyam. Hərdən klassik musiqini də dinləyirəm. Əlimdə imkanım olsa, tez-tez dədə-baba yurduma – Şahbuza gedərəm. Amma təbii ki, vaxtla, imkanla arzum üst-üstə düşmür. Buna baxmayaraq, ildə bir dəfə, atamın ildönümlərində ailəliklə Şahbuza gedirik. Ata-baba yurdumu, atamın məzarını ziyarət edirəm. Övladlarımı o müqəddəs yerlərlə bir daha tanış edirəm. Əslində, onların da uşaqlığı Şahbuzda keçib. Hər dəfə doğma el-oba ilə «görüş»dən sonra sanki yenidən doğuluram…».

Görkəmli alim gələcək planları haqqında danışmağı xoşlamır: «Elə hər gün gördüyüm işlər sabah üçündür. Planlarım haqqında danışmağı ona görə sevmirəm ki, onlar

bir növ vəd verməkdir. Vəd vermək əvəzinə isə iş görmək daha gərəklidir. Mən hazır işimi təqdim etməyi xoşlayıram».

Bəli, bu gün Azərbaycanda diqqəti cəlb edən elm adamlarından, maraqlı şəxsiyyətlərdən biri olan tanınmış türkoloq, dilçi-alim, professor Nizami Xudiyev hər gün öz uğurlarının sırasını artırır. Yeni-yeni tədqiqatları ilə elmimizə töhfələr verir, yeni-yeni kitabları ilə təhsilimizi genişləndirir. Alim öz həyat kredosuna, amallarına hər zaman sadiqdir. O, aşıb-daşan, tükənmək bilməyən enerji ilə yenə də elmi araşdırmalarını davanı etdirir, istirahətindən, dincliyindən kəsib öz işini məsuliyyətlə yerinə yetirir. Atası Mənaf müəllimin məsləhəti, tövsiyəsi isə həmişə qulaqlarındadır: «Elm elə bir sərvətdir ki, biçildikcə daha bol məhsul verər».

Alimin uğurlarının bir səbəbi isə seçdiyi yola inamıdır. Bu inamı ona verən isə zəhmətkeşliyi, əməksevərliyi, məsuliyyətidir.

İnanırıq ki, yüksək intellekti və təşkilatçılıq bacarığı, iti ağlı, işıqlı zəkası, dərin düşüncəsi, gözəl nitq mədəniyyəti, alovlu vətənpərvərliyi ilə cəmiyyətdə böyük nüfuz qazanan, Azərbaycan dilçilik elminə, türkologiyaya, təhsilimizə zaman keçsə də öz dəyərini itirməyəcək sanballı töhfələr verən professor Nizami Xudiyevin daha parlaq işləri hələ qabaqdadır.

Görkəmli alimə cansağlığı, hərtərəfli, çoxşaxəli fəaliyyətində böyük uğurlar arzu edirik.

«İlin ziyalısı» kitabı.
«Vektor» nəşrlər evi,
2006, səh. 43-80

MÜƏLLİFDƏN

Oxuculara təqdim olunan bu kitab 2004-cü ildə «Azərnəşr» tərəfindən çap olunmuş «Zamanın axarı ilə» kitabının II cildidir. Sisteminə, quruluşuna və tədqiqat obyektinə görə I cildin davamıdır. Ona görə I cilddəki «Oxuculara» hissəsini II cildə də daxil etmək qərarına gəldim.

Tale elə gətirib ki, gözümü açandan həmişə elmi-yaradıcı mühitdə olmuşam. İnsana mənəvi cəhətdən çox şey verən bu mühitə doğru açılan cığırı, atılan ilk addımları adam heç vaxt yaddaşından çıxara bilmir. Tələbə elmi cəmiyyətindəki ilk araşdırma, geniş toplantıda ilk məruzə, qəzetdə çıxan ilk məqalə, görkəmli yazıçılarla keçirilən görüşdə ilk həyəcanlı çıxış məhz insanı elm və yaradıcılıq dünyasına aparan addımlardandır. Bütün bunlar barədə onu görə söz açıram ki, «Zamanın axarı ilə» kitabının I cildinə daxil etdiyim materialların arasında ilk qələm təcrübələrim – ədəbi dil tarixi, türkologiya, yazıçı dili, bədii dil problemləri və s. mövzularda yazılarım da var. Əslində kitabda yer alan məqalə, elmi araşdırma və müsahibələrin çoxu məhz bu mövzulardadır. Sadəcə olaraq müxtəlif mətbuat orqanlarında çap edilmiş yazılarımın bir hissəsini bu kitabda cəmləşdirməklə xalqımızın tarixi, ədəbi dilimiz və mənəvi dəyərlərimizlə bağlı bu gün gedən prosesləri oxucuların daha ardıcıl izləməsinə kömək etmək məqsədini qarşıya qoymuşam.

Müxtəlif vaxtlarda qələmə alınmış ayrı-ayrı materialları gözdən keçirərkən bir daha bu qənaətə gəldim ki, hər bir yazı öz dövrünün ruhunu, düşüncə tərzini, həmin dövrün

təfəkkürünü əks etdirir. Ona görə də yazılan toplayarkən onlara əl gəzdirməyi, yenidən işləməyi, hətta müəyyən cəhətdən bu günlə səsləşməyən nüansları ixtisar etməyi məqbul saymadım. Ona görə də kitaba daxil edilmiş bu yazıların hər birinə öz dövrünün ab-havası çöküb.

Tarix təkcə hadisələrin müəyyən xronologiya üzrə düzülməsi deyil, həm də bu hadisələrin ruhunun, mahiyyətinin açılması, insanların həmin dövrü öz duyğu və düşüncələrindən keçirərək yaşamasıdır. Bu yaşantılar isə təkcə bədii əsərlərdə yox, həm də publisistikada özünü göstərir. Bu mənada bizim hər birimiz tarixin adi günlərini yaşayır və dövrümüzün ruhunu, həyatımızın nəbzini həm də qəzetlərdən, publisistik materiallardan duymağa çalışırıq. Axı heç bir vətəndaş, ilk növbədə isə ziyalı cəmiyyətdə yaşayıb, onun qayğılarından, problemlərindən kənarda qala bilməz. O, mütləq bu problemlərə münasibətini bildirir. Vaxtaşırı dil, ədəbiyyat, incəsənət, mədəniyyət problemləri ilə bağlı mətbuatda dərc etdirdiyim çoxsaylı məqalə və müsahibələr də mənim öz axarı ilə gedən hadisələrə münasibətimdir. Uzun müddət çalışdığım təhsil ocaqlarında görkəmli yazıçılar və alimlərlə ünsiyyətdə olmuş, onların bəziləri haqqında xatirə-məqalələr çap etdirmişəm. Bundan başqa, Azərbaycanın bir sıra görkəmli elm adamları, Rusiyanın, İranın, Türkiyənin mədəniyyət xadimləri ilə görüşlərim, bir sıra qəzet, jurnal əməkdaşları ilə, alimlərlə müsahibələrim də olub. Bütün bunlar əksəriyyət etibarilə mətbuatda öz izini saxlayır. Çünki həqiqətən, bizim dövrümüzdə problemləri publisistik materialların vasitəsilə aşkarlamaq və xalqın ictimai şüuruna bu yolla nüfuz etməkdən təsirli vasitə yoxdur…

«Zamanın axarı ilə» kitabının II cildinə isə son dövrlər qələmə aldığım elmi-publisistik məqalələrim, müxtəlif qəzetlərdə çap olunmuş müsahibələrim, bir sıra elmi əsərlərə

verdiyim rəylər, Milli Məclisdə etdiyim bəzi çıxışlar, televiziya filmlərinə yazdığım ssenarilər daxil edilmişdir.

Biz bu yazıları tarixi xronologiyaya görə deyil, mövzulara görə qruplaşdırmağa üstünlük vermişik. Buna baxmayaraq, kitabda verilmiş materiallar toplusuna, müəyyən mənada, həm də son dövr tariximizin kiçik bir salnaməsi kimi baxırıq.

Əziz oxucu! Belə hesab edirəm ki, «Zamanın axarı ilə» kitablarının həm I, həm də II cildləri hansı mövzuya toxunmasından asılı olmayaraq, öz dövrünün məhsuludur. Deməli, bu kitabları vərəqləməklə biz həm dünənimizə bağlanacaq, həm də sabahımız haqqında düşünə biləcəyik.

MƏQALƏLƏR, MÜSAHİBƏLƏR

MÜASİR AZƏRBAYCANIN QURUCUSU

«Həyat çox və yaxud az yaşamaqdan ibarət deyil. Onun mənası bu həyatda öz yerini tutmaq, mövqeyini müəyyən etmək, ləyaqət göstərmək və başqaları üçün nümunə olmaqdır».

Heydər Əliyev

Sorağı tarixin dərinliklərindən gələn ən qədim yurd yerlərindən biri Azərbaycan, ən ulu xalqlardan biri Azərbaycan xalqıdır. Böyük xalq, böyük millət – sayının çoxluğunda yox, soykökünün qədimliyində, mənəvi dəyərlərinin zənginliyində, bəşəriyyətə bəxş etdiyi tarixi şəxsiyyətlərinin olmasındadır.

Təbii ki, bir ölkəni nefti, pambığı ilə yox, böyük alimləri, şəxsiyyətləri, liderləri, sərkərdələri ilə tanıyarlar. O insanlarla ki, onlar təkcə mənsub olduqları xalqın, millətin deyil, bütün bəşəriyyətin taleyində müəyyən rol oynaya, tarixdə iz qoya bilirlər.

Heydər Əliyev xalqımızın dünya tarixinə bəxş etdiyi elə qüdrətli dövlət xadimlərindəndir ki, insanlar, yeniləşən nəsillər zaman-zaman onun ömür yoluna müraciət edəcək, zəngin irsini araşdıracaq, təhlil edəcək, öyrənəcək, liderlik məktəbindən dərs alacaqlar. Və hər dəfə də bu dahinin zamana belə qalib gələn ideyaları və əməlləri qarşısında heyrətlərini gizlədə bilməyəcəklər. Onun haqqında söz deməkdən böyük fəxarət duyacaqlar. Amma unutmaq olmaz ki, siyasət dünyasının bu nəhəngi haqqında deyilən hər bir söz, yazılan hər bir kəlam elə bu böyüklüyə layiq olmalıdır.

Xilaskar və xilaskarlıq missiyası

HEYDƏR ƏLİYEV – ölkəmizə 35 illik rəhbərliyi dövründə Azərbaycanı, Vətənimizi, xalqımızı bütün dünyaya tanıdan, özü isə insanlığın zirvəsinə ucalan, dünyanın ən nəhəng siyasətçiləri sırasında dayanan BÖYÜK AZƏRBAYCANLI.

Azərbaycana əbədi müstəqillik bəxş edən, dövlətçiliyimizi bütün təhlükələrdən xilas edən DAHİ İNSAN.

Azərbaycançılıq ideyasının, azərbaycançılıq fəlsəfəsinin, azərbaycançılıq məfkurəsinin müəllifi və böyük carçısı, müasir Azərbaycanın memarı və qurucusu…

İllər, əsrlər keçəcək, nəsillər dəyişəcək, amma bütün zamanlarda, bütün dövrlərdə Heydər Əliyevə hansı prizmadan baxırsansa-bax, O, həmişə ən uca zirvədə olacaq. O öz xalqının yaddaşında artıq çoxdan ÜMUMMİLLİ LİDER kimi əbədilik qazanıb… O, Tanrı elçisi idi. İnsanlığa xidmət etmək üçün yerə göndərilmiş xarizmatik bir qüvvə idi. Azərbaycana isə xilaskar kimi gəlmişdi. Azərbaycanı bütün təhlükələrdən qorumağa, qurub-yaratmağa, xalqımızın səsini bütün dünyaya yaymağa gəlmişdi. Gəldi və öz xilaskarlıq missiyasını ləyaqətlə, şərəflə, böyük qətiyyətlə, heyrət ediləcək məharətlə, yüksək səviyyədə yerinə yetirdi, xalqın sabaha inamını bərpa etdi, milləti öz taleyüklü problemlərinin həlli yönündə fədakarlığa ruhlandırdı, dövlət qarşısında duran vəzifələrin uğurla həyata keçirilməsinə möhkəm zəmin yaratdı və yenidən göylərə ucaldı. Ucaldı və indi də göylərdə qərar tutmuş sönməz Günəş kimi öz parlaq şüalarını Azərbaycana səpələyir…

Ulu öndər Heydər Əliyevin Vətənimiz və xalqımız

qarşısında tarixi xidmətləri o qədər çox, o qədər böyükdür ki, onların hamısından bir məqalədə danışmaq mümkünsüzdür. Amma birbaşa müstəqilliyimizlə bağlı bir məqamı xatırlatmağı da özümə borc bilirəm. 1990-cı il noyabrın 17-də Heydər Əliyevin sədrliyi ilə Naxçıvan Sovet Sosialist Respublikası Ali Sovetinin yeni tərkibdə ilk sessiyası keçirildi. Həmin toplantıda sonradan nəinki təkcə Azərbaycanın, bütün SSRİ-nin taleyində mühüm rol oynayacaq bir hadisə baş verdi. Sessiya Heydər Əliyevin təşəbbüsü və qətiyyəti ilə Naxçıvan MSSR-in adından «Sovet Sosialist» sözlərinin birdəfəlik çıxarılması, Naxçıvan MSSR Ali Sovetinin adının dəyişdirilərək «Naxçıvan Muxtar Respublikası Ali Məclisi» adlandırılması, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli, aypara və səkkizguşəli ulduz nişanlı bayrağının dövlət bayrağı kimi qəbul edilməsi və bu barədə Azərbaycan SSR Ali Soveti qarşısında qanunvericilik təşəbbüsü qaydasında vəsatət qaldırılması haqqında tarixi qərarlar qəbul etdi. Bu sessiyadan 4 gün sonra – noyabrın 21-də yenə də Heydər Əliyevin təşəbbüsü ilə «1990-cı ilin yanvar ayında Bakıda baş vermiş hadisələrə siyasi qiymət verilməsi haqqında» qərar qəbul edən Naxçıvan Muxtar Respublikası Ali Məclisi SSRİ rəhbərliyini, Qorbaçov klanını ilk dəfə açıq şəkildə «cinayətkar» adlandırdı. Heydər Əliyevin bu fəaliyyətinin ölkədəki ictimai-siyasi proseslərə oyadıcı təsir göstərməsi faktını görmək o qədər də çətin deyil. Azərbaycan SSR Ali Sovetinin 1991-ci il fevralın 5-də açılmış sessiyası elə həmin gün «Azərbaycan SSR» ifadəsindən imtina edərək dövlətimizin «Azərbaycan Respublikası» adlandırılması barədə qərar çıxardı. Həmçinin üçrəngli bayrağımız 71 ildən sonra yenidən dövlət bayrağımız, dövlət simvolumuz kimi təsdiqləndi. Dünya siyasətinin korifeylərindən olan Heydər Əliyev deyirdi: «Azərbaycanın istiqlaliyyətinin bəyan

edilməsi ölkəmizin tarixində çox böyük əhəmiyyətə malik hadisədir». Bu, son dərəcə müdrikliklə deyilmiş tezis özündə mütləq həqiqəti əks etdirir. Amma o mütləq həqiqət bir tarixi həqiqətə söykənir: sözdə müstəqilliyin gerçək müstəqilliyə çevrilməsində Heydər Əliyevin misilsiz xidmətləri, böyük tarixi rolu danılmazdır. Çünki məhz bu lider sonrakı mərhələlərdə Azərbaycanın müstəqilliyini möhkəmləndirdi və dönməz etdi.

İndi isə bir anlığa 1993-cü ilin həyəcanlı iyun hadisələrini yada salaq. O zaman dünyanın reallıqlara əsaslanın ən ciddi siyasi institutlarında, cəmiyyət problemlərini öyrənən təsisatlarında belə bir fikir formalaşmışdı ki, Azərbaycanı yalnız möcüzə xilas edə bilər. Amma Azərbaycanı möcüzə deyil, müdrik bir şəxsiyyət, dahi bir insan, qüdrətli bir rəhbər – Heydər Əliyev xilas etdi…

1988-1993-cü illərdə bir neçə dəfə Azərbaycanda olmuş bir fransız sosioloqu yazırdı: «Azərbaycan ya möcüzəyə çevriləcək, ya da məhv olacaq. Əgər həqiqi rəhbərini tapsa, XXI əsrin möcüzəsi sayılacaq, hakimiyyətə təsadüfi adamlar gəlsə, Azərbaycan məhvə gedəcək».

Azərbaycanın xoşbəxtliyi onda oldu ki, o, əsl möcüzəyə çevrildi, o, əsl rəhbərini tapdı. Xalqımızın müdrikliyi isə bir də onda oldu ki, o, təsadüfi adamı deyil, Heydər Əliyevi seçdi. Təkidli tələbləri ilə onu yenidən hakimiyyətə gətirdi.

Yəqin orta yaşlı insanların yaxşı xatirindədir: 1988-ci ildən 1993-cü ilin yayına kimi Azərbaycan özünün faciəli dövrünü yaşadı. Bu müddət ərzində dörd dəfə hakimiyyət dəyişikliyi baş verdi. Məhz hakimiyyətə gəlmiş təsadüfi adamlar ölkəni labüd məhvə aparırdı. Xalqın inamı qırılmış, ziyalılara qarşı əsl repressiya başlamış, elm, təhsil, səhiyyə, iqtisadiyyat, mədəniyyət bərbad vəziyyətə salınmışdı. Vətəndaş müharibəsi paytaxt Bakının bir neçə kilometrliyində

idi. Qanunsuz silahlı dəstələr əhalini qorxu içərisində saxlayırdı. Ölkə acınacaqlı vəziyyətdə idi. Xalq onu bu vəziyyətdən qurtara biləcək yeganə şəxs kimi görkəmli dövlət xadimi Heydər Əliyevi görürdü və təkidlə onu tələb edirdi. Heydər Əliyev Azərbaycanı məhz belə bir vəziyyətdə qəbul etdi və Eduard Şevardnadzenin təbirincə desək, öz ölkəsini həyatı bahasına xilas etdi…

Beləliklə, 1993-cü ildə Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəldi, Azərbaycanı dağılmaqdan və milli fəlakətdən, beynəlxalq aləmdə təklənməkdən xilas etdi. 1994-cü ilin may ayında atəşkəs imzalandı. Azərbaycanda silahlı müxalifət ənənələrinə qətiyyətlə son qoyan ulu öndər cəmiyyətin inkişafını dinc, demokratik yola istiqamətləndirdi, bununla da Azərbaycan xalqını tarix səhnəsindən silinmək kimi acı bir aqibətdən qorumağa, dövlətçiliyi hifz etməyə müvəffəq oldu. Ən əsası, Heydər Əliyev milli qururumuzu özümüzə qaytardı: xalqın millət, Torpaq, Vətən və Bayraq sevgisini bərpa etdi. «Mən həmişə fəxr etmişəm, indi də fəxr edirəm ki, Azərbaycanlıyam!..» deyə bizə Azərbaycanı məhz onun kimi sevməyi öyrətdi.

Bu dahi şəxsiyyətin rəhbərliyi ilə cəmiyyət həyatının bütün sahələrində gedən köklü islahatlar Azərbaycanın simasını dəyişdirdi.

Bəli, 35 illik dövrü – Heydər Əliyevin böyük fəaliyyəti, müstəqilliyimizin, dövlətçiliyimizin qorunması, iqtisadiyyatımızın

dünya iqtisadiyyatına inteqrasiya dövrü

kimi səciyyələndirmək olar…

Danılmaz faktdır ki, bugünkü Azərbaycan reallıqları, ölkəmizin hərtərəfli inkişafı, iqtisadiyyatımızın yüksəlişi

böyük öndər Heydər Əliyevin qoyduğu bünövrənin üstündə ucalır. Bəli, Azərbaycan iqtisadiyyatının mürəkkəb və keşməkeşli mərhələlərini uğurlu yüksəliş yollarına çıxaran məhz ulu öndər Heydər Əliyev olub.

İqtisadiyyatımızın keçdiyi yolu dərindən, ətraflı təhlil etsək, onun bu sahədə gördüyü titanik işlərin şahidi olaraq. XX əsrin 60-cı illərində iqtisadiyyatımızın vəziyyəti və sonrakı mərhələlər, yüksələn templə gedən inkişaf – bütün bunlar Heydər Əliyevin Azərbaycan iqtisadiyyatını dirçəltmək, inkişaf etdirmək üçün gördüyü möhtəşəm işlərə parlaq işıq salır.

Əlbəttə, mən iqtisadçı deyiləm, amma Heydər Əliyevin Azərbaycan iqtisadiyyatındakı misilsiz xidmətlərini görmək, dərk etmək, qavramaq üçün heç də iqtisadçı olmaq vacib deyil. «İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir» deyən bu müdrik insanın Azərbaycan iqtisadiyyatındakı silinməz, pozulmaz izləri Vətənimizin hər yerində var və bunu danmaq qeyri-mümkündür. Bu xidmətin bəhrəsi olan «qiymətli abidələr» indi daha aydın və qabarıq görünür. Və Heydər Əliyevin Azərbaycanda həyata keçirdiyi iqtisadi islahatlar zaman keçdikcə xalq tərəfindən daha çox qiymətləndirilir…

Heydər Əliyevin istər 1969-1982, istərsə də 1993-2003-cü illərdəki fəaliyyəti Azərbaycanın tərəqqisinə, Azərbaycan xalqının maraqlarına xidmət edirdi. Bu məqamda möhtərəm Prezidentimiz İlham Əliyevin Yeni Azərbaycan Partiyasının III qurultayındakı nitqində söylədiyi fikir çox yerinə düşür: «Heydər Əliyev ictimai-siyasi quruluşundan asılı olmayaraq, sözün əsl mənasında, bütün dövrlərdə Azərbaycan xalqının lideri idi. 1970-1982-ci illərdə ölkəyə rəhbərlik etdiyi dövr ərzində onun tərəfindən görülmüş işlər Azərbaycan xalqının maraqlarına xidmət edirdi. Məhz onun fəaliyyəti nəticəsində

Azərbaycana mərkəzi fondlardan böyük həcmdə vəsait gətirilirdi. Yeni zavodlar, fabriklər tikilirdi. İndi bu zavodlar və fabriklər Azərbaycanın iqtisadi və sənaye potensialına böyük dəstəkdir. Əgər o illərdə Azərbaycanda iri sənaye infrastrukturu yaranmasaydı, xüsusilə neft sahəsində, neft emalı sahəsində nəhəng qurğular tikilməsəydi, bu gün Azərbaycanın iqtisadi potensialı o qədər də güclü ola bilməzdi. Yəni demək istəyirəm ki, ictimai-siyasi quruluşundan asılı olmayaraq, bütün zamanlarda Heydər Əliyevin liderlik keyfiyyətləri, xalqa, millətə bağlılığı ölkəmiz üçün, böyük işlər görmək üçün gözəl şərait yaratmışdır. Amma təbii ki, Azərbaycanın ən ağır dövrü olan müstəqilliyimizin ilk illərində Heydər Əliyevin fəaliyyəti həlledici idi.

Bəli, Heydər Əliyev Azərbaycanın milli iqtisadiyyatını inkişaf etdirməyi qarşısına məqsəd qoydu və buna nail oldu. Bütün bunları əsaslı faktlarla, arqumentlərlə, tutarlı dəlillərlə əsaslandırmaq mümkündür. Heydər Əliyevin əsərlərində, məruzə və çıxışlarında da iqtisadiyyat həmişə sosial-siyasi, sosial-mənəvi və sosial-mədəni amillərlə üzvi surətdə verilirdi. Onun müdrikliyi, uzaqgörənliyi, həm də bu amildə idi. Daha bir misal. «Bakı-Tbilisi-Ceyhan» neft-boru kəmərinin əfsanədən reallığa çevrilməsi məhz Heydər Əliyev dühasının, Heydər Əliyev əməyinin bəhrəsidir.

Heydər Əliyev və azərbaycançılıq fəlsəfəsi

«Dünya azərbaycanlılarının Azərbaycana bağlanması, Azərbaycanla yaşaması üçün mənəvi əsas ola biləcək bir ideya var – bu, azərbaycançılıqdır. Biz azərbaycanlılar bu ideyanı yaratmışıq, biz də yaşatmalıyıq, inkişaf etdirməliyik, onun əsasında da birləşməliyik. Azərbaycançılıq öz milli

mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərə inteqrasiyasına nail olmaq deməkdir. Biz dünyaya inteqrasiya ediriksə, deməli, bizim mənəvi dəyərlərimiz də ümumbəşəri dəyərlərə inteqrasiya etməlidir. Amma insan hansı ölkədə yaşamasından asılı olmayaraq, gərək öz milliliyini, milli mənsubiyyətini qoruyub saxlamağı bacarsın». – Bu fikrin müəllifi olan ulu öndər Heydər Əliyevin bir tarixi xidməti də o idi ki, o, azərbaycançılıq ənənəsinin, azərbaycanlıların güclü diasporunun yaranmasının təməlini qoydu…

1991 -ci ildə hələ Naxçıvanda Ali Məclisin sədri olarkən Heydər Əliyev dekabr ayının 31-ni Dünya azərbaycanlılarının Həmrəylik günü elan etdi və diqqəti bu məsələyə yönəltdi ki, Azərbaycan diasporunun təşkilatlanması, dünyanın ayrı-ayrı ölkələrinə səpələnmiş həmvətənlərimizin haqlarını qoruya biləcək, Vətənə dünya səviyyəsində dəstək verə biləcək bir qüvvəyə çevrilməsi müstəqil Azərbaycanın qarşısında duran ən mühüm vəzifələrdən biri və birincisidir. Bu müdrik insan dönə-dönə qeyd edirdi ki, Azərbaycan diasporu müstəqil dövlətimizin iqtisadi və siyasi maraqlarının həyata keçirilməsi, ən ağrılı problemimiz olan Dağlıq Qarabağ probleminin Azərbaycanın ərazi bütövlüyünün qorunması şərtilə həll edilməsi istiqamətində fəaliyyət göstərən güclü lobbiyə çevrilməlidir. Ümummilli liderin: «Suverenliyimizi daim yaşatmaq, dövlət müstəqilliyimizi əbədi etmək üçün harada yaşamasından asılı olmayaraq, bu gün hər bir azərbaycanlıdan müqəddəs Azərbaycan qayəsi ətrafında əməl və əqidə birliyi, sarsılmaz həmrəylik tələb olunur» fikri indi hər birimizin devizi olmalıdır.

Beləliklə, 31 dekabr müxtəlif ölkələrdə yaşayan həmvətənlərimiz arasında ideoloji bütövləşmənin təməlini

qoydu. O artıq milli bayramımıza çevrilib və xalqımızın çoxəsrlik tarixində ən mühüm hadisələrdən biri kimi əhəmiyyətlidir.

2001-ci il mayın 23-də milli həmrəylik, birlik istiqamətində daha bir addım atıldı. Heydər Əliyev Dünya azərbaycanlılarının I qurultayının keçirilməsi haqqında fərman imzaladı. Elə həmin il noyabrın 9-10-da Bakıda keçirilən qurultay ayrı-ayrı ölkələrdə azərbaycanlı icmalarının mütəşəkkilliyinin və fəallığının artmasına əsaslı təsir göstərdi. Bu qurultay uzun illərdən bəri həsrətində olduğumuz milli birliyin yaradılmasının, bu birliyin ana xəttini müəyyənləşdirən azərbaycançılıq ideyasının formalaşmasının başlanğıc nöqtəsi idi. Bu mötəbər toplantı azərbaycanlıların milli hiss və təfəkkürlərinin oyanışı, daha da qüdrətlənməsi və azərbaycançılıq məfkurəsinin möhkəmlənməsində mühüm rol oynadı. Təbii ki, Yer üzünə səpələnmiş 50 milyonluq azərbaycanlını bir araya gətirmək, icma liderlərini yığıb belə bir möhtəşəm qurultay keçirmək böyük hadisə idi. Bu, ölkənin ictimai-siyasi həyatında yeni bir hərəkat, dövlət siyasətinin yeni bir istiqaməti idi. Qurultayda ulu öndər Heydər Əliyev parlaq nitq söylədi. Həmin nitqin hər parçasında, hər cümləsində, hər kəlməsində bu böyük insanın Vətənə, xalqına bağlılığı, Azərbaycan sevgisi parlaq əks olunur: «Əgər sən azərbaycanlısansa, bilməlisən: Dünya azərbaycanlılarının bir müstəqil dövləti var – Azərbaycan. Dünya azərbaycanlılarının bir tarixi Vətəni var – Azərbaycan. Dünya azərbaycanlıları tarixi Vətənlərini, müstəqil dövlətlərini. müqəddəs hesab etməli, onun ətrafında birləşməlidirlər…»

Çox sevindirici haldır ki, ulu öndərin azərbaycançılıq fəlsəfəsi artıq əbədiyaşarlıq haqqı qazanıb. Onun bu fəlsəfəsi də bütün sahələri əhatə edən digər ideyaları kimi gənc və möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən qətiyyətlə

davam etdirilir.

Prezident İlham Əliyev bu il martın 16-da Bakıda «Dünya azərbaycanlılarının II qurultayının keçirilməsi haqqında» 8 fevral 2006-cı il tarixli sərəncam imzaladı. Heç şübhəsiz, xaricdə yaşayan azərbaycanlıların diaspordan lobbiyə çevrilməsi istiqamətində bu yeni addım Azərbaycanın tarixində mühüm bir hadisə olacaq, ölkəmizlə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında da əhəmiyyətli rol oynayacaq.

Yeri gəlmişkən, bir məqamı da xüsusi qeyd etmək istəyirəm. 2004-cü ilin may ayından fəaliyyətə başlayan Heydər Əliyev Fondunun da əsas məqsədlərindən biri ulu öndər tərəfindən yaradılmış azərbaycançılıq fəlsəfəsini, azərbaycançılıq ideyasını təbliğ etmək və gələcək nəsillərə çatdırmaqdır. Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun rəhbəri, millət vəkili, Azərbaycanın birinci xanımı, sözün həqiqi mənasında, ləyaqətli Azərbaycan qadınının simvoluna çevrilən Mehriban xanım Əliyevanın təşkilatçılıq məharəti sayəsində həyata keçirilən humanitar proqramlar indi nəinki ölkəmizdə, bütün dünyada alqışlanır. Azərbaycan təhsilinə, Azərbaycan mədəniyyətinə, Azərbaycan musiqisinə, muğamlarına, milli-mənəvi dəyərlərimizə diqqət və qayğı – bütün bunlar Mehriban Əliyevanın azərbaycançılıq məfkurəsinə, azərbaycançılıq amalına misilsiz töhfələridir.

Bəli, bu gün müstəqil Azərbaycan Respublikası dünyanın hər bir guşəsindən səsi gələn azərbaycanlılar üçün cazibə mərkəzidir. Və azərbaycanlıların həmrəyliyinin gücünü, qüvvəsini artırmaq, gücləndirmək üçün indi daha böyük imkanlar yaranmışdır. Prezident İlham Əliyev bu imkanların yaradıcısı, təşkilatçısı, ilhamvericisi və dayağıdır…

Yeni Azərbaycan Partiyasının III qurultayı və layiqli davamçı

14 il əvvəl Heydər Əliyevin təşəbbüsü, rəhbərliyi ilə yaradılmış, milli dövlətçilik ənənələrinin formalaşmasında, bir çox taleyüklü problemlərin həllində mühüm rol oynayan və mənim də bir ziyalı kimi üzvlük biletini şərəflə, qürurla gəzdirdiyim Yeni Azərbaycan Partiyası Heydər Əliyevin ən dəyərli əsərlərindən biridir.

Artıq partiya böyük inkişaf yolu keçib, ölkənin ən aparıcı siyasi qüvvəsinə çevrilib. Əgər 1992-ci il noyabrın 21-də Yeni Azərbaycan Partiyasının təsis konfransı 550 nəfər nümayəndənin iştirakı ilə keçirilmişdisə, bu gün onun sıralarında 400 minə yaxın siyasi həmfikir birləşir. Bu sırada gənclərin çoxluq təşkil etməsi isə daha sevindirici faktdır.

14 il əvvəl partiyanın konfransında qəbul olunmuş bəyanatda deyilirdi: «Yeni Azərbaycan Partiyasının başlıca proqram və məqsədi dövlət müstəqilliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyü, sivilizasiyalı demokratik, hüquqi dövlətin yaradılması, möhkəm əmin-amanlıq və ictimai həmrəylik, sabit və sosial istiqamətli iqtisadiyyat yaratmaq, irqindən, milliyyətindən, dinindən və dilindən asılı olmayaraq, şəxsiyyətin hüquq və azadlıqlarının hərtərəfli inkişafı və etibarlı müdafiəsini təmin etmək məqsədilə geniş demokratik islahatların həyata keçirilməsi uğrunda mübarizə aparmaqdan ibarətdir».

Yeni Azərbaycan Partiyası Azərbaycanın çətin dövründə yarandı, cəmiyyət ümid yerini Heydər Əliyevin ətrafında sıx birləşməkdə görürdü. Bu zərurəti ulu öndər belə qiymətləndirmişdi: «Yeni Azərbaycan Partiyası o vaxtkı

mövcud vəziyyətdə bütün Azərbaycan xalqının mənafelərinə xidmət etmək və xalqın o ağır dövründə ölkəmizin qarşısında duran məsələləri həll etmək üçün zamanın tələblərinə uyğun olaraq zərurətdən yaranmış bir partiyadır».

Yeni Azərbaycan Partiyası Azərbaycan dövlətçiliyinin, onun müstəqilliyinin, bu gününün və sabahının qarantı oldu. Onun bir missiyası vardı: o yeni və qüdrətli bir Azərbaycan qurmalı idi.

Aradan keçən illər isə partiyanın öz prinsiplərinə nə qədər sədaqətli olduğunu dəfələrlə sübuta yetirib. Onu da sübut edib ki, bu partiya ölkəmizdə ən öncül, ən mütəşəkkil bir siyasi qurumdur və ölkənin müasir tarixində, ictimai-siyasi həyatında onun danılmaz yeri var…

2003-cü ilin dekabr ayında ulu öndər Heydər Əliyevin vəfatı, nəinki Yeni Azərbaycan Partiyasını, eləcə də xalqımızı, bütün Dünya azərbaycanlılarını sarsıtdı. Bu, partiya üçün də ağır, çətin bir sınaq idi. Bu sınaqdan elə ulu öndərin adına layiq də çıxmaq lazım idi. Azərbaycan xalqı isə bunu bacardı…

Səhhətində yaranmış problem bu dahi rəhbərin prezident seçkilərində iştirakına mane oldu. Öz qüdrəti ilə ən çətin məqamlarda belə, insanları heyrətləndirməyi bacaran ümummilli liderimiz xalqa tarixi müraciət etdi. 1 oktyabr 2003-cü il tarixli bu müraciətdə: «Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm» deyə ulu öndər xalqımızı prezident seçkilərində siyasi kursunun layiqli davamçısı İlham Əliyevə səs verməyə çağırdı. Və xalq öz liderinin müraciətinə yekdilliklə səs verdi, onu dəstəklədi. Gənc və qətiyyətli, savadlı və praqmatik düşüncəli İlham Əliyevi Prezident seçdi…

Yeni Azərbaycan Partiyası da 26 mart 2005-ci il tarixində keçirilən III qurultayında öz qurucusunun adına layiq monolitlik birlik nümayiş etdirdi və güclü təşkilat

olduğunu bir daha göstərdi. Cənab İlham Əliyev yekdilliklə Yeni Azərbaycan Partiyasının sədri seçildi və bu seçim cəmiyyətdə böyük razılıqla qarşılandı.

Fikrimcə, bu, təşkilatın fəaliyyətində yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilməlidir…

Heydər Əliyevin qurucusu olduğu müstəqil Azərbaycan etibarlı əllərdədir

Əslində, Heydər Əliyev ideyalarının özü bir məktəbdir və hazırda bu məktəbin Prezident İlham Əliyev tərəfindən uğurlu davamını görmək çox xoşdur. Bəli, ulu öndərin qurucusu olduğu müstəqil Azərbaycanın taleyi indi çox etibarlı əllərdədir. Ümummilli liderin uğurlu neft strategiyası, habelə İpək yolu, sahibkarlıq, qeyri-neft sektorunun, regionların sürətli inkişaf məsələləri – bütün bunlar Prezident İlham Əliyevin apardığı işlərin mahiyyəti, sosial-iqtisadi nəticələri ilə davam etdirilir.

Heydər Əliyev Azərbaycan dövlətinin müstəqil, dinamik inkişaf edən bir ölkə kimi fəaliyyətinin əsasını qoydu. Onun siyasi varisi Prezident İlham Əliyev isə Azərbaycanın gələcək inkişaf perspektivləri ilə bağlı gərgin və məhsuldar iş aparır, məqsədli proqramlar həyata keçirir və bununla da dövlətçiliyimizə, müstəqilliyimizə, Azərbaycanın sosial-iqtisadi tərəqqisinə sədaqətlə xidmət edir. Heydər Əliyev siyasətinin bütün istiqamətlərinin bu cür davamı isə xalq tərəfindən də yüksək dəyərləndirilir. Nahaq deyilməyib ki, xalqın gözü tərəzidir.

Dövlətimizin başçısı cənab İlham Əliyevin prezident seçkiləri öncəsi verdiyi vədlər indi öz əksini görülən işlərdə tapır. Artıq Azərbaycanda 340 mindən çox yeni iş yeri yaradılıb, bu isə ilk növbədə, əhalinin rifah halının

yaxşılaşmasını təsdiq edən amillərdən biridir. «Mən istəyirəm Azərbaycanda yoxsul olmasın, işsiz olmasın. …Hamı yaxşı yaşasın!» – bu, möhtərəm Prezidentimiz İlham Əliyevin ən böyük devizidir. Bu deviz dövlətçiliyimizin qorunması, müstəqilliyimizin möhkəmləndirilməsi işinə, ölkəmizin tərəqqisinə, insanların rifahına xidmət edir. Və son illər sosial-iqtisadi məsələlərlə bağlı qəbul olunmuş Dövlət proqramları, həyata keçirilmiş tədbirlər ölkəmizdə yoxsulluq səviyyəsinin aşağı düşməsində mühüm rol oynayır…

Həqiqətən də, gənc, böyük potensial imkanlara malik Prezident İlham Əliyev Azərbaycan adlı nəhəng gəmini çox məharətlə idarə edir. Biz hamımız, bütün Azərbaycan xalqı isə gənc Prezidenti ilə fəxr edir.

Heç vaxt unudulmayacaq əməllər və xalqın əbədi lideri

Müdrikliyi və qətiyyəti, ağlı və düşüncəsi, gərgin əməyi və fəaliyyəti, bütövlükdə yaşadığı böyük ömrün bütün mərhələləri Heydər Əliyevin insanlığın və liderliyin zirvəsində dayanan şəxsiyyət olduğunu sübut edir. Heydər Əliyev öz xalqının yaddaşında, tarixində əbədiyaşarlığını hələ sağlığında ikən təmin edib. Müstəqil Azərbaycanın memarı, müasir Azərbaycanın qurucusu olan bu nəhəng siyasətçiyə hər birimizin bir müqəddəs borcumuz var: bu borcdan isə onun əməllərinə sədaqətlə xidmət etməklə, ideyalarını yaşatmaqla, onun siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin ətrafında sıx birləşməklə çıxmaq olar.

Bəli, bugünkü Azərbaycan reallığı Prezident İlham Əliyevin parlaq şəxsiyyəti və yorulmaz fəaliyyəti ilə bağlıdır. Bu fəaliyyət Heydər Əliyev siyasi fəlsəfəsinə, liderlik məktəbinə söykənir. Əgər Heydər Əliyev dünyanın siyasət

zirvəsinin ən uca yerində Azərbaycanın və ən böyük azərbaycanlının adını əbədi həkk etdisə, cənab İlham Əliyev bu estafeti inamla qorudu, bu məktəbin layiqli davamçısı olduğunu sübut etdi. Məhz Prezident İlham Əliyevin bacarıqlı rəhbərliyi sayəsində bu gün Azərbaycan dünya birliyində ləyaqətli yer tutur və demokratik, hüquqi, dünyəvi dövlət, sivil cəmiyyət quruculuğu yolu ilə inamla addımlayır.

Mən Heydər Əliyevin anadan olmasının 83-cü ildönümü münasibətilə yazdığım, ulu öndərin unudulmaz, parlaq xatirəsinə həsr etdiyim, ölməz ruhuna bağışladığım bu yazını möhtərəm Prezidentimiz İlham Əliyevin Yeni Azərbaycan Partiyasının III qurultayındakı nitqindən kiçik bir parça ilə bitirmək istəyirəm: «…Mən demişdim, bu gün də deyirəm ki, Azərbaycan Heydər Əliyevin müəyyən etdiyi yolla getməlidir, yalnız bu yol bizə uğur gətirə bilər. Biz ancaq bu yolla getsək, ölkəmizi zəngin, qüdrətli dövlətə çevirə biləcəyik.

Heydər Əliyevin siyasəti yaşamalıdır. Bu, zəmanənin tələbidir. Bu, yeganə siyasətdir ki, Azərbaycanı daha da gücləndirəcək, Azərbaycan xalqının həyat səviyyəsinin yaxşılaşmasına xidmət edəcəkdir…»

Fikrimcə, əlavə sözə ehtiyac yoxdur. Təkcə möhtərəm Prezidentimiz cənab İlham Əliyevə Azərbaycanımızın çiçəklənməsi naminə çətin, məsuliyyətli işində uğur diləmək qalır.

Bir də 2003-cü ilin dekabrından, demək olar ki, hər gün təkrarladığımız bir duanı dilə gətirmək istəyirəm: «Yerin cənnət, ruhun şad olsun, ulu öndər! Qoy Ulu Tanrı ruhuna edilən duaları qəbul etsin!»

«Heydər Əliyev irsi, Azərbaycanın davamlı inkişaf strategiyası» kitabı. «Azərbaycan» nəşriyyatı, 2006, səh. 47-58

BÖYÜK YOLUN DAVAMÇISI

Ölməz o adamdır ki, özündən sonra
Vətən üçün böyük və faydalı yadigarları qalır.
El məsəli

Atalar və oğullar

Mən ulu öndərimiz, bənzərsiz liderimiz, böyük rəhbərimiz Heydər Əliyev və onun layiqli varisi, bu gün Azərbaycanı böyük məharətlə idarə edən və ümidli sabahlara aparan, artıq ölkəmizdə və xaricdə yetkin siyasi lider kimi qəbul olunan, yüksək nüfuz qazanan möhtərəm Prezidentimiz İlham Əliyev haqqında hər dəfə söz deyəndə həm haqlı qürur duyur, həm də məsuliyyət hissi keçirirəm. Qururumun səbəbi bəllidir. Məsuliyyət hissi keçirməyim də əsassız deyil. Çünki Heydər Əliyev haqqında söz demək üçün gərək ən əvvəl onun ən böyük əsərini – «Azərbaycan» adlı əsərini dərindən öyrənəsən, dərindən mənimsəyəsən. İlham Əliyev haqqında söz deyəndə isə gərək bir vacib amili unutmayasan: O, Heydər Əliyevin oğludur, Heydər Əliyevin varisidir!..

Tarixdə dahi ataların qurduğu dövləti davam və inkişaf etdirən, daha da möhkəmləndirən, yüksəldən qüdrətli oğullar olub. Amma gəlin etiraf edək ki, belələri çox azdır. İlham Əliyev isə böyük düha sahibi Heydər Əliyevin elə özünə layiq övladıdır, Azərbaycan və xalqımız üçün son dərəcə misilsiz, heç bir tarixi şəxsiyyətlə müqayisəyəgəlməz dərəcədə böyük işlər görən Heydər Əliyevin Azərbaycana bəxş etdiyi ən

qiymətli əsəridir, ulu öndərin əvəzolunmaz yadigarlarından biridir. Heydər Əliyevin həyat, hakimiyyət, siyasət, diplomatiya məktəbinin məzunu, Heydər Əliyev ideyalarının xilaskarlıq qüdrətiylə, tükənməz Azərbaycan sevgisiylə, azərbaycançılıq missiyasıyla silahlanan İlham Əliyevin bugünkü genişmiqyaslı və uğurlu fəaliyyəti göstərir ki, o, dahi dövlət xadimi Heydər Əliyevin bütünlüklə Azərbaycana, onun sabahına həsr edilən hakimiyyət yolunu, zəfər yolunu, şərəf yolunu ləyaqətlə davam etdirir, xalqına, Vətəninə Heydər Əliyev zirvəsindən xidmət edir.

Cənab İlham Əliyevin vaxtilə dediyi bu fikir çox yaddaqalandır: «Mənim xoşbəxtliyim bundadır ki, mən Heydər Əliyev adlı dahi şəxsiyyətin yanındayam və məndə öyrənmə imkanları daha çoxdur, nəinki başqa adamlarda». Buna görə də tam səmimiyyətlə, qəti əminliklə demək olar ki, İlham Əliyev təkcə atasının – Heydər Əliyevin yox, bütövlükdə Heydər Əliyev kursunun, azərbaycançılıq ideologiyası ilə tam səsləşən, üst-üstə düşən Heydər Əliyevçiliyin varisi, daşıyıcısı və davamçısıdır. Bir müsahibəsində isə cənab İlham Əliyev belə deyib: «…Heydər Əliyevin varisi mənim oğlum Heydər Əliyevdir. Ona görə də deyə bilərsiniz ki, Heydər Əliyevin varisi Heydər Əliyevdir». Bu tarixi, sadə və səmimi fikirdə təkcə baba və nəvə Heydər Əliyevdən söhbət getmir, daha çox ondan söhbət gedir ki, Heydər Əliyevin ideyaları əbədidir: onun varisi özüdür, öz ideyalarıdır, yəni Heydər Əliyevin varisi Heydər Əliyevdir. Və Azərbaycan istiqlalının, azərbaycançılıq məfkurəsinin, milli müstəqilliyimizin dayaq nöqtəsi, enerji mənbəyi, hərəkətverici qüvvəsi olan xilaskar Heydər Əliyev ideyaları bütün soydaşlarımızı, bütün Dünya azərbaycanlılarını birliyə, bütövlüyə, Vətən və xalq naminə fədakarlığa çağırır.

Xalqın inamı və sevgisi

Ümummilli liderimizin çox böyük uzaqgörənliklə və əminliklə dediyi «…Azərbaycanın gələcəyi etibarlı əllərdədir», «Mən seçici olsaydım, İlham Əliyevə səs verərdim» fikri yada düşür. Müdrik və qədirbilən xalqımız ulu öndərin bu fikrini 2003-cü il prezident seçkilərində təsdiqlədi, Heydər Əliyevin siyasətinə böyük inamının, məhəbbətinin nəticəsi olaraq onun varisinə – İlham Əliyevə səs verdi, onu özünə yeni rəhbər seçdi. Bu, qanunauyğunluq idi. İlham Əliyevin seçkilər ərəfəsində xalqla görüşlərində, bəlkə də, yaşına uyğun olmayan müdrikliyi, xalqla səmimiliyi, hədsiz təvazökarlığı, alicənablığı, insanlara təmənnasız münasibəti, xalqına, millətinə, Vətəninə, sələfinə, üstəlik, öz şəxsiyyətinə hörmət və ehtiramı onun yüksək, ali tərbiyəsindən, ziyalılığından, zəngin mənəviyyatından, siyasi yetkinliyindən xəbər verirdi. İlham Əliyev həm də bu səbəblərdən qalib gəldi. Və Prezident kimi fəaliyyətə başladığı ilk aylarda ulu öndər Heydər Əliyevlə bağlı ölkəmizdə yaşanan narahatlıq, sonra isə ümumxalq hüznü olmasına baxmayaraq, fəal siyasətçi kimi nəhəng siyasət ümmanının bütün istiqamətlərinə nüfuz edə bildi. O, bütün sahələrdə Heydər Əliyev strategiyasının layiqli davamçısı olduğunu əməli fəaliyyəti ilə nümayiş etdirdi.

İlham Əliyev intellekti, istedadı və şəxsiyyəti bütöv vəhdət təşkil edən liderdir. İntellektlə istedadın, elmlə istehsalatın, ənənə ilə novatorluğun üzvi vəhdətinə, yaradıcı sintezinə nail olmaq qabiliyyəti, Azərbaycanın dünəni, bu günü və sabahına sonsuz, sarsılmaz sədaqət – bunlar İlham Əliyevi hər kəsə sevdirən keyfiyyətlərdir. Onun qabiliyyəti, enerjisi, Azərbaycanın azadlığı, müstəqilliyi yolunda böyük fədakarlığı Prezident olduğu müddətdə daha qabarıq üzə

çıxdı. O hər zaman, hər bir fəaliyyət sahəsində yalnız milli maraqlarımızı, Azərbaycanın çağdaş və perspektiv mənafelərini düşünüb, bu istiqamətdə hərəkət edib.

İqtisadi inkişafın qarantı

İlham Əliyevin seçkiqabağı platformasının uğurla həyata keçirildiyi, bütün istiqamətlərdə konkret nəticələr əldə olunduğu indi heç kimə sirr deyil. Qazanılan nailiyyətlər göz önündədir və danılmazdır. İqtisadiyyatımız gündən-günə inkişaf edir. Beynəlxalq əlaqələrin gücləndirilməsi sahəsində qazanılan uğurlar danılmaz faktdır. Artıq ölkədə yeni iş yerləri açılıb, ailələrin həyatında müsbət dəyişikliklər baş verib. Bu baxımdan, heç şübhəsiz, Prezident İlham Əliyevin zəkasının məhsulu olan regionların sosial-iqtisadi inkişafı ilə bağlı Dövlət proqramının qəbul edilməsi xüsusi mərhələ təşkil edir. Həmin proqramın icrasına dövlət başçısının bilavasitə özünün nəzarət etməsi, bu proqramın icrasının bir illik fəaliyyət dövrünü əhatə edən ümumrespublika toplantısı keçirməsi əsl dövlətçilik missiyası, vətəndaş fədakarlığı, öz sözünün, öz xəttinin əsl sahibi kimi fəaliyyət göstərən dövlət rəhbərinin müdrikliyi kimi qiymətləndirilməlidir. Cənab İlham Əliyevin 600 min nəfərlik yeni iş yerinin açılacağı barədə seçkiqabağı vədinin cəmi bir ildə təxminən 30 faizinin yerinə yetirilməsi, yəni 170 min yeni iş yerinin açılması dinamik inkişafın bəhrəsi kimi qeyd olunmalıdır. Bu iş yerlərinin əhəmiyyətli hissəsinin məhz ölkəmizin regionlarında yaradılması xüsusi razılıq doğurur. 2004-cü ildə Azərbaycanın adının dünyanın kasıb ölkələri sırasından çıxarılması isə daxili iqtisadi uğurlarımızın beynəlxalq aləm tərəfindən də təsdiqinin mühüm nümunəsi sayıla bilər.

Milli Məclisdə 2005-ci il üçün dövlət büdcəsi müzakirə

olunarkən iqtisadi uğurlarımız bir daha aydın oldu. Burada olduqca həssas bir məsələni xüsusi qeyd etmək lazımdır. Bu, əsasən beynəlxalq amillərlə bağlı olan və əksər dünya ölkələrində müşahidə olan bahalaşma prosesinin Prezident İlham Əliyevin praqmatik düşüncəsi sayəsində ölkə əhalisi arasında təşvişə səbəb olmamasıdır.

Ölkəmizdə hökm sürən daxili sabitlik xarici sərmayədarların, həmçinin turistlərin Azərbaycana axınını da gündən-günə artırır.

İndi Azərbaycanı dünyanın ən bahalı layihələrindən olan Bakı-Tbilisi-Ceyhan layihəsinin 10 faiz, «Şahdəniz» layihəsinin isə 25 faiz bahalaşması qorxutmur. Azərbaycan bu layihələrdə üzərinə düşən hissənin maliyyələşdirilməsində iradəsi ilə bərabər imkanını da ortaya qoydu. Prezident İlham Əliyevin dövlət başçısı kimi uğurlu iqtisadi fəaliyyəti nəticəsində Milli Bankın valyuta ehtiyatları 880 milyon dollara, ümumi valyuta ehtiyatı isə 2 milyard dollara çatıb.

Bəli, möhtərəm Prezidentimiz İlham Əliyev Azərbaycanda dövlət quruculuğunun, müstəqilliyimizin, iqtisadiyyatımızın dinamik inkişafının təminatçısıdır.

Dövlətçilik və müstəqillik ideyalarına sədaqət

Mən bir ziyalı, ictimai-siyasi proseslərin iştirakçısı, həm də ölkə rəhbərinin siyasətinin əsas konturlarını ictimaiyyətə çatdıran bir qurumun rəhbəri kimi hörmətli Prezidentimiz İlham Əliyevin fəaliyyətini fəxrlə izləyirəm. Dəfələrlə şahidi olduğum hadisələrdən gəldiyim qənaət budur ki, İlham Əliyev həm ölkədə, həm beynəlxalq aləmdə yetkin lider kimi qəbul olunur. Bu müşahidələrim həm də dövlətimizin başçısının xarici ölkələrə rəsmi səfərləri zamanı hökumət nümayəndə heyətinin tərkibində olarkən şahidi olduğum məqamlara

əsaslanır.

İndi xalq İlham Əliyevi həm də siyasi sabitliyin, əmin-amanlığın və sülhün qarantı hesab edir.

Artıq ölkəmiz nüfuzlu beynəlxalq təşkilatların, demək olar ki, hamısında təmsil olunur. Müstəqillik yolu ilə inamla addımlayan respublikamız dünyada baş verən demokratikləşmə və əməkdaşlıq prosesində yaxından iştirak edən dövlət kimi dünya birliyinin tərkib hissəsinə çevrilib. Demokratiya və müstəqillik ideyalarına sadiq olan İlham Əliyev indi milli mənafelərimizi yüksək səviyyədə qoruyur.

Heydər Əliyev öz dühası, istedadı, siyasi təfəkkürü, tükənməz enerjisi, bir sözlə, Tanrının ona bəxş etdiyi qeyri-adi müsbət keyfiyyətləri ilə bütün dünyanı fəth etdi, Azərbaycanı dünyaya tanıtdı, dünyanı Azərbaycana gətirdi. Bu gün isə Prezident İlham Əliyev eyni bacarıqla dünya siyasətinin diqqət mərkəzindədir, regionda isə əsl liderlik nümayiş etdirir. ABŞ konqresinin Silahlı Qüvvələr Komitəsinin sədri Kurt Ueldonun hörmətli prezidentimiz haqqında dediyi sözləri yada salmaq istəyirəm: «İlham Əliyev təkcə Azərbaycanda deyil, bütün regionda əsl liderlik nümayiş etdirir, ölkəni irəli aparır, bu bizim üçün çox sevindiricidir. Dünyada çox az sayda lider tapılar ki, dünyanın hansı səmtə doğru irəlilədiyini, onun gələcək perspektivlərini əvvəlcədən görə bilsin. Eyni zamanda dünyada İlham Əliyev kimi çox az lider tapılar ki, xarici dilləri mükəmməl bilsin və prezidentliyinin qısa müddəti ərzində bu dərəcədə liderlik nümayiş etdirsin. Regionda onun nümayiş etdirdiyi liderliyə, həqiqətən, valeh olmuşuq…»

Bəli, indi Prezident İlham Əliyevin fəaliyyəti nüfuzlu diplomatik dairələrin, görkəmli siyasətçilərin, dövlət xadimlərinin, siyasi analitiklərin nəzərini cəlb edir. Fenomenal intellekt və istedadı ilə seçilən İlham Əliyev artıq

müasir Azərbaycan və dünya siyasətinin danılmaz faktıdır, reallığıdır.

Prezident İlham Əliyevin çoxsaylı rəsmi səfərlərinin hər biri əsl tarixi hadisəyə çevrilir. Fransa, Qazaxıstan, Özbəkistan, Rusiya Federasiyası (bir neçə dəfə), Türkiyə, Ukrayna, Gürcüstan, Rumıniya, Almaniya, Qətər dövləti, Böyük Britaniya, İtaliya, Çin Xalq Respublikasına rəsmi səfərlər ikitərəfli münasibətlərdə yeni mərhələdir. Azərbaycan Prezidentinin Birləşmiş Millətlər Təşkilatının, Avropa Şurasının, Avropa Birliyinin və digər nüfuzlu beynəlxalq qurumların toplantılarında müntəzəm iştirakı, sanballı çıxışları, diplomatik gedişləri siyasət nəhəngləri tərəfindən yüksək qiymətləndirilir. Xarici ölkələrə səfərləri zamanı ona göstərilən yüksək ehtiram, onun ən nüfuzlu beynəlxalq mükafatlara layiq görülməsi dünya siyasət arenasında İlham Əliyevin reytinqinin çox yüksək olduğunu təsdiq edir.

Yeri gəlmişkən, bir məsələ ilə bağlı fikirlərimi də bölüşmək istəyirəm. Və bunu, heç şübhəsiz ki, tərəddüd etmədən Azərbaycanın ümummilli məsələləri, nailiyyətləri sırasına daxil etmək olar. Bu, Azərbaycan Prezidentinin xanımı, Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyevanın YUNESKO-nun xoşməramlı səfiri seçilməsidir. Mehriban xanım Əliyevanın bu şərəfli ada layiq görülən ilk azərbaycanlı olması, onun intellektual səviyyəsi, yüksək mədəni parametrləri ilə seçilməsi, ən başlıcası, öz Vətənini, onun zəngin irsini, mədəniyyətini böyük fədakarlıqla təbliğ etməsi, az vaxtda böyük işlər görməsi sevindirici faktdır və Vətənini, millətini sevən hər kəsdə minnətdarlıq hissi doğurur.

Bütün bunlar bütövlükdə ulu öndərimiz Heydər Əliyevin Azərbaycana ərməğan etdiyi xarici siyasət strategiyasının ardıcıl və yaradıcı inkişafıdır.

Mən hər dəfə ölkə rəhbərini xarici ölkələrə səfərləri

zamanı müşayiət edən nümayəndə heyətinin tərkibində olarkən Prezident İlham Əliyevə, onun şəxsində Azərbaycanımıza çox böyük hörməti görəndə iftixar hissi keçirmişəm.

Prezident İlham Əliyevin bir neçə xarici dildə sərbəst danışması ona ölkəmizin problemlərini birbaşa qarşı tərəfə çatdırmağa imkan verib. Bəli, biliyi, bacarığı yüksək qiymətləndirən müasir dünyada zəngin erudisiyaya malik, iradəli dövlət başçısına malik olmaq istənilən millətin fəxri, onun tarixi sərvətidir. Gördüklərim, müşahidə etdiklərim bir fikri də söyləməyə əsas verir ki, məhz Prezident İlham Əliyevin zəkası, iradəsi xalqımızın zorən düçar edildiyi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə səbəb olacaq, ölkəmizin ərazi bütövlüyü bərpa olunacaq.

Prezident İlham Əliyevin Birləşmiş Millətlər Təşkilatının Baş Məclisində, Avropa Şurası Parlament Assambleyasında tarixi çıxışları ilə Ermənistanı ifşa etməsi, həqiqətləri yüksək diplomatik məharətlə, böyük cəsarətlə həm təcavüzkara, həm beynəlxalq aləmə çatdırması sabaha ümidləri artırır. Martın 12-də Daxili qoşunların bayramında Ali Baş Komandan, Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə ölkəmizin ədalətli mövqeyini, tutduğumuz prinsipial xətdə israrlı olmağımızı bir daha bəyan etdi.

Hər zaman xalqla birgə

Cənab İlham Əliyev Azərbaycan rəhbərliyinə gələn kimi milli-mənəvi dəyərlərimiz, ədəbiyyatımız, mədəniyyətimiz, incəsənətimiz, tariximiz haqqında da çox ciddi sənədlər imzaladı. Onun elmimizə, elm adamlarına, təhsilimizə,

mədəniyyətimizə, gəncliyə qayğısı ictimaiyyət tərəfindən böyük razılıqla qarşılandı.

Ulu öndərimiz Heydər Əliyev: «Mən həmişə xalqa arxalanmışam, xalqa bel bağlamışam… Mənim həyatım həmişə xalqla bir yerdə olub, bu gün də bir yerdədir, sabah da bir yerdə olacaqdır» deyirdi və əməlləri ilə də bunu sübut edirdi. Xalqla birlik, xalqa arxalanmaq və xalqa xidmət etmək – bunlar İlham Əliyevin də həyat və fəaliyyətinin əsas özəyini təşkil edir.

Heydər Əliyevin sadə vətəndaşlarla ünsiyyəti, onların könlünü alması, onlara qarşı səmimiliyi hamının yaddaşına həkk olunub. O, qızıl kimi qiymətli vaxtından camaatla görüşlərə də vaxt ayırırdı, onlarla təmasda olmağa da vaxt tapırdı və buna üstünlük verirdi. Xalqın arzu və istəklərini, qayğı və problemlərini, dərdlərini özlərindən eşitməyə, öyrənməyə üstünlük verirdi. Və ömrünün sonuna qədər də belə etdi. Onun səmimiliyi, müdrikliyi, insanlarla ünsiyyəti hər kəsi öz sehrinə salırdı. Bu, Heydər Əliyevin böyüklüyü, böyüklüyündəki sadəliyi idi, həqiqi liderə xas olan bir keyfiyyət idi. Məhz xalqla, onun ən sadə nümayəndələri ilə bu cür ünsiyyət, onları duymaq onu hamının sevimlisinə çevirmişdi. Ona görə də xalq öz ürəyində Heydər Əliyevə bir abidə ucaltdı.

Bu gün həmin prinsiplərə sadiq olan Prezident İlham Əliyev əsgərlərin görüşünə gedir, onlarla bir süfrə arxasında nahar edir, qaçqın-köçkünlərə baş çəkir, onların yaşayış şəraiti ilə tanış olur, şəhər gəzintisinə çıxır, insanlarla birbaşa ünsiyyətdə olur, metro stansiyasında qatara minərək sərnişinlərlə söhbət edir, şəxsən özü maşının sükanı arxasında əyləşərək Bakı kəndlərinə gedir, yolların vəziyyəti ilə maraqlanır, elin ən əziz bayramında camaatla birlikdə şənlikdə iştirak edir, hər kəsin könlünü alır və s. Bu sıranı çox

uzatmaq olar və bu, ölkə başçısının xalqla birbaşa ünsiyyətinin, əlaqəsinin bariz nümunəsidir.

Çox ibrətamiz bir fikir var: ənənələrə hörmət etməyən xalq irəli gedə bilməz. Prezident İlham Əliyevə xas olan ən gözəl keyfiyyətlərdən biri, məhz onun ənənələrə sadiqliyidir. Bu sadiqlik Prezidentin fəaliyyətindən qırmızı xətt kimi keçir və onu xalqa daha da yaxınlaşdırır.

İnsan amili və şəxsiyyət azadlığı

İlham Əliyev ölkəmizin milli maraqlarına, cəmiyyətin maddi və mənəvi dəyərlərinə ciddi təhlükə yaradanlara qarşı mübarizəni də ən ümdə vəzifələrdən biri hesab edir.

Çox uzağa getməyək. Son zamanlar ictimaiyyətdə böyük rezonansa səbəb olmuş, cəmiyyət tərəfindən razılıqla qarşılanmış bir hadisəni qeyd etmək istəyirəm. 10 mart 2005-ci il tarixdə Prezident İlham Əliyevin çox ciddi tapşırığı ilə Milli Təhlükəsizlik Nazirliyinin yüksək peşəkarlıqla hazırlayıb həyata keçirdiyi «Qara kəmər» şərti adlı xüsusi əməliyyat nəticəsində səlahiyyətli adamların rəhbərlik etdiyi və uzun illər ağır, dəhşətli cinayətlər törətmiş böyük tərkibdə mütəşəkkil cinayətkar dəstə zərərsizləşdirildi, bandanın rəhbəri və üzvləri cəmiyyət qarşısında ifşa olundular. Təbii ki, dünyanın ən inkişaf etmiş ölkələrində də yüksək çinli məmurların cinayətkarlığa qurşanması faktları var, amma onların tapılıb üzə çıxarılması, zərərsizləşdirilməsi dövlətin qüdrətindən xəbər verir.

Bu hadisə göstərdi ki, cəmiyyətdə şəxsiyyətin azadlığı, onun hüquq və azadlıqlarının toxunulmazlığı çox vacib məsələdir və Azərbaycanda vətəndaşların təhlükəsiz yaşamaq hüququnun qorunması dövlətin ali məqsədidir. Prezident İlham Əliyev ölkədə insan haqlarının ən böyük

müdafiəçisidir.

Bir daha bəlli oldu ki, heç bir qüvvə Azərbaycanı zəiflətmək iqtidarında deyil. Çünki bu dövlətin təməli, bünövrəsi möhkəm qoyulub. Hər bir vətəndaşın qanun qarşısında bərabərliyi prinsiplərini özünün idarəçilik kredosuna çevirmiş ümummilli liderimiz Heydər Əliyev insan hüquq və azadlıqlarının təminatı məsələlərinə daim diqqətlə yanaşırdı, bu məqsədlə hüquq-mühafizə orqanlarında müasir dövrün tələblərinə uyğun mütərəqqi islahatların aparılmasına normal şərait, qanunverici baza yaratmışdı. Alternativi olmayan bu siyasət təkcə ümummilli deyil, həm də fərdi maraqları özündə əks etdirir. Ümummilli liderimiz müdrikliklə bəyan etmişdi: «Dövlət iki şeydən sarsıla bilər: cinayətkar cəzasız qalanda və günahsız cəzalandırılanda». Bu tezis Heydər Əliyevin insan hüquqlarına necə böyük önəm verdiyinin təzahürüdür. Bu gün Prezident İlham Əliyevin həyata keçirdiyi tədbirlər isə göstərir ki, demokratik siyasi sistemin formalaşdığı Azərbaycanda heç bir cinayət cəzasız qalmır və qalmayacaq.

Azərbaycana xidmət edən amallar

İndi, həqiqətən də, Azərbaycan etibarlı, qabiliyyətli əllərdədir. Prezident İlham Əliyevin ölkəmizə böyük istedad və bacarıqla rəhbərlik etməsi, Heydər Əliyev siyasi kursunu, onun Azərbaycan naminə amallarını böyük ustalıqla davam etdirməsi hər birimizin qəlbini iftixarla döyündürür. Onun bir fikri də çox diqqətçəkəndir: «Mən Heydər Əliyevdən öyrənmişəm və bundan sonra da öyrənəcəm. Bütün qərarları qəbul etməzdən əvvəl fikirləşirəm ki, Heydər Əliyev bu vəziyyətdə hansı addımı atardı».

Bəli, İlham Əliyev uzun illər bənzərsiz lider Heydər

Əliyevin məktəbinin tələbəsi olub, onun məktəbinin vacib sirlərinə yiyələnib, dövlət idarəçiliyi sahəsində böyük təcrübə qazanıb, beynəlxalq əlaqələrin qurulmasında və möhkəmlənməsində uğurlar əldə edib, dünyanın siyasi mühitində yüksək liderlik reytinqinə çatıb.

Hörmətli Prezidentin bir fikrini sitat gətirmək istəyirəm: «Mən çalışacağam ki, bundan sonra da elə işləyim ki, xalq həmişə məni dəstəkləsin».

Bəli, xalq onu dəstəkləyir. İlham Əliyev Prezident kimi elə ilk addımlarında sübut etdi ki, ona inanmaq, ona arxalanmaq, ona güvənmək olar! İnam isə böyük qüvvədir. İnanırıq ki, o, «Bizim yolumuz Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı dövlət qurmaqdan, demokratik prinsipləri gündən-günə inkişaf etdirməkdən, dünyanın əldə etdiyi bütün demokratik nailiyyətləri Azərbaycanda yaymaqdan, onlardan bəhrələnməkdən ibarətdir» deyən Heydər Əliyevin amallarına bundan sonra da sadiq qalacaq. Vətənimiz Heydər Əliyev dühasından bəhrələnən, lakin daha yeni, müasir şəraitə uyğun siyasi intellektə və potensiala malik bir siyasətçinin – İlham Əliyevin rəhbərliyi altında işıqlı gələcəyə gedəcək.

Bu işdə hər birimiz, hər bir Azərbaycan vətəndaşı möhtərəm Prezidentimizə yardımçı olmalı, bununla da dövlətçiliyimizin, müstəqilliyimizin, ərazi bütövlüyümüzün qorunmasına öz töhfəmizi verməliyik…

Qələbə sevinci

Möhtərəm Prezidentimiz İlham Əliyevin uğurlu fəaliyyəti həmişə məni bu qənaətə gətirir: Heydər Əliyev ölməyib! O bizim sıralarımızdadır. Əgər ulu öndərin böyük ideyaları, amalları bizimlədirsə, demək, bu, belədir. Əgər

onun siyasi kursunu ləyaqətlə davam etdirən gənc prezidentimiz İlham Əliyev bu gün xalqın, millətin ürəyindən xəbər verən işlər görürsə, üstəlik, bütün dünya onu qəbul edirsə, demək, Heydər Əliyev sağdır, öz böyüklüyü, müdrikliyi, dühası və əməlləri ilə onu sevən hər kəsin qəlbində yaşayır! Azərbaycan isə ilhamla, inamla irəliləyir. Bu yolun önündə Heydər Əliyev dühasından nur alan İlham Əliyev gedir. Sözümün bu yerində Ulu öndərimizin İlham Əliyevi xarakterizə edərkən dediyi sözləri xatırlayıram: «İlham Əliyev yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir siyasətçidir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirəcək, Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm».

Biz ona inanırıq. İnanırıq ki, Azərbaycan tarixinə ən möhtəşəm QƏLƏBƏ sözünü möhtərəm Prezidentimiz cənab İlham Əliyev yazacaq. Xalqın böyük inamla, intizarla, səbirsizliklə gözlədiyi QƏLƏBƏ sözünü! Qüdrətli liderimiz, möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin xalqımıza bəxş edəcəyi QƏLƏBƏ sevinci Azərbaycanımızın zəfər tacı olacaq! O gün isə uzaqda deyil!..

«Heydər Əliyev irsi və Azərbaycan dövlətçiliyi» kitabı. «Azərbaycan» nəşriyyatı, 2005, səh. 747-756

ŞAH İSMAYIL XƏTAİ VƏ AZƏRBAYCAN DİLİ

Dili xalq yaradır. Lakin onun yaşayıb nəsildən-nəslə ötürülməsi, görkəmli şəxsiyyətlərin, qüdrətli dövlət başçılarının hesabına başa gəlir. Dilin durmadan zənginləşməsi, onun statusundan, işlənmə arealından çox asılıdır. Ölkələr işğal olunanda dilin də sərhədləri daralır, hüdudları pozulur. Dil də insan kimi əsir düşür, cəmiyyətdən təcrid olunur, funksionallığını itirib sıradan çıxır. Min illər boyu folklorda, xalq nəğmələrində, məişət qayğılarında özünü tanıdan ana dilimiz təxminən 500 il əvvəl Səfəvi hökmdarı şah şairimiz Şah İsmayıl Xətainin zamanında geniş fəaliyyət statusuna yüksələ bildi. Bu vaxta kimi türkün zəfər yürüşləri, oğuzların hərbi səfərləri, qanunları, fərmanları farsca, ərəbcə yazılırdı. Tarixdə ən qurucu, yaradıcı türklərdən biri kimi qalan Şah İsmayıl ana dilimizin də sərhədlərini ölkənin hüdudları kimi genişləndirdi. Əslində bu azərbaycançılıq ideyası ona ulu babalarından yadigar qalmışdı. İlk dəfə təkkə ocaqlarını yaradıb Sufi təriqətinə inam bəsləyən və sonralar sufilər, səfəvilər kimi tanınan Şeyx Səfiəddin Ərdəbili nəsli azərbaycançılıq ideyasının əsaslarını dilin gerçəkləşdirilməsində gördü. Azərbaycan dilinin, poeziyasının və mədəniyyətinin çiçəklənməsinə tutarlı töhfələr vermiş bu sülalə, sonralar daha çevik düşüncəyə və dövlətçilik bacarığına malik Şah İsmayıl Xətaini mübarizə meydanına çıxartdı. Lakin qılınc və qələm bahadırını hünər meydanına hazırlayan «Qara məcmuə» kimi kitablar çox-çox əvvəllər türkün ana dilində yazılır, xalq düşüncəsinin ən incə

mətləblərini özündə qoruyub saxlayırdı. Belə kitabların əksəriyyəti məhv edilib sıradan çıxsa da, sənət izlərini yaddaşlara yaza bilmişdi. Hələ Şah İsmayıldan çox-çox əvvəllər qələmə alınmış «Qara məcmuə»lər dilimizdə o dövrdən qalmış həm böyük abidə, həm də şeirimizin, nəsrimizin o vaxtkı vəziyyətini əks etdirən çox qiymətli mənbədir. «Hicri VII-VIII əsrlərdə Azərbaycanda müəllimlər və mürşidlər tərəfindən mədrəsələrdə, zaviyələrdə müridlərə tədris edilmək məqsədilə yazılan həcmli kitablara «Qara məcmuə» deyilirdi. (1)

«Qara məcmuə»lər bir müəllif tərəfindən yazılmasa da adətən mürşidin adına çıxılırdı. Şeyx Səfiəddin Ərdəbili isə öz zamanında elmə, maarifə, mədəniyyətə hədsiz qayğılar göstərdiyindən dövrünün «Qara məcmuə»ləri onun adına çıxılmışdır. Bəqainin təzkirəsində yazıldığına görə Şeyx Səfinin «Qara məcmuə»si yalnız Səfəvi sultanlarının kitabxanasında tapıla bilər və bu xəzinələrdən dışarı çıxa bilməz.

Səfəvi sülaləsinin böyük ağsaqqalı, alim və sufisi, eləcə də həmin təriqətin banisi kimi tanınan Şeyx Səfinin türkcə yazılan «Qara məcmuə» adlı əsərindən başqa bir neçə türkcə, farsca və ərəbcə əsərləri də olmuşdur.

Cənubi azərbaycanlı alim doktor Hüseyn Sədiqi tapıb çap etdirdiyi «Qara məcmuə» əsərinə Şeyx Səfinin şeirlərini daxil edib. Tədqiqatçının fikrinə görə «Şeyx Səfinin türkcə şeirlərinin şivəsi Qazi Bürhanəddinin şivəsinə oxşayır». Bu şivə həm də dilimizdə olan ən gözəl və axıcı sözlər, terminlərlə zəngindir. Şeirlərdə hələ ədəbiyyat tariximizə Xacə Əhməd Yasəvi zamanında girmiş bəzi irfan anlamlı sözlər gözə dəyir. (2)

«Qara məcmuə» əsərinin nəsr hissəsi də XIV-XV əsr Azərbaycan nəsrinin çox gözəl nümunəsi sayıla bilər. Onun

dili çox axıcı və olduqca anlaşıqlıdır. Bu mətnlərdə farsca və ərəbcə sözlər də nisbətən azdır. Məcmuənin «Müzəkki-ən-nəfs» adlı bölümündən bir parçanı misal olaraq təqdim edirik: «… Sultan Şeyxin sözlərini dinlədi. Bir kərə ah eylədi. Gətirdi kəndini taxtan aşağı yerə vurdu. Ağlı başından getdi: Bir zaman yetdi, bir zamandan kəndi diru gəldi (gəlməyə başladı). Ayıtdı Şeyxə: – Necə elədim, sultanım! Yolu yanılmışız!» deyər.

Şeyx aydır: «Gəlin hələ bir şimdi tövbə edin. Bu şimdikən etdiyiniz işlərə peşman olun! Ol günahlarınız getsin» deyər. (3)

Göründüyü kimi, bu mətn 5-6 əsr qabaq yazılsa da bugünkü ədəbi dilimizə olduqca yaxındır.

Doktor Sədiq tapıb tərtib etdiyi «Qara məcmuə» adlı əsərdə Şah İsmayıl Xətainin bir neçə yeni şeirini də mətnin mövzusuna uyğun olaraq ilk dəfə dərc etmişdir. «Qara məcmuə»nin «Əlbuyuruq risaləsi» bölümündə Şah İsmayıl Xətainin dini mövzuda yazdığı «Çox şükür» şeiri diqqəti cəlb edir:

Söylərəm ey padişahlar padişahi, çoz şükür,
Bəndənin ümidi sənsən, həm pənahi, çox şükür.
Əff edərsən sirləri, sirrimizə agahsan
Çox şükür birliyinə, yarəb, ilahi, çox şükür.

Sən yaratdın yeri, göyü, bəzm üçün tutdu qərar,
Dönsə də çərxi-fələk, leylü nəhar, dönməz qərar.
Pes bizim üçündür, dünyai uqba, hər nə var,
Çox şükür dərgahına, yarəb, ilahi, çox şükür.

Bizim üçün xəlq elədin abu, atəş, xaku, bad,
Cismimizə can da verdin, bizə adəm qoydun ad.

Yaradılmış səndən oldu, cümlə məqsudu murad
Çox şükür dərgahına, yarəb, ilahi, çox şükür.

Lütfü ehsanu kərəm səndən gəlir, bizdən xəta,
Ol qənimət qismətini kəsmədin ondan sona.
Bu Xətai xəstə çün qapında durmuş bir gəda
Çox şükür dərgahına, yarəb, ilahi, çox şükür. (4)

Həmin dövrdə belə əsərlərin yazılmasının Azərbaycan ədəbi dilinin formalaşmasında rolu çox olmuşdur. Zəmanəsinin elm, mədəniyyət sufi təriqəti keşiyində duran Şeyx Səfi və onun övladları dövlət qurandan sonra həmin ənənəni davam etdirmişlər. Xüsusən, Şah İsmayıl Səfəvi hökmdarı olandan sonra Azərbaycan dilinə rəsmi səlahiyyətlər vermiş, şair-sənətkar kimi bu dildə gözəl əsərlər yaratmışdır. Şah İsmayıl 38 illik qısa həyatında görünməmiş uğurlar qazanmış, xalqımızın bədii mədəniyyət tarixində parlaq səhifələr açmışdır. Onun yaratdığı vahid Azərbaycan dövlətində doğma Azərbaycan türkcəsi dövlət və şeir-sənət dilinə çevrilmiş, mədəniyyət və milli quruculuq sahələrində bütün imkanlarını nümayiş etdirə bilmişdir.

Şah İsmayıl qısa vaxt ərzində tanınmış alimləri, şairləri, sənət adamlarını saraya dəvət etməklə elmin, mədəniyyətin sürətli inkişafına şərait yaradırdı. «Sənəti, elmi və mədəniyyəti çox sevən şair-hökmdar qılıncı ilə qurduğu dövlətə qələmi ilə də xidmət etmişdir. Vətənin gözəlliklərini tərənnüm etməklə Azərbaycan dilinin banisi olaraq ana dilində gözəl əsərlər yaratmışdır. Həbibi, Şahi, Kişvəri və Füzuli kimi şairlərin yetişməsində, Azərbaycan dilində yüksələn şeirin inkişafında böyük iş görmüşdür». (5)

Şah İsmayıl Xətai özü də ana dilində gözəl bədii nümunələr yaratmaqla şairlər məclisinin baş şüərasına

çevrilirdi. Onun yaradıcılığında hökmlə, siyasətlə gözəllik duyğusu bir araya gəlir, ana dilinin zənginliyi, səs, söz imkanları ilə hissin ən incə çalarlarını ifadə edə bilirdi.

Təəssüflər olsun ki, Şah İsmayıl Xətainin ana dilimiz, mədəniyyətimiz yolunda bu fədakarlığı nə yaxın ətrafı, soydaşları, nə də dövrünün ərəb, fars təzkirəçiləri tərəfindən doğru dəyərləndirilə bilməmişdir. Hətta doğmaca oğlu Sam Mirzənin «Sami» təskirəsində Xətainin bir türk şairi kimi deyil, farsca şeirlərindən nümunə gətirilməsini görkəmli folklorşünas Salman Mümtaz ürək ağrısı ilə qeyd edir. (6)

Daha sonra S. Mümtaz Osmanlı təzkirəçisi Katib Çələbinin də Şah Xətainin türkcə şeirlərindən yan ötdüyünü, Azərbaycan dilinin poetik imkanlarını qulaq ardına vuraraq Xətaidən «ərəb ədibi kimi» söz açdığını yazır.

Lakin təzkirə müəlliflərinin xidməti unutdurma cəhdləri böyük təsir qüvvəsinə çevrilə bilmir. Xətai hakimiyyəti dövründə nəinki ədəbi mühit, hətta rəsmi dövlət idarəçiliyi də Azərbaycan dilində aparılır. İran tarixi və mədəniyyətini, müasir İran ərazisindəki xalqların tarixi evolyusiyasını tədqiqat mövzusu seçən A. Krımski Şah İsmayıl Xətai yaradıcılığına istinad edib regionda Azərbaycan dilinin miqyasını təsdiq edirdi: «Səfəvi xanədanının banisi Şah İsmayıl «Xətai» təxəllüsü ilə azərbaycanca mükəmməl türk şeirlər «Divan»ını yaratmışdır və onun öz ana dilində idi». (7)

Dilin formalaşmasında ədəbi nümunələrin zəngin bazası yaradılmalıdır. Bu missiyam da çiyinlərinə çəkən şah şairimizin «Divan»dan başqa «Dəhnamə» adlı məşhur əsəri və təlim-didaktik mahiyyətdə yazmış «Nəsihətnamə» məsnəvisi vardır. (8)

Heca və əruz ölçülərində yazan Xətai yazılı və şifahi ədəbiyyat ənənələrini vəhdətdə götürmüş, rəngarəng formalarda əsərlər yaratmışdır. «Şah İsmayıl şiə təbliğatı üçün

aşıq (saz şairi – Ozan) tərzində qoşmalar yazmış, bir qoşma səpkili aşıq havası da formalaşdırmışdır. Ayrıca əruz vəznində yazdığı qəzəlləri sazla məclislərdə oxunardı». (9)

Şah İsmayıl Xətainin yaradıcılığı zəngindir, eyni zamanda bu kəmiyyətdən çox keyfiyyət zənginliyidir. Şair həm klassik üslubda, həm də folklor üslubunda yazıb yaratmışdır. Qəzəlləri, rübailəri, məsnəviləri, qoşmaları, gəraylıları, bayatıları və s. daha həcmli, keyfiyyətcə daha yüksəkdir. Bununla belə şair ilk dəfə olaraq, şifahi xalq ədəbiyyatı janrına davamlı şəkildə müraciət etmiş və xalq şeirinə klassik mövqe qazandırmışdır.

Şair ilk dəfə olaraq öz divanına xalq ədəbiyyatı janrlarında yazdığı əsərləri də daxil etmiş, başqa sələf və xələfləri kimi öz divanını klassik ədəbiyyat formalarında yaratdığı şeirlərlə məhdudlaşdırmamışdır. Bu isə Xətainin öz xalqına, elinə və onun dilinə, mədəniyyətinə sevgisinin sonsuzluğunu göstərir.

Heca vəznli şeiri ilk dəfə olaraq divan ədəbiyyatına gətirən Xətai bədii yaradıcılıqda xalq şeiri ənənələrinə üstünlük vermiş, klassik divanları xalq hikməti və örnəkləri ilə bəzəməyi zərurət kimi qarşıya qoymuşdur. (10)

Elinə, dilinə bağlı olan Şah İsmayıl Xətai folklor janrlarındakı şeirlərində müsəlman panteist terminologiyasını sıx-sıx işlətməklə onları həm də dini biliklərin poetik toplusuna çevirir:

Şəriət yolunu Məhəmməd açdı
Təriqət gülünü Şah Əli seçdi
Şu dünyadan neçə yüz min ər keçdi
Onlar ittifaqda Mehdi yoldadır.

Şah İsmayıl Xətainin folklor janrındakı əsərlərinin

sintaksisi xalq şeiri dilinin bütün poetexniki-sintaktik xüsusiyyətlərini əks etdirir. Məsələn:

Bir nəfəscik söyləyim
Dinləməzsin neyləyim.
Eşq dəryasın boylayım
Ümmana dalmağa gəldim.

Üstümüzə yol uğratdın,
Gövhər aldın, gövhər satdın.
Ərliyini isbat etdin,
Dədəm xoş gəldin, xoş gəldin.

Xalq şeiri sintaksisi ilə bu cür yaxınlıq, müştəriklik Xətainin dil-üslub «fəlsəfə»sindən irəli gəlir. Şair panteist-sufi ideologiyanı, şiəliyi elə aydın, demokratik və xəlqi bir dil ilə təbliğ etmək istəmişdir ki, burada anlaşıqsız, qeyri-təbii fikir, mülahizə olmasın.

Xətai şiə təriqətin və sufiliyin təbliğatçısı olaraq «Azərbaycan ədəbiyyatında şiə lirizminin qurucusudur. Bu lirizmin təməlini Həzrət Əli və onun xanədanına eşq və bağlılıq təşkil edir. Xətainin aşiqanə qəzəlləri öz növündə orijinaldır». (11)

Hökmdar şairin klassik janrlardakı əsərlərinin dili klassik üslubun kamil dövrü üçün səciyyəvi olan mükəmməlliyə malikdir. Tədqiqatlar göstərir ki, Şah İsmayıl Xətaidə qoşma poetikası qəzəl poetikasından qidalanırdı. Şübhəsiz, qoşma standartlarının bilavasitə xalqdan gələn cəhətləri əsas idi… Şah İsmayıl Xətainin klassik janrlardakı əsərlərinin lüğət tərkibi klassik üslub üçün tamamilə xarakterik olaraq «alınma dil materiallarının bolluğu, lakin əsasən məqsədə uyğun işlədilməsilə səciyyələnir».

Dil tariximizi öyrənmək baxımından da Xətai yaradıcılığı böyük əhəmiyyətə malikdir. O, canlı danışıq dilindən çoxlu söz və ifadələri alıb şeirə gətirmişdir. Bu sözlərin bəziləri köhnəlsə də bir çoxu bu gün də funksionallığını qorumaqdadır.

Dövlətçilik tariximizdə böyük rol oynayan Şah İsmayıl qüdrətli Azərbaycan şairi kimi də öz dolğun, məzmunlu və ölməz poeziyası ilə doğma ədəbiyyatımızı forma və məzmunca zənginləşdirmişdir. Onun ürəyə yatan təravətli nəğmə və şərqiləri doğma türk dili şeir xəzinəsinə yeni bir töhfədir.

Öz ulu babası Şeyx Səfinin miras qoyub getdiyi yolu davam etdirən Şah İsmayıl təkcə şair kimi deyil, hökmdar və dövlət başçısı kimi də Azərbaycan dilinə və dövlətçiliyinə əvəzsiz xidmətlər göstərmişdir. Şah İsmayıl Səfəvi dövlətini qurduqdan sonra Azərbaycan türkcəsinə rəsmi dövlət dili statusu qazandırmış və öz dilinə, elinə olan hörmətini, sevgisini əməldə sübut etmişdir. Şah İsmayılın qurduğu dövlətdə Azərbaycan dilinin dövlət dili olması, xarici ölkələrə bu dildə rəsmi məktubların yazılması dilimizin əhəmiyyətini qat-qat artırmış, eyni zamanda dilimizin çiçəklənib inkişaf etməsində böyük rol oynamışdır.

Səfəvi şahları öz ana dillərində yazıb yaradır, fars dilinə əhəmiyyət vermirdilər. Qəribə də olsa, həmin dövrdə fars dili Osmanlılarda və Orta Asiyada daha işlək dil hesab olunurdu. Belə ki, Osmanlı sultanı Sultan Səlim özünü İranın əfsanəvi padşahının nəslindən sayaraq farsca divan yazıb. Şah İsmayıl isə özünü türklərin əfsanəvi padşahı Əfrasiyabın nəslindən bilərək türkcə şeir yazmışdır. (12)

Ümumiyyətlə, Səfəvi şahları şeir və ədəbiyyatı himayə edirdilər. Bu şahların bəziləri iki dildə əsər yazan şairlər idilər. Türkcə və farsca şeirlərin yazılması üçün əllərindən gələni

edirdilər. (13)

Səfəvi sarayı o dövrdə əsl şeir-sənət ocağı idi. Məlik-əş-şüəralıq (şairlər padşahı) rəsmi vəzifə kimi təsdiq edilmişdi. Şah İsmayıl övladları və Səfəvi sülaləsinin sonrakı şahları, o cümlədən Şah Süleyman və Şah Sultan Hüseyn zamanında Azərbaycan şeirinə xüsusi qayğı mövcud idi. Həmin dövrdə Səfəvi sarayının məlik-əş-şüərası olan Təsir Təbrizinin divanında türkcə qəzəllərdən başqa türkcə qəsidə və məsnəvi də var idi… Bu dövrün təskirələrində türkcə yazan bir çox şairlərin adı çəkilir. (14) Onların İsfahanda belə Azərbaycan türkcəsində şeir yazmaları və dilimizə xüsusi qayğısı diqqəti cəlb edir.

Azərbaycanın böyük hökmdarı Şah İsmayılın dövründə Azərbaycan türkcəsinin əhəmiyyəti qat-qat artdı və hətta Səfəvi sarayına gələn avropalı səyyahlar dilimizin qrammatikası, lüğət tərkibi və s. haqqında çoxlu kitablar yazmağa başladılar.

«XVI əsrdə Şah İsmayıl Xətainin başçılıq etdiyi Səfəvilər dövləti zamanından başlayaraq Azərbaycan dilinin mövqeyi, nüfuz dairəsi daha da genişləndi, Azərbaycan ədəbi dili dövlət idarələrində, sarayda, hərbi hissələrdə işlənən rəsmi dillər sırasında yer tutdu, o zaman islamiyyətin dili sayılan ərəb dili və bədii ifadə vasitəçisi kimi modalaşmış fars dili ilə yanaşı işlənən bir dil hüququ qazanmış oldu. Buna görə də mədrəsələrdə ərəb, fars dilləriylə yanaşı Azərbaycan dilində də tədris işləri aparılırdı». (15)

Bu dövrdə ölkədə Azərbaycan türkcəsinin əhəmiyyətini Səfəvi sarayında olmuş Avropa səyyahlarının əsərlərində də görürük. Səfəvi dövlətinin paytaxtı fars şəhəri olan İsfahana köçürüldükdən sonra da Azərbaycan türkcəsinin burada necə böyük nüfuza malik olduğu aydın hiss olunur. Alman səyyahı Engelt Kempfer XVII yüzillikdə Səfəvi sarayında olmuş, türk

dilinin əhəmiyyətini təsdiq etmiş və bildirmişdir ki, türk dili saraya çoxdan nüfuz etmiş, vəzifə sahibləri bu dildə danışmağı özlərinə borc bilirlər. Hər bir məşhur və şəxsiyyətli adamın türkcə bilməməsi gerçəkdən utanc doğuran məsələ sayılırdı. (16)

İtaliyalı səyyah Pedro Dulavale də İsfahanda olarkən (17 dekabr 1917-ci il) dostu Maryo Eskifanoya Azərbaycan türkcəsinin əhəmiyyəti barədə yazmışdır: «İranda ümumən farscadan çox türkcə danışılır. Xüsusən, saray və vəzifəli şəxslər arasında». (17)

Səfəvi sarayında olmuş digər avropalı səyyah Adam Oleari şahın verdiyi ziyafəti belə təsvir etmişdir: «Ziyafət qurtardıqda eşik ağasıbaşı türkcə uca səslə dedi: Süfrə haqqında şah dövlətinə, ğazilər qüvvətinə Allah deyəlim, Allah-Allah və hamı Allah-Allah sözünü təkrarladılar». (18)

On bir il Səfəvilərin ərazisində olan Şvaliye Jan Şarden türk dili haqqında demişdir: «Türk dili qoşun və saray dilidir. Qadınlar, kişilər əsasən türkcə danışırlar, xüsusən, əyan və əşraf ailələrində». (19)

Yenə almaniyalı Enqelbert Kepmfer İsfahanda olarkən Səfəvi sarayında gördüklərini belə qələmə almışdır: «Bu dil mötəbər farsdilli ailələrdə elə sürətlə yayılırdı ki, indi tam demək olar ki, bir dövlət adamının türkcə bilməməsi biabırçılıq kimi dəyərləndirilir». (20)

Şarden və Petro Dulavale türk dilinin kütləviliyinə işarə edərək yazırlar: «Bu dil müxtəlif təbəqələr arasında elə yayılmışdı ki, demək olardı hamısının dili idi». (21)

Qısa hakimiyyət möhləti ərzində Azərbaycan dilini dövlət dilinə, sənət, poeziya dilinə, nəhayət, sivil dillər sırasına çıxarmaq üçün Şah İsmayıl Xətainin göstərdiyi əzmkarlıq elə ilk illərdən öz səmərəsini verirdi. Ölkə başçısının ana dilinə münasibəti Azərbaycanı dövlət kimi

tanıyanların hər biri tərəfindən qəbul olunurdu. «Şah İsmayılın vaxtında… Azərbaycan dili dövlət dili kimi rəsmiləşir. Azərbaycan dili nəinki saray danışıq – ünsiyyət vasitəsi kimi işlənir, eyni zamanda dövlətlərarası yazışmalar bu dildə aparılır». (22)

Amma təəssüflər olsun ki, Azərbaycan ədəbi dilinin taxta çıxdığı Şah İsmayıl Xətai dövrü onun varisləri zamanında istənilən səviyyədə qoruna bilmədi. Getdikcə fars dilinin sarayda və idarəçilikdə üstünlüyü müşahidə olundu. Azərbaycan dilinin tarixi haqqını qazanması 500 il ağrılar, əziyyətlərdən sonra – ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra baş tutdu. Bu dahi öndər hər şeydən əvvəl dil ətrafında yaradılmış süni siyasi konyunkturaları aradan götürdü. Azərbaycan xalqının tarixən formalaşmış dili ətrafındakı mübahisələrini optimal məcraya yönəltdi. Ana dilində gözəl danışmağın, yazmağın, siyasi, diplomatik görüşlər keçirməyin, qısa, məzmunlu müsahibələr verməyin, şirin, incə yumorlar söyləməyin, fikrin, düşüncənin qısa, konkret, birbaşa ifadə formalarını çatdırmağın nümunəsini nümayiş etdirərək hər bir vətəndaşda müstəqil dövlətimizin dilinə sevgi hissi yaratdı. Mətbuatın, elektron-informasiya vasitələrinin geniş şəbəkəsini yaratmaqla ana dilinin inkişafına təkan verdi. Şah İsmayıl Xətainin bir vaxtlar çiçəklənib tez solan Azərbaycan dili arzuları məhz Heydər Əliyevin müdrikliyi və uzaqgörənliyi hesabına gerçəkləşdi. Bu dil – Ana dili – Azərbaycan dili millət durduqca yaşayacaq, dünyəvi dillər sırasında özünə möhkəm yer tutacaq, xalqın milli varlığı, mənəvi mövcudluğu kimi əsrlər boyu inkişaf yolunu uğurla davam etdirəcəkdir.

ƏDƏBİYYAT

1. Şeyx Səfiəddin Ərdəbili. «Qara məcmuə». Tərtib edən: doktor Hüseyn Sədiq, Tehran, 2001, səh. 20
2. Yenə orada, səh. 32
3. Yenə orada, səh. 102
4. Yenə orada, səh. 81
5. Həmid Araslı. Azərbaycan ədəbiyyatı: tarixi və problemləri. 1998, səh. 298
6. Salman Mumtaz. Azərbaycan ədəbiyyatının qaynaqları. 1986, səh. 301
7. А. Крымский. История Персии, ее литературы и древнейший философии, Москва, том III, 1914-1917, стр. 139
8. Əzizağa Məmmədov. «Şah İsmayıl Xətainin əsərləri». Bakı, 1973, səh. 5
9. Doktor Cavad Heyət. «Azərbaycan ədəbiyyat tarixinə bir baxış». I cild, Tehran, 1980, səh. 32
10. Əliyar Səfərli və Xəlil Yusifli. «Azərbaycan ədəbiyyatı tarixi». Redaktor və köçürəni: Hüseyn Şərqi (Soytürk), Tehran, 1997, səh. 226
11. Doktor Cavad Heyət. «Azərbaycan ədəbiyyat tarixi». səh. 39
12. «Cahanquşay Xaqan» (Şah İsmayıl) yazılma tarixi, 955-948-hicri. Tərtib edən doktor Allah Deta Müzəffər, Ravelpendi, 1986, səh. 9
13. «Tribun» jurnalı. İsveç, 1999, № 4, səh. 78
14. Yenə orada, səh. 79
15. Ə. Dəmirçizadə. «Azərbaycan ədəbi dilinin tarixi», I hissə, 1979, səh. 166-167
16. «Varlıq» jurnalı. Tehran, 1992, № 82-3, səh. 16
17. «Tribun» jurnalı. № 4, səh. 74

18. Adam Oleari. Vermehrete neue Bescheibunq der muscovitischen und persischen Reyse, (Schtesviq, 1656) 512
19. Voyaqes du chevalier chardin en perse (Paris, 1911, səh. 238)
20. «Varlıq» jurnalı. Tehran, № 109-2, 1377, səh. 20
21. Yenə orada, səh. 19
22. T. Hacıyev. Azərbaycan ədəbi dili tarixi. 1976, səh. 121

«Azərbaycan» qəzeti,
26 sentyabr 2004-cü il

«XUDAFƏRİN» MƏNƏVİ KÖRPÜYƏ ÇEVRİLİR

XXI əsrin əvvəlləri Cənubi Azərbaycanda yaşayan soydaşlarımızın mənəvi həyatında böyük oyanışlarla yadda qalır. Xalqın ictimai şüurunun oyanmasında, milli-mənəvi dəyərlərə sahiblik haqqının dərk olunmasında, maarif və mədəniyyətin kütləviləşməsində ən öncül xidmət vasitəsi olan yeni jurnal – «Xudafərin» işıq üzü gördü. Gənc və istedadlı qələm sahibi, tədqiqatçı Hüseyn Şərqinin «Varlıq»dan sonra yaratdığı ikinci milli dərgimizin çap olunma xəbəri nədənsə mənə Şərqdə ilk milli mətbuatın əsasını qoymuş (1875, «Əkinçi»), bir vaxtlar xarici və daxili təzyiqlərə ürək ağrısı ilə dözüb xalqı maarif işığı ilə, gələcəyə aparmaq amalı ilə mübarizə aparan görkəmli maarifçi-demokrat Həsən bəy Zərdabinin cəhalət aləmində qeyri-bərabər mübarizəsini yada saldı.

«Əkinçi»nin nəşri əleyhinə çıxan qaragüruhçu Həsən Qoca Hadinin həcvini oxuyub əsəbiləşən Həsən bəy Zərdabi yazırdı: «Fikrim budur ki, bizim Zərdab kəndində Qarabağın sərhəddində bir daş qoydurub onun üstə zikr olan həcvi tamam qazdıram ki, gələcəkdə bizim övladlar o yadigara baxıb bilsinlər mən bu zəhmət ilə milləti islamı-qəflətdən ayıltmaq istəyən vaxtda necə nadanlara rast gəlmişəm» («Əkinçi» qəz. 1877, № 8).

Cəlil Məmmədquluzadə yazırdı ki, «Molla Nəsrəddin»i zəmanə özü yaratdı. İranda bugünkü mətbuat bolluğu şəraitində yenicə çapa başlayan «Xudafərin» jurnalı da regiondakı müasir mülayim ictimai-siyasi şəraitdən,

demokratik ab-havadan, dünyaya inteqrasiya istəklərindən yarandı. Böyük maarifçi-demokrat Həsən bəy Zərdabinin XIX əsrdə milli mətbuat qarşısında qoyduğu ideyaların Cənubi Azərbaycanda çiçəklənməsinə xidmət edən «Xudafərin» də maarifçiliyi fəaliyyətinin əsası sayır.

Kiçik bir yaradıcı heyətlə böyük tarixi missiyanı – milli dil, ədəbi dil, təhsil, tarixi-etnik mənsubiyyət kimi problemlərin çözülməsinə xidmət göstərməyi qarşısına məqsəd qoyan «Xudafərin» hər şeydən əvvəl oxucuların fəallığına arxalanır. İlk sayında jurnalın əsas istiqamət fəaliyyətini, ideya və mövzularını açıqlayan baş redaktor Hüseyn Şərqi bu dərginin xalqın əsl tribunası, arzu, düşüncə, fikir ortağı olacağına inanır. O istəyir ki, bu vaxta kimi müxtəlif mətbuat orqanlarında dünyanın görkəmli ədəbi simaları olan V. Şekspirin, Şillerin, J. B. Molyerin, A. S. Puşkinin, L. N. Tolstoyun, Firdovsinin, Hafizin fikir və duyğuları, sənət haqqında düşüncələri ilə tanış olan soydaşlarımız indi də «Xudafərin» vasitəsilə türk dünyasının İ. Nəsimisi, M. Füzulisi, M. P. Vaqifi, M. Ə. Sabiri, C. Cabbarlısı, H. Cavidi, S. Vurğunu, M. H. Şəhriyarı, Ç. Aytmatovu ilə tanış olsunlar.

Milli düşüncənin, tarixin, etnoqrafiyanın və dilin bioenerjisini sıxıb canında saxlayan folklor «Xudafərin»in Cənubda ədəbi dil istiqamətli ideyalarını geniş yaymaqda mənbə olacaq. Bu istək işıq üzü görmüş iki sayda özünü qabarıq şəkildə büruzə verir. Xalq fikrinin, düşüncəsinin, müdrikliyinin ən yığcam modeli olan folklor sərhədsiz mədəniyyətimizin, dilimizin ortaq körpüsü kimi həmişə böyük önəm kəsb edir. Bakıda universitet təhsili almış Hüseyn Şərqi Azərbaycan ədəbi dilinin ümumi konturları əsasında yeni jurnal yaratmağa ən şanslı ziyalılarımızdandır. Xalqlar, ölkələr arasında yaxın vaxt ərzində ən dayanıqlı mənəvi

körpüyə çevriləcək «Xudafərin»in başlıca ideyaları barədə ilk saydakı redaktor qeydlərini bilmək maraqlı olardı. Hüseyn Şərqi çoxmilyonlu soydaşlarımızla ilk görüşündə belə bir açıqlama verir: «Salam, bütün vətəndaşlarıma, qələmdaşlarıma, arzu, dilək, qan qardaşlarıma, soydaşlarıma, dəyərli yurddaşlarıma, igid və qəhrəman fikirdaşlarıma… Uzun illər işıqlı sabahı gözləyərək qaranlıq gecələrin acısını yaşadıq. Yuxular çin çıxarmış kimi bizim də bir diləyimiz röya pərisi kimi qarşımızda zühur etdi… («Xudafərin»in ilk sayı 2004-cü ilin sentyabrında Tehranda 30.000 tirajla çap olunub.) Ağıllı əkinçi toxumun yaxşısını yeməz, bəlkə onu əkər. Gəlin, biz də fikir və düşüncələrimizi əkək və becərək… Bu jurnal elimizin varlığının gerçək səsidir. Bu səs nə qədər güclü və gur olarsa, bir o qədər də təsirli ola bilər».

Uğurlu başlanğıc gələcək fəaliyyətin davamlığına əsas yaradır. Jurnalın yaradıcı heyəti bu məqsədlə görkəmli elm, mədəniyyət xadimlərindən təbrik və arzulamaları ilk sayında dərc edir. Bu təbriklər içərisində «Varlıq» jurnalının yaradıcısı Doktor Cavad Heyətin, «Azəri» jurnalının baş yazarı Behzad Behzadinin, doktor Sədiqin, ünlü yazıçı İsmayıl Hadinin arzuları böyük maraq doğurur.

Jurnal aparıcı ideyalarına ilk nömrədən geniş yer ayıraraq Güney Azərbaycanda dil tariximizin bilicisi doktor Rəhim Ruziyanın milli türkcəmiz haqqında məqaləsini dərc etmişdir. Quzey Azərbaycana həsr edilmiş bölümündə mənim Azərbaycan ədəbi dilinin XVII əsrdən bu günə qədər inkişafına həsr olunmuş məqaləm fars dilində çap olunmuşdur.

Xalq şairi Mirvarid Dilbazi haqqında məlumat da Güney Azərbaycanın sənət vüsətini göstərmək baxımından maraq doğurur. İlk növbədə mövzular üzrə məqalələrin düzülməsində pərakəndəlik nəzəri cəlb etsə də yazılardakı

intellektual səviyyə, elmi aktuallıq, coğrafi genişlik, müəlliflərin sayı və sanballı qürur hissi doğurur.

Yerli müəlliflərdən Firuz Rifahinin «Mirzə Cahanşah Həqiqi» haqda məqaləsi, Eloğlunun M. Füzuli poeziyası işığında yeni axtarışları, Şah İsmayıl Xətai, Hüseyn Arif, Kərküklü Nihad, Muğanlı Salman Dağlıdan seçmə şeirlər jurnalın ilk sayını yetərincə oxunaqlı edir.

Dünyasını dəyişmiş ünlü yazıçıların yaradıcılığından səhifələr vermək «Xudafərin»in diqqəti cəlb edən cəhətlərindəndir. Bu mənada görkəmli elm, sənət adamları, yazıçı və şairlərdən Səməd Behrənginin, Haşım Tərlanın, Fərman Kərimzadənin həyat və yaradıcılığına, tədqiqatlarına jurnalın səhifələrində geniş yer ayırması ədəbi qayğıdan xəbər verir. F. Kərimzadənin «Xudafərin körpüsü» romanı jurnalın I və II saylarında hissə-hissə çap olunmuşdur.

Jurnal həm də maarifçilik xidməti göstərərək dünyada baş verən təbii fəlakətlərin, bioloji dəyişmələrin, son tibbi nailiyyətlərin, elm, mədəniyyət, idman yeniliklərinin xülasəsini verir, ən geniş spektrli oxucu mühitini maraqlandıran mövzuları gündəmə gətirə bilir.

Ən müxtəlif sahələrin oxucularına qapısı açıq olan «Xudafərin» ikinci sayını da onlara böyük təsir və sevgi doğurmaq arzularıyla nəşr edir. Bu sayda türkçülük, azərbaycançılıq istiqaməti, ədəbi dilimizin taleyi diqqət önünə çəkilir. «Azərbaycan ədəbi dilinin təşəkkülü» (N. Xudiyev), «Türk dilindən alınan sözlərin dəyişikliyi» (B. Behzadi), «Yeni tapılan əsər Kirmanlı Vəli» (Eloğlu), «Pakdəşt cinayəti» (H. Şərqi), eləcə də C. Məmmədquluzadənin azərbaycançılıq ideyaları, Mahmud Kaşğarinin «Divani-lüğəti-it-türk» kitabı haqqında məqalələr dərc olunmuşdur.

Bəxtiyar Vahabzadənin, Ə. Tərzioğlunun poetik dünyası ilə tanışlıqla yanaşı, oxuculara bu sayda Türkiyədə ilk qəzeti

nəşr etmiş Agah Əfəndi məlumat almaq imkanı verir.

Şah rejimi tərəfindən türkcə kitabların yandırılma ayı noyabrı acı xatirə anına çevirən jurnal «Kitabımız-nəşriyyatımız» başlığı altında türkcə çıxmış kitabların geniş reklamını verməklə borcunu yerinə yetirir.

İlk sayları işıq üzü görən «Xudafərin»in İranda populyar olan «Azəri», «Araz», «Əsri-Azadi», «Məhde-Azadi», «Həmşəri», «Ərk» kimi mətbuat orqanlarında reklamı geniş ədəbi yaradıcılıq və ideya birliyinin yarandığından xəbər verir.

Son olaraq «Xudafərin» öz ünvanını belə xatırladır: 009921691529, İran, Tehran, R. O. box 131145-147, Khudafarin®yahoo. com

Siz də «Xudafərin»i evinizin bir üzvü sayıb, daim onu yadda saxlayın. Yazın ki, Araz üzərində fiziki keçidin adı olan «Xudafərin» əsl mənəvi körpüyə çevrilsin.

«Azərbaycan» qəzeti,
25 noyabr 2004-cü il

CAVAD HEYƏT DÜNYASI

Türk dünyasının ən qüdrətli övladlarından biri, bütün dünya türklərinin qürur və fəxarət yeri olan, bir əlində qələm, bir əlində bıçaq öz xalqının, millətinin, bütövlükdə insanların fiziki və mənəvi sağlamlığının keşiyində sərhəd əsgəri kimi sərvaxt dayanan, əllərinin hikməti, sirri-sehri ilə möcüzələr yaradan möhtərəm doktor Cavad Heyətin 80 illik yubileyi tamam olur.

Fəxrlə qeyd etmək istəyirəm ki, ömrü boyu heyrətamiz dərəcədə misilsiz işlərə imza atan Cavad Heyət haqqında indiyədək mən də bir sıra məqalələr yazmışam, 2002-ci ildə «Azərbaycantelefilm»in çəkdiyi «Cavad Heyət varlığı» adlı sənədli televiziya filminin ssenari müəllifiyəm. Görkəmli alimin 80 illik yubileyinə həsr etdiyim kitab isə bu yaxınlarda işıq üzü görəcək.

Yeri gəlmişkən, onu da deyim ki, «Cavad Heyət varlığı» filmi, böyük alimin Bakıda keçirilən 70 illik yubileyinin videoyazısı, ona həsr olunmuş «Dastan», «Durna teli» verilişləri televiziyamızın qızıl fondunda qorunur.

Əziz dostumun yuvarlaq yubileyi qarşısında bir daha onun haqqında yazdıqlarıma diqqət yetirdim, ssenarim əsasında çəkilmiş filmə baxdım. Bütövlükdə Cavad Heyətin keçdiyi mənalı, şərəfli ömür yoluna nəzər saldım. Etiraf edim ki, onun qısa zaman kəsiyində həyata keçirdiyi və bir insan ömrünə sığmayacaq qədər böyük işlərinin qarşısında yenə də

heyrətimi gizlədə bilmədim.

Cavad Heyət kimdir? Onun Azərbaycan, İran, bütövlükdə dünya elminin, təbabətinin və mədəniyyətinin inkişafında hansı xidmətləri var? Təbii ki, bu suallara bir qəzet məqaləsində cavab vermək çətindir. Çünki Cavad Heyət yaradıcılığı elə əhatəli, çoxşaxəli, ensiklopedik məzmun və səciyyə daşıyır ki, onun araşdırılması, öyrənilməsi və dəyərləndirilməsi böyük vaxt və zaman tələb edir. Çox qısa desəm, mən Cavad Heyəti XX əsrin möcüzəsi hesab edirəm. Dünyanın ən usta, ən mahir cərrahlarından, təbiblərindən biri olan Cavad Heyəti başqa cür qiymətləndirmək mümkün deyil. Təsadüfi deyil ki, onun yarım əsr əvvəl gördüyü işlər elə bu gün də yenilik, təzəlik sayılır.

Türk dünyasının dünya elminə bəxş etdiyi bu böyük alimə, elm adamına, Cavad Heyət şəxsiyyətinə hansı yöndən, hansı prizmadan yanaşsan, onun yaradıcılığını hansı aspektdən araşdırsan, insanlığa başucalığı gətirən əməllərlə qarşılaşarsan.

Cavad Heyət ömrün, taleyin seçdiklərindəndir, Tanrının seçilmiş bəndələrindəndir. Belə olmasaydı, o, bir neçə sahədə paralel olaraq belə böyük uğurlar qazanmaz, şöhrət tapmazdı.

Cavad Heyət elə bir ömür yaşayıb ki, o ömrün salnaməsini yaratmaq həm asandır, həm çətindir, həm də çox məsuliyyətlidir. Bu ömür elə bir ömürdür ki, onda alim və ədib qələmi birləşib, yüksək mənəvi amallar uğrunda mübarizə aparıb. Bu ömür insanların, xalqların birliyine xidmətdə keçib. Bu ömür yalnız bir xalqa, bir millətə məxsus olmayıb, bəşəriyyətə xasdır. Bu ömür öz dahi sələflərinin ənənəsini ləyaqətlə davam etdirməyə sərf olunub.

Bəs Cavad Heyət bu nüfuzu, bu şöhrəti necə qazanıb?

Əvvəla, mən tam məsuliyyətlə demək istəyirəm ki, o hər bir uğuruna zəhməti, çalışqanlığı, bir də Tanrının ona bəxş

etdiyi istedadı sayəsində nail olub. Digər tərəfdən, o öz biliyini yorulmadan, usanmadan arayıb-axtarmaqla zənginləşdirib.

İkincisi, belə bir məşhur deyim var: ot kökü üstə bitər. Bu kəlamda böyük hikmət var, çünki kökü olmayan bir ağac tez çürüyər, ayaq üstə duruş gətirə bilməz. Əsli-nəcabəti, soykökü olmayan bir insan da qaynar qazana bənzər dünyada, narahat dənizdə gəmi kimi çalxalanan zəmanədə tez itib-batar, həyatın dibinə yuvarlanar. Cavad Heyət də elə bir kişinin ailəsində böyüyüb ki, o elə Cavad Heyət olmalıydı. Onun başqa cür olmağa haqqı da yox idi. Bəli, bu gün bütün dünyanın tanıdığı, elmini və sözünü qəbul etdiyi Cavad Heyət tanınmış bir ziyalının ailəsində tərbiyə alıb. Atası Mirzə Əli Heyət görkəmli ictimai və dövlət xadimi, hüquqşünas alim, maarifpərvər ziyalı olub, məsul vəzifələrdə çalışıb. Və bu kişi on övladının onunu da əqidəli, məsləkli, savadlı, vətənpərvər, qeyrətli vətəndaşlar kimi böyüdüb.

«Allah insana hürriyyət, seçmək imkanı verib. Mən də azad olmaq üçün həkimliyi seçdim» deyən Cavad Heyət əvvəlcə Tehranda, sonra İstanbulda, daha sonra Avropada – Parisdə mükəmməl təhsil alıb, bir müddət elə Paris Universitetinin cərrahlıq klinikasında çalışıb. 1952-ci ildə ixtisaslı cərrah kimi Tehrana qayıdıb.

Bir rəqəmi də qürurla dilə gətirmək istəyirəm: ömrünü, taleyini elmə, təbabətə bağlayan Cavad Heyət Şərqdə ən unikal cərrahiyyə əməliyyatlarının müəllifidir, ümumiyyətlə, o, 52 illik həkimlik təcrübəsində 20 mindən çox cərrahiyyə əməliyyatı aparıb, minlərlə insanın həyatını xilas edib.

Cavad Heyət, demək olar ki, hər yerdə birinci olub və özü də bunu etiraf edir. Birinci olmağın nə qədər çətin, məsuliyyətli olduğunu isə, məncə, hər kəs çox yaxşı anlayır. «Cərrahlıq həm elm, həm də sənətdir. Mən həmişə inandığım

həqiqətləri həyata keçirmək istəmişəm» deyən Cavad Heyət 1954-cü ildə ürək əməliyyatları aparmağa başlayıb. 1961-ci ildə İran mühiti üçün böyük uğur sayılan, ilk dəfə böyük müvəffəqiyyətlə keçən açıq ürək əməliyyatı da Cavad Heyətə aiddir. O, İranda eksperimental cərrahiyyənin bünövrəsini qoyub, ilk dəfə ürək qapaqlarını dəyişdirib. Tehranda ilk böyrəkköçürmə əməliyyatları da məhz Cavad Heyətin adı ilə bağlıdır. Bu nailiyyətlərə görə o, 1963-cü ildə Beynəlxalq Cərrahlıq Akademiyasının üzvü seçilib.

Az vaxtda ürək cərrahiyyəsinin öncülü kimi məşhurlaşan Cavad Heyət 1983-cü ildə dünyanın ən şöhrətli cərrahiyyə qurumu olan Paris Cərrahiyyə Akademiyasına üzv seçilib.

Tibbə aid çoxlu sayda sanballı kitabın, cərrahiyyəyə aid üç cildlik dərsliyin müəllifi, 12 il «Daneşe pezeşki» – «Tibb elmi» dərgisinin naşiri olan doktor Cavad Heyət 1988-ci ildən Azad İslam Universitetinin cərrahiyyə professorudur, Universitetin cərrahlıq şöbəsinin rəhbəridir. Bu, həm də o deməkdir ki, yeni Cavad Heyətlər yetişir, Cavad Heyət öz elmini, öz biliyini əsirgəmədən tələbələrinə öyrədir. Demək, «Çalışmışam ki, həyatda elm öyrənəm və elm öyrədəm. İnsan həyatda biliklə yaşamalıdır» deyən Cavad Heyət, həm də böyük müəllimdir. İslam dünyasının böyük şəxsiyyəti Həzrəti Əlinin belə bir fikri var: «Kim mənə bir hərf öyrətsə, ömrüm boyu ona qul olaram». Bu mənada, tələbələri Cavad Heyətə çox borcludurlar.

Bütün bu sadaladıqlarımın hamısı, bəlkə də, dildə çox asan səslənir. Amma bunların arxasında yuxusuz gecələr, gərgin və hərtərəfli çalışmalar, nəzəriyyə və bu nəzəriyyəyə əsaslanan praktika, böyük səbir, təmkin, iradə dayanır. Özünün dediyi kimi, bu işlər ona həyəcan, emosiya, stress, iztirab bahasına başa gəlib.

Hər bir sənət sahibi ilk addımını həyəcanla xatırlayır:

istər həkim, istər yazıçı, şair, istərsə də digər peşə sahibləri. Cavad Heyət də keçirdiyi ilk cərrahiyyə əməliyyatını, özü də çox uğurlu əməliyyatı həm sevinə-sevinə, həm həyəcanla xatırlayır. Bunun özü də xoşbəxtlikdir.

Dünyaşöhrətli korifey cərrahlardan biri olan doktor Cavad Heyətin elmi fəaliyyəti təkcə təbabətlə məhdudlaşmır. O həm də böyük tarixçi alim və filoloqdur. Ömrünün önəmli bir hissəsini Azərbaycan-türk tarixinin, dil və ədəbiyyatının tədqiqinə həsr edib, elmi türkoloji araşdırmalarla məşğul olub, naşirlik edib. Cavad Heyət sənəti, ədəbiyyatı, dilçiliyi, tarixi də bir həkim kimi tədqiq edib və özü demişkən, bunun da xeyrini görüb.

Cavad Heyətin ən böyük xidmətlərindən biri də onun «Varlığ»ıdır.

İranda İslam İnqilabının qələbəsindən sonra verilən nisbi dil azadlığından bəhrələnən alovlu vətənpərvər ziyalı dostları ilə birgə «Varlıq» dərgisinin nəşrinə başlayır. Nə az, nə çox, düz 26 ildir ki, Azərbaycan-türk dili, ədəbiyyatı, tarixi və folklorunu bu jurnal vasitəsilə yayır.

Mən «varlığımızın ifadəsi və sənədi olan» azadlıq quşu «Varlıq» haqqında xüsusi danışmaq istəyirəm.

«Varlıq»! İnanmıram indi kiminsə bu dərgi haqqında informasiyası, məlumatı, bilgisi olmasın. İnanmıram, indi kimsə bu dərgi haqqında eşitməmiş olsun. İnanmıram, indi kimsə bu dərgi ilə öyünməsin, fəxr etməsin. Bu öyüncü, bu qürur hissini bizə bəxş edən isə sözün həqiqi mənasında, böyük azərbaycanlı olan doktor Cavad Heyətdir. Və 26 ildir ki, bu jurnal bizimlədir. Bəlkə də, belə uzunömürlü ikinci bir jurnal, dərgi ağlımıza, xəyalımıza gətirə bilmərik. Mətbuat tariximizə nəzər salsaq görərik ki, mətbu orqanlarımızın əksəriyyəti çox qısa ömür yaşayıb. «Varlıq» isə 26 ildir ki, bizimlə yol gəlir. Biz indi Cavad Heyəti – ağsaqqal alimimizi,

böyük təbibimizi, görkəmli naşirimizi təkcə 80 illik yubileyi münasibətilə deyil, həm də təməlini, bünövrəsini qoyduğu bu jurnalın 26 illiyi münasibətilə təbrik edirik. Cavad Heyət gözünün nurunu, zəkasını, işığını, ömrünü, həm də bu jurnalın səhifələrində şam kimi əridib. Min bir zəhmətə, əziyyətə qatlaşaraq gözəl bir «övlad» da böyüdüb. Cavad Heyət bu layiqli «övlad»ın üstündə əsim-əsim əsib və onu bütöv türk aləminə bəxş edib. Öz doğma dilində yazan «Varlıq», həqiqətən də, varlığımızın aynasına, mövcudluğumuzun güzgüsünə çevrilib. Digər tərəfdən, bu dərgi də öz naşirinə, öz yaradıcısına borclu qalmayıb, onu öz səhifələrinin yaddaşına həkk edib. Özü də həmişəlik.

Cavad Heyət İran inqilabından sonra Tehranda «Varlıq» dərgisini çap etdirməklə türk mənəvi birliyinə qapı açdı, həm də bir məktəbə çevrildi. Bu jurnal az vaxtda böyük uğur qazandı: milli fikrin formalaşması, ədəbi dilin yayılması, o tay-bu tay məsələsində öz sözünü dedi. Cavad Heyətin yaratdığı «Varlıq» məktəbi İran türklərinin milli mədəniyyətini hansısa ideologiyaya bağlılıqdan azad etdi. Bundan başqa, İranda unudulmuş fikir sahibləri, ədəbiyyat və mədəniyyət xadimlərinin adları və əsərləri «Varlıq» vasitəsilə tanıdıldı, təbliğ olundu. Stokholmda yaşayan soydaşımız Əlirza Ərdəbilinin təbirincə desək, «Varlıq» məktəbi mənəvi dünyamızın coğrafiyasını bizə tanıtdırmaqla dünya xəritəsində durduğumuz yerin koordinatları ilə bizi tanış etdi.

Nə gözəl ki, bu gün ən kütləvi mətbuat orqanı olan «Varlıq» hər sayında öz oxucularını elmin, ədəbiyyatın, folklorun seçmə nümunələri ilə tanış edir, dilimizi təbliğ edir. Burada çap olunan silsilə məqalələr dilimizin tarixini, qrammatikasını, ədəbiyyat tariximizi, folklorumuzu əks etdirir. Həm də ana dilimizin nə qədər əzəmətli, zəngin, gözəl, musiqili bir dil olduğunu nümayiş etdirir, ədəbi dilimizin

aydınlığını və şəffaflığını göstərir. «Varlıq» hər səhifəsində ədəbi dilin nə qədər təbii olduğunu bir sənəd kimi ortaya qoyur. Bir sözlə, «Varlığ»ın ədəbi dilimizin populyarlaşmasında oynadığı rol danılmazdır.

Mən bir məqamı, incə bir nüansı da xüsusi vurğulamaq istəyirəm. Heç şübhəsiz, «Varlıq» jurnalını nəşr etmək doktor Cavad Heyət üçün heç bir yöndən asan olmayıb. O, həkimliyindən, alimliyindən qazandığını «uf» demədən bu jurnalın məsrəflərinə sərf edib, məcazi dillə desək, millətin varlığına xərcləyib. Mən hələ istirahətindən, dincliyindən kəsdiklərini, mənəvi narahatlıqlarını, əzab-əziyyətlərini demirəm. Bu mənada, Cavad Heyət qəhrəmandır. Yorulmaq bilmədən öz məsləki uğrunda mübarizə aparan və sonda qalib gələn qəhrəman. Eşq olsun zəmanəmizin bu fədakar qəhrəmanına!

Onu da mütləq qeyd etmək lazımdır ki, «Varlıq» həm də qaranquş olub. Onun ardınca İranda ana dilində onlarla mətbu orqanı, qəzet, jurnal çap olunmağa başlayıb.

«Varlığ»ın daha bir böyük xidməti isə ondan ibarətdir ki, o, Şimali Azərbaycanın istiqbal mübarizəsini də öz səhifələrində müdafiə etdi, erməni təcavüzünü pislədi. Bu gün də öz mövqeyində qalır.

Oxucuları ilə dil tapan, onların qəlbinə hakim olan mətbu orqanı «Varlıq» Azərbaycanda da böyük maraqla oxunur. Dərgidən seçmə nümunələr müntəzəm olaraq qəzet və jurnallarda dərc edilir, geniş oxucu kütləsinə çatdırılır, Beləliklə, fədakar yaradıcılığın bəhrəsi olan «Varlıq» xalqın varlığını, onun haqq səsini, mənəvi istəklərini ifadə edir. Elin sevincinə, dərdinə şərik olan, mənəvi yaralarına məlhəm qoyan, ona keçmişini, bu gününü anladan, sabahının yolunu göstərən nüfuzlu bir söz kürsüsüdür «Varlıq».

Bir daha qeyd edirəm, doktor Cavad Heyət öz

həmkarları ilə birlikdə «Varlığ»ın səhifələrində Azərbaycanın tarixi, ədəbiyyatı, dili və folklorunun öyrənilməsinə silsilə məqalələr həsr etmiş, bu sahədə bir akademiyanın görə biləcəyi işi görmüşdür. Azərbaycan ziyalıları bu əvəzsiz mənəvi sərvətlərə görə böyük ustad Cavad Heyətə və «Varlıq» dərgisinin müəlliflər heyətinə son dərəcə minnətdardırlar.

Doktor Cavad Heyət böyük alimdir. Onun türkoloji araşdırmalara dair üç yüzə qədər, tibbə aid isə yüzə yaxın məqaləsi, elmi əsəri müxtəlif illərdə İran, Türkiyə, Azərbaycan, Avropa ölkələri və Amerikada yayımlanıb. Onun türkologiyaya aid kitablarını məxsusi qeyd etmək istəyirəm: iki cilddə «Azərbaycan ədəbiyyatı tarixinə bir baxış», «Azərbaycan şifahi xalq ədəbiyyatı», «Türklərin tarix və ədəbiyyatına bir baxış», «Ədəbiyyatşünaslıq», «İki dilin müqayisəsi», «Türk dili və ləhcələrin tarixi». Bu kitabların hər biri ayrı-ayrılıqda Azərbaycan ədəbiyyatının, ana dilinin tədqiqinə, araşdırılmasına həsr olunan, böyük əhəmiyyət kəsb edən əsərlərdir. Və alimin bu əsərləri indi əl-əl gəzir.

Cavad Heyət dostu və həmkarı, rəhmətlik H.Nitqiylə birlikdə İranda elmi türkologiyanın əsasını qoyub. O, 1993-cü ildə Türkiyənin Tehran böyük elçisi Korkmaz Haktanırla birgə Tehranda Türk Kültür Mərkəzini açır. Cavad Heyət türkologiya sahəsində apardığı araşdırmalara və elmi əsərlərinə görə Türk dili Qurumunun üzvü seçilib, İstanbul Universiteti tibb və ədəbiyyat fakültələrinin altun və fəxri diplomlarını alıb, Azərbaycanın bir neçə nüfuzlu universitetinin fəxri professor və doktoru seçilib, bir çox önəmli elmi-mədəni qurumların mükafatlarına layiq görülüb.

Cavad Heyət Vətənimizdə çox sevilir, olduqca hörmətli tutulur. O, 1982-ci ildən Azərbaycan Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunun Elmi Şurasının, 1992-ci

ildən Azərbaycan Yazıçılar Birliyinin fəxri üzvüdür. Cavad Heyət Azərbaycan mədəniyyəti və elminin inkişafındakı xidmətlərinə, İran-Azərbaycan mədəni-ədəbi əlaqələrinin möhkəmləndirilməsindəki fəaliyyətinə görə 1991-ci ildə Milli Yaradıcılıq Akademiyasının fəxri akademiki, 1992-ci ildə Bakı Dövlət Universitetinin fəxri doktoru, 1993-cü ildə N.Tusi adına Azərbaycan Pedaqoji Universitetinin, 1994-cü ildə N.Nərimanov adına Tibb Universitetinin, Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinin, Bakı Xəzər Universitetinin fəxri professoru, Azərbaycan Cərrahları Elmi Cəmiyyətinin fəxri üzvü seçilib. Bakı universitetlərində professor-müəllim heyəti ilə görüşləri, tələbələr qarşısında maraqlı mühazirələri, xəstəxanalardakı uğurlu cərrahiyyə əməliyyatları alimi daha da sevdirib. Cavad Heyətin Bakıda tələbələr qarşısında "Kitabi-Dədə Qorqud"un yaranma tarixi və s. mövzularda oxuduğu mühazirələr həm tarixi-filoloji, həm də linqvistik baxımdan xüsusi marağa səbəb olub. İndiyədək onun çıxış və məruzələri mötəbər elmi simpoziumlarda səslənib, İngiltərə, Fransa, eləcə də Avropanın digər ölkələrinin ən nüfuzlu dərgilərində çap olunub.

Bəli, doktor Cavad Heyət tibbi və türkologiya sahələrində çalışmalarına görə dünyada, xüsusilə türk dünyasında məşhurlaşıb, adını öz sağlığında ikən əbədiləşdirib.

Doktor Cavad Heyət ana dilimizin böyük qayğıkeşi və təəssübkeşidir. O, böyük vətənpərvərdir, xalqını, millətini, Vətənini ülvi, təmiz, təmənnasız, alovlu məhəbbətlə sevən bir övladdır, Azərbaycan oğludur. Onun bu böyüklüyü ilə bağlı iki məqamı hər dəfə xatırlayanda çox təsirlənirəm. Birinci fakt odur ki, Cavad Heyət «Varlığ»ın ilk sayında böyük Azərbaycan şairi Bəxtiyar Vahabzadənin «Ana dili» şeirini

çap edib və bununla nə qədər misilsiz bir iş gördüyünü biz bu gün də böyük məmnuniyyət və minnətdarlıqla dilə gətiririk. İkincisi, Cavad Heyət 1971-ci ildə ustad Şəhriyarı ailəsi ilə birlikdə Tehrana dəvət edir, onları 5 ay evində qonaq saxlayır. Bununla da o, ustad Şəhriyarın yaradıcılığında yeni səhifə açır, şairin ana dilində yazıb-yaratmasına şərait yaradır. Və böyük Şəhriyar yenidən türkcə şeirlər yazmağa başlayır. Bu böyüklüyü və xeyirxahlığı ilə Cavad Heyət elə özü dediyi kimi, «fars şeirinin zirvəsinə çıxan və müasir İranın Hafizi. sayılan» Şəhriyarı sanki yenidən bizə qaytarır. Ədəbiyyat dünyamıza, söz sənətimizə «Heydərbabaya salam» adlı bir sənət incisi, söz mirvarisi, çox müqəddəs bir əsər bəxş edir.

Doktor Cavad Heyət Qarabağ müharibəsi ilə bağlı Azərbaycanın haqq səsinin dünya ictimaiyyətinə çatdırılmasında da böyük fədakarlıq göstərib və göstərir. İrandakı Qarabağ Müsəlmanlarına Yardım Komitəsinin sədri kimi Cavad Heyət dünyanın bir çox dövlət başçılarına müraciət edib. Onun 1993-cü ildə böyük ürək ağrısı ilə Türkiyənin prezidenti cənab Süleyman Dəmirələ yazdığı açıq məktubundakı sözləri həyəcansız oxumaq mümkün deyil: «Mən bu sətirləri göz yaşlarımın qabağını ala bilmədən yazıram və bu anda Allah-təaladan xalqımıza qurtuluş, ya özümə ölüm istəyirəm». Cavad Heyət həmin məktubda Azərbaycanı düşdüyü fəlakətdən çıxarmaq üçün səyləri gücləndirməyə, «böyük dövlətlərin silahları ilə təpədən-dırnağadək silahlanmış ermənilər qarşısında azərbaycanlıları müdafiə edib, soyqırımına mane olmağa» çağırır.

Cavad Heyət 1992-ci ildə Qarabağ savaşının 180 yaralısının – Qarabağ əlilinin Tehranda pulsuz müalicəsini təşkil edib, ən ağır yaralıları isə şəxsən özü əməliyyat edərək həyata qaytarıb.

Mən onlardan birinin Cavad Heyət haqqında dediklərini

də unuda bilmirəm. Bu, Qarabağ müharibəsi əlili Maarif Əliyevin sözləridir: «Mənim ağ ciyərim tamam dağılmışdı, qara ciyərimdə də qəlpələr qalmışdı. Məni fevralın 2-də operasiya elədi. Əməliyyat müvəffəqiyyətlə qurtarmışdı. Əməliyyatdan sonra mən ayılmamışdım. Görün, Cavad Heyət neyləmişdi. Mənimlə birgə Azərbaycandan gələn uşaqları gətirmişdi ki, Azərbaycan dilində, Bakı ləhcəsində, Azərbaycan ləhcəsində danışın. Maarif anasının, atasının, bacısının, qardaşının adını çəkirdi, o adları siz də çəkin ki, əsəblərinə toxunsun, bəlkə, narkozdan ayılsın. Cavad Heyət həmin variantla məni narkozdan ayıltmışdı». Gəlin etiraf edək ki, bu, həm də insan taleyinə biganə qalmayan humanist, xeyirxah bir həkimin hərəkətidir, Cavad Heyət böyüklüyüdür.

Cavad Heyət Azərbaycana humanitar yardım toplanılması, onun qaçqınlara, yaralılara və şəhid ailələrinə çatdırılması işində böyük əmək sərf edir. Biz bütün bunlara görə də ona çox borcluyuq.

Öz fəaliyyətində iki parlaq sahənin vəhdətini yaradan, iki qütbü birləşdirən, ədəbiyyatı təbabət, təbabəti ədəbiyyat qədər dərindən mənimsəyən, bilən Cavad Heyətin Bakıya hər gəlişi əsl toy-bayrama çevrilir. O, müstəqil Azərbaycanın ən əziz qonağı olur.

Bilirsiniz ki, on il əvvəl Doktor Cavad Heyətin 70 illiyi Bakıda dövlət səviyyəsində, Azərbaycan ziyalıları və elmi ictimaiyyətin iştirakı ilə geniş qeyd edildi. Dövlət Televiziyası ilə nümayiş etdirilən bu yubiley gecəsinə bütün Azərbaycan baxdı, bütün Cavadsevərlər baxdı, xalqımız bir daha bu Vətən oğlunun qüdrətinin şahidi oldu.

Xalqımızın ümummilli lideri, dünyaşöhrətli siyasətçi Heydər Əliyev də Cavad Heyət şəxsiyyətinə, Cavad Heyət elminə, Cavad Heyət vətənpərvərliyinə yüksək dəyər verirdi, ona böyük hörmətlə yanaşırdı. Ulu öndərimiz Cavad Heyəti

Bakıda qəbul edərkən xeyirxahlığına, Vətən üçün əhəmiyyətli işlərinə və İranla Azərbaycan arasında dostluq körpüsü yaratdığına görə ona minnətdarlıq etmişdi.

Doktor Cavad Heyətin qəlbi daim vətənpərvərlik ehtirası ilə döyünür. O, bütün varlığı ilə xalqının xoşbəxtliyi üçün çalışır.

Bir məqamı da nəzərə çatdırmaq istəyirəm: əgər Cavad Heyət təkcə cərrah, həkim, təbib kimi fəaliyyət göstərsəydi, yenə sənətin zirvəsində dayanacaqdı. Əgər Cavad Heyət təkcə türkologiya ilə məşğul olsaydı, yenə tarixdə ən məşhur türkoloq alim kimi qalacaqdı. Əgər Cavad Heyət təkcə «Varlığ»ın naşiri olsaydı, yenə də Azərbaycanın ən sevimli övladlarından biri olaraq tanınacaqdı. Yəni o, hər sahədə öz sözünü böyük məharətlə, ustalıqla, peşəkarlıqla deyib.

Mənim bütün bunları sadalamaqda məqsədim var. Bu gün Cavad Heyət ömrün zirvəsindədir! Və həm də müdrikliyin zirvəsindədir. Ömrün zirvəsinə çatmaq olar, amma öz sağlığında müdrikliyin zirvəsini kəşf etmək hər kəsə nəsib olan xoşbəxtlik deyil. Amma Doktor Cavad Heyət bu zirvəni kəşf edib. Və o, bu zirvəni kəşf etmək üçün nəfəs dərmədən yol gəlib. İndi bu zirvədən dünyaya, onu sevənlərə qürurla, alnıaçıq baxmağa tam haqqı var. Bu gün Cavad Heyətin öyünməyə tam haqqı var.

Cavad Heyət yüksək səriştəli həkim-cərrah, filoloq-alim, tarixçidir. O, indi də İran İslam Respublikası ilə Azərbaycan arasında, Cənubi Azərbaycanla Şimali Azərbaycan arasında mənəviyyat körpüsünə çevrilib. Qoy bu körpü sarsılmaz olsun!

İki tayın ağsaqqalı, hamımızın iftixarı, müdrik insan! Biz fəxr edirik ki, dövrümüzün ensiklopedik biliyə malik alimi, görkəmli təbibi, alovlu vətənpərvər doktor Cavad Heyətin müasirləriyik.

Böyük ustad! Siz ürək həkimisiniz! İndiyədək gördüyünüz hər işi sidq ürəklə görmüsünüz. Qoy ürəyiniz daim sağlam olsun, möhkəm olsun! Öz sahibini hələ neçə-neçə şərəfli illərə çatdırsın!

Bir arzumu isə həmkarlarımdan birinin sizə ünvanladığı misralarla bildirmək istəyirəm:

Min ömür uzatdın, bəxş etdin həyat,
Nə bir insan ölsün, nə bir gül solsun!
Gün o gün olsun ki, ay Cavad Heyət,
Bölünmüş ürəklər yenə bir olsun!

Yüz yaşa, ustad!

«İki elin ağsaqqalı» kitabı.
«Təhsil» nəşriyyatı, 2005, səh. 6-17

«QARABAĞIN KEÇDİYİ TARİXİ YOL»

(S. Sərdarniyanın tarixi düşüncələrinə münasibət)

Azərbaycana qarşı tarixi erməni düşmənçiliyi, Qarabağ torpaqlarının işğalı, 1988-ci ildən bəri bu məsələdə təcavüzə rəvac verib konsensusa gəlməyən, yaxınlaşma anlarında daim xəyanətkar cəhdlərlə sülh işini əngəlləyən ermənilərin çoxüzlü siyasəti fonunda Azərbaycan Prezidenti İlham Əliyevin tutduğu prinsipial mövqeyi, beynəlxalq tədbirlərdə Azərbaycan xalqının tarixi haqqına və ölkəmizin real hərbi-siyasi imkanlarına söykənən kəskin nitqləri, xüsusən Dünya azərbaycanlılarının II qurultayında xalqa birmənalı müraciəti dünyanın hər yerində yaşayan soydaşlarımızı Qarabağ ideyası ətrafında sıx birliyə, fiziki, mənəvi mübarizəyə çağırır. Hadisələrin separatizm, döyüş, fiziki təzyiq mərhələsindən siyasi, ideoloji müstəviyə keçdiyi bir zamanda düşmənə qarşı mübarizənin daha sivil və çağdaş metodları barədə fikirləşmək lazım gəlir. Bu da dünya ictimaiyyətini Azərbaycan həqiqətlərinə inandırmaq, Qarabağ ətrafında uzun illərdən bəri davam edən münaqişədə ermənilərin ədalətsiz mövqeyini ortalığa qoymaq, bu sahədə siyasi, mənəvi balans yaratmaq, elə bir ideoloji üstünlüyə nail olmaq gərəkdir ki, bu münaqişədə xristian faktı da köməyə gələ bilməsin. Bu isə tarixi faktların tərəfsiz mövqeyi, məntiqi ilə mümkündür. Çünkü tarix bütün dinlərdən, milli mənsubiyyətdən qədimdir, qədim olduğu üçün də ədalətlidir. Məhz bu reallıqlara inam gətirib «Qarabağın keçdiyi tarixi yol» əsərini qələmə alan

görkəmli tarixçi alim, cənublu soydaşımız Səməd Sərdarniya yeni mərhələdə Qarabağ işinə mənəvi dəstək olmaq istəmişdir. İran İslam Respublikasının Ermənistanla yaxın qonşuluq və isti iqtisadi, siyasi əlaqələr saxladığını nəzərə alsaq, bu əsərin həmin mühitdə doğuracağı ictimai əks-sədanı göz önünə gətirmək çətin deyil.

Nəzərə alsaq ki, Azərbaycanın tarixi-coğrafi varlığı, Azərbaycan dili və milli mənsubiyyəti elə İranın özündə fars şovinistləri tərəfindən daim təhrif və təzyiqlərə məruz qalıb, məhz belə bir mühitdə erməni millətçiliyinə, xəyanətkarlığına qarşı yazılmış əsərlərin dəyəri daha da artır.

«Qarabağın keçdiyi tarixi yol» əsəri (Səməd Sərdarniya. Təbriz. «Novaye-Şəms» nəşriyyatı, 2005) bu mənada bir neçə cəhətdən maraq doğurur. Kitabın müəllifi S. Sərdarniya hər şeydən əvvəl Qarabağ olaylarına tarixi aspektdən düzgün qiymət vermiş, milli təəssübkeşlik hissini ikinci planda saxlayaraq, dünya ictimaiyyətini faktların həqiqətinə inandırmağa çağırmışdır.

Bu monumental tarixi əsərdə (550 səh.) 152 mötəbər mənbədən (mənbələrin çoxu Avropa, xristian mənşəli alimlərə məxsusdur) Qarabağla, yaxud həmin coğrafi ərazilərlə bağlı fikir və mülahizələrindən istifadə müəllifin peşəkar üstünlüyünü sübut edir. Əsərin fars şovinizminin azərbaycanlılara qarşı təzyiqlərinin gündən-günə artdığı İran mühitində fars dilində çap olunması farsdilli oxuculara əsl reallıqlar barədə məlumat qazanmaq imkanı verir. Bu təkcə kağıza köçürülən yazı faktı, mülahizə nümunəsi deyil, həm də güneydə yaşayan 35 milyonluq soydaşlarımızın çağdaş mövqeyi, ümumi vətən ocağından ötrü narahatlığı kimi də çox faydalı və vaxtında ifadə olunmuş «bəyanatdır». Əslində «Qarabağın keçdiyi tarixi yol» Azərbaycanın dünya birliyində öz mövqeyini müəyyənləşdirməsinin mübarizə tarixinə həsr

olunub.

Müəllif münasib məqamlar seçərək bütöv Azərbaycanın üzərinə kölgə salan, Şimali Azərbaycanı Aran və başqa adlarla təqdim etməklə tarixi əraziləri saxtalaşdıranlara tutarlı cavablar verir, etnik mədəniyyətin ən sirli qatlarına enməklə əsl həqiqətləri üzə çıxarır. Hadisə və faktların dinamizmini artırmaq üçün ən müasir formada işlənmiş bu kitab tarixi analiz, ümumiləşdirmə, faktların canlı şahidliyi ilə situasiyalara qiymət verməyə çalışır, çox vaxt buna nail ola bilir.

«Dağlıq Qarabağ» bölümündə bu tarixi ərazilərin eyni tale yaşadığını vurğulayan və adı çəkilən ərazinin Aran Qarabağdan ayrı bir şey olmadığını diqqətə çatdıran tarixçi ermənilərin bu ərazilərə məqsədli köçürmə tarixini bir daha yada salır. Süni şəkildə etnik tərkibi dəyişdirilən bu ərazilərdə əvvəllər bir nəfər də ermənin olmadığı ilə bugünkü reallıqların ziddiyyətini oxucu üçün aydınlaşdırmağa çalışan tədqiqatçı bu situasiyada ermənilərin havadarlarının oynadığı rolu da geniş planda işıqlandırmağa çalışır.

Dağlıq Qarabağ toponiminin sırf relyef bələdçisi rolu oynadığını vurğulayan müəllif bu ərazilərin Qarabağın tərkib hissəsi olduğunu və tarixən Azərbaycan nüfuzunda yerləşdiyini izah edir.

XX əsrin əvvəllərində Azərbaycan ərazilərində öz tarixi partnyorlarına Ermənistan dövləti quran Rusiya Qarabağda kompakt halda məskunlaşmış ermənilərin gücündən istifadə etdi. Yeni yaranmış Azərbaycan hökumətinin bir neçə cəbhədə mübarizə aparmağa imkanı olmadığı üçün müəyyən ərazi güzəştlərinə getdi. Zəngəzur torpaqları itirildi. Çar Rusiyasının varisi kimi siyasi meydana atılan SSRİ daha gizli və incə milli siyasət yeritməklə bir vaxtlar çar Rusiyasının işğal etdiyi əraziləri «hamının vətəni» hesab edərkən milli

münasibətlərdə gərginliyi xeyli azaltdı. Bundan istifadə edən sovet ideoloqları Qarabağdakı ermənilərə avtonom hüquqlar verməklə Dağlıq Qarabağ Muxtar Vilayəti yaratdılar. Ölkə içində qondarma muxtar qurumların yaradılması gələcəkdə baş verəcək milli münaqişələr üçün ocaq kimi zaman-zaman tüstülənirdi. Nəhayət, SSRİ-nin dağılma marafonunun başladığı 1988-ci ildə buradakı ermənilər tam müstəqillik çağırışları ilə Azərbaycandan ayrılmaq iddiasına düşdülər. S. Sərdarniya hesab edir ki, bütün bu planlı separatizm siyasəti xaricdə yaşayan erməni lobbisi və onlara yardım edən super güclər vasitəsilə nəhayət ki, XX əsrin sonunda həyata keçirildi. Bu gün təkcə Dağlıq Qarabağ deyil, ona bitişik 7 rayonun ərazisi Ermənistan ordusu tərəfindən işğala məruz qalıb.

Kitabın məziyyətlərindən biri də Qarabağın Azərbaycan milli-mənəvi bütövlüyündə yerini, mərtəbəsini müəyyənləşdirməklə bağlıdır. Azərbaycanın təbii konservatoriyası adlandırılan Qarabağ təkcə görkəmli müğənnilərin deyil, həm də bir çox sənətlərin ən zəngin qaynağı kimi «Qarabağ: zəngin mədəniyyət beşiyi» bölümündə (səh. 57) bəhs olunur. Xocalı rayonu ərazisində aşkar olunmuş qədim Quruçay mədəniyyətinin, Azıx mağarasından aşkar olunan nümunələrin bəşər mədəniyyətinə yeni səhifə açdığını diqqətə çatdıran müəllif, təəssüf hissi ilə qeyd edir ki, indi ermənilər işğal altında olan bu ərazilərdə hər şeyin tarixini yenidən yazmağa, faktları təhrif etməyə, ermənileşdirməyə çalışırlar. Bu, əslində Azərbaycandan daha çox bəşəriyyətə meydan oxumaq, tarix elmini alt-üst etmək, elmdə, mədəniyyətdə vandalizmdir. Müəllif kitaba maddi mədəniyyət abidələrinin, kurqan və arxeoloji tapıntıların fotolarını daxil edərkən bu gün xaricdəki erməni lobbisinin yardımı və təhriki ilə Xocalıda, Azıx mağarasında «yeni tarix»

axtaran xarici ölkə alimlərinə əsl həqiqəti tanıdır, onları saxtakarlıqdan əl çəkməyə səsləyir.

S.Sərdarniya Azərbaycanın tarixi sərhədlərini tanıdarkən Təbərinin mötəbər mənbədən «Tarix» əsərinə müraciət edir: «Azərbaycanın sərhədləri Həmədandan başlayır, Əhər və Zəncanı əhatə etməklə Xəzərlərin Dərbəndinə kimi uzanır və bu məsafədə olan bütün şəhər və ərazi Azərbaycan adlanır». (səh. 40). Belə geniş və zəngin ərazidə tarixi dövlətini yaratmış xalqın etnik mənşəyi, təsərrüfat fəaliyyəti, adət-ənənələri, dini inancları barədə söz açan tarixçi iki mərhələdə: «Azərbaycan islamdan qabaq» və «Azərbaycan islamdan sonra» (səh. 57) bölümlərində fikirlərini əsaslandırmağa çalışır.

Bu ərazilərdə tarixən mövcud olan prototürklərin (qədim türklərin) gəlmə türk soyları və digər xırda etnik xalqlarla daimi təmasından formalaşan bugünkü super etnosun azərbaycanlıların əvvəllər tanrıçı, atəşpərəstlik inanclarına tapındıqlarını, torpağa, vətənə bağlı oturaq xalq olduqlarını, daha çox əkinçilik, maldarlıqla təsərrüfat həyatlarını qurduqlarını, vətən uğrunda qəhrəmanlıqla döyüşdüklərini, imperiyaların gətirdikləri zülmə, işğala dözümsüzlük göstərərək daim mübarizə apardıqlarını, nəhayət, milli müstəqilliyə ruhun cana qovuşduğu kimi qovuşduqlarını qeyd edir. Dünyanın ən yeni və modern inanc sistemi olan islamı öz həyat, yaşam, milli düşüncə tərzinə uyğun sayıb könüllü qəbul edən türk qövmü kimi Azərbaycanda da böyük islam mədəniyyəti, əxlaqı dünyagörüşü, fəlsəfəsi formalaşır. S.Sərdarniya yazır: «Qarabağ VII əsrdə Bərdə mərkəz olmaqla Mehranilər sülaləsinin hakimiyyəti altında idi. Həmin bölgədə, eləcə də Aran və bütün Albaniyada Cavanşir hökmranlıq edirdi».

İslamı ilk qəbul edən ərazilərdən biri kimi Qarabağın

adını çəkən tarixçi bu faktı islam əsgəri Ömər ibn Xəttabın zamanı ilə əlaqələndirir. Qarabağ ərazisində, Albaniyada yaşayan xristian mənşəlilərin sonradan Eçmədzindəki erməni kilsəsinin təsiri altına düşməsi və təzyiqlər altında ermənileşdirilməsi faktına toxunan müəllif dini inancın bəzən etnik mənsubiyyətə neqativ təsirini də təəssüf hissi ilə xatırladır. Bu gün Azərbaycan ərazisindəki Alban abidələrini dünyaya erməni abidəsi kimi tanıtmağa çalışanların iç üzünü açmaq üçün müəllif Cənubi Qafqazın islamlaşma faktına və o zamanki ictimai münasibətlərə bu səbəbdən daha ciddi əhəmiyyət verir. Belə çıxır ki, islamı qəbul edən Alban sakinləri bugünkü türk-islam mədəniyyəti daşıyıcısı olur, xristianlığı yaşadan albanlar erməni kilsəsinin təsirilə ermənilər və zaman-zaman milli mənsubiyyətini və əski dilini də unudur, nəticədə ermənileşir. Qarabağ sakinləri içərisində «din ayrı qardaş» ifadəsi məhz Qarabağın ərəb istilası nəticəsi olaraq yaranmışdı.

Azərbaycan şifahi söz sənətinin, ədəbi dilinin, klassik ədəbiyyatın ən qədim məskənlərindən olan Qarabağda «islam dininin yayılması və Azərbaycan türkləri tərəfindən qəbul edilməsi nəticəsində əski əlifbanın əvəzinə ərəb əlifbasını yazı vasitəsi kimi qəbul ediblər» (səh. 101) Bu ərazilər qədim dövlətçilik ənənələrini yaşatması ilə də ətraf bölgələrə nümunə idi. Müəllifin yazdığına görə «Elxanilər dövlətinin başçısı Qazan xan bir müddət Təbrizdə qaldıqdan sonra Qarabağa gələrək burada qurultay keçirir, özünü xan elan edir… Ulcaytu 1317-ci ildə şiəliyi qış fəslində məhz Qarabağda qəbul etdi, əslində Qarabağ şiəliyin yayıldığı ilk Azərbaycan bölgələrindən oldu». (səh. 139)

Espulerin, Faruk Sumerin fikirlərinə istinad edən S. Sərdarniya Qarabağın Elxanilər dövründə, Əmir Teymur zamanındakı tarixi-siyasi vəziyyətini, milli-etnik tərkibini,

mədəni mühitini şərh edərkən burada türk-Azərbaycan nüfuzunun hökmranlığını, erməni faktının isə mövcud olmadığını dönə-dönə dilə gətirir. (səh.149-169)

«Qarabağ Qaraqoyunlular dövründə» bölümündə müəllif Əmir Teymurun oğlu Şahruxun bu cənnət torpaqlara daimi maraq və vurğunluğundan söz açır, bu yerləri yaylaq seçib, öz istirahətini burada keçirdiyini vurğulayır.

Müəllifə görə «Qarabağ Səfəvilər dövründə» də azərbaycanlıların əbədi məskəni olub. (səh.193) O, F. Sumerə istinad edərək yazır ki, Səfəvi hökmdarı Şah İsmayılı müşayiət edənlərdən Bayram bəy Qaramanlı, Qara Piri bəy Qacar qarabağlı idilər. Onlar Şeyx Heydərə və Şah İsmayıla yaxınlıqları ilə tanınırdılar. Bayram bəy sonralar divanbəyi vəzifəsinə yüksəldi.

Cənubi Azərbaycanla daim ortaq tale yaşamış Qarabağı Şah İsmayıl özünün qışlağı hesab edirdi. Təbrizi paytaxt edən Səfəvi hökmdarı ölkəni 4 bəylərbəyinə bölmüşdü: Təbriz, Qarabağ, Çuxursəd, Şirvan. Qarabağın hüdudları da o dövrdə hər kəsə bəlli idi: Gəncə, Bərdə, Bərgüşad, Lori, Cavanşir mahalları. (səh. 196)

Təəssüflər olsun ki, Azərbaycanın milli birliyinə Şah İsmayıl dövründəki qayğılar sonralar şəxsi maraq və mənafelərin, tayfa, sülalə, məzhəb, region hisslərinə qurban verilmiş, hətta Nadir şahın hakimiyyəti dövründə bir qrup erməni feodalının Qarabağa köçürülməsi sonralar maraqlı dövlətlər tərəfindən davam etdirilmişdir.

Bu süni deportasiya siyasəti Abbas Mirzənin hakimiyyəti dövründə də olmuş, guya ruslara qarşı müharibədə ehtiyatkarlıq göstərmiş bir çox Qarabağ elatları cəzalandırılaraq İranın yaşayış üçün əlverişsiz səhralarına sürülmüşdür. Nəticədə isə Qarabağın boş qalan elatları növbəti erməni köçlərinin artıb çoxalma məskəninə

çevrilmişdir. (səh. 344)

Qarabağın xanlıqlar dövründə bir türk (Azərbaycan) yurdu kimi inkişafını, çiçəklənməsini o dövrdə xanlığa başçılıq edən Cavanşir tayfasından çıxan xanların uzaqgörən siyasəti, dövlətçilik səriştəsi ilə əlaqələndirən müəllif həm də bu yerlərin ədəbi-mədəni mühiti haqqında görkəmli elm, sənət adamları barədə məlumat verir. Molla Pənah Vaqifin həm şair, həm də yetkin siyasət adamı kimi mərtəbəsini tanıdan S.Sərdarniya onunla bir sırada Qarabağın məşhur şəxsiyyətlərinin, o cümlədən Əbülfət xan Cavanşirin, Cəfərqulu xan Cavanşirin, Ağabəyimin, Xurşidbanu Natəvanın, Mehdiqulu xanın, Qasım bəy Zakirin, Molla Vəli Vidadinin adlarını çəkir. Bütün bunlardan sonra Qarabağa erməni iddialarının puçluğu heç kəsdə şübhə doğurmasa da, müəllif tarixi-xronoloji ardıcıllıqla Qarabağ reallıqları ilə tanışlığı davam etdirir.

Tarixçi alim Qarabağdakı demoqrafik faciələrdə Rusiyanın əsaslı rolu olduğunu, Rusiya-İran müharibəsindən və «Türkmənçay» müqaviləsindən sonra bu prosesin gücləndiyini, tarixi Azərbaycan ərazilərində erməni anklavı yaratmaqla bölgədə türk-islam avtonomluğunu pozmaq cəhdləri barədə söz açır: «Uzun sürən həmin müharibələrdə Qarabağ diyarı əsas döyüş cəbhələrindən idi və bu region hər iki tərəf üçün böyük əhəmiyyət kəsb edirdi. XIX əsr Azərbaycan tarixçisi Əhməd bəy Cavanşirin dediyinə görə Şuşa qalası İran üçün Qafqazın açarı, Rusiya üçün İranın qapısı hesab edilirdi». (səh. 321)

Müəllif çar generalı Sisianovun Qarabağda ermənilərə göstərdiyi xüsusi qayğını, aborigen xalqa etdiyi zülmü də Rusiyanın Azərbaycana, Qarabağa münasibətinin nəticəsi kimi şərh edir, Qarabağın ermənilərdirilməsi istiqamətində total tədbirlərin başlandığını bildirir: «Çarın tapşırığı Sisianov

üçün qanun idi. O, bütün fəaliyyəti dövründə ermənilərə xüsusi qayğı göstərirdi və hücum zamanı ermənilərdən istifadə edirdi. O, hiyləgərlik və xəyanətdə başqalarından seçilir, qəlbində azərbaycanlılara nifrət hissi yaşadırdı». (səh. 321) Rusiya çarından aylıq məvacib alan ermənilərin İbrahimxəlil xanın öldürülməsində əli olduğunu qeyd edən müəllif rus-erməni birliyini Qarabağdakı faciələrin başlıca səbəbi hesab edir. İranla «Türkmənçay» sülhü imzalayan Rusiya bu müqaviləyə İran ərazisindəki ermənilərin Qarabağa köçürülməsi bəndini əlavə etməklə Şimali Azərbaycanda əbədi milli münaqişələrin əsasını qoymuş oldu. Müəllif kitabın «Ermənilərin Qarabağa köçürülməsi» bölməsində yazır: «Böyük Pyotr Qafqazın əhəmiyyətini başa düşərək onu Yaxın Şərqin qapısı hesab edirdi. Bu strateji əraziləri ələ keçirməklə Osmanlıların Xəzər sahilinə yolunu bağlamaq istəyirdi. Bu məqsədlə erməni əsillilərdən dayaq kimi istifadə edir, onların Qarabağda daha sıx və sürətlə məskunlaşmasına yardım edirdi». (səh. 362)

Ermənilərin türklərə tarixi xəyanəti barədə fransız müəlliflərinin (Jan Moqi Karzo «Ermənistan 1915-ci ildə») əsərlərindən sitat gətirən S. Sərdarniya ruslarla partnyorluq edən ermənilərin, hətta iki ölkə ərazisində (İran, Türkiyə) birləşərək Rusiya-İran müharibəsində «ikinci cəbhə» açdıqlarını və ruslara sədaqət göstərdiklərini, həmin regionu müsəlmanlardan təmizləməyi qarşılarına məqsəd qoyduqlarını bildirir. (səh. 363)

Ermənilərin Qarabağa köçürülməsi zamanı yerli türklərin rəyinə məhəl qoyulmadığını ürək ağrısı ilə diqqətə çatdıran müəllif yazır: «Əvvəlcə onların (ermənilərin) Bərdə şəhərində yerləşdirilməsi və həmin şəhərin yenidən tikilməsi çar Rusiyası tərəfindən planlaşdırılırdı. Lakin oranı bəyənməyən ermənilər Şuşanın səfalı ərazilərini seçərkən

yerli türklərin əlindən dədə-baba torpaqlarını məcburən alıb onlara verdilər. Bu vaxt qədim qarabağlıların heç bir etirazı qəbul olunmadı, ermənilərin istəyi üstün tutuldu. Ermənilər rus havadarları hesabına o vaxtdan Qarabağda istədiklərini etməyə başladılar». (səh. 368)

Öz ərazilərini genişləndirmək üçün Türkiyəni hədəf seçən Rusiya burada da yerli ermənilərin xəyanətindən istifadə etməyə, onları silahlandırıb ölkədə münaqişələr törətməyə həvəsləndirirdi. Amerikanın Kaliforniya ştatındakı Harvard universitetinin müəllimləri İstanfordşaf və Ezelkuzahn tədqiqatlarından çıxış edən müəllif türk-rus müharibəsində – Arpaçay döyüşlərində rus qoşunlarına erməni generalı Lazoryanın rəhbərlik etdiyini və çoxlu qanlar tökdüyünü xatırladır. Xəyanəti üzə çıxan ermənilərin 150 min nəfərlik kütləvi köçünün İrəvana istiqamətlənməsi də rus havadarlarının perspektivdəki düşmənçiliyinə əsaslanırdı. (səh. 377)

Uzun illərdən bəri türk-müsəlman dünyasına qarşı ideoloji, hərbi cəhətdən silahlanmış ermənilər əsasən terrora, separatizmə, lokal münaqişələr törətməyə üstünlük verirlər. Müəllifin İranda çıxan «Keyhan» qəzetinə istinadən yazdığına görə: «Daşnak partiyası hal-hazırda azsaylı erməni sakinlərinə malik olan 24 ölkədə terror qruplarına malikdir və hər cür qanlı cinayətə hazırdır». (seh. 421)

Sonrakı fəsillərdə erməni cinayətinin daha geniş arealını xatırladan – 1905-1906-cı illərdə «Böyük Ermənistan» iddialı daşnakların İrəvanda, Naxçıvanda, Şuşada, Gəncədə törətdikləri qırğınların miqyasını göstərən tarixçi alim 1918-1920-ci illərin bolşevik-erməni birliyində apogeyə yüksəldiyini, Bakı, Şamaxı, Quba və başqa yerlərdə 10 minlərlə türk azərinin qətlinə rəvac verildiyini diqqətə çatdırır.

Bütün bu cinayətlərin vahid mərkəzdən, düşünülmüş

ideya-siyasi xətt üzrə planlı və dinamik şəkildə idarə olunduğunu qeyd edən S. Sardarniya dünya ictimaiyyətini bu dini, milli irqi ayrı-seçkiliyə son qoymağa, bəşəriyyəti bürüyən erməni terrorizmindən birgə səylər əsasında xilas etməyə çağırır.

tki əsrdən bəri yığcam bir ərazidə – Qarabağda törədilən erməni cinayətlərinin miqyası da göstərir ki, heç bir siyasi dialoq qana susamış cəlladları məqsədə doğru fəaliyyətdən dayandıra bilməyəcək. Vaxtında çap olunmuş bu əsər təkcə tarixi faktların bolluğu, inandırıcılığı ilə deyil, həm də vətəndaş narahatlığı, ziyalı həyəcanları ilə oxucuya yüksək təsir bağışlayır. İnanırıq ki, Cənublu soydaşımız görkəmli alim Səməd Sərdarniyanın bu kitabı İranda və farsdilli oxucular arasında böyük maraq doğuracaq, erməni cinayətkarlığının ifşasında yeni addım olacaq.

«Azərbaycan» qəzeti,
20 iyun 2006-cı il

RADİO VƏ TELEVİZİYANIN ƏLİFBASI PROQRAMLAŞDIRMADAN BAŞLAYIR

«Öz xalqına sədaqətlə xidmət etmək amalını hər şeydən uca tutan teleradio işçiləri hörmət və ehtirama layiqdir».

H. Əliyev

XX əsrin üçüncü onilliyindən başlayaraq radio insanların ictimai və şəxsi həyatının ayrılmaz tərkib hissəsinə çevrilib. Əsas silahi sözdən, yardımçı arsenalı müxtəlif səs effektlərindən ibarət olan bu güclü informasiya vasitəsi cəmiyyətdə gedən bütün ictimai-siyasi proseslərə operativ və çevik surətdə müdaxilə etməyi bacarır.

İxtisas ədəbiyyatında «Sumultanlıq», yaxud «həminandanlıq» adlandırılan bu fenomen-hadisə haqqında məlumatı həmin anda çatdıra bilmək xüsusiyyəti televiziyada da var, lakin radionun bir sıra özünəməxsus cəhətləri ona bu sahədə «mavi sehrkar»ın güclü rəqabətinə tab gətirməyə, bəzi hallarda isə hətta onu üstələməyə imkan verir.

İctimai həyatda baş verən hadisələrin mövzu rəngarəngliyi və zənginliyi kütləvi informasiya vasitələrini vadar edir ki, bu hadisələri daha ətraflı və operativ işıqlandırmaq üçün müxtəlif üsullardan istifadə etsinlər. Belə üsullardan birini şərti olaraq «şaxələnmə» adlandırmaq olar. Məsələn, mətbuat bu üsulu müxtəlif sahələrə aid əlavələr buraxmaqla, televiziya və radio isə yeni kanallar açmaqla həyata keçirir.

Azərbaycan radiosunun yarandığı 1926-cı ildən bu günə kimi keçdiyi şərəfli yola nəzər salsaq, aydın olar ki, tam obyektiv səbəblər üzündən radio uzun illər mərkəzin imperiya ambisiyalarına tabe edilərək öz sözünü müəyyən qədər yad ruhda deməyə məcbur edilsə də, millətin maariflənməsi, istənilən informasiya ilə təmin olunması və asudə vaxın maraqlı keçirilməsi üçün dinləyicilərə kömək etmək yolunda xeyli iş görüb. Tam cəsarət və məsuliyyətlə deyə bilərik ki, 70 illik sovet rejimində milli mentalitetimizin qorunmasında, mədəniyyətimizin inkişafında və nəhayət, bugünkü müstəqilliyimizin əldə edilib saxlanılmasında Azərbaycan radiosu və televiziyasının əvəzsiz xidmətləri olub və bu hal-hazırkı dövr üçün daha aktualdır.

Bu həqiqətdir ki, televiziya və radio proqramlaşdırmadan başlayır. Verilişlərin düzümü günün, həftənin tələblərindən doğur. Əgər 1926-1956-cı illərə nəzər salsaq, görərik ki, cəmi bir neçə saat efir vaxtı olan radioda proqram şöbəsi olmayıb. 1956-cı il fevralın 14-də televiziya verilişləri başlanandan düz bir il sonra radionun həftəlik mətbu orqanı işıq üzü gördü.

1957-ci ildən radio proqramları «həftəlik» qəzetdə çap edilməyə başladı. O vaxt Soltan Nəcəfov proqram redaksiyasına müdir təyin edildi. Bu şöbə 1964-cü ilədək fəaliyyət göstərdi. 1964-cü ildə şöbə genişləndirilərək «Proqram və buraxılış» baş redaksiyası yaradıldı. Sabir Axundov 1966-cı ilədək bu qurumun ilk baş redaktoru oldu. Sonralar sovetlər məkanında müttəfiq respublikalarda olduğu kimi redaksiyanın adı dəyişdirilərək «Proqram və buraxılış baş direktorluğu» adlandırıldı. 1964-1978-ci illərdə bu vəzifədə işləyənlərin əməyi mənalı və dəyərli olub. Radio proqramlarının zənginləşməsində böyük səy göstərən insanları bu gün bir daha xatırlamaq yerinə düşərdi: Azərbaycanın

Levitanı, respublikanın əməkdar artisti Aydın Qaradağlı, əməkdar artist Sabutay Quliyev, Eldar Əliyev, Cəfər Qocayev, Nuhbala Quliyev, Kamil Məmmədov, Bilal Muradov, əməkdar jurnalist Valid Sənani, Nazim Novruzov, Abbas Rüstəmov. . .

Moskvada İctimai Elmlər Akademiyasını bitirmiş, Respublikanın əməkdar mədəniyyət işçisi, H. Zərdabi mükafatı laureatı Zöhrab Zeynallı 1978-ci ilin sentyabrından bu günədək radionun «Proqram və buraxılış» redaksiyasına rəhbərlik edir.

Respublika radiosu uzun müddət – yaranandan 1951-ci ilə qədər bir proqramla işləmişdir. Lakin sonralar təkproqramlı yayım həm dövlət siyasəti, həm də dinləyici marağı baxımından tələbatı ödəməmiş, 2-ci proqramın açılmasını zəruri etmişdir.

1951-ci ildə fəaliyyətə başlayan 2-ci proqram musiqili və ədəbi-bədii proqram səciyyəsi daşıyıb, ayrı-ayrı dinləyici auditoriyasının tələbatını ödəməklə bərabər, 1-ci proqramın keyfiyyətcə dəyişməsinə səbəb olmuşdur. 2-ci proqramın xarakterinə uyğun gələn bəzi verilişlərin 1-ci proqramdan oraya keçirilməsi hesabına 1-ci proqramda verilişlərin sayı artmışdır.

Bu uğura əsaslanan Azərbaycan radiosunun rəhbərliyi müxtəlif oriyentasiyalı dinləyici qruplarının tələbatını daha geniş miqyasda ödəmək məqsədilə digər iki proqramdan seçilən 3-cü proqram açmaq qərarına gəldi, lakin bu ideya özünü doğrultmadı və tezliklə məlum oldu ki, 3-cü proqram 2-ci proqramın təkrarı ola bilər. Buna görə də 2-ci və 3-cü proqramlar ləğv edilərək onların bazasında «Araz» xəbərlər və musiqi proqramı yaradıldı və 1964-cü il oktyabrın 15-də efirə çıxdı.

Beləliklə, 1964-cü il oktyabrın 15-də gündüz saat 12-də

Fikrət Əmirovun «Azərbaycan» kapriççosunun sədaları altında «Araz» proqramı fəaliyyətə başladı.

1964-cü il iyunun 24-də Sov.İKP MK «Radio ilə verilən informasiyanı yaxşılaşdırmaq haqqında» qəbul etdiyi qərarda Kreml belə sanırdı ki, sosializm quruculuğu sahəsində cahanşumul qələbə əldə olunub və bu barədə geniş məlumat vermək lazımdır.

Həmin «tələbatı» ödəmək üçün Moskvada və müttəfiq respublikaların paytaxtlarında əlavə radiostansiyaların açılması qərara alındı. İttifaq radiosunda «Mayak», Ukraynada «Promin», Özbəkistanda «Məşəl», Azərbaycanda «Araz» radio proqramları məhz bu dövrün radiostansiyaları oldu. «Araz» proqramı da bu qərara cavab kimi yaradılmışdı.

«Araz» proqramının açılması ilə Azərbaycan radiosunun xəbərlər və musiqi verilişləri redaksiyalarında müəyyən dəyişikliklər edildi. İlk növbədə hər iki proqramda xəbərlərin sayı və həcmi xeyli artırıldı. Əgər 1950-ci ildə efirdə Azərbaycan dilində cəmi 4 dəfə «Son xəbərlər» səslənirdisə, 1968-ci ildə artıq radionun «Son xəbərlər» redaksiyasının bülletenləri hər iki proqramda 24 saata çatdırıldı.

Radio ilə çıxış edən musiqiçilərin repertuarlarında və ifa səviyyələrində də xeyli irəliləyiş və zənginlik özünü göstərdi. 1960-cı illərin ortalarında radio və televiziyanın nəzdində kamera orkestrinin təşkili, «Qaya» vokal kvartetinin yaradılması musiqinin təbliği sahəsində radionun imkanlarını artırdı. Əgər Azərbaycan radiosunun ilk illərində onun musiqi fondu cəmi 40 ədəd qrammofon valından ibarət idisə, 1968-ci ildə radionun fonotekasında 24 minə qədər musiqi əsərinin lent yazısı var idi. Bu gün iftixarla deyə bilərik ki, fonotekamızın «qızıl fond»unda qorunan əsərlərin sayı 70 mini ötüb.

1987-ci ildə «Araz» proqramı dinləyicilərin istək və

arzularını nəzərə alaraq noyabrın 2-dən səhər saat 7-dən gecə saat 1-dək işləməyə başladı. Səhər və axşam saatlarında stereofonik musiqidən ibarət xüsusi bloklar nəzərdə tutuldu.

«Araz» proqramı fəaliyyətini 1964-cü il oktyabrın 15-dən 2005-ci il iyunun 23-dək davam etdirdi.

1994-cü il oktyabrın 15-də «Araz» proqramının 30 illiyi ilə əlaqədar ulu öndərimiz, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev cənabları Azərbaycan televiziyası və radiosunun çoxminli kollektivini təbrik etdi. Təbrikdə deyilirdi: «Otuz ildir ki, xalqımızın zəngin tarixi, çoxcəhətli heyatı, mübarizəsi, azadlıq idealları «Araz»ın dalğalarında planetimizin uzaq-uzaq ölkələrinə yayılır. Bu gün Azərbaycan həqiqətləri dünya ölkələrinə 9 dildə çatdırılır. Müstəqil Azərbaycan Respublikasının adı bu tarixi sınaq günlərində xalqımızın əzmi, iradəsi, yekdilliyi efirdə öz əksini tapır. Bu çətin, məsuliyyətli və şərəfli işdə gecə, gündüz fədakarlıqla çalışan, öz xalqına sədaqətlə xidmət etmək amalını hər şeydən uca tutan teleradio işçiləri hörmət və ehtirama layiqdir».

Bəli, ulu öndərin teleradio kollektivinin əməyinə verdiyi bu yüksək qiymət heç vaxt unudulmayacaq.

Azərbaycan radiosu və televiziyası yarandığı gündən bu vaxta qədər uzun və keşməkeşli bir yol keçmişdir. Bütün sovet dönəmində radiomuz Ümumittifaq Radio və Televiziya Komitəsinin nəzarəti altında olmuşdur. Bu fakta diqqətlə nəzər yetirin: 50-ci illərdə hər cümə axşamı saat 20-dən 24-dək Azərbaycan radiosu ilə Moskva radiosunun verilişləri yayımlanırdı. Bu hələ harasıdır?! O vaxt mərkəzin belə bir siyasəti var idi: «Pravda» qəzetini hər bir evə!» Bütün müttəfiq respublikaların radioları, o cümlədən Azərbaycan radiosu Ümumittifaq radiosunun əsas verilişlərini yayımlamağa məcbur edilirdi. Gəlin, bir anlığa radionun 1990-cı ildəki bir günlük proqramına nəzər salaq:

Saat 6.00-6.04 SSRİ-nin və Azərbaycan SSR-nin Dövlət himnləri

7.04-7.30 Moskvadan son xəbərlər. Gimnastika

8.00-8.15 Moskvadan «Pravda» qəzetinin xülasəsi

9.00-9.16 Moskvadan son xəbərlər

10.00-10.15 Moskvadan mərkəzi qəzetlərin xülasəsi

12.00-12.10 Moskvadan istehsalat gimnastikası

13.00-13.30 Moskvadan «Soyuz» radiostansiyasının proqramı

14.30-14.50 Moskvadan musiqi proqramı

16.00-16.15 Moskvadan son xəbərlər

16.30-17.00 Moskvadan yerli teleradio komitələrinin proqramı

18.00-18.15 Moskvadan son xəbərlər

19.40-20.00 Moskvadan «İnsan və qanun» (II, IV, V günlər)

20.00-20.30 Moskvadan son xəbərlər (hər gün)

20.00-20.30 Danışır Bakı (Tbilisi, Yerevan) (III günlər)

21.15-22.00 Moskvada beynəlxalq vəziyyət (Suallar və cavablar)

(I, II, III günlər)

23.00-23.30 Moskvadan son xəbərlər

00.05-00.50 Moskvadan «Yunost» radiostansiyasının proqramı

00.50-01.00 Moskvadan son xəbərlər (hər gün)

01.00-01.03 Moskvadan SSRİ-nin Dövlət himni

01.03-02.00 Moskvadan «Gecəyarısından sonra» proqramı

Yəqin ki, hər şey aydındır. Bu vəziyyət 1950-ci ildən 1991-ci ilin sentyabrınadək, yəni Azərbaycan müstəqil respublika olanadək davam etmişdir.

Bu gün artıq Azərbaycan radiosu özünün proqram siyasətini müstəqil həyata keçirir. Radionun bu gün fəaliyyət göstərən 15 redaksiyasının bir aylıq verilişlərinin xüsusi həcmi 276 saatdır. Həftəlik proqramlar tərtib edilərkən dinləyicilərin arzu və istəkləri nəzərə alınır.

2006-cı il yanvarın 1-dən Azərbaycan radiosu 24 saat fasiləsiz yayımlanır.

Ulu öndərimiz H.Əliyev hakimiyyətdə olduğu illərdə Azərbaycan radiosu və televiziyasına xüsusi diqqət və qayğı göstərmişdir. Bu qayğı istər teleradionun müasir avadanlıqla təchiz edilməsində, istərsə də kollektivimizin ayrı-ayrı əməkdaşlarının zəhmətinin qiymətləndirilməsində öz ifadəsini tapmışdır.

Böyük öndərimiz deyirdi: «Xalqımızın mədəniyyətini, dilini, milli adət-ənənələrini yaşatmaq, inkişaf etdirmək və bütün dünyaya təbliğ etmək bizim hər birimizin üzərinə düşən çox məsuliyyətli, tarixi bir işdir».

Bu gün Azərbaycan teleradiosunun əməkdaşları bu tarixi missiyanı həyata keçirmək üçün bütün səy və bacarıqlarını əsirgəmirlər.

«Xalq qəzeti»,
24 may 2006-cı il

RADİO VƏ TELEVİZİYANIN İNFORMASİYA TARİXİNDƏN

Bu gün özünün yeni inkişaf dövrünü yaşayan Azərbaycan radiosunun 80 illik tarixi bir növ ilk xəbərlərin efirə çıxdığı gündən başlayır. Bakı radiosunda ilk informasiya buraxılışı (Azərbaycan radiosu əvvəl bu adla fəaliyyətə başlayıb) 1926-cı il noyabrın 6-da «Danışır Bakı!» sədası ilə gün ərzində yarım saat həcmində sırf istehsalat xəbərləri ilə efirə çıxıb. Bu xəbərləri radionun ilk azərbaycanlı diktorları İsmayıl Əlibəyov, Raya İmamzadə, Ənvər Nəcəfov, Əsgər Mövsümzadə, Səməd Səmədov və Soltan Nəcəfov oxuyublar. Həmin tarixi gündən Azərbaycanda radio müntəzəm verilişlərinə başlayıb. 1928-ci ilə kimi radio verilişlərinə ancaq Bakıda və Abşeron yarımadasında qulaq asa bilirdilər. Lakin bir il sonra Azərbaycan radiosunun xəbərləri respublikamızın hər yerinə yayımlanmağa başladı. Artıq 30-cu illərin ortalarında «Son xəbərlər» tipli mükəmməl xəbərlər proqramı yaradıldı. Azərbaycan radiosunda xəbərlər buraxılışının təşəkkül dövrü isə 1932-ci ilə təsadüf edir. Əvvəllər «Mərkəzi informasiya» redaksiyası kimi fəaliyyətə başlayan bu redaksiya az sonra «Son xəbərlər» adlandırılıb. Beləliklə, o vaxtlar efirdə tez-tez səslənən yeknəsək radio-qəzet əvəzinə, ilk dəfə olaraq müntəzəm operativ verilişlərin yeni forması – «Son xəbərlər» yarandı. Mühüm ictimai-siyasi informasiyaları özündə cəmləşdirən bu xəbərlər toplusu uzun illər ərzində radio proqramlarının ən çox dinlənilən kütləvi verilişi olub. Artıq 50-ci illərin ortalarında bu proqram öz

ənənələrini yaratdı. Efirdə operativ informasiyalara, ölkədə və xaricdə baş verən son hadisələrə, günün aktual mövzusunda qısa şərhlərə, sosial-iqtisadi, mədəniyyət və idman yeniliklərinə, reportaj və müsahibələrə geniş yer verildi.

1960-cı illərdə tematik informasiya proqramlarına ehtiyac artdı. «Dünya həftə ərzində» ictimai-siyasi proqramının yaranması o vaxt əsl yenilik oldu. Qənbər Hüseynov, Şirməmməd Hüseynov, Bəhram Rəcəbov, Bilal Muradov kimi siyasi icmalçılar çıxış edərək günün aktual mövzularını şərh etməyə başladılar. Sonralar bu sahədə Yasin Qaraməmmədli davamlı çıxışlar etdi.

Radionun diktorları Aydın Qaradağlı, Sabutay Quliyev, Ramiz Mustafayev, Züleyxa Hacıyeva, Fatma Cabbarova, Gültəkin Cabbarova, Sevda Saleh, Qara Tağızadə və başqaları məhz son xəbərlərin bacarıqlı təqdimatçıları kimi tanındılar.

1960-cı ildən «Son xəbərlər» baş redaksiyasına Hacı Hacıyev rəhbərlik etməyə başladı. Redaksiyanın strukturu xeyli yeniləşdi. İnformasiya proqramlarını daha operativ, maraqlı etmək sahəsində axtarışlar onunla nəticələndi ki, radionun birinci proqramındakı əsas xəbər buraxılışının strukturu və adı dəyişdirildi. Uzun illər «Son xəbərlər» adı ilə tanınan baş xəbər proqramı 1966-cı il iyunun 13-dən «Günün səsi» kimi efirə çıxdı.

İnformasiya proqramlarının formalaşmasında Teymur Əliyev, Ənvər Əlibəyli, Hacı Hacıyev, Valid Sənani, Yalçın Əlizadə, Tofiq Rüstəmov, Yasin Qaraməmmədli və digər təcrübəli əməkdaşların rolu böyük oldu. 1964-cü il oktyabrın 15-də isə Azərbaycan radiosunun «Araz» xəbərlər proqramı efirə çıxdı. Tədricən radionun birinci proqramı ilə efirə gedən xəbərlər «Araz»la da təkrar səslənməyə başlandı. Azərbaycan radiosunun ən uzaqlarda eşidilən və maraqla izlənilən proqramında dünya azərbaycanlılarına Azərbaycanın ən son

nailiyyətləri və uğurları barədə məlumat verilməsi «Araz» proqramının başlıca mövzusu oldu.

Radionun «Xəbərlər» redaksiyası kütləvi informasiya vasitəsinin yarandığı vaxtdan formalaşan ənənələr üzərində inkişaf edib, özünün bugünkü müasir səviyyəsinə gəlib çatdı. İllər ötdükcə informasiya radioda da formalaşaraq daha maraqlı oldu. İndi xəbərlər hər gün günün real hüdudları daxilində efirə çıxır. Azərbaycan radiosu tarixən öz verilişlərinə xəbər bülleteni ilə başlayıb və bu gün də həmin ənənə davam edir.

Hər gün səhər Azərbaycan radiosu verilişlərini bu elanla açır: «Danışır Bakı! Saat 7-yə 10 dəqiqə işləyir. Efirdə xəbərlərin ilk buraxılışıdır». Azərbaycan radiosunun gündəlik informasiya proqramı 3 saat 30 dəqiqədir. Gün ərzində saat 6.10-da, 7.00-da, 8.50-də, 11-də, 13-də, 14-də, 15-də, 16-da, 19-da, 20-də, 24-də, gecə saat 2-də və 4-də dinləyicilərə günün yenilikləri təqdim olunur.

Şirkətimiz Qapalı Səhmdar Cəmiyyətə çevrildikdən sonra radio verilişləri şəbəkəsində xüsusi çəkisi olan və daha uzaqlarda eşidilən 40 yaşlı «Araz» proqramı fəaliyyətini dayandıraraq birinci proqramın bazasında işini davam etdirir.

Bu gün redaksiyanın «Səhər» informasiya proqramı, 30 dəqiqəlik «Son xəbərlər» və «Gün keçdi» proqramları gün ərzində dinləyicilərə mühüm xəbərlərlə yanaşı, ölkənin ictimai-siyasi, sosial-iqtisadi, ekoloji, mədəni və idman həyatından operativ məlumatlar verir, təhlil və analitik materiallarla sərbəst fikir və mülahizələr söyləyir.

Radionun informasiya tarixində müstəsna rolu olan «Son xəbərlər» uzun illər auditoriyasını saxlayan proqramdır. Hər axşam saat 20-də 30 dəqiqə efirdə olan bu proqram dinləyicilərə günün mühüm hadisələrinə, eləcə də dünyada baş verən son yeniliklər barədə məlumatlara və aktual

mövzuda lent yazılarına üstünlük verir. Redaksiya heyəti proqramın yığcam olmasına, istər lent yazılarında, istərsə də xəbərlərdə hadisənin mahiyyətini açmağa çalışır.

«Səhər» informasiya proqramı həcminə və mövzusunun əhatə dairəsinə görə baş redaksiyanın aparıcı proqramı sayılır. 1989-cu ildən hər gün səhər saat 7-dən 8-dək efirdə olan «Səhər» informasiya proqramı günün rəsmi xronikası ilə yanaşı, ölkəmizin həyatında müstəsna əhəmiyyəti olan hadisələrin təhlili və təqdimatını operativ əks etdirir.

Bu gün bütün sahələrdə olduğu kimi dövlət müstəqilliyimizin verdiyi yaradıcılıq sərbəstliyi öz üstünlüklərini nümayiş etdirir. Bu günün dinləyicisi əvvəlki, köhnə çərçivə təbliğatını qəbul etmir. Mətbuat vasitələrinin, müxtəlif agentliklərin indiki bolluğu dövründə hadisələr də, informasiyalar da çoxdur. Qeyd edək ki, yeni ictimai-siyasi şəraitdə və demokratiya normalarının təbliği ilə bağlı təkcə informasiyaların əldə edilməsi deyil, onların seçilməsi və təqdimat forması da mühüm əhəmiyyətə malikdir.

«Xəbərlər» redaksiyası ilk növbədə müstəqil Azərbaycan dövlətinin daxili və xarici siyasətilə bağlı xəbəri ön plana çəkir. Təbii ki, təkcə hadisə, tədbir, görüşdə hər hansı münasibətlə deyilmiş rəylər işıqlandırılmır, eyni zamanda ən aktual mövzular geniş şərh edilir.

Radionun bu gün texniki və yayım imkanı elədir ki, o, hər hansı informasiyanı digər mətbuat vasitələrindən daha tez kütləviləşdirə bilir. Bu səbəbdən də «Xəbərlər»in əməkdaşları gün ərzində baş verən hadisələrin əsas inkişafını izləyərək dinləyiciyə bitkin informasiya çatdırmağa çalışır. Xüsusən, «Xəbərlər»in 10 dəqiqəlik buraxılışları indi elə formada tərtib edilib ki, burada bütün vacib ölkə və dünya hadisələri əhatə olunmaqla yanaşı, informasiya yükünə malik olsun.

Radionun «Xəbərlər» xidməti proqramı efirə

hazırlanarkən Azərbaycan Prezidentinin fərman və sərəncamları, keçirdiyi görüşlər, müxtəlif ölkələrə səfərləri və dövlət başçısının iştirak etdiyi tədbirlər barədə məlumatların dinləyicilərə operativ çatdırılması diqqət mərkəzində olur. Proqramlarımızda Milli Məclisin və onun daimi komissiyalarının iclaslarında da müxtəlif səpkili materiallar müntəzəm səsləndirilir.

* * *

Əlli ildən bəri respublikamızın ictimai-siyasi və mədəni həyatında baş verən ən mühüm hadisələrin xronikasını təqdim edən milli televiziyamızın daha çox tamaşaçı auditoriyası olan verilişlərindən biri «Xəbərlər» proqramıdır. Televiziyanın döyünən ürəyi saydığımız «Xəbərlər» təbii ki, heç də yarandığı günlər indiki imkanlara malik olmayıb. Bu baxımdan onun ilk addımları ilə tanışlıq maraq doğurur.

İlk dəfə 1956-cı ilin əvvəllərində təcrübə verilişləri kimi efirə çıxan «Televiziya son xəbərləri» təbliğat şöbəsinin nəzdində yaradılıb. Tofiq Axundov, Rauf İsmayılov, Sabir Rüstəmov və başqaları onun ilk müəllifləri olublar. 10-15 dəqiqə həcmində hazırlanan «Televiziya son xəbərləri»nin ilk diktor-təqdimatçıları Sima Xasıyeva və Tamara Gözəlova idi. İlk rejissorlar Bakı Televiziya Studiyasının baş rejissoru Rauf Kazımovski və Arif Babayev olublar. Sonra isə Firudin Bünyadzadə «Son xəbərlər»ə rejissor təyin edilib. O vaxtlar canlı şəkildə Bakı və Bakıətrafı ərazilərə yayımlanan «Televiziya son xəbərləri» yalnız fotomateriallardan, bir qədər sonra isə həm də slaydlardan istifadə ilə hazırlanıb. İlk verilişlərin studiya operatorları Nəriman Şıxəliyev, Pircan Cəbiyev, Muxtar Məmmədov, sonralar Həsən Quliyev olub. Təsviri material az olduğu üçün tez-tez studiyaya çıxışçılar

dəvət edilirdilər.

1956-cı ilin sonlarında «Xəbərlər»in yaradıcı qrupu şöbə kimi fəaliyyət göstərməyə başlayıb və ilk şöbə müdiri vəzifəsinə jurnalist Firuz Əhmədli təyin edilib. Redaktor isə İsmayıl Əhmədov olub. Sonra Novruz Novruzov da bu şöbəyə redaktor təyinatı alıb. 1958-ci ildə Firuz Əhmədli radioya keçdiyi üçün Böyükağa Aydəmirov şöbə müdiri işləyib (1965-ci ilədək). Bu vaxt artıq «Televiziya son xəbərləri» 15-20 dəqiqə həcmində təqdim olunurdu. 60-cı illərin əvvəllərindən ilk kino-süjetlər çəkilməyə başlanıb. Həftədə 1 dəfə isə mühüm siyasi hadisələrlə bağlı 5 dəqiqəlik beynəlxalq icmallar canlı efirə verilib. Murtuz Ələsgərov, Seyfəddin Qəndilov, Həmid Əliyev və başqalarının siyasi icmalları maraq doğururdu.

1965-ci ildə Tofiq Axundov «Televiziya son xəbərləri»nə şöbə müdiri təyin edilib. Bu təcrübəli jurnalist 17 il şöbəyə rəhbərlik edib. 1966-cı ildə Mərkəzi Televiziyada (Moskva) «Vremya» proqramı yarananda Azərbaycan televiziyasında sədr müavini olan Nəbi Xəzrinin təklifi ilə «Xəbərlər» proqramı «Günün ekranı», radio xəbərləri isə «Günün səsi» adlandırıldı. Əsas buraxılışlar saat 20-də yarım saat həcmində efirə çıxırdı. 1976-cı ildə şöbə genişləndirilərək baş redaksiya təşkil olundu.

70-ci illərdə milli televiziyada reportaj janrının ilk uğurlu nümunələri meydana çıxdı. Mikayıl İbrahimov, Qərib Əhmədli kimi reportyorlar bu janrın bacarıqlı müəllifləri kimi tanınmağa başladılar. Kinolentlərə çəkilən müxtəlif səpkili süjetlər respublika həyatının ən maraqlı hadisələrindən soraq verirdi. Avtomobil qıtlığı üzündən motosikletlərlə hadisə yerinə, obyektlərə yollanan çəkiliş qrupları yüksək əzmkarlıq, peşəkarlıq göstərir, paytaxt həyatının bütün sahələrini əhatə etməyə çalışırdılar. Əlbəttə, o vaxtkı texniki imkanlar

indikindən qat-qat az idi. Hazırda «Xəbərlər» proqramı gün ərzində beş dəfə canlı efirə çıxır. Üstəlik rus və ingilisdilli tamaşaçılar üçün də gündə 1 buraxılış hazırlanır. Son 10 ildə televiziyanın «Xəbərlər» proqramına bir sıra mütərəqqi yeniliklər gətirilib. Zamanın tələbi, dövlətin qayğısı, rəhbərliyin və yaradıcı kollektivin fədakar səyləri ilə reallaşdırılan texniki yeniləşmə, təsvir rəngarəngliyi, rubrikaların estetik və müasir kompüter texnologiyaları ilə tərtibatı diqqəti çəkir. Çağdaş ictimai-siyasi dövrün gündəliyi, salnaməsi televiziyanın «Xəbərlər» proqramının başlıca missiyası kimi yüksək peşəkarlıqla tamaşaçılara təqdim olunur. Aktuallıq, dinamiklik və operativlik yayım imkanları genişlənmiş televiziyamızın xarakterik cizgilərinə çevrilib. «Xəbərlər» proqramı üçün ayrılmış xüsusi studiya müasir modern telekompüter avadanlığı ilə təchiz olunub. Studiyada bütün mürəkkəb əməliyyatlar tamamilə rəqəmli sistemə keçirilib. Yaponiyanın «İkeqame» və «Soni» firmalarının telekamera və nəzarət qurğuları, Almaniyanın «Filips» və «Mecik deyvi» firmalarının yaddaşlı rejissor pultları, Böyük Britaniyanın «Soundkraf» firmasının səs rejissurası pultu, Kanada istehsalı olan «İnsıriter» generatoru quraşdırılıb. Sonuncu telekompüter qurğusu titrlərin verilməsi, fona kadrarxası təsvirlərin çıxarılması imkanlarını sələflərindən minlərcə dəfə artıq sayda yaddaşında saxlamaq imkanına malikdir. Bütün bunlar teleeffektlərin bol, təsvirin yüksək keyfiyyətli, bütövlükdə isə proqramların baxımlı olması deməkdir. Bölgə müxbir postları ötən ildən «Divikam» kameraları ilə təmin edilib.

Artıq dünyanın ən uzaq guşələrindən Azərbaycan televiziyasının canlı efirə qoşulması, «Avropa», «Türksat» peyk rabitəsi vasitəsilə Bakıya videomaterialların göndərilməsi problemsiz həyata keçirilir. Vaşinqtonda,

Parisdə, Strasburqda, Moskvada, Tokioda baş verən, bizim üçün önəmli bir çox hadisələr həmin andaca Bakıda yayımlanır. Birbaşa reportajlar, telekörpülər, telefon bağlantıları, digər canlı ünsiyyət formaları geniş tətbiq edilir. Neçə ildir ki, internet sisteminə qoşulan Azərbaycan televiziyasını dünyanın istənilən bucağındakı seyrçilər, xaricdə yaşayan soydaşlarımız izləyə bilirlər.

Bu gün Azərbaycan televiziyasında və radiosunda sağlam mühit hökm sürür. Belə yerdə isə yaradıcı yüksəlişin, keyfiyyət dəyişməsinin olması tamamilə təbiidir. Azərbaycan televiziyası dövlət başçısına ümumxalq sevgisinin, ümidinin, inamının güzgüsüdür desək, yanılmarıq. Milyonlarla tamaşaçının respublika prezidentinin gündəlik səmərəli fəaliyyətini məhz bu proqram vasitəsilə operativ izləyib dəyərləndirmək və bunların əhəmiyyətini dərk etmək imkanı var. Prezidentin daxili və xarici siyasəti, görüş və səfərləri ən müxtəlif teleforma və janrlarla operativ şəkildə tamaşaçılara çatdırılır və cəmiyyətin idarə olunmasında ən kütləvi vasitəyə çevrilir. Məqsədi düzgün, qərəzsiz, operativ məlumatlar vermək olan «Xəbərlər və ictimai-siyasi proqramlar» redaksiyası dünya xəbər sistemində öz yerini tutmaq üçün hər gün yaradıcılıq axtarışlarını davam etdirir.

«Respublika» qəzeti,
2 iyun 2006-cı il

TARİXİN SƏSLİ SALNAMƏSİ

Hər xalqın mədəniyyət tarixini müxtəlif inkişaf mərhələlərinə bölmək, onların səciyyəvi cəhətlərini müəyyənləşdirmək zahirən tarixçilərin işidir. Amma tarixi yazmaq da yaratmaq qədər məsuliyyətli olduğundan, çox vaxt sonradan aparılan yüzlərlə tədqiqatdan, araşdırmadansa dövrü, zamanı anında əks etdirən bircə sətir yazı, «salnaməçinin» dilindən deyilən, yazılan bircə kəlmə söz daha artıq inandırıcı və etibarlıdır. Bu mənada Azərbaycan xalqının çoxəsrlik, zəngin mədəniyyət tarixində XX yüzilliyin səs «salnaməsini» yaradan milli radiomuz keçdiyi 80 illik yolda sözün birbaşa mənasında xidməti olan, öz işi, əməyi ilə bu möhtəşəm məbədi kərpic-kərpic, daş-daş ucaltmağa çalışan insanların xatirələrini çözələmək, xüsusən də ədəbi-bədii yaradıcılığı ilə sevdirən insanların həyatından, yazıb-yaratdıqlarından yaddaşlara, lent yazılarına, kağızlara, kitablara köçən xatirələrdə aramaq gərəkdir.

Azərbaycan radiosunun milyonlarla insanın həyatına məhrəm bir səs, doğma və son dərəcə inanılmış bir müsafir kimi daxil olduğu 80 illik azman dinləyici auditoriyası ilə birbaşa təması müxtəlif vasitələrlə olub. Xəbər, musiqi, bədii söz və ədəbiyyat. Bu sonuncu vasitələrin ən çox seviləni, gözlənilənidir desək, sözsüz ki, yanılmarıq. Şübhəsiz, istər Azərbaycan radiosunda, istərsə də yaşı və təcrübəsi ondan qat-qat artıq olan dünya radiolarında ən effektli və ürəyə birbaşa ünvanlanan ədəbi-bədii sözdür.

Ədəbiyyat və incəsənətin bilavasitə vəzifəsi insanlığın

mənəviyyatını durultmaq, onun saflaşmasına xidmət etmək olduğundan Azərbaycan radiosunda da bu yöndə hazırlanan proqramlar elə ilk gündən məhz bu ümdə vəzifəni yerinə yetirir, dövrün, zamanın tələbi kontekstindən olmuş olsa belə yenə də ən saf və müqəddəs duyğuların təcəssümünə çevrilirdi. Hələ radio yaranmamışdan öncə bu nəcib hissləri qəzet və kitab səhifələrindən xalqa sirayət etdirməyə çalışan bir çox aydınlarımız sırasında, XX yüzillikdə Şərqdə ilk operanın banisi olmaqla yanaşı, qələmə aldığı felyeton və gülməcələrlə xalqı qəflətdən oyatmağın yollarını arayan dahi Üzeyir bəy Hacıbəyov təsadüfi deyil ki, hələ 1910-cu ildə «Həqiqət» qəzetində çap etdirdiyi məqaləsində yazırdı: «Müxtəlif elm və fənn sahibləri meyvəli ağaclar mənziləsindəndir, incəsənət xadimləri isə ətirli güllər yerindədir. Ləziz meyvələr insanın bədəninə, ətirli güllərsə insanın ruhuna ləzzət verdiyi kimi, elm və fənn sahibləri əhalinin ağlını, nəfis sənətkarlar, yazıçılar, incəsənət xadimləri də dillə camaatın ruhunu tərbiyə edir».

Düz on altı il sonra Azərbaycan radiosu yarananda efirdə ilk canlı çıxışları zamanı da (təəssüf ki, daha sonralar da bu dahi sənətkarın radiodakı çıxışlarından çox az qismi günümüzə qədər qoruna bilib) məhz bu məqamı vurğulayır, xalqın mənəviyyatına, ruhi saflığına xidmət edən sənət sahiblərini – yazıçıları, şairləri, jurnalistləri, musiqiçiləri, aktyorları xüsusi səfərbərliyə çağırır, onlardan bu nəcib peşə vasitəsi ilə insanlara təmiz əxlaq, incə insani keyfiyyətlər aşılanmasının tələb olunduğunu diqqətə çəkirdi.

Xoşbəxtlikdən bu danılmaz həqiqəti Azərbaycan radiosunda çalışan, yaxud burada – bu azman auditoriya önündə çıxış edən hər kəs tam məsuliyyəti ilə duyub, dərk edirdi…

…Doğrudur, yarandığı ilk onilliklərdə taleyinə

«sosializm realizmi» mənzərələrini əks etdirmək, şura hökumətinin təntənələrini, guya insanlara bəxş etdiyi «xoşbəxtlikləri» dilə gətirmək, bədii əsərlərin mövzusuna çevrilən çəhrayı rəngli, pafoslu, şüarvarı yazıları təbliğ etmək düşsə də, radio əslində xalqın ən çox inandığı, hadisələrə düzgün çözüm verən bir informasiya – söz məkanı kimi formalaşmaqdaydı… Çünki yaranan bədii ədəbiyyatın ən gözəl nümunələrini hər kəsə – həm sadə peşə adamlarına: fəhləyə, kəndliyə, həm də alimə, müəllimə, mühəndisə – xalqın ümumi anlayışına müvafiq bir tərzdə efirdən təqdim edir, bununla da ümumi səviyyənin yüksəlməsinə xidmət etməyə çalışırdı… Və get-gedə efir bədii sözü cilaladıqca, elin «təzə gözü» də bütün senzuralara baxmayaraq, efirə «mizan» verirdi. Onu xalqın gözü qabağındaca «salnaməçisi»nə çevrildiyi tarixdə həqiqətpərəstliyə dəvət edirdi…

Zahirən ən adi, sadə, kövrək xatirələrdə, söhbətlərdə radionun «Ədəbiyyat və incəsənət» redaksiyası o uzaq illərin əsl gerçəyini qoruyub yaşadır.

Xalq artisti Barat Şəkinskayanın Azərbaycan radiosunun 70 illiyi münasibəti ilə «Efirdə görüşlər» proqramında radiomuzla bağlı xatirələrindən:

«Radio mənim həyatımda teatrla bərabər yer tutur. Çünki mən 1935-ci ildə Gəncədən Bakıya dram teatrına gələndə, Mustafa Mərdanov mənə dedi: – Ay qız, sənin gözəl səsin var. Radioda çıxış etmək istəməzsən? İstəyirsən, səni aparım. Dedim, nə olar… O da üstündən soruşdu: – Qorxmazsan ki? Dedim: – Siz qorxmursuz, bu qədər radioda danışanlar qorxmur, mən niyə qorxum? Mustafa Mərdanov güldü. Sonra bir dəfə məni də özü ilə radioya apardı. Onda radio köhnə poçtun üstündə, dördüncü mərtəbədə idi. Keçmiş Fioletov küçəsində. Hə, gəldim radioya. Orda bir neçə aktyor var idi. Nəsə məşq edirdilər. O vaxtkı radio verilişlərinin

məşhur aparıcıları Həyat Telequlova və Leyla Telequlova ilə tanış oldum. Sonra məni də sınadılar. Deyəsən xoşlarına gəldim. Elə o gündən Mustafa, Leyla Telequlova, Həyat bir də mən bütün uşaq verilişlərini, nağılları, hekayələri oxumaq üçün müəyyən olunmuş saatda radioya gəlirdik. O vaxt yazmaq, lent yox idi. Ona görə də iki-üç həftədən bir studiyaya gəlir, əvvəlcə məşq eləyir, sonra birbaşa efirə oxuyurduq. Hayıf o vaxtkı verilişlərdən heç biri yazılmayıb.

Yadımdadı, o vaxt Qulam Məmmədli «Səməd əmi» adlı həftəlik veriliş yazardı. Mən Tuti idim, Mustafa Mərdanov isə Səməd əmini oxuyurdu. Təcrübəm artdıqca mənə daha böyük və məsuliyyətli rollar, verilişlər tapşırıldı radioda. Odur ki, ömrüm-günüm elə bu radioda keçib. Hansı binaya köçmüsüz, mən də sizinlə bərabər getmişəm. Radioda mənim çox verilişlərim olub. Mən indi də yaşımın bu sinnində sizə arxayınam (televiziyadı, teatrdı oynadıq – qurtardı getdi. Teletamaşalar da bizim vaxtımızda lentə yazılmırdı axı), bizi yaşadan siz olacaqsız. Yaxşı ki, sonradan radioda səsi lentə almağa başladılar. Sizdə o qədər tamaşalarım, verilişlərim var ki. «Fərhad və Şirin»də Şirin, «Ovod»da Cemma, «Qış nağılı»nda Gertruda, «Romeo və Culyetta»da Culyetta…

Rəhmətlik Ələsgər Ələkbərovnan, Əli Zeynalovnan tərəf müqabiləm o tamaşalarda. İnanırsız, indi də «Fərhad və Şirin»in finalına qulaq asanda ürəyim dayanır…

Radioda, o lent yazılarında əsl böyük sənət tarixi yatır» («Efirdə görüşlər», 1996-cı il, 6 noyabr. Gülbəniz Hüseynovanın müsahibəsindən).

Radionun qızıl fondu. Dəyərli lent yazılarının, verilişlərin qorunub saxlandığı fond fonotekasına bu ad əbəs verilməyib. Həqiqətən də burada qorunub saxlanan hər bir səs böyük mədəniyyət tarixinin bir incisi, dəyərli bir qızıl səhifəsi, misrasıdır.

Qızıl fondda özünə yüksək yer alan səs yazılarının böyük əksəriyyəti radionun «Ədəbiyyat və incəsənət» redaksiyasının verilişlərinin payına düşür. Bu bütün zamanlarda belə olub. Çünki zamanın, tarixin yaradıcılarının əsl silahdaşı, qoruyucusudur söz! Amma bu xəzinə hələ 50-ci illərdə yaranacaq. O zamana qədərsə Azərbaycan xalqının həyatından «şimal küləkləri»nin əsdiyi, «sibir sazağı»nın, «gedər-gəlməz yollar»ın keçdiyi 30-cu illərdəsə yaranan hər yeni ədəbiyyat nümunəsi, şeir, hekayə, hətta pyeslər, tamaşalar belə istər müəllif, istərsə də aktyor ifasında efirə birbaşa canlı səsləndirilirdi. «…0 vaxtlar mürəkkəbi qurumayan əsərləri isti-isti radiodan eşidərdik çox vaxt. Mikayıl Müşfiq, Rəsul Rza, Əhməd Cavad, Mikayıl Rzaquluzadə, daha sonralar Nigar xanım, daha kimlər, kimlər… Deyirlər, şeirlər, çıxışlar bəzən elə radionun sifarişi ilə də yazılırdı.

Müşfiqin çox ecazkar səslə, xüsusi vəcdlə şeir söyləməyi vardı. Onun öz səsində şeirin bir dəfə dinləyəndən sonra heç oxumaq da istəmirdin. Çünki oxuduğun şeirdə Müşfiqin öz ilhamı, öz nəfəsi, öz od saçan ürəyi deyil, sadəcə gözəl tapılmış təşbihlər, mübaliğələr, misraların fikirlə axıcılığı səni heyrətləndirirdisə, Müşfiq ifası adamı tamam-kamal ovsunlayırdı. Misal üçün, Müşfiqin «Duyğu yarpaqları» 1937-ci ildə aprelin 18-də «Ədəbiyyat» qəzetində işıq üzü görmüşdü. Amma mən həmin şeiri 36-cı ilin payızında Müşfiqin öz dilindən radioda eşitmişdim və bu iki təsir bir-biri ilə heç müqayisəyə də gəlməz. Bir də o illər hamıya bəllidi ki, xatalı illər idi. Adamı bir sözündən ötrü Sibirə göndərirdilər. Cavidi, Cavadı, Yusif Vəziri, Sanılını, Seyid Hüseyni udan o illər ürəyi od-alovla dolu Müşfiqə də qənim kəsiləcəkmiş. Müşfiqin hədsiz istedadı onun özünə düşmən idi. Yoxsa o gənc aşiqi «sovet ruhunda» kökləmək bəlkə də mümkün

olardı. Müşfiqin «Gənc işçi»də çap olunan şeirləri nəsə deyəsən qəzet redaktorları özləri bəzi düzəlişlər edir, onu «yeni həyatla» ayaqlaşmağa çağırırdılar. Müşfiqsə bədahətən şeir oxuyanda ağına, bozuna baxmırdı. Ürəyinə gələnlər dilinə qonurdu radioda. Lentsiz verilişlərin belə işi vardı. O vaxt elə bil şairlər, yazıçılar da mikrofon önündə lap ilhamlanırdılar. Bunun sonrakı xətasını çoxu heç gözə almırdı…» (Manaf Süleymanov – radionun 60 illiyinə həsr edilmiş «Radio taleyimdir» proqramındakı Vaqif Əlixanlı ilə müsahibəsindən. 7 may, 1983-cü il).

30-cu illərdə yaranmış siyasi çaşqın abu-hava, insanların mənəviyyatını çulğayan hər an izlənmək, təqib, həbs olunmaq xofunu dəf edə bilən yeganə bir ünvan idi Azərbaycan radiosu. O illər Azərbaycan efirində səsləndirilən bədii parçalar, şeirlər, mahnılar beynəlmiləlçilik ruhu təbliğ etmiş olsa da, insanların qırılmaqda olan ümidlərinə, qaralmaqda olan sabahlarına bir işıq, bir nur misalında idi.

Sonralar xatirələrə köçən o illər Azərbaycan Dövlət Radiosunun səs xəzinəsində çox dəyərli lent yazılarının yaddaşına hopdu, «səs salnaməsi»nin əvəzsiz səhifələrinə çevrildi:

«.. .Xalq şairi Nigar Rəfibəyli: – Məni o uzaq illərə döndərdiz. Yadımdadı, 1931-ci ilin soyuq yanvar axşamı idi. Mən «Maarif evi»ndən çıxıb, Əbülhəsən müəllimin şeirlərimlə bağlı söylədiklərini ürəyimdə götür-qoy edə-edə evə tələsirdim. Birdən addımlarımın elə bil əks-səda verdiyini hiss etdim. Yerişimi yavaşıtdım. Hiss etdim ki, ardımca kimsə gəlir. Ürəyim qopdu. Axı o illər mənim şeirlərimin üstünə yaman düşmüşdülər. Özümü də gah bəy qızı, gah mülkədar nəslinin nümayəndəsi kimi mümkün qədər yamanlamağa çalışırdılar. Odur ki, nəsə lap xoflandım. Geriyə dönəndə arxamda az əvvəl «Maarif evi»ndə rastlaşdığım, yaxından

tanış olmadığım göygöz oğlanı gördüm. Bayaq Əbülhəsən müəllim təzə şeirimi öz dilimdən eşitmək istəyəndə etirazımı görüb, oxumağıma təkid etməsi, söhbətə bu sayaq təklifsiz müdaxiləsi heç xoşuma gəlməmişdi. Özünü həddindən artıq tox tuturdu. Bu Rəsul idi. Rəsul Rza. O vaxtlar bir-iki dəfə şeirlərini radioda oxuduğunu eşitmişdim, üzdən tanımırdım. Deyəsən qorxduğumu o da hiss etdi. Odur kı, təhər-tövrünü pozmadan: – Deyəsən özgənin. şeirinin ucbatından nahaq tənqidə məruz qalıbsız. Sizi başa düşürəm. Mən də bu səhvin güdazına getmişəm deyəsən…

Mən heç bir söz demədən yoluma davam etdim. O da etinasızlığımı görüb, çıxıb getdi. Sonralar Rəsul da kinostudiyaya işə düzəldi. Orda təzədən tanış olduq. Bir otaqda otururduq. Rəsulu burda yaxından tanıdım. Mərdliyinə, cəsarətinə heyran olmağa başladım. Yəqin, elə bu xüsusiyyətlərinə görə də onu özümə ömür yoldaşı seçə bildim.

…Yadımdadı, o vaxt mənə evlənmə təklifi edəndə onun özünü qorumaq üçün: – Rəsul, sən axı bilirsən, mən bəy nəslindən olduğuma görə bu sevda sənə çox başağrısı gətirə bilər. Kim bilir, hələ bəlkə də təqiblər, ağrı-acılar da artar. Bəlkə vaz keçəsen bu təklifindən?! Axı, sən çox istedadlı, parlaq gələcəyi olan birisən, – dedim. O, bu sözlərimdən bərk əsəbiləşdi: – Mənə əxlaq dərsi keçmə, – dedi, – Mən nə elədiyimi gözəl bilirəm. Həyatda hər şeyi itirmiş olsam belə, tək səni tapmağım mənə bəsdi. Beləcə biz 1934-cü ildə nişanlandıq. Az sonra kəbin kəsdirib, toy etdik. Toyumuzda, həmin o Birinci Paralel küçəsindəki evimizdə o dövrün çox mötəbər söz, şeir sahibləri – Hüseyn Cavid, Əhməd Cavad, Kazım Ələkbərli, Mikayıl Müşfiq və başqaları da vardı. Onlar da Rəsulun məni seçməsinə əsl əzmkarlıq nümunəsi kimi baxırdılar. Çox sonralar rəfiqəm Nəzakət Ağazadənin ölümü münasibəti ilə bir şeir yazdım, o şeirdə həmin günlərin də

xatirəsi var:

…Nə ata çörəyi yedik,
nə gördük qardaş sovqatı…
Qamçıladı bizi acı-acı
sərt üzlü yetimlik həyatı…
…Ömrün çətin yollarında
bizə yar oldu Əli, Rəsul
Onlar açıq ürəkli,
qaynar məhəbbətli
gənclər idi,
O zamanlar bizimlə
ünsiyyət bağlamaq
Sadə sevgi deyil
Böyük hünəridi…

…Bilirsiz, məni tez-tez qınayırlar ki, mən yaradıcılığımı, guya cild-cild kitablarımı ailəmə, Rəsula, balalarıma qurban vermişəm. Bu əslində belə deyil. Mən sadəcə olaraq çox böyük fədakarlığın önündə bir qadın sədaqəti, bir şairə təvazökarlığı göstərmişəm yəqin. Bundan başqa adı yoxdur o müqəddəs bağlılığın: Sevgi olan yerdə sədaqətin böyüklüyünə şübhə eləməkmi olar?!

…Hərdən radioda o keçmiş mahnıları, lent yazılarını, çıxışları eşidəndə fikirləşirəm, yaxşı ki, bu canlı yaddaş ünvanı var. Yoxsa xatirələr küləyi xəyalımızdakıları alıb hara istəsə qovalayardı, heç izi-tozu da qalmazdı. Necə ki, 50-ci illərə qədərki «Ədəbi görüşlər», «Şeir dəqiqələri» və sair bu kimi verilişlərin heç biri lentə köçürülmədiyindən çoxu unudulub gedib. Çap olunanları da solmuş, cansız yarpaqlar kimidi. Ona görə də Dövlət Radiosundan aldığım dəvətlərə bəzən vaxtın darlığından, ya nədənsə imtina etməyimə

baxmayın, mənim üçün radio çox qiymətlidir…» («Xatirələr, memuarlar, portretlər». Nigar Rəfibəyliyə həsr olunmuş veriliş. 1980-ci ildə lentə alınıb. Müəllif Şəfəq Əlixanlıdır).

Radio verilişləri bir müəllifin ideyasına, ssenarisinə, qələm təcrübəsinə əsaslansa da, əslində bir insanın deyil, kollektiv əməyin məhsulu olub həmişə. Radioda səslənən bir şeir, oxunan bir hekayə, səhnələşdirilmiş bir tamaşa artıq ilkin müəllifiylə yanaşı, onu ifa edən aktyorun, səsi lentə alan operatorun, rejissorun, musiqi tərtibatçısının da eyni dərəcədə müəlliflik əsərinə çevrilir.

Məhz buna görə də radionun tarixinə nəzər saldıqda təkcə burada çalışan insanların deyil, öz əməyi, işi ilə bu gün radio tarixində yaşayan yüzlərin, minlərin xatirələri vərəqlənməlidir.

Maraqlı burasındadır ki, radioda qorunan hər lent yazısının, tarixi bir anın, səsin əbədiləşdirilməsinin necə deyərlər, əsl fədailəri sadə əmək adamları – operatorlar, səs rejissorları, montajçılar və s. bu kimi insanlar da tarixdən öz adları silinsə belə, əbədi yaşarlılıq qazanan bu xatirə səslərlə hər zaman fəxr edib, öyünüblər.

Tarixin bu səsli «salnaməsi»nin səhifələrində isə xalqın taleyində böyük elmi, mənəvi, siyasi xidməti olan tarixi şəxsiyyətlərin səsləri, xatirələri, düşüncələri yaşayır. Və xoşbəxtlikdən belə insanların təkcə ad sırasına cildlərlə kitab bağlamaq olar.

Onların içində Azərbaycana müxtəlif illərdə güzarı düşmüş yüzlərlə əcnəbi yazıçı və şairlər, dost, qardaş ölkələrin görkəmli elm, mədəniyyət xadimləri də saysızdır.

Radiomuzun səs yaddaşında qorunan çox dəyərli incilərdən biri də türk dünyasının çox sevilən azadlıq aşiqi Nazim Hikmətin lent yazılarıdır. O, ilk dəfə Azərbaycanda 1927-ci ildə olub. İlk gəlişində yaranan xəfif misralar, şeirlər

isə elə o günlərdə radio dinləyicilərinin görüşünə gəlib. Sonralar şair «ikinci vətənim» adlandırdığı Azərbaycana tez-tez gələr, onun sözünü, səsini azəri qardaşları Bakının iri-iri salonlarından, Qarayazı meşəsindən, Dədə Günəş yaylaqlarından eşidərdilər. Böyük Füzulinin 400 illik yubileyindəsə XX əsrin türk şairi Füzuli önündə, onu yaradan, yetişdirən xalqın önündə baş əyərək belə deyir: «Baba Füzuli, bir vaxt salam verdim, rüşvət deyil deyə almadılar, – dedin. İndi bütün cahan «Əleykümsalam» – deyir sənə, ustad!»

Xoşbəxtlikdən Nazim Hikmətin sonrakı gəlişləri zamanı da səsi lentə almaq mümkün idi deyə, bu gün radionun «Ədəbiyyat və incəsənət» redaksiyası bu böyük sərvəti – Nazim Hikmətin öz səsində şeirlərini, xatirələrini efirdə səsləndirir, göz bəbəyi kimi qoruyur…

Deyirlər, 1941-45-ci il Böyük Vətən müharibəsi adlandırılan İkinci Cahan savaşını Levitanın səsi Rusiya qırıcı təyyarələri, tankları, əsgərləri ilə bərabər uddu. Bu böyük həqiqət nə mənadasa Azərbaycan radiosuna da şamil edilməlidir. Məhz həmin ağrılı-acılı illərdə Azərbaycan radiosu birbaşa mərkəzdən alınmış hərbi məlumatları xalqa yetirməklə yanaşı, həm də insanlarda mənəvi ruhu yüksəltmək, sabaha inam, vətənə yenilməzlik duyğuları doğurmaq üçün əlindən gələni əsirgəmir, səsləndirilən hər misra şeirdə, çıxışda, sözdə insanlara məhz qələbə ruhu, qələbə əzmi aşılanırdı. Həmin illərdə efirə canlı çıxan Azərbaycan radiosu Üzeyir Hacıbəyov, Məmməd Səid Ordubadi, Səməd Vurğun, Rəsul Rza, Süleyman Rüstəm, Nigar Rəfibəyli, Əzizə Cəfərzadə kimi gənc yazıçı və şairlərin çıxışları, şeirləri, hekayələri ilə yanaşı, həm də artıq müxtəlif qəhrəmanlıq ruhlu tamaşalardan parçalar səsləndirməklə xalqın əzmkarlığını artırmağa çalışırdı.

Yarandığı ilk illərdən özünə dinləyicilərdə böyük inam

yaradan radiomuzun ədəbiyyat və incəsənət yönlü proqramları xalqın həyatına elə daxil olur ki, hərdən burada səsləndirilən bədii parçaları dinləyicilər əsl həyat həqiqəti kimi qəbul edir, ağlamalısına ağlayır, gülməlisinə gülürdülər.

50-ci illərdə elektromaqnit lentlərinin kəşfi «Radionun qızıl fondunu» yaratmaqla xalqın taleyindəki əvəzsiz tarixi xidmətlərini əbədiləşdirmək, «lent salnaməsini» yaşatmaq işini həyata keçirdi.

«Səməd Vurğunun «Vaqif»ini səhnədə çox yaratmışam. Hər dəfə də eyni tamaşaçı sevgisi, alqışlar, gül-çiçək dəstələri. Müharibə illərində teatrın insanların həyatındakı əvəzsiz rolu barədə çox düşünürdüm. O illər doğrudan da elə bil hər yanda həyatımızın sabahına işıqlar söndürüləndə, gecələr qəfil həyəcan siqnalları verilib, aləm zülmətə qərq olanda təkcə bu məbədin – teatrın işıqları yanardı. Biz həyəcan siqnalları davam edə-edə də tamaşaya ara verməzdik. Heç tamaşaçılar da o vaxt «bomba ubejeşe» deyilən zirzəmilərə qaçmağa tələsməzdilər. Ta ki, tamaşa bitincə. Mənə elə gələrdi ki, teatrda həyat əbədidir. Amma onun sonsuz olduğuna, heç zaman tükənməyəcəyinə yalnız radioda tamaşalar lentə alınan zamandan inanmağa başladım. Doğrudan da radio lentləri bizim səhnə sənətimizə ölməzlik bəxş etdi. Mən radiodakı rollarımı kinodan da artıq qiymətləndirirəm. Çünki radionu hər kəs hər an dinləyə bilir. Filmə baxmaq üçünsə mütləq kinoteatra getmək gərəkdir.

«Vaqif»i radio üçün yazanda hər sözün üstündə o qədər əsirdik ki… Axı bu tamaşanın sabahı olmayacaqdı ki, o oyununla bugünkü səhvləri, yanlış bir mizanı təzələyib, qələti düzəltmiş olasan. Lent yazısının belə bir ecazkar qüvvəsi və xofu olduğunu məhz radiodakı tamaşalarda duydum. Yaşasın, bizi, sənətimizi,

teatrımızı, səhnəmizi yaşadan radio». («Səhnə və həyat»

verilişi. Ə.Ələkbərovla müsahibə. Radio, 1958-ci il. Sonradan həmin yazı «Ədəbiyyat» qəzetinin səhifələrində də dərc olunub).

«Teatr insan şüumna bilavasitə nüfuz etməyə qadir olan, mənəviyyatı saflaşdıran, onu maddiyyətdən ayırıb ruhi aləmin gözəlliklərinə dəvət edən müqəddəs bir məkan olmaqla yanaşı, hom də seçmə insanları özünə cəlb edən, estetik-mənəvi aləmin qapılarını açmağa özü cəhd göstərən, zəngin estetık zövqə və etik görüşlərə malik olan insanların qiymətləndirə bildiyi bir məkandır. Amma «Əlahəzrət – Teatr»ın da baş əyə biləcəyi, təslim edildiyi daha yüksək, daha ali bir mərtəbəyə ucalmış Dövlət Radiomuz! Çünki burada «zəng çalınanda», pərdə açılanda aktyorun, rejissorun ürəyi həyəcanla döyünmür ki, görəsən tamaşa salonu ağzınacan doludur, ya yox?! Buradan, bu yüksək tribunadan söylənilənlər «Tamaşa salonu»nun əsiri deyil, əksinə ucsuz-bucaqsız dinləyici auditöriyasını özünə ram edən, hər bir insanın evinə, mənzilinə, idarəsinə, ən başlıcası isə ürəyinə ünvanlanan söz sərdabəsidir -radio. Odur ki, mən səhnədə oynanan, quruluş verdiyim, dəyərləndirdiyim bir çox tamaşaların yenidən radioda lentə alınaraq səsləndirilməsini hədsiz qiymətləndirirəm. Bu mənim üçün, sənətim üçün əvəzsiz bir nemətdir ki, hardasa lap ucqarlarda, heç teatra bəlkə də ömrü boyu yolu düşməyəcək birisi bizim aktyorların gözəl ifasında Hüseyn Cavidi, Şekspiri dinləyib, qəhrəmanları ilə bərabər ağlayıb-gülə bilir. Zənnimcə, estetik zövqün yüksəldilməsində bundan böyük xidmət ola bilməz». («XX əsr incəsənət» proqramında sənətşünas professor Mehdi Məmmədovun söylədikləri. 1969-cu il. Müsahibəni M.Muradxanlı aparır).

Bəli, müxtəlif vaxtlarda radionun «Ədəbiyyat və incəsənət» redaksiyası ilə əməkdaşlıqdan zövq alan, bunu

hətta sənətinin zirvəsi sayan neçə-neçə tanınmış teatr, kino rejissorunun – Adil İsgəndərovun, Mehdi Məmmədovun, Ələsgər Şərifovun, Əliheydər Ələkbərovun, Hüseyn Sultanovun, Səftər Turabovun, Həsən Əblucun və başqalarının xatirələrində, səs yazılarında onlarla belə nümunəyə rast gəlmək olar. Hələ neçə-neçə rəssam, heykəltəraş, musiqiçi, bəstəkar, yazıçı, alim, aktyor, ifaçı, xanəndə – söz-sənət ustasının radionu ikinci ata ocağı, sənət məbədi adlandırması faktını da unutmasaq, radionun bu yöndə proqramlarının xalqın həyatında «mənəviyyat universiteti», «mədəniyyət akademiyası» rolunu oynadığını tam məsuliyyəti ilə söyləmək olar.

Bu gün radionun «Ədəbiyyat və incəsənət» redaksiyası radionun keçdiyi 80 illik yolda qazanılan zəngin təcrübə və əvəzsiz səs xəzinəsi ilə öz verilişlərinə hər mənada gözəllik çalarları qatmaq imkanını qazanıb. «Sabaha gedən yol dünəndən keçir» – deyən müdriklər qətiyyən yanılmır. Radiomuzun bu günü də, sabahı da məhz o dünənki böyük, möhtəşəm yoldan bəhrələnərək yaşayır, sevilir, dinlənilir.

Azərbaycan xalqının çoxəsrlik tarixini, azadlığa doğru əsrlərdən bəri keçmiş olduğu mübarizlik, yenilməzlik yolunu, eləcə də zəngin-mənəvi dəyərlərini öz proqramlarında zaman-zaman gözəl, axıcı, saf bir dillə – ana dilimizdə dinləyicilərə çatdıran bədii verilişlərimiz sovet dövrünün pafoslu hay-küyündən, hər şeyi çəhrayı rəngdə görmək ənənəsindən çox uzaq olub həmişə. Məhz bunun nəticəsidir ki, insanlar ən çətin vaxtlarında hər yandan əlləri üzüləndə tək Azərbaycan radiosuna pənah gətiriblər. «Ədəbiyyat və incəsənət» redaksiyasının (vaxtilə «Ədəbi-dram») hazırladığı «Bulaq», «Molla Nəsrəddin», «Sabahınız xeyir», «Ana dili», «Hekayə axşamı», «Radio teatrı», «Teatr mikrofon qarşısında», «Sənətkar və sənət», «Xatirələr, memuarlar, portretlər» kimi

verilişlərində onları narahat edən suallara cavab arayıb, ən çətin anlarında özlərinə fikir ortağı biliblər radionu.

Azərbaycan Dövlət Radiosunun yaranmasının 80 illiyini qeyd etməyə hazırlaşdığımız bu günlərdə radionun «Ədəbiyyat və incəsənət» redaksiyası öz sələflərinin keçdiyi şərəfli ömür yoluna nəzər salmaq, radioda irili-xırdalı xidməti olan hər kəsin xatirəsini anmaq, yaşatmaq naminə silsilə verilişlər hazırlayır. Bu verilişlərin hər yeni qonağı yaddaşları yenidən çözələyir, ən incə məqamlara işıq tuta bilirlər.

İyirminci yüzilliyin yetmişinci illərindən başlayaraq bu günə qədər burada xidmət göstərən bir bölük insanın taleyinə səs xəzinəmizi zənginləşdirməklə yanaşı, həm də əsrin son on illiklərində xalqın yenidən yaşadığı azadlıq mücadilələrini, ilk müstəqillik illərinin uğur və çətinliklərini, eləcə də təcavüzə məruz qalmış ana torpağımızın qan qoxuyan göz yaşlarını yaşayıb-yazmaq, bu acını ürəkdən keçirərək bədii ədəbiyyatın bu yöndə yaranan nümunələrini, eləcə də publisist düşüncələri, jurnalist təhqiqatlarını efirdə səsləndirmək nəsib oldu. Yəqin ki, uzun illər ötəcək, məhz bu müharibə dövrü ədəbiyyatının, azadlıq mücadiləsi qurbanlarının xatirəsini əbədiləşdirən poema, esse və tamaşaların araşdırıcıları eynən bizim kimi bu yöndə xidməti olan insanların kimliyi, yazıb-yaratdıqları ilə maraqlanacaq, onları əbədiləşdirməyə çalışacaqlar. Radionun taleyindən keçən insanların, öz taleyində radionu yaşadan insanların tarixçəsi isə yenə də burada qorunan lent yazılarında aranacaq.

…Beşiyi başında Üzeyir Hacıbəyovun, Məmməd Səid Ordubadinin, Cəfər Cabbarlının dayandığı, daha sonralar bu estafeti xalq yazıçısı Sabit Rəhmanın, Seyfəddin Dağlının, Hikmət Ziyanın, Bayram Bayramovun, Nəbi Xəzrinin, Rauf İsmayılovun, Anarın, Davud Nəsibin, Əlisa Nicatın, Ağasəf Axundovun, Cəlal Bərgüşadın, Nahid Hacızadənin, Vidadi

Paşayevin, Mailə Muradxanlının, İsa İsmayılzadənin, Mövlud Süleymanlının, Vaqif Əlixanlı, İntiqam Mehdizadə, Məmməd Oruc və başqalarının aldığı bu müqəddəs məbədin ədəbiyyat, söz, sənət çırağının bu gün radiomuzda şair İbrahim Göyçaylı, Şəfəq Sultan Əlixanlı, Gülbəniz Hüseynova, Rəbiyyə Səyyadi, Nəcibə Bağırzadə, gənc jurnalistlərdən Aygün Diridağlı, Rübabə Səməndər, Mahəddin Əsgər kimi qoruyucuları var. 80 yaşlı radiomuzun ədəbi-bədii sözü bu gün də etibarlı əllərdədir. Sabaha ümidlə baxan söz adamları xalqın mənəvi dəyərlərini, insanların ruhunun bir parçasını yenə də onu dəyərləndirən insanlara ərməğan edəcəyinə inanır.

«Azərbaycan» qəzeti,
20 may 2006-cı il

RADİO VƏ MUSİQİ

Bu il Azərbaycan radiosunun 80, televiziyasının 50 illik yubileyi tamam olur. Radio və televiziyanın tarixi xalqın etnokulturoloji inkişafının, ictimai-siyasi nailiyyətlərinin tarixi, salnaməsidir. Özündə bir çox elm, mədəniyyət sahələrini, ən kütləvi təbliğat bioenerjisini yaşadan teleradio bütün dünyada olduğu kimi, ölkəmizdə də hamının diqqət mərkəzindədir. Xalqın ən xırda uğuru, inkişafın ən müxtəlif istiqamətləri bu sehrli, unikal «qutuda» əks olunaraq hər kəsin məlumat, informasiya mənbəyinə çevrilir. Ona görə do yubiley qarşısında radio və televiziyanın inkişaf tendensiyalarından mərhələli şəkildə söz açmağı məqsədəuyğun sayırıq. Söhbətimiz radio və musiqi mövzusunda olacaq.

Musiqi verilişləri Azərbaycan Radio İdarəsi işə başlayan gündən efirə yoldaşlıq edir. 1926-cı ilin noyabrından xəbərlər proqramları ilə yanaşı pərakəndə olsa da, efirdə canlı musiqi səslənirdi. Amma təbii ki, o vaxt müstəqil redaksiya hələ təşkil olunmamışdı. Musiqiçilər studiyaya dəvət olunurdular. Onların arasında Məşədi Məmməd Fərzəliyev, Cabbar Qaryağdı oğlu, Bülbül, Qurban Pirimov, Qılman Salahov, Xalıq Babayev (dəf), Xosrov Məlikov, Teyyub Dəmirov, Ağabala Abdullayev, Əmirulla Məmmədbəyli, İslam Abdullayev vardı. Canlı konsertlər saatlarla davam edirdi. Qocaman diktor, əruz vəzninin gözəl bilicisi Soltan Nəcəfov söylərdi ki, konsert seçilmiş bir qəzəlin qiraətilə başlardı, musiqi müşayiət edərdi, sonra efiri verərdik xanəndənin

sərəncamına. O vaxt canlı əlaqə də vardı, dinləyici fikir və rəyini söyləyə bilirdi. Bəzən idarənin qarşısına gəlib konsertin bitməsini gözləyənlər də olurdu. O illər lentə köçürülmə olmadığı üçün məşhur xanəndə və sazəndələrin ifası qrammofon vallarına yazılardı. Muğam konsertlərində Zülfü Adıgözəlov, Ruxsara Mirzəbəyova (piano), Hüseynağa Hacıbababəyov, Ələvsət Sadıqov, Kor Əhəd iştirak edərdi.

1931-ci ildə Üzeyir Hacıbəyovun təşəbbüsü ilə Xalq Çalğı Alətləri (XÇA) Orkestri yarandı. Müslüm Maqomayevin bədii rəhbəri olduğu bu notlu orkestrə bəstəkar Səid Rüstəmov dirijor köməkçisi təyin olunmuşdu. Həmin ildə Müslüm Maqomayevin bəstələdiyi «Radio marşı» (RV-8) orkestrin ifa etdiyi ilk əsərlərdən idi. Sonralar bu marş hər səhər Azərbaycan radiosunun çağırtısına çevrildi. Orkestrin repertuarı Azərbaycan, rus və dünya klassiklərinin əsərlərilə zəngin idi.

O vaxt radionun binası Mərkəzi Poçtun yanında yerləşirdi. Radionun solistləri Səltənət Qacar, Sürəyə Qacar, Cahan Talışınskaya, Bikə Səmədzadə, Sima Haşımlı, Həqiqət Rzayeva, Münəvvər Kələntərli, Qüdrət Əmiraslanova hər gün məşqə gəlir, canlı konsertlərdən əlavə Filarmoniyada çıxış edirdilər. Qüdrət Əmiraslanova «Kəsmə-Şikəstə»si ilə, Cavahir Firudinbəyli Üzeyir bəyin «Qaragöz» mahnısının ən yaxşı ifaçısı kimi məşhur olmuşdular. Sonralar radionun musiqi proqramlarında Xurşud Babayevanın, Sara Qədimovanın, Gülağa Məmmədovun, Tükəzban İsmayılovanın, Töhfə Əliyevanın, daha sonra Fatma Mehrəliyevanın adları çəkilməyə başladı.

1936-cı ildə radionun 10 illik yubileyini keçirmək Üzeyir bəyin təşəbbüsü idi. Gecəni dənizkənarı küçədəki binalardan birinin zirzəmisində keçirdilər. Radionun diktorları Soltan Nəcəfov və Leyla Terequlova müğənniləri təqdim

edirdilər. Gecəyə Üzeyir bəylə həyat yoldaşı Məleykə xanım da gəlmişdilər. Orkestrə Üzeyir bəy özü dirijorluq edirdi, Səid Rüstəmov isə köməkçi idi. Üzeyir bəyin 2 fantaziyası – «Şur» və «Cahargah» ilk dəfə o vaxt səsləndi. 1936-cı ildə Üzeyir bəy XÇA orkestrini Səid Rüstəmova təhvil verdi və 1937-ci ildə Moskvada keçirilən Azərbaycanın birinci dekadasında «Arşın mal alan» operettasını bu orkestr müşayiət etdi. Bütün bu hadisələr musiqi redaksiyasının salnaməsinə yazılan ilk və parlaq səhifələr oldu.

1936-cı ildə xor kollektivi də yaradıldı. Xorun bədii rəhbəri bəstəkar Cahangir Cahangirov təyin olundu. İfaçılar o qədər də çox deyildi: Bülbül, Şövkət Məmmədova, Cahan Talışinskaya, Xan Şuşinski, Seyid Şuşinski…

Radionun kollektivi getdikcə genişlənirdi. Bura yeni ifaçılar cəlb edilirdi. Sara Qədimova, Tükəzban İsmayılova, Firəngiz Əhmədova, Şövkət Ələkbərova orkestrin müşayiətilə canlı konsertlərdə çıxış edirdilər.

1946-cı ildə Qara Qarayev və Cövdət Hacıyev Moskva Dövlət Konservatoriyasını bitirib Bakıya qayıtdılar və o vaxtdan efirdə ciddi musiqi öz yerini tutdu. Həmin illərdə xor kollektivinin də canlı çıxışları oldu. 1948-ci ildə İrana, Türkiyəyə konsertlər ünvanlanardı. Cahangir Cahangirov xəstəliyilə əlaqədar xor kollektivindən ayrıldı, sonralar Radio və Televiziya Komitəsinə bədii rəhbər vəzifəsinə təyin edildi.

Respublikada keçirilən dövlət tədbirlərində, baxış-müsabiqələrdə, festivallarda musiqi redaksiyasının əməkdaşları fəal iştirak edirdilər. İstedadlar seçilir, Asəf Zeynallı adına musiqi məktəbinə daxil olurdular.

1949-cu ildə elektromaqnit lentlərinin meydana çıxması radionun tarixə çevrilməsində yeni mərhələ oldu. Musiqi əsərlərinin audiolentə köçürülməsi başlandı.

1950-ci ildə radionun fond fonotekası yarandı. Bədii

Şuradan keçən əsərlər lentə köçürülür və fonotekaya qəbul olunurdu. O illərin lent yazıları və əvvəlki vallara yazılmış əsərlər lentə köçürülüb qızıl fonda daxil edilirdi.

Bədii Şuraya respublikanın görkəmli bəstəkarları, xanəndələri, ifaçıları, musiqişünasları və şairləri daxil idi. Cahangir Cahangirov, Bəxtiyar Vahabzadə, Tofiq Quliyev, Ramiz Zöhrabov, Əlibaba Məmmədov və başqaları fonda qəbul olunan əsərlərə cavabdehlik daşıyırdılar.

50-ci illərdə musiqi şöbəsi hələ müstəqil deyildi, ədəbi-bədii verilişlər baş redaksiyasının tərkibində fəaliyyət göstərirdi. Baş redaktor Hacı Hüseynov, baş rejissor Rauf Kazımovski idi. Musiqi şöbəsinə Tələt Şahverdiyev rəhbərlik edirdi. Redaktorlar Qulam Qasımov və Rəhim Nağıyev idi. Radio İdarəsi Fioletov küçəsində yerləşirdi. İkinci mərtəbədə konsert studiyasında hər gün musiqi kollektivlərinin məşqi və əsərlərinin lentə yazılması prosesi gedirdi.

Yalnız 60-cı illərdə müstəqil fəaliyyət göstərməyə başlayan redaksiya ənənəvi musiqi proqramları ilə efirdə öz yerini tutdu.

60-70-ci illərin qaynar həyatı olimpiadalarla, festivallarla, müxtəlif musiqi tədbirlərilə yadda qalıb. Musiqi redaksiyası xəttilə «Festival gündəliyi», «İstedadlar axtarırıq», «İstedad sorağında», «Oxu, tar!» müsabiqələrinin gedişi silsilə verilişlərlə efirdə öz əksini tapırdı. Musiqi redaksiyası Bəstəkarlar İttifaqı ilə yaradıcılıq əlaqəsində olub, rayonlara səyyar briqadalar göndərir, zəhmətkeşlər qarşısında incəsənət ustalarının çıxışlarını təşkil edirdi.

Radio bu illərdə bir çox incəsənət xadimlərinin inkişafına təkan verirdi. Vasif Adıgözəlov, Ramiz Mirişli, Telman Hacıyev, Adil Bəbirov, Elxan Babayev, Tamilla Məmmədzadə, Aydın Əzimov, Tahir Əkbər, Rasim Bədəlov ilk addımlarını radionun musiqi redaksiyasında atıblar.

70-ci illərdə redaksiya peşəkarlar hesabına daha da zənginləşdi. Baş redaktor Kamil Məmmədov, bəstəkar Telman Hacıyev, musiqişünaslar Aslan Əfəndiyev, Valid Səfərov, ədəbi redaktor Qüdrət Vahabova, tərcüməçi Tələt Ələkbərov musiqi redaksiyasının rəngarəng proqramlarının qayğısını çəkirdilər. Bu illərdə musiqinin bütün janrları paritet əsasda efirdə yer alırdı.

1975-ci ildə canlı konsertlərə geniş yer verilirdi. Bu proqramlar keçmiş Fioletov küçəsində yerləşən radionun səsyazma studiyasından və keçmiş Teleradio Komitəsinin müxtəlif studiyalarından efirə çıxırdı.

Respublikanın tanınmış ədəbiyyatçıları, jurnalistlər, musiqişünas və bəstəkarları bu illərdə efir üçün musiqili kompozisiya, musiqili hekayələr, portret verilişlər hazırlayırdılar. Redaksiyanın ən məhsuldar müəlliflərindən Möhbəddin Səməd, Tofiq Abdin, Hacı Ağayev, Rəfael Hüseynov, Telman Qarayev, musiqi tədqiqatçısı Firudin Şuşinski, musiqişünaslardan Ramiz Zöhrabov, İmruz Əfəndiyeva, Elxan Babayev, Solmaz Qasımova, bəstəkarlardan Azər Rzayev ən müxtəlif kompozisiyalı verilişlər hazırlayırdılar.

«Xanəndəlik sənəti», «Muğam» radio jurnalları, «Axşam görüşləri», «Arzu» musiqi poçtu, «Azərbaycanın musiqi aləmində», «Opera səhnəmizin ustaları» və s. bu kimi silsilə verilişlər populyarlıq qazanmışdı.

1970-80-ci illərdə orta nəsil bəstəkarlarından Azər Dadaşov, Eldar Mansurov, Tahir Əkbər, Mobil Babayev, Rafiq Əliyev, Nazim Qəmərlinski və başqaları məhz radionun musiqi redaksiyasında çalışırdılar.

O illərdə başqa respublikalarla musiqili radio-körpülər təşkil olunurdu. «Bakı-Moskva-Praqa» musiqi radiokörpü uğurlu alınmışdı. Beləliklə, Azərbaycan efirində rus, Çexiya,

yuqoslav musiqisi səslənir və həmin ölkələrdə Azərbaycan musiqisi öz əksini tapırdı. Mübadilə yolu ilə bir çox sosialist ölkələrinin radiolarına Azərbaycan incəsənət ustalarının lent yazıları göndərilirdi. Ümumittifaq radiosunda bir qayda olaraq hər ay Azərbaycan musiqisinə yer ayrılırdı. Bununla yanaşı, «Mayak» proqramında hər həftə Azərbaycanın incəsənət ustalarının çıxışları təşkil olunurdu.

Azərbaycan radiosunun musiqi redaksiyası ilə xarici musiqi şöbələri arasında salınan körpü bu gün də musiqi əlaqələrimizin genişlənməsinə xidmət edir. 2005-ci ildə Türkiyə-Azərbaycan radioları arasında belə uğurlu musiqi mübadiləsi keçirildi.

Radionun diktorları Soltan Nəcəfov, Fatma Cabbarova, Züleyxa Hacıyeva, Aydın Qaradağlı, Sabutay Quliyev, Ramiz Mustafayev musiqili verilişlərinin təqdimatında daha çox iştirak edirdilər.

Gözəl musiqi əsərlərinin seçilməsi və fonda daxil edilməsində teleradionun Bədii Şurasının çox böyük rolu olub. Bu əsərlər radionun səsyazma studiyasında peşəkar ifaçı və musiqi kollektivlərinin müşayiətilə lentə yazılıb Bədii Şuraya təqdim olunur, sonra isə efirdə səslənmə hüququ qazanırdı.

Öz tarixi ənənəsinə sadiq qalan musiqi redaksiyası son illərdə də Azərbaycan xalq musiqisinə, muğamlarımıza və bəstəkarlarımızın yaradıcılığına geniş yer verir, ölməz xanəndə və müğənnilərimizin, vokal ifaçılarının, aşıqlarımızın bu gün xatirəyə çevrilmiş səs yazılarından istifadə edir. Artıq bu gün xatirələrdə yaşayan, ancaq ifaçılıq sənətində müstəsna xidmətləri olan Cabbar Qaryağdı oğlu, Qurban Pirimov, Bülbül, Rəşid Behbudov, Şövkət Ələkbərova, Rübabə Muradova, Sara Qədimova, Zülfü Adıgözəlov, Xan Şuşinski, Seyid Şuşinski, Ağabala Abdullayev, Bəhram Mansurov,

Əhsən Dadaşov, Əliağa Quliyev, Gülağa Məmmədov, aşıqlardan Sadıq Sultanov, Əmrah Gülməmmədov, Şakir Hacıyev, Pənah Pənahov, Hüseyn Saraclı, Mikayıl Azaflı və başqa sənətkarların səs yazılarını vaxtaşırı səsləndirməklə redaksiya sənətin dünəni ilə bu günü arasındakı əlaqələri bərpa edir. «Muğam saatı», «Muğam axşamları», «Sizin istəyinizlə», «Aşıq havaları», «Qəhrəmanlıq nəğmələri», «Muğam ustalarımız» kimi proqramlar dinləyici ürəyinə yol tapır.

Hazırda musiqi redaksiyası sutka ərzində 18-20 saat efirə çıxır. Bu da ümumi proqramın 70 faizini təşkil edir.

Son illər vətənpərvərlik mövzusuna xüsusi diqqət yetirilir. «Azərbaycan əsgəri», «Əsgər andı», «Vətən oğulları, sizin üçün», «Azərbaycan ordusu», «Vətənin keşiyində», «Əsgər istəyi» başlığı altında musiqi proqramları hazırlanır. «Əsgər istəyi» musiqili kompozisiya 1991-ci ildən efirdə səslənir. Verilişin hər bir sayı əsgər və zabitlərimizin arzu və istəyi əsasında qurulur. Proqramın yaradıcı qrupu əsasən cəbhə bölgələrində xidmət edən vətən oğulları ilə görüşlər keçirir. «Əsgər istəyi»nə tanınmış ziyalılarımız, sənətkarlar, əsgər valideynləri və şəhid ailələri dəvət olunurlar. Musiqinin vətənpərvərlik ruhu gənclərə aşılanır.

1994-cü ilin aprel ayından efirə çıxan «Ovqat» proqramının əsas məramı sübh tezdən insanı nikbin notlar üstə kökləmək, səmimi söhbətlə, şirin havacatlarla könlünü açmaq, onu az da olsa qayğılardan uzaqlaşdırıb ovqatını yaxşılaşdırmaqdır. Bu proqramda maarifləndirici süjetlərin bolluğu diqqəti çəkir. Belə ki, xalq yaradıcılığı inciləri, zərb məsəllər, müdriklərin söyləmələri, xalq təbabətinin örnəkləri musiqi kaleydoskopu şəklində dinləyiciyə təqdim olunur.

Təsadüfi deyil ki, sadə insanlardan ziyalılara, alimlərə kimi çoxları bu verilişi maraqla izləyir, telefon əlaqəsi yaradıb

öz fikirlərini bölüşür, məsləhət istəyir, verilişin onlara mənəvi dayaq olduğunu söyləyirlər. «Ovqat» hər çərşənbə və cümə günləri saat 6.20-də efirə çıxır.

«Sarıtel» proqramının ilk sayı 1992-ci ilin dekabrında dinləyicilərin görüşünə gəlib. Veriliş aşıq yaradıcılığının inkişaf tendensiyalarını, bu sənətin incəliklərini dinləyicilərlə bölüşməyə xidmət edir.

Bu vaxta kimi səslənən verilişlərdə aşıq sənətinin genezisi, inkişaf mərhələləri, məktəb və mühitlərin özəllikləri, ustad aşıqların sənət incəlikləri, repertuar polifoniyası, dastan yaradıcılığı və s. haqda zəngin məlumatlar verilib.

«Sarıtel»ə təkcə respublikamızda deyil, Güney Azərbaycanda, Borçalı və Türkiyədə də böyük maraq göstərirlər. Heç təsadüfi deyil ki, bu vaxtacan Güney Azərbaycan aşıq mühitindən bəhs edən 60, Borçalı mahalı sənətkarlarından 40-45, Türkiyə sənətçiləri barədə 20 veriliş efirdə böyük uğurla səslənib.

Musiqi redaksiyasının xətti ilə efirə gedən müəllif proqramlarından biri də 10 yaşını qeyd edən həftəlik «Bu gün sizinlə» verilişidir. Hər şənbə efirə çıxan bu proqram sənətə addım atan gənclər üçün bir radio məktəbə çevrilib. Proqramın ayda 2 sayı fonotekamıza qəbul olunmuş yeni lent yazılarına həsr olunur.

«El sənətkarlarımız», «Nəğmə də bir silahdır», «Ötən illərin nəğmələri», «İllərin nəğmə yaddaşı», «Danış, telli sazım», «O taydan gələn səslər», «Könlüm keçir Qarabağdan», «Dağlar dağımdır mənim», «Ana laylası», «Mənim şikəstəli dünyam», «Yada düşər xatirələr», «Uçur durna qatarı» və s. başlıqlar altında hazırlanan musiqi proqramları da musiqi ilə mətnin uğurlu harmoniyasından yarandığı üçün geniş dinləyici auditoriyası qazanıb.

«Muğam dünyamız» (1997-ci il) verilişində

muğamlarımızın tarixindən, görkəmli muğam ifaçılarından, xanəndə və sazəndələrdən söhbət açılır və onların ifasında muğamlar səslənir. «Musiqi dünyamız» (1998-ci il) proqramı isə dəyirmi masa arxasında toplaşmış sənət adamlarının musiqimizdə mövcud problemlər barədə şərh, təklif və rəylərinə həsr olunur.

2000-ci ildən efir ömrü yaşayan «Bəstəkarlarımızın iş otağında» verilişində görkəmli bəstəkarlarımızdan Tofiq Quliyev, Arif Məlikov, Vasif Adıgözəlov, Ramiz Mirişli, Tofiq Bakıxanov, Şəfiqə Axundova, Ramiz Mustafayev, Aqşin Əlizadə və başqalarının son dövr yaradıcılıq nailiyyətlərindən söhbət açılır, musiqi fondumuzu zənginləşdirən əsərlərin sənətkarlıq vüsətindən bəhs olunur.

1999-cu ildə Azərbaycan radiosunun Azərbaycan Kinostudiyasının musiqi redaksiyası ilə əməkdaşlığı sayəsində «Kino və musiqi» adlı verilişi yarandı. Burada kino sənətinin tarixindən, bəstəkarlarımızın yaradıcılığında kinonun əhəmiyyətindən söhbət açılır. Proqramın qonaqları da bəstəkarlar, ssenaristlər, rejissor və aktyorlar, eləcə də digər yaradıcı kino-musiqi xadimləri olur.

«Ustad sənətkarlarımız» verilişi sənət korifeylərinin taleyindən bəhs edir.

Tanınmış filoloq, professor Rafael Hüseynovun 20 ildən bəri hazırladığı «Axşam görüşləri» musiqi proqramı da musiqi palitrasının zənginliyi və səmimiliyi ilə seçilən verilişdir.

«Klassik və müasir dünya musiqisi», «Musiqi ekspresi», «Nəğməli səhər», «Sizin istəyinizlə» proqramları ən müxtəlif zövqlü musiqisevərlərin arzularını efirdə gerçəkləşdirir.

Musiqi redaksiyasının hazırladığı proqramlar sırasında yubiley şənliklərindən bəhs edən verilişlər xüsusi yer tutur. Üzeyir Hacıbəyov, Fikrət Əmirov, Tofiq Quliyev və Arif Məlikovun yubileylərindən hazırlanmış verilişlər buna

nümunə ola bilər.

Redaksiyanın təşəbbüsü ilə Fransa, Yunanıstan, İsrail dövlətlərinin Bakıdakı səfirliklərilə əlaqə yaradılır, həmin xalqların müasir musiqi əsərləri əldə edilir. Radiomuza təmənnasız olaraq bağışlanan kompakt-disklər əsasında rəngarəng konsert proqramları hazırlanır, dünyanın ən seçmə musiqi əsərləri Azərbaycan dinləyicisinə təqdim olunur.

Bu gün Azərbaycan radiosunun əməkdaşları dünyanı gəzən musiqimizin uğurlarından söz açan silsilə verilişlər hazırlayır, respublikamızdan kənarda yaşayıb yaradan həmyerlilərimizin müntəzəm olaraq mikrofon qarşısında çıxışları, onların beynəlxalq müsabiqələrdəki qələbələri barədə dinləyiciləri məlumatlandırırlar. Musiqi redaksiyası milli irsimizin təbliği sahəsində ənənə və müasirlik prinsipindən istifadə edərək Azərbaycan radiosunun 80, televiziyasının 50 illik tarixinə yeni-yeni töhfələr verəcəkdir.

«Respublika» qəzeti,
13 may 2006-cı il

TELERADİOMUZ MAARİFÇİLİK İŞIĞINDA

Ümummilli liderimiz Heydər Əliyev qeyd edirdi ki, Şərqlə Qərbin, Avropa ilə Asiyanın kəsişdiyi nöqtədə yerləşən Azərbaycan iki sivilizasiya arasında körpüyə çevrilib.

Bu gün biz dünyəvi, hüquqi, demokratik, bir sözlə, müasir dövlət qururuq. Azərbaycan öz tərəqqisinin ikinci mərhələsini – müasirləşmə, yeniləşmə və inkişaf mərhələsini keçirir. Bu da bir həqiqətdir ki, sivilizasiya təhsil və elmə söykənir. Nə məğlubedilməz ordu, nə xalqın kəmiyyət potensialı, nə də dövlətin böyük ərazisi təhsili, elmi əvəz edə bilməz.

Yarandığı gündən radio və televiziya da üç funksiyanı fəaliyyətində əsas götürüb: informasiya, maarifçilik və əyləncə-musiqi.

Azərbaycan televiziyasında «Tədris baş redaksiyası» 1973-cü ilin iyul ayında yaradılıb. Bu vaxta qədər maarifçilik məsələlərini «Təbliğat» redaksiyası yerinə yetirirdi. Ölkəmizdə təhsilin inkişafı, yeni tədris metodları məhz belə bir redaksiyanın yaranmasını zəruri etdi. Redaksiyaya baş redaktor yazıçı Namiq Abdullayev təyin edildi. Redaksiyada iki şöbə – «Ali məktəb» və «Orta məktəb» şöbələri fəaliyyət göstərirdi. Hazırlanan verilişlərdə ,məqsəd tədrisə kömək, qabaqcıl iş təcrübəsi və metodlarını yaymaq idi. Orta məktəblər üçün nəzərdə tutulmuş və canlı yayımla verilən proqramlara məktəblərdə qoyulmuş xüsusi monitorlar vasitəsilə müəllim və şagirdlər baxırdılar. Azərbaycanın müxtəlif rayon və kəndlərində çalışan müəllimlər bu proqrama

dəvət olunur, iş təcrübələrindən danışırdılar. Sonradan bu yeniliklər barədə diskussiyalar təşkil edilirdi ki, bu da televiziyanı xalq həyatına daha da yaxınlaşdırırdı.

70-ci illərin tədris proqramları – «Kimya», «Biologiya», «Ədəbiyyat», «Fizika», «Botanika», «Azərbaycan dili» bu sahə elmlərinin populyarlaşmasına xidmət göstərirdi. Tədris filmləri, əyani vasitələrdən gen-bol istifadə bu proqramları baxımlı edirdi.

Azərbaycanın qabaqcıl elm və maarif xadimləri verilişlərin hazırlanmasında məsləhətçi və aparıcı kimi iştirak edirdilər. Professorlardan Əjdər Ağayev, Abdulla Mehrabəyov, Xudu Məmmədov, Abdulla Nuruşov, akademik Musa Musayev bu redaksiya ilə ən yeni elmi nailiyyətlərini bölüşürdülər.

1975-ci ildən redaksiya «Tədris və elmi-kütləvi proqramlar» adı ilə fəaliyyətini davam etdirdi. İxtisasca müəllim olan Araz Əliyev redaksiyaya baş redaktor təyin olundu. Artıq tədris verilişləri ilə yanaşı elm və istehsalatdan ən son yeniliklər barədə çoxçeşidli verilişlər hazırlanmağa başlandı: «İnsan və qanun», «Təbiətə səyahət», «Elm və istehsalat», «Valideynlər, sizin üçün» və s.

Zamanın, dövrün tələbinə uyğun olaraq həmişə verilişlərdə yeniləşmə, tamaşaçı istəyi əsas götürülüb. 1983-cü ildə efirə çıxan «Əsrlərdən gələn səslər» Azərbaycanın tarixinə, adət-ənənələrinə, türkçülük ideyalarının təbliğinə üstünlük verib. Bu silsilədən hazırlanan «Qədim Naxçıvan» xüsusi proqramı ilk dəfə diyarın tarixi, onun görkəmli şəxsiyyətləri barədə geniş məlumatı tamaşaçılara çatdırdı.

1991-ci ildən redaksiya qısa vaxt ərzində «Radikal» studiyası adı altında fəaliyyət göstərsə də bu yenilik özünü doğrultmadı.

1993-cü ildən əvvəlki adına qayıdan redaksiyanın

məzmun və formaca sürətli inkişafı 1996-cı ilə təsadüf edir. Yeni istedadlı kadrların redaksiyaya cəlb olunması elm, təhsil sahəsindəki islahatların təbliği istiqamətində maraqlı teleformalarla müşahidə olundu. Redaksiyanın orijinal efir saatı artırıldı. Bu qayğının nəticəsi kimi yaranan yeni verilişlər müasirlik və millilik baxımından diqqəti cəlb etməyə başladı. «Yeni əsr, yeni nəsil», «Diyar», «Təhsil: düşüncələr, mülahizələr», «Örnək», «Məktəb» televiziya jurnalı, «Həkim məsləhəti», «Elm xadimlərimiz», «Dünya, səndən kimlər keçdi?», «Ziya», «Elm və istehsalat», «Bağçılıq» öz elmi-praktik tutumu, kütləvi populyar təqdimat üsulları ilə geniş auditoriya qazandı.

Təəssüf hissi ilə qeyd etməliyəm ki, özünün səkkizinci onilliyini yaşayan Azərbaycan radiosunda isə təhsil və elmi təbliğ edən redaksiya son vaxtlara kimi fəaliyyət göstərmirdi. Halbuki radio həmişə böyük məktəb sayılıb və onun ən yüksək tarixi xidməti də xalqı maarifləndirmək olub.

Cəmiyyətin məlumatlandırılması, dünyagörüşlərinin inkişaf etdirilməsi, ideyaca formalaşdırılması, milli-mənəvi dəyərlərin, Azərbaycan ədəbi dilinin və milli mədəniyyətin təbliğində radio həmişə öyrədib, istiqamət verib.

Televiziya meydana gələndən sonra da radionun uşaqlar, məktəblilər, tələbələr üçün nəzərdə tutulan proqramları böyük təsir gücünə malik olub. Azərbaycan elmi barədə biz həmişə radiodan səviyyəli verilişlər eşitmişik. Lakin bütün bu işlərdə sistem və ardıcıllığa ehtiyac hiss olunurdu. Təhsildən, elmdən, təhsilin və elmin söykəndiyi milli-mənəvi dəyərlərdən, təhsilin problemlərindən söz açan analitik proqramlara ehtiyac duyulurdu. Bır sözlə, təhsillə elmi verilişləri əlaqələndirən, uzlaşdıran, planlaşdıran, onu dövrün, zamanın tələbi əsasında quran redaksiyanın yaranması zərurətə çevrilmişdi. Çünki tarix XXI əsrin qarşısında qlobal vəzifələr qoyub. Bu əsr

intellekt əsridir, zəkaların meydanıdır. BMT bu əsri «Təhsil əsri», YUNESKO «Mədəniyyətlər əsri» elan edib. XXI əsr həm də «Şərq-Qərb mədəniyyətlərinin dialoqu» əsridir. «Təhsil əsri»nə, «Mədəniyyətlər əsri»nə, «Şərq-Qərb mədəniyyətlərinin dialoqu» əsrinə inteqrasiya olunmaq üçün ölkəmizin milli, milli olduğu qədər də dünyəvi təhsili inkişaf etməlidir. Təhsili güclü olan xalqın dövlətçiliyi də güclü olur. Savadlı xalq, güclü kadr və möhkəm dövlətçiliyin kökündə yüksək təhsil dayanır. ABŞ kimi qüdrətli bir dövlətin milli proqramında yazılıb: «Ölkənin inkişaf vasitəsi iqtisadiyyat, siyasi quruluş, bazar, hüquq, xüsusi mülkiyyət, hərbi güc deyil, yeni şanlı təhsildir».

Bu problemləri Azərbaycan radiosunun efirindən xalqa çatdıran bir redaksiya isə uzun müddət yaradılmamışdı. Bu boşluğu doldurmaq üçün ciddi hazırlıqdan sonra XXI əsrin astanasında – 1999-cu il aprelində Azərbaycan radiosunda «Təhsil və elmi-kütləvi proqramlar» redaksiyası yaratdıq. Uzun müddət radionun əvvəlcə «Təbliğat», «İctimai-siyasi proqramlar» redaksiyasının baş redaktoru və «İctimai-siyasi, sosial proqramlar» birliyinin rəhbəri işləmiş, peşəkar jurnalist Qənbər Ağayevi bu redaksiyaya baş redaktor vəzifəsinə təyin etdik. Redaksiyaya pedaqoq, filoloq ixtisaslı, təcrübəli jurnalistlər cəlb etdik. Kollektivin qarşısında ciddi vəzifələr qoyuldu. Çünki 1993-cü ildə xalqın təkidli tələbi ilə respublikanın siyasi hakimiyyətinə qayıdan ulu öndərimiz Heydər Əliyev ölkə təhsilinə, maarifə və elmə xüsusi diqqət yetirirdi. Elə həmin vaxtdan Milli Elmlər Akademiyası sahə elmi-tədqiqat müəssisələrinin işini canlandırmaq üçün konkret addımlar atdı. Ulu öndərin bilavasitə təşəbbüsü ilə ölkədə çoxmərhələli nəhəng təhsil islahatı proqramının hazırlanmasına başlandı ki, bütün bunlar Azərbaycan radiosunun çoxmilyonlu dinləyicisinə çatdırılmalı idi. Yeni

yaranan redaksiya 1999-cu il aprel ayının 13-də özünün «Görüş» adlı ilk verilişi ilə efir çıxdı, dinləyicilərə təhsilin, elmin aktual problemlərindən söz açdı. Ümummilli liderimiz Heydər Əliyev bu vaxt Azərbaycan təhsil sistemində islahatların aparılması ilə bağlı sərəncam imzaladı. Sərəncam redaksiya kollektivinin məsuliyyətini daha da artırdı. Elə ilk verilişlərdən məlum oldu ki, kollektiv milli təhsilimizin, elmimizin, tariximizin efir təbliğinin mahiyyətini, strategiyasını və fəlsəfəsini dəqiq müəyyən edib. Həm də hazırlanan verilişlərin məzmunu göstərdi ki, redaksiya kollektivi tamamilə yeni yol seçib. Bunun üçün hazırlanan verilişlərə nəzər salmaq kifayətdir: «Təhsil: problemlər, vəzifələr», «Müəllim otağı», «Pedaqoq sözü», «Ali pedaqoji təhsil», «Pedaqoji fikir tariximizdən», «Azərbaycan və dünyəvi təhsil», «Təhsilin bu günü, bu günün təhsili», «Dilimiz – mənliyimiz, mənəviyyatımız», «Fəlsəfi fikir tariximizdən», «Tariximizin izi ilə», «Azərbaycan elmi XXI əsrdə», «Alimlərimizin laboratoriyalarında», «Sabaha pəncərə», «Axtarışlar, tapıntılar», «Elm xadimlərimiz», «Ömrü örnək olanlar» və digər verilişlər redaksiyanın düzgün mövqedə olduğunu göstərir.

Proqramların məzmun və əhatə dairəsi çox genişdir. Məsələn, «Dövlətçilik», «Ordumuz-qüdrətimiz», «Hamımızın bir vətəni», «Gücümüz-birliyimiz», «Müstəqilliyimiz-dövlətçiliyimiz», «Yeni yüz il», «Şəxsiyyət və zaman», «Böyük ömrün izləri» və digər silsilə verilişlərin əsas qayəsini müstəqil dövlət quruculuğu problemləri, bu quruculuğun memarı Heydər Əliyev irsinə məhəbbət, Vətənə sevgi, azərbaycançılıq ideologiyası təşkil edir.

Təhsil bütöv bir sistemdir, cəmiyyətin hər bir sahəsini və üzvünü əhatə edir. Haqlı olaraq redaksiya təkcə elm xadimlərini, təhsil qurucularını, müəllimləri, valideynləri

deyil, müxtəlif sənət sahiblərini mikrofon qarşısına dəvət edir, təhsil, elm, milli-mənəvi, əxlaqi, sosial, siyasi sahədə problemləri öyrənib ictimaiyyətə çatdırır. Göründüyü kimi, redaksiyanın bütün qlobal problemlərə müraciət etməsi kollektivin hərtərəfli hazırlığından, peşəkarlığından və dövlətçilik məfkurəsindən xəbər verir.

Təbliğ olunan problemlərin sanbalını, verilişlərə kütləvi marağın gücləndiyini və dinləyici auditoriyasının genişləndiyini nəzərə alıb redaksiya yaranandan 3 ay sonra onun efir həcmini daha 2 saat artırdıq. Məlumat üçün deyək ki, redaksiya 7 il ərzində dinləyicilərə 3490 orijinal veriliş təqdim edib. Bu müddət ərzində redaksiyanın 2604 verilişi efirdə təkrar səslənib ki, bunun 1500-dən çoxu dinləyicilərin xahişi ilə proqrama daxil edilib.

«Tariximiz, torpağımız, taleyimiz» verilişi hədsiz populyarlıq qazandığına görə, dinləyicilərin xahişi ilə eyni adda kitab hazırlandı.

Son iki yüz ildə erməni-türk, erməni-Azərbaycan münaqişələrindən, müharibələrindən, azərbaycanlıların soyqırımından bəhs edən tarixi mənbələrə və faktlara əsaslanan, həm də mənim elmi məsləhətçisi olduğum 700 səhifəlik bu kitab (tarixçi alim İsrafil Məmmədovla redaksiyanın baş redaktoru Qənbər Ağayevin dialoqu əsasında) 2003-cü ilin may ayında «Adiloğlu» nəşriyyatı tərəfindən çap edilib, pulsuz olaraq oxuculara paylandı.

Ali məktəblərə qəbul vaxtı redaksiya abituriyentlərin, valideynlərin və müəllimlərin TQDK-nın məsul işçiləri ilə birbaşa, canlı əlaqəsini yaradır ki, dinləyicilər də onları maraqlandıran bütün suallara operativ cavab ala bilirlər.

Onu da qeyd edim ki, redaksiyanın təhsilimizin problemləri ilə bağlı qaldırdığı məsələlər, irəli sürülən təkliflər bir neçə dəfə Azərbaycan Respublikası Milli

Məclisinin «Elm və təhsil» daimi komissiyasının iclasında müzakirə olunub.

Redaksiyanın hazırladığı silsilə verilişlər, məsələn: Qərbi Azərbaycan problemindən bəhs edən «Azərbaycan: tarixi yaddaşımız», Azərbaycan fəlsəfi fikrindən söhbət açan «Fəlsəfi fikir tariximizdən», xalqımızın ulu tarixinə işıq tutan «Tariximizin izi ilə», Azərbaycan pedaqoji fikir tarixinin uzaq əsrlərdən başlayaraq bu günümüzə qədərki dövrünü əhatə edən «Pedaqoji fikir tariximizdən», xalqımızın milli-mənəvi yaddaşının tərcümanı olan Dədə Qorqud dastanının 1300 illiyilə bağlı «Dədə Qorqud – 1300», Azərbaycanın böyük tarixçi alimi Məhəmməd Tağı Zehtabinin «Azərbaycan türklərinin əski tarixi» əsəri əsasında hazırlanan «Tarix: faktlar, həqiqətlər», Vətən və dünya elminin görkəmli nümayəndələrinin elm yolundan söz açan «Elm xadimlərimiz», müstəqil Azərbaycanın qurucusu, ümummilli liderimiz Heydər Əliyevin dövlətçilik kursundan bəhs edən «Şəxsiyyət və zaman», «Böyük ömrün izləri» kimi 200-dən artıq dəyərli veriliş radionun qızıl fonduna daxil edilib.

Redaksiyanın 7 ildə keçdiyi yol göstərdi ki, biz bu redaksiyanı yaratmaqla zamanın, cəmiyyətin mənəvi-strateji tələbini vaxtında nəzərə ala bilmişik.

Bir sözlə, mövzu rəngarəngliyi və əhatə dairəsi baxımından Azərbaycan radiosunun böyük redaksiyalarından biri olan «Təhsil və elmi-kütləvi proqramlar» redaksiyası (ayda 18 saat 36 dəqiqə efirə çıxır) müstəqil Azərbaycan dövlətinin təhsil siyasətini peşəkarlıqla təbliğ edir.

20 iyun 2006-cı il

50 İL MƏDƏNİYYƏTİN KEŞİYİNDƏ

1956-cı ilin soyuq qış günündə hamını bir ocaq başına toplayan, ağ-qara təsvirlərinə baxmayaraq, «mavi ekran» adlanan Azərbaycan televiziyası öz müdriklik dövrünü yaşayır. Azərbaycan mədəniyyətinin təməl daşları üzərində qurulan, ilk proqramları əsasən bədii verilişlərdən ibarət olan bu sənət ocağı həm də milli ziyalılarımızın, sənət korifeylərimizin xalqla ünsiyyətində, yeni sənətkar nəslinin yetişməsində müstəsna rol oynayıb.

50-ci illərin təbliğat maşını nə qədər güclü olsa da, xalq ruhunun tərcümanı olan mədəniyyətin, sənətin köklərinə nüfuz edib onu sarsıda bilməyib, yeri gələndə özü sənətə söykənməyə məcbur olub. Milli televiziyamız da beləcə Azərbaycan mədəniyyətinin ən yaxşı nümunələrinin və nümayəndələrinin təqdimatı, xeyir-duası ilə boy atıb inkişaf edərək bugünkü mərhələyə çatıb.

Televiziya radiodan 30 il sonra həyata göz açıb və şübhəsiz ki, ilk addımlarını radionun ən yaxşı ənənələri, ən gözəl nümunələri və kadrları hesabına atıb. Lakin çox keçmədən öz vizual inkişaf yolunu tapıb və həm ədəbiyyatımızın, incəsənətimizin, həm də milli ziyalılığın inkişafına xidmət edib. Televiziyaya «qapımızı döymədən gələn qonaq» deyirlər. Hər evə, hər ailəyə nüfuz eləyən mavi ekran ilk günlərdən xalqa Azərbaycan ədəbiyyatının ən seçmə nümunələrini, milli musiqimizin ən parlaq incilərini təqdim edib: Seyid Şuşinski, Bülbül, Qurban Pirimov, Şövkət Ələkbərova, Xan Şuşinski, Rəşid Behbudov, Sara Qədimova,

Rübabə Muradova, Gülağa Məmmədov…

Bu gün ölkəmizin bütün televiziya məkanını bəzəyən həmin musiqi şedevrləri Azərbaycan televiziyası əməkdaşlarının min bir zəhməti bahasına başa gəlib. Ağır texnika, çətin studiya və montaj şəraitində Rauf Kazımovski, Ağəli Dadaşov, Kamil Rüstəmbəyov, İsmət Səfərəlibəyov, Arif Babayev, Kərim Kərimov kimi sənət fədailərinin apardığı bu çəkilişlər haqlı olaraq musiqimizin də, televiziyamızın da inciləri siyahısındadır.

Bu gün qızıl fondumuzda böyük qayğı ilə qorunub saxlanan bu lent yazıları təkcə ruh oxşamır, həm də sənət və sənətkarlıq nümunəsi kimi tərbiyə edir, zövqlərin formalaşmasında mühüm rol oynayır.

«Milyon yerli teatr». Teleradio tamaşalarını belə adlandırır. Kiçik teatr salonlarından çıxıb milyonları öz tamaşaçısına çevirən televiziya teatrı ekrana yol aldığı gündən vətəndaşlıq hüququ qazanıb. 50 il əvvəl cəmi bir studiyadan ibarət olan Bakı televiziyasından canlı yayımlanan ilk televiziya tamaşaları bu gün yüksək səviyyədə inkişaf edən və böyük sənətkarlar ordusu yetirən milyon yerli televiziya teatrının ilk təməl daşlarıdır. Bu günün en tanınmış sənətkarları – Səyavuş Aslan, Hacıbaba Bağırov, Əminə Yusifqızı, Amaliya Pənahova, Fuad Poladov, Yaşar Nuri, Firəngiz Mütəllimova, dünyasını vaxtsız dəyişsə də televiziyada böyük yaradıcılıq izləri qoyan Səməndər Rzayev, Şahmar Ələkbərov, Hamlet Xanızadə, Həsən Əbluc, Hamlet Qurbanov və neçə-neçə tanınmış sənətkar dönə-dönə etiraf ediblər ki, öz aktyor şöhrətlərini həm də televiziya teatrının köməyi ilə qazanıblar. Həm yeni, həm köhnə sənətkar nəsli Azərbaycan televiziyasını məhəbbətlə «ana televiziya» adlandırır.

Televiziya həm musiqimizin, həm ədəbiyyatımızın, həm

səhnə mədəniyyətimizin ən gözəli nümunələri üzərində böyüməklə yanaşı bunların hər birinin inkişafına layiqli töhfələr verib. Ən tanınmış bəstəkarlar, ən məşhur yazıçılar, incəsənət xadimləri öz əsərlərini məhz bu layiqli kürsüdən xalqa çatdırmaqdan qürur duyublar. Bu missiyanı dövrün ən görkəmli incəsənət xadimləri Qəmbər Hüseynli, Səid Rüstəmov, Cahangir Cahangirov, Tofiq Quliyev, Vasif Adıgözəlov, Azər Rzayev, Əhməd Bakıxanov, Əhsən Dadaşov, Baba Salahov, Tofiq Əhmədov, Ramiz Mustafayev yerinə yetiriblər. Bədii əsərlərin ekran ömrünə Seyfəddin Dağlı, Nəbi Xəzri, Tofiq Əfəndiyev, Cəlal Məmmədov, İsaq İbrahimov, sonralar Gəray Fəzli, Firudin Ağayev, Həbibə Məmmədxanlı, Namiq Abdullayev kimi tanınmış yazıçılar və ziyalılar xeyir-dua veriblər. Bu şəxsiyyətlər televiziyanın bədii proqramlarının hazırlanmasına dövrün ən tanınmış sənət ustalarını dəvət ediblər. Yəqin yaşlı tamaşaçılar görkəmli sənətkarlarımız Mehdi Məmmədovun, Əfrasiyab Bədəlbəylinin müəllifi və aparıcısı olduğu mədəniyyət proqramlarını xatırlayırlar. Bu proqramlar təkcə öyrədici xarakter daşımırdı, təqdim edilən nümunələrdən hər biri (istər Azərbaycan, istər dünya incəsənətindən olsun) əsl sənəti saxtadan, sənət incisini yapmadan fərqləndirməkdə tamaşaçıya kömək edirdi.

Teleradionun dövrün ən tanınmış sənətçilərinin iştirakı ilə yaradılan musiqi kollektivləri mədəniyyətin inkişafında xüsusi xidməti olan sənətkarlar və ifaçılar yetirib. Bu gün həmin sənətkarların adı ilə şərəfləndirilən Səid Rüstəmov adına Xalq Çalğı Alətləri Orkestrinin, ATP xorunun, estrada simfonik orkestrinin, Əhməd Bakıxanov, Əhsən Dadaşov, Baba Salahov adına Xalq Çalğı Alətləri Ansambllarının, Gülarə Əliyeva adına «Dan ulduzu» instrumental ansamblının fəaliyyəti məhz televiziyamızın adı ilə bağlıdır. Bu

kollektivlərdə böyük musiqiçilər nəsli yetişib. Mahnı və ifaçılıq sənətimizin inkişafına əvəzsiz töhfələr verən bu kollektivlər bu gün də çalışır, fəaliyyətlərini davam etdirirlər. Xalq artisti Nəriman Əzimovun rəhbəri və dirijoru olduğu Azərbaycan Televiziyası və Radiosu Xalq Çalğı Alətləri Orkestri, xalq artisti, görkəmli bəstəkar Ramiz Mustafayevin rəhbərlik etdiyi xor kollektivi, tanınmış musiqiçilər Akif Süleymanov və Yaşar İmanovun başçılığı ilə çalışan estrada simfonik və Niyazi adına simfonik orkestrləri, unudulmaz bəstəkar Əfsər Cavanşirovun yadigarı olan «Bənövşə» mahnı və rəqs ansamblı yeni musiqi əsərləri və mahnılar üzərində işləyirlər. Ən önəmlisi odur ki, zəngin xalq musiqimizdən qaynaqlanan kollektivlər yeniləşməyi, zamanla ayaqlaşmağı heç vaxt unutmayıblar. Mərhum sənətkarımız Tofiq Əhmədovun rəhbərlik etdiyi estrada orkestri keçmiş, SSRİ məkanındakı bütün festivallarda təkcə televiziyamızı deyil, Azərbaycanı ləyaqətlə təmsil edib. Bu günün məşhur cazmenləri məhz bu kollektivdə tərbiyə alıqlarını iftixarla qeyd edirlər.

70-ci illərdə tanınmış pianoçu Gülarə xanım Əliyevanın rəhbərlik etdiyi «Dan ulduzu» instrumental ansamblı xalq musiqisi ilə müasir musiqinin sintezindən yaranmışdı. Milli musiqi sənətinə yeni ifa tərzi gətirən bu ansambl Yalçın Rzazadə, Hüseynağa Hadıyev, Elmira Rəhimova kimi müğənnilərin yetişməsində əvəzsiz xidmət göstərib.

Həm televiziya, həm radio təkcə bədii məhsulların ötürücüsü rolunu oynamayıb. Musiqimizin, teatr və ifaçılıq sənətinin, ədəbiyyatın inkişafına təkan verib.

Teleradionun sifarişi ilə yeni-yeni əsərlər yaranıb. Vaxtaşırı keçirilən müxtəlif sənət müsabiqələri, ən yaxşı mahnı, bədii əsər, televiziya və radio pyesləri üçün sənət yarışmalarında ən tanınmış sənətkarlarımız – Əzizə

Cəfərzadə, Mirvarid Dilbazi, Məhərrəm Əlizadə, Əkrəm Əylisli, İsi Məlikzadə, Əhmədağa Muğamlı, Tofiq Bayram, Rüfət Əhmədzadə, Tofiq Mütəllibov iştirak ediblər Ən nüfuzlu münsiflərin – Tofiq Quliyev, Cahangir Cahangirov, Zeynal Cabbarzadə, Vasif Adıgözəlov, Ramiz Mustafayev, Teymur Elçin, Ənvər Əlibəyli və başqalarının seçimi ilə efirə və ekrana yol alan musiqi əsərləri – mahnılar, simfonik əsərlər, oratoriyalar ekran və efirdən konsert salonlarına, teatr səhnələrinə ayaq açıb.

Bir vaxt hazır tamaşa və musiqiləri təqdim etməklə fəaliyyətə başlayan televiziya özü mədəniyyət və incəsənət nümunələri yaradıcısına çevrilib. Hazırda o, müxtəlif janrlı musiqi kollektivləri, tanınmış ifaçılardan ibarət solistləri olan, «Sabah» studiyasında və digər bədii redaksiyalarda hazırlanan və tamaşaçılar tərəfindən sevilən televiziya tamaşaları yaradan sənət mərkəzidir. Bu gün ölkənin bütün televiziya məkanını bəzəyən «Evləri köndələn yar», (Anar), üç hissəli, «Yaşıl eynəkli adam», (V.Səmədoğlu), dörd hissəli, «Fatehlərin divanı», (M. Süleymanlı), «Mən sənin dayınam», (Elçin), «Gəlinlər», (M.A.Atəş), «Gel qohum olaq», (Ə.Əylisli), «Sabiqlər», (S.Dağlının hekayələri əsasında), üç hissəli, «Bağışla», «Səndən xəbərsiz», «Səni axtarıram», (A.Qəhrəmanov), «Gülüş sanatoriyası» «Sonuncu məhəbbət», (R.Əhmədzadə) və s. ekran əsərləri məhz Azərbaycan televiziyasının sifarişilə hazırlanıb. Vaxtilə çox məşhur olan «Komediyalar aləminə səyahət», «Səhər görüşləri» əyləncəli proqramlarında kiçik fraqmentlər, yumoristik səhnələr şəklində ifa olunan komik parçalar sonradan televiziyanın təklifi ilə inkişaf edərək ekran, səhnə əsərləri formasına düşüb. Azərbaycan televiziyası bu liderliyi indi də qoruyub saxlayır. Yaxın günlərdə ekrana çıxan və çox böyük tamaşaçı rəğbəti qazanan «Sarı gəlin» telenovellası (Elçin) xalq

ruhunun ölməzliyinin, əbədiliyinin təcəssümüdür. Ekrana yol gələn çoxseriyalı «Bəylik dərsi» müzikli (M. Süleymanlı, R. Mirişli) inanırıq ki, geniş tamaşaçı marağına səbəb olacaq.

Hər gün Azərbaycan Televiziyasının elektron poçtuna xaricdəki soydaşlarımızdan yüzlərlə məktub gəlir. Onlar Azərbaycan televiziyasını milli mədəniyyətimizin daşıyıcısı kimi dəyərləndirir və izləmək istədikləri bədii proqramların təkrar göstərilməsini xahiş edirlər. Bunu nəzərə alaraq (əsasən vaxt fərqini) gecə proqramlarımıza bədii musiqili verilişlər daxil etmişik. İndi peyk rabitəsi vasitəsilə dünyanın istənilən nöqtəsində izlənə bilən televiziyamız Azərbaycan diasporasının həm də mənəvi bağlarla birləşməsi zəminində məqsədyönlü iş aparır.

İftixar hissilə deyə bilərik ki, bu gün şou-biznes aləmində çox dəbdə olan «star» ənənəsinin ilk rüşeymi Azərbaycan televiziyasında yaranıb. 1996-98-ci illərdə ekranları bəzəyən «Telestar» proqramı (müəllif Elnur Əşrəfoğlu, aparıcı Rəşad İlyasov) həm dünyanın, həm ölkəmizin məşhur sənətçiləri haqqında yeni üslubda söhbət açırdı. Televiziya məkanında ilk dəfə olaraq ailə tanışlığı bizim ekrandan yol alıb. Çox populyar olan «Ev sizin, sirr bizim» proqramı 55-ci nömrəsindən sonra ekrandan çıxdı. Ona görə yox ki, deməyə sözümüz olmadı. Ona görə ki, layihəni ucuzlaşdırmaq, səviyyəni endirmək istəmədik.

Həm televiziyamızın, həm bütövlükdə mədəniyyətimizin inkişafına təkan verən başlıca amil bu sahəyə dövlət qayğısı və diqqətidir. Ulu öndərimiz, ümummilli liderimiz Heydər Əliyevin diqqəti və qayğısı Azərbaycan mədəniyyətini yüksək zirvələrə qaldırdı. İstər hakimiyyətinin birinci postsovet məkanı dövründə, istərsə də 1993-cü ildəki milli qurtuluşa səbəb olan böyük qayıdışdan sonra həm sənət, həm sənətkar böyük diqqət və qayğı ilə əhatə olunub.

90-cı illərin əvvəllindəki xaos və qarışıq ab-hava ziyalılar və ziyalılığa böyük zərbə vurmuşdu. H. Əliyevin həm müdrik insan olaraq şəxsi qayğısı, həm də dövlət başçısı kimi xüsusi diqqəti sayəsində mədəniyyətimiz dirçəliş dövrünü yaşadı. Şübhəsiz ki, bu televiziyanın da inkişafına, ekranın canlanmasına səbəb oldu. Ziyalılarımızın təklifi və iştirakı ilə yaranan «Prezident və ziyalılar» silsilə proqramları sənətə qayğının güzgüsünə çevrildi. Bu qayğıdan ruhlanan incəsənət xadimlərimiz yeni-yeni əsərlər yaratdılar. Az qala unudulmağa başlayan yaradıcılıq gecələri, sərgilər, görüşlər və bu görüşlərdə prezidentin şəxsən iştirakı müharibədən, qaçqınlıq və köçkünlük əzablarından ruhdan düşən xalqın qəddini düzəltdi. Televiziya bu görüşləri, bu ruhu hər bir ailəyə, evə apardı və bütün bunlar yeni əsərlərin və təbii ki, yeni ekran layihələrinin ideyasına təkan verdi: «Sən qalib gələcəksən», «Publisist studiyası», «Azərbaycan deyəndə», «Məşəl kimi yanan ürək», «El yolunda», «Xilaskar» ədəbi-musiqili proqramları geniş tamaşaçı rəğbəti qazandı. Yeni musiqi, səhnə əsərlərinin, müstəqil Azərbaycanı dünyaya tanıdan rəssamlıq nümunələrinin yaranmasına televiziya da öz layiqli töhfəsini verdi.

Bu gün həm də ekranı bəzəyən və televiziyanın sərgi salonuna çevrilən kiçik həcmli «Televernisaj»lar rəssamlarımızın yaradıcılığının xalqa təqdimində az rol oynamır. Təsadüfi deyil ki, fırça ustalarımız geniş, əhatəli proqramlardan daha çox yaradıcılıqlarının burada əks olunmasını arzu edirlər. Televiziyanın sifarişilə yazılan yeni musiqi əsərləri, talepyeslər, çoxseriyalı bədii televiziya filmləri zamanın sözünü bədii üsullarla yetirmək baxımından çox qiymətlidir.

Daha vizual, müasir formalara müraciət edən rejissorlarımızın yaradıcılıq axtarışları yeni bir janrın – film-

tamaşa janrının meydana çıxmasına səbəb oldu. Studiya dekorasiyalarından ayrılıb canlı həyata üz tutan rejissorlarımız – Ramiz Həsənoğlu, Tariyel Vəliyev, Məhərrəm Bədirzadə, Ələkbər Kazımovski, Elçin Cahangirli bu gün çox populyar olan televiziya tamaşa və layihələrinə quruluş veriblər. Hələ ki, televiziya məkanında bu sahədə bizimlə rəqabətə girə biləcək ikinci televiziya yoxdur.

Bu gün Azərbaycan televiziyası özünün 50 illik yubileyinə ən yaxşı ənənələri qoruyub saxlamaqla yanaşı yeni layihələr, ekran yozumu, müasir, yüksək səviyyəli texnikanın təmin etdiyi görüntülər və dizaynla gəlir. Televiziyamızın səyyar kameraları respublikamızın bölgələrinə üz tutur, yubiley ərəfəsində sənət adamları ilə xalqın görüşü, bölgələrdəki istedadların üzə çıxarılması, səfalı guşələrin ədəbi-musiqili proqramlar üçün çəkiliş pavilyonuna çevrilməsi ilə yanaşı studiyalarımızda yeni layihələrin ekrana yol alması üçün yenidənqurma işləri aparılır. «Qarabağ», «Xəzər» studiyalarında, Teleteatrda musiqili-əyləncəli «Telesabah» (həftəlik), zəngin muğam ənənələrimizin və gənc istedadların daha geniş təbliği üçün «Muğam axşamı», «Görüşə gəl» estrada proqramı və digər yeni layihələr üçün dekorasiyalar qurulur.

Bu işə öz qüvvələrimizlə yanaşı tanınmış dizaynerlər dəvət olunub. Dövlət Mahnı Teatrı ilə birgə retro mahnılar gecəsinə, romans axşamlarına ciddi hazırlıq gedir. Həm sənətin, həm ekran və efirin səviyyəsini qorumaq, həm də tamaşaçıya yüksək səviyyəli ifaçılar təqdim etmək üçün respublikamızın yaradıcılıq təşkilatları və ocaqları – Bəstəkarlar İttifaqı, teatr və konsert müəssisələri ilə müştərək iş öz bəhrəsini verir. İftixarla deyə bilərik ki, tanınmış sənətkarlarımızın yubiley gecələri, yaradıcılıq hesabatları məhz Azərbaycan televiziyası vasitəsilə tamaşaçılara

çatdırılır.

Zəmanəmizin görkəmli bəstəkarları – xalq artistləri Vasif Adıgözəlov, Azər Rzayev, Tofiq Bakıxanov, Musa Mirzəyev yubiley tədbirlərinin məhz Azərbaycan televiziyası ilə yayımlanmasını arzu ediblər. Qüdrətli sənətkarımız Zeynəb xanım Xanlarova bütün yaradıcılıq sevinclərini yalnız bu sənət ocağı ilə bölüşür. Onun Respublika günü münasibətilə təşkil etdiyimiz konsertinə dünyanın neçə ölkəsindən əks-səda gəlib. Bəli, dünya Azərbaycan televiziyasını izləyir və onun təqdim etdiyi sənət nümunələrinə elektron poçtu vasitəsilə xoş münasibətini bildirir.

XX əsrin ortalarında həyata göz açan Azərbaycan televiziyası XXI əsrdə də inamlı addımlarını atır. Bir vaxt televiziyanın «Bənövşə» uşaq xorunda çıxış edən ifaçılar, «Qaranquş» televiziya uşaq teatrında ilk kövrək addımlarını atan məktəblilər bu gün tanınmış sənətçilərə çevriliblər və onlar öz tərcümeyi-hallarında bu barədə iftixarla söz açırlar.

Əsası ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulan və bu gün hörmətli prezidentimiz İlham Əliyev tərəfindən böyük uğurla davam etdirilən sənət və sənətkara dövlət qayğısı incəsənət xadimlərimizi yeni yaradıcılıq uğurlarına ruhlandırır. Bu böyük qayğı televiziyamızdan da yan keçməyib. Televiziyamızın tanınmış simaları respublikanın xalq artisti, əməkdar incəsənət xadimi, əməkdar artist, əməkdar jurnalist fəxri adlarına, prezident təqaüdünə layiq görülüblər. İnanırıq ki, dövlətimizin gündən-günə artan qayğısı sayəsində sənət də, sənətkarlar da yeni yaradıcılıq uğurları qazanacaq və televiziyamız da həmişəki kimi bu nailiyyətlərin önündə gedəcək.

«Xalq qəzeti»,
24 iyun 2006-cı il

XALQ YARADICILIĞI ƏNƏNƏLƏRİNİN TELEVİZİYADA İŞIQLANDIRILMASI

Azərbaycan televiziyası radionun ənənələri əsasında yaranmışdır. 1956-cı ildə radionun artıq 30 yaşı, sabitləşmiş yayım növləri və formaları var idi. Sabit efir həcmi ixtisaslaşmış sahə yayım qurumlarının efir «setkasındakı» dövrü proqramları ilə dinləyici yaddaşında özünə maraq oyatmışdı. Folklorun təqdimatında da radionun ənənələri 30 il sonra fəaliyyətə başlayan televiziyamız üçün örnəyə çevrildi. Xüsusən, folklor irsinin (musiqi folklorunun) toplanması sahəsində radionun təcrübəsi Azərbaycan folklor atlasının oxunması işində TV əməkdaşlarına yardımçı oldu. Lakin hələ ötən əsrin 70-ci illərinə kimi təkcə TV-də deyil, radioda da bu iş pərakəndə şəkildə öyrənilirdi. Radioda «Bulaq» verilişinin efirə çıxması (1971) yeni bir ədəbi üslubun formalaşması ilə nəticələndi. Bu vaxta kimi TV-nin «Ədəbi-dram verilişləri» redaksiyasında təsadüfi efir yeri qazanan «Dastan axşamı», «Azərbaycantelefilm»in istehsalı olan etnoqrafik filmlərin əvəzinə «Bulağ»ın TV variantı olan «Ozan» folklor toplusunun yaranması bu sahədə ilk ciddi addım kimi dəyərləndirilə bilər. «Ozan»m ilk sayı 12 aprel 1981-ci ildə efirə çıxdı. Gəncəbasar folklor mühitinə həsr olunmuş bu toplu 1 saat 10 dəqiqə ərzində o bölgənin zəngin folkloru, xalq mahnıları, aşıq sənəti, milli rəqsləri haqqında yığcam bədii informasiya, oynaq teleformaları ilə diqqəti cəlb etdi. Elə ilk sayından «Ozan»ın çəkilişinə respublikanın tanınmış etnoqraf, folklorşünas alimləri – M.Seyidov, A.Nəbiyev, Ə.Cəfərzadə,

T.Bünyadov, L.Kərimov, K.Kərimov, tanınmış qələm adamlarından Ağasəfa, Dilsuz Mustafayev, Ağalar Mirzə və başqaları cəlb olundular. Rejissor Əmirhüseyn Elşənin (Məcidov) quruluşunda Ü.Hacıbəyovun «Koroğlu» üvertyurası ilə başlayan «Ozan» xalq artisti Roza Tağıyevanın yatımlı, koloritli səsi ilə tezliklə könüllərə yol tapdı və cəmiyyətdə ruh yüksəkliyinə, milli oyanışa əsaslı təsir göstərmiş oldu. 1988-ci ilə kimi dövrü fəaliyyət göstərən bu proqram tezliklə TV-də öz sənət aurasını yaratdı. 1984-cü ildən qadın aşıq-şairlərin yaradıcılığına həsr olunmuş «Aşıq Pəri məclisi» də bu yaradıcılıq atmosferində efir ömrü başladı. (Proqram bu gün də öz fəaliyyətini davam etdirir).

Vizual cəhətdən uğurlu təsir bağışlayan bu folklor toplusunda («Ozan») zaman keçdikcə həm də folklorun toplanması, Azərbaycanın folklor atlasının TV formasının yaranması, əldə olan nümunələrin pasportlaşdırılması, elmi cəhətdən araşdırılması və TV-də folklor muzeyinin yaradılması istiqamətində fundamental iş başladı. Proqramın mətn-təsvir harmoniyasını, müasir folklorşünaslıq baxımından təhlil-ümumiləşdirmə istiqamətlərini gücləndirmək üçün «Ozan»a istedadlı folklorşünasların cəlb olunması gərək oldu. O vaxt radioda «Bulaq» verilişinin redaktoru işləyən Ağalar Mirzə bu TV proqramına redaktor təyin edildi (1986). «Ozan»ın folklor səfərləri Borçalı, Göycə, Dərbənd, Naxçıvan kimi geniş arialda öz söz, hikmət, rəqs, havacat yükünü tutmağa başladı. «Qarabağ bülbülləri» «Ozan»ın ən körpə qonaqları oldu. «Nənə qızlar» ansamblının təkrarsız rəqs-tamaşaları isə «Ozan»ın yaddaşına xatirələr yazdılar. Yaşı yüzü ötmüş ahıl ağbirçəklərin yaddaşı lentlərə köçürüldü, ən duru folklor nümunələri say-seçmə olunub TV-nin fondunu yaratdı. Folklorun toplanmasında və təbliğində belə kütləvi proqramın meydana çıxması elmi ictimaiyyətin də ciddi

marağına səbəb oldu. «Ozan»ın poçtu Azərbaycan MEA-nın Ədəbiyyat İnstitutu tərəfindən geniş təhlilə, araşdırmaya cəlb edildi. «Ozan»ın ünvanına gələn xalq tətbiqi sənəti nümunələri əsasında yaradılmış «Folklor muzeyi» hal-hazırda Azərbaycan MEA-nın Folklor İnstitutunda xüsusi guşədə mühafizə olunur. «Ozan»m televiziyada yaratdığı milli düşüncə ab-havası tezliklə folklor irsinin daha yeni formada işıqlandırılması ətrafında düşünməyi tələb etdi.

Bu il 20 yaşını qeyd edən «Karvan» folklor proqramı xalq yaradıcılığı irsinin ən müxtəlif formalarının işıqlandırılmasında «Ozan»a yardımçı oldu.

«Karvan» görkəmli bəstəkar S. Hacıbəyovun məşhur «Karvan» kantatası ilə yayıma başladı, insanların tarixi yaddaşa qayıtmasına, milli dəyərlərə sevgi, məhəbbət hissilə yanaşmasına mənəvi dayaq oldu. «Karvan»ın Türkiyə, İran, İraq səfərləri xüsusilə yadda qaldı və bu gün də şərq xalqlarının etnokulturoloji görüşlərinin Azərbaycana, eləcə də folklor incilərimizin efirimiz yetişən ölkələrə çatdırılmasına xidmət edir.

Etnik mədəniyyətin, folklor, etnoqrafiya özəlliklərinin belə sürətli təbliği «Ədəbiyyat» redaksiyası nəzdində folklor bölməsi yaradılmasını reallığa çevirdi (1987). Artıq bu bölmədə az bir qüvvə ilə hazırlanan «Ozan», «Karvan», «Aşıq Pəri məclisi», «Araz» (Cənubi Azərbaycanda yaşayan soydaşlarımızın folklor mühiti), «Deyilən söz yadigardır» (folklor tədqiqatçılarımıza həsr olunurdu), «Qoşma» və başqa proqramlar tamaşaçıların rəğbətini qazandı. Şöbə daxilində folklor proqramlarının üstünlüyü redaksiyanın adında da öz əksini tapmış oldu – «Ədəbiyyat və xalq yaradıcılığı» (1989). Lakin 80-ci illərin sonu cəmiyyətdəki qeyri-sabitlik Azərbaycan televiziyasının bütün strukturlarında öz neqativ izlərini əks etdirdi. 1990-cı ildən başlayan struktur

dəyişiklikləri təkcə ədəbiyyatla, folklorla bağlı deyil, milli düşüncə ilə yaşayan bir çox sənət adamlarının taleyində «küləklər əsdirdi». Çoxillik ənənələri olan televiziyanın bir il ərzində eksperimentlər meydanına çevrilməsi sonrakı 10 il ərzində onun sabit məcraya yol tapa bilməməsi ilə nəticələndi. «Məşhur» videokanallar dövründə AzTV-də xalq yaradıcılığı yalnız «Karvan»la təmsil oluna bildi. 1992-ci ildə isə xalq yaradıcılığı, folklor TV-də nisbi müstəqillik haqqı qazandı. Ədəbi-bədii proqramlar birliyi kimi ədəbiyyat, teatr, musiqi, xalq yaradıcılığı və publisistika birlikləri adı ilə fəaliyyətini davam etdirdi. Xalq cəbhəsi hakimiyyətinin süqutu ilə TV-də yeni reforma oldu, bu birliklərin baş redaksiyada birləşməsi ilə nəticələndi. Xalq yaradıcılığı yenə də «Ədəbi-dram verilişləri» redaksiyası tərkibində şöbə kimi təmsil olundu (1992).

1996-cı ilin sonlarından xalq yaradıcılığı məsələləri «Ədəbiyyat və publisistika» redaksiyası xətti ilə hazırlanan verilişlərdə öz əksini tapdı. Bir-birinin ardınca «Oğuz», «Sözün səngəri», «Qala» və başqa proqramlar efirdə vətəndaşlıq hüququ qazandı.

Sözün açığı, folklor irsinin belə sistemli, ardıcıl və geniş təqdimatı onun müstəqil redaksiya şəklində fəaliyyətinə şərait yaratdı. Nəhayət, 1999-cu ilin sentyabrından müstəqil «Xalq yaradıcılığı» redaksiyası fəaliyyətə başladı. Folklor və etnoqrafiya şöbələrindən təşkil olunmuş bu redaksiyaya Ağalar Mirzə baş redaktor təyin edildi.

Xalq yaradıcılığı öz mahiyyətinə görə fikrin, düşüncənin, etnik yaddaşın ifadəsi üçün zəngin material və əlvan formalar diktə edən orijinal mənbədir. Ən müasir mövzuların, düşüncə tipinin, fikir, duyğu izlərinin epos yaddaşında yaşadığı, milli özünəməxsusluğun daha çox folklor qaynaqlarında əks olunduğu bu gün heç kəsdə şübhə

doğurmur.

Folklor bir çox elm sahələrinə mənbə rolu oynadığı kimi milli düşüncənin, əxlaqın və etik, estetik dəyərlərin toplusu kimi ən fundamental tədqiqatların mövzu mənbəyinə çevrilmişdi. Azərbaycan televiziyasında və radiosunda «Xalq yaradıcılığı» müstəqil redaksiyasının fəaliyyəti bu sahədə görülən işi elmi-praktik müstəviyə çıxarmış oldu. Bu gün istər radioda, istərsə də televiziyada əsas iki istiqamət: a) folklorun toplanması, təbliği; b) folklor nümunələrinin təhlili, elmi araşdırılması, mühafizəsi, folklor atlasının TV variantının yaradılması işi paralel olaraq davam etdirilir.

Folklorun toplanması, təbliği işində dinləyici, tamaşaçı aktivliyi üstünlük təşkil edirsə, ikinci mərhələdə, yəni folklorun elmi təşkilatı, qruplaşdırılması, sistemləşdirilməsi işində elmi ictimaiyyətin qüvvəsindən, təcrübəsindən daha çox istifadə olunur.

Televiziyada xalq yaradıcılığı strukturu haqda danışarkən hazırlanan proqramların mövzu qaynaqlarından söz açmaq yerinə düşər.

Qədim rəqslərimizin tarixi evolyusiyası, çağdaş durumu, söz, fikir məntiqinin açıqlanması sahəsində efirimizdə olan boşluğu «Yallı» proqramı aradan qaldırdı. Əsasən Şərur bölgəsində mühafizə olunub saxlanmış onlarla «Yallı»nın ifadə etdiyi fəlsəfi, mifoloji, etnoqrafik kodlara fikir verincə, yallı sözünün məna tutumundakı ucalıq adamı valeh edir. Təkcə bu yallıların adlarını saymaq bəs edər ki, proqramın fəaliyyət göstərdiyi dövrdə necə zəngin yaradıcılıq axtarışları apardığı aydın olsun: «Xala»eyi (Şahbuz), «Qapu» (Babək), «Dırqoyu» (Culfa), «Qazı-qazı» (Şərur), «Qınimo» (Ordubad), «Tənzərə» (Ağdam), «Qaladan-qalaya» (Bərdə), «Subuq yallısı» (Tərtər), «Ürfanı» (Beyləqan), «Kürdün ağırı» (Kəlbəcər), «Haynəri» (Gəncə), «Çobanı» (Dəvəçi), «Şəki

yallısı» (Şəki) və s.

Xalq yaradıcılığını öz geniş konturlarında əks etdirən «Oğuz» proqramı yurdumuzun folklor irsinin daha geniş, elmi, mifoloji sistem əsasında öyrənilməsinə böyük əhəmiyyət verir. Oğuzların tarixi miqrasiyası, dövlətçilik ənənələri, məmləkət, yurd sevgisinin bədii əksi bu proqramda sənət inciləri ilə izlənilir.

«Xalq yaradıcılığı» redaksiyasının sənətkarlıq baxımından parlaq proqramlarından biri də «Dəmirqapı Dərbənd» adlanır. Bu mövzuya müraciət hansı ehtiyacdan yaranır? Hər şeydən əvvəl ideyanın mərkəzində 100 mindən artıq dərbəndli soydaşlarımızın taleyi dayanır. Bu gün Rusiya ərazisi sayılsa da qədim Dərbənddə həmişə türk ruhu yaşayıb. Dastanlarımızın, folklor irsimizin pozulmaz naxışları bu qədim torpaqda yaranıb.

Dədə Qorqudun məzarı Dərbənddə qorunur. Bu proqram həm də güclü milli təəssübkeşlik hissinin ifadəsi kimi maraq doğurur. Aşıq yaradıcılığının təbliği, yeni saz havalarının, dastanların, motiv və süjetlərin toplanması redaksiyanın gündəlik fəaliyyətində geniş yer tutur. İki daimi proqram bu sahədə kütləvi iş görür: «Aşıq Pəri məclisi» və «Sazın, sözün sehrində». Hər iki proqramda aşıq sənətinin ən gözəl nümunələri, itib-batmaqda olan, repertuardan çıxmış qənimət havaların təqdimatı mühüm əhəmiyyət kəsb edir.

«Aşıq Pəri məclisi»nin 20 illiyi münasibətilə (2004) Azərbaycan qadın aşıq və el şairlərinin tarixi taleyindən bəhs edən «Aşıq Pəri məclisi» adlı nəfis kitab da çapdan çıxdı. Aşıq yaradıcılığının regional xüsusiyyətlər üzrə, aşıq məktəbləri şərti bölgüsü üzrə öyrənilməsi və təbliği XVI yüzillikdən bəri inprovizatorçu aşıqların, el şairlərinin necə inkişaf yolu keçməsi və zəngin irs yaratmaları barədə dolğun təəssürat yaradır. Xüsusən bu günə kimi az öyrənilmiş Şirvan

aşıq sənətinə tez-tez üz tutmaqla burada aşıqlığın tarixi ənənələrə malik olduğu sübuta yetirilir. Şirvanda tarixən ifa olunmuş havacatın (efirdə səslənib, lentə alınıb) nümunələri əsasında bu polifoniyanı müşayiət etmək çətin deyil: «Hicazi peşro», «Əlicanı peşro», «Şəmsi-qəməri peşro», «Eynaz peşrosu», «Şirvan şikəstəsi», «Çığdançıxma şikəstə», «Qocaman şikəstə», «Bayatı şikəstə», «Şirvan şəşəngisi», «Santorpaq şikəstəsi», «Kəsmə şikəstə», «Qədim şikəstə», «Qobustan» və s.

Folklorun nəzəri-praktik məsələlərindən bəhs edən «Dastan», «Yazı», «Qala», etnoqrafik etüdlərin əlvan politrası «Qobustan», «Buta» (türk xalqlarının folklor rəqsləri toplusu), «Sandıqça», folklor-informasiya bülleteni «TV folklor dəftəri», «Qaravəlli» (TV-nin meydan tamaşası). Bunlar redaksiyanın gündəlik verilişlərinin az bir qismidir.

Redaksiya əməkdaşlarının gündəlik gərgin əməyi hesabına 10 saatlıq orijinal efir vaxtı forma və məzmun baxımından maraqlı və müasir verilişlərin yaranması ilə nəticələnir. Bütün bunlar dünya folklorunun ümumi konturları fonunda təqdim edilir və efir qanadlarımızın yetişə bildiyi ölkələrdə xalqımızın etnik mədəniyyəti, milli adət-ənənələri haqqında dolğun informasiya, xoş təəssürat yaradır.

«Respublika» qəzeti,
23 iyun 2006-cı il

AZƏRBAYCAN TELERADİOSUNUN MUSİQİ KOLLEKTİVLƏRİ

Xalq Çalğı Alətləri Orkestri. 1931-ci ildə dahi bəstəkar Üzeyir Hacıbəyov 13-14 nəfərdən ibarət Xalq Çalğı Alətləri Ansamblını yaratdı. Bu işdə görkəmli bəstəkarımız Müslüm Maqomayevin də böyük rolu oldu. Üzeyir bəy qısa bir müddət ərzində ansamblın tərkibini 22 nəfərə, musiqi məktəbi tələbələri sıralarından ən peşəkarlarını seçməklə isə kollektivin sayını 40 nəfərə çatdırmaqla Şərqdə ilk Xalq Çalğı Alətləri Orkestrini yaratmağa nail oldu. Orkestrin dirijoru Üzeyir bəy özü, dirijor köməkçisi və konsertmeyster isə Səid Rüstəmov təyin olundu. Orkestrin ilk solistlərindən Əhməd Bakıxanovu, Qurban Pirimovu, Xosrov Məlikovu, Bəhram Mansurovu, Qılman Salahovu, Hafiz Mirzəliyevi, Ağası Məşədibəyovu, Hökumə Nəcəfovanı və başqalarını göstərmək olar. Üzeyir Hacıbəyovun orkestri yaratmaqda əsas məqsədi Azərbaycan xalq musiqisini radio vasitəsilə dünya xalqlarına çatdırmaq idi. 1937-ci ildən bu günə qədər Azərbaycan radiosu öz verilişlərinə Müslüm Maqomayevin orkestr üçün yazdığı "Radio marşı" ilə başlayır.

Ü. Hacıbəyov orkestrin repertuarının zənginləşməsi üçün qısa bir müddət ərzində "I və II fantaziyaları"nı yazmışdır. 1930-cu ilin II yarısından başlayaraq, orkestrin repertuarına rus və Qərbi Avropa bəstəkarlarının əsərləri, o cümlədən C. Verdinin, M. Qlinkanın, P. Çaykovskinin də əsərləri əlavə olundu. 1935-ci ildə Üzeyir bəy orkestrə rəhbərliyi Səid Rüstəmova həvalə etdi. 1936-cı ilin aprel ayında I

Ümumittifaq Radio Festivalında orkestr mükafat qazandı. 1937-ci ilin fevral ayında Moskva və Leninqrad şəhərlərində orkestr konsertlər verdi. 1938-ci ilin aprelində isə Ü. Hacıbəyov Moskvada keçirilən I Azərbaycan Ongünlüyündə nümayişi nəzərdə tutulan "Arşın mal alan" musiqili komediyasını Xalq Çalğı Alətləri Orkestri üçün işləməyi S. Rüstəmova həvalə etdi. Beləliklə, orkestr 38-ci il aprelin 9-da Böyük Teatrın səhnəsində göstərilən "Arşın mal alan" musiqili komediyasını müşayiət etdi. Ertəsi gün tamaşa mərkəzi radio vasitəsilə translyasiya edildi.

Ötən əsrin 50-ci illərində Azərbaycanın tanınmış bəstəkarları orkestr üçün iri və kiçik həcmli əsərlər yazdılar. 1959-cu ildə Moskvada keçirilən II Azərbaycan Ongünlüyündə orkestrin solistləri Xan Şuşinski, Şövkət Ələkbərova, Sara Qədimova, Rübabə Muradova, Rauf Atakişiyev, Lütfiyar İmanov və bir çoxları müvəffəqiyyət qazandılar. 60-cı ildə bu müvəffəqiyyətlərə görə, Xalq Çalğı Alətləri Orkestri "əməkdar kollektiv" fəxri adına, baş dirijor S. Rüstəmov "Qırmızı Əmək Bayrağı" ordeninə, dirijor Süleyman Ələsgərova isə "Şərəf nişanı" ordeninə layiq görüldülər.

1959-cu ildə orkestrə əməkdar incəsənət xadimi Hacı Xanməmmədov dirijor təyin edildi. O, çox keçmədən orkestrin repertuarına bir neçə suita və "Simfonietta" əsərini ərməğan etdi. Orkestrdə ikinci dirijor kimi fəaliyyət göstərən Rəşid Əfəndiyev bir çox əsərləri orkestr üçün işləyərək radionun fonduna yazdırmışdı. 1974-cü ildə orkestrin bədii rəhbəri və baş dirijoru Nəriman Əzimov isə ilk dəfə milli alətlərimiz olan udu, bas balabanı, tenor balabanı orkestrə daxil etməklə səslənməni daha da zənginləşdirdi.

1979-cu ildə Faiq Sadıqov orkestrə II dirijor təyin edildi. Onun orkestr üçün işlədiyi Qərbi Avropa, Rusiya və

Azərbaycan bəstəkarlarının əsərləri Azərbaycan radiosunun fondunda lentə alınmışdır.

Nəriman Əzimov 70-80-ci illərdə orkestrin repertuarına Fikrət Əmirovun "Kürd Ovşarı", "Şur" simfonik muğamlarını, Motsartın 40 saylı simfoniyasını daxil etməklə onu daha da zənginləşdirdi. Orkestrin repertuarında səslənən əsərlər radionun "Xarici verilişlər redaksiyası" vasitəsilə dünyanın 140 ölkəsinə yayımlanır. Bu il kollektivin yaranmasının 75 illiyi qeyd olunur. Bu illər ərzində kollektiv Azərbaycan bəstəkarlıq məktəbi üçün əsl yaradıcılıq laboratoriyası olub.

* * *

Simfonik orkestr. Simfonik orkestr dahi bəstəkarımız Üzeyir Hacıbəyovun təşəbbüsü ilə 1932-ci ildə Azərbaycan Dövlət Radio Komitəsinin nəzdində yaranıb. Simfonik orkestrin ilk bədii rəhbəri və baş dirijoru Aleksandr Semyonoviç Şvats olmuşdur.

1941-ci ildən isə orkestrin bədii rəhbəri və baş dirijoru Əşrəf Həsənov, II dirijoru Çingiz Hacıbəyov olub. Üzeyir Hacıbəyovun dəvətilə Avstriya dirijoru OttoŞtrasser də bir neçə il bu kollektivlə işləyib.

1944-cü ildə orkestr Zaqafqaziya Ongünlüyü çərçivəsində Tbilisidə böyük müvəffəqiyyətlə çıxış edib. Böyük Vətən müharibəsi illərində isə orkestr hospitallarda yaralı əsgərlər qarşısında çoxsaylı çıxışlar edib. Orkestrdə Bülbül, Şövkət Məmmədova, Firəngiz Əhmədova, Sona Aslanova, Lütfiyar İmanov və başqa məşhur sənətkarlar çalışıb.

1945-46-cı illərdə "Arşın mal alan" operettası bu orkestrlə ifa olunub. 1970-ci illərdə respublikanın xalq artisti Ramiz Məlikaslanov, 1992-95-ci illərdə əməkdar incəsənət

xadimi İsmayıl Hacıyev, 1995-ci ildən indiyədək əməkdar incəsənət xadimi Yaşar İmanov kollektivə rəhbərlik edir. Dünya şöhrətli sənətçilərdən Ağakərim Əliyev, Böyükağa Sadıqbəyov, Məmməd Orucov, Yaqub Hacıyev və bir çox başqaları uzun müddət bu orkestrdə fəaliyyət göstəriblər.

* * *

Xor. Azərbaycan Dövlət Televiziya və Radio Komitəsinin Xor Kollektivi 1936-cı ildə dahi bəstəkarımız Üzeyir Hacıbəyov tərəfindən yaradılıb. Kollektivin ilk bədii rəhbərləri Cahangir Cahangirov, Əhəd İsrafilzadə olub. 1948-ci ildən bu günədək xora əvvəllər kollektivdə xormeyster kimi fəaliyyət göstərən respublikanın xalq artisti Ramiz Mustafayev rəhbərlik edir. Xor fəaliyyətə başladığı illərdə Azərbaycan xalq mahnılarının, Azərbaycan bəstəkarlarının əsərlərinin ilk ifaçısı olub. Kollektiv Azərbaycana bir çox tanınmış sənətçilər töhfə verib. Onlardan SSRİ xalq artistləri Zeynəb Xanlarova, Lütfiyar İmanov, Firəngiz Əhmədova, respublikanın xalq artistləri Gülağa Məmmədov, Mobil Əhmədov, Şahlar Quliyev, əməkdar artistlər Firudin Mehdiyev, Faiq Mustafayev, Yaşar Səfərov, İdris Mehdiyev, artistlərdən Anatollu Qəniyev, Nərminə Məmmədova, Əbülfət Nəzərov, Sahib Kərimov, Mehman Hacıbəyov və başqalarının adlarını sadalamaq olar.

Böyük Vətən müharibəsi illərində kollektivin ifasında vətənpərvərlik mövzusunda bir çox əsərlər səslənib. Vasif Adıgözəlov, Ramiz Mustafayev, Emin Sabitoğlu, Şəfiqə Axundova, Hacı Xanməmmədov, Ramiz Mirişli, Sərdar Fərəcov və digər bəstəkarların oratoriyaları, kantataları, vokal-simfonik poemaları və əsərləri xor kollektivi tərəfindən yüksek məharətlə ifa olunaraq lentə alınıb.

Qarabağ müharibəsinə həsr olunmuş “Salatın” (sözləri Nəbi Xəzrinin), “Bu qan yerdə qalan deyil” (sözləri Məmməd İsmayılın), “Haqq səninlədir”, “Azərbaycan” (sözləri Hikmət Ziyanın) və Vasif Adıgözəlovun “Qarabağ”, “Çəkin Qarabağdan qara əlləri” oratoriyaları da xor kollektivi tərəfindən məharətlə ifa olunub.

* * *

Estrada-simfonik orkestri. Azərbaycan Dövlət Televiziya və Radio Komitəsinin estrada-simfonik orkestri 1956-cı ildə yaranıb. Qısa müddət ərzində fəaliyyət göstərən orkestrin ilk təşkilatçısı, məşhur saksofonçu, respublikanın xalq artisti Tofiq Əhmədov olub.

1967-69-cu illərdə bu orkestrin nəzdində “Qaya” vokal kvarteti, 1971-ci ildə isə Vaqif Mustafazadənin rəhbərliyi ilə “Sevil” vokal-instrumental ansamblı yaradılıb. 1975-ci ildə orkestr “estrada-simfonik orkestri” statusunu alıb. 1979-83-cü illərdə Əziz Əzizov, 1983-90-cı illərdə böyük musiqiçi Rafiq Babayev, 1990-98-ci illərdə Faiq Sucəddinov, 1998-2002-ci illərdə pianoçu-aranjemançı Eldar Rzaquluzadə orkestrin bədii rəhbəri olub. 2002-ci ildən etibarən orkestrin bədii rəhbəri saksofonçu Akif Süleymandır.

Orkestr bir sıra ölkələrdə respublikamızı layiqincə təmsil edib.

SSRİ xalq artisti Müslüm Maqomayev Moskvanın Ostankino studiyasında ilk dəfə bu orkestrlə çıxış edib. Respublikanın xalq artistləri Oqtay Ağayev, Flora Kərimova, İlhamə Quliyeva, Mirzə Babayev, Mübariz Tağıyev, əməkdar artist Brilyant Dadaşova, artistlərdən Firəngiz Rəhimbəyova, musiqiçilər Səyavuş Kərimi, Cəmil Əmirov, Rauf Sultanov və başqaları orkestrin solistləri olublar.

* * *

“Bənövşə” uşaq xoru. Azərbaycan Dövlət Televiziya və Radio Komitəsinin “Bənövşə” uşaq xoru 1958-ci ilin sentyabr ayının 15-də bəstəkar Əfsər Cavanşirovun rəhbərliyi ilə yaradılıb.

“Bənövşə” uşaq xorunun repertuarında Azərbaycan və eləcə də dünya bəstəkarlarının əsərləri yüksək səviyyədə ifa olunur.

Keçən əsrin 70-ci illərində kollektiv bəstəkar və dirijor maestro Niyazinin rəhbərliyi altında ölkəmizdə və respublikamızın hüdudlarında məktəblilərin mahnı festivallarında iştirak edib, qastrollarda olub.

Bir çox sənətkarlarımız ilk dəfə səhnəyə öz kövrək addımlarını məhz bu kollektivdən atıblar. Onlardan SSRİ xalq artisti Xuraman Qasımova, xalq artistləri Flora Kərimova, Mələkxanım Əyyubova, əməkdar artistlər Nisə Qasımova, Akif İslamzadə, Firuzə İbadova, Azərin və başqalarını qeyd etmək olar.

23 iyun 2006-cı il

DÖVLƏTÇİLİK, MİLLİLİK, MÜASİRLİK

Bu il Azərbaycan radiosunun 80, televiziyasının 50 yaşı tamam olur. Əslində bu əlamətdar tarix cəmiyyətin məlumatlandırılması, milli-mənəvi oyanış, xalqın maarifləndirilməsi sahəsində bütöv bir mərhələ təşkil edir. Bu gün elə bir ev tapılmaz ki, orada radio və televiziyanın təsiri hiss olunmasın. Yarandığı gündən əsrin möcüzəsi kimi qəbul edilən radio və televiziya informasiya sahəsində liderliyini bir an da əldən verməmişdir.

Keçmiş sovetlər birliyində xalqın dünyagörüşü və bədii-estetik zövqünün formalaşmasında əsaslı rol oynayan radio və televiziya (RTV) Azərbaycanda da şərəfli inkişaf yolu keçmiş, milyonların tribunasına çevrilmişdir. Əslində RTV canlı bir orqanizm kimi çoxlarının yaddaşında obrazlaşmış, kömək, təsəlli, arzu, dilək ünvanına çevrilmişdir. Azərbaycan radio və televiziyasının tarixinə kiçicik ekskurs bəs edər ki, insanların həyatında RTV-nin qeyri-adi rolu aydın olsun.

Ekran və efir insanların ilk müəllimi olmuş, sonralarsa qiyabi xalq universitetlərinə çevrilmiş, ucsuz-bucaqsız ölkənin əsas informasiya şəbəkəsi kimi xalqla dövlət arasında körpü rolunu oynamışdır. Eyni zamanda, insanların arzu və düşüncələrinin, bədii-estetik meyarların və yaradıcılığın kütləviləşməsində təşəbbüskar kimi çıxış etmiş, istedadlı insanların cəmiyyətdə seçilib tanınmasına şərait yaratmışdır. Bununla da teleradiomuz milli-mənəvi dəyərləri təbliğ etməklə kollektivçilikdən fərdiliyə, kütləvi əxlaq, xarakter, xalq psixologiyasından milli dirçəliş, oyanış düşüncəsinə qol-

qanad vermişdir. Xüsusən 90-cı illərin milli müstəqillik düşüncələrinin kütləviləşməsində RTV-nin böyük rolu olmuşdur. Təkcə 90-cı illərin «Meydan hərəkatında» AzTV kameralarının Azadlıq meydanına gətirilməsi bütün ölkəyə əsl həqiqətlərin (Azərbaycana qarşı erməni-daşnak təcavüzünün, Sov.İKİ liderlərinin xəyanətkar mövqeyinin, respublika rəhbərlərinin mərkəzə itaətkar münasibətinin) yayılması və xalqın mübariz Vətən əsgərinə çevrilməsi ilə nəticələndi.

RTV-nin ən kütləvi mübarizə vasitəsi olduğu sonrakı dövrlərdə də özünü göstərdi. Düzdür, bu illərdə bəzi səbatsız, xalqa xəyanətkar rəhbərlər ondan yalan informasiya yaymaq, cəmiyyətdə laqeydlik, arxayınçılıq yaratmaq imkanı kimi də istifadə edirdilər. Lakin bütövlükdə taleyinə xalqın arzuları yazılmış RTV müstəqillik illərində yeni cəmiyyət quruculuğunda, müstəqilliyin qorunub saxlanılması, itirilən torpaqlarımızın geri qaytarılması istiqamətində təbliğatını quraraq ümummilli maraqların müdafiəsinə qalxdı.

Göründüyü kimi, istər postsovet rejimi zamanında, istərsə də müstəqillik illərində RTV xalqın ən yaxın həmsöhbəti, fikir düşüncə ortağı kimi ona simsarlıq etmiş, ağır günlərində həyanına çevrilmişdir. Ümumiyyətlə, RTV yarandığı gündən hərbi məlumatların xüsusi əlifba ilə məsafəyə ötürülməsindən bugünkü ən kütləvi informasiya, əyləncə, bədii-estetik düşüncə sahəsinə kimi zəngin inkişaf yolu keçmişdir. Mütəxəssislər zamanca qısa, məzmun, formaca hüdudsuz görünən bu dövrü bir neçə mərhələyə bölürlər. Bu bölgülər şərti olduğundan ölkəmizdə RTV-nin inkişaf dinamikasını şəxsi təcrübə əsasında göz önündən keçirmək imkanımız var. Bizə belə gəlir ki, Azərbaycan məkanında RTV-nin boy artımı və inkişaf dinamikasını izləmək bugünkü efir məkanında bir sıra vacib mətləblərə aydınlıq gətirərdi.

Azərbaycanda radio 1926-cı il noyabrın 6-da fəaliyyətə başlayıb. 1976-cı ildə radionun 50 illik yubileyi dövlət səviyyəsində ümumxalq bayramı kimi qeyd olunub. Televiziyanın Azərbaycanda fəaliyyət tarixi 30 il sonraya – 1956-cı il fevralın 14-ə təsadüf edir. İstər radioda, istərsə də televiziyada bu dövr ərzində on minlərlə insan ilk əmək fəaliyyətinə başlayıb və bugünkü Azərbaycan mədəniyyətinin ən aparıcı simaları Azərbaycan radiosunda və televiziyasında çalışmaları ilə fəxr ediblər. Demək, Azərbaycanda RTV təkcə efir məkanı üçün deyil, respublika mədəniyyəti üçün də əsaslı baza rolu oynamışdır.

Bu məntiqə görə, Azərbaycan radio və televiziyasının şərəfli tale yolunu (ictimai, iqtisadi, sosial-siyasi, milli-mənəvi dəyərlər sistemi kimi izlənərkən) bir neçə mərhələyə bölmək olar:

1) təşəkkül illəri və yeni yayım formalarının üzə çıxarılması;

2) siyasi təbliğatdan tədricən mənəvi-estetik, sənət dünyasına dönüş mərhələsi;

3) əyalət statusundan müstəqil Azərbaycanın RTV-sinə keçid.

Şərti bölgü əsasında müəyyənləşdirdiyimiz bu dövrlərdə də ictimai-siyasi, texniki-iqtisadi, milli-mədəni amillərin təsiri özünü göstərməkdədir. Bu dövrlərin hər birində RTV Azərbaycan dilində xalqın həyatına daha yaxından nüfuz etmiş, getdikcə milli-mədəni, etik-estetik dünyagörüşün formalaşmasına təsir göstərərək zənginləşmişdir. Tam məsuliyyətlə demək olar ki, ötən illərdə Azərbaycan ziyalılığının kamilləşməsində, onun öz sənət yanğısını bütövlükdə ifadə etməsində radio və televiziya misilsiz rol oynamışdır. Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Məmməd Səid Ordubadi, Süleyman Rüstəm, Səməd Vurğun,

Osman Sarıvəlli, Cövdət Hacıyev, Qara Qarayev, Fikrət Əmirov və başqa sənət şəcərəsini sonralar gənc bəstəkar və yazıçılar RTV-də şərəflə davam etdirdilər. Radio və televiziya üçün yazılan musiqi əsərlərinin, marş və romansların, pyeslərin, telefilm ssenarilərinin sayı kimi sanbalı da artmağa başladı. N.Xəzri, Ə.Əlibəyli, K.Rüstəmbəyov, S.Dağlı, A.Dadaşov, R.Kazımovski kimi radio-televiziya ustadlarına çevrilmiş incəsənət xadimləri zamanı üçün yeni növ televiziyanın formalaşmasında iştirak etdilər. S.Vurğunun «Aygün» pyesi də həmin illərdə lentə alındı.

70-80-ci illərin televiziyası yeni dövr siyasətinin, milli müstəqillik və azadlıq ideyalarının leqal, qeyri-leqal təbliğat mərkəzinə, milli proqramlarla müstəqillik duyğularının qaynar mərkəzinə çevrildi. Azərbaycan radio və televiziyasında efir ömrü yaşayan, milli müstəqillik «qaranquşları» olan «Bulaq», «Ozan», «Araz» kimi proqramlar mövzu və formasına, milli düşüncənin yüksək sənətkarlıqla təqdimindəki bənzərsizliyinə görə bu gün də böyük hörmətlə xatırlanır. Təkcə «Ozan»ın «Koroğlu» uvertürası ilə yayıma başlamasındakı milli ruh nəyə desən dəyərdi. Televiziyanın «Araz» proqramı hər iki sahildə qardaş həsrəti çəkən insanların fiziki, mənəvi görüşünü təşkil etmək kimi riskli bir missiyanın öhdəsindən bacarıqla gəlirdi.

Bu gün ətrafında yeni istedadlar birləşdirən Azərbaycan televiziya və radiosu həmin o mürəkkəb və ziddiyyətli şəraitdə məhz sənətkarlıq hesabına sözünü zamanında, məqamında kifayət qədər deyir, Azərbaycanın milli müstəqilliyinə insanlarda inam hissi tərbiyə edir.

Azərbaycanda RTV-nin əsas və yetkin fəaliyyət mərhələsi müstəqillik dövrünə təsadüf edir. Bu dövrün televiziya və radiosu ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə ikinci dəfə gəlişindən sonra xüsusi məzmun

daşımağa başladı. Məhz bu dövrdən AzTV xalqın, dövlətin taleyi ilə bağlı ən böhranlı anlarda milli maraqlar mənafeyində dayanaraq xalqı antixalqdan, dövləti xainlərdən qorumaqda kəsərli silaha çevrildi. Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan televiziyasına münasibətlə söylədiyi: «Televiziya bütün informasiya vasitələrindən ən kütləvisidir. İndi heç kəs öz həyatını televiziyasız təsəvvür edə bilməz… Azərbaycan milli televiziyası xalqımızın milli sərvətidir» fikri burada çalışanların əməyinə verilən ən parlaq qiymətdir.

Yarandığı vaxtdan müxtəlif adlarla daim yeniləşən və inkişaf edən televiziya məhz 1991-ci ildən 2005-ci ilə qədər öz fəaliyyətini Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkəti kimi davam etdirmişdir. Ad dəyişmələri həmişə radio və televiziyanın inkişafına, müstəqilliyinə xidmət etmişdir. Ötən ilin martından Qapalı Səhmdar Cəmiyyət kimi fəaliyyətinin yeni mərhələsinə qədəm qoyan Azərbaycan televiziya və radiosu yəqin ki, həm də yeni dövrün efir favoritinə çevriləcək. Bunu deməyə ilk növbədə teleradionun mənəvi sərvəti olan güclü kadr potensialı əsas verir. Yeni teleradio kanallarına axın bu potensialın heç on faizini belə təşkil etmir. İkincisi, AzTV həm də ən müasir texnika və bu avadanlıqdan məqsədyönlü istifadəyə marağı olan səriştəli mütəxəssislərin bolluğu ilə seçilir. AzTV-nin geniş yayım, hüdudsuz efir məkanı, rahat iş şəraiti, başlıcası isə yeni yaradıcılıq həvəsli gənc, istedadlı kadrları vardır. Dünyanın bir çox ölkələrinə yayımlanan proqramların yaradıcı heyəti bu gün mənəvi qazancları ilə fəxr edə bilərlər. Ən nəhayət, yeni yaradıcılıq sərbəstliyi təkcə məzmun deyil, formaca da ən müasir intellektual-əyləncəli proqramların hazırlanması üçün imkan verir.

Bu günlər struktur baxımından da yenidən formalaşan AzTV daha çox informasiya, maarifləndirici və əyləncəli

proqramların yeni üslubi çalarlarla təqdimatında maraqlı olduğunu nümayiş etdirir, Zəngin tarixi olan ana televiziya öz ənənələrinə sadiq qaldığını göstərir. Bizim məqsədimiz dövlətçilik, millilik və müasirlikdir. Radiomuzun 80, televiziyamızın 50 illik fəaliyyətində dövlətçilik maraqları burada hər şeydən üstün tutulmuş, xüsusən, son 14 ildə milli dövlətçilik modelinin formalaşmasında Azərbaycan televiziyasının da xüsusi rolu olmuşdur. Ötən əsrin 60-70-ci illərindən teleradiomuzda başlayan milli-mənəvi oyanış ölkəmiz siyasi müstəqillik qazanandan sonra yeni mərhələyə daxil olmuşdur. Müasirlik isə zamanın başlıca tələblərindəndir: məzmun həm də ən müasir təqdimat formaları ilə ekrana yol almalıdır. Yeni yaranan telekanallarda formaya aludəlikdən fərqli olaraq AzTV həmişə məzmun-forma vəhdətinə üstünlük verib. Artıq yeni verilişlərin start xəttinə düzüldüyü bir vaxtda belə hesabat xarakterli çıxışlar etməyə dəyər. Çünki çoxmilyonlu dinləyici və tamaşaçılarımız ən müxtəlif forma və janrlarda yaranan proqramlarımızın yeni mərhələdəki taleyi ilə maraqlanır, daha baxımlı verilişlər gözləyirlər. Ekranda hər cür bayağılığın baş alıb getdiyi efir məkanımızda «ən əxlaqlı televiziya» kimi qəbul edilən AzTV seçim sayıqlığını bir an belə əldən verməyəcək. Ucuz sensasiya xatirinə milli mentalitetə yad süjetlərin ekrana çıxmasına AzTV-də yenə qadağa qoyulacaq.

İnformasiya və əyləncəli verilişlərin şəbəkəsi ən müasir telekommunikasiya vasitələri hesabına genişləndiriləcək və bütün dünyaya çatdırılacaq. Ölkədaxili xəbərlərin operativliyinə diqqət yetiriləcək, hadisələrə yanaşmada balans gözləniləcək. Ən müasir texnikanın informasiyaya ayrılması sistemli şəkil alacaq. İşin yüksək səviyyədə təşkili, informatorların, reportyor-jurnalistlərin hazırlanması konkret sahələr üzrə şərhçilərin yetişdirilməsi istiqamətində işlər

sürətləndiriləcək.

Biz tamaşaçı ilə dialoqa – interaktivliyə xüsusi diqqət yetiririk. «Xəbərlər»dən sonra hər gün canlı şəkildə efirə çıxan «Günün nəbzi» proqramında interaktivdən istifadə olunur, tamaşaçı zənglərinə, rəy və təkliflərinə üstünlük verilir. Daha bir ictimai-siyasi proqram – «Dialoq» hər həftə canlı yayımlanmaqla tamaşaçı sualları əsasında qurulur. Əslində bu proqramlar dövlət məmurlarının xalqa telehesabatıdır.

«Səhər» proqramında da informasiyanın xüsusi çəkisi artırılacaq, «Şəhər zəngi» rubrikası ilə mühüm hadisələrə görkəmli şəxsiyyətlərin münasibəti öyrəniləcək. Canlı bağlantılarla «Səhər»i tamaşaçılara daha da doğmalaşdırmaq nəzərdə tutulur.

Yarandığı gündən əhalinin maarifləndirilməsi, xalq təhsili ilə ciddi məşğul olan radio və televiziya dövlət proqramlarının həyata keçirilməsi işinə, gənc nəslin düzgün tərbiyə olunmasına yardım edir. Biz bu missiyanı indi də yerinə yetiririk. Azyaşlıların maraqlarının təmin olunması, yeni təhsil metodlarının təbliği, gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunması, onlara torpaq hissinin aşılanması istiqamətində AzTV-də məqsədyönlü iş gedir. Bu işin səmərəliliyini artırmaq məqsədilə aparılan islahatlar nəticəsində gənclər, idman və uşaqlar üçün proqramlar hazırlayan redaksiyaların fəaliyyətini yeni strukturda birləşdirmişik. Bu addımın tezliklə səmərə verəcəyi təqdim olunan layihələrdən də hiss olunur. Xüsusən azyaşlıların və yeniyetmələrin düşündürücü, intellektual verilişlər istiqamətindəki arzuları yaxın günlərdə öz həllini tapacaq. Artıq bir neçə yeni proqramın hazırlıq işləri başlanmışdır. «Bizim ekran» adı ilə hazırlanması nəzərdə tutulan bu verilişdə uşaqların təhsildə və həyatda uğurları, problem və çətinlikləri öz əksini tapacaq. Uşaqlar üçün sərbəst düşüncə,

intellektual proqramların hazırlanması istiqamətində gərgin yaradıcılıq işi gedir.

Gəncliyin ən populyar proqramlarından olan «Ailələr, talelər» gənc ailələrin problemlərini, həyat sınaqlarındakı gərginlikləri dəf etmək istiqamətində öz işini uğurla davam etdirir. İdman proqramlarının, xüsusən Avropa çempionatındakı futbol yarışlarının canlı yayımı redaksiyanın fəaliyyətində xüsusi yer tutur. Respublikada Olimpiya hərəkatına, gənc nəslin sağlam, vətənpərvər ruhda böyüməsi işinə redaksiya öz yeni proqramları, xüsusən «Gecə kanalı» proqramı ilə cavab verəcək.

Azərbaycanda təhsilin problemləri bu sahədə müasir dövrün tələblərinə cavab verən qanunların olmaması ilə bağlıdır. Belə bir şəraitdə TV-nin, yaxud mətbuatın sistemli iş görməsi də çətinləşir. Lakin elmə, təhsilə marağın gənc nəsil arasında azalmasına yol vermək olmaz. İnsanın şəxsiyyət kimi formalaşmasında elmin, biliyin rolu barədə hər gün söhbət açmaq lazım gəlir. Dünya təhsil sistemlərindəki ən uğurlu nəticələri təbliğ etmək, dünya miqyaslı elmi kəşflər barədə geniş müzakirələr aparmaq, görkəmli elm adamlarının həyatından söhbət açmaq bu intellektual zəmanədə ölkə təhsilinə yardımçı ola bilər.

«Tədris və elmi-kütləvi proqramlar» redaksiyası bu vaxta kimi bir çox uğurlu proqramları, təhsilin müasir problemlərini təhlilə cəlb edən analitik verilişləri ilə xalq maarifinə xidmət etmişdir. Redaksiyanın yeni mərhələdəki fəaliyyətinə də bu rakursdan baxmaq lazım gəlir. Buradakı əsaslı dəyişikliklər yeni məzmunlu, inandırıcı proqramlarla öz təsdiqini tapacaq. Tədrisin dünyada ən müasir forma və metodları Azərbaycan məktəbləri üçün sirr olaraq qalmamalıdır. Ənənəvi metodların dünya standartlarına uyğunlaşdırılması istiqamətində televiziyanın əyanilik və

kütləvilik kimi imkanlarından təhsil müəssisələri də yararlanmalıdır. Xarici dillərin öyrənilməsi və tədrisi istiqamətində «Teledərs»lərin geniş auditoriyası yenə də bərpa olunmalı, bu işə ən bacarıqlı mütəxəssislər cəlb edilməlidir.

Daim yeniləşən qanunlarla idarə olunan cəmiyyətdə insanların hüquqi biliklər sahəsində səriştəsizliyi böyük nigarançılıq doğurur. Efirə çıxmaq ərəfəsində olan «Sənin hüquqların» proqramı hüquqi biliklərin təbliği sahəsində teleuniversitet rolu oynayacaq.

Müharibə vəziyyətində olan dövlətdə hərbi-vətənpərvərlik işinin xüsusi çəkisi olur. Azərbaycan televiziya və radiosunun «Birləşmiş hərbi proqramlar» redaksiyası populizmdən qaçaraq daha real və səmərəli metodlara əl atır. Öz işini dövləti maraqlar və müasir tələblər səviyyəsində həyata keçirən əməkdaşlarımız müvafiq nazirlik və idarələrlə birgə çalışırlar. Əsgərlər arasında döyüş ruhunun yüksəldilməsi, Azərbaycan ordusunun ən döyüşkən ordu kimi tamaşaçıya təqdim olunması üçün AzTV-də bu günədək xeyli iş görülmüşdür. «Zəfər», «Azərbaycan ordusu», «Sən mənə oğul de», «Aypara» və s. proqramlar gənclərimizdə ordu həyatı haqqında dolğun təsəvvür yarada bilmişdir.

Yeni layihələr kimi nəzərdə tutulmuş «Salam, əsgər», «Müharibə dövrünün gündəliyi» də yəqin ki, bu uğurların davamı olacaq. Bu sahədə şüarçılıq, bədii ricət və priyomlardan daha çox işə ciddi münasibət, fakt və reallıqlara əsl vətəndaş münasibəti tələb olunur. Biz dəsti-xətti daim qoruyub saxlayacağıq.

Hər hansı TV-nin inkişafı bədii-əyləncəli, musiqili proqramlarla bağlıdır. Bütün dünyada mövcud olan bu tendensiya Azərbaycan şəraitində də özünəməxsus dinamikası ilə fərqlənir. TV strukturlarındakı son yeniliklər də bu konsepsiyaya əsaslanmışdır. Əlbəttə, proqram siyasətində

balanslaşdırma vacib şərt olduğundan biz də ictimai-siyasi proqramlarla bədii verilişlər arasında tənasübü gözləməyə çalışmışıq. Hərçənd ki, peşəkarlar yaxşı bilirlər ki, bu sahədə optimal nəticələr əldə etmək heç də asan məsələ deyil.

Televiziyanın və radionun verilişlərini musiqisiz təsəvvür etmək çətindir. Əsası Üzeyir Hacıbəyov tərəfindən qoyulmuş Xalq Çalğı Alətləri Orkestri musiqi mədəniyyətimizin təbliği işində böyük xidmətlər göstərmişdir. Xalq musiqisinin, peşəkar musiqi əsərlərinin, dünya musiqi mədəniyyətinin öyrənilməsində bu kollektivin ardıcıl fəaliyyəti diqqətəlayiqdir.

Musiqi artıq ümumbəşəri mənəvi dəyər kimi ən müxtəlif janrlar üzrə ixtisas biliyi, təcrübə, konkret şəxslərin, kütlənin, millətin, xalqın marağını nəzərə almaqla ciddi bir sahə kimi araşdırma-öyrənmə tələb edir. Azərbaycan ərazicə Avropa, maraq, mentalitet, zövq və dünyagörüşü baxımından isə ortaq çevrədə, özündə Şərqlə Qərbi birləşdirən unikal bir ölkədir. Əhalinin musiqi zövqü və savadı çoxşaxəlidir. Burada milli musiqiyə aludəliklə yanaşı, bəzən bu musiqiyə biganəlik hökm sürür. Yəni, bir tərəfdən milli musiqiyə, xalq çalğı alətlərinə maraq, diqqət artdığı halda, bəzən gənclərin yabançı incəsənətə meylini müşahidə edirsən. Musiqi, ifaçılıq, mahnı yaradıcılığında sərbəstlik özünü göstərdiyi üçün əsl ifaçılıq və yaradıcılığın nə olduğunu heç kəsə sübut etmək mümkün deyil. Belə həvəskar bəstəkar əsərlərinin bəzən televiziyalara da ayaq açdığı nəzərə alınsa, bu sahədə əsas peşəkarlara ehtiyac olduğunu deməyə lüzum qalmır. Belə bir şəraitdə hamını razı salacaq musiqi proqramları hazırlamaq çətinliyi meydana çıxır. Ümid edirəm ki, televiziyanın «İncəsənət və əyləncəli proqramlar» redaksiyasındakı struktur dəyişikliyi tezliklə bu sahədə öz səmərəsini verəcək. Çünki bu qurum artıq bir neçə maraqlı layihə təqdim etmişdir. Məsələn,

görkəmli muğam ifaçılarının iştirakı ilə hazırlanacaq «Sarı sim», estrada musiqisinin problemlərindən bəhs edəcək «Metronom», eləcə də «Mahnı festivalı» və s. proqramlar indidən nikbinliklə danışmağa əsas verir.

Məhsuldarlığı, populyar proqramlarının say və sanbalı ilə seçilən «Ədəbiyyat və publisistika», «Kino və dublyaj», «Xalq yaradıcılığı» redaksiyaları da AzTV-nin yeni yaradıcılıq marafonuna bir-birindən maraqlı layihələrlə qoşulublar. «Ədəbiyyat və publisistika» redaksiyası mövzuca aktual olan «Azərbaycan dili», «Molla Nəsrəddin» kimi proqramları yeni forma və dizaynla davam etdirmək, bu verilişlər sırasına «Pillələr» (elmi-kulturoloji proqram), «Ədəbi abidələr», «Nar ağacı», «Dünya», «Şəbi-hicran» kimi proqramları da əlavə etmək istəyir.

«Azərbaycantelefilm» Yaradıcılıq Birliyi isə artıq bir çox maraqlı filmlərin çəkilişinə start verib. Son illərin yaradıcılıq axtarışları forma və məzmunca onlarla yeni filmin uğurlu ekran taleyi ilə nəticələnib. Uzun zaman üçün əhəmiyyətini qoruyub saxlayan bu filmlər həm də sənətkarlıq baxımından televiziyamızın gündəlik fəaliyyətinə öz töhfəsini verir.

Ədəbi-əyləncəli proqramlara geniş tamaşaçı marağı «Kino və dublyaj» redaksiyasının planlarında da nəzərə alınıb. Bu iki redaksiyanın bir strukturda fəaliyyəti filmlərin, dublyaj materiallarının təqdimatındakı təkrarları tam aradan qaldıracaq, yeni kino-proqramların ekrana vəsiqə alması ilə nəticələnəcək. Təzə verilişlər dalğasına ciddi hazırlıq görən redaksiya əməkdaşları «Kino-şou» proqramında oyun-yarışma formasından istifadə etməyi nəzərdə tutublar. «Musiqi və kino» proqramında isə kino musiqisi sahəsində tanınan bəstəkarlarla kino işçilərinin birgə sənət axtarışlarından bəhs olunacaq.

Dublyaj filmlərinin seçimində də yeni tələblər irəli

sürüləcək. «Oskar» mükafatı alan, bəşəri mövzulu filmlərin, humanist duyğular aşılayan kinolentlərin, təbiətin qəribəliklərindən bəhs edən nadir kino-süjetlərin dublyajına üstünlük veriləcək.

Ədəbi-əyləncəli proqramlar sırasında folklor, xalq yaradıcılığı xüsusi yer tutur. Təsadüfi deyilməmişdir ki, dünya xalqları miflərdə, folklorda birləşir. Buna görə də folklor proqramları dünya efirində xüsusi maraqla izlənilir. Azərbaycan televiziyasında 6 ildir ki, bu işlə «Xalq yaradıcılığı» redaksiyası sistemli şəkildə məşğul olur. «Qala», «Karvan», «Buta», «Qaravəlli», «Yallı» kimi populyar proqramlar tamaşaçı yaddaşında özünə daimi yer qazanıb. Redaksiyanın əməkdaşları yeni layihələrində Azərbaycan efir məkanı üçün orijinal görünən mövzular və çəkiliş məkanları nəzərdə tutublar. Dağıstandakı soydaşlarımızın «Dəmirqapı Dərbənd» proqramındakı maraqları Cənubi Azərbaycandakı soydaşlarımız üçün «Xudafərin» toplusunda öz həllini tapacaq.

Bu il əlamətdar yubileylərini qeyd etməyə hazırlaşdığımız televiziya və radiomuzda zəngin yaradıcılıq ənənələrinə əsaslanan populyar proqramlarla yanaşı addımlamağa, yeni günün sözünü deyib problemlərini həll etməyə, düşündürməyə, əyləndirməyə qadir olan saysız-hesabsız layihələr ekran həllini gözləyir. Məzmun-forma vəhdəti AzTV-nin yeni efir taleyində də öz təsirli rolunu oynayacaq və strateji maraqlara xidmət edəcək. Dövlətçiliyə, milliliyə, müasirliyə əsaslanan bu maraqlar özül daşları kimi siyasətimizin, mədəniyyətimizin, əxlaqımızın əsasında dayanan məqsəddir, daim AzTV ilə qorunub yaşadılan maraqlardır.

«Azərbaycan» qəzeti,
14 fevral 2006-cı il

GÜNÜMÜZÜN EKRAN SALNAMƏSİ

Bu gün bütün dünyada televiziyanın ən çevik və geniş təsir gücünə malik informasiya vasitəsi olması şübhəsizdir. Bu, qloballaşan dünyada və informasiyalı cəmiyyətdə özünü daha qabarıq şəkildə büruzə verir. Bu gün Azərbaycan cəmiyyəti və hər birimizin həyatı da televiziya ilə sıx bağlıdır. Çünki hər bir vətəndaş gündəlik informasiyanın xeyli hissəsini məhz teleekrandan alır. Bəs teleməkanımızın ağır artilleriyası olan AzTV bu sahədə bizlərə nə vəd edir? Bu barədə suallarımıza AzTV-nin sədri, tanınmış türkoloq-alim, professor Nizami Xudiyev cavab verir.

– Nizami müəllim, ötən il statusunu dəyişərək bu gün Qapalı Səhmdar Cəmiyyətə çevrilmiş AzTV-nin fəaliyyətini necə qiymətləndirirsiniz?

– Mövcud teleməkanımızda kanalların sayca çoxluğuna baxmayaraq, indi bir çox cəhətdən liderlik məhz AzTV-yə məxsusdur. Bəli, istər kəmiyyət, istər keyfiyyət, istərsə də yayım dairəsinin genişliyi, tamaşaçı auditoriyasının miqyası baxımından bu gün Azərbaycan Televiziyası və Radiosu Qapalı Səhmdar Cəmiyyəti milli telemühitimizdə müqayisəolunmaz maddi-texniki, mənəvi-intellektual imkanlara malik olan əsas ağırlıq mərkəzidir. Neçə il əvvəl Türkiyə səfəri zamanı qardaş ölkə rəsmilərinin AzTV haqqında mərhum prezidentimiz Heydər Əliyevə dedikləri, yəqin ki, hamının yadındadır. Onlar bütün Türkiyənin milli televiziyamıza maraqla, məftunluqla baxdığını deyərək, bizim mənəvi, əxlaqi dəyərlərə, misilsiz intellektual bazaya, bədii

səviyyəyə söykəndiyimizi təqdir edirdilər. Türkiyədən bu gün də Azərbaycan Televiziyası və Radiosu QSC-nin ünvanına göndərilən çoxsaylı məktublar, teleqramlar bunu dönə-dönə təsdiq edir. Bu gün peyk vasitəsilə bütün Türkiyəyə, İnternet vasitəsilə isə bütün dünyaya yayımlanan Azərbaycan televiziyası azad, müstəqil Azərbaycan dövlətinin planetar miqyasda ən güclü təbliğat maşınıdır, Azərbaycan həqiqətlərini dünyaya çatdıran, informasiya blokadasını cəsarətlə yarıb öz sözünü deyən təbliğat tribunasıdır.

– Tamaşaçı ilk növbədə ekrandan informasiya almaq istəyir. Bu sahədə hansı yeniliklər olacaq?

– Biz informasiya xidmətini yaxşılaşdırmaq üçün ciddi struktur dəyişikliyi aparmış, «Xəbərlər» redaksiyasının kadr və intellektual bazasını genişləndirmişik. Əvvəllər müstəqil qurumlar kimi fəaliyyət göstərmiş «İctimai-siyasi proqramlar», «Səhər» proqramı və «Beynəlxalq proqramlar» redaksiyası «Xəbərlər»ə birləşdirilmişdir. Bu addım informasiya mənbələrindən, kadr potensialından və texniki vasitələrdən daha səmərəli istifadə etməyə imkan vermişdir. İndi bizim həm gündəlik xəbər proqramlarımızda, həm də analitik verilişlərimizdə operativlik artmış, aktual məsələlərin işıqlandırılmasına diqqət çoxalmışdır. Hazırda əsas xəbər buraxılışının strukturunu yeniləşdirmək istiqamətində ciddi işlər aparılır.

– Nizami müəllim, indi televiziyalarda gündəlik analitik proqramlara geniş yer ayrılır. Bu cəhətdən AzTV-də hansı yeniliklər olacaq?

– Biz sosial-siyasi proqramlar sırasında hər gün efirə çıxan «Günün nəbzi» proqramına diqqəti artırmışıq. Bu veriliş təkcə Azərbaycanda deyil, həmin gün dünyada baş vermiş ən vacib hadisə, onun ictimai-siyasi əhəmiyyəti və mahiyyətinin şərhinə həsr olunur. Canlı olaraq efirə gedən verilişdə,

həmçinin cəmiyyəti narahat edən, ictimai rezonans yaradan, tarixi hadisələri ehtiva edən olaylarla bağlı söhbətlər aparılır, şərhlər və proqnozlar verilir. Verilişdə Milli Məclisdə qəbul olunmuş qanunlar, ölkə prezidentinin fərman və sərəncamları, hökumətin fəaliyyət istiqamətlərinin şərhi də nəzərdə tutulur. Yəqin diqqət yetirmisiniz ki, bu veriliş son vaxtlar çox böyük auditoriya toplayır.

Ölkənin ictimai-siyasi həyatında bələdiyyələrin mövqeyi genişləndikcə biz bu sahəyə diqqəti artırırıq. «Bələdiyyələr» verilişi məhz bu barədə olacaq. Proqramda bələdiyyələrin cari fəaliyyət istiqaməti öz əksini tapacaq. Biz proqramda bələdiyyə qanunvericiliyi, bələdiyyələrlə işin təşkili, beynəlxalq əlaqələr, eləcə də regionların sosial-iqtisadi inkişafında bələdiyyələrin rolu məsələlərini işıqlandıracağıq. Ölkəmizin sosial mənzərəsindəki müsbət dəyişikliklər, əhalinin maddi vəziyyətinin yüksəldilməsi və aztəminatlı vətəndaşlara dövlət qayğısının real nəticələri isə «Monitorinq» proqramında öz əksini tapacaq, həllini gözləyən problemlər müxtəlif prizmalardan araşdırılacaq.

«Azərbaycan dünyası» verilişi Dünya azərbaycanlılarının birlik və həmrəyliyindən, diaspor halında formalaşmasından, lobbiçilik fəaliyyətindən bəhs edəcək. Veriliş dünyanın müxtəlif guşələrinə səpələnmiş azərbaycanlıların bir araya gəlməsinə yönəldilmiş məqsədyönlü proqramdır. Proqramda dövlət başçısının xarici ölkələrə səfərləri zamanı Azərbaycan icma və birliklərinin nümayəndələri ilə görüşləri və onlara tövsiyələri də öz əksini tapacaq.

Son illərdə Azərbaycan televiziyasının populyar verilişlərindən olan «Fakt» müəllif proqramı tarix, çağdaş hadisələrin mahiyyətini öyrənən və tamaşaçılara çatdıran verilişlər silsiləsi kimi yenə də ekranlarda olacaq. «Fakt»da daha çox analitik təhlillərə üstünlük verməklə müxtəlif

zamanlarda xalqımızın taleyüklü məsələlərindən danışılacaq. Daha çox terror, separatizm, geopolitik maraqların ortaya qoyduğu amillərdən bəhs edən «Fakt» doqquz ildir ki, AzTV-də sabit auditoriyasını təmin edə bilib.

– İndi tamaşaçı ilə dialoqa – interaktivliyə daha çox ehtiyac var. Siz bu problemi necə həll edirsiniz?

– Tamaşaçı ilə canlı əlaqə yaradan «Dialoq» verilişi neçə ildir ki, sabit efir vaxtını qoruyub saxlayır və həmişə də rəğbətlə qarşılanır. Yaxın günlərdə bu veriliş yeni dizaynda təqdim olunacaq. Zövqlə yaradılmış yeni interyer verilişin effektini daha da artıracaq, forma və məzmunu tamamlayacaq. Verilişə aktual problemlərlə, tamaşaçıları düşündürən mövzularla bağlı cavabdeh şəxslər, yüksək vəzifəli məmurlar dəvət olunacaq, mövzu ətrafında analitik təhlillər aparılacaq, problemin həlli yolları araşdırılacaq. «Dialoq»da telefon bağlantılarından istifadə ona tamaşaçı marağını artırır. Yaxın vaxtlarda verilişdə «İnteraktiv», «İnternet» səhifələrinin açılması da planlaşdırılır.

«Hüquq kanalı» verilişində də interaktivliyi gücləndirəcəyik. Burada əsasən məhkəmələrdə baxılmış cinayət işlərindən hazırlanacaq süjetlər göstəriləcək, ayrı-ayrı süjetlərdə məhkəmə-hüquq sistemində gedən islahatlardan, yeniliklərdən söhbət açılacaq. Təbii ki, bu proqram öz qarşısına qoyduğu hüquqi maarifləndirmə vəzifəsini yerinə yetirəcək.

– AzTV iqtisadi mövzuda maraqlı verilişləri ilə fərqlənir. Bu sahədə hər hansı yenilik gözlənilirmi?

– Doğru deyirsiniz ki, biz bu sahəyə həmişə xüsusi diqqət yetiririk və hətta «İqtisadiyyat» adlı ayrıca verilişimiz var. Bu mövzuda daha bir veriliş də hazırlanır. «Sahibkarlıq» verilişində dövlət qurumları ilə sahibkarların qarşılıqlı əlaqələri, iqtisadiyyatın inkişafında bu sahənin payı, qarşıya çıxan problemlər, onların həlli yolları, sahibkarların qayğıları

öz əksini tapacaq.

2004-2008-ci illərdə «Regionların sosial-iqtisadi inkişafı haqqında» Dövlət Proqramında Azərbaycanın bütün əyalətlərində geniş quruculuq işlərinin aparılması, yeni sənaye obyektlərinin tikintisi və bununla da yeni iş yerlərinin açılması nəzərdə tutulur. Bu isə yerlərdə yeni infrastrukturun yaranması, əhalinin məşğulluğunun artması, gün-güzəranın yaxşılaşması deməkdir. Bütün bunlar yeni layihəmiz kimi ekrana çıxacaq «Regionların sosial-iqtisadi inkişafı» və «Kənd həyatı» verilişlərində öz əksini tapacaq. Verilişdə ölkəmizin ayrı-ayrı bölgələrinin özünəməxsus xüsusiyyətlərinə, xarakterik cəhətlərinə, inkişaf tempinə xüsusi diqqət yetiriləcək.

– Mübaliğəsiz demək olar ki, Azərbaycan silahlı qüvvələrinin həyatı AzTV-də prioritet mövzulardandır. Bu mövzu ayrı-ayrı verilişlərdə daha sistemli işıqlandırılır.

– Mən televiziyaya rəhbər təyin olunandan bu günədək hərbi-vətənpərvərlik diqqət yetirdiyimiz ən önəmli mövzulardandır. Azərbaycan televiziya və radiosunun «Birləşmiş hərbi proqramlar» redaksiyası hazırda «Hərb tariximizdən», «Azərbaycan Silahlı Qüvvələri», «Zəfər yolu», «Zireh», «Sən mənə oğul de» kimi tamaşaçılar tərəfindən maraqla izlənən hərbi-vətənpərvərlik mövzulu verilişləri təqdim edir. İndi bunlarla yanaşı, yeni proqramlar da hazırlamaq planlaşdırılır.

Bir faktı da qeyd etmək lazımdır ki, əsgərin və komandirin özünə və düşmən üzərində qələbəyə inamının formalaşmasında, arxa cəbhə ilə ön cəbhənin bir-birinə dayaq olmasında, müharibə dövrünün gəncliyinin hərbi-vətənpərvərlik ruhunun artırılmasında Azərbaycan televiziyasının misilsiz xidmətləri var. «Əsgərlə birgə», «Müharibə dövrünün gündəliyi» proqramları bu müqəddəs missiyanı müasir tamaşaçı zövqünü nəzərə almaqla daha baxımlı bir şəkildə

yerinə yetirəcək. İstirahət günü səhər saatlarında efirə çıxması nəzərdə tutulan «Əsgərlə birgə» proqramında tamaşaçı Azərbaycan əsgərinin – artıq döyüş hazırlığı barədə qürurla danışa bildiyimiz əsgərin mənəvi dünyası, arzuları, düşüncələri, həyata baxışı ilə də yaxından tanış olacaq. Səhərini Azərbaycan əsgəri ilə birgə açmaq, gününü Azərbaycan əsgəri ilə birgə başlamaq istəyən tamaşaçı üçün «Əsgərlə birgə» proqramı böyük maraq kəsb edəcək.

Bu mövzuda yeni proqramlardan biri də gözü yolda, qulağı səsdə olan analarımızın, qız-gəlinlərimizin Azərbaycan əsgərinə ünvanladığı ürək sözlərindən, arzularından ibarət «Gözü yolda qalan var» proqramı olacaq. «Əsgər sözü» proqramında isə ön xətdə düşmənlə üz-üzə dayanan, həmçinin təlim meydanlarında hərbin sirlərinə yiyələnən əsgərimizin yazılı və şifahi məktubları tamaşaçılara çatdırılacaq.

– Müasir dünya televiziyası qarşısında tamaşaçını maarifləndirmək kimi ciddi vəzifələr qoyulur. Şübhəsiz, AzTV də bu prosesdən kənarda deyil.

– Bilirsiniz, heç kəsə sirr deyil ki, təhsilin, elmin, maarifçiliyin inkişafı xalqın ümumi səviyyəsinin, elmi dünyagörüşünün artmasına xidmət edir. Hər bir ölkə həm də elmin tərəqqisi, onun iqtisadiyyata, həyata tətbiqi ilə inkişaf edir. Bu baxımdan bizim TV-də hazırlanan verilişlər müasir inkişafa, elmi-texniki tərəqqiyə cavab verməlidir. Məhz bunları nəzərə alaraq biz bu istiqamətdə yeni proqramların hazırlanmasını nəzərdə tuturuq. Məsələn, «Azərbaycan, Azərbaycan!» adlanacaq layihədə səyahət formasında Azərbaycanın füsunkar təbiəti, tarixi yerləri, ta qədimdən bu günə kimi yaşayan adət-ənənələr və s. öz əksini tapacaq. «Gəlin düşünək» elmi-kütləvi proqramı viktorina formasında hazırlanaraq tamaşaçıda elmi təfəkkürün inkişaf etməsinə xidmət edəcək. «İdrak» verilişi tərbiyəvi əhəmiyyət

daşımaqla, kamilliyə gedən yollar, onun fəlsəfi, pedaqoji, psixoloji cəhətlərini işıqlandıracaq. İnsan hüquqları, onun qorunması dünyanın aktual problemlərindəndir. Bu mənada «Sənin hüquqların» adlı proqramda hüquqi biliklərin təbliği, onun öyrədilməsi prinsiplərini əsas götürəcəyik. Ayrı-ayrı ölkələrdə baş verən elmi-texniki tərəqqini öyrənib mənimsəmək məqsədilə «Dünya» proqramı hazırlanacaq. Burada həmçinin dünya coğrafiyası, təbiəti, tarixi də öz əksini tapacaq. Hər bir dövlətin, xalqın inkişafı onun təhsilindən asılıdır. Məhz buna görə tədris və təhsilin inkişafı, onun problemləri barədə yeni verilişlərin hazırlanmasına üstünlük veriləcək.

– Apardığınız struktur dəyişiklikləri nəticəsində «Uşaq verilişləri» və əvvəllər ikinci kanalda efirə çıxan «Xəzər» redaksiyası «Gənclik və idman» baş redaksiyası ilə birləşdirilib. Bəs bu yeni struktur tamaşaçılara hansı yeniliklər vəd edir?

– Təbii ki, bu struktur dəyişikliyinə uyğun olaraq yeni layihələr hazırlanıb. Yaxın günlərdə efirə çıxacaq «Hər vaxtınız xeyir» verilişində ölkənin ictimai-siyasi, mədəni həyatında, eləcə də uşaq, gənclər və idman aləmində baş verən son yeniliklər kollektivin tam gücü ilə hazırlanmış maraqlı, rəngarəng süjetlərdə tamaşaçılara təqdim olunacaq. Bu süjetlər tamaşaçı üçün maraq doğuracaq «Üz-üzə», «Xəbəriniz olsun», «Özünü qoru» və s. rubrikaları altında efirə çıxacaq.

Bundan əlavə, yaxın vaxtlarda həftə ərzində 2 dəfə canlı olaraq «Gecə kanalı» proqramının efirə çıxması nəzərdə tutulur. Hər verilişdə konkret mövzu ətrafında diskussiyalar aparılacaq, studiyaya dəvət olunmuş qonaqlarla fikir mübadiləsi olacaq və tamaşaçıların telefon zəngləri cavablandırılacaq.

Hər zaman yeni yaradıcılıq həvəsi ilə çalışan kollektivimiz uşaq verilişlərinin səviyyəsini yaxşılaşdırmaq üçün də axtarışlar aparır. Yaxın zamanlarda tamaşaçılarımız ekranda həm forma, həm də məzmunca yeni uşaq proqramları görəcəklər. Azərbaycanın Avropaya inteqrasiyası baxımından yeni tələblər, tamaşaçı zövqü, istəyi, başlıcası isə Azərbaycan uşaqlarını yeniliklərə hazırlamaq, sivil cəmiyyət quruculuğunda fəal iştiraklarını təmin etmək bu proqramların əsas qayəsi olacaq. Hazırda efirə gedən populyar uşaq verilişləri ilə yanaşı bir sıra yeni layihələr də təqdim olunub. Bu sırada mən intellektual veriliş kimi düşünülən «Bizim ekran» proqramını və Azərbaycana Birgə Yardım Fondunun hazırladığı «Valideynlər üçün televiziya proqramları» layihəsini xüsusi qeyd etmək istərdim. Bu layihə Böyük Britaniyanın Azərbaycandakı səfirliyinin və «Dünyaya baxış» təşkilatının maliyyə dəstəyi hesabına gerçəkləşdiriləcək. Layihəyə əsasən, 11 proqramdan ibarət verilişin hazırlanması nəzərdə tutulub. Verilişdə ana və uşaqların sağlamlığı, uşaq inkişafının mərhələləri və s. mövzusunda məlumatlar əks olunacaq.

– Tamaşaçıların televiziyadan narazılığı çox vaxt musiqi verilişləri, zövqsüz və bayağı müğənnilərin efirə çıxması ilə bağlı olur. Deyəsən, bu sahədə də əsaslı yenidənqurma işlərinə başlamısınız?

– Azərbaycan radiosunda musiqi verilişlərinin ənənəsi dahi Üzeyir Hacıbəyov tərəfindən yaradılmışdır. Biz də bu sahəyə diqqəti artırmışıq. Müəyyən nəticəyə nail olmaq üçün ilk növbədə struktur dəyişikliyi aparmışıq. Yəni, musiqi və incəsənət redaksiyalarını birləşdirmiş və yeni qurum – «İncəsənət və əyləncəli proqramlar» redaksiyası yaratmışıq. Böyük ümidlər bəslədiyimiz bu struktura təcrübəli və istedadlı jurnalist Mailə Muradxanlı rəhbərlik edir. İndi redaksiya yeni

musiqili-əyləncəli proqramlar, musiqinin bütün janrlarını əhatə edən verilişlər üzərində çalışır. Bu işə respublikanın tanınmış musiqi və sənət xadimləri cəlb olunmuşdur. Redaksiya xüsusilə muğam sənəti və xalq musiqisinin gələcək nəsillərə ötürülməsi, yeni istedadlı xanəndə və ifaçıların məhz sənət biliciləri tərəfindən üzə çıxarılması üçün təşkilat işlərini də unutmayacaq. Bu məqsədlə «Sarı sim», «Metronom» və s. bu kimi verilişlər ekrana çıxacaq. Məşhur musiqi xadimlərimizin ev muzeylərindən verilişlər silsiləsində onların yaradıcılığı daha geniş təqdim olunacaq və bu proqramlar dəyərli video-materiallarla rövnəqləndiriləcək. Hər bazar günü efirə çıxacaq «Sübh çağı» musiqili şou proqramı bir növ həm dünyanın, həm də ölkəmizin musiqi həyatından bəhs edən maraqlı informasiyalar üzərində qurulacaq.

Respublikamızın nüfuzlu musiqi ocaqları – Milli Konservatoriya, Musiqi Akademiyası, Mahnı və Muğam teatrları, Opera və Balet Teatrı, Dövlət Filarmoniyası ilə müştərək tədbirlərin – yaradıcılıq gecələrinin, telebenefislərin keçirilməsini də planlaşdırırıq.

– Bu il Azərbaycan radiosunun 80, televiziyasının 50 yaşı tamam olur. Siz bu mühüm mədəniyyət hadisəsi ilə bağlı hansı tədbirləri nəzərdə tutursunuz?

– Bəli, biz Azərbaycan hökumətinin köməyilə bu əlamətdar yubileyləri qeyd edəcəyik. Bu münasibətlə kitab və bukletlər nəşr etməyi, kütləvi musiqi tədbirləri keçirməyi nəzərdə tuturuq. Yubiley ərəfəsində mədəniyyət tariximizə səyahət etmək, radio və televiziyanın inkişafında xidmətlər göstərmiş yaradıcı adamlar haqqında verilişlər hazırlamaq, ən yaxşı sənət nümunələrini yada salmaq fikrindəyik. Bilirsiniz ki, radio və televiziyamızın fondu görkəmli bəstəkar və müğənnilərin yaradıcılığı ilə zəngin bir xəzinədir. Təəssüf ki, bu gün həmin bəstələrə və ifa manerasına az müraciət olunur.

Müasir mahnı sənətinin düzgün yolla istiqamətləndirilməsi və tamaşaçıların bu zəngin irslə tərbiyə olunması zərurətini nəzərə alaraq, yubiley ərəfəsində mahnı festivalı keçirməyi planlaşdırırıq. Müasir ifaçıların, xüsusilə teleradiomuzun solistlərinin ifasında səslənəcək ən yaxşı mahnılar bir daha bu sənətin gözəl ənənələr üzərində inkişafına təkan verəcək. İşə indidən başlamışıq. Ü.Hacıbəyov, S.Rüstəmov, T.Quliyev, H.Xanməmmədov, R.Hacıyev, C.Cahangirov, E.Sabitoğlu və başqa tanınmış bəstəkarların mahnıları, onların ilk ifaçılarının lent yazıları seçilir. Və onların yeni ifalarda təqdimatı üçün təşkilati işlər görülür. Festivalın ən gözəl konsert salonlarında layiqincə keçirilməsi üçün tanınmış sənət ustaları dəvət olunacaq. Bir sözlə, məqsəd müasir tamaşaçı zövqünü ən yaxşı nümunələrlə tərbiyə etmək, bununla da zövqsüz ifa axınının qarşısını almaqdır.

– Azərbaycan televiziyasında ən məhsuldar strukturlardan biri də «Kino və dublyaj» redaksiyasıdır. Bu yaradıcılıq qurumunun qarşısında hansı vəzifələr dayanır?

– Tarixən bu qurumun əsas vəzifəsi incəsənətin çox geniş yayılmış sahəsi olan kinonu, o cümlədən milli kinomuzu, kino sənətkarlarımızı təbliğ etmək, tamaşaçıların kino haqqında məlumatlarını daha da zənginləşdirməkdir. Hazırda bu vəzifənin gerçəkləşdirilməsi üçün maraqlı forma axtarışları aparılır, yeni veriliş layihələri nəzərdən keçirilir. Bu sahədə yeni layihələrdən biri «Kino-şou» adlanır. Bu veriliş iki komanda arasında yarış şəklində təşkil ediləcək və bu komandalar kino sahəsində biliklərini nümayiş etdirəcəklər. Suallar kino sənətinin bütün sahələrini əhatə edəcək. Qalib komandanın üzvlərinə qiymətli hədiyyələr veriləcək.

«Musiqi və kino» adlanacaq verilişdə isə peşəkar musiqişünaslar iştirak edəcəklər. Proqramda Azərbaycan,

habelə Türkiyə, ABŞ, İtaliya, Fransa, Hindistan və digər ölkələrin kino musiqisi barədə danışılacaq. Bədii filmlərdə musiqinin rolundan, kino musiqisi janrının özünəməxsus xüsusiyyətlərindən və mövzu ilə əlaqədar bir sıra məsələlərdən ətraflı söhbət açılacaq. «Qrim-şou» da maraqlı verilişlər sırasında diqqəti cəlb edəcək.

Təbii ki, biz milli kinomuzun təbliğinə daha geniş yer ayıracağıq. Elə bu məqsədlə də «Azərbaycan kinosu: rəylər, mülahizələr» adlı yeni veriliş açmağı düşünürük. Məqsəd tarixi 100 ili adlamış milli kinomuzda gedən proseslərə, mövcud problemlərə, bu problemlərin aradan qaldırılması üçün görülən tədbirlərə diqqət yetirməkdən ibarətdir. Verilişə kino xadimlərinin və əsasən Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin tələbələrinin dəvət olunması nəzərdə tutulur. Tamaşaçılarda maraq doğuracaq bu veriliş dialoq şəklində qurulacaq, kino xadimləri tamaşaçıları və tələbələri maraqlandıran suallara cavab verəcək, mövzu ilə bağlı Azərbaycan filmlərindən fraqmentlər göstəriləcək.

– Bu gün Azərbaycan televiziyasının proqramlarında əsas yer tutan ədəbi-bədii verilişlər sahəsində tamaşaçıları hansı yeniliklər gözləyir?

– Tamaşaçıların estetik zövqünü formalaşdıran bu verilişlər «Ədəbiyyat və publisistika», «Xalq yaradıcılığı» redaksiyalarının süzgəcindən keçir. Ekranda sevilə-sevilə baxılan «Molla Nəsrəddin», «Azərbaycan dili», «Vətəndaş», «Şam işığında», «Cazibə qüvvəsi», «Yol», «Yurd yaddaşı», «Dəmirqapı Dərbənd», «Karvan», «Qaravəlli», «Sazın, sözün sehrində» kimi verilişlər, həmçinin bir-birindən maraqlı Novruz və Yeni il proqramları, ümummilli liderimiz Heydər Əliyevin şərəfli həyat yoluna, fədakar fəaliyyətinə həsr olunan silsilə filmlər, Milli park, Azadlıq meydanı və digər guşələrdən əlamətdar günlərə həsr olunan canlı yayımlar –

bütün bunlar adlarını çəkdiyimiz redaksiyaların son illərdə gördüyü böyük işin yalnız bir hissəsidir.

Daim yaradıcılıq axtarışlarında olan bu redaksiyalar indi imkanlarını səfərbər edərək yeni layihələr üzərində işləyir. «Pillələr» elmi-kulturoloji proqram, «Şəbi-hicran» adlı klassik poeziya məclisi, «Dünya», «Ədəbi abidələr», «Nar çiçəyi» və s. yeni telelayihələr yaxın vaxtlarda ekran ömrünü yaşamağa başlayacaq. Bu yeni verilişdə Azərbaycan və dünya ədəbi prosesi izlənəcək, dünya mədəniyyətinin bədii-estetik inkişaf meylləri, günümüzün əsas aktual problemləri, uğur və çətinlikləri telepublisistikanın əsas hədəfi olacaq.

«Xalq yaradıcılığı» redaksiyası isə dünya mədəniyyəti incilərini, folklor, məişət, həyat tərzi nümunələrini Azərbaycan tamaşaçısına çatdıran bir saatlıq yeni veriliş təqdim edəcək. Elmi-kütləvi, ədəbi, əyləncəli, xalq sınaqları ilə müasir texnologiyaların vəhdətində informasiya, bilgi verən, milli-vətənpərvərlik duyğuları üstə köklənən, şərti adı «Günlərin bir günü» olan proqram modern və milli ruhlu yeni teleproyekt olacaq.

Hər bir layihə həyatın tələbindən doğur. Qloballaşan dünyamızda bəzən insan unudulur, onun özünə yük olan qayğıları ətrafdakıları narahat etmir. Belə köməksiz və tənha insanlara cəmiyyətin diqqətini ünvanlamaq, onları tənhalıqdan və qayğılardan xilas etmək məqsədilə «Sorağına gəlmişik» adlı proqram hazırlamaq nəzərdə tutulur. İstər milli, istər dini görüşlərdə köməksizə əl tutmaq, onun harayına yetişmək savab sayılır. Jurnalist təhqiqatı əsasında hazırlanan bu proqram yüzlərlə köməksizin qəlbində ümid işığı yandıracaq.

– Nizami müəllim, dediklərinizdən bu qənaətə gəlmək olar ki, hər halda ən yaxın günlərdə tamaşaçılar AzTV ekranında çox böyük dəyişikliklərin şahidi olacaqlar.

– 2006-cı il Azərbaycan televiziya və radiosu əməkdaşlarının həm təntənələr, həm də yeni yaradıcılıq ili olacaq. Radiomuzun 80, televiziyamızın 50 illik təcrübəsi XXI əsrin əvvəllərində yeni sənət marafonuna start verəcək.

Əlbəttə, haqqında danışdığımız layihələrin gerçəkləşdirilməsi üçün qızğın işlər gedir. Yeni ideyalar çəkiliş pavilyonları və montaj otaqlarında reallaşdırılır. Redaktor və rejissorlarımız, texniki əməkdaşlarımız gərgin əmək sərf edirlər. Əslində, ekrandakı dəyişiklikləri dövr, zaman özü həyati zərurətə çevirir. Biz də zamanın nəbzini tutmağa, müstəqil Azərbaycanın dinamik həyatını işıqlandırmağa, müstəqilliyimizin obyektiv salnaməsini yazmağa çalışırıq. Bununla da həm tamaşaçı marağına cavab verir, həm də dövlətçiliyimizin möhkəmlənməsinə xidmət etmiş oluruq.

– Müsahibəyə görə sağ olun!

Müsahibəni apardı:
Nərgiz Qurbanova
«Respublika» qəzeti,
11 fevral 2006-cı il

YENİ ƏSRİN TELEVİZİYASI

Bu il Azərbaycan radiosunun 80, televiziyasının 50 yaşı tamam olur. Zəngin yaradıcılıq yolu keçmiş bu mənəviyyat ocağında Azərbaycanın bir çox görkəmli mədəniyyət, incəsənət xadimləri ilk əmək fəaliyyətinə başlamışlar. Milli radiomuz və televiziyamız tarixi ənənələrini müasirlik işığında bu gün də davam etdirərək ən modern teleradio yayım mərkəzi kimi dinləyicilərin, tamaşaçıların xidmətində dayanmışdır. Ötən ilin mart ayından Azərbaycan Teleradiosu Qapalı Səhmdar Cəmiyyət adı ilə fəaliyyətini davam etdirir. Cəmiyyətin sədri, əməkdar elm xadimi, professor Nizami Xudiyev teleradionun müasir problemləri və vəzifələri ilə bağlı suallarımızı cavablandırır.

– Nizami müəllim, ad dəyişmələri televiziyanın və radionun fəaliyyətinə necə təsir edəcək?

– Azərbaycan radio və televiziyasının inkişaf tarixini izləyəndə ardıcıl olaraq belə ad dəyişmələrinin şahidi oluruq. Bu dinamikada bir cəhəti mübahisəsiz demək mümkündür: hər şey teleradionun siyasi, mənəvi müstəqilliyinə xidmət edir. Lakin dövr çox şeylərə yenidən baxmağı, təhlil etməyi, nəticələr çıxarmağı tələb edir. Bu gün Azərbaycanda geniş efir şəbəkəsi, inkişafda olan teleradioların efir yarışı mövcuddur. Ana teleradio kimi yenilik və müasirliyin ilkin ünvanı da Azərbaycan televiziya və radiosu olmalıdır. Dünyaya qapılar açıldığı bir şəraitdə köhnə, sxolastik üsullarla işləmək heç kəsə səmərə verməz. İnkişafı ən modern yayım teleşirkətlərinin təcrübəsinə uyğunlaşmaqla təmin etmək olar.

Dünya, Avropa təcrübəsi və milli ənənələr gələcək fəaliyyətimizin əsasında dayanacaq. Ad dəyişməsi isə kollektivimizin yaradıcılıq sərbəstliyini bir az da artırır, struktur baxımından yeniliklər efirdə işin dinamikasına nail olmaq imkanı verir.

– Sözün açığı, çoxları struktur dəyişikliyini kütləvi işçi ixtisarı kimi gözləyirdi. Yaxşı ki, belə olmadı.

– AzTV böyük təcrübə məktəbidir. Burada çalışanların hər biri zəngin yaradıcılıq yolu keçmiş, dövlətə, dövlətçiliyimizə dəyərli xidmətlər göstərmiş adamlardır. Radio və televiziyanın salnaməsi hesab olunan belə insanların təcrübəsindən öyrənmək daha düzgün yoldur. Deyə bilərsiz ki, xüsusən televiziya cavanlıq sevən sənətdir. Amma problemləri həmişə cavanlarla həll etmək bəzən istənilən nəticəni vermir. Orta nəslin əmək intizamı, işə ciddi münasibəti, dövlətçilik mövqeyi, yaxşı mənada fanatizmi bugünkü bəzi gənclərdə daha yüksək əmək haqqına aludəçilik, əsas iş yerinə biganəliklə əvəz olunub. AzTV-də təcrübə ilə gücü, enerjini birləşdirmək əvvəldən ənənə olub. İşin ritmi, zamanın tələbi ilə ayaqlaşa bilməyənlərə qarşı isə bizdə güzəşt yoxdur. Təbii seçim, yeniləşmə həmişə qüvvədədir.

Bu günlərdə bizdə də müəyyən struktur dəyişikliyi oldu. Oxşar xarakterli redaksiyaların birləşdirilməsi hesabına daha dinamik qurumlar yaradıldı. Xüsusən, informasiya, musiqi sahəsindəki pərakəndəliyi aradan qaldırmaq üçün ciddi addımlar atıldı. Gənclik, idman və uşaq redaksiyalarının birləşməsində də istehsalat məntiqi gözlənilmişdir. Əsas məqsəd fiqurların yerini dəyişmək deyil, daha rasional seçim etmək, işin ahəngdarlığını, sürətini artırmaqdır. «Xəbərlər» və «İctimai-siyasi proqramlar» redaksiyalarının bu vaxta qədər əlaqəsiz fəaliyyəti çətinliklər yaradırdı. Bu sahədəki dəyişikliklər yəqin ki, xəbərin operativliyinə, bolluğuna,

optimal seçim və düzümünə, eləcə də aktual hadisələrin vaxtında şərhinə, icmalına imkan yaradacaq.

– Nizami müəllim, AzTV bu gün dünya efirində yer alıb. Belə demək mümkünsə seyrçiləriniz xeyli artıb. Bu amili nəzərə alırsınızmı?

– Təkcə AzTV-nin deyil, ölkəmizdə fəaliyyət göstərən digər yayım şirkətlərinin beynəlxalq efirdə yer alması böyük uğur, həm də məsuliyyət deməkdir. Təbii ki, evə qonaq gələndə süfrənin bəzəyi adi günlərdən seçilir. Biz sənət süfrəmizi dünya tamaşaçısına açırıqsa, burada həddən artıq sənətkarlıq məsuliyyəti olmalıdır. Artıq bir neçə ildir ki, yayımın zaman, məkan tələblərini həm də məzmun və formaca tənzimləmək üçün televiziya yaradıcılığının ən müasir metodlarından istifadə edirik. Daha çox milli mədəniyyətimizin, muğam sənətimizin, folklor incilərimizin, xalq tətbiqi sənətlərimizin, xalq sənətkarlarımızın həyatını ekrana gətirməyi planlaşdırırıq. Dünya xalqları mədəniyyət müstəvisində bir-birini daha gözəl başa düşür, daha doğru anlayırlar. Odur ki, efirimizin xaricdə daha fəal baxıldığı saatlarda mənəvi incilərimizin təbliğinə həsr olunmuş verilişləri yerləşdiririk. Təsadüfi deyil ki, Azərbaycan muğamı bəşəriyyətin dəyərlərindən biri kimi YUNESKO-nun qoruyub himayə etdiyi sərvətlər sırasına daxil edildi. Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın Azərbaycan muğamının dünyada daha geniş təbliği istiqamətində gördüyü işlər klassik muğam ifaçılarımızın, mədəniyyətimizin təəssübkeşləri tərəfindən böyük rəğbətlə qarşılandı. Mehriban xanım aşıq sənətinin də dünya səviyyəsində qorunması istiqamətində işlərin başlandığını bildirdi.

Dünyaya, Avropaya inteqrasiya ölkəmizə hər cür mədəniyyətlərin güclü axını ilə müşayiət olunur. Xüsusən

gənc nəsil sərf-nəzər etmədən bayağı musiqi və əyləncəli proqramlara aludəçilik göstərir. Bu mənəvi deqradasiya pis nəticələr verə bilər. Milli musiqinin ən gözəl nümunələrinə geniş yer ayırmaq və xaricdə Azərbaycan musiqisinə rəğbətin telegörüntülərini tamaşaçılara çatdırmaqla bu sahədə müsbət dönüş yaratmaq olar. Biz efirə verdiyimiz hər proqramın cəmiyyətdə oyatdığı əhvalı izləməyə borcluyuq. Auditoriyanın rəyi, arzuları dinamik şəkildə öyrənilməli, verilişlərin diferensiasiyası məhz yayımın daha aktiv baxımına ünvanlanmalıdır. Xüsusən İran, Türkiyə ərazisində Azərbaycan teleradiosunun proqramlarına intensiv baxış ictimai rəyin fəallığı ilə müşahidə olunur. Bəzən folklor proqramları, milli kinolarımız efirdə olarkən zənglər qəbul edir, xoş sözlər eşidirik. Bu mənada «Xalq yaradıcılığı», «Kino və dublyaj», «Ədəbiyyat və publisistika», «İncəsənət və əyləncəli proqramlar», «Tədris və elmi-kütləvi proqramlar», «Gənclər, idman və uşaq verilişləri» redaksiyalarının işi üz ağardır. Dünya kinosundan, sovet filmlərindən dublyaj olunmuş lentlərə Türkiyədə efir aclığı hiss olunur. Folklor proqramları xaricdə mədəniyyətimiz və məişətimizlə tanışlıq baxımından böyük maraq doğurur. Görkəmli ədəbiyyat, incəsənət xadimlərimizin teleportretləri də Azərbaycanın milli mədəniyyətini, ədəbiyyatını öyrənmək baxımından qonşularımıza yardımçı olur.

– Bir vaxtlar deyəsən bu işi «Beynəlxalq proqramlar» redaksiyası həyata keçirirdi. Bu gün həmin redaksiyanın fəaliyyəti əhəmiyyətini itirmirmi?

– «Beynəlxalq proqramlar» redaksiyası 1998-ci ildə xaricdəki soydaşlarımızın həyatı, dövlətimizin diaspor siyasətinin efir təmsilçisi kimi yaradılmışdı. Lakin xeyli əvvəl də Türkiyənin TQRT kanalı ilə dünya efirinə çıxan «Azərbaycan bu gün» adlı daimi verilişimiz var idi. Həftədə

bir dəfə yarım saat efirə çıxan bu proqram Azərbaycan həqiqətlərinin dünyaya yayılmasında böyük iş gördü Lakin xaricdə yaşayan soydaşlarımıza konkret ünvanlı proqramlar gərək idi. Onların həyatı, arzuları və ictimai fəaliyyətləri bu proqramlarda birbaşa əks olunmalı idi. Almaniyada, İsveçrədə, Hollandiyada, Rusiyanın bütün vilayətlərində doğma Vətənə böyük sevgilərlə yaşayıb çalışan insanların maraqlarını nəzərə alaraq Azərbaycan efirində «Əzizim, Vətən yaxşı», «Qonağımız var» kimi proqramlar xaricdəki soydaşlarımızın maraqlarını ifadə edirdi. Ulu öndərimiz Heydər Əliyevin rəhbərliyi ilə 2001-ci ildə Dünya azərbaycanlılarının I qurultayının keçirilməsi bu sahədə görüləcək işlərə elmi-nəzəri istiqamət verdi. Çox keçmədi ki, «Türksat» peyki vasitəsilə dünyaya çıxış imkanı qazanan Azərbaycan televiziyası xaricdəki soydaşlarımızla efir əlaqələrinə yenidən baxmalı oldu. Sutkada 24 saat yayımlanan Azərbaycan televiziyası auditoriyanın yenidən öyrənilməsi, elmi proqramlaşdırma sahəsində gərəkli addımlar atdı. Struktur dəyişikliklərinin, yayım uyğunlaşdırmalarının reallığı da o vaxtdan yarandı. Bu gün xaricdəki soydaşlarımız AzTV-yə bütövlükdə baxmaq üçün sərbəst seçim imkanı qazanıblar. İndi tək bir redaksiyanın efir sovqatının deyil, bütövlükdə AzTV kimi nəhəng yayım sərvətinin sahibidirlər. Təbii ki, onların diferensial maraqları həmişə diqqətdə saxlanılacaq. «Beynəlxalq proqramlar» redaksiyası artıq öz fəaliyyətini «Xəbərlər və ictimai-siyasi proqramlar» departamentinin tərkibində daha geniş şəbəkədə davam etdirir.

– Belə bir təsəvvür var ki, AzTV başqa yayım şirkətləri ilə müqayisədə xəbərin qəbulu və ötürülməsində nisbətən gecikir. Bu fakta münasibətiniz.

– Azərbaycan televiziyası tarixi ənənəyə uyğun olaraq informasiyanı rəsmi orqanlardan, AzərTAc-dan qəbul etməklə

tam dəqiqləşdirilmiş məlumatlar yayır. Söz yox ki, faktı bir neçə mənbədən öyrənib tutuşdurmaq müəyyən vaxt tələb edir. Bu mənada «gecikmə» dəqiqliyə, birmənalılığa görə baş verir. Milli televiziyanın verdiyi xəbər dövlətin rəsmi mövqeyi hesab olunduğundan əməkdaşlarımız daha diqqətli işləməyə çalışırlar. Əslində səhvlərlə dolu tələsik informasiyanın da cəmiyyətə elə bir xeyri dəymir. Tamaşaçı istər-istəməz öz məişəti, gündəlik problemləri, fərdi maraqları ilə bağlı məsələlərin həllinə efirdən çarə axtarır. Özəl TV-lərdə buna doğru olaraq geniş yer ayrılır və bir çox hallarda müsbət nəticələr əldə edilir. Ümumsiyasi kanal olan AzTV-də isə daha çox rəsmi, dövlət, ümummilli əhəmiyyətli informasiyalara yer verilir. AzTV dünya televiziyalarının tarixi ənənələrinə uyğun yayım prinsipləri ilə ictimai marağa üstünlük verən proqramlar hazırlayır.

İnformasiyanın sürəti və bolluğuna gəldikdə isə deməliyəm ki, bu gün AzTV dünyanın ən məşhur informasiya qurucuları ilə əməkdaşlıq edir, müqavilə əsasında ən son məlumatları qəbul edərək bülletenlərini zənginləşdirir. Bizdə informasiyanın düzümü zamanı rəsmi xəbərlər əsas götürülür. Müstəqil TV-lərdə bu sıra sensasiya xətrinə pozula bilər. Tamaşaçı isə maraqla baxdığı bir şeyin ictimai baxımdan əhəmiyyətli olub olmadığının fərqinə varmır.

AzTV-də xəbər bülletenlərində şəxsi zəmində baş vermiş insident, kriminal faktlarından gen-bol istifadə etmək imkanı da azdır. Amma tamaşaçıların əksəriyyəti məişət zəminində olsa belə, kriminal, qəza, fəlakət barədə informasiyalara böyük maraq göstərirlər. Biz isə əksinə, bölgədə baş verən hadisələrin ölkəmiz üçün əhəmiyyətli olanlarına, xaricdə baş verən hadisələrə daha çox üstünlük veririk. Ölkə başçısının daxili, xarici siyasəti, səfərləri, qəbulları xəbərlərin düzümündə ön sırada yer alır, mühüm

xəbərin, faktın şərhi diqqətdə saxlanılır. Ölkə tamaşaçısına ən son xəbərlərin zəngin buketini təqdim etməkdən ötrü internetin xidməti, yerli müxbirlərin, xarici ölkələrdəki səfirliklərimizin xidmətindən geniş istifadə olunur. Qonşu respublikalardakı – Gürcüstan, Türkiyə, Rusiya, Ukrayna, Qazaxıstan, Orta Asiya və Mərkəzi Avropadakı xüsusi müxbirlərimizin operativ informasiyalarına demək olar ki, hər gün geniş yer ayrılır.

Xəbərin qiyməti baş verən hadisənin əhəmiyyətindədirsə, onun operativ şəkildə tamaşaçıya çatdırılması xəbər xidmətinin uğurudur. AzTV-də xəbərin operativ qəbulu və yayımlanması üçün ən müasir texnikadan istifadə olunur. Xəbərin janr tələblərinə uyğun yığcamlıq, maksimum sənədlilik, qərəzsizlik kimi məsələlər daim gündəmdə saxlanılır.

– Yüksək rütbəli, hökumət məmurları ilə eksklüziv müsahibələr zamanı AzTV əməkdaşlarının fəallığı hiss olunmur. Bu, nə ilə bağlıdır?

– AzTV həmişə ev sahibi rolunu oynayıb. Bildiyiniz kimi, rəsmi görüşlər, dövlət rəsmiləri ilə müsahibələrin böyük bir hissəsi məhz AzTV-nin geniş yayım hüququna aiddir. Sualı kimlərin verməsindən asılı olmayaraq, material geniş şəkildə AzTV ekranında öz əksini tapır. Həm ev sahibi olmaq, həm də mikrofonu alıb «meydan sulamaq» qeyri-təvazökarlıq olardı. Lakin dövlət əhəmiyyətli, prinsipial məsələlərin müzakirəsində AzTV öz mövqeyini həmişə göstərir. Yersiz və məntiqsiz suallar yağdırmaqdansa öz həmkarlarına sual vermək imkanı yaratmaq daha etik keyfiyyətdir. Əməkdaşlarımız peşə borcunu yerinə yetirərkən öz həmkarlarının da hüquqlarına hörmətlə yanaşırlar.

– Azərbaycan ədəbi dilinin qorunub inkişaf etdirilməsində, dilimizin həqiqi mənada dövlət statusu

qazanmasında AzTV-nin xidməti opponentləriniz tərəfindən də etiraf olunur. Bəlkə bu, Sizin dilçi alim olmağınızdan irəli gəlir?

– Etiraf edim ki, Azərbaycan ədəbi dilinin normativə yaxın şəkildə istifadəsi AzTV-də tarixən mövcud olmuşdur. Bu da ənənə ilə bağlı keyfiyyətdir. İşə götürülən hər bir televiziya əməkdaşı ana dilini yaxşı bilməli, rəvan səsə, aydın diksiyaya malik olmalı, fikrin tamaşaçıya çatdırılmasında normal danışıq sürətindən istifadə etməyi bacarmalıdır. AzTV-də ləhcəçilikdən, məişət danışığından istifadəyə yol verilmir. Rəsmi, publisistik, bədii üslubların dilindəki sərhədlər də dəqiq şəkildə gözlənilir. Azərbaycan dilinin normativ qanunları kimi ulu öndərimiz Heydər Əliyevin efir çıxışları nümunə götürülür. Mən «Heydər Əliyev və Azərbaycan dili» monoqrafiyasında bu dilin siyasi, bədii, diplomatik vüsəti, televiziya imkanlarına görə effektiv detallarla zənginliyi, ünvanlılığı barədə geniş bəhs etmişəm. İran İslam Respublikasında da kütləvi şəkildə nəşr olunan «Radio, televiziya və ədəbi dil» kitabında dilçiliyin nəzəri bazası ilə televiziyada qazandığım təcrübənin qarşılıqlı təhlilini verməyə çalışmışam. Bu kitablar televiziya dili sahəsində mənbəyə çevrilib. Yəqin ki, son illərin efirində nizam yaratmaq işində bunun böyük köməyi olmuşdur.

Dil millətin əsas faktorudur. Milli müstəqillik də dildən başlayır. Şah İsmayıl Xətainin Azərbaycan dilində fərmanlarını xatırlayaq. Ümummilli liderimiz Heydər Əliyev Azərbaycan dilinin statusunu daha da inkişaf etdirib möhkəmləndirmək istiqamətli sərəncamlar verəndə ölkə televiziyalarının milli dildə yayımı qaçılmaz oldu. Təəssüf ki, Azərbaycan televiziyasından başqa bu sərəncamlara bütövlükdə əməl edən ikinci yayım kompaniyası yoxdur. Xüsusən, filmlərin nümayişində özəl televiziyalar ikidilliliyi

bu gün də saxlayırlar.

– Bəs, Azərbaycan televiziyasında bu problemi həll etmək necə mümkün oldu?

– AzTV zəngin maddi və mənəvi bazaya malik infrastrukturdur. Ölkə müstəqilliyi bizə milli düşüncə, milli yaddaş istiqamətli arzularımızı total şəkildə həll etmək imkanı qazandırdı. Yeni sistemin ilk illərindəki xaos tarixi ənənələri olan AzTV-yə təsir edə bilmədi. Biz mədəniyyətimizin ən parlaq göstəricilərindən olan milli kinomuzun zəngin fondunu yaratdıq. Bu zaman həm də dünya kinomotoqrafiyasının ən seçmə nümunələrini almaq, dilimizə çevirmək ehtiyacı yaranmışdı. Təvazökarlıqdan uzaq olsa da deməliyəm ki, AzTV-də «Dublyaj» redaksiyası milli yayıma keçmək barədə prezident sərəncamından 2 il əvvəl yaradılmış, dünya kinosunun ən nadir nümunələri dilimizə çevrilmişdi. Məhz belə tədbirli münasibət AzTV-yə bütövlükdə milli yayıma keçmək imkanı verdi. Ayda 55-60 saatlıq lentin dublyajını edən redaksiyanın fondunda bu gün 2000-dən çox xarici ölkə filmi qorunub saxlanılır. Biz dublyaj işinə də yaradıcı münasibət bəsləyir, dilimizin zəngin imkanları hesabına bu kino əsərlərini ən tanınmış aktyorların ifasında səsləndiririk.

– Televiziyalar şou proqramlara, əyləncə verilişlərinə meyillidir. Bu mənada öz ciddiliyi ilə seçilən AzTV efir yarışında təklənmirmi?

– Mənə belə gəlir ki, hər yayım qurumunun xarakteri onun adından, təyinatından xəbər verməlidir. Bütün televiziyalar monomövzularda yayımlansa, onun sayı kimdən ötrü maraqlı olar ki?! Yeni televiziyaların yarandığı və yaranacağı şəraitdə bu yayım balansını yenilər daha çox gözləməli və öz yayım istiqamətləri ilə fərqlənməyə üstünlük verməlidirlər. Təəssüf ki, sahə televiziyaları kimi yaranan özəl televiziyalar sonralar ümumsiyasi kanala çevrilmək iddiasına

düşür, yayım haqda nizamnaməsini unudub «hər şeydən bir az» olurlar. AzTV isə əksinə, tarixi ənənələrinə sadiq qalaraq ölkənin daxili, xarici siyasəti, mədəniyyəti, xalqın folkloru, idmanı, təhsili, əxlaqı, milli fərd kimi strategiyası, problem və uğurları barədə ən geniş aspektdə proqramlar hazırlayır.

Əsası Üzeyir Hacıbəyov tərəfindən qoyulmuş Xalq Çalğı Alətləri Orkestrinin uzun illər radioda yaratdığı zəngin musiqi ənənələri bu gün də davam etdirilir. Aşıq musiqisindən tutmuş opera sənətinə kimi, prezident səfərlərindən uşaq dünyasına kimi məsələlər AzTV-nin mövzu qaynaqlarıdır. Lakin çağdaş düşüncə, həyatın dinamikası ən ekzotik mövzularda da müasirliyi reallığa çevirmiş olur. Bu mənada «İncəsənət və əyləncəli proqramlar» redaksiyasının kollektivi ilə ciddi söhbətlərimiz yeni ümidlər doğurur. Xüsusən musiqinin təqdimatında yeni üsul və formalar, şou tipli proqramlar hazırlamaq nəzərdə tutulub. «Kino və dublyaj» redaksiyasında da belə dinamik formalardan istifadə etmək məqsədəuyğundur.

Televiziya və radionun ilk illərində (videoyazı olmadığı vaxtlar) canlı yayım vəziyyətdən çıxış yolu kimi reallığa çevrilmişdisə, bu gün hadisələri baş verdiyi anda tamaşaçıya çatdırmaq maraqdan və qarşılıqlı əlaqənin (interaktivin) tələblərindən zərurətə dönüb. Bu mənada bir sıra ictimai-siyasi, bədii-publisistik, folklor, musiqi proqramlarının canlı yayımını nəzərdə tutmuşuq. İdman proqramlarının – xüsusən futbol yarışlarının canlı yayım hüququ da AzTV-yə məxsusdur.

– Televiziyanın təməl vəzifələrindən biri də maarifçilikdir. Ümumilikdə Azərbaycan efirində maarifçilik işi elə bil arxa plana keçirilib.

– Bu, sanki belədir. Amma XXI əsrin maarifçiliyi xalq arasında savadsızlığın ləğvi istiqamətində hazırlanan verilişlər

kimi başa düşülməməlidir. Bu gün reklam çarxından tutmuş idman proqramlarına kimi, ən müxtəlif formalarda öyrədici, maarifləndirici informasiyalar təqdim edirik. Lakin bu işin sistemli şəkildə aparılmadığı məni də narahat edir. Maarifə yalnız təhsil məsələləri kimi yanaşmaq da doğru deyil. Ölkədə təhsil qanunlarının hələ də qüvvədə olmaması məktəb, təhsil müəssisələrinin fəaliyyətində uğur və qüsurları təhlil etmək imkanımızı azaldır. Buna görə də bu sahədə dünya TV praktikasını əsas götürməli, gənc nəslin savadlı yetişməsinə xidmət edən TV formalarını ekranımıza transformasiya etməliyik.

«Tədris və elmi-kütləvi proqramlar» redaksiyası işini bu istiqamətdə qurmağa çalışır. Lakin fikir, layihə hələ baxımlı TV proqramı deyil. Onu ərsəyə gətirmək üçün ciddi kollegial iş tələb olunur. İşıqçıdan müəllifə, rejissora kimi hamı mövzu ətrafında eyni cür düşünəndə müsbət nəticə alınır.

– Belə çıxır ki, AzTV-də baxımlı proqram hazırlamaq üçün zəruri olan hər şey var.

– Bu, deyilənlər işin bir tərəfidir. Daha şux proqramlar, əlvan teletədbirlər keçirmək üçün cəmiyyətdə əmin-amanlıq, sülh, sakitlik, iqtisadi firavanlıq, fikir, düşüncə sərbəstliyi, ədəbi-mədəni mühit formalaşmalıdır. Torpaqlarımızın 20 faizinin mənfur qonşular tərəfindən işğalı tarixi folklor mühitlərimizin məcburi miqrasiyasına səbəb olmuşdur. Paytaxtda yaranan sıxlıq şəhərin mədəni mühitindəki süni iqlim dəyişməsi düzgün teleproqnoz aparmağa imkan vermir. Dünyaya, Avropaya inteqrasiya bir çox yabançı dini, mənəvi inancların, bayağı musiqi və mədəniyyət faktlarının ölkəmizə maneəsiz miqrasiyası ilə nəticələnib. Bütün bunlar isə milli mühitə pozucu təsirini göstərməmiş deyil. Xüsusən gənclər arasında milli musiqiyə biganəlik müşahidə olunur. Optimal maraqlar səviyyəsini gözləmək üçün cəmiyyətdə hadisələrə

şərti birmənalılıq formalaşmalıdır. Yoxsa hər kəs üçün ayrıca proqram hazırlamaq heç kəsin imkanları çevrəsində deyil. Göründüyü kimi, tamaşaçıya asan gələn TV proqram faktının arxasında çox ciddi problemlər dayanır.

– Nizami müəllim, AzTV-də tezliklə hansı layihələri görə biləcəyik?

– Biz yubileylər ilində – Azərbaycan radiosunun 80, televiziyasının 50 illiyi ərəfəsində görüşürük. Bu il əməkdaşlarımız üçün həm bayram, həm də ciddi hesabat ilidir. Konkret layihələrin adı, mövzusu barədə danışmaq çox vaxt alar. İstisnasız olaraq bütün yaradıcılıq strukturları yeni layihələrin planını təqdim ediblər. Açığını deyim ki, bu layihələr içərisində uğurlu olanı çoxdur. Layihəni həyata keçirmək üçün baza, təcrübə, mənəvi potensial və yaradıcılıq ehtirası gərəkdir. AzTV bütün bu deyilənlərin cəmindən ibarətdir. Demək, yaxın günlərdə yeni verilişlər dalğası başlayacaq. AzTV ənənəyə sədaqətli, milli, bəşəri mövzulu, müasir düşüncəni əks etdirən verilişlərlə yeni əsrin televiziyası olduğunu sübut edəcək.

– Müsahibəyə görə sağ olun.

Söhbəti yazdı:
T. Aydınoğlu
«Xalq qəzeti»,
11 fevral 2006-cı il

RƏYLƏR

MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİNİN YARANMASI VƏ MÖHKƏMLƏNDİRİLMƏSİNDƏ HEYDƏR ƏLİYEVİN ROLU

XX əsrin ən görkəmli dövlət xadimi Heydər Əliyev şəxsiyyəti ən adi və ali düşüncə sahiblərində heyrət, həsəd, qibtə doğuracaq saysız keyfiyyətləri ilə yadda qalır. Zaman keçdikcə onun dühasının zənginliyi, ideyalarının reallığı və konstruktivliyi, çıxardığı hər bir qərarın vaxtın ən düzgün sözü olduğu sübuta yetir. Bu siyasi uzaqgörənliyin bir cəhəti istedad hesab olunarsa, başqa bir qanadı dövlətçilik təcrübəsini yığcam bioenerjiyə çevirən zəhmət, dözüm, dönməzlik, qətiyyətdir. XX əsrin Azərbaycan reallığına bəxş etdiyi bu fenomen şəxsiyyət yəqin ki, uzun illər müxtəlif maraq qütblərindən öyrəniləcək, təcrübəsinin, siyasi uğurlarının mahiyyƏti açıqlanacaqdır. Hələ sağlığında bu siyasət dahisinin təvazökarlığı nüfuzunda ehtiyatla qələmə alınan yüzlərlə, minlərlə elmi-publisistik əsərdə onun qeyri-adi siyasi gedişləri, iqtisadi reformaları, milli-mənəvi uduşlara ünvanlanmış qətiyyətli qərar və sərəncamları ən təcrübəli politoloqları belə heyrətdə buraxmış, onların söhbətlərindən ötrü yeni ideya bazasına çevrilmişdir. Bütün bunları bir ziyalı olaraq görüb dəyərləndirməmək mümkün deyil. Lakin H. Əliyev diplomatiyasının bütün parametrlərini öyrənib təhlil etmək gələcəyin işidir. Bu günün özündə də ilk uğurlu təşəbbüslər edilir ki, bu da böyük ömrün salnaməsini yaratmaq sahəsində, dövlətçilik ənənələrimizin tarixini öyrənmək işində xidmət kimi qiymətləndirilməlidir.

XX əsrdə üç ictimai-siyasi formasiyanı yaşamış (Çar Rusiyasının mütləqiyyət quruluşu (1900-1917), Müstəqil Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920), Sovet Kommunist rejimi (1920-1991) Azərbaycan dövlətçilik ənənələrini Heydər Əliyev xidmətləri fonunda təhlil edən dos. İradə Hüseynova həqiqi mənada böyük ömrün ən maraqlı, ictimai tutumlu anlarını sistemləşdirə bilmişdir. Heydər Əliyev həyatının bütün mərhələlərini ictimai-siyasi tamın hissələri kimi öyrənən gənc alim onun Azərbaycana ilk rəhbərliyini milli-vətəndaşlıq mövqeyindən (xüsusən, Dövlət Təhlükəsizlik orqanlarında milliləşdirmə siyasəti, partiya aparatında idarəçiliyin milli dilə keçirilməsi) işıqlandırmağa çalışmışdır Azərbaycanı aqrar ölkədən sənaye ölkəsinə çevirmək, zəngin ziyalı potensialı yetişdirmək, əmək, elm, incəsənət adamlarını İttifaq səviyyəsində rəğbətləndirmək, xalqın rifah halını yaxşılaşdırmaq hesabına ölkədə milli-mənəvi mühiti sağlamlaşdırmaq ilk mərhələdə Heydər Əliyev rəhbərliyinin əsas istiqamətlərindən idi Dissertasiyanın 1-ci fəslində faktların dili ilə bu inkişafın pilləliyi, ritmi, dinamikası ətraflı təsvir və təhlil olunmuşdur.

O vaxtkı SSRİ rəhbərliyinin rəsmi etirafına görə siyasi düşüncə və şəxsi keyfiyyətləri ilə Azərbaycana «sığışmayan» Heydər Əliyev Siyasi Büroya işə dəvət olunur. Bütün türk dünyasını heyrətdə qoyan bu siyasi uğur sonralar müxtəlif baxış bucaqlarından təhlil olunacaq, nəticələrin kəsişdiyi nöqtə isə yenə də Heydər Əliyevin qeyri-adi şəxsiyyəti, fenomen keyfiyyətləri hesab ediləcəkdir.

Dissertasiyada geniş yer ayrılmış Moskva fəaliyyəti yüksək, qarşısıalınmaz enerji sahibinə Siyasi Büro «aysberqlərinin» ehtiyatlı, qısqanc münasibəti fonunda təqdim olunur, Heydər Əliyevin iş rejiminin sistemi barədə ətraflı məlumat verilir. H. Əliyevin Moskva fəaliyyəti Mərkəzi

Aparata geniş mənada islahatçının gəldiyi xəbəri ilə yadda qalır. O, proqmatik düşüncə tərzi ilə seçilir, regionların iqtisadi, sosial maraqlarını radikal göstərişləri ilə qısa zamanda həll edir, vahid cəmiyyətin sinxron inkişafını məhz, mərkəzlə ucqarların maneəsiz əlaqəsində görürdü. Hər gün böyük kitablara sığışmayan bu ömrün bütün məqamlarını izləmək mümkün olmasa da, Azərbaycan üçün taleyüklü məsələlərin ən qaynar nöqtələrində daim görünün bu siyasət bahadırı hadisələrin sonrakı inkişafına axar verməsi ilə yadda qalır.

Dissertasiyada fakt və hadisələrin sinxron düzümündə Heydər Əliyev şəxsiyyətinin ən parlaq cəhətləri – konfliktlərin, taleyüklü məqamların optimal təmas xəttini görüb reaksiya verə bilməsi, həqiqət anını öz taleyi, fəaliyyəti ilə uzlaşdırması diqqətə çatdırılır. Dağılmaqda olan SSRİ-yə ilk protest, 20 Yanvar hadisələrinə birinci siyasi qiymət, Vətənə dönüşdə tutulan düzgün siyasi xətt, Azərbaycan parlamentindəki qaragüruha verilən sərt cavab, SSRİ-ni ittiham və s. hadisələr burulğanında nicat gözləyən xalqa dahi bir siyasətçinin ən doğru proqnozları, məsləhətləri idi.

Doqquz fəsildə geniş təhlilə cəlb olunan bu mərhələli siyasi fəaliyyət daim dinamik inkişafda, yüksəlişdə göstərilir. Naxçıvandan Azərbaycan rəhbərliyinə qayıdış, müstəqil dövlətin inkişaf tempində xüsusi mərhələ hesab olunur. Bu dövrdə H. Əliyev fəaliyyətinin paralel xətləri – dövlət quruculuğu, Konstitusiyanın qəbulu, iqtisadi inkişaf xətti, neft strategiyası, ölkədaxili sabitliyin saxlanılması, xarici siyasət, cəbhə xəttində atəşkəsin əldə olunması… bir ömrə sığmayan yüzlərcə qlobal problemin eyni vaxtda siyasi məcraya salınması adamda heyrət doğurur. Bu, məhz Heydər Əliyev zəkasının hesabına başa gəlirdi. Daxildən və xaricdən müxtəlif maraq qütblərinə parçalanan Azərbaycan məhz H.

Əliyev siyasətinin optimal oriyentirlərində bütöv, xətərsiz qalıb yaşaya bildi. Azərbaycanın neft strategiyası ətrafındakı qalmaqallar da bütün maraq və mövqelərə qarşı balanslaşdırılmış siyasət H. Əliyev müdrikliyinin nəticəsində baş tutdu və bu gün ölkəyə təkcə külli miqdarda iqtisadi sərmayə deyil, ondan da artıq siyasi divident axıb gəlməkdədir. Bu həm də Azərbaycanın dünya iqtisadi, siyasi məkanına inteqrasiyasına şərait yaratdı. Azərbaycan ictimai mühitindəki inkişafı faktlar əsasında ciddi təhlil edən İ.Hüseynova dövlətçilik tariximizin bu yeni mərhələsində H. Əliyevin rolunu bir neçə istiqamətdə qiymətləndirməyə çalışır. Heç şübhəsiz, bu istiqamətlərdən birincisi dövlət quruculuğu sahəsindəki böyük təcrübə və xidmətlərdir. Hüququ dövlətin əsasında dayanan yeni Konstitusiyanın qəbulu, mətbuatdan senzuranın götürülməsi, ölüm hökmünün ləğvi, yeni qrafikalı əlifbaya keçid, azərbaycanlıların deportasiyası və soyqırımı haqqında sərəncam, Azərbaycan dilinin hüququ statusu haqqında fərman, görkəmli ədəbi, tarixi şəxsiyyətlərin yubileylərinin keçirilməsi, Azərbaycan tarixinin yenidən yazılması barədə sərəncamlar bu sahədəki işləri elmi müstəviyə çıxarmış oldu.

Dissertasiyanın 9-cu – sonuncu fəslində müstəqil Azərbaycanın milli-mənəvi dirçəliş və mədəni quruculuğu H. Əliyev siyasətinin yekun mərhələsi kimi geniş təhlil olunur. «Savadsız mühitdə ideal cəmiyyət qurmaq olmaz» kimi məşhur qənaət bütün zamanlar üçün aktuallığını qoruyub saxlayır. Təhsildə reforma, akademiya sistemindəki əsaslı dəyişikliklər tənəzzüldə olan Azərbaycan elmini, maarifini iflasdan xilas etdi. Xüsusən, elm xadimlərinin əmək haqlarının dəfələrlə artırılması yeni kəşflərin, fundamental tədqiqatların meydana çıxmasına şərait yaratdı. Müstəqil dövlətin dilinə yeni nüfuz qazandıran Prezident fərmanı həm də bu dildə

yaranan bədii irsin əcnəbilər tərəfindən sevilərək öyrənilməsinə səbəb oldu.

Tarix elmləri namizədi İradə Hüseynova H. Əliyev fəaliyyətinin müxtəlif dövrlərini əhatə edən əsərlərində, çıxış və məruzələrində bu mövzunun təhlilinə geniş səy göstərmiş və nail olmuşdur. Heydər Əliyev şəxsiyyəti, ideyaları, ictimai və şəxsi keyfiyyətləri barədə görkəmli dünya siyasətçilərinin, politoloqların fikir və mülahizələri də dissertasiyada ümumiləşdirilmiş, təhlilə cəlb olunmuşdur. Böyük bəşəri ideyalar mənbəyi olan Heydər Əliyev ömrü, daxili, xarici siyasəti, hələ neçə-neçə elmi əsərin, monoqrafiyanın mövzusuna çevriləcək. İ. Hüseynovanın bu sahədəki doktorluq dissertasiyası da öz elmi sanbalı, orijinal və işlənmə prinsipi ilə maraq doğurur. Tədqiqat işi İ. Hüseynovanın tarix elmləri doktoru alimlik dərəcəsi almasına tam əsas verir.

2004-cü il

AZƏRBAYCAN DİLİNDƏ MORFOLOJİ NORMA

Azərbaycan dilinin ən çox araşdırılmış sahələrindən biri qrammatikadırsa, Azərbaycan dili qrammatikasının ən çox araşdırılmış sahəsi morfologiyadır. Mirzə Kazım bəydən Muxtar Hüseynzadəyə və sonuncunun tələbələrinə qədər Azərbaycan dilinin morfoloji quruluşu barədə onlarla yazılmış əsərlərin keyfiyyətini, orijinallıq səviyyəsini nəzərə almasaq, hətta yüzlərlə kitablar, məqalələr qələmə alınmışdır. Bununla belə müdafiəyə təqdim olunmuş doktorluq dissertasiyasını nə mövcud təsəvvürlərin sadəcə ümumiləşdirilməsi, nə də Azərbaycan ədəbi dilinin müasir inkişaf mərhələsindəki morfoloji özəlliklərinin təsviri kimi qəbul etmək olar. Çingiz Hüseynzadənin «Azərbaycan dilində morfoloji norma» mövzusundakı tədqiqat işi kifayət qədər orijinal, morfoloji normaya konkret bir dilin timsalında sistemlə yanaşmaq təcrübəsidir.

Etiraf etmək lazımdır ki, hər hansı dilin quruluşu, yaxud normaları barədə bəhs edərkən yalnız həmin dillə bağlı mövcud dilçilik təsəvvürlərindən çıxış etmək artıq keçilmiş mərhələdir. Müasir dilçiliyə, fəaliyyətdə olan ümumi dilçilik nəzəriyyələrinə, metodlarına az və ya çox dərəcədə əsaslanan konkret bir dilin, yaxud bir dil daxilindəki müxtəlif nitq təzahürlərinin təbiəti, xarakteri, funksional əlamətləri barədə sistemli, prinsipial qənaətlər hasil etmək mümkün deyil. Və müzakirəsinə toplaşdığımız doktorluq dissertasiyası da bu baxımdan dövrün tələblərinə cavab verir. Dissertant tamamilə təbii olaraq əsərin «Dil sistemində norma anlayışı» adlı I

fəslini «norma» anlayışının konturlarının ümumnəzəri təhlil əsasında təyininə həsr etmişdir. Burada normalaşma prosesində dil-nitq münasibətləri, yazılı və şifahi nitqin norma standartlarına təsiri, dil kollektivinin, ictimai münasibətlərin normalaşmada rolu, yəni ekstralinqvistik aspektlə linqvistik aspektin əlaqəsi kimi məsələlər geniş şərh olunur. Müasir dilçiliyin banisi Ferdinand de Sössürdən onun şərhçilərinə qədərki mövcud mülahizələr əsasında norma anlayışının aydın izahı verilir. Bu aydınlıq o həddə çatır ki, dissertant «Norma dildə mürəkkəb, çətin, abstrakt funksiya daşımır. Norma çox sadə bir funksiyanı yerinə yetirir. Normanın bütün funksiyası dinləyərkən danışanı başa düşməsi üzərində cəmləşir» deməkdən, yəni zahirən bəsit görünən, əslində isə o qədər də sadə olmayan münasibəti (ünsiyyət mexanizmini) əks etdirən bir tərif verməkdən çəkinmir.

Çingiz Hüseynzadənin norma anlayışına yanaşması tarixi plandan başlasa da, onun məqsədi, Azərbaycan dilinin bugünkü səviyyəsində norma-anomaliya münasibətlərinin məzmununu açmaqdır. Ona görə də xüsusi əhəmiyyət kəsb edən, sosial praktikanın tələblərinə cavab verən bir məsələyə – nitq mədəniyyəti məsələsinə ardıcıl diqqət yetirməsi, nitqin normalılıq keyfiyyətinin yüksəkliyinə dil mədəniyyətinin göstəricisi kimi baxması və Azərbaycan cəmiyyətinin ümumi mədəni-mənəvi inkişafında həmin amilin mövqeyini ayrıca qiymətləndirməsi təqdirəlayiqdir.

Dissertasiyanın II fəslində isim, III fəslində feli qrammatik kateqoriyalarda normalılıq tədqiq olunmuş, zəngin dil, əslində, dil faktları əsasında Azərbaycan dili qrammatikasının daxili quruluşunu, sistemini, kommunikativ tamlığını təmin edən kəmiyyət, mənsubiyyət, hal, xəbərlik, inkarlıq, zaman kateqoriyalarının müasir dildə ifadə xüsusiyyətləri təsvir edilmişdir. Həmin təsvirdən çıxan əsas

nəticə bundan ibarətdir ki, Azərbaycan dili xüsusilə müasir mərhələdə, ümumiyyətlə, dilin əsas funksional əlaməti olan normalılığın keyfiyyətcə yüksəkliyi tələbinə cavab verir, yəni həm şifahi, həm də (və daha çox) yazılı nitqin qrammatikasında normalılıq kifayət qədər təmin olunmuşdur. Lakin istər yazılı, istər şifahi nitqdə, istərsə də yazılı nitqlə şifahi nitqin münasibətində normalılıq tələbinə cavab verməyən məqamlar da vardır ki, bunlar, mənim fikrimcə, müxtəlif xarakterlidir:

1) elə normadan yayınmalar var ki, regionallığın, cəmiyyətin coğrafi-etnoqrafik bütövlüyünün zəifliyinin ifadəsi olub, ədəbi dil norması ilə dialekt-şivə normaları arasındakı münasibətləri göstərir;

2) elə normadan yayınmalar var ki, mənşəcə dialekt şivələrdən, yaxud başqa dillərdən gəlsə də, ədəbi dil variantlığına aid olub normanın inkişafına xidmət edir.

Birinci halda normadan yayınma reqressiv, ikinci halda isə proqressiv səviyyədədir. Yeri gəlmişkən, mən burada böyük ingilis dilçisi Con Layonsun belə bir fikrini xatırlatmaq istərdim: dilin inkişafı norma və anomaliyaların bir sistemindən digərinə keçməkdən ibarətdir… Bu qənaəti Azərbaycan dilinə də tətbiq etsək, qrammatik quruluşdakı bir sıra normadan yayınmaları məhz inkişafın əlaməti kimi dəyərləndirə bilərik.

Müzakirəyə təqdim olunmuş doktorluq dissertasiyası ciddi elmi-nəzəri tədqiqatın, ümumiləşdirmənin nəticəsi olsa də, müəyyən qüsurlardan da xali deyil. Onların bir neçəsinə diqqəti cəlb etmək istərdim:

1) Dil-nitq münasibətləri barədə mövcud nəzəri mülahizələr diqqətdən keçirilərkən müəyyən sistemçiliyə yol verilmiş, F. de Sössürün bu sahədəki rolu bütün dəqiqliyi ilə qiymətləndirilməmişdir. Dissertant yazır: «Y. S. Maslov dil və

nitq məsələlərindən bəhs edərkən ilk dəfə bu məsələnin F. de Sössür (1857-1913) tərəfindən araşdırıldığını göstərir» (səh. 20). Məgər F. de Sössür kimi dahi bir dilçinin xidmətini bir dərslik müəllifindən sitatla qiymətləndirməliyik? Buna nə ehtiyac vardı?…

2) Azərbaycan dili tarixi materiallarına münasibətdə pərakəndəlik, qeyri-dəqiq mülahizələr var. Ehtiyac olmadığı halda çoxlu nümunələr verilmişdir (bax. səh. 25-40). Məsələn, Azərbaycan dili normalarının qədim (ümum-) türk dili normalarından gəldiyi lazımi qədər əsaslandırılmamış, qrammatik normanın genotipi, yaxud arxitipi məsələsi diqqətdən qaçırılmışdır.

3) Bir sıra hallarda qrammatik normaların təsvirində həddindən artıq təfsilata varılmış, məlum hadisələr sadalanmışdır ki, fikrimcə, buna ehtiyac yox idi.

4) Bəzən ədəbi norma ilə üslub «norma»sı arasındakı uyğunluq, yaxud fərqlərin izahı lazımi elmi-nəzəri səviyyəyə qaldırılmır (məsələn, səh. 122-123). Halbuki Azərbaycan dili bu baxımdan ümumi dilçilik təsəvvürlərinin genişlənməsi üçün geniş imkanlar verir.

5) Texniki səhvlərə də yol verilmişdir. Məsələn, dissertasiyanın mündəricatında bütöv bir paraqrafın (Mənsubiyyət kateqoriyasında norma) adı ümumiyyətlə getməmişdir.

Mən bir daha təkrar edirəm ki, Hüseynzadə Çingiz Muxtar oğlunun «Azərbaycan dilində morfoloji norma» mövzusundakı əsəri yüksək elmi-nəzəri səviyyədə yazılmışdır və doktorluq dissertasiyaları qarşısında qoyulmuş tələblərə tamamilə cavab verir. Bu əsər üçün dissertant filologiya elmləri doktoru alimlik dərəcəsi almağa layiqdir.

2005-ci il

ÇAĞDAŞ TÜRK ŞEİRİNİN POETİKASI

Bəşəriyyətin mədəni-mənəvi həyatında baş verən qlobal mühüm hadisələrdən sonra adətən bu hadisələr yeni təfəkkür işığında nəzərdən keçirilir, onlara yeni yanaşma bucağından qiymət vermək təşəbbüsü gerçəkləşdirilir. Xüsusən, genetik və etnoqrafik cəhətdən yaxın olan xalqların, eləcə də yüzillər boyu qonşuluq şəraitində yaşayan etnosların bir-birinin ədəbi prosesini qarşılıqlı surətdə öyrənməsinin müəyyən tarixi təcrübələrin bölüşdürülməsində çox böyük rolu ola bilər. Dövlət müstəqilliyini əldə etmiş Azərbaycan ədəbi-mədəni fikrində yaxın və uzaq xarici ölkə ədəbiyyatlarının, eləcə də, ilk növbədə qardaş türk xalqları ədəbiyyatlarının tədqiqinə marağın xeyli artması bu baxımdan təbii və aktual, vaxtı çatmış bir məsələ sayılmalıdır.

Türkiyə Respublikasının çağdaş şeirinin burada gedən ədəbi prosesin nəzəri-poetik araşdırma obyektinə çevrilməsi, ilk növbədə, Avropaya inteqrasiya yönümlü qardaş ədəbiyyatın keçdiyi yolun təcrübələrini mənimsəmək baxımından maraq doğurur. Məsələ burasındadır ki, müstəqil dövlət quruculuğu prosesində Azərbaycan Respublikası da bir zamanlar müstəqil dünyəvi hüquqi dövlət kimi Türkiyə Respublikasının qarşısına çıxan problemlərin bəzisi ilə, təbii ki, rastlaşır və bunların həlli yollarında ədəbi prosesin də müəyyən rol oynadığı şübhəsizdir. Məlumdur ki, uzun əsrlər boyu indiki Türkiyə və Azərbaycan xalqlarının tarixi taleyi eyni və ya oxşar olmuş, onlar tarixin keşməkeşlərində çox vaxt bir millətin bir dövləti kimi iştirak etmişlər. Təbii ki,

əsasını poeziya təşkil edən ədəbi proses də bu xalqlarda eyni olmuş və çox zaman iki paralel xətt kimi uzanıb getmişdir.

Bütün bu səbəblərə görə J. Əliyevanın doktorluq dissertasiyası, bu mövzuda müəllifin çap etdirdiyi monoqrafiyalar və çoxsaylı məqalələr müstəqil Azərbaycan Respublikasında ədəbi-mədəni fikrin inkişafında və yeni cəmiyyət qurucusunun vətənpərvərlik tərbiyəsində mühüm rol oynamağa qadirdir.

Bununla yanaşı, «Çağdaş türk şeirinin poetikası» adlı tədqiqat işi təkcə Azərbaycanda deyil, həm də qardaş Türkiyədə bu sahədə ilk monoqrafik sistemli araşdırma kimi elmi ictimaiyyətin nəzər-diqqətini cəlb etməyə bilməz. Burada qoyulan və uğurla həll edilən bir çox problemlər yenidir və müəllifin istər araşdırma obyektinə, istərsə də çağdaş elmi-nəzəri fikrə dərindən bələdliyini sübut edir.

Qarşıya qoyulan əsas elmi vəzifələrin həllini beş fəsildə həyata keçirmiş araşdırıcı dissertasiyada kifayət qədər zəngin ədəbi-bədii və elmi-nəzəri materiala söykənməklə çağdaş türk şeirində lirik qəhrəman, lirik qəhrəmanın müxtəlif ipostasları, onun mövqeyi, poetik forma, vəzn və qafiyə özəllikləri, bədii təsvir vasitələri, poetik polisemantizm, çağdaş türk şeirində bədii zaman, problemləri kimi aktual məsələləri tədqiq etməklə, qarşıya qoyulan elmi məqsəd və vəzifələri uğurla gerçəkləşdirməyə nail olmuşdur.

Xüsusilə çağdaş türk şeirində lirik qəhrəmanın hərtərəfli tədqiqi və ən müxtəlif rakurslardan elmi təqdimi dissertasiyanın uğurlu bölmələrindən sayılmalıdır. Dissertantın fiziki cəhətdən canlı obyektləri lirik qəhrəman kimi təqdim etməsi ilə yanaşı, torpaq, Vətən, Türkiyə, Turan və nəhayət, Azərbaycan kimi nisbətən abstrakt obyektləri də lirik qəhrəman statusunda alıb təhlil etməsi maraq doğurur.

Bilavasitə dissertasiyanın avtoreferatına gəldikdə, demək

lazımdır ki, doktorluq tədqiqatının xülasəsi kimi, əsər yığcam olmaqla yanaşı, bitkin və dolğundur.

İddiaçı bu əsərə görə filologiya elmləri doktoru elmi dərəcəsinə tamamilə layiqdir.

2005-ci il

ORXON-YENİSEY ABİDƏLƏRİ VƏ AZƏRBAYCAN DİLİ (LEKSİKA)

Azərbaycan ədəbi dilinin tarixini ümumtürk mühitində (kontekstində) öyrənməyə başlayan tədqiqatlar XX əsrin 80-ci illərinin ortalarında meydana çıxmağa başlamışdır. Bu gün də bu mərhələnin özünəməxsus keyfiyyətləri müəyyənləşir. Bu tədqiqatlarda müəyyən təkamül prosesində diferensiallaşmış hər hansı bir türk ədəbi dili ümumi türk dil proseslərinin tərkib hissəsi kimi verilir. Müdafiəyə təqdim edilmiş «Orxon-Yenisey abidələri və Azərbaycan dili (leksika)» adlı dissertasiya da bu tədqiqatlar sırasına daxildir.

Orxon-Yenisey abidələrinin leksikası bu vaxta qədər türkologiyada bir sıra tədqiqatların obyekti olmuşdur. Lakin abidələrin leksikası ilə Azərbaycan dilinin leksikası ilk dəfədir ki, sistemli şəkildə, monoqrafik tədqiqat səviyyəsində araşdırılır. Bu tədqiqat işi Azərbaycan ədəbi dilinin təşəkkülündə qədim türk dilinin ilk orta əsrlərdəki «təcrübəsi»nin həqiqətən həlledici rol oynamasının əsaslandırılması ilə aktuallıq kəsb edir. Dissertant Azərbaycan dilinin tarixi leksikologiya problemlərinin öyrənilməsində dilimizin yazıya qədərki mərhələsi üçün dəyərli mənbə kimi Orxon-Yenisey abidələrinin əhəmiyyətini düzgün müəyyənləşdirir.

Məlumat üçün qeyd edək ki, «Kitabi-Dədə Qorqud»un leksikasının (hesablamalar XII boyun materialı əsasında aparılmışdır) təxminən 75%-i qədim türk dilindəki (qədim türk yazılı abidələrinin dili nəzərdə tutulur) ilə eynidir. Bu isə

Azərbaycan dilinin tarixi leksikologiya məsələlərinin öyrənilməsində qədim türk yazılı abidələrinin əhəmiyyətini bir daha sübut edir.

Müasir Azərbaycan dilçiliyinin aktual problemlərindən birinə həsr edilmiş dissertasiyanın «Giriş»ində müəllif mövzunun aktuallığını əsaslandırır və dissertasiyanın quruluşu abidələrin öyrənilmə tarixi haqqında məlumat verir. Burada həmçinin qədim türk (runik) əlifbasının mənşəyi probleminə də toxunulur. Məlumdur ki, tarix səhnəsinə çıxarıldıqdan sonra qədim türk təfəkkürünün məhsulları olan bu abidələrin yazıldığı əlifbanın aramey (pəhləvi), qot, slavyan, skandinav və s. mənşəli olması haqqında türkologiyada müxtəlif mülahizələr irəli sürülmüşdür. Dissertant bu fikirlərə münasibət bildirərək qeyd edir ki, «V əsrdən etibarən özlərinin ictimai-siyasi, bədii-obrazlı təfəkkür məhsullarını tarix səhnəsinə çıxaran, tanrıçılığa tapınan qədim türklərin istifadə etdikləri ilk əlifba, əsasən, qədim türk damğaları (bunu abidələrin qrafik sistemində müşahidə edilən damğalara oxşar hərf-işarələr də sübut edir, məsələn: ↓ (ox), 0 (ay) və s.) və run əlifba ənənəsindən istifadə edilərək tərtib edilmişdir». Həqiqətən, qədim türk (runik) əlifbası bir neçə min il davam edən mürəkkəb təkamül yolu keçmişdir. Heç də təsadüfi deyil ki, bu əlifbanın təşəkkül tapdığı ilk damğa işarələrə, ilk hərf formalarına və ilk yazılara Azərbaycan ərazisində də rast gəlinir. Qobustanda, Naxçıvanda, Qazaxda, Kəlbəcərdə aşkar edilən yazılar bir daha sübut edir ki, ən qədim zamanlardan bu ərazidə yaşayan türk etnosları erkən orta əsrlərdə də qədim türk (runik) əlifbasından istifadə edə bilərdilər.

Dissertasiyanın «Orxon-Yenisey abidələri və Azərbaycan yazılı abidələri» adlanan I fəslində dil mühiti, qədim türk dilinin dialektfövqülük-ədəbilik səviyyəsi, abidələrin üslubi xüsusiyyətləri araşdırılmışdır.

Məlumdur ki, Azərbaycan ədəbi dilinin təşəkkülündə həlledici rol oğuz və qıpçaq tayfalarına (sonrakı dövrdə, ümumiyyətlə, oğuz-qıpçaq tayfa birliyinə) məxsusdur. Bu amili nəzərə alan dissertant ilk növbədə tədqiqata etnik mənşəyinə görə oğuzlara və qədim qırğızlara aid edilən abidələri cəlb edir. Sonra isə qədim türk dili üçün hansı dialektfövqü xüsusiyyətlərin aparıcı olduğunu müəyyənləşdirir. Dövrün dil mühiti və abidələrin etnik mənşəyi haqqında kifayət qədər məlumata malik olduğundan müəllif belə qənaətə gəlir ki, qədim türk dili üçün dialektfövqü oğuz-uyğur-qıpçaq xüsusiyyətləri aparıcıdır. O, fikrini abidələrin yazıldığı dövrdə hakimiyyətdə həmin tayfaların daha çox üstünlük qazanması ilə əlaqələndirir: «Hakimiyyətdə olan tayfaların siyasi mövqelərinin dəyişməsi (artması, azalması) ilə əlaqədar o dövrün dialektfövqü dil təzahüründə də fərqli əlamətlər meydana çıxırdı». Türk mənşəli və alınma leksik vahidlərin işlənmə intensivliyi haqqında ətraflı məlumat verən dissertant belə bir düzgün qənaətə gəlir ki, qədim türk (runik) əlifbası ilə yazılmış, xüsusilə Orxon çayı hövzəsində tapılmış, oğuz dili elementlərinin üstünlük təşkil etdiyi abidələrin lüğət tərkibinin əsasını sırf türk mənşəli sözlər təşkil edir. Abidələrin lüğət tərkibinin səciyyəvi xüsusiyyətlərindən biri alınmaların kəmiyyətcə azlığıdır. Məlumdur ki, IX-XII əsrlərdə ümumi türk ədəbi dilinin inkişafında maniçi (Maniçi uyğurların meydana gətirdiyi) və bürhançı (Buddist uyğurların meydana gətirdiyi) türk ədəbiyyatı müəyyən rol oynamışdır. Bu ədəbiyyatın (orijinal və tərcümə mənbələrinin) dili qədim türk dilidir. Bununla belə, həmin dil artıq başqa bir mədəniyyət tipologiyasına xidmət edir. Ümumiyyətlə, IX-XII əsrlərdə türklər qədim türk (tanrı) dilinin əvəzində islam, buddizm, maniçilik, xristianlıq kimi dinləri qəbul edirlər və qədim türk

dilinin əsas lüğət fondu, hətta ümumən leksikası bu zaman dəyişmir. Təbiidir ki, dissertantın qeyd etdiyi kimi, siyasi-iqtisadi və xüsusən dini əlaqələr nəticəsində qədim türk dilinə, az da olsa, alınma leksik vahidlər daxil olur (məsələn, *kutay – ipək, qumaş* (KTş. 5), *kunçuy – şahzadə xanım* (KTş. 20), *lazğın – donuz* (təqvim ili: BXc. 10), *taluy – dəniz* (KTc. 3), *manıstan – məbəd, saray* (İB 103) və s.)

Bu fəsildə xüsusilə *akın, alp, balık, bay, bök//bük, bun, idi, ög, ügüz//ögüz, yış* və s. sözlərin ilkin mənası və sonrakı inkişaf mənzərəsi daha aydın və ətraflı şərh edilmişdir. Konkret misallar gətirilməklə bir sıra sözlərin qədim türk mənşəli olması müəyyən edilmiş, bəzi sözlərin etimologiyası araşdırılmışdır. Dissertant bu nəticəyə gəlir ki, qədim türk abidələrində işlək olan bir sıra sözlər Azərbaycan ədəbi dili üçün arxaikləşsə də, Azərbaycan yazılı abidələrində rast gəlinir.

Həcminə və qoyulmuş məsələlərin şərhindəki ardıcıllığına görə fərqlənən «Orxon-Yenisey abidələri və müasir Azərbaycan ədəbi dilinin leksikası» adlı II fəsildə dissertantın müasir ədəbi dilimizlə müqayisədə tarixi müqayisəli aspektdə apardığı geniş araşdırmaları və ümumiləşdirmələri öz əksini tapmışdır.

Bildiyimiz kimi, qədim türk (runik) mətnlərinin dili ümumi türk ədəbi dili mühitini reallaşdırır və bir qədər sonra meydana çıxan türkinin əsasını təşkil edir, eyni zamanda daha çox onun Mərkəzi (Orta) Asiya təzahürləri üçün nümunə olur. IX-XIII əsrlərdə qədim türk dilinin yazılı formasının ümumi ədəbilik mühiti qalmaqla funksional imkanlarının genişləndiyini görürük. Eyni zamanda qədim türk dili (söhbət ədəbi dildən gedir) IX-XIII əsrlərdə diferensiasiyası dövrü keçirir və onun tarixi enerjisi etnik-mədəni regionlara «paylanır». Bu məsələlərə münasibət bildirən dissertant qədim

türk dilinin bazasında formalaşan türkinin inkişaf mənzərəsi, təkamülü və diferensiasiyası, bu kontekstdə milli türk dillərinin formalaşmasını da izləmiş və mövqeyini bildirmişdir.

Dissertant qədim türk sözlərinin müasir dilimizlə müqayisədə uğradığı dəyişiklikləri dörd istiqamətdə nəzərdən keçirmişdir. Tədqiqata cəlb etdiyi qədim türk abidələri üzərində müəyyən statistik əməliyyatlar aparmış müəllif bu qənaətə gəlir ki, təqribən 90-a yaxın təkhecalı söz (təqribən 50-yə yaxın ad, 40-a yaxın fel) və təqribən 60-a yaxın çoxhecalı söz (təqribən 40-a yaxın ad və 15-ə yaxın fel) heç bir fonetik dəyişikliyə uğramadan, olduğu kimi ünsiyyətə xidmət edir. Eyni zamanda müasir dilimizlə müqayisədə qədim türk sözlərində 20-dən çox saitdəyişməsi və təqribən 25-ə yaxın samitdəyişmə baş vermişdir. Bundan başqa, müasir ədəbi dilimizlə müqayisədə, müəllifin hesablamalarına görə, 250-dən çox qədim türk sözü fonomorfoloji dəyişikliyə uğramışdır.

Dissertant bu fəsildə həmçinin semantik dəyişikliyə uğramış, asemantik-kök morfemə çevrilmiş qədim türk sözləri haqqında məlumat verir. Həmin sözləri qədim türk abidələri ilə yanaşı, Azərbaycan yazılı abidələri, digər türk dillərinə dair yazılmış əsərlər, tarixi-müqayisəli aspektdə tərtib edilmiş lüğətlərdən konkret misallar gətirməklə ətraflı şəkildə təhlil etmişdir. Xüsusilə semantik dəyişikliyə uğramış rəng bildirən sözlərin *{kök//köy, kara, ağ, sarı, yaşıl),* həmçinin *el, karı, kişi, oğul, tanrı* və s. qədim türk dövründəki semantik çalarları ətraflı şərh edilir, qədim semantik hadisələrdən olan asemantizm haqqında məlumat verilir, asemantik kök morfemə çevrilmiş u- *«yatmaq»,* ö- *«düşünmək»,* ağ- *«çıxmaq»,* ba- *«bağlamaq»,* sa- *«saymaq»,* sı- *«smdırmaq»* və s. sözlərin inkişaf mənzərəsi izlənilir.

Bu fəsildə eyni zamanda ayrıca yarımfəsillərdə Orxon-Yenisey abidələrinin leksik-semantik söz qrupları (sinonim, omonim, antonim, polesemantik və frazeoloji sistemi), eləcə də abidələrin söz yaradıcılığı konkret misallar gətirilməklə ətraflı tədqiq edilmişdir. Qədim türk abidələrində işlək olan, dilin sonrakı inkişaf mərhələsində arxaikləşərək öz funksiyasını və ya fonetik cildini dəyişmiş bir sıra şəkilçi morfemlər müəyyən edilmiş, onların işlənmə intensivliyi və keçdiyi tarixi inkişaf yolu izlənilmişdir. Qədim türk abidələrində mürəkkəb sözlərin təşəkkül dövrü keçirdiyi, haqlı olaraq, qeyd edilmişdir.

Dissertasiyanın «Orxon-Yenisey abidələri və Azərbaycan dilinin dialektləri» adlı III fəslində Azərbaycan dilçiliyinin xüsusi sahəsi kimi formalaşmağa başlayan tarixi dialektologiyanın yaradılmasında yazılı abidələrin mühüm əhəmiyyət kəsb etdiyini qeyd edən dissertant bu sahədə Orxon-Yenisey abidələrinin də dəyərli bir mənbə olduğunu qeyd edir. Bu fəsildə abidələrin leksikası Azərbaycan dilinin dialekt leksikası ilə müqayisəli şəkildə tədqiqata cəlb edilmişdir. Xüsusilə, *azuk, çor, keyik, kut, küz, öküş//üküş, tabar, tarkan, tuğ, tümən, una-, yadağ, yazı* və s. qədim türk sözündə tarixən baş vermiş fonetik, semantik və asemantik dəyişikliklər geniş şəkildə şərh edilmişdir.

Dissertant ətraflı araşdırmalar nəticəsində belə bir ümumi nəticəyə gəlir ki, Azərbaycandan çox-çox uzaqlarda mövcud olan qədim türk (xüsusilə Orxon) yazıları dolayısı ilə eyni zamanda Azərbaycan türklərinin dil təfəkkürünün materialıdır. Bu səbəbdən bu qədim türk abidələrində Azərbaycan dilinin də bütün dil yarusları, xüsusilə leksika üzrə öz payı vardır.

Dissertasiya işinin əsas müddəaları öz əksini elmi konfrans materiallarında, folologiya problemlərinə dair

toplularda tapmışdır.

Tarixi-müqayisəli və təsviri metodlarla aparılmış bu dissertasiya işində müəllif öz nəzəri fikir və mülahizələrini elmi-məntiqi şəkildə sübut etməyə çalışmış, tədqiqat işini elmi-üslubi dildə yazaraq başa çatdırmışdır. Nəticədə tədqiqat boyunca irəli sürülən fikirlər elmi şəkildə ümumiləşdirilmiş, ardıcıllıqla təqdim edilmişdir.

Dissertant dilimizin yazılı abidələri, dialekt və şivələri, türk dilləri və Azərbaycan dilinin tarixinə dair yazılmış külli miqdarda monoqrafiya, lüğət və mənbələrdən səmərəli şəkildə istifadə edə bilmiş, bu da ona elmi əsaslara söykənərək mövcud problemlərlə bağlı öz mülahizələrini irəli sürməyə kömək etmişdir.

Quruluşu, həcmi, elmi aparaturası, polemikası ilə bütöv şəkildə namizədlik dissertasiyasının bütün tələblərini ödəsə də, dissertasiyada bizi qane etməyən bəzi məqamlar da müşahidə edilir:

1. Dissertasiyanın II fəsli «Orxon-Yenisey abidələri və müasir Azərbaycan ədəbi dilinin leksikası» adlandırılsa da, yarımfəsillər «Azərbaycan ədəbi dilində…» ifadəsi ilə başlayır. Bunun əksinə olaraq III fəsil «Orxon-Yenisey abidələri və Azərbaycan dilinin dialektləri» adlandırıldığı halda, yarımfəsillər «Müasir Azərbaycan dili dialektlərində…» başlığı ilə təqdim edilir. Bu isə fikrimizcə, müəyyən anlaşılmazlıq yaradır. Çünki IX-XI əsrlərdə Azərbaycan ədəbi dilinin təşəkkülü başa çatmışdır. XVII-XVIII əsrlərdə isə Azərbaycan ədəbi dili milli dil əsasında təşkil olunur, XIX-XX əsrlərdə həmin proses davam edir. XX əsrin 30-cu illərindən etibarən milli ədəbi demokratikləşməsi və normativləşməsi diqqəti cəlb edir. Bir növ, həmin illərdən başlayaraq, «müasir Azərbaycan ədəbi dili»nin funksional tipologiyası müəyyənləşir. Bu səbəbdən dissertant terminlərin

işlədilməsində bu məsələləri diqqət mərkəzində saxlamalı idi.

2. Səhifə 3-də 1-ci qeyddə: «dünya tarixşünaslığından fərqli olaraq, türkologiyada «qədim dövr» adı altında V-X əsrlər nəzərdə tutulur. V əsrə qədərki dövr, yəni Qərbi Roma imperiyasının süquta uğraması və quldarlıq quruluşunun feodalizmlə əvəz olunması dövrü isə türkologiyada «ən qədim dövr»ə (e. ə. IV minillik -b. e. V) uyğun gəlir» fikri diqqətə çatdırılır. Fikrimizcə, ümumi türk ədəbi dilinin «qədim türk dili» mərhələsi ən qədim zamanlardan e. ə. V əsrə qədərki dövrü əhatə edir. E. ə. V əsrdən XI-XII əsrlərə qədərki dövr «əski türk dili», XI-XII əsrlərdən XVI-XVII əsrlərə qədərki dövr «türki», XVI-XVII əsrlərdən bu günə qədərki dövr isə «milli türk ədəbi dilləri» mərhələləridir.

3. I fəsildə «kurğan-qala, məzar üzərində təpə» (səh. 42), «yap(ıt)-etmək, düzəltmək, yaratmaq, salmaq» (səh. 49), «yemlik-qurbanlıq, yemlik» (səh. 50) və II fəsildə «kuşla-quş ovlamaq, quş vurmaq» (səh. 76-77) sözlərinin şərhinə, fikrimizcə, ehtiyac yoxdur. Bu tədqiqatın ümumi məzmununda artıqlıq yaradır.

4. III fəsildə (səh. 140-141) verilmiş «aba//apa- 1. böyük qohum; 2. rütbə bildirən söz» «Müasir Azərbaycan dili dialektlərində ilkin forma və məna xüsusiyyətlərini saxlamış qədim türk sözləri» yarımfəslində deyil, «Müasir Azərbaycan dili dialektlərində semantik dəyişikliyə uğramış qədim türk sözləri» yarım-fəslində verilməsi daha məqsədəuyğundur. Çünki müəllifin verdiyi izahatdan da aydın olur ki, bu söz tarixi inkişaf prosesində Azərbaycan dilinin dialekt leksikasında qismən semantik dəyişikliyə uğrayaraq həm «ata» (Quba, Ordubad, Zəngilan, Gədəbəy, Dmanisi), həm «ana» (Təbriz, Qax, Neftçala, Cəbrayıl, Şəmkir), həm də fono-semantik dəyişikliyə uğrayaraq *abay* şəklində «ləzgi qadın» (Şəki), «xala» (Qax) və s. mənalarda işlənir.

5. *Kut* «1. can, ruh, həyati güc; 2. xoşbəxtlik, səadət, bərəkət, uğur» sözünün (səh. 144-147) isə «Müasir Azərbaycan dili dialektlərində ilkin mənasını saxlamaqla fono-morfoloji dəyişikliyə uğramış qədim türk sözləri» yarımfəslində verilməsi düzgün olardı. Çünki dialektlərdə (Cəbrayıl, Qazax, Mehri, Neftçala) sözün *qut* variantı işləkdir.

6. «Kitabi-Dədə Qorqud»un bütün dissertasiya boyu verilmiş ixtisar variantına (KDQ) şəkilçilər müvafiq qanunauyğunluğa riayət edilməklə artırılmalıdır.

Bütün bu iradlar tədqiqatın elmi dəyərinə heç bir xələl gətirmir. Tövsiyə edərdik ki, dissertant Azərbaycan dilçiliyində mövzunun aktuallığını nəzərə alıb bu istiqamətdəki tədqiqatlarını davam etdirsin. Dissertasiya bitkin bir əsər təəssüratı yaradır və Ali Attestasiya Komissiyasının namizədlik dissertasiyası qarşısında qoyduğu tələblərə tam cavab verir. Bu səbəbdən Məmmədov Aqşin Minacəddin oğlu «Orxon-Yenisey abidələri və Azərbaycan dili (leksika)» adlı tədqiqat işinə görə folologiya elmləri namizədi alimlik dərəcəsi almağa layiqdir.

2005-ci il

MÜASİR TÜRK DİLİNDƏ ARA SÖZLƏR VƏ SÖZ BİRLƏŞMƏLƏRİ

Məlumdur ki, obyektiv aləmin subyektiv dərkinin real və dəqiq ifadəsində ara sözlərin və söz birləşmələrinin böyük əhəmiyyəti vardır. Belə sözlərin əsasında duran, onun nüvəsini təşkil edən modal sözlər xüsusi nitq hissələrinə aid olsa da, fikrin reallığını və onun özünəməxsusluğunu ifadə etməkdə ümumiləşmiş qrammatik semantikası ilə dilin ən mühüm vasitələri cərgəsinə daxildir.

Oğuz qrupuna daxil olan dillər sırasında Türkiyə türkcəsinə məxsus qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan sözlər və söz birləşmələri çox az öyrənilmiş sahələrdəndir. Qeyd edək ki, ümumi dilçilik ədəbiyyatlarında bu dil vahidləri – ara sözlər və söz birləşmələri, ara birləşmələr haqqında müxtəlif fikirlər mövcuddur.

Belə söz və birləşmələrdən gah müstəqil, gah da asılı üzv kimi danışılmışdır. Bəzən isə belə sözlərin və birləşmələrin cümlə ilə məntiqi bağlılığı qeyd edilmişdir.

Bu məsələ ilə əlaqədar müxtəlif və dolaşıq fikirlərin meydana çıxmasına cümlə üzvləri haqqında deyilmiş fikirlərin, mövcud qanunların eynilə bu vahidlərə şamil edilməsi səbəb olmuşdur.

Ara sözlər və söz birləşmələrinin, ümumiyyətlə, türk dilləri bölgüsündə də ziddiyyətlər və məhdudiyyətlər özünü göstərir. Belə sözlər modal sözlərlə qarışıq salınır və s.

Dissertant Lalə Bağırovanın türk dili materialı əsasında tədqiq edib öyrəndiyi ara sözlər və söz birləşmələri öz

funksiyalarına görə daha genişdir; məna imkanları çoxdur. Bu funksiya və imkanlar dissertasiyada 3 fəsil üzrə araşdırılmışdır:

1-ci fəsil «Türk dilində ara sözlər və söz birləşmələrinin yaranması» adlanır. (səh. 15-54). Bu fəsil 3 paraqrafdan ibarətdir. 1-ci paraqrafda türk dillərində ara sözlər və söz birləşmələrinin nəzəri əsasları, 2-ci paraqrafda həmin sintaktik vahidlərin əmələ gəlmə vasitələri, 3-cü paraqrafda isə cümlə üzvlərinin ara sözlər və birləşmələrinə çevrilmə prosesləri öyrənilmişdir.

Dissertant 1-ci fəsildə türk dili araşdırıcılarından H. Dizdaroğlunun, Nurəddin Koçun, Aksan Doğanın, Təhsin Yuçelin, A.N.Kononovun, Mecdut Mansuroğlunun, T. Banquoğlunun, M. Zakiyevin və başqalarının bu dil vahidlərinin əsas xüsusiyyətləri, həmçinin modallığın ifadə vasitələri barədəki müxtəlif fikirləri ilə tanışlıq yaradır, həmin söz və birləşmələrin sərhədlərinin müəyyənləşməsindəki nöqteyi-nəzərlərə öz rəyini bildirir.

Müəllif təkcə türk dili araşdırıcılarının yox, həmçinin türkologiyada Q.Abduraxmanovun, N.Şariyevin, E.Janpeisovun, K.Axmerovun, Y.Seyidovun, Z.Əlizadənin, N.K.Dmitriyevin, A.Aslanovun və digərlərinin modal söz və ara sözlərə aid tədqiqatlarına toxunur, öz münasibətini bildirir.

Dissertant 1-ci fəsildə ara sözlər və söz birləşmələrin ifadə vasitələri sırasına doğru olaraq morfoloji və sintaktik vasitələri daxil edir və onların rolunu yüksək qiymətləndirir. Baş və budaq cümlələrdə ara söz və söz birləşmələrinin tam və yarımçıq transformasiya (çevrilmə) tipləri və ifadə vasitələri üzərində dayanır.

L. Bağırovanın 1-ci fəsillə bağlı çıxardığı nəticələr realdır. Bu nəticələr ara sözlər və söz birləşmələrinin məntiqi və emosional mənaları, müxtəlif nitq hissələri ilə ifadəsi, ilkin

sintaktik funksiyanı itirməsi və yeni sintaktik funksiya kəsb etməsi, morfoloji və sintaktik kateqoriyalarla yaxın əlaqəsi, morfoloji və sintaktik vasitələrlə formalaşmasına aiddir.

Dissertasiyanın 2-ci fəslində türk dilinin ara sözlər və söz birləşmələrinin cümlə ilə münasibəti məsələləri saf-çürük edilir. Burada ara sözlər və söz birləşmələrin müxtəlif növ sintaktik əlaqələrlə münasibəti, ara söz və birləşmələr və cümlədə modallıq məsələləri təhlil edilir.

Müəllifin bu fəsildə ara sözlər, ara söz birləşmələri və cümlə arasındakı qrammatik və semantik, subordinativ və koordinativ, həmçinin qoşulma əlaqələrinə dair digər fikirlərə müdaxiləsi (bu fikirlər 4 qrupa bölünür, bəzi dilçilər modal sözlərdən fərqli olaraq ara sözlərin cümlədə qrammatik əlaqə yaratmadığını, yalnız semantik münasibət formalaşdırdığını söyləyirlər və s.) yetərincədir.

Dissertantın obyektiv və subyektiv modallıqlara yanaşma tərzi, onları fərqləndirmə ölçüləri də düzgündür. Müəllif hər iki tip modallığı fərqləndirir və obyektiv modallığın indikativ, konyunktiv və imperativ tiplərini ayırır və onların hansı ara söz və söz birləşmələrlə ifadə vasitələrini mükəmməl şəkildə qruplara bölür, maraqlı dil faktları əsasında şərh edir.

Müəllifin- 2-ci fəslə aid gəldiyi nəticələr komponentlər və cümlə üzvləri arasındakı nisbi əlaqəyə, ara söz və söz birləşmələrinin yaratdığı modal-emosional mənalara, həmin mənaların əsas və ikinci təbəqəyə ayrılmasına və modal sözlərin ara söz rolunda çıxış etməsinə aid edilmişdir ki, bu da əsaslıdı.

Əsərin 3-cü fəsli «Ara söz birləşmələrin struktur xüsusiyyətləri və onların semantikası» adlanır. Bu fəslin ayrı-ayrı bölmələrində ara söz birləşmələrinin struktur tipləri və onların funksionallaşması, ismi və feli ara söz birləşmələri,

həmin dil vahidlərinin semantik əlamətləri, cümlədə oynadığı rol və s. araşdırılmışdır.

Bu fəsil və yarım bölmələr üzrə, demək olar ki, müasir türk dilinin 3000 ara söz və söz birləşmələri struktur cəhətdən təsvir edilmiş, öyrənmə səviyyəsi qeyd edilmiş, onun diaxron və sinxron aspektlərinə diqqət yetirilmiş, ara sözlər və söz birləşmələrinin genezisi məsələləri, əmələ gəlmə yolları və şəraiti, işlənmə mövqeləri, bir sıra leksik və modal mənaları, funksional cəhətləri, həmçinin struktur tipləri və semantik cəhətləri kompleks şəkildə öyrənilmişdir.

Tədqiqatçı ara sözlər və söz birləşmələrinin struktur xüsusiyyətləri haqqında dilçilərin bir-birindən fərqli fikirlərini qruplaşdırır, onların morfoloji və sintaktik tiplərini müəyyənləşdirir. Müəllifin fikrincə, adi söz birləşmələri ilə ara sözlər və söz birləşmələrinin daxili strukturunda elə bir müxtəliflik yoxdur. Dissertant ara sözlər və söz birləşmələrini də ismi və feli olmaqla iki qrupda təhlil edərək onların müstəqil və frazeoloji tiplərini komponentlərinə görə tədqiqata cəlb edir.

Tədqiqatda ilk dəfə olaraq türk dilinin ismi və feli ara söz və söz birləşmələrinin cümlədə söylənilən fikrə çox müxtəlif çalarlarda münasibət ifadə edən müxtəlif məna növləri (yəqinlik bildirənlər, güman, şübhə bildirənlər, söylənilən fikrin təbii, adəti üzrə olduğunu bildirənlər, söylənilən fikrə hissi-emosional münasibət bildirənlər, mənbə, isnad bildirənlər, ümumiləşdirmə, nəticə bildirənlər, fikrin ifadəsi üsuluna münasibət bildirənlər, çağırış, diqqət bildirənlər və s.) haqqında tədqiqatlar şərh olunur, modal sözlərin ifadə parametrləri və müəllifin özünəməxsus bölgüsü verilir.

Türk dilində ara sözlər və söz birləşmələri mürəkkəb cümlələrin və mürəkkəb sintaktik bütövlərin tərkibində

işlənərək nəinki komponentlər arasında əlaqə yaradır, həmçinin müxtəlif ifadə imkanlarını əmələ gətirir və onların formalaşmasında da əsas rol oynayır ki, müəllif bu məsələlərə də 3-cü fəslin müvafiq paraqraflarında geniş yer ayırmışdır.

Tədqiqat göstərir ki, türk dilinin müasir mərhələsində ara söz və söz birləşmələrinin qeyd edilən məna növləri və ifadə imkanları artıq funksionallaşmış, sadə konstruksiyalarla əvəzlənmişdir.

3-cü fəslin sonunda verilmiş nəticələri isə ara sözlər və söz birləşmələrinin kontekstdəki funksiyasına, struktur tiplərin özünəməxsusluğuna, ismi və feli ara söz birləşmələrin formalaşmasında rol oynayan əsas vasitələrə və modal mənaların ümumi əlamətlərinə aid etmək olar.

Dissertasiyanın sonunda verilmiş nəticələr hər üç fəslin sonunda verilmiş nəticələri, sözün həqiqi mənasında, tamamlayır.

L. Bağırovanın namizədlik dissertasiyasında bizi qənaətləndirməyən bəzi məqamlar da var. Bu qeydlər aşağıdakılardır:

1. Modal sözlər sintaksisdə ara sözlər funksiyasında çıxış edir. Ona görə də modal sözlərlə ara sözləri eyniləşdirmək düzgün sayılmaz. Bu tədqiqatda da həmin dil vahidlərinin bəzi məqamlarda eyniləşdirilməsi müşahidə olunur.

2. Məncə, Türkiyə türkcəsi materialı əsasında aparılmış bu sanballı tədqiqata digər oğuz dillərinin də materialını cəlb etmək, müqayisələr aparmaq daha yaxşı nəticə verə bilərdi.

3. Azərbaycan dilinin sintaksisinə aid olan dərslik və monoqrafiyalarda ara sözlərlə birgə işlənən «ki»nin bağlayıcı olduğu göstərilir. Bu dissertasiyada da həmin fikir təkrarlanır. Bu fikrin ziddiyyətli olduğu aydın görünür.

4. Dissertasiyada bəzi orfoqrafiya və üslub xataları da

müşahidə olunur.

Bu kiçik qeydlərə baxmayaraq, Lalə Kamil qızı Bağırovanın «Müasir türk dilində ara sözlər və söz birləşmələri» mövzusunda yazmış olduğu namizədlik dissertasiyası Ali Attestasiya Komissiyasının qarşıya qoyduğu bütün tələblərə tam cavab verir və onun müəllifi filologiya elmləri namizədi alimlik dərəcəsi almağa tamamilə layiqdir.

2005-ci il

AZƏRBAYCANDA TƏHSİL ALAN TÜRKİYƏLİ TƏLƏBƏLƏRİN DİL PROBLEMLƏRİ

Azərbaycanın milli müstəqillik qazandığı ilk illərdən başlayaraq ölkənin ali məktəblərində-universitetlərində türkiyəli tələbələrin təhsil alması üçün geniş şərait yaranmışdır. Müşahidələr göstərir ki, gənc türkiyəlilərin qardaş ölkə universitetlərinə marağı ən azı aşağıdakı səbəblərlə bağlıdır:

hər şeydən əvvəl, hər hansı gənc türkiyəli, ümumiyyətlə, Türkiyə türkü üçün Azərbaycan dili – Azərbaycan türkcəsi 70-80% anlaşıqlıdır, ona görə də Azərbaycanda təhsil almaq, yaşamaq və işləmək ünsiyyət ehtiyacı baxımından ciddi problemlər, maneələr yaratmır;

ikincisi, Azərbaycan türk dünyasının tərkib hissəsi kimi hər bir türk, o sıradan da Türkiyə türkü üçün doğma, müqəddəs bir diyar, uzun illərin həsrətindən sonra can atılan, ümumtürk ünsiyyətinin çıxış nöqtəsi olan (xüsusilə Türkistana, Sibir türklərinə doğru) bir məkandır, tranzit ölkəsidir;

nəhayət üçüncüsü, Azərbaycanda kifayət qədər inkişaf etmiş təhsil sistemi, böyük təcrübəyə, elmi-pedaqoji imkanlara malik universitetlər, görkəmli mütəxəssislər vardır.

Bütün bu etnososial, intellektual amillər türkiyəli tələbələrin Azərbaycanda təhsil almasını şərtləndirdiyi kimi, həmin prosesin get-gedə daha geniş vüsət alacağına da əminlik yaradır. Ona görə də Azərbaycan universitetlərində oxuyan, müxtəlif elmlərin sirlərinə yiyələnməyə çalışan

türkiyəli gənclərin qarşılaşdığı müəyyən dil problemlərinin öyrənilməsi türkoloq-linqvistlərin maraq dairəsinə daxil olmaqda, ötən illərin təcrübəsi əsasında bir sıra dəyərli mülahizələr söylənilməkdə, müzakirələr aparılmaqdadır. Rasim Özyürəkin «Azərbaycanda təhsil alan türkiyəli tələbələrin dil problemləri» mövzusundakı doktorluq dissertasiyası bilavasitə həmin məsələyə həsr olunmuş, mövzunun müxtəlif aspektlərinin araşdırılmasına, həm linqvistik, həm sosiolinqvistik, həm də linqvometodik ümumiləşdirmələr aparılmasına cəhd edilmişdir. Bəri başdan deyək ki, bu qədər fərqli, hər biri öz-özlüyündə kifayət qədər mürəkkəb məsələlərin bir tədqiqat işində nəzərdən keçirilməsi elə də asan iş deyil. Ona görə də dissertant müəyyən çətinliklər qarşısında qalmış, bir problemdən digərinə, bir aspektdən başqasına keçməli olmuş, bəzən ciddi elmi əhəmiyyət daşıyan məsələlərin, yumşaq desək, sadəcə üzərindən keçmişdir ki, bu da kifayət qədər sanballı tədqiqat işinin keyfiyyətinə, heç şübhəsiz xələl gətirmişdir.

Əlbəttə, hiss olunur ki, dissertant uzun illər Türkiyədə təhsil alan türkdilli (o cümlədən Azərbaycandan gəlmiş) tələbələrin Türkiyə türkcəsini mənimsəmədəki problemlərini dərindən öyrənmiş, Azərbaycanda təhsil alan türkiyəli tələbələrin müvafiq problemləri ilə də ətraflı tanış olmuşdur. Lakin bu heç də o demək deyil ki, tədqiqatçı müşahidə etdiyi bütün məsələləri sadəcə təsvir etməklə, müqayisələr aparmaqla, son zaman eklektik səciyyə daşıyan bir mənzərə yaratmaqla kifayətlənməlidir. Fikrimizcə, hər aspekt, problem ətrafında daha çox mühüm ümumiləşdirmələr verməkdən, məlum faktları sadalamaqdan, ümumiləşdirməyə gəlməyən müxtəlif mülahizələrə geniş yer ayırmaqdan imtina etmək işin xeyrinə olardı.

Etiraf eləməliyik ki, dissertasiyanın giriş hissəsi (səhifə

1-dən 22-yə qədər) olduqca yüksək elmi səviyyədə, müasir dilçiliyin nəzəri düşüncəsi gücündə yazılmış, qloballaşan dünyanın dil-ünsiyyət mənzərəsi kontekstində Türkiyə türkcəsinin, ümumən türk dillərinin tarixi taleyi barədə olduqca dəyərli fikirlər söylənilmişdir. Müasir dövrün dil siyasətini, beynəlxalq ünsiyyətin sosial-siyasi problemlərini kifayət qədər peşəkarlıqla ümumiləşdirən dissertant belə bir düzgün mövqedən çıxış edir ki, «türk dünyasının mədəni-ideoloji baxımdan get-gedə bütövləşməsi, türk dillərinin bir-birinə yaxınlaşması, həmin dillər arasındakı əlaqələrin yeni bir mərhələyə daxil olması artıq günümüzün reallığına çevrilmişdir» (səh.3). Bu isə o deməkdir ki, Türkiyə türkcəsi ilə Azərbaycan türkcəsinin hər hansı universitet tələbəsinin ünsiyyət təcrübəsində (istər Azərbaycanda, istərsə də Türkiyədə) qarşılaşması təsadüfi, yaxud mexaniki linqvistik təmas olmayıb, davamlı, genetik üzvi vəhdət ifadə edən bir prosesdir. Yəni burada bir dilin sferasından çıxılaraq başqa bir dilin sferasına düşülmür; istər fonetik, istər leksik, istərsə də qrammatik səviyyədə ortaq (ümumi) olan əsasında fərqli (xüsusi) olanlar mənimsənilir. Və ortaq (ümumi) olanın kəmiyyətcə müqayisə edilməz üstünlüyünün ünsiyyətdə yaratdığı psixoloji rahatlıq fərqli (xüsusi) nitq hadisələrinin mənimsənilməsi üçün mühüm şərtdir.

Dissertant tədqiqatı boyu Azərbaycan türkcəsini Türkiyə türkcəsindən fərqləndirən nitq hadisələrini müəyyənləşdirməyə diqqət vermiş, dissertasiyanın 60-76-ci səhifələrində fonetik, 155-169-cu səhifələrində leksik-qrammatik (sifətlər əsasında) fərqlər nəzərdən keçirilmişdir. Lakin, çox təəssüf ki, iki dil arasında mövcud fərqlərin bütün əsas spektləri təsvir olunmamış, zəruri ümumiləşdirmələr aparılmamışdır.

Əsərin böyük bir hissəsi Azərbaycan dilinin fonetik, orfoqrafik, morfoloji, sintaktik, müəyyən dərəcədə isə leksik

quruluşunun təsvirinə həsr olunmuşdur. Belə görünə bilər ki, bu cür geniş təfsilata ehtiyac yox idi. Həmin məlumatlara Azərbaycan dilinin istənilən qrammatika dərsliyində rast gəlinir. Lakin nəzərə aldıqda ki, əsər türkiyəli bir tədqiqatçı tərəfindən yazılmış, Azərbaycan dilinin quruluşuna Türkiyə dilçilik ənənələri (və deməli, türkiyəli tələbənin dilçilik təfəkkürü) mövqeyindən yanaşılaraq münasibət bildirilmişdir, onda həmin təfərrüata haqq qazandırmaq mümkündür. Türkiyə dilçiliyinin istifadə etdiyi terminologiya ilə Azərbaycan dilçiliyi terminlərinin kifayət qədər ardıcıl şəkildə müqayisəsi, terminlərin əhatə dairəsinin müəyyənləşdirilməsinə cəhd olunması da dissertasiyanın uğurlu cəhətlərindən sayıla bilər. Biz artıq neçə illərdir ki, orta, yaxud türk xalqları üçün ümumi ünsiyyət vasitəsi olan bir dildən danışırıq, lakin ortaq və ya ümumi, türk dilçilik terminologiyasını yaratmaq işinə hələ başlamamışıq. Odur ki, dilçilik terminlərinin müxtəlif türk dilləri zəminində qarşılaşdırılması, müqayisəsi həmin sahədəki unifikasiya işinin ilk mərhələsi kimi diqqəti çəkməyə bilməz.

Dissertasiyada sosiolinqvistik məsələlərə, xüsusilə dil quruluşu, linqvometodiki problemlərə də geniş yer ayrılmışdır. İstər Türkiyə türkcəsinin, istərsə də Azərbaycan türkcəsinin tədrisi ilə bağlı olaraq Təhsil Nazirliyinin, universitetlərin, müəllimlərin və tələbələrin əsas vəzifələri ayrıca maddələrdə qeyd edilmiş, dissertant çoxillik təcrübəsinə, eləcə də mövcud təcrübələrə dayanaraq, həqiqətən, zəruri təkliflər vermişdir.

Əsərin sonundakı ədəbiyyat siyahısı göstərir ki, mövcud elmi-nəzəri materialdan tələb olunan həcmdə və keyfiyyətdə istifadə olunmuş, söylənmiş fikirlərlə müfəssəl polemikalar aparılmasa da, dilçiliyin müasir səviyyəsi müəllif mövqeyində əsasən öz əksini tapmışdır. Dissertasiya işinin elmi

əhəmiyyətini azaltmamaq, praktik dəyərini etiraf etməklə yanaşı yuxarıda yeri gəldikcə göstərdiyiniz çatışmazlıqlara aşağıdakıları da əlavə edirik:

1. Əsər Azərbaycanda təhsil alan türkiyəli tələbələrin dil probleminə həsr olunduğu halda Türkiyə türkcəsinin öyrənilməsi məsələsinə geniş yer ayrılması (44-cü səhifədən 53-cü səhifəyə qədər), fikrinizcə, artıqdır.

2. Əsərin adı eynilə dissertasiyanın bir paraqrafına da (səh. 248-252) verilmişdir. Və qeyd edək ki, həmin paraqraf bir növ yamaq xarakteri daşıyır.

3. Dissertasiya mətnində, yəni elmi kontekstdə verilmiş bədii nitq nümunələri (203-cü səhifədən 220-ci səhifəyə qədər) ya heç verilməməli, ya da dissertantın fikri bir-iki örnək əsasında əks etdirilməlidir.

4. Əsərdə nə qədər dəyərli mülahizələr irəli sürülsə də, kompozisiya-quruluş pərakəndəliyi bəzən həmin mülahizələri bütöv bir sistem halında dərk etməyə çətinlik yaradır.

5. Dissertasiya Azərbaycan dilində yazılsa da, bəzən Türkiyə dilçiyilində qərarlaşmış linqvistik terminlər işlədilir; məsələn, felin təsnifi əvəzinə fel çəkimi.

Bununla belə bir daha qeyd etmək istərdik ki, 376 səhifəlik doktorluq dissertasiyası ciddi tədqiqat işinin, böyük zəhmətin nəticəsidir. Və demək olar ki, öyrənilməmiş bir sahəyə həsr edilmişdir.

Göstərdiyimiz qüsurlarına baxmayaraq, «Azərbaycanda təhsil alan türkiyəli tələbələrin dil problemləri» mövzusundakı doktorluq dissertasiyası Ali Attestasiya Komissiyasının tələblərinə cavab verir. Və əsərin müəllifi Rasim Vəli oğlu Özyürək «türk dilləri» indeksi üzrə filologiya elmləri doktoru alimlik dərəcəsi almağa tamamilə layiqdir.

2005-ci il

ÇIXIŞLAR

DOKTOR CAVAD HEYƏTİN BAKIDA AMEA-da KEÇİRİLƏN 80 İLLİK YUBİLEY MƏRASİMİNDƏ ÇIXIŞI

Əziz dostum Cavad bəy!

Hörmətli yubiley iştirakçıları!

Dünya türklərinin fəxarət yeri, o taylı - bu taylı Azərbaycanın ağsaqqalı, müasirlərinin böyük qürurla «əsrimizin yaşayan Dədə Qorqudu» adlandırdığı korifey cərrah, qüdrətli naşir, alovlu vətənpərvər Doktor Cavad Heyətin yubiley mərasimində qarşınızda çıxış etməkdən çox məmnunam.

Bu böyük insan haqqında «Cavad Heyət varlığı» adlı sənədli telefilmin ssenari müəllifiyəm, bir sıra məqalələr, həmçinin «Cavad Heyət möcüzəsi» adlı kitab yazmışam. Bunu xatırlatmaqda məqsədim var. Yubileyə gələrkən bir daha həmin yazılara diqqət yetirdim, filmə baxdım. Etiraf edim ki, onun bir insan ömrünə sığmayacaq qədər böyük işlərinin qarşısında yenə də heyrətimi gizlədə bilmədim. Qənaətim isə belə oldu ki, bu böyük fikir adamı, bu ciddi şəxsiyyət, həkim, alim haqqında hələ bundan sonra da çox danışmalı, çox yazmalı olacağıq.

Çünki zəhmətlə istedadın vəhdətindən yoğurulan Cavad Heyət ömrü bir əlində qələm, bir əlində bıçaq xalqının, millətinin, bütövlükdə insanların mənəvi və fiziki sağlamlığı yolunda yorulmadan çalışan bir insanın ömrüdür. Bu ömür yüksək mənəvi amallar uğrunda mübarizə aparan, dahi sələflərinin ənənəsini ləyaqətlə davam etdirən, haqdan gələn

sözün qüdrəti ilə uzaq elləri, obaları yaxınlaşdıran, insanlar və ölkələr arasında mənəviyyat körpüsünə çevrilən, sözə elə sözün özünə layiq «Varlıq» kimi möhtəşəm abidə qoyan bir ömürdür.

Doktor Cavad Heyət şəxsiyyətinə hansı yöndən, hansı prizmadan yanaşsan, onun yaradıcılığını hansı aspektdən araşdırsan, insanlığa başucalığı gətirən əməllərlə qarşılaşarsan.

«Cərrahlıq həm elm, həm də sənətdir. Mən həmişə inandığım həqiqətləri həyata keçirmək istəmişəm» deyən Cavad Heyət cərrah bıçağı ilə Şərqdə ən unikal cərrahiyyə əməliyyatları aparıb, ürəyə toxunulmağa belə, cürət edilmədiyi vaxtlarda ürəkdə açıq əməliyyat edib, ölümlə çarpışan insanlara ikinci həyat bəxş edib. Doktor Cavad Heyət İranda eksperimental cərrahiyyənin təməlini qoyub, ilk dəfə ürək qapaqlarını dəyişdirib. Tehranda ilk böyrəkköçürmə əməliyyatları da məhz onun adıyla bağlıdır. Və bu uğurları münasibətilə onu dünyanın ən məşhur cərrahları təbrik ediblər.

Doktor Cavad Heyət nəzəriyyə ilə praktikam uğurla birləşdirən, onun sintezinə nail olan bir təbibdir. Tibbə aid çoxlu sayda sanballı kitabın, cərrahiyyəyə aid dərsliklərin müəllifi, 12 il «Tibb elmi» dərgisinin naşiri olan korifey cərrah həm də öz elmini, öz biliyini əsirgəmədən tələbələrinə öyrədir. Nə yaxşı ki, o, Azərbaycan universitetlərində də bu işi görür, belə deyək, öz beynini tələbələrimizin beyninə, yaddaşına köçürür. Bu, o deməkdir ki, yeni Cavad Heyətlər yetişir.

Doktor Cavad Heyətin elmi fəaliyyəti təkcə təbabətlə məhdudlaşmır. O, həm də böyük tarixçi alim, filoloq, türkoloqdur. Ömrünün önəmli bir hissəsini Türk-Azərbaycan tarixinin, dil və ədəbiyyatının tədqiqinə həsr edib, elmi

türkoloji araşdırmalarla məşğul olub, sənəti, ədəbiyyatı, dilçiliyi, tarixi də bir həkim kimi tədqiq edib, araşdırıb və özü demişkən, bunun da xeyrini görüb.

O, böyük tarixçi, türkoloq alimdir. Universal biliyə malik bu insan klassik türkologiyanın tarixi və nəzəri problemləri, xüsusən Azərbaycan dili və ədəbiyyatının keçmişi, indisi barədə üç yüzə qədər məqalənin, elmi əsərin müəllifidir. Bu qiymətli əsərlər müxtəlif illərdə İran, Türkiyə, Azərbaycan, Avropa ölkələri və Amerikada yayılıb. Doktor Cavad Heyətin türkologiyaya aid kitablarını məxsusi qeyd etmək istəyirəm: iki cilddə «Azərbaycan ədəbiyyatı tarixinə bir baxış», «Azərbaycan şifahi xalq ədəbiyyatı», «Türklərin tarix və ədəbiyyatına bir baxış», «Ədəbiyyatşünaslıq», «İki dilin müqayisəsi», «Türk dili və ləhcələrinin tarixi», «Qərb fəlsəfəsi tarixi». Doktor Cavad Heyətin məhz «türkologiya doktoru» kimi yazdığı bu əsərlərin hər biri ayrı-ayrılıqda Azərbaycan ədəbiyyatının, ana dilinin tədqiqinə, araşdırılmasına həsr olunan, böyük əhəmiyyət kəsb edən əsərlərdir. Cavad Heyət, həmçinin dostu və həmkarı, rəhmətlik Həmid Nitqiylə birlikdə İranda elmi türkologiyanın əsasını qoyub.

Cavad Heyətin ən böyük xidmətlərindən biri də onun «Varlığ»ıdır. İranda ana dilində ilk mətbu orqanı olan, xalq yazıçısı Elçinin dediyi kimi, «ilk nömrəsi tutiya kimi əldən-ələ gəzən», varlığımızın aynasına, mövcudluğumuzun güzgüsünə çevrilən, Azərbaycan-türk dili, ədəbiyyatı, tarixi və folklorunu yayan «Varlıq» nə az, nə çox, düz 26 ildir ki, bizimlə yol gəlir. Biz indi Cavad Heyəti təkcə 80 illik yubileyi münasibətilə deyil, həm də təməlini, bünövrəsini qoyduğu bu jurnalın 26 illiyi münasibətilə təbrik edirik. Cavad Heyət gözünün nurunu, zəkasını, işığını, ömrünü, həm də bu jurnalın səhifələrində şam kimi əridib, onun üstündə əsim-əsim əsib və

onu bütöv türk aləminə bəxş edib. «Varlıq» da öz naşirinə borclu qalmayıb. Onu əbədilik öz səhifələrinə həkk edib. Cavad Heyət «Varlıq» dərgisi ilə türk mənəvi birliyinə qapı açıb, milli fikrin formalaşması, ədəbi dilin yayılmasında öz sözünü deyib.

«Varlıq» bu gün də hər sayında öz oxucularını elmin, ədəbiyyatın, folklorun seçmə nümunələri ilə tanış edir, dilimizi təbliğ edir. Burada çap olunan silsilə məqalələr dilimizin tarixini, qrammatikasını, ədəbiyyat tariximizi, folklorumuzu əks etdirir, ədəbi dilimizin aydınlığını və şəffaflığını göstərir, onun nə qədər təbii olduğunu hər sayında bir sənəd kimi ortaya qoyur.

Xalqın varlığını, onun haqq səsini, mənəvi istəklərini ifadə edən, mənəvi yaralarına məlhəm qoyan, ona keçmişini, bu gününü anladan, sabahının yolunu göstərən nüfuzlu bir söz kürsüsü olan «Varlığ»ın səhifələrində Cavad Heyət Azərbaycanın tarixi, ədəbiyyatı, dili və folklorunun öyrənilməsinə aid silsilə məqalələri ilə bir akademiyanın görə biləcəyi işi görüb və biz Azərbaycan ziyalıları bu əvəzsiz mənəvi sərvətlərə görə böyük ustad Cavad Heyətə və «Varlıq» dərgisinin müəlliflər heyətinə son dərəcə minnətdarıq.

Hörmətli yubiley iştirakçıları!

Bu gün Doktor Cavad Heyət Azərbaycanımızda ən çox sevilən, ən çox yolu gözlənilən qonaqdır. Xalqımızın ulu öndəri, ümummilli liderimiz Heydər Əliyev də Cavad Heyət şəxsiyyətinə, Cavad Heyət elminə, Cavad Heyət vətənpərvərliyinə yüksək dəyər verirdi, ona böyük hörmətlə yanaşırdı. Bənzərsiz liderimiz hələ 1994-cü ildə Doktor Cavad Heyəti Bakıda qəbul edərkən xeyirxahlığına, Vətən üçün əhəmiyyətli işlərinə və İranla Azərbaycan arasında dostluq körpüsü yaratdığına görə ona minnətdarlıq etmişdi. Və biz bu

gün də Azərbaycanda Doktor Cavad Heyətə olan həmin isti, doğma münasibətin şahidiyik. Elə təkcə bu təntənəli yubiley mərasimi bu hörmətdən soraq verir.

Fikrimi belə yekunlaşdırmaq istəyirəm: əgər Cavad Heyət təkcə cərrah, həkim, təbib kimi fəaliyyət göstərsəydi, yenə sənətin zirvəsində dayanacaqdı, təkcə türkologiya ilə məşğul olsaydı, yenə tarixdə ən məşhur türkoloq alim kimi qalacaqdı, təkcə «Varlığ»ın naşiri olsaydı, yenə də Azərbaycanın ən sevimli övladlarından biri olaraq tanınacaqdı. Çünki o hər sahədə öz sözünü böyük məharətlə, ustalıqla, peşəkarlıqla deyib.

Bəli, Cavad Heyət İranda yaşayan otuz milyon azərbaycanlının ən görkəmli ziyalısıdır, millətimizin iftixarıdır. Cavad Heyət 50 milyonluq azərbaycanlının ürəyinə ruh verir, Cavad Heyətin istisinə bütün türk dünyası qızınır.

Türkiyəli dostumuz Namik Kamal Zeybəyin Doktor Cavad Heyət haqqında dediklərini xatırlayıram: «İran Cavad Heyətə «Bizdəndir» deyirsə, haqlıdır. Cavad Heyət onlardandır. Azərilər «Cavad Heyət bizdəndir» deyirlərsə, haqlarıdır. Zira Cavad Heyət azəridir. Türkiyə olaraq «Cavad Heyət bizdəndir» deyirik. İranı və Azərbaycanı yalançı çıxarmırıq, amma biz də doğrunu söyləyirik.»

Bu fikrə bir əlavəm var: Cavad Heyət bütün dünyanın, bütöv bəşəriyyətindir. Cavad Heyət ömrü yalnız bir xalqa, bir millətə deyil, bəşəriyyətə məxsusdur.

Mən nəfəs dərmədən öz 80 illik yubileyinə böyük nailiyyətləri ilə gəlib çatan Doktor Cavad Heyəti ürəkdən təbrik edir, «Yüz yaşa, ustad!» deyirəm.

Diqqətinizə görə minnətdaram.

20 may 2005-ci il

« Varlıq» jurnalı,
2005, səh.132

ƏZİZ MÜƏLLİMİMİZ

Ardıcıl və fasiləsiz başçılıq etdiyiniz, şəxsi səy və iştirakınızla təşkil olunmuş 190 №-li məktəbin və bu məktəbdə direktor işləməyinizin yarıməsrlik yubileyi qeyd olunduğu bu günlərdə sizi səmimi qəlbdən təbrik etmək bizim pedaqoji kollektiv üçün olduqca xoşdur.

Uzun və keşməkeşli tarixi mübarizədən sonra müstəqillik qazanan, öz milli dəyərləri üzərində əsaslı təhsil sistemi yaratmaq yolunda bir sıra problemlərlə qarşılaşan Azərbaycanın indiki çətin çağında müəllim əməyinə diqqət və qayğı təsadüfi deyil: əsl milli sərvətimiz, gələcəyimiz olan gənc nəsil, məhz məktəb partası arxasında ilk həyat məktəbi keçir. Onu doğma Vətənə, xalqa xidmət ruhunda tərbiyə etmək, qədəm basdığımız yeni şəraitdən baş çıxarmaq bacarığı ilə silahlandırmaq sizin və bizim – ömrümüzü həsr etdiyimiz peşə sahiblərinin sənət borcu, amalıdır.

Əziz Sona xanım! Başçılıq etdiyiniz pedaqoji kollektivin zəngin iş təcrübəsi nəinki Bakı və bütün Azərbaycanda, habelə Avropa, Amerika, Asiya və Afrikanın bir çox ölkələrində həmkarlarımıza məlumdur, örnəkdir.

Əminik ki, mədəniyyətə, mənəvi dəyərlərə yenidən qiymət verildiyi indiki şəraitdə sizin pedaqoq, rəhbər işçi, səmimi, eyni zamanda tələbkar yoldaş obrazınız mədəniyyət tariximizin parlaq səhifələrindən biri kimi təravətini həmişə saxlayacaq.

Müəllim əməyi çətin olduğu qədər də şərəflidir. Bu humanist xidmət meydanında sizə, başçılıq etdiyiniz məktəbə, onun istedadlı pedaqoji kollektivinə Vətənimizin müstəqil inkişafı yolunda böyük uğurlar diləyirik!

«Sona xanım» kitabı.
«Təhsil» nəşriyyatı,
Bakı, 2005, səh. 52

BİRİNCİ, İKİNCİ, ÜÇÜNCÜ ÇAĞIRIŞ AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN İCLASLARINDAN BƏZİ ÇIXIŞLAR*

Hörmətli sədr, hörmətli Milli Məclisin deputatları!

Doğrudan da keçənilki komissiyalarla müqayisə edəndə həm sayına, həm də adına görə builki komissiyaların ilkin layihəsi daha təkmil və daha münasibdir. Lakin burada yazılır ki, «daimi komissiyalar». Hər birinin qarşısında bir «daimi komissiya» sözü qeyd olunmuşdur. Əvvəla, birinci cümlədə qeyd olunan «daimi» sözü kifayətdir ki, o birilərə də aid olsun. Sonradan hansı müvəqqəti komissiyalar yaradılacaqsa, onlara «müvəqqəti» sözünü əlavə etmək olar. Bu, dünya parlamentariya təcrübəsində də belədir. «Daimi» sözü hər dəfə təkrar edilmir. Ikinci, diqqətinizi bu «siyasət» sözünə yönəltmək istəyirəm. Yenə də dünya parlamentariya təcrübəsində «siyasət» sözü ancaq xarici siyasət birləşməsinə əlavə edilir. Burada yazılıb «hüquq siyasəti», «iqtisadi siyasət», «aqrar siyasət». Mən təklif edərdim ki, bunun adı konkret olaraq hüquq komissiyası, yaxud da iqtisadiyyat komissiyası, aqrar komissiyası kimi yazılsın. «Siyasət» sözü hamısında artıqdır və məzmunu əhatə etmir.

İkinci bir təklifim ondan ibarətdir ki, hökmən təhsil və elm üçün ayrıca bir komissiya yaradılmalıdır. Bizim Təhsil qanunumuz işlənib, lakin hələ mükəmməl deyil. Onun üstündə

---

* Çıxışlar MM-in iclaslarının protokol və stenoqramlarının cildlərindən götürülmüşdür. MM-in nəşri. 1995-2000, 2000-2005, 2005-2006.

yenidən təkmilləşmə işləri aparılacaq. Onun üçün də dünya təcrübəsində hətta təhsilə ayrıca komissiya ayrılır. İndi bizdə isə mümkün deyilsə, təhsil və elm ayrıca olsun, mədəniyyətin içərisində isə estetik, əxlaqi, siyasi baxışlar – bunlar bir komissiyada mərkəzləşə bilər.

Sonra, keçən dəfə burada ciddi düzəlişlər aparılıbdır. Birinde siyasət, birində əlaqə, birində məsələ yazılırdı. Onun üçün də indiki dəyişiklikdə məsələ, keçən dəfə büdcəyə nəzarət, indi hansındasa yenə nəzarət termini işlənir. Bu komissiyaların ümumi bir məqsədidir nəzarət. Bu terminin özünə ehtiyac yoxdur. Burada büdcəni xüsusi qeyd eləmək lazımdır. Mən təklif edərdim ki, buna: «Bank, büdcə və maliyyə komissiyası»-belə bir ad qoyulsun.

Sonra, yenə də dünya təcrübəsində var, bizim ölkəmizdə də buna ehtiyac var. Nəqliyyat və mülki aviasiya təcrübəsi. Aviasiyanın bu son dövrlərdəki nəticələri də göz qabağındadır. Onlar diqqətdən kənarda qalıbdır.

Sonra, idman və turizm. Yaxud da gənclik, idman və turizm. Belə bir komissiyaya ehtiyac ola bilər.

Bir təklifim də ondan ibarətdir ki, gömrük məsələləri burada unudulubdur. Ölkənin indiki vəziyyətində gömrüklə əlaqədar ayrıca bir komissiya yaradılması məqsədəmüvafiq olardı. Diqqətinizə görə təşəkkür edirəm.

12 dekabr 1995-ci il

Hörmətli sədr, hörmətli Milli Məclisin deputatları!

1991-ci ildə qəbul edilmiş Nizamnamə burada mənim əlimdədir və bu qərar layihəsi, iki-üç səhifədən ibarət primitiv bir materialdır. Bu gün qəbul etdiyimiz Nizamnamə ilə müqayisədə yerlə göy qədər fərq var. Doğrudan da, Nizamnamə çox aydın mövqedən işlənmişdir və burada bir

neçə sual müstəsna olmaqla, bütün suallara müvafiq cavab verilibdir. Ancaq nədənsə bizim Milli Məclisin, Səfa müəllim qeyd elədi, dilçiləri burada o qədər kobud orfoqrafiya, üslub və durğu işarələri səhvlərinə yol veriblər ki – mən bunu düzəltmişəm və təqdim edəcəyəm katibliyə, – ancaq elə səhvlər var ki, məsələn, mən bunların bir neçəsini deməliyəm ki, heç olmasa layihə hazırlananda, – bu dövlət sənədidir, – elə məsələlərə bir az fikir versinlər. Məsələn, təsəvvür eləyin ki, 21-ci maddədə üçüncü abzasda 9 dəfə «üçün» sözü işlənib. Bunun 8-ni silib birini saxlamaq kifayət edər. Sonra, 60-cı maddənin ikinci abzasının sonunda bir söz var. Hansı dildən götürüblər mən bunu bir dilçi kimi qətiyyən başa düşə bilmirəm. Yazılır ki, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi təklif edilən dəyişiklikləri Azərbaycan Respublikası Konstitusiyasının ruhuna və hərfinə zidd hesab edir. Bu nə sözdür, «ruh» nədir?

Bir də ki, mən bu səhvləri ümumiləşdirəndə belə qənaətə gəlirəm ki, bunu hazırlayanlar, Türkiyədəki parlament təcrübəsindən istifadə edirlər. Oradakı bir çox sözü elə kalka eləyirlər Azərbaycan dilinə. O, Türkiyə türkcəsidir, bu Azərbaycan türkcəsidir. Bunları çevirəndə bir az fikirləşməyə çox ciddi ehtiyac duyulur.

Buna da diqqət eləyin. Yazılır ki, Milli Məclisin təhlükəsizliyini təmin etmək məqsədi ilə Milli Məclisin sədrinin qərarı ilə Milli Məclisin sessiyalarının iclasları başqa yerdə keçirilir. Əvvəla, Türkiyə türkcəsində hər adam da qərar verə bilər. Onlarda qərar sözü başqa mənada işlənir. Bizdə isə qərar – «postanovleniye» sözü, – bunu bir iclasda çıxardarlar, bir qurum çıxardar, bir adam qərar çıxarmaz. Azərbaycan türkcəsində yazmaq lazımdır ki, razılığı ilə, icazəsi ilə, göstərişi ilə, əmri ilə, yaxud sərəncamı ilə. Sonra, 8-ci maddədə yazılır ki, bu qərardırsa, qərar mübahisə

açmamalıdır. Qərar hökm verməlidir, çünki bu, qərardır. Yazılır ki, deputatın statusu Daxili Nizamnamə ilə, Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında qanunvericiliklə və digər qanunlarla müəyyən edilir. «Digər qanunlar» çox mücərrəd sözdür. Bu Nizamnamə termini deyil. «Digər qanunlar» anlayışı buna uyğun gəlməyə bilər. Buradakı uyğunsuzluq və müəyyən abzaslardakı təkrarlar bütün mətn boyu olduğu üçün mən onlarda müəyyən düzəlişlər etmişəm və onu təqdim eləyirəm.

Burada məni narahat eləyən bir məsələni diqqətinizə çatdırmaq istəyirəm. 50-ci maddədə yazılır ki, 10 deputatdan çox üzvü olan daimi komissiya yarımkomissiya, yəni yardımçı komissiya yarada bilər. Deməli, bunu kim yarada bilər? Milli Məclis yox, daimi komissiyanın özü öz içərisindən bir komissiya yarada bilər. Bu olar yardımçı komissiya. 15-ci maddədə isə yazılır ki, Milli Məclis konkret məsələlərə baxılması üçün müəyyən edilmiş müddət ərzində fəaliyyət göstərən müvəqqəti komissiyalar yarada bilər. Bunu Milli Məclis yarada bilər, bu birisini isə daimi komissiyanın özü yarada bilər. Birincisi, komissiyanın öz içərisindən komissiya yaratması düzgün deyil, bu ancaq Milli Məclisin qərarı ilə yaradıla bilər. İkinci bir tərəfdən, əgər o biri maddələrdə var ki, Milli Məclisin bütün üzvləri, 125 nəfərin hamısı komissiyalara düşüblərsə, təzə bir müvəqqəti komissiyanın tərkibinə kimlər daxil olacaq?

Burada İntizam komissiyasına çox ciddi ehtiyac var. Sivil dövlətlərin hamısının konstitusiyalarında bu var. Yaponiya kimi dövlətdə 16-cı komissiya İntizam komissiyasıdır. Onu düzgün olaraq müəyyənləşdirmisiniz. Buna o dövlətlərdə ehtiyac olanda bizdə dünəndən ehtiyac var. O tamamilə düzgündür.

Komissiyaların tərkibinə gələndə, əgər daimi komissiya

özü öz tərkibində komissiya yarada bilərsə, bu yenə Milli Məclisin göstərişi, qərarı ilə olmalıdır.

1 milyondan artıq qaçqını olan bir Ölkənin qaçqınlarla iş üzrə komissiyasının olmamasını mən düzgün hesab edə bilmirəm. Bu, ya müvəqqəti, ya da yarımkomissiya şəklində olmalıdır. Düzdür, qaçqınlıq daimi deyil. Ancaq hər halda belə bir komissiyaya ciddi ehtiyac var. İkincisi, xaricdə yaşayan soydaşlarla əlaqə cəmiyyəti. Buna da çox ciddi ehtiyac var. Xaricdə nə əməlli-başlı Azərbaycan diasporası, nə də Azərbaycan lobbisi var. Ermənilərin isə belə qurumları bütün inkişaf etmiş Amerikada, İngiltərədə, Fransada var. Ona görə təklif edirəm, bu ya müvəqqəti komissiya, ya yarımkomissiya, ya da yardımçı komissiya şəklində Milli Məclisin qərarı ilə bu komissiyaların heç olmasa tərkibində yaradılsın.

15 dekabr 1995-ci il

Hörmətli deputatlar! Mən keçən dəfə də bunu təklif eləmişdim. Siz özünüz də elm adamısınız və təhsilin qədir-qiymətini çox gözəl bilirsiniz. Təhsil qanunu qəbul edilib, düzdür, ancaq bütün nöqsanları ilə birlikdə qəbul olunubdur. O Təhsil qanunu yenidən işlənməlidir, müasir tələblərə qətiyyən cavab vermir və bu qanunu da işləyib hazırlamaq kiçik məsələ deyil. Ona görə ki, təhsil xalqın gələcəyidir, onun gələcək taleyidir. Mədəniyyətlə təhsilin, elmin bu komissiyada, birlikdə olmağı – bax mən yenə də deyirəm, burada ikinci dəfədir deyirəm, – dünya parlamentlərinin təcrübəsi var, heç yerdə bu üç komissiya bir yerdə deyil, hətta təhsil ayrıcadır. Elm və tədqiqatlar ayrıcadır, mədəniyyət çox böyük bir məsələdir, böyük bir sahəni əhatə edir. Onun üçün də mədəniyyət tamamilə müstəsna, incəsənət, kino və s.

sahələr bir yerdə qalmalıdır. Təhsilin problemləri təkcə ondan ibarət deyil. Ölkəmizdə bu saat özəl məktəblərin sayı yüzü ötüb keçibdir. Təhsil işi ilə, ölkənin, xalqın övladlarının gələcəyi ilə bu komissiya, doğrudan da ciddi şəkildə məşğul olmalıdır. Elmi işçilərin, təhsil işçilərinin statusu indiyə qədər müəyyənləşdirilməyibdir və təklif edirəm ki, hökmən təhsil, elm ayrı komissiya olsun. Bu bizə ancaq xeyir verər. Bir də, keçən dəfə də on bir komissiya var idi, qoy bu dəfə də on bir komissiya olsun.

19 dekabr 1995-ci il

Hörmətli Milli Məclis deputatları! 10 gündən artıqdır ki, biz büdcə layihəsini müzakirə edirik və deputatlarımız, doğrudan da, çox fəallıqla iştirak edirlər, çıxış edirlər, faydalı təkliflər irəli sürürlər. Mən keçən dəfəki sualımda və çıxışımda da dedim, büdcə, əslinə baxsan, bütün dövlətlərdə belədir. Bu, noyabr-dekabr aylarında hazırlanıb, qurtarmalı idi və həyata keçirilməli idi. Çox təəssüf ki, bizim Nazirlər Kabineti həmin işi yubada-yubada gətirib çıxarıbdır bu günə. Artıq bir aydan sonra kvartal başa çatır, biz hələ büdcəni müzakirə eləyirik və hələ burada təkliflər də olur ki, bunu mart ayının 31-dək davam etdirək. Mənim konkret olaraq bir təklifim ondan ibarətdir ki, Maliyyə Nazirliyi bu planlaşdırmanı apararkən, büdcəni müəyyənləşdirərkən bir çox hədləri elə əvvəldən, sovet dövründə necə qurulubdur, indi də eyni şəkildə davam etdirir. Məsələn, Mədəniyyət Nazirliyinə, Təhsil Nazirliyinə və bir çox başqa nazirliklərə ayrılan büdcə ancaq müəyyən maddələrə əsaslanır. Filan bəndə əsasən bu pulu xərcləmək olar, filan bəndə əsasən bu pulu xərcləmək olmaz. Beləliklə, məlum olur ki, ayrılmış pul həddinin bir hissəsini xərcləmək mümkün deyil, çünki

Maliyyə Nazirliyi icazə vermir. Bax, buradan da belə bir məntiqi nəticə çıxarmaq olur ki, onda daha o biri nazirliklərin heç birinə ehtiyac yoxdur. Elə bir Maliyyə Nazirliyi kifayət eləyər ki, o biri nazirliklərin funksiyalarını da həyata keçirsin. Yaxşı olardı ki, ayrılmış büdcə nazirlik tərəfindən özü bildiyi şəkildə, sərbəst formada, – tikintiyəmi xərcləyək, hansı bir sahəyə xərcləyəcəksə, xərcləməsi üçün imkan yaradılsın.

İkinci bir tərəfdən, burada onu qeyd elədilər ki, bu proqnozların bir çoxu havadan götürülüb, heç nəticəsi də düzgün çıxmır, rəqəmlərlə göstərilir: filan qədər milyard pul ayrılsın, filan qədər milyard filan sahəyə ayrılsın. Bir çox sivil ölkələrdə bu, faizlə hesablanır, yəni büdcənin neçə faizi təhsilə ayrılsın, neçə faizi səhiyyəyə ayrılsın. Bu, faiz nisbəti ilə götürülərsə, onda burada ayrı bir məntiqi nəticə meydana çıxar. Faiz nisbəti olanda həmin nazirliklərə sərbəstlik verilə bilər.

Bir də burada bizim birliklər var. Yazıçılar Birliyi, Bəstəkarlar Birliyi. Bunların maliyyələşdirilməsi üçün, düzdür, büdcədən pul ayrılıbdır, ancaq o elə bunların məvacibini görər. Hər bir ölkənin inkişafı onun mədəniyyəti ilə, yazıçısı ilə, bəstəkarı ilə ölçülür. Xaricdə onlar bizi tanıdır, onlar daha çox respublikanın təmsilçiləridirlər. Təəssüf ki, büdcədən onlar üçün də çox az pul ayrılmış və xüsusilə mədəniyyətimizin carçısı olan «Azərbaycan», «Ulduz» jurnallarının, «Ədəbiyyat» qəzetinin dövlət tərəfindən maliyyələşdirilməsi büdcədə nəzərdə tutulmayıbdır və onun üçün də, Maliyyə naziri buradadır, demək istəyirəm ki, sivil mədəniyyətini düşünən bir ölkədə bunlar hökmən nəzərə alınır və bizdə də büdcə layihə şəklindədir. Bu, nəzərə alınmalıdır.

Bir məsələyə ciddi toxunmaq istəyirəm. Mən Naxçıvan Muxtar Respublikasından Milli Məclisə seçilmiş deputatlarındanam. Yəqin ki, bizim deputatlar və

respublikanın zəhmətkeşləri Naxçıvanın blokada şəraitində olduğunu bilirlər. Naxçıvanda əhalinin vəziyyəti çox çətindir. Blokada şəraitində olan Naxçıvana ancaq təyyarə ilə gediş-gəliş mümkündür, müəyyən zəruri mallar İran ərazisindən avtomobillərlə daşınır. Elektrik enerjisi qıtdır, həddindən artıq qıtdır, yanacaq çatışmır. Belə bir vəziyyətdə, mən büdcəyə diqqət yetirirəm, Naxçıvanın büdcəsi artırılmaq əvəzinə daha da azaldılıbdır. Keçən il təxminən 32 milyard nəzərdə tutulmuşdu, bu il endirilib 29,8 milyarda. Subsidiya da azaldılıbdır, 21 milyard proqnozlaşdırılıbdır. Blokada şəraitində yaşayan Naxçıvanın vəziyyətini nisbətən normal hala olmasa da, müəyyən həddə gətirmək olardı. Naxçıvanda Arpaçay su dəryaçasının, Vayxır su dəryaçasının, Ordubadda su-elektrik stansiyasının tikilməsi neçə il bundan qabaq nəzərdə tutulduğuna baxmayaraq, onlar unudulub və onlara büdcədən, ya da əsaslı tikinti üçün vəsaitdən pay ayrılmayıbdır. Mən xahiş edirəm ki, layihə şəklində olan və düzəliş aparılan zaman büdcədə bunlar ciddi şəkildə nəzərə alınsın.

1 mart 1996-cı il

Hörmətli Milli Məclisin deputatları! Əvvəlcə, icazə verin Insan hüquqları komissiyasının məhsuldar işini bir deputat kimi qeyd eləyim. Səfyar müəllim bununla 3-cü qanundur ki, Milli Məclisin müzakirəsinə çıxarır və müzakirə olunub yüksək səviyyədə qəbul olunur. Buna görə öz təşəkkürümü bildirirəm. Bir neçə təklifim var. Birinci, mən bu gün bir dilçi kimi bəzi mülahizələrimi bölüşmək istəyirəm. Əvvəla, «repressiya» sözü aydındır, bu termin beynəlxalq termin kimi qəbul olunubdur. Ancaq bu sözün mahiyyəti çoxları üçün aydın deyil. Bu söz latınca «represiyo» sözündən

olub, mənası «əzilmə», «təzyiq göstərilmə» deməkdir. Bu qanunda aydınlıq yaratmaq üçün mən heç olmasa əvvəlcə «repressiya» sözü işlədəndə mənasının mötərizədə göstərilməsini təklif eləyirəm. Qoy fikir aydınlaşsın, yəni siyasi əzilmə, siyasi təzyiq göstərilmə – bu məzmunu ifadə eləyir. Bu heç olmasa bir yerdə göstərilərsə, fikir aydınlığına səbəb ola bilər.

Sonra, bizim hüquqşünaslar, bu qanunu hazırlayanlar birdəfəlik belə bir formanı qəbul eləsinlər. Azərbaycan Respublikası Qanunu yox, Azərbaycan Respublikasının Qanunu. Respublikası Qanunu olmaz. İkinci, 1-ci cümlədə preambulada yazılıb: «Başqa cür düşündüyünə görə repressiyalara məruz qalmışdır». Ümumiyyətlə, bizim qanunlarda «başqa cür», «başqa» sözü çox işlənir. Bu, qanun sözünə oxşamır. Ona görə də təklif eləyirəm yazılsın başqa cür düşündüyünə görə yox, «düşüncə tərzinə görə repressiyalara məruz qalmışdır».

Sonra, burada yazılır ki, «bu qanunun məqsədi». Əvvəla, qanun elə məqsəddir. Qanunun məqsədi ola bilməz. Aşağıda yazılır ki, «hüquqi zəmin yaratmaqdan ibarətdir» – məqsədin məqsədi hüquqi zəmin yaratmaqdan ibarətdir. Biz bilirik ki, bu, qanundursa və bunun da öz hüquqi əsası olmalıdır. Ona görə burada və bundan sonrakı qanunlarda təklif eləyirəm ki, belə yazılsın: «Bu qanun», «məqsədi» sözü çıxarılsın, qalan bütün ifadələr yazılsın, axırda da yazılsın ki, «özbaşınalığın nəticələrinin aradan qaldırılması üçün hüquqi əsaslar müəyyən edir». Ta yazılmasın ki, «hüquqi zəmin yaratmaqdan ibarətdir». Bu, qanun cümləsi deyil.

15 mart 1996-cı il

Hörmətli sədr, hörmətli Milli Məclisin deputatları!

Hamınıza məlumdur ki, Azərbaycan xalqı uzun əsrlər boyu öz azadlığı və suverenliyi uğrunda mübarizə aparıb. Nəhayət, 1918-ci ildə bu mübarizə öz nəticəsini verdi və Azərbaycan Demokratik Cümhuriyyəti yaradıldı. Lakin bu cümhuriyyətin ömrü çox uzun sürmədi, 2 ildən də az bir müddətdə fəaliyyət göstərə bildi. Keçən müddət ərzində isə suverenlik, azadlıq arzusu və istəyi həmişə xalqın ürəyində yaşayırdı. Nəhayət, 1991-ci ildə SSRİ adlanan bu nəhəng imperiyanın dayaqları sarsıldı və Azərbaycan xalqı tarixdə ikinci dəfə öz müstəqilliyinə qovuşa bildi. İndi bizə məlum olur ki, mart ayının 15-də Rusiya Federasiyasının Dövlət Duması Belovejsk müqaviləsinin ləğv olunması haqqında qərar qəbul edib. Mən Dumanın bu qərarını müstəqil dövlətlərə qarşı xəyanət və qeyri-qanuni bir akt kimi qiymətləndirirəm.

Respublikamızda iqtidarın da, müxalifətin də bu barədə fikirləri eynidir, birmənalıdır. Azərbaycan xalqı heç vaxt öz müstəqilliyini əldən verməyəcəkdir. Ancaq burada bəzi fikirlər səsləndi, mən onun əleyhinəyəm, nə mənada? Sovet hakimiyyəti illərində Azərbaycan xalqı 70 il fəaliyyət göstərib. Bu 70 ilin müəyyən nailiyyətlərindən danışıldı, bu bir tarixdir. Bu, Azərbaycan xalqının 70 illik tarixidir. Bunun SSRİ-yə dəxli oldu, olmadı, bu, xalqın tarixidir və bu dövrdə bizim nailiyyətlərimiz olub. Heç SSRİ olmasaydı da 70 ildə bizim nailiyyətlərimiz olmalıydı və doğrudan da, orada göstərildiyi kimi, elm sahəsində və s. sahələrdə müxtəlif nailiyyətlərimiz olub və mən bunun qəti əleyhinəyəm ki, SSRİ dövrü olduğuna görə bu nailiyyətlərimizin hamısının üstündən xətt çəkək. Bu, xalqın tarixidir, özü də 72 illik bir tarixidir. Və bu gün biz burada bu məsələni müzakirə eləyirik, hərə öz fikrini deyir. Doğrudan da, tarix göstərdi ki, bizim hörmətli Prezidentimiz, dünya miqyaslı siyasi xadim Heydər Əliyev cənabları hələ 1991-ci ildə bu referenduma qarşı ciddi

müqavimət göstərmiş və yazmışdır: «Mən yeni ittifaqa daxil olmağın və bunun üçün referendum keçirməyin heç bir şərt qoymadan əleyhinəyəm». Bu, təxminən 5 il bundan qabaq deyilmiş sözlərdir. Ye biz bu gün də həmin fikri və bu layihəni tamamilə dəstəkləyirik və bəyənirik. Bir daha demək istəyirəm ki, Azərbaycan xalqı heç vaxt öz müstəqilliyini əldən verməyəcəkdir. Diqqətinizə görə təşəkkür edirəm.

19 mart 1996-cı il

Hörmətli sədr, hörmətli Milli Məclisin deputatları!

Mən çox xahiş edirəm, bir mütəxəssis kimi deyirəm. Əvvəla, bizim burada hamımızın istifadə elədiyimiz dil müasir Azərbaycan ədəbi dilidir. Bu ədəbi dilin öz qanunauyğunluqları vardır. Bizim dilimiz dünyanın ən inkişaf etmiş dillərindəndir. Dünya klassiklərinin əsərləri bizim dilimizə sərbəst tərcümə oluna bilir. Bu qanunlar Azərbaycan dilində yox, müasir Azərbaycan ədəbi dilində yazılıb. Ədəbi dilin üslubları vardır. O üslublar bədii üslubdur, elmi üslubdur, ictimai-publisistik üslubdur. Bu gün bizim hazırladığımız qanunların üslubu isə rəsmi sənədlər üslubudur. Bunun adı belədir: rəsmi sənədlər üslubu. Bu da müasir Azərbaycan ədəbi dilində yazılıb. Yəni hər ixtisasın öz dili yoxdur. Bir dil var, o da müasir Azərbaycan ədəbi dilidir. Bu, bədii üslub deyil. Burada məcazilik, obrazlılıq olmaz. Bunun üçün qanuni şərt terminlilikdir. Ona düzgün də əməl olunmalıdır. Odur ki, qanunlar rus dilindən Azərbaycan dilinə tərcümə olunur. Bunlar ayrı-ayrı dil qruplarıdır. Rus dilindən Azərbaycan dilinə tərcümə olunanda, bunlar bəzi şeyləri sətri tərcümə edirlər. Onda cümlə düz gəlməyəcək. Ərəb, fars dillərindən sətri tərcümə etmək olar, rus dilindən yox. Bu mümkün deyil. Bu mənada qərar layihəsi hazırlanarkən həm

mütəxəssis, həm də dilçi cəlb olunmalıdır ki, burada uyğunsuzluq əmələ gəlməsin. İndi əsas qanunun mahiyyətindən söhbət gedir. Redaktə söhbəti hər dəfə bizim vaxtımızı alır və aparıcı söhbət deyil. Təklif də elədiniz ki, bura dilin anlaşıqlı olması üçün bizim dilçilər cəlb olunmadır. Qərar layihəsi meydana çıxandan sonra bunu təklif edirik, lakin həmişə də eyni sistemlə o cür nöqsanlar təkrar olunur. Mənim fikrim bundan ibarətdir. Diqqətinizə görə təşəkkür edirəm.

19 aprel 1996-cı il

Hörmətli sədr, hörmətli millət vəkilləri! Doğrudan da, indi müəllimlərin maaşı çox aşağıdır. Bütün işçilərdən aşağı müəllimlərin maaşıdır. 40-50 min onların orta aylıq əmək haqqıdır. Bu da o biri sahə işçiləri ilə müqayisədə, doğrudan da, aşağıdır. Mən keçən dəfə büdcə müzakirə olunanda da dedim, bizim hamımızı müəllim yetişdirib. Lap o yerin süni peyklərini düzəldən konstruktoru da müəllim yetişdiribdir. O faydalı qazıntıları yer altından çıxarıb bu insanların istifadəsinə verən geoloqu da müəllim yetişdiribdir, ölüm yatağında olan xəstəni həyata qaytaran həkimi də müəllim yetişdiribdir. Biz nə qədər deyirik, dəfələrlə deyirik, camaatın vəziyyəti yaxşı deyil. Əslində imkan olan adamlar heç bunun haqqında fikirləşmir. Doğrudan da, say nisbəti etibarilə işçilərin çoxu müəllimlərdir və bunların da əməyi başqa sahələrin işçilərinin əməyi kimi şərəflidir, həm də məsuliyyətlidir, çünki bunlar insan yetişdirirlər, gələcəyin insanını yetişdirirlər.

Babaxan müəllimin təklifi heç də təsadüfi deyil. Respublika Müəllimlər Şurasının sədri olduğuna görə o, qayğıları daha çox bilir, daha çox hiss eləyir. Məsələ

burasındadır ki, biz demirik, ya Babaxan müəllim məktubu yazanda heç də demək istəmir ki, müəllimləri başqa işçilərdən seçsinlər, bunların maaşlarını kütləvi surətdə artırsınlar. Ancaq burada təkliflər oldu ki, özəlləşdirmədən gələn bu pul və başqa xərclər ki, olacaq, heç olmasa, o nisbətdə müəllimlərin gələcək maaşlarının artırılmasını nəzərdə tutsunlar. Ancaq biz onu qətiyyən hiss eləmirik, müəllimlərin də vəziyyəti günü-gündən ağırlaşır. Bu heç də təsadüfi deyil. Ona görə özüm də müəllim olduğum üçün, müəllimlərin bir hissəsinə rəhbərlik etdiyim üçün mən həmin müraciətə bir daha qoşuluram. Doğrudan da, vəziyyət çətindir. Biz gələcəkdə müəllimlərin məvacibinin artırılması qayğısına qalmalıyıq.

23 aprel 1996-cı il

Hörmətli Arif müəllim, çox sağ olun, doğrudan da, bu qanun çox mükəmməl işlənib və çox gözəl də təqdim elədiz. Ancaq burada mənim iki təklifim var. Bu, 1-ci maddənin birinci abzasına aiddir. Torpaq islahatının məqsəd və vəzifələri. Məqsəd bir az aydın və dəqiq olmalıdır. Axırda yekunlaşdırılır ki, bu qanunun məqsədi Azərbaycan xalqının maddi rifahını yüksəltməkdən ibarətdir. Bütün kənd təsərrüfatına aid, ərzağa aid olan qanunların hamısında məqsəd xalqın maddi rifahını yüksəltməkdən ibarətdir. Bu, ümumiyyətlə, qanunlara aiddir. Ona görə də bu hissəni mən belə təklif eləyirəm, əgər qəbul eləyərsinizsə, bu qaydada yazılsın: «İslahatın məqsədi torpaqlardan səmərəli istifadə olunmasına, onun mühafizəsinə və kənd təsərrüfatı istehsalının inkişafına zəmin yaratmaqdan, müxtəlif mülkiyyət formalarına əsaslanan sahibkarlıq hissini gücləndirməkdən, sənaye ilə kənd təsərrüfatı arasında dövriyyəni nizama

salmaqdan, əhalinin ərzaq məhsullarına, sənayeninsə xammala olan ehtiyacını təmin etməkdən ibarətdir». Yəni bu məqsəd torpaq islahatının bütün məğzini əhatə edir.

16 iyul 1996-cı il

Hörmətli sədr, hörmətli Milli Məclisin deputatları! Hamınıza məlumdur ki, Azərbaycan xalqı əsrlər boyu öz milli azadlığı və müstəqil dövlətinin yaranması uğrunda mübarizə aparıb. Bu arzu və istək 1918-ci il may ayının 28-də gerçəkləşdi. Azərbaycan Demokratik Cümhuriyyəti yaradıldı. Çox təəssüf ki, bu cümhuriyyətin ömrü çox az – 1 il 11 ay oldu. Nəhayət, dünyada baş verən ictimai-siyasi hadisələr və SSRİ adlanan nəhəng imperiyanın dayaqlarının sarsılması nəticəsində 1991-ci il oktyabr ayının 18-də Azərbaycanda ikinci dəfə müstəqil dövlət – Azərbaycan Respublikası yaradıldı.

Lakin bu respublikanı qorumaq, saxlamaq, dövlətçiliyimizi möhkəmləndirmək və inkişaf etdirmək yolları çox da hamar olmamışdır. Beynəlxalq irtica qüvvələrindən dəstək alan erməni şovinizmi bizim o zamankı respublika rəhbərliyinin bacarıqsızlığından, təşkilatçı olmamağından və maymaqlığından istifadə edərək torpaqlarımızın 20 faizini işğal etdi, 1 milyondan artıq qaçqınımız yarandı. Ölkə vətəndaş müharibəsi təhlükəsi qarşısında qaldı. Azərbaycan «olum, ya ölüm» təhlükəsi ilə üzləşdi.

Belə bir vaxtda, hələ bundan da əvvəl xalqın mübariz səsi boğulurdu. Yəqin siz televiziya ekranlarına baxırsınız, 1990-cı ildən, ondan da əvvəl xalq Heydər Əliyevin hakimiyyətə qayıtmasını və başı bəlalı ölkəyə rəhbərlik etməsini arzulayırdı. Hər yerdə – Şuşada, Ağdərədə, Laçında və indi işğal altında olan bir çox digər torpaqlarımızda

mitinqlər keçirilir və xalq Heydər Əliyevin hakimiyyətə qaytarılmasını tələb edirdi. Çox təəssüf ki, o zaman Azərbaycan xalqının böyük bir hissəsinin bunlardan xəbəri yox idi. Çünki o lentlər gizlədilib xalqa çatdırılmırdı.

Belə bir ağır vəziyyətdə, nəhayət, Azərbaycan xalqı özündə böyük bir qüvvə və inam taparaq böyük siyasətçi Heydər Əliyevi tələb etdi və onu hakimiyyətə qaytardı. Bu gün heç kəsə sirr deyildir ki, Heydər Əliyev qısa bir zaman kəsiyində Azərbaycan adlı gəmini onu təhdid edən sualtı qayalar arasından məharətlə keçirib təhlükəsiz limana çatdırmışdır. Hadisələrin və tarixi şəraitin obyektiv təhlili göstərir ki, nadir dövlətçilik zəkasına, incə siyasi duyuma, güclü məntiqə, böyük idarəçilik təcrübəsinə malik Heydər Əliyevin baş verən hadisələrin gedişinə şəxsi müdaxiləsi olmasa idi, dünyanın siyasi xəritəsində Azərbaycan adlı dövlətin varlığına çoxdan son qoyulmuşdu.

Çağdaş zamanda dövlət başçımızın tükənməz əzmi hesabına ölkəmizdə yeni iqtisadi, siyasi, dövlət, hüquqi təsisatlar yaradılır, beynəlxalq hüquq normaları və bəşəri prinsiplər qərarlaşır. Respublikanın sosial-iqtisadı həyatında mühüm islahatlar həyata keçirilir. Qətiyyətlə demək olar ki, Heydər Əliyevin fəaliyyəti dövründə Azərbaycan milli intibaha qədəm qoymuşdur. Bu faktı ölkənin müharibə vəziyyətində olması belə kölgədə qoya bilmir. Artıq Azərbaycan dövləti sosial-iqtisadi proqramların reallaşmasında, nəhəng quruculuq prosesində təkanverici rolunu oynamaq üçün real imkanlara malikdir.

Bu gün bütün Azərbaycan xalqı cənab Heydər Əliyevin hakimiyyətə qayıtdığı günün milli qurtuluş günü kimi qeyd olunmasını tələb edir. Respublikamızın bütün bölgələrində keçirilən kütləvi mitinq və yığıncaqlarda çıxış edən saysız-hesabsız soydaşlarımız cənab Heydər Əliyevin hakimiyyətə

qayıtdığı günün milli qurtuluş mərhələsinin başlanğıcı olduğunu dönə-dönə vurğulayırlar. El gözü tərəzidir. Bəli, xalq cənab Heydər Əliyevin respublikaya rəhbərlik etməyə başladığı gün rahat nəfəs aldı, onu gözləyən təhlükələrdən xilas oldu, Azərbaycanın qarşısında geniş üfüqlər açıldığını dərk etdi. Çünki xalq öz sınanmış oğlunu yaxşı tanıyırdı, onun nəyə qadir olduğunu çox gözəl bilirdi.

O vaxtdan dörd il keçib. Azərbaycan tanınmaz dərəcədə dəyişib, həyat öz axarına düşüb. Müharibənin qələbə ilə başa çatacağına böyük inam yaranıb. Beynəlxalq aləmdə ictimai fikir Azərbaycanın xeyrinə dəyişib. Bunu bu günlərdə Amerika Birləşmiş Ştatlarına səfərdən qayıtmış Ermənistan liderləri də mətbuat və televiziyada açıqca etiraf etmişlər. Cənab Heydər Əliyevin xilaskarlıq missiyasının həm dostlarımız, həm də xarici düşmənlərimiz tərəfindən açıq etirafı qələbədən, torpaqlarımızın azad ediləcəyi günün yaxında olmasından xəbər verir.

Almaniya torpaqlarını militarizm əsasında birləşdirmiş görkəmli dövlət xadimi Otta Bismark demişdir ki, qılınc və qanla əldə olunanı qılınc və qanla geri qaytarmaq olar. Bu gün Otta Bismark və Heydər Əliyev məntiqi üz-üzə dayanmışdır. Heydər Əliyev dühası silah və qanla alınmış torpaqlarımızı ağıl və zəka ilə geri qaytarmaq uğrunda titanik səylərlə təkbaşına mübarizə aparır. Bütün dövlətlər, nüfuzlu beynəlxalq təşkilatlar Azərbaycanın cənab Heydər Əliyevin dəmir məntiqi, parlaq zəkası əsasında formalaşdırılmış ədalətli siyasi platformasını və mövqeyini qəbul etmişlər. Qarabağ probleminin Heydər Əliyev platforması əsasında həll ediləcəyi, başqa sözlə desək, qanla və qılıncla alınan torpağın ağıl və zəka ilə qaytarılacağı gün yaxındadır. Buna biz öz varlığımızla inanırıq.

Azərbaycan Prezidentinin parlaq siyasi zəkası

Azərbaycanı yeni yola çıxarmış, ardıcıl siyasi gedişlər ölkəni beynəlxalq birliyin nüfuzlu subyektinə çevirmişdir. Bu istiqamətdə Heydər Əliyevin fəaliyyəti dünyanın ən böyük siyasi xadimlərinin fəaliyyəti ilə həmahəngdir. Vaxtı ilə ağır istiqlaliyyət mübarizəsi aparan Şimali Amerika ordusunun başında duran Corc Vaşinqton qələbədən sonra sakit bir guşəyə çəkilmişdir. Lakin Amerika xalqı onu təkidlə Prezident kürsüsünə gətirdi. Vaşinqtonun sədrliyi ilə hazırlanan Konstitusiya bu gün də qüvvədədir. Ölkə iqtisadiyyatının nizama salınmasında onun xidmətləri əvəzsizdir. Elə buna görə Amerika Birləşmiş Ştatlarında Corc Vaşinqtonun adı ilə bağlı hər bir hadisə, eləcə də onun dövlət başçısı seçildiyi gün dövlət səviyyəsində bayram kimi qeyd olunur.

Türkiyənin düşmən hücumuna məruz qaldığı ən ağır məqamda müxtəlif partiyaları və siyasi qurumları öz ətrafında birləşdirib səngərlərə atılan, qəhrəman türk əsgərləri ilə birgə Türkiyəni məhv olmaq təhlükəsindən xilas edən Mustafa Kamal Paşa Atatürkün parlaq fəaliyyəti əsrin sonunda digər bir türk oğlu – cənab Heydər Əliyev tərəfindən sanki eyniliklə təkrar olundu. Atatürkün Samsunda hərəkata başladığı 19 may günü Türkiyədə Atatürkü anım günü kimi geniş qeyd edilir. Atatürkün hakimiyyətə gəlişi də ən böyük bayram kimi keçirilir.

İkinci dünya müharibəsindən sonra Almaniyanın xarabalıqları üzərində ucaldılan möhtəşəm alman dövləti öz şan-şöhrəti üçün federal kansler Konrad Adenauerin fəaliyyətinə borcludur. Konrad Adenauerin 1949-1963-cü illərdə həyata keçirdiyi islahatlar, nəhəng quruculuq proqramı mahiyyət etibarilə cənab Heydər Əliyevin fəaliyyəti ilə yaxından müqayisə oluna bilər. Yeri gəlmişkən, İkinci dünya müharibəsi dövründən daha bir səciyyəvi misal. 1940-cı il mayın 10-da Uinston Çörçill Böyük Britaniyanın Baş naziri

seçildi. O gün İngiltərə tarixinə əbədi həkk olunub. İyunun 22-də İngiltərənin müttəfiqi Fransa Almaniya ilə müharibədə məğlub oldu və Böyük Britaniyanın vəziyyəti gərginləşdi. Çörçill yazır ki, Fransa məğlub olandan sonra İngiltərədə məğlubiyyət, məhvolma təhlükəsindən milli qətiyyət yarandı və bu hiss İngiltərəni xilas etdi. İyunun 18-də İcmalar Palatasında çıxış edən Çörçill demişdir: «Fransa uğrunda döyüşlər sona yetdi, indi Britaniya uğrunda döyüşlər başlanmalıdır. Ona görə də öz borcumuzu elə yerinə yetirməliyik ki, Britaniya imperiyası min il yaşasa belə, adamlar desinlər ki, bu bizim ən yaxşı dövrümüzdür». Çörçill öz ölkəsi üçün əvəzedilməz xidmətlər göstərdi. Onun adı da, hakimiyyətə gəldiyi gün də tarixə əbədi həkk olunub.

Tarixə nəzər salaraq qətiyyətlə deyə bilərik ki, möhtərəm Prezidentimiz cənab Heydər Əliyev Vətən, xalq və cəmiyyət qarşısında öz borcunu, həyati borcunu ləyaqətlə yerinə yetirib və bu gün də ləyaqətlə yerinə yetirməkdədir.

Hörmətli Milli Məclisin deputatları! Bu gün parlamentdə bir çox fikirlər səsləndi ki, mən onlara öz münasibətimi bildirmək istərdim. Birincisi, qurtuluş gününün qeyd edilməsi. Bunu 15 iyun günü ilə birbaşa bağlamaq tamamilə təbiidir. Çünki Heydər Əliyevin hakimiyyətə qayıtdığı gün Azərbaycanda qurtuluş mərhələsinin başlanğıc günü idi. Biz bunu o mərhələnin həmin günü kimi yox, o qurtuluşun başlanğıc günü kimi qeyd eləyirik. Çünki ondan sonra baş verən bir çox təhlükəli hadisələrin, çevriliş cəhdlərinin hamısının qarşısı cənab Heydər Əliyevin güclü səyi, dərin zəkası və təşəbbüsü nəticəsində alındı. Ona görə də qurtuluş bütöv mərhələdir, 15 iyun isə qurtuluşun başlanğıc günüdür. Bu, millətin qurtuluşudur, milli respublikanın qurtuluşudur. Ona görə də bu günün milli qurtuluş günü kimi qeyd edilməsi tamamilə təbiidir və misal çəkdiyim sivil dövlətlərin

əksəriyyətində belə bir gün var.

Mən hələ Çini demirəm – Mao Tszedunun hakimiyyətə qayıtdığı gün, Kubanı demirəm – Fidel Kastronun hakimiyyətə qayıtdığı gün onların sağlığında da qeyd olunur. 1919-cu ildə Atatürkün Samsunda hərəkata başladığı gün,- hələ onun aqibəti bilinmirdi ki, nə olacaq, – Atatürkün sağlığında və bu gün də bayram kimi qeyd edilir və Türkiyənin xilası günü kimi anılır. Həmin günə Türkiyədə, Samsunda universitet adı veriblər. Orada 19 Mayıs Universitetində mən dərs demişəm, həmin günə küçə adı veriblər, həmin günə müxtəlif idarə və təşkilat adları veriblər.

Bəli, bizdə də 15 iyun məhz belə bir müqəddəs gün hesab olunmalıdır. Burada səslənir ki, Qarabağ alınandan sonra olsun. Çox gözəl cavab verildi ki, bəli, Qarabağ alınandan sonra o, qələbə günü olacaqdır və onda möhtərəm Prezidentimizin heykəli Bakının ən yüksək nöqtələrində qoyulacaqdır. O, başqa bir gün, müqəddəs, böyük gün olacaqdır. O böyük günə gedən yol məhz bu gündən, 15 iyundan – qurtuluş günündən başlanır. Bunu biz hamımız bilməliyik.

İkinci bir məsələni də mən xüsusi qeyd etmək istəyirəm. Cənab Heydər Əliyevin cəsarəti, 4 iyun hadisələri hansımızın yadından çıxa bilər? 17 mart hadisələri hansımızın yadından çıxa bilər? Böyük Azadlıq meydanında cənab Heydər Əliyev öz həyatını təhlükə qarşısında qoyub, Surət Hüseynov onun böyründə dura-dura, onun quldur avtomatçıları orada, arxada dura-dura öz həyatını təhlükə qarşısında qoyub, Surətin üzünə dedi ki[7] yaramırsan, buradan getməlisən. Bunu kim deyə bilərdi? Heydər Əliyev bütün xalqı topladı Prezident sarayının qarşısına. Bu, Heydər Əliyev gücü idi. Bu, Heydər Əliyev dühası idi. Bunu heç kim bacara bilməzdi. Belə bir şəxsiyyətin hakimiyyətə qayıdışı günü bayram olunmalıdır. Sonra, eks-

prezidentdən söhbət açırlar, özü-öz adını qoyub eks-prezident. İndiyə qədər, – dörd ildir burada yoxdur, gedib ucqar kənddə oturub,- deyirdi mən burada Prezidentəm. Bəs Prezidentsənsə, Heydər Əliyev həyatını təhlükə qarşısında qoyub, özü mübarizəyə atılanda «asta qaçan namərddir» deyib niyə tüpürdün dabana, naməlum istiqamətdə yox oldun? Bir-iki gündən sonra kəndindən səsin çıxdı. Dünən biz televiziyada göstərdik. Ayıb deyildi? Oturub orada, deyir ki, Prezident hər hansı bir gəmidə, bunkerdə oturub ölkəni idarə eləyə bilər. Bu Kələki kəndi bizim Naxçıvandadır, mən oranı yaxşı tanıyıram, ora yağış yağanda heç traktorla da getmək olmur. O kənddən dövləti nə cür idarə eləyəcəksən? Bakıda hakimiyyət taxtında oturub idarə eləyə bilmədin, ölkə dəydi bir-birinə, indi oturub kənddə deyirsən ki, mən bu ölkəni kənddən idarə eləyəcəyəm. Gülməlidir belə söhbətlər.

Mən qətiyyətlə demək istəyirəm – bir millət vəkili kimi belə hesab edirəm ki, cənab Heydər Əliyevin Azərbaycan və Azərbaycan xalqı qarşısındakı təmənnasız və misilsiz xidmətlərinin əvəzini vermək qeyri-mümkündür. Biz sadəcə olaraq onun hakimiyyətə gəldiyi günü Azərbaycanın parçalanma və məhvolma təhlükəsindən xilasolma mərhələsinin başlanğıcı günü kimi rəsmiləşdirməklə qismən də olsa öz vətəndaşlıq borcumuzu yerinə yetirmiş olarıq. Xalq iyunun 15-nin milli qurtuluş günü kimi qeyd olunmasını arzulayır. Xalqın iradəsini yerinə yetirmək lazımdır.

27 iyun 1997-ci il
«Qurtuluş» kitabı.
«Azərbaycan» nəşriyyatı,
1998-ci il, səh. 376-382

Hörmətli sədr, hörmətli Milli Məclisin deputatları! Artıq dördüncü saata keçir ki, biz bu humanist Bəyanatın, təklifin

müzakirəsini keçiririk və bu, doğrudan da, müstəqil Azərbaycan Respublikasının indiyə qədər qəbul etdiyi qanunlar içərisində ən humanistlərindən biri olacaqdır. Məlumdur ki, Şərqdə ilk demokratik respublika Azərbaycanda qurulubdur və bu gün məlum olacaq ki, çıxışlardan da, təkliflərdən də bu aydınlaşır – ölüm hökmünün ləğv olunması haqqında ilk humanist və demokratik qanun da bu gün müstəqil Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul ediləcəkdir. Söz yoxdur ki, ölüm hökmü, onun icrası tarixən insanları düşündürmüş, sivil cəmiyyətlərin hər birində bu problem bütün cəmiyyətin, bütün bəşəriyyətin düşüncə mövzusu olmuşdur. Heç də təsadüfi deyil ki, bu gün təxminən dünyanın 35 ölkəsində bu cinayətə görə ən ağır cəzanın ləğvi haqqında qanun çıxarılmış, Almaniya, Fransa, Danimarka, Norveç, Hollandiya kimi dövlətlərdə, 18 ölkədə xüsusi hallarda, müharibə zamanı ölüm cəzası saxlanılıb, qalan müddətdə ləğv edilibdir. Argentinada, Braziliyada, İsraildə, İspaniyada – 26 ölkənin qanunvericiliyində ölüm cəzası nəzərdə tutulub. Lakin tətbiq olunmur. 100-dən çox ölkədə bu cəza növü çox məhdud şəkildə həyata keçirilir.

Azərbaycan Avropa Şurasına daxil olmağa hazırlaşır. Respublikamızın bu Şuraya daxil olması ilə əlaqədar Avropa Şurasının məruzəçisi Corcun Prezident Heydər Əliyev ilə görüşündə dediyi bu sözlər, hesab edirəm ki, Azərbaycanda özünü müxalifət hesab edənlərə tutarlı cavabdır: «Ölkənizlə tanışlıqdan sonra məndə belə bir inam yaranıb ki, Sizin rəhbərliyiniz altında Azərbaycan demokratiya, insan hüquqlarının qorunması, islahatların həyata keçirilməsi yolu ilə cəsarətlə irəliləyir. Bu sözlər onu göstərir ki, tezliklə Azərbaycan Avropa Şurasının tam hüquqlu üzvü olacaqdır».

1993-cü ilin iyul ayında ölüm cəzası üzərinə moratorium qoyulandan sonra Cinayət Məcəlləsinin 21 maddəsindən bu

cəza növü götürülmüş və qadınlara, 65 yaşından yuxarı kişilərə qarşı bu cəzanın tətbiq edilməməsi haqqında razılığa gəlinmişdir.

1995-ci ildə Konstitusiyanın 27-ci maddəsində yaşama hüququna təminat verilində də, əfv və amnistiya haqqında silsilə qərarlar qəbul ediləndə də ancaq bir şey diqqət mərkəzində olmuşdur. Cəza sisteminin humanistləşdirilməsi, insan hüquqlarının beynəlxalq standartlarının ölkəmizdə tətbiq edilməsi. Son olaraq onu da demək istəyirəm ki, bu cəza növünün ləğv olunması heç də cinayətkarlığın cəzasız qalmasına gətirib çıxarmayacaq. Ağır cinayət törədən adamlar əməllərinə görə uzunmüddətli, ömürlük həbs cəzasına məhkum olunacaqlar. İnsan hüquqları və azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasına dair 6-cı protokolun 2-ci maddəsində də müharibə dövründə bu cəza növünün tətbiqi mümkün hesab edilir. Mən də Milli Məclisin başqa deputatları kimi bu Bəyanatın, bu təklifin tamamilə qanuni olduğunu hesab edirəm və göndərilmiş təklifin müzakirə olunub ona səs verilməsinə tərəfdar olduğunu bildirirəm.

10 fevral 1998-ci il

Hörmətli sədr, hörmətli Milli Məclisin deputatları! Bir adi məsələ hamımız üçün aydındır və aydın da yazılıb. Bunun üstündə belə mübahisə eləməyə heç bir ehtiyac yoxdur. «Abidələr dünya, ölkə və yerli əhəmiyyətli abidələrə bölünür». Buna etiraz edən yoxdur ki? Bu, dünya standartıdır. «Abidələrin əhəmiyyət dərəcəsinə görə bölgüsünü Azərbaycan Respublikası Elmlər Akademiyasının rəyi nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanı beynəlxalq normalar əsasında aparır, tərtib və təsdiq edir». Burada hər şey

aydın yazılıbdır. Azərbaycan Respublikası Elmlər Akademiyası buna cavab verir, çünki orada mütəxəssislər iştirak edirlər. Bu sahənin mütəxəssisləri var. Müəyyənləşdirilir, icra hakimiyyətinin, Nazirlər Kabinetinin təqdimatı əsasında baxılır və təsdiq olunur. Burada etiraz, narazılıq ona görədir ki, vaxt uzana bilər və həmin müddətdə guya bunlar özəlləşdirilib qurtarar, yəni ona vaxt çatmaz. Bunun üçün də Milli Məclis tapşırıq verir müvafiq orqanlara. Nazirlər Kabinetinə, icra hakimiyyətinə müddət qoya bilərik ki, 1-2 aya, qısa müddətdə bu siyahını tərtib etsin və Elmlər Akademiyası da bunu təsdiq etsin. Bax, burada heç bir mübahisə yoxdur. Mən təklif edirəm ki, bu maddə tam standartlara uyğundur.

24 fevral 1998-ci il

Hörmətli sədr, hörmətli Milli Məclisin deputatları! Bu gün müzakirəyə təqdim olunan Uşaq hüquqları haqqında qanun layihəsi prinsip etibarilə ikinci oxunuşun tələblərinə cavab verir, çünki layihə insan və uşaq hüququ barədə beynəlxalq bəyannamələrin, konvensiyaların prinsipi əsasında hazırlanıb və prioritet qanunlar sisteminə daxildir. Amma bununla belə, layihə barədə bəzi təkliflər söyləmək olar. Mənim hər fəsilə aid müəyyən qeydim olduğuna görə elə indi hamısını demək istəyirəm.

Layihə deklorativ xarakter daşıyır, maddələr tamamilə açıqlanmır. Bir çox maddələr bəyannamə xarakterlidir. Məsələn, layihənin 13-cü maddəsində deyilir: «Uşaq qanunvericiliklə müəyyən olunmuş yaşayış minimumundan az olmamaqla maddi təminat hüququna malikdir». Hansı təminat hüquqlarından bəhs olunduğu bu qanun layihəsində tam açıqlanmır. Ona görə də yaxşı olar ki, bu qanun qəbul

edildikdən sonra qüvvədə olan bir sıra qanun və məcəllələrə düzəlişlər edilsin. Bu layihənin bir çox maddələri əmək məcəlləsinə, ailə və nikah məcəlləsinə və mülkiyyət haqqında qanuna dəyişiklikləri zəruri edir.

Bundan başqa, layihənin ayrı-ayrı maddələri barədə konkret təklif söyləmək olar. Məsələn, 31-ci maddənin birinci abzasında deyilir: «Dövlət sosial, hüquqi, iqtisadi, tibbi və tərbiyəvi vasitələrlə uşaqları istismarın bütün növlərindən, ağır, zərərli və təhlükəli əməkdən mühafizə edir». Burada konkret məsuliyyət sahibinin kimliyi bilinmir. Əgər 3-cü maddə uşaq hüquqlarını müdafiə edənlərin konkret ünvanları: icra hakimiyyəti, məhkəmə və prokurorluq göstərilirsə, 31-ci maddədə bu konkretlik yoxdur. Bu gün kimsəsiz uşaqları dilənməyə, ağır işlərə məcbur edirlər. Bəs onların hüquqlarını kim müdafiə etməlidir? Dövlət, yoxsa ayrı-ayrı qurumlar? Yaxşı olar ki, bu maddədə konkret məsuliyyət sahibləri göstərilsin, dövlət ümumi addır. 41-ci maddədə qaçqın və köçkün uşaqların hüquqlarından bəhs olunur. Amma qaçqın və köçkün uşaqların zəruri təhsili barədə heç nə deyilmir. Yaxşı olar ki, bu məsələ də nəzərə alınsın. Ümumilikdə isə layihə möhtərəm Prezidentimizin imzaladığı insan və vətəndaş hüquqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında fərmanın və beynəlxalq konvensiyaların tələblərinə cavab verir.

27 mart 1998-ci il

Hörmətli sədr, hörmətli Milli Məclis deputatları! Bu gün Milli Məclis taleyüklü bir məsələni müzakirə edir. Möhtərəm Prezidentimiz mart ayının 26-da Azərbaycanda soyqırımı haqqında fərman imzaladı və bu fərmanla Azərbaycanın keçmiş olduğu tarixə ciddi nəzər yetirməyimizi yadımıza

saldı. Mən burada müzakirələrdən və bəzi qəzet səhifələrində dərc olunan məqalələri oxuduqdan sonra belə fikrə gəldim ki, bəziləri bu fərmanı ya diqqətlə oxumayıblar, ya da onun mahiyyətini o qədər də dərk eləmək iqtidarında olmayıblar. Bu fərman təkcə 1918-ci il mart qırğını, o hadisələr ərəfəsində cərəyan eləyən məsələlərə toxunmur. Bu fərman həm ondan əvvəlki, həm də ondan sonrakı erməni soyqırımına və onların yeritdikləri siyasətin nə ilə nəticələnməsinə, bu günə qədər davam eləyən bütün hadisələrə ciddi, xronoloji bir baxışdır.

Bu fərmanın çox böyük tarixi, siyasi və deyərdim, elmi əhəmiyyəti vardır. Bu bizim tarixçilərimizin diqqətini bir daha Azərbaycanda soyqırımı haqqında indiyə qədər apardıqları tədqiqat əsərlərinə yenidən baxmağa yönəltməyi və yenidən ciddi elmi tədqiqat əsərləri yazmağa sövq etməlidir. Ona görə də bu fərmanla əlaqədar qalaq-qalaq kitablar, elmi tədqiqat əsərləri, ssenarilər, kinofilmlər, televiziya filmləri, bədii əsərlər, poemalar, romanlar yazılmalıdır. Bu, bütün xalqımızın yaddaşına hopmalı və həkk olunmalıdır. Bu fərmanda elə bir məsələ yoxdur ki, toxunulmasın. Möhtərəm Prezidentimiz bu fərmanında çox incə şəkildə, bir tarixçi həssaslığı ilə demokratik cümhuriyyət tərəfindən görülən işlərə qiymət verir.

Fərmanda yazılır: «Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirmişdir. Nazirlər Şurası 1918-ci il iyunun 15-də bu faciənin tədqiqi məqsədi ilə fövqəladə istintaq komissiyasının yaradılması haqqında qərar qəbul etdi» və sonra göstərildi ki, 1919 və 1920-ci il mart ayının 31-i iki dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir. Burada göstərilir ki, Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasına imkan vermədi. Göründüyü kimi, fərmanda tarixi keçmişimizə çox

həssaslıqla, diqqətlə yanaşılmışdır.

Burada erməni haqqında söhbət gedir. Ermənin heç tarixən dövləti olmayıbdır. Burada tarixçilər iştirak edir. Ermənilər qədim Urartu dövlətinin tərkibində icma, tayfa şəklində yaşayıblar. Sonradan daxili məkri, hiylələri əsasında, yavaş-yavaş, öz ərazilərini genişləndirə-genişləndirə, müxtəlif formalara daxil ola-ola Azərbaycan ərazisinə, yəni Qərbi Azərbaycan adlanan indiki Ermənistan ərazisinə soxulublar. Əvvəllər orada bir nəfər də erməni olmayıbdır. Sonradan torpağımızı ələ keçiriblər.

Qaldı ki, 1813-cü il Gülüstan müqaviləsi və 1828-ci il Türkmənçay müqaviləsinə, doğrudan da, Rusiya imperiyası ilə İran dövləti arasında 1813-cü il bağlanan Gülüstan müqaviləsinə əsasən Naxçıvanla İrəvan xanlığı müstəsna olmaqla, 1828-ci ildə isə Naxçıvan və İrəvan xanlığı daxil olmaqla Azərbaycanın şimal hissəsi Araz çayı sərhəd olmaqla Rusiyanın tərkibinə birləşdirildi. Çox təəssüf ki, sovet dövründə bizim tarixçilər bunu Rusiya tərkibinə daxil olmaq, Rusiya tərkibinə ilhaq və s. belə terminologiya adı altında könüllü birləşmə şəklində qələmə vermişdilər və indi bugünkü fərmanda çox aydın şəkildə məlum olur ki, bu heç də könüllü birləşmə deyil. Bu, zorla, güclə Azərbaycanın şimal hissəsinin Rusiyanın tərkibinə birləşdirməkdir. Çox qəribədir ki, Rusiya qoşunları Cənubi Azərbaycandan çıxarılandan sonra orada qalan ermənilər özləri daim İran dövlətinə də xəyanət etdiklərinə görə orada qalmadılar və 40 mindən artıq erməni ailəsi əvvəlcə Naxçıvana, oradan da Qarabağa köçürüldü. Beləliklə, məkrli şəkildə ermənilərin indiki Qərbi Azərbaycan ərazisinə yerləşdirilməsi planı həyata keçirildi.

31 mart 1998-ci il

Hörmətli sədr, hörmətli Milli Məclis deputatları! Təbii ehtiyatlar, energetika və ekologiya məsələləri daimi komissiyasının Milli Məclisin müzakirəsinə təqdim etdiyi bu layihə müasir cəmiyyətimizin ən ümdə problemlərindən biri olan elektroenergetika sahəsini tam dolğunluğu ilə əks etdirir. Qanun layihəsi əsas anlayışlar şərh edilməklə qanunvericiliyə uyğun yüksək tələbkarlıqla işlənmişdir. Bu gün dünya ictimaiyyətini düşündürən və narahat edən ətraf mühitin çirklənməsinin qarşısını almaq məsələsi baxımından qanun layihəsində xüsusi yer tutan 14-cü maddə günümüzün reallığını özündə tam əks etdirir. Bundan əlavə, layihənin ayrı-ayrı maddələri barədə müsbət fikir söyləmək olar.

Qanun layihəsi barədə müəyyən qeydlərim də var. 6-cı maddə «Yeni elektrik qurğularının tikilməsinə, yaradılmasına və istismara verilməsinə xüsusi razılıq» adlanır. Maddənin birinci abzasında yazılır: «Yüksək gərginlikli elektrik enerjisi istehsal edən, ötürən və paylayan qurğular əvvəlcədən xüsusi razılıq olmadan tikilə və işlədilə bilməz. Bu, gərginliyi yüksək olan elektrik verilişi xətlərinə, transformasiya qurğularına və elektrik stansiyalarına aiddir». Birinci cümlədə xüsusi razılığa aid olan sahələr açıq-aydın göstərilir, yenidən həmin obyektlərin bir daha təkrarlanması məqsədəuyğun deyil. Ona görə də həmin abzasın aşağıdakı redaksiyada verilməsini təklif edirəm. Bu qanunda belə bir hal ənənə forması alıb, üç-dörd yerdə var, fikir deyilir, aydınlaşdırılır, sonradan bir də ona qayıdılır. «Yeni yüksək gərginlikli elektrik enerjisi istehsal edən, ötürən və paylayan qurğular əvvəlcədən xüsusi razılıq olmadan tikilə və işlənilə bilməz». Bunun ardınca bir də ona şərh verilir. Bu, qanunun tələblərindən tamam uzaq bir anlayışdır. Yazılır: «Bu, gərginliyi yüksək olan elektrik verilişi xətlərinə, transformasiya qurğularına və elektrik stansiyalarına aiddir». Ona görə də həmin abzasın ikinci

hissəsi tamamilə bu maddədən çıxarılmalıdır.

Elə həmin maddənin üçüncü abzasında da belə bir uyğunsuzluq var. Burada göstərilir: «Elektrik və istilik enerjisi qurğularının quraşdırılması, işə salınması və istismarı daim müvafiq tələblərə və texniki standartlara cavab verməlidir». Yenə ardınca gəlir: «Yeni qurğular və gələcək istehsalat fəaliyyətləri müasir texniki standartlara uyğun olmalıdır». Əvvəldə dedik ki, «standartlara cavab verməlidir», bir də aşağıda yuxarıdakını təkrar edirik ki, «yeni qurğular standartlara uyğun olmalıdır». Bu hissə tamam artıqdır. 8-ci maddənin yeddinci abzasının «Tələbatçının energetik qurğulara qoşulmasının ümumi şərtlərini müəyyən etmək» şəklində verilməsi daha məqsədəuyğundur. Həmin maddənin səkkizinci abzasında isə qeyri-dəqiqlik var. Göstərilir ki, «müqavilə bağlanmış sahə (ərazi) üzrə tələbatçıların tələbi ilə energetik qurğuları tez qoşmaq və razılaşdırılmış qiymətlər, tariflər və şərtlər əsasında enerji ilə təchiz etmək». Nəyi energetik qurğulara tez qoşmaq? Bu suala cavab verilmir. 10-cu maddənin səkkizinci abzasında mütləq müəyyən aydınlıq yaratmaq lazımdır, çünki orada göstərilən şərtlər digər abzaslarda təkrarlanır. Bu qeydlər çox vaxt alan, yaxud bunun saxlanılması üçün şərt olan qeydlər deyil. Mən qanunun qəbul edilməsinə tərəfdaram. Ancaq qanunda təkrara yol verilməməlidir, bu, qanunun tələbidir. Buna görə də dediklərim düzəldilməlidir.

Hörmətli sədr, hörmətli Milli Məclisin deputatları! Ölkə Prezidenti tərəfindən Milli Məclisin müzakirəsinə təqdim olunan qanun layihəsi çox aktual və vacibdir. Artıq sivil cəmiyyətlərdə informasiyanın rolu heç kəsə sirr deyil. Bu baxımdan respublikamızın müstəqil, suveren bir dövlət kimi beynəlxalq konvensiyalara, razılaşmalara qoşulması, Prezidentimizin həyata keçirdiyi məqsədyönlü və ardıcıl

siyasəti nəticəsində dünyanın aparıcı dövlətləri ilə qurulan münasibətlər Azərbaycan cəmiyyətində belə bir qanunun qəbul olunmasına zəruri ehtiyac yaradır.

Bu qanunun bir çox üstün cəhətləri vardır. Məsələn, onu qeyd etmək olar ki, bu qanun kütləvi informasiya vasitələri haqqında və müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında Azərbaycan Respublikası qanunları ilə tənzimlənən münasibətlərdən kənarda qalan boşluqların tənzimlənməsinə imkan verir. Bundan əlavə, qanun layihəsinin 6-cı maddəsinin birinci abzasında göstərildiyi kimi, informasiya üzərində mülkiyyətin respublika qanunvericiliyində nəzərdə tutulmuş bütün formalarına yol verilməsi keçirilən islahatların tərkib hissəsi kimi təqdirəlayiqdir. Elə həmin maddənin onuncu abzasında yazılır: «İnformasiya ehtiyatlarının mülkiyyətçisi onun yaratdığı informasiyanın keyfiyyətinə görə məsuliyyət daşıyır». Bu, mülkiyyətçinin özünə nəzarəti, yaratdığı informasiyaya diqqətini artırır.

Həmin maddənin ikinci abzasında dövlət informasiya ehtiyatlarından əldə olunmuş informasiyadan kommersiya məqsədləri üçün törəmə informasiya məhsulunun yaradılmasına yalnız alınma mənbəyinə istinad edilməklə istifadə olunmasına icazə verilir. Bu halda istifadəçiyə məxsus mənfəət dövlət informasiya ehtiyatlarından alınmış informasiyalardan deyil, törəmə informasiya məhsulunun yaradılması nəticəsində olur. Amma burada bir məsələ var ki, alınma mənbəyinə görə həmin mənfəətdən rüsum verilib-verilməməsi öz-əksini tapmayır. Məncə, həmin məsələ ilə bağlı dəqiqləşdirmə aparmaq lazımdır.

Hörmətli sədr, bu qanun layihəsi haqqında çox təkliflər vermək, çox sözlər demək olar. Ancaq mənim qeyd etdiyim məsələlər, yəni cənab Prezidentin bu layihəni göndərməsi və bir çox məsələlərin həlli üçün bunun vacib olması onu göstərir

ki, buradakı ayrı-ayrı maddələr üzrə redaktə xarakterli məsələlərə və çox da əhəmiyyət kəsb etməyən bəzi digər məsələlərə görə bu layihənin ikinci, üçüncü oxunuşda müzakirə olunmasına lüzum yoxdur. Bu layihə hörmətli Prezident tərəfindən göndərildiyi üçün Prezidentin bunu hazırlayan nümayəndəsinin iştirakı ilə dəyişiklik aparmaq olar. Bu baxımdan da burada bəzi təkliflər irəli sürüldü. Mən onları başa düşə bilmədim. Nə mənada? İndi Fərəməz müəllim dedi ki, bunlar üçün lisenziya verilməlidir. Bu, görünür, əvvəlki variantlarda olubdur. Mən layihəni diqqətlə oxudum, heç yerdə lisenziya verib-verməmək haqqında maddəyə, cümləyə, sözə, işarəyə rast gəlmədim. Bu bir.

İkinci, burada məsələ qaldırıldı ki, hərə özünə bir internet açır. İnternet belə şey deyil. Biz ancaq müxtəlif mərkəzlərdən ona qoşula bilərik. Mən yəni demək istəyirəm ki, bu qanunla əlaqədar belə müzakirələr açmağa mən ciddi ehtiyac duymuram. Qanun layihəsi çox yüksək səviyyədə işlənmişdir, bu sahədə olan bütün anlayışları, eləcə də bütün tələbləri dolğunluğu ilə özündə əks etdirir. Ona görə də təklif edirəm ki, Prezident tərəfindən göndərildiyi üçün qısa təkliflərdən sonra bu gün bunu qəbul edək.

3 aprel 1998-ci il

Hörmətli sədr, hörmətli Milli Məclisin deputatları! 6-cı maddə «Seçkiqabağı təşviqat hüququ» adlanır və bu əlavə tamamilə yerli-yerindədir, doğrudur, „düzgündür. Dünyanın sivil dövlətlərində Prezident seçkiləri haqqında məlum qanunların hər birində bu maddə bu şəkildə nəzərə alınıbdır. Burada söhbət gedir ki, dövlət informasiya vasitələrinə nəzarət etmək mümkündür, qeyri-dövlət informasiya vasitələrinə nəzarət etmək mümkün deyil. Bu belə deyil.

Burada, qanun layihəsində çox aydın şəkildə yazılıb ki, dövlət kütləvi informasiya vasitələrindən istifadədə bərabər iştirak hüququnu təmin edir. Yəni bu, hüquqi formadır. Ancaq özəl kütləvi informasiya vasitələri barədə «istifadə üçün şərait yaradır» yazılıb. Bu, çox demokratik formadır. Bunun məsələyə nə dəxli var? Dövlətin qanunları müstəqil, özəl – bütün informasiya vasitələrinə aiddir. Eyni zamanda, dövlət informasiya vasitələrinə də aiddir. Yəni özəl üçün ayrı qanun çıxaraq, dövlət üçün ayrı qanun – bu, düz deyil. Mən bunun məqbul və bütün dünya təcrübəsinə əsaslanmış bir forma kimi qəbul edilməsini təklif edirəm.

5 iyun 1998-ci il

Hörmətli sədr, hörmətli Milli Məclis deputatları! Mən bir neçə iclasdır ki, Zahid müəllimi diqqətlə dinləyirəm. Komissiya çox xeyirxah bir işlə məşğuldur. Ancaq mən bir məsələdən çox ehtiyat edirəm, xeyirxahlıq adı ilə istər-istəməz elə bir istiqamət götürə bilərik ki, o, bizim dilimizin, xalqımızın tarixi üçün yanlış bir yol olsun. Zahid müəllim indi çıxışında da dedi ki, kənd adamları bir yerə toplaşıb iclas edirlər, fikirləşirlər, ad tapırlar və biz də onu müzakirə edib, qəbul edirik. Kənd camaatı mütəxəssis deyil və onlar bu sahədə dəqiq, düşünülmüş elmi fikir yürüdə bilməzlər. Bunun üçün mütəxəssislərin fikrini dinləmək lazımdır. Azərbaycan ərazisi karvan yollarının kəsişdiyi yerdə yerləşir. Ona görə şəhər, kənd, yer, çay, bulaq adları tez-tez, müxtəlif formada dəyişdirilibdir. Ancaq bunların əsli, kökü olubdur. Toponimlər çox incə bir məsələdir, burada mütəxəssis fikri əsas olmalıdır. İndi Zahid müəllim dedi ki, bunlar hüquqşünaslar ilə məsləhətləşdirilib. Hüquqşünaslar ilə bütün qanunlar məsləhətləşdirilə bilər, hüquqşünaslar çox şeyə hökm verə

bilər. Ancaq bu məsələ hüquqşünaslıq deyil. Bu toponimika məsələsi 3 elmin kəsiyindədir. Dilçilik, tarix, bir də coğrafiya elminin. Bu üç sahənin mütəxəssisləri söz deyib, hökm verə bilərlər. Bu baxımdan, bu, mütəxəssislərlə hökmən məsləhətləşdirilməlidir.

Sovet dövründə, 60-cı illərdə camaatımızı müəyyən mənada milli kökündən ayırmaq məqsədilə mərkəzdən gələn belə bir qayda var idi ki, köhnə kənd adları dəyişdirilsin. Tarixi adlarımızı dəyişdirib Baharlı, Çiçəkli, nə bilim belə-belə yaraşıqlı adlar qoyurdular. Sonradan məlum olur ki, bu adların böyük bir hissəsi qədim türk toponimləridir və ərazinin qədim türk ərazisi olduğunu bir daha sübut edir. Bu, ermənilərə, bədnam qonşularımıza ən ağır cavabdır. Mən Zahid müəllimin elminə də, savadına da, dünyagörüşünə də bələdəm. Biz kolleqayıq, bir yerdə işləmişik. Ancaq bu məsələ yüz ölçüb bir biçiləsi məsələdir. Onun üçün də mən xahiş edərdim ki, bu məsələdə mütəxəssis fikirlərini nəzərə alaq, çox da tələsməyək. Onsuz da o qədər yer adlarımız dəyişdirilibdir ki. İndi özümüz bilmədən bu prosesə qoşularıq, sonradan bunun ağır nəticələrini hiss edərik. Diqqətinizə görə təşəkkür edirəm.

14 iyul 1998-ci il

Hörmətli sədr, hörmətli Milli Məclis deputatları! Sərbəst toplaşmaq azadlığı haqqında Azərbaycan Respublikasının qanun layihəsi, mən deyərdim ki, kifayət qədər hərtərəfli müzakirə olunub və çox təkmil bir layihə hazırlanıb. Burada həm hüquqşünasların, həm millət vəkillərinin, həm də ayrı-ayrı siyasi cərəyanların təklif və iradları, əsasən, nəzərə alınıb. Yetkin bir qanun layihəsi ikinci oxunuşda müzakirəyə çıxarılıb. Bu layihə barədə beynəlxalq təşkilatların, xüsusən

Avropa Şurası ekspertlərinin rəy verməsi onu sivil ölkələrin qanunları ilə müqayisə etməyə imkan verir. Avropa Şurasının ekspertlərinin əksər təklifləri Milli Məclis tərəfindən qəbul olunub. Amma onların da təklif etdiyi bəzi müddəalar mən deyərəm ki, mübahisəlidir və ona görə də həmin təkliflərə öz münasibətimi bildirmək istəyirəm.

Belə ki, ekspertlər 8-ci maddənin III hissəsinin 3-cü bəndinin çıxarılmasını təklif edirlər. Bu bənddə göstərilir ki, «müvafiq icra hakimiyyəti orqanının qərarı ilə müəyyən edilmiş dövlət əhəmiyyətli beynəlxalq tədbirlərə (konfranslara, müşavirələrə, idman yarışlarına və s.) hazırlıq növü və onların keçirildiyi günlər həmin tədbirin keçirildiyi rayon və şəhərlərin ərazilərində toplantı qadağan edilir və dayandırılır». Əvvəla, bu bəndin saxlanılması çox vacibdir. Ona görə ki, ölkəmiz, dövlətimiz üçün önəmli olan beynəlxalq tədbirlər tam təhlükəsizlik şəraitində keçirilməlidir. Necə ki, İpək yolu ilə əlaqədar olaraq respublikamızda keçirilən beynəlxalq tədbir zamanı digər tədbir başqa günə keçirildi və müxalifət də, iqtidar da onunla eyni dərəcədə razılaşdılar. Çünki bu dövlətimizin adı, onun beynəlxalq imici ilə bağlıdır. 2-ci ona görə ki, bu tədbirlər bütün respublikada eyni vaxtda keçirilmir, konkret bir məkanla bağlıdır. Yəni bir şəhər və ya rayonda keçirilməsi nəzərdə tutulur, həmin anda kim isə, hansı bir təşkilatsa keçirmək istədiyi toplantını həmin tədbirlərdən ya əvvəl, ya da sonra keçirə bilər.

Qanunun 9-cu maddəsində belə bir bənd var: «Dinc toplantının keçiriləcəyi yerə məhdudiyyətlər bu qanunun 7-ci maddəsində müəyyən edilmiş meyarlara uyğun olaraq qoyulur». Avropa Şurası ekspertləri təklif edirlər ki, 9-cu maddənin birinci bəndində nəzərdə tutulmuş hakimiyyət orqanlarına yalnız Milli Məclis, Prezident Aparatı, məhkəmələrin yerləşdiyi binalar şamil edilsin və toplantının

keçirilməsinə həmin binalardan 50 metr radius çərçivəsində məhdudiyyət qoyulsun. Bu təklifin qəbul olunması məqsədəmüvafiq deyil. Birincisi, dövlət təşkilatlarına fərq qoymaq düzgün deyil. Nə üçün Milli Məclis, Prezident Aparatı, məhkəmələr nəzərdə tutulur, digər orqanlar nəzərdə tutulmur? İkincisi, dövlət təşkilatlarına fərq qoymaq düzgün deyil, burada bütün hakimiyyət orqanları üçün bu cür məhdudiyyət vacibdir. Özü də əvvəldən nəzərdə tutulduğundan fərqli olaraq 500 metr nəzərdə tutmuşuq. Birincidə dediyiniz kimi 300 metr radius çərçivəsində ola bilər. Ekspertlər bizim dövlət orqanlarının yerləşdiyi ünvanlarla tanış deyillər. Məsələn, Milli Məclis, Müdafiə Nazirliyi və Dövlət Televiziya və Radio Verilişləri Şirkəti arasında heç 200-300 metr məsafə yoxdur. Belə olan şəraitdə 500 metr məhdudiyyət hansı məntiqlə tətbiq oluna bilər? Belə misalları istənilən qədər sadalamaq olar. Ona görə bunlar mümkün deyil ki, həmin ekspertlər respublikanın şəraiti ilə tanış deyillər, yerli deyillər. Görünür, onlara müəyyən istiqamət verənlər var və buna görə də belə səhv nəticəyə gəliblər.

Qanunun 9-cu maddəsinin altıncı hissəsində deyilir: «Yığıncaqların, mitinqlərin və nümayişlərin keçirilməsi üçün hər şəhər

və rayonda müvafiq icra hakimiyyəti orqanı xüsusi yerlər ayırmalıdır. Yığıncaqların, mitinqlərin, nümayişlərin keçirilməsi üçün ayrılmış yerlərin siyahısı yerli mətbuatda dərc edilir və başqa üsullarla əhaliyə çatdırılır. Təşkilatçılar yığıncaq, mitinq və nümayiş üçün ayrılmış yerlərin birini seçə bilərlər». 7-ci hissə: «Küçə yürüşünün təşkilatçıları onun marşurutunu müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırmalıdırlar». 8-ci hissə: «Toplantı yay vaxtmın totbiqi dövründo saat 8^{00}-dan 19^{00}-dok, ilin digor dövründo isə saat

9^{00}-dan 17^{00}-dək keçirilə bilər. Keçirilən hər bir toplantının vaxtı müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmalıdır». Avropa Şurasının ekspertləri təklif edirlər ki, bu hissələr çıxarılsın. Azərbaycan ictimai-siyasi mühitini, yaxın illərin təcrübəsini və Azərbaycan mentalitetini hər halda biz özümüz daha yaxşı bilirik. Ona görə də mən bu təkliflərin qəbul edilməsini məqsədəuyğun saymıram. Çünki mitinqlər qabaqcadan müəyyən edilmiş yerlərdə keçirilsə, onların təhlükəsizliyini təmin etmək, qorumaq daha asandır. Mən bir məsələni də qaldırmalıyam ki, polis iş vaxtında və iş vaxtından kənar müddətdə orada asayişi bərpa edir. Ona görə də 3 gündən bir, 5 gündən bir bunlar mitinqlər keçirirlər. Belə halda polisin onları qorumaları üçün mitinq keçirən tərəf müvafiq qaydada pul ödəsin və polis onların, eyni zamanda, şəhərin asayişini qorusun. Şəhər nəqliyyatının və təsərrüfatının ritmi pozulur. Bu baxımdan da hökmən marşrut əvvəlcədən müəyyənləşdirilməlidir. Küçə yürüşünün marşrutu mütləq qabaqcadan razılaşdırılmalıdır. Şəhərimizdə keçirilən son küçə yürüşlərinin məhz bu qaydada aparılması onun çox düzgün prinsip olduğunu bir daha sübut edir.

Toplantıların keçirilməsi vaxtına gəldikdə isə, məncə, bu tədbirlər yalnız sutkanın işıqlı vaxtında keçirilməlidir. Gecə qaranlıqda belə toplantılar nəinki əhalimiz tərəfindən çaşqınlıqla qarşılanır, mən deyərdim, asayişin pozulması və xoşagəlməz halların törədilməsinə səbəb olur.

Ekspertlər qanunun 14-cü maddəsinin birinci hissəsinin beşinci bəndinin də çıxarılmasını təklif etmişlər. Bu maddəyə görə toplantıya, mitinqə gələnlərin üstündə müxtəlif əşya və maddələrin, odlu və soyuq silahın, şüşə və taxta parçaların, daş-kəsək, partlayıcı maddələr, zəhərli və tezalışan maddələrin olduğuna şübhə yaranarsa, həmin şəxslərin polis tərəfindən şəxsi baxışı keçirilə bilər. Məncə, 14-cü maddənin

birinci hissəsinin beşinci bəndi çıxarıla bilməz. Ona görə ki, biz hələlik polis haqqında qanun qəbul etməmişik.

Mən bir məsələyə xüsusi toxunmaq istəyirəm. Hər bir ölkənin öz tarixi, ənənəsi var, mentaliteti var. Dünyada heç bir ölkə bir-birinə bənzəmir. Biz müstəqil dövlətik, özümüz özümüzə qiymət verməliyik. Bəli, onların dediklərini nəzərə almalıyıq. Lakin Azərbaycan heç yerdən idarə oluna bilməz. Onlar fikir söyləyə bilərlər, biz razı ola da bilərik, olmaya da bilərik. Konstitusiyada yazılır ki, hakimiyyətin mənbəyi xalqdır və bu deputatları da xalq seçib, xalqın səlahiyyətli nümayəndələridirlər. Məsələn, ATƏT deyir, onların lazım olanını qəbul edirik. Beynəlxalq təşkilatlar belə deyir, milli demokratiya institutları elə deyir. Bir çoxları bu fikri əsas tutublar ki, onlar deyəni hökmən eləmək lazımdır. Bəs onda Milli Məclis nəyə görədir? Bir vaxt, sovet dövründə deyirdik ki, Moskva belə deyib, Moskva elə deyib, onu eləmək lazımdır. Müstəqillik qazananda da, indi də üzümüzü tutmuşuq ki, ATƏT belə deyib, hökmən eləmək lazımdır. Biz onların təkliflərini qəbul edirik. Lakin müzakirə edib bizim mentalitetimizə, respublikamıza, onun xarakterinə uyğun olanları qəbul edirik, uyğun olmayanlar haqqında isə öz fikrimizi deyirik. Hökm deyil ki, elə deyilənlərin hamısını qəbul eləyək. Mən təklif edirəm ki, Milli Məclis deputatlarının qaldırdıqları bu məsələlər ikinci oxunuşda nəzərə alınsın, üçüncü oxunuşda bunlar səsə qoyulsun.

30 oktyabr 1998-ci il

Hörmətli sədr, hörmətli Milli Məclis deputatları! Doğrudan da, bu gün müzakirə etdiyimiz qanun öz əhəmiyyəti baxımından çox aktualdır. Çünki xalqın taleyi də, onun müqəddəratı da, gələcəyi də bizim övladlarımızdır.

Övladlarımızın təhsili üçün isə hökmən və hökmən kitabxanalar olmalıdır və kitabxanalar müasir səviyyədə fəaliyyət göstərməlidir. Heç də danılası fakt deyil ki, Sovetlər Birliyi dövründə bütün SSRİ ərazisində, o cümlədən Azərbaycanda olan kitabxanalar çox uğurlu fəaliyyət göstəribdir və bugünkü ziyalıların, bugünkü nəsillərin yetişməsində kitabxanaların xidmətini qətiyyən danmaq olmaz. Kitabxanaların fəaliyyəti o dövrün, yəni Sovet Birliyi dövrünün ən mühüm və uğurlu sahələrindən biri sayıla bilər. İndi bu qanunun qəbul edilməsi çox düzgün olaraq əsas qanunlar siyahısına salınıbdır. Burada kitabxana işçiləri, kitabxana müdirləri iştirak edir. Mən hər bir kitabxanaçının müdirindən, direktorundan tutmuş ən kiçik kitab paylayanına qədər hamının əməyini çox yüksək qiymətləndirirəm. Ona görə ki, onların əməyi cəfakeşlikdir, vətənə, xalqa, millətə xidmət nümunəsidir. Bu baxımdan da biz kitabxana işçilərinin fəaliyyətinə yüksək qiymət veririk.

Lakin burada bir neçə məsələ qaldırıldı ki, yəqin, mütəxəssislər bilər, onlar qanunda öz əksini tapmalıdır. Son zamanlar kitabxana işinə bir qədər səhlənkar yanaşırlar və kitabxanalar tamamilə diqqətdən kənarda qalıbdır. Elə bil ki, kommersiya, biznes bu kitabxanaları unutdurubdur. Elə kitabxanaya gedənlərin sayı da azalıbdır. Əvvəllər kitabxanalarda tədbirlər, oxucu konfransları keçirilərdi. İndi elə bil ki, bunlar bir növ unudulubdur. Bunu canlandırmaq lazımdır ki, kitabxana həm də ictimai-siyasi tədbirlərin məskəni olsun.

Bır də, keçən dəfə Həsən müəllim çox düzgün olaraq bir məsələ qaldırdı. Bilirsiniz ki, indi özəl nəşriyyatlar çoxalıb. Əvvəllər nəşriyyatlar dövlətə baxırdı. Ona görə də nəşr olunan bütün kitabların nüsxələri hökmən kitabxanalara göndərilirdi. Çünki kitabxana fondu daim zənginləşməli, yeni kitablar

hesabına artmalıdır. İndi isə bu həyata keçirilmir. Bunu hökmən bərpa etmək lazımdır. İkinci bir tərəfdən isə əvvəllər xaricdən, başqa ölkələrdən kitablar alınardı. İndi bu məsələ çox çətinləşibdir. Ona görə də xaricdən kitablar alınması üçün dövlət kitabxanalarına büdcədən hökmən maliyyə vəsaiti nəzərdə tutulmalıdır. Burada özəl kitabxanalar haqqında danışıldı. Mən bunu heç cür qəbul eləyə bilmirəm. Dövlət tərəfindən qayğı görməyən kitabxana, çox güman ki, uzun müddət fəaliyyət göstərə bilməz. Hesab edirəm ki, bizdə olan dövlət kitabxanaları, akademiyanın, ali məktəblərin kitabxanaları dövlətin funksiyasında qalmalıdır. Bir də, hiss olunur ki, keçən dəfəki müzakirədə deyilən təkliflərin hamısı nəzərə alınıbdır və qanun layihəsi get-gedə təkmilləşir.

Burada kitabxana fəaliyyətinə o qədər aid olmasa da, bir məsələ qaldırıldı. Murtuz müəllimin də bu məsələyə münasibətini bir mütəxəssis kimi çox düzgün qiymətləndirirəm. Bu, latın əlifbası ilə əlaqədar olan məsələdir. Əvvəl onu deyim ki, bu məsələ Milli Məclisdə qəbul olunub, biz kiril əlifbasından latın əlifbasına keçmişik. Yəni bu müzakirə obyekti deyil və biz bir də o məsələyə qayıtmırıq, qayıda da bilmərik. Bu gün Rusiya Federasiyasından başqa, dünyanın heç bir yerində kiril əlifbasından istifadə olunmur. Bütün Avropa, Asiya, Amerika dövlətləri, məlumdur ki, əlifbalarını latın qrafikası əsasında qurublar. Sivilizasiyaya, dünya standartlarına getdiyimiz dövrdə yenidən kirilə qayıtmaq bizə qətiyyən səmərə verməz. Kiril qrafikası bizim tarixdə 50 il fəaliyyət göstəribdir. 50 il isə Azərbaycan və SSRİ-nin başqa respublikaları üçün tarixdə heç də böyük dövr deyil. Məzdək müəllim onu doğru olaraq dedi ki, bu 50 ildə bizim kitablar nəşr olunubdur, kitabxanalar kiril əlifbası ilə yazılmış kitablar ilə zənginləşibdir və latın qrafikasına keçmək gələcək nəsil üçün onları oxumaqda

problem yaradır. Ancaq gələcəkdə biz sivilizasiyaya qoşulanda övladlarımız gözü bağlı olmayacaq və həmin əlifba ilə dünya ədəbiyyatını asanlıqla oxuya biləcəklər.

Mən bir məsələni də diqqətinizə çatdırım ki, bu əlifba bizi həm də türk dünyasına, Avropa və Asiyanın bir çox sivilizasiyalı ölkələrinə qovuşdurur. Bilirsiniz ki, Sovetlər Birliyi dövründə bütün SSRİ ərazisində yaşayan türkdilli xalqların hamısı kiril əlifbasına keçmişdi. Ancaq bu kiril əlifbasında elə müstəsnalar qoymuşdular ki, biz özbəyin, türkmənin, qazağın, qaraqalpağın, qırğızın yazısını oxuya bilmirdik. Çünki kiril əlifbasında qəsdən dəyişikliklər aparmışdılar. Ona görə ki, türkün türkə sözünü mütləq rus deməli idi. Bax, bu məsələdə əlifba özü ciddi əngəllərdən biri idi. İndi bu qarışıqlıq, bu əngəl tamamilə aradan götürülüb.

Burada bir nöqsan da var idi. Mən bir dilçi kimi bu məsələyə toxunmaq istəyirəm, çünki bu çox vacib məsələdir. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra 1922-ci ildə Xalq Komissarları Soveti göstəriş, qərar veribdir ki, 1922-ci ildən 1929-cu ilə qədər, 6 il müddətində ərəb əlifbası ilə latın əlifbası paralel işlənsin. Xalq bu qənaətə gəlibdir ki, latın əlifbasına keçmək olar və bu çox uğurlu addımdır. 6 ildən sonra, 1929-cu ildə latın qrafikasına keçirilibdir. 1939-cu ilə qədər biz latın əlifbası ilə yazmışıq və 1926-cı ildə Azərbaycanda birinci türkoloji qurultay çağırılanda Türkiyə nümayəndələri görüblər ki, azəri qardaşları ərəb əlifbasından imtina edib, latın qrafikasına keçiblər. Onlar bunu alqışlayıb və 1926-cı ildə Türkiyə Cümhuriyyəti də latın əlifbasına keçibdir. Lakin çox qəribə haldır ki, əgər ərəb əlifbasından latın əlifbasına keçid 6 il müddətində müzakirə olunub, müzakirələr nəticəsində qəbul olundusa, totalitar rejim bir günün içərisində, 1939-cu il dekabrın 31-də qərar verdi və 1940-cı il yanvarın 1-də heç bir müzakirəsiz, totalitar qaydada

birbaşa kiril əlifbasına keçildi. Yəni məcburiyyət qarşısında bu əlifbaya keçdik. İndi bütün bu çətinliklərdən sonra bizim yenidən kiril qrafikasına qayıtmağımız çox çətin olar və qətiyyən bu addımı atmaq olmaz. Müəyyən çətinliklərimiz də olsa, bizim müstəqilliyimiz, suverenliyimiz kimi bu əlifbanı qəbul etməyimiz də müstəqillik aktı kimi yüksək səviyyəyə malik bir addımdır. Ona görə biz bunu müdafiə etməliyik, öyrənməliyik, tətbiq və təbliğ etməliyik. Diqqətinizə görə təfəkkür edirəm.

* * *

Hörmətli sədr, hörmətli Milli Məclis deputatları! Doğrudan da, Azərbaycan Parlamentinin 80 illiyinin respublika səviyyəsində və bizim Milli Məclis səviyyəsində çox yüksək hazırlıqla təşkil olunması, yubileyin keçirilməsi çox təqdirəlayiq bir haldır. Bu onu göstərir ki, Azərbaycan dövləti də, Azərbaycan Parlamenti də belə məsələlərdə çox diqqətlidir və lazımlı məsələləri yüksək səviyyədə qeyd eləyə bilir. Doğrudan da, mən o dövrlə az-çox tanışam, çünki o dövrün dilini işləmişəm. Lakin Vilayət müəllimin məruzəsinə diqqətlə qulaq asanda o, mənim gözümün qarşısına gəldi. Vilayət müəllim ədəbiyyatşünas, tarixçi, arxivə yaxşı bələd olan tədqiqatçı kimi böyük bir tədqiqat işi aparmışdır. Çox diqqətə və təqdirəlayiq elmi bir məruzə idi. Burada səsləndi, Milli Məclisin əgər imkanı varsa, onun xərci ilə həmin məruzə hökmən nəşr olunmalıdır. Rizvan müəllim qərar layihəsini çox yüksək səviyyədə hazırlamışdır.

Dövlət səviyyəsində, Prezidentimizin səviyyəsində Respublika sarayında bu tədbirin keçirilməsi də çox böyük, diqqətəlayiq olan hadisələrdən biridir. Doğrudan da, çox xalqlarda belə olmur. Bunu qiymətləndirməyi bacarmaq

lazımdır. Azərbaycan xalqının yaddaşında bir parlament tarixi olubdur. Doğrudan da, 80 il bundan əvvəl yaranmış parlament Azərbaycan dövlətçiliyinin, Azərbaycan Parlamentinin yaddaş tarixini yenidən vərəqləməyə imkan verdi və bu mənada deputat kimi Milli Məclisin rəhbərliyinə də öz təşəkkürümü bildirirəm ki, bu məsələni çox yüksək səviyyədə respublika ictimaiyyətinə çatdıra bildi. Bildilər ki, Azərbaycan xalqının tarixi, mədəniyyəti olduğu kimi, onun parlament tarixi də vardır.

4 dekabr 1998-ci il

Hörmətli sədr, hörmətli Milli Məclis deputatları! Bəyanat bu gün Milli Məclisin deputatları tərəfindən çox diqqətlə dinlənildi. Deyərdim, çox ətraflı, məqsədəmüvafiq və vaxtında hazırlanmış bir bəyanatdır. Bu bəyanatın geniş şəkildə yayılmasına və şərh olunmasına çox ciddi ehtiyac var.

Buradakı çıxışlarda, bir çox qəzet-jurnal materiallarında bəzən müəyyən tənqidi qeydlərə rast gəlirik ki, guya Naxçıvan unudulub, yaddan çıxarılıbdır. Necə ki, vaxtilə Qarabağ haqqında, yaxud da ondan əvvəl Zəngəzur haqqında, Qərbi Azərbaycan haqqında danışmadıq, ona görə də bu torpaqlar əlimizdən çıxdı. Bunun əsl kökünü bizim bu barədə danışıb-danışmamağımızla əlaqələndirmək düz deyil. Bunun kökü tamam başqa səbəblərlə bağlıdır. Ancaq biz, təbii ki, bu torpaqların, eləcə də Naxçıvanın qədim Azərbaycan torpağı olması və eramızdan da əvvəl qədim azərbaycanlıların, qədim türklərin bu torpaqda yaşaması haqqında müəyyən elmi, nəzəri, tənqidi məqalələrlə çıxış etməliyik.

İndi burada, mənim qarşımda iki kitab var. Biri, «Azərbaycan tarixində Naxçıvan» kitabı, 1996-cı ildə nəşr olunub. Bu, məqalələr məcmuəsidir. Naxçıvanda böyük

konfrans keçirilibdir. O konfransın materialları burada toplanıbdır. İkinci kitab «Naxçıvan tarixinin səhifələri» adlanır. Təxminən 30-a yaxın məqalə də bu kitabda nəşr olunubdur. Vaxtilə bu kitablar mən Pedaqoji Universitetdə işləyərkən APİ-nin nəşriyyatı tərəfindən buraxılıb. Mən deputatların diqqətinə çatdırmaq istəyirəm ki, «Naxçıvan tarixinin səhifələri» kitabı Türkiyədə kütləvi tirajla latın əlifbası ilə Türkiyə türkcəsində də nəşr edilib yayılıbdır. Yəni alimlər, bu sahə ilə məşğul olan insanlar heç də Naxçıvanı unutmamış, bu və ya digər şəkildə bu məsələyə qayıtmışlar. Bu kitabın əvvəlində möhtərəm Prezidentimiz Heydər Əliyev cənablarının Naxçıvan beynəlxalq simpoziumunun iştirakçılarına məktubu var. Bu, həmişə diqqətdə olubdur və diqqətdə də olacaqdır.

Mən burada Milli Məclisin deputatlarının, eləcə də bizim qəzet redaktorlarının və burada iştirak edən müxbirlərin diqqətinə çatdırmaq istəyirəm ki, bu, mövsümü xarakter daşımamalıdır. İstər radio və televiziya verilişlərində, istərsə də bizim qəzet səhifələrində bu məsələlər mütəmadi olaraq işıqlandırılmalı və biz torpağımızın hər qarışı haqqında belə tarixi mənbələri bütün ictimaiyyətin diqqətinə çatdırmalıyıq. Bu mənada başladığımız iş çox zəruri, əhəmiyyətli bir işdir. Bunu sonuna qədər ardıcıl şəkildə davam etdirmək lazımdır. Diqqətinizə görə təşəkkür edirəm.

9 fevral 1999-cu il

Hörmətli sədr, hörmətli Milli Məclis deputatları! İstər 1992-ci ildə, istərsə də bu gün yeni təhsil qanununun qəbul edilməsi o demək deyil ki, ondan əvvəlki təhsil sistemi, yəni sovet təhsil sistemi özünü doğrultmamışdı, müasir standartlara uyğun gəlmirdi, normativ sənədlər qaydasında deyil. Bu

qətiyyən belə deyil. Sovet təhsil sistemi çox mükəmməl bir təhsil sistemi idi. 70 il müddətində uğurla həyata keçirilmiş bu təhsil sistemi qədim alman və rus təhsil sistemlərinin ən yüksək nailiyyətlərindən bəhrələnmişdi və keçmiş sovet respublikalarında əldə olunmuş elmi uğur və nailiyyətlər də həmin təhsilin nəticəsi idi. İndi isə biz müstəqil respublikayıq, təbii olaraq dünya standartlarına, Avropa standartlarına uyğunlaşmalıyıq. Bizim diplomlarımız başqa ölkələrdə də tanınmalıdır. Elmi dərəcələrimiz başqa ölkələrin elmi dərəcələri ilə eyni səviyyədə mübadilə edilməlidir.

Bir çox səbəblərə görə bu təhsil qanunu qəbul olunmalıdır. Heç də təsadüfi deyil ki, qəbul olunduğu vaxtdan xeyli müddət keçdiyinə görə əvvəlki qanunun bir çox müddəaları köhnəlmişdir. İndi yeni Təhsil qanunu qəbul edirik. Bu Təhsil qanunu mükəmməl işlənib. 1995-ci ildə bu məqsədlə Milli Məclisdə işçi qrupu yaradıldı. Mən həmin işçi qrupunun rəhbəri idim. Biz Konstitusiyada olan əlavə və dəyişiklikləri də nəzərə almaqla Milli Məclisə təxminən 40 səhifəlik bir layihə təqdim etdik. Ondan sonra isə həmin layihə də nəzərə alınmaqla 2 il müddətində yenidən mükəmməl bir Təhsil qanunu işlənib. O bu gün ictimaiyyətin müzakirəsinə təqdim olunur.

Mən burada bir məsələyə xüsusi toxunmaq istərdim. Hər bir dövlət birinci növbədə öz təhsilinin qayğısına qalmalıdır. Çünki təhsil strateji məsələdir. Bu baxımdan da heç bir dövlət öz təhsilini başqa bir dövlətin, – lap dost, qardaş dövlət belə olsa, – onun nümayəndələrinin ideoloji təbliğat meydanına çevirməməlidir. Ona görə də təhsildə milli kadrlara üstünlük verilməli və onlar təhsili müasir, mükəmməl səviyyədə davam etdirməlidirlər. Birinci növbədə, bizim Təhsil qanunu siyasiləşməməlidir. Heç bir şəxsin, heç bir siyasi partiyanın ixtiyarı yoxdur ki, öz məqsədləri üçün tələbələrdən, yaxud

şagirdlərdən istifadə etsin. Bu, Təhsil qanununda da öz əksini tapıb. Lakin məncə, bunun qarşısı daha qəti şəkildə alınmalı, tələbələrdən və şagirdlərdən öz məqsədləri üçün istifadə edilməsi çox ciddi cinayət məsuliyyəti ilə nəticələnməlidir. Təhsil ümummilli xarakter daşımalıdır. Burada fikir müxtəlifliyi olmamalıdır.

Keçən dəfə Teymur müəllim çıxış etdi, çox gözəl məlumat verdi. Ondan sonra bizim hörmətli nazirimiz Misir müəllim çıxış etdi. Misir müəllim haqlı olaraq öz qeydlərini bildirdi. O qeydlər Təhsil Nazirliyinin uzun müddət təhsil işində çalışan mütəxəssislərinin fikirləri idi. Mən bir köhnə təhsil işçisi kimi deyirəm ki, bunların hər birisi mükəmməl qeydlərdir. Onlara heç də təsadüfi baxmaq lazım deyil. Çünki onlar təcrübədən çıxmış fikirlərdir.

Burada fikir toqquşması nəyin üzərində daha çox dayanır? Birincisi, ali təhsilin pillələrinin. Bu üç, yaxud dörd pillədən ibarət olmalıdır: bakalavr, magistr, doktorantura pillələri kifayətdir, yoxsa magistrdən sonra aspirantura mərhələsi də olmalıdır? Mən bir məsələni xüsusi qeyd eləyim ki, işçi qrupunun rəhbəri olduğum müddətdə dünya təhsil qanunları ilə əsasən tanış olmuşam. Demokratik, dünyəvi dövlətlərin heç birində aspirantura yoxdur. İndi biz təklif eləyirik ki, aspirantura hələlik saxlanılsın. Bu çox düzgün təklifdir. Çünki bu dəqiqənin özündə də aspiranturada oxuyanlar var, aspiranturaya girmək, yaxud dissertant yolu ilə müdafiə eləmək istəyənlər var. Bilirsiniz ki, 2001-ci ili YUNESKO təhsil ili elan edib. Möhtərəm Prezidentimiz təhsil sahəsində islahatların keçirilməsi barədə xüsusi sərəncam verib. Bu sərəncamda müəyyənləşdirilib ki, bu islahatlar üç mərhələdə – 1999, 2003, 2004-cü illərdə həyata keçirilib başa çatdırılmalıdır. Mənim təklifim ondan ibarətdir ki, bu keçid dövründə aspirantura saxlanılsa belə, islahatlar başa çatdıqdan

sonra aspirantura olmamalıdır. Çünki bizim diplomlar xaricdə eyni dərəcədə qəbul olunmalıdır.

Mən özəl məktəblər məsələsinə xüsusi toxunmaq istəyirəm. İndi burada Babaxan müəllim dedi ki, 120-yə yaxın özəl məktəb var. Ancaq iki il bundan qabaq bizim işçi qrup müəyyənləşdirdi ki, onların sayı 150-ni keçibdir. Özəl məktəblərin sayının belə sürətlə artması heç də yaxşı əlamət deyil. Məsələn, Yaponiya kimi dövlətdə cəmi üç özəl məktəb var. Türkiyə kimi böyük bir dövlətdə beş, ya altı özəl məktəb var. İndi yaxşı, biz çox təhsil alan adamlarıq, savadı qiymətləndirən adamlarıq, bizdə 17 olsun. Ancaq gəlin yoxlayaq, görək bu özəl məktəblərdə dərs deyən kadr potensialı haradan gedib.

Mən rektor işlədiyim dövrdə qəribə bir hadisənin şahidi olmuşdum. Bizim kafedra müdirləri və dekanlar eyni zamanda özəl məktəblərin hansındasa kafedra müdiri, dekan və yaxud prorektor idilər. İndi də belədir. Bu, əmək müqavilələri haqqında qanunun tələblərini də pozur axı. Bir adam iki yerdə bütöv ştatla işləyə bilər? Birində, heç olmasa, yarım ştat əvəzçiliklə işləməlidir. Bu qanunlar tamamilə pozulub. Təhsil Nazirliyi və müvafiq təşkilatlar bu məsələni ciddi şəkildə yoxlamalı və müəyyən ölçü götürməlidir. Heç belə də şey olar? Kəndlərdə bu saat özəl məktəblər açıblar. Tovuz rayonunun Bozalqanlı kəndində, deyəsən, dövlət universiteti fəaliyyət göstərir. Bu kadrları haradan alıblar? Az qala bütün Azərbaycan rayonları bu saat universitetlər açıb, hüquqşünaslar, həkimlər və sair ali təhsilli mütəxəssislər hazırlayır. Xalqın gələcək taleyini də fikirləşmək lazımdır. Bunu bu şəkildə qoymaq olmaz.

26 fevral 1999-cu il

Hörmətli sədr, hörmətli Milli Məclis deputatları! Turizm haqqında qanunun qəbul edilməsi çox vacibdir. Şərqdə müstəqil, suveren dövlət kimi tanınmış və ictimai-siyasi, coğrafi ərazisi turizm üçün çox əlverişli olan bir ölkədə turizm haqqında qanunun bu qədər gecikməsi yaxşı hal deyil. Ancaq geciksə də, nəhayət, indi müzakirəyə verilibdir. Mən diqqətlə oxumuşam, Turizm haqqında qanun layihəsi çox gözəl, mükəmməl işlənibdir və qəbul edilə bilər. Məmməd müəllim layihə haqqında geniş məlumat verdi. Samur müəllimin də geniş çıxışını dinlədik. Rza müəllim də ciddi məsələlərə toxundu və bunların hər biri qanun layihəsinin təkmilləşdirilməsi üçün nəzərə alınmalıdır. Onu deyim ki, biz hamımız diqqətimizi neftə, yaxud da Azərbaycanın başqa təbii sərvətlərinə dikmişik. Bir çox dövlətlər turizmdən nəinki dolanırlar, hətta dövlətin bütün standartları turizmlə idarə olunur və turizm dövlətin siyasi və iqtisadi vəziyyətini müəyyən edir.

Mən qanun layihəsini diqqətlə oxumuşam. Bəzi bəndlərlə əlaqədar suallarım və təkliflərim var. Xahiş edirəm, Məmməd müəllim bu məsələlər haqqında öz fikrini bildirsin. 4-cü maddənin 1-ci bəndində göstərilir: «Turistlərin səyahətləri zamanı istirahət, yerdəyişmə azadlığı və digər hüquqlarını təmin etmək”. Burada belə bir sual meydana çıxır. Turistlərin təhlükəsizliyinə təminat verilməsi göstərilməmişdir. Bu məsələyə Rza müəllim də çox düzgün olaraq toxundu. O necə həll olunacaq? Turistlərin təhlükəsizliyinə təminat verilməsi çox mühüm məsələdir. Bununla əlaqədar qanun layihəsində bir maddə belə yoxdur.

İkincisi, 8-ci maddənin 4-cü yarımbəndində deyilir: «Səyahət zamanı şəxsi təhlükəsizlik qaydalarına riayət etmək». Təklif edərdim ki, «şəxsi və ictimai təhlükəsizlik qaydalarına riayət etmək» kimi verilsin. 10-cu maddənin 11-ci

bəndində yazılır: «Turist tərəfindən iddia irəli sürülməsi qaydası və müddəti». Turist tərəfindən iddia irəli sürülməsi qaydası mülki qanunvericilikdə nəzərdə tutulmuş qaydada olacaqmı, yoxsa bunun xüsusi halı müəyyən ediləcək? Mülki qanunvericilikdə müxtəlif iddia müddətləri nəzərdə tutulub. Təklif edirəm ki, iddia müddəti konkretləşdirilsin. Yoxsa turizm təşkilatları özlərinə sərf edən qaydada iddia müddəti müəyyən edəcəklər. Hər bir halda turistin üstün hüquqları müəyyən edilməlidir.

7-ci maddədə göstərilir: «Getdiyi ölkənin hakimiyyət, yerli özünüidarə orqanlarından hüquqi və digər təxirəsalınmaz yardım növləri göstərilməsində kömək almaq». Təklif edirəm ki, həmin maddəyə belə bir əlavə edilsin: «Getdiyi ölkənin hakimiyyət, yerli özünüidarə orqanlarından təhlükəsizliyinə təminat almaq». Nəhayət, redaktə xarakterli bir təklifim də var. 8-ci maddənin 2-ci hissəsində yazılır ki, turist olduğu ölkədə ətraf mühiti mühafizə etməlidir. Belə yazılsa, daha yaxşı olar: «Ətraf mühiti mühafizə qaydalarına riayət etmək». Diqqətinizə görə təşəkkür edirəm.

16 mart 1999-cu il

Hörmətli sədr, hörmətli millət vəkilləri! «Milli Arxiv fondu haqqında». Mənim belə bir sualım var. Onda gərək bütün qanunların böyük əksəriyyətinin adının əvvəlinə «milli» sözü artıraq. Bizim qanunvericilik sənədlərinin hamısı millidir. Ona görə də burada «milli» sözünün işlədilməsi artıqdır. «Arxiv fondu haqqında qanun» adlandırılmalıdır. 5-ci maddədə milli arxiv fonduna daxil edilən sənədlərin siyahısına ictimai təşkilatların sənədləri də daxil edilməmişdir. Məsələn, həmkarlar təşkilatı və s. Birinci təklifim budur.

İkinci, 13-cü maddə «Milli Arxiv fondu sənədlərinin

məhv edilməsi qaydası» adlansa da, bu maddə, əslində, həmin qaydanı müəyyən etmir. Maddənin 1-ci hissəsində göstərilir: «Milli Arxiv fondu sənədlərinin dəyərinin ekspertizası keçirilmədən məhv edilməsi qadağandır». Hansı sənədlər və hansı müddətdən sonra məhv edilə bilər? Bütün sənədlər ekspertiza aparılmaqla məhv edilə bilərmi? Bu ekspertizanın aparılmasını kim müəyyən edir? Bu çox ciddi məsələ olduğuna görə həmin suallara konkret olaraq maddədə cavab verilməlidir.

Üçüncü, 17-ci maddə «Milli Arxiv fondunun sənədlərindən istifadə qaydaları» adlanır və 4-cü hissəsində göstərilir: «Tərkibində dövlət sirri olan arxiv sənədlərindən istifadəyə qanunvericilikdə başqa hal nəzərdə tutulmayıbsa, onların meydana gəlməsindən 30 il sonra icazə verilir. Bu müddət müstəsna hallarda müvafiq icra hakimiyyəti orqanı tərəfindən dəyişdirilə bilər». Əvvəla, bu arxiv sənədlərini müvafiq icra hakimiyyətinin səlahiyyətinə vermək məsələsinə münasibəti bilmək istəyirəm. Bir də, dövlət sirrini təşkil edən bütün arxiv sənədlərinin açıqlanmasına icazə veriləcəyi barədə söhbət oldu. Bütün sənədlərmi buna aiddir? Elə arxiv sənədləri var ki, onların açıqlanması dövlətçiliyə böyük zərbə vura bilər. Bunun üçün də burada yazılmalıdır, yaxud müəyyənləşdirilməlidir ki, dövlətçiliyə xələl gətirəcək arxiv sənədlərinin açıqlanmasına yol verilmir. Mən xahiş edirəm, bu sual və təkliflərə münasibət bildirilsin.

23 mart 1999-cu il

Hörmətli sədr, hörmətli Milli Məclis deputatları! Torpaq üzərində xüsusi mülkiyyət hüququ əldə etmək hər bir Azərbaycan vətəndaşının arzusudur. Bu mənada müzakirə etdiyimiz torpaq bazarı haqqında qanun layihəsini hansı

formada qəbul etməyimizin böyük əhəmiyyəti vardır. Bu qanunun spesifik cəhəti ondan ibarətdir ki, hər bir vətəndaş ondan istifadə edəcək. Qanun layihəsində ən çox mübahisə doğuran məsələ torpaqların alqı-satqısı məsələsidir. Torpağa mülkiyyət hüququ əldə edən və maddi vəziyyəti yüksək olmayan şəxslər torpağı satmağa çalışacaqlar. Buna görə do elə bir ciddi mexanizm işlənməlidir ki, torpaq bir qrup imkanlı şəxslərin əlində cəmləşməsin. Bu hal sürətlə təbəqələşməyə səbəb ola bilər. Buna görə də bütün torpaqlar yararlılığına və digər təsnifatlarına görə qruplara bölünməli, minimum normativ satış qiyməti müəyyənləşdirilməlidir. Bu halda torpaqların alqı-satqısı zamanı həm torpaqların mülkiyyətçiyə sərf edən şəkildə satılmasına imkan verər, həm də dövlət rüsumundan qaçmağın qarşısını ala bilər. Əlbəttə, torpaqlar münbitlik dərəcəsinə görə də fərqləndirilməlidir.

Qərib müəllim indi burada məlumat verdi ki, artıq respublikanın əksər rayonlarında torpaqların 95 faizi şəxsi mülkiyyətə verilmişdir. Amma o da məlumdur ki, şəxsi mülkiyyətə verilən torpaq sahələrindən maliyyə vəsaitinin olmaması üzündən mülkiyyətçilər səmərəli istifadə edə bilmirlər. Torpaqların kütləvi surətdə satılmasının qarşısının alınması üçün banklar tərəfindən mülkiyyətçilərə qısa və uzunmüddətli ssudalar, kreditlər verilməli, kəndlinin torpaqdan səmərəli istifadə etməsi və vətəndaşların ərzaq məhsullarına olan tələbatlarını ödəmək üçün onlara hər cür kömək göstərilməlidir. Bilmək lazımdır ki, əgər biz bazarlarımızda keyfiyyətli ərzaq məhsulları görmək istəyiriksə və xaricdən gələn şübhə ilə yanaşdığımız ərzaq məhsullarının qarşısını almaq istəyiriksə, torpaq mülkiyyətçilərinə hər nov yardım göstərilməlidir. Sizi inandırıram ki, əgər torpaq mülkiyyətçilərinə lazımi yardım göstərilməsə, torpaqların alqı-satqısı zamanı torpaqlar imkanlı xarici vətəndaşların əlinə

keçəcəkdir. Torpaqların minimum normativ satış qiymətləri müəyyənləşdirilərkən digər dövlətlərin təcrübəsindən də istifadə etmək lazımdır.

16 aprel 1999-cu il

Hörmətli sədr, hörmətli Milli Məclis deputatları! Müzakirəmizə təqdim edilən qanun layihəsi şəxsiyyətin, cəmiyyətin, dövlətin təhlükəsizliyinin təmin edilməsinə yönəldilmişdir. Azərbaycan dövlətinin bu sahədə apardığı məqsədyönlü siyasət terrorizmə qarşı barışmaz olduğumuzu bir daha sübuta yetirməkdədir. Qonşu dövlətlərin ərazisində baş verən terror aksiyaları göstərir ki, bu haqda qanun qəbul olunması qaçılmaz zərurətdir. Bu sahədə də beynəlxalq təşkilatların köməyindən istifadə olunmalı, terrorizmə qarşı mübarizə aparmaq üçün əməkdaşlıq yaradılmalı, mütəxəssislər hazırlanmalıdır. Bu mütəxəssislərin hazırlanmasına diqqət yetirmək lazımdır. Mən bu qanunu diqqətlə oxumuşam və son dövrlər hazırlanan qanunlar içərisində istər hüquqi cəhətdən, istər dilinin səlisliyi baxımından və istərsə də anlayışların izahı baxımından onu daha mükəmməl bir qanun hesab edirəm. Belə ki, terrorizm, terror aksiyası, terrorçu, terror qrupu və s. kimi anlayışlar çox düzgün açılmış və aydın şərh edilmişdir.

Mən demək istərdim ki, bütün qanunlar məhz bu səviyyədə, bu cür işlənsə, bu daha məqsədəmüvafiq olar. Nəzərə almaq lazımdır ki, terrorizm çox təhlükəli bir cinayətdir. Ona qarşı mübarizədə qətiyyən səhvə yol vermək olmaz. Elə bilirəm ki, bu qanun layihəsi kifayət qədər ətraflı hazırlanıb və bunu qəbul etmək olar.

23 aprel 1999-cu il

Hörmətli sədr, hörmətli Milli Məclis üzvləri, hörmətli qonaqlar! Hər bir vətəndaş tutduğu vəzifədən və mövqeyindən asılı olmayaraq insanların həyatı və sağlamlığının mühafizəsi üçün əlindən gələni etməlidir. Elə bilirəm ki, ətraf mühitin mühafizəsi hamımızın ağrılı yeridir. Ətraf mühitin mühafizəsində mülkiyyət formasından asılı olmayaraq, müəssisə və təşkilatlar üzərinə böyük məsuliyyət düşür. İlk dəfə olaraq bu qanunun pozulması nəticəsində vətəndaşların sağlamlığına və əmlakına vurulan zərərin ödənilməsi hüququ nəzərdə tutulur. Təbiətin, ətraf mühitin qorunması sağlamlığımızın qorunması deməkdir. Ona görə də təbii ehtiyatlardan elə səmərəli istifadə etmək lazımdır ki, həmin ehtiyatlar tükənməsin. Təbii ehtiyatlar bütün xalqın milli sərvətidir. Ətraf mühitin mühafizəsinə yad mövqedən yanaşılmamalıdır. Amma çox təəssüflər olsun ki, bəzi idarə və müəssisələr sağlamlığımızın qorunması üçün adicə sanitariya və gigiyena qaydalarına belə əməl etmirlər. Təbiətin qorunmasına nə qədər ögey münasibət bəsləsək, sonra bu özümüzə qarşı çevriləcək.

Təbii ehtiyatlardan istifadəyə razılıq verərkən, xüsusilə ehtiyatlı olmaq gərəkdir. Yerli iş adamlarını bu işə cəlb etmək lazımdır. Çünki xaricdən gələn iş adamı qısa zaman çərçivəsində nəyin bahasına olursa-olsun xeyli gəlir götürməyə çalışır. Bu da təbii ehtiyatların tükənməsinə səbəb olan amillərdən biridir. Sənaye, energetika, nəqliyyat və rabitə obyektlərində, kənd təsərrüfatı obyektlərinin istismarı və meliorasiya işlərində ətraf mühitin çirklənməsinin qarşısını alan qurğular, ekoloji cəhətdən təmiz texnologiyalar tətbiq olunmalıdır. Elmi-texniki tərəqqinin nailiyyətlərindən səmərəli istifadə edilməlidir. İri sənaye obyektlərində zərərli tullantıların, maddələrin qalıqlarının təmizlənməsi,

zərərsizləşdirilməsi və istifadə edilməsi üçün ekoloji cəhətdən səmərəli qurğular quraşdırılmalıdır. Bütün sənaye obyektləri mülkiyyət formasından asılı olmayaraq təbii ehtiyatlardan qənaətlə və səmərəli istifadə etməli, ekoloji təhlükəsizlik üzrə tədbirlər görməlidirlər.

Şəhərlərin və digər yaşayış məntəqələrinin layihələşdirilməsi və tikintisində əhalinin həyatı və istirahəti üçün əlverişli şəraitin yaradılmasından ötrü ekoloji tələblər nəzərə alınmalıdır. Müsbət haldır ki, qanun layihəsində əhalinin sıx olduğu ərazilərdə, seysmik təhlükəli zonalarda, tarixi və mədəniyyət abidələri yerləşən ərazilərdə atom və su-elektrik stansiyalarının tikintisi qadağan edilir. Radioaktiv maddələrin daşınması, istifadəsi və saxlanılmasına xüsusi diqqət yetirilməli, ətraf mühitin çirklənməsinə yol verilməməli, bunun qarşısı alınmalıdır. Radioaktiv tullantılar elə yerdə basdırılmalıdır ki, insanların sağlamlığına və ətraf mühitə heç bir təhlükə törətməsin.

Mən bir neçə məsələ üzərində xüsusi dayanmaq istəyirəm. Burada mütəxəssislər də iştirak edirlər. Bir neçə dəfə Azərbaycan televiziyası ilə bu barədə məlumat verilib və orada çəkiliş işləri də aparılıb. Ceyranbatandan və Kürdən Bakıya gələn su xətlərinin təmizlənməsi işi keyfiyyətli aparılmır. Xüsusilə Ceyranbatanda olan avadanlıqlar tamamilə köhnəlib, təmizlənmə heç 30 faizə də çatmır. Bu qurğular köhnə də olsa, onlar ciddi təmirə dayandırılmalı və normal qaydada iş rejiminə qoyulmalıdır, yaxud həmin qurğular hökmən təzələnməlidir.

Bir məsələni də xüsusi vurğulamaq istəyirəm. Hamımıza məlumdur ki, Araz çayı Ermənistandan, Kür isə Gürcüstandan keçib gəlir. Son dövrlərdə Araz çayı xeyli çirklənibdir. Ermənistanda olan kauçuk zavodu, bir çox kimyəvi zavodların tullantıları əvvəllər Sovetlər Birliyi dövründə müəyyən

filtrasiyadan keçirdisə, onların müəyyən hissəsi basdırılırdısa, təmizlənirdisə, indi əksinə, birbaşa Araz çayına axıdılır və ondan da Azərbaycan ərazisinə daxil olur. Azərbaycanda isə əhali həmin sudan həm əkinçilik üçün, həm də içməli su kimi istifadə edir. Gürcüstanda da Tiflisdən keçir. Orada da vəziyyət Ermənistandakından o qədər yaxşı deyil. Bu, bizim əlaqədar təşkilatları düşündürməli, beynəlxalq təşkilatlar qarşısında çox ciddi şəkildə məsələ qaldırılmalıdır. Təsərrüfat fəaliyyəti layihələrinin həyata keçirilməsi zamanı yaradılacaq dövlət ekoloji ekspertizasının bu sahədə böyük fəaliyyəti ola bilər. Hər bir halda layihə müəlliflərinin gərgin əməyi hiss olunur. Bu qanun layihəsi əsas kimi qəbul oluna bilər, ikinci oxunuşda maddələr üzrə fikirlərimizi deyəcəyik. Diqqətinizə görə təşəkkür edirik.

* * *

Hörmətli sədr, hörmətli *Milli* Məclis üzvləri və dəvət olunan qonaqlar! Məlumdur ki, hər bir ölkənin heyvanlar aləmi onun milli sərvətidir, vətəndaşlarının mənəvi və estetik tələbat mənbəyidir. Buna görə də müzakirəmizə təqdim edilən qanun layihəsi öz əhəmiyyətinə görə digər qanunlardan geri qalmır. Ölkənin flora və faunasının zənginləşməsi üçün mühüm qayğı lazımdır. Respublikamızda bu mühüm sahəyə necə diqqət yetirilir? Bu suala birmənalı cavab vermək mümkün deyil. Heyvanlar aləminə ögey münasibət bəslənilir. Xəzər dənizində balıqların qorunması və artırılması üçün mühüm tədbirlər görülməlidir. Dövlət qoruqlarında və dənizdə özbaşına ov edənlər – brakonyerlər respublikamızın heyvanlar aləminə ciddi ziyan vururlar. Çox zaman da bu qanunsuz işdə cavabdeh olan şəxslər daha fəal mövqe tuturlar. Bu gün istər Xəzərdə, istərsə də Mil, Muğan, Şirvan və digər dövlət

qoruqlarında heyvanlar aləminə qəsd edilir. Onlar rəhmsizcəsinə məhv edilir. Televiziyada bu haqda dəfələrlə tənqidi reportajlar verilsə də, ciddi bir dönüş olmamışdır. Adları «Qırmızı kitab»a düşən nadir heyvanların qorunması və artırılması üçün nəinki tədbir görülmür, hətta onların kökü kəsilir.

Azərbaycan təbiəti zəngin heyvanlar aləminə görə həmişə fərqlənmişdir. Lakin belə getsə, bu zəngin təbiətdən ancaq xatirə qalacaqdır. Bu gün ovlanması qadağan edilən istənilən heyvan növünün cəsədinə bazarlarda və rayonlara gedən yol boyunca addımbaşı rast gəlmək mümkündür. Cavabdeh təşkilatlar bəyəm bunları görmürlər? Azərbaycan təbiətinə, heyvanlar aləminə mənfur qonşularımız torpaqlarımızı işğal edərkən sağalmaz yara vuruldu. Bir tərəfdən də özümüz qənim kəsilmişik. Şair və yazıçılarımızın ilham mənbəyi olan təbiətin yaraşıqlı heyvanlar aləminə xüsusi fikir vermək lazımdır. Səməd Vurğunun qıyıb güllə atmadığı ceyran və cüyürlər nadanlığın qurbanı olur. Xəzər dənizində balıqların artırılması və qorunmasına xüsusilə diqqət yetirmək lazımdır. Balıq vətəgələrinin yaradılması, balıqların çoxaldılması və qorunmasında qonşu Türkiyə dövlətinin təcrübəsindən istifadə etmək vacibdir. Təbiətin bizə verdiyi nemətlərdən elə istifadə etmək lazımdır ki, gələcək nəsillər də bundan bəhrələnə bilsinlər. Bəzən də belə hallara rast gəlirik:, şəhər kənarında və rayon yerlərində vəhşi heyvanları kafe və restoranlarda yer düzəldib saxlayırlar. Bütün bunların qarşısı alınmalıdır.

Hesab edirəm ki, təqdim edilən qanun layihəsi bütün bu qanunsuzluqların qarşısını alacaq və nəhayət, bu sahədə ciddi bir iş görüləcəkdir.

Bu qanun layihəsi çox düzgün, özü də gözəl işlənilib, 8 fəsil, 54 maddədən ibarətdir. Burada floraya, faunaya,

heyvanlar aləminə aid anlayışlar çox gözəl şərh olunubdur. Təqdirəlayiq qanundur. Ancaq Milli Məclisin rəhbərliyi də, biz də, hüquq-mühafizə orqanları da birlikdə, elliliklə nəzarət eləməliyik ki, bu gözəlliyi qoruyub saxlaya bilək. Bu qanun layihəsini mükəmməl işlədiklərinə görə komissiya üzvlərinə təşəkkürümü bildirirəm.

28 aprel 1999-cu il

Hörmətli sədr, hörmətli Milli Məclisin deputatları! Müzakirəmizə təqdim edilən Bələdiyyələrin statusu haqqında qanun layihəsi hamımız üçün yeni bir qanundur. Konstitusiyaya uyğun olaraq keçiriləcək bələdiyyə seçkiləri respublikamızın həyatında yeni bir mərhələ olacaqdır. Majoritar seçki sistemi əsasında keçiriləcək seçkilərdə seçilmək hüququna malik olan bütün vətəndaşlar bələdiyyə şuralarına seçilmək imkanı əldə edəcəklər. Vətəndaşlar arasında ayrı-seçkilik nəzərdə tutmayan qanun layihəsi vətəndaşların idarəçilik sistemində yaxından iştirak etməsinə şərait yaradacaqdır.

Qonşu dövlətlərdə, Rusiyada, Gürcüstanda keçirilən bələdiyyə seçkilərinin nəticəsi sübut etdi ki, bu seçkilər çox çətin seçkilərdir. Hətta Rusiyada bələdiyyə seçkiləri ilk vaxtlar təcrübə üçün cəmi bir neçə regionda keçirildi. Ona görə də bu qanun layihəsinin müzakirəsində parlament üzvləri reallığı başa düşməli və elə bir qanun qəbul etməlidirlər ki, onu tam həyata keçirmək mümkün olsun. Bələdiyyə seçkiləri taleyüklü və ağır bir məsələdir. Tutduğumuz mövqedən asılı olmayaraq, bələdiyyə seçkilərinin keçirilməsində şəxsi prinsiplərdən deyil, dövlətçilik prinsiplərindən çıxış etmək lazımdır.

Bu qanunun ən mühüm müddəası bələdiyyələrin

səlahiyyətlərinin müəyyən olunmasıdır. İcra hakimiyyəti və bələdiyyə orqanları arasında səlahiyyətlər konkret olaraq ayrıca maddədə göstərilməlidir. Elə olmasın ki, qanunu qəbul etdikdən sonra hər hansı bir halı yenidən müzakirə edək.

Bilirəm ki, qanun layihəsi hazırlanarkən bir sıra dövlətlərin bələdiyyə qanunları öyrənilmiş və yetkin bir qanun layihəsinin hazırlanmasına səy göstərilmişdir. Hiss olunur ki, layihə müəllifləri gərgin iş aparmışlar. Amma qanunun bəzi maddələrinə bir sıra təkliflərim də vardır.

Qanunun 7-ci maddəsində göstərilir ki, bələdiyyələrin nizamnamələri Bələdiyyə Şurası və ya vətəndaşların yığıncaqları tərəfindən qəbul edilir. Zənnimcə, nizamnamələr bələdiyyə şuraları tərəfindən qəbul edilməlidir. Vətəndaşların yığıncaqları tərəfindən nizamnamənin qəbul edilməsi qeyri-müəyyəndir. Təklif edirəm ki, həmin fikir bu maddədən çıxarılsın.

Yerli orqanlardan hansıların bələdiyyələr qarşısında hesabat verməsi müəyyənləşdirilməlidir. İcra hakimiyyətləri strukturları ilə bələdiyyələr arasında hər hansı bir məsələ barəsində anlaşılmazlıq baş verməməsindən ötrü səlahiyyətlər dəqiq müəyyənləşdirilməlidir.

33-cü maddədə bələdiyyə mülkiyyətinin formalaşdırılmasının əsasları göstərilir. Lakin burada yerli vergilərin və ödənişlərin hansı miqdarının yerli bələdiyyələrin hesabına keçirilməsi dəqiqləşdirilməmişdir.

Bir məsələni xüsusi qeyd etmək istəyirəm. Zahid müəllim bayaq bələdiyyələrin səlahiyyətlərini çox dəqiq izah etdi, dedi ki, onlar Konstitusiyada qeyd olunmuşdur. Lakin yaxşı olardı ki, qanun layihəsində ya bunun Konstitusiyanın filan maddələrində qeyd olunduğu göstərilsin, ya da bu, qanunun özündə də əksini tapmış olsun.

Burada bir məsələ də aydın deyil. Yerli vergilərin və

ödənişlərin neçə faizi və hansı miqdarı yerli bələdiyyələrin hesabına keçiriləcəkdir? Zahid müəllim çox düzgün qeyd etdi ki, xarici dövlətlərdə bu məsələlərdə qeyri-müəyyənlik olduğuna görə, korrupsiya halları olduğuna görə bir çox şəxslər məsuliyyətə cəlb olunmuşlar. Ona görə də yaxşı olardı, biz burada onu dəqiq müəyyənləşdirək ki, bunların neçə faizi və hansı miqdarı yerli bələdiyyələrin hesabına keçirilməlidir. Bunu birbaşa qanuna salaq.

Yerli idarələr, məsələn, mənzil istismar sahələri və digər təşkilatlar bələdiyyə orqanlarına tabe olmalıdır, yoxsa olmamalıdır? O da burada öz əksini tapsa, yaxşı olar. Hansı təşkilatlar bələdiyyələrə hesabat verməlidirlər? Burada Tofiq müəllim də çıxışında çox düzgün olaraq onu dedi.

Bu qanun taleyüklü qanundur və kütləvi informasiya vasitələrində geniş təbliğ olunmalıdır. Bu axşam biz Zahid müəllimi, onun müavinini, ümumiyyətlə, bu qanunun hazırlanmasında iştirak edən bir qrup əməkdaşı dövlət televiziyasında canlı dialoqa dəvət etmişik. Axşam televiziyada onların çıxışına baxa bilərsiniz.

Ümumiyyətlə, üç ilə yaxındır ki, bu qanun layihəsi üzərində iş gedir. Məncə, bizim Milli Məclisdə elə bir qanun yoxdur ki, bu qədər geniş, əhatəli və düşünülüb işlənilsin. Mən zənn edirəm ki, bu təklifləri nəzərə almaqla qanunu birinci oxunuşda qəbul etmək olar.

30 aprel 1999-cu il

Hörmətli sədr, hörmətli Milli Məclisin deputatları! Hadi müəllimin verdiyi məlumatdan, oxuduğumuz qanun layihəsinin mahiyyətindən çıxış edərək bildirmək olar ki, doğrudan da, bu qanun əhəmiyyətli bir qanundur. Hər bir müstəqil dövlət öz respublikasında bu zümrədən olan

insanlara ciddi əhəmiyyət verməlidir. Belə ki, söhbət 23 min 636 yetim və valideyn himayəsindən məhrum olmuş uşağın sosial müdafiəsindən gedir. Özü də burada qeyd edildi ki, bunlardan 263 nəfəri şəhid ailələrinin övladlarıdır. Onlar üçün 4 məktəb fəaliyyət göstərir. Doğrudan da, Hadi müəllim çox ürək yanğısı ilə onu qeyd etdi. Mənim diqqətimi daha çox o çəkdi ki, həmin uşaqlar 18 yaşından sonra güzəştlərdən məhrum edilirlər. Onların kiçik bir qrupuna – ali məktəblərdə oxuyan 18-23 yaşlı şəxslərə müəyyən güzəştlər aid edilir. Bu haqda da düşünülməlidir. Bu çox çətin və ağrılı problemdir. İndiki vəziyyətdə daha yuxarı yaşlarda onların təminatı ilə məşğul olmaq çətindir. Əvvəlki dövrlərdə təhsillərini başa vuranda onların bir səsi fabriklərdə, zavodlarda, müxtəlif müəssisələrdə kollektiv surətdə çalışırdılar. İndi həmin müəssisələrin sayı azaldığına görə onların iş yerləri və ümumi dolanışıqları çox ciddi bir problem kimi qarşıda durur.

Yetim və valideyn himayəsindən məhrum olunmuş uşaqların problemi çox ağrılı problemdir. Xalqımızın gözəl xüsusiyyətlərindən biri də uşaqları böyüdüb boya-başa çatdırmaq, onlara gözəl tərbiyə verməkdir. Uşaqları taleyin qoynuna atmaq, ümumiyyətlə, bizim xalqın mentalitetinə xas olan xüsusiyyət deyil. Amma çox təəssüf ki, bu cür neqativ hallardan da qaçmaq mümkün deyil. Ona görə də bu uşaqlar yerləşdirilən müəssisələrə xüsusilə qayğı göstərmək lazımdır. Təhsil müəssisəsinin növündən asılı olmayaraq, yetim və valideyn himayəsindən məhrum olan uşaqlar həmin təhsil müəssisəsini bitirənədək dövlət təminatına götürülməlidirlər. Təqdirəlayiq haldır ki, qanun layihəsində yetim və valideyn himayəsindən məhrum olmuş uşaqlara tam dövlət təminatından əlavə təhsil müəssisəsində müəyyən edilmiş təqaüdün miqdarından ən azı 50 faiz çox olan təqaüd veriləcəyi əks etdirilmişdir. Bu çox müsbət bir addımdır.

Xüsusən təhsil müəssisələri, icra hakimiyyətləri, səhiyyə ocaqları bu sahə üzrə ixtisaslaşan uşaq müəssisələrinə hərtərəfli qayğı ilə yanaşmalıdırlar.

Yetim və valideyn himayəsindən məhrum olan uşaqların mənzil problemlərinin həll olunmasına fikir vermək lazımdır. Qanunun 7-ci maddəsinin 9-cu hissəsində göstərilir: «Yetim və valideyn himayəsindən məhrum olmuş uşaqların yaşayış sahəsi ilə təmin olunması üçün dövlət büdcəsi və qanunvericiliklə qadağan olunmayan digər mənbələr hesabına xüsusi mənzil fondları yaradıla bilər». Mən təklif edirəm ki, yaradılacaq bələdiyyə orqanlarında bu cür uşaqların mənzil problemlərinin həll olunması üçün xüsusi mənzil fondlarının yaradılması nəzərdə tutulsun. Ümumiyyətlə, təklif edirəm ki, bundan sonra qəbul edəcəyimiz bütün qanunlarda bələdiyyələr nəzərə alınsın. Mülkiyyət növündən asılı olmayaraq, yetim və valideyn himayəsindən məhrum olan uşaqların işlə təmin edilməsini müəssisə və təşkilatlar müsbət həll etməlidir. Bu cür uşaqlar üçün xüsusi iş yerləri açmış müəssisələrə qanunvericiliyə uyğun olaraq vergi güzəştləri edilməsi müsbət haldır. Bütün dövlət və özəl müəssisələri yetim və valideyn himayəsindən məhrum olan uşaqların təhsilinə, işlə təmin edilməsinə diqqət və qayğı ilə yanaşmalı, ən ülvi hisslərdən, ata-ana qayğısından məhrum olan uşaqların taleyinə biganə qalmamalıdırlar.

Bir məsələni mən xüsusi qeyd etmək istəyirəm. Burada maliyyə vəsaiti məsələsinə aid mübahisəli maddələr vardır. Yetim və valideyn himayəsindən məhrum olmuş uşaqları maliyyələşdirmək üçün vəsaitin haradan götürülməsi məsələsi konkretləşdirilməli və birbaşa qanuna salınmalıdır. Burada Həsən müəllim də bir məsələyə toxundu. Mən də onun fikri ilə şərikəm ki, qanunların dili üzərində ciddi iş aparmağa ehtiyac var. Diqqətinizə görə təşəkkür edirəm.

14 may 1999-cu il

Hörmətli sədr, hörmətli Milli Məclisin deputatları! 10-cu maddədə narkomanlıq xəstəliyinə düçar olan şəxslərin könüllü müalicəsindən bəhs edilir. Mən bilmək istəyirəm, respublikamızda bu cür xəstəliyə tutulan şəxslərin könüllü müalicəsi üçün ixtisaslaşdırılmış narkoloji tibb müəssisələri varmı? İkinci, 11-ci maddənin 1-ci bəndində göstərilir ki, cinayət törətmiş narkoman Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məcburi müalicə olunur. Məni maraqlandırır ki, məhkəmələr tərəfindən narkomanlığa görə məcburi müalicəyə göndərilmiş şəxslər tam müalicə oluna bilərlər? Bunların haqqında bir məlumat almaq istərdim. Üçüncü, narkomanlığa düçar olmuş şəxslərin bərpası üçün nə qədər müddət müəyyən ediləcək? Bu cür şəxslərin müalicəsi üçün nə qədər müddət lazımdır? Yazılır ki, göndərilir. Bəlkə o, ömrünün axırına qədər xəstəxanalarda yatacaq, dövlət hesabına yeyib-içib orada fəaliyyətini davam etdirəcək? Onun üçün bir müddət göstərilməlidir.

Mən qeyd edim ki, təəssüflər olsun ki, mentalitetimizdən çox uzaq olan narkomanlıq bizim respublikada son vaxtlar bir bəlaya çevrilib. Narkomanlığa düçar olmuş xəstələrin müalicəsi üçün ciddi şərait yaradılmalıdır. Bu xəstəliyin heç də asan müalicə olunmadığını nəzərə alıb dövlət büdcəsindən lazımi vəsait ayrılmalıdır.

14-cü maddədə yazılır ki, onlar dövlət vəsaiti hesabına müalicə olunmalıdırlar, ancaq yaxşı olar ki, onlar şəxsi vəsait hesabına müalicə olunsunlar. Mən isə deyərdim, narkomanlıq elə böyük bir bəladır ki, həmin şəxs öz hesabına müalicə oluna bilsəydi, heç narkomanlığa düçar olmazdı. Bu, xəstəlikdir. Xalqın içərisində yayılmış elə xəstəlikdir ki, dövlət buna ciddi əhəmiyyət verməlidir. Mən təklif edərdim ki, narkomanlığa qarşı mübarizə üçün müalicəxanalar açılmasına büdcədən xüsusi vəsait və pul ayrılsın.

18 may 1999-cu il

Hörmətli sədr, hörmətli Milli Məclisin deputatları! Müzakirəmizə təqdim edilən qanun layihəsi çox ciddi bir problemdən bəhs edir. Əhalinin içməli suya olan tələbatının ödənilməsi çox mühüm və vacib məsələdir. Xüsusilə də əhalinin sayı günbügün artan paytaxtımızda bu məsələ acınacaqlı vəziyyətdədir. Su təchizatı və kanalizasiya sisteminin qaydaya salınması müvafiq təşkilatların ən ümdə vəzifəsi olmalıdır. Respublikamızın rayonlarında kifayət qədər içməli su ehtiyatı var. Bu suların Bakı şəhərinə çəkilməsinə təxirə salınmadan başlanmalıdır. Bakı şəhərinin su təchizatının təmin edilməsi üçün xarici investorların köməyindən istifadə etmək lazımdır. Suyun axıdılması, kanalizasiya sisteminin təkmilləşdirilməsi məsələsinə də xüsusi diqqət yetirmək gərəkdir. Bakıda şollar suyundan başqa içməyə yararlı su ehtiyatı çox azdır. Qanun layihəsi hərtərəfli hazırlansa da, onun bəzi müddəalarını məqsədəmüvafiq hesab etmirəm. Bu məsələyə mən sonra toxunacağam.

İndi burada su təchizatı və kanalizasiya sistemi ilə əlaqədar idarə və təşkilatların rəhbərləri iştirak etdiyinə görə mən çox ciddi bir məsələyə toxunmaq istərdim. Biz Azərbaycan televiziyasında, Azərbaycan radiosunda dəfələrlə tənqidi süjetlər vermişik. Bunun acınacaqlı nəticələri haqqında xəbərdarlıq etmişik. Lakin heç bir ölçü götürülmür. Təsəvvür edin ki, Ceyranbatan su anbarı Bakının böyük bir hissəsini içməli su ilə təmin edir. Lakin Bakı-Sumqayıt yolunda böyük

bir ərazidə özbaşına tikililər tikilibdir. Orada heç bir kanalizasiya sistemi yoxdur. Çirkab suların hamısı birbaşa Ceyranbatan su anbarına axıdılır. O demək deyil ki, birbaşa ora axıdılır. Onlar quyu qazıblar. Su ora çökür. Lakin bu çökən su hündürdə olduğuna görə istər-istəməz Ceyranbatan su anbarına heç bir təmizlənmə getmədən axıb gedir. Bu, mütəxəssislərin rəyidir. Burada çirklənən su birbaşa içməli su kimi əhaliyə verilir.

Bakı şəhərinə istər Kür çayından, istərsə də başqa mənbələrdən gələn su kəmərləri bütün yol boyunca tikilən evlərdə icazəsiz surətdə deşilir, onlardan su götürülür və şəhərin təminatına bu suyun heç 50 faizi gəlib çatmır. Şəhərə gəlib çatan suyun böyük bir hissəsi isə şəhər su kəmərinin normal işləməməsinin nəticəsində axıdılıb kanalizasiya suyu kimi şəhərin küçələrini çirkaba bulayır.

Ən qorxulu hal nədir, diqqətinizə çatdırmaq istəyirəm. Təxminən 80-cı illərdə Kislovodsk və Yesentuki şəhərlərində nəzarətsizlik üzündən hələ sovet dövrünün o qüvvətli vaxtında bilmədən təmir işləri aparılarkən kanalizasiya sistemi su qovşağına birləşdirilmişdi. Ona görə də SSRİ-nin böyük bir hissəsində, o cümlədən Bakıda nə qədər əhali tif xəstəliyinə tutulmuşdu. Bu o dövrdə idi. İndi nəzarətsizlik baş alıb gedən bir vəziyyətdə biz qorxmuruq ki, belə bir vəziyyət Bakıda da təkrar oluna bilər və onun qarşısını heç kəs ala bilməz? Bu baxımdan bu qanun çox əhəmiyyətli bir qanundur.

Bu qanunla bağlı üzərində çox ciddi düşünməyə ehtiyac olan məsələlər var. Dənizə həmin çirkab suların axıdılmasının qarşısı tezliklə alınmalıdır. Bir belə tullantı və bir belə su axını dura-dura 31-maddəyə belə bir müddəa salıblar ki, evlərə təcili su sayğacları qoyulsun. Çünki sudan səmərəsiz istifadə olunur. Halbuki suyun əsas hissəsi nəzarətsizlik ucbatından

bütün şəhərin küçələrinə axıb tökülür. Bunların qarşısını almaq əvəzinə su ehtiyatı zəngin olan Azərbaycan kimi bir ölkədə birinci başlayacaqlar evlərə sayğac qoymaqdan. Tez olun, hər evə sayğac qoyun, pulunu yığaq. Mənə qalsa, bu sayğac məsələsi sonrakı işdir. Bu birilərini düzəldib qurtardıqdan sonra sayğaca keçmək lazımdır. Ona görə də mənim təklifim odur ki, 31-ci maddədə sayğacın qoyulması üçün müəyyən müddət göstərmək lazımdır. Diqqətinizə görə təşəkkür edirəm.

22 iyun 1999-cu il

Hörmətli sədr, hörmətli Milli Məclisin deputatları! Bu gün müstəqil Azərbaycanın həyatı və ölkəmizdəki demokratik proseslərin sürətləndirilməsinə təkan verəcək bir sənədi, kütləvi informasiya vasitələri haqqında Azərbaycan Respublikası qanununun layihəsini müzakirə edirik. Qanunun əhəmiyyəti haqqında Rizvan müəllimin və digər deputatların çıxışlarında ətraflı danışıldı. Həqiqətən, bu, çoxdan gözlənilən, çağdaş Azərbaycan gerçəkliyinə hava və su kimi lazım olan bir qanundur. Çünki indi heç kimə sirr deyil ki, cəmiyyətdə demokratik proseslər genişləndikcə, mətbuatın imkanları və təsir dairəsi artdıqca bəzən onun doğurduğu mənəvi fəsadlar da vüsət alır. Mətbuat azadlığı hər hansı ölkədə demokratiyanın səviyyəsini aydın göstərir. Azərbaycanda bu gün mövcud olan geniş mətbuat azadlığını heç kim dana bilməz. Amma bəzən mətbuat azadlığından sui-istifadə cəmiyyətdə hərc-mərcliklə, milli mənafeyin tapdalanması, ayrı-ayrı vətəndaşların şərəf və ləyaqətinin alçaldılması ilə nəticələnir. Şübhəsiz ki, bunlar yol-verilməz hallardır və onların aradan qaldırılması üçün mükəmməl bir qanuna ehtiyac vardır. Hazırda müzakirə etdiyiniz, çox gərgin zəhmət bahasına, həm də uzun bir müddət ərzində böyük

səylə hazırlanmış bu sənəd məhz həmin qanunun layihəsidir.

Kütləvi informasiya vasitələri haqqında bu qanun layihəsi çoxsaylı müzakirələrdən, o cümlədən mətbuat, televiziya və radio nümayəndələrinin, çoxsaylı jurnalist kollektivlərinin müzakirələrindən keçmiş, onların irad və təklifləri nəzərə alınmaqla işlənmişdir. Qanun layihəsini hazırlayan işçi qrupunda respublikamızın nüfuzlu jurnalistlərinin, hüquqşünaslarının və jurnalist təşkilatları nümayəndələrinin təmsil olunması kütləvi informasiya vasitələrinin çoxsaylı fəaliyyətinin tənzimlənməsi ilə bağlı məqamların geniş və dolğun əhatə edilməsinə imkan vermişdir.

Daha bir müsbət cəhət ondan ibarətdir ki, bu qanunda dünyanın demokratik ölkələrinin, o cümlədən İngiltərə, Fransa, Almaniya, Türkiyə kimi dövlətlərinin artıq sınaqdan çıxmış qanunlarının əsas müddəalarına istinad edilmişdir. Mən həmçinin bu qanunda SSRİ məkanında və Şərqi Avropanın keçmiş sosialist ölkələrində mətbuatla bağlı bir sıra problemlərin çözülməsinə aid incəliklərin də nəzərə alındığını görürəm. Halbuki 1992-ci ildən qəbul edilmiş Mətbuat haqqında qanunda bir çox siyasi gerçəkliklər, mətbuat, televiziya və radionun fəaliyyəti ilə bağlı bir sıra spesifik cəhətlər nəzərdən qaçırılmışdır.

Müzakirə etdiyimiz bu qanun layihəsi Azərbaycanda demokratik dövlət quruculuğu sahəsində irəliyə doğru atılan mühüm bir addımdır. «Kütləvi informasiya vasitələrinin təşkilinin hüquqi əsaslan» adlanan III fəsil bu gün mətbuat aləmində mövcud olan bir sıra qanunsuzluqların aradan qaldırılmasına imkan verəcək. Çünki bu fəsildə informasiya vasitəsinin təsis edilməsi qaydalarından tutmuş, onların statusunadək bir sıra məsələlər aydın şəkildə göstərilmişdir. Həmin fəsildəki 14-cü, 15-ci, 17-ci, 20-ci, 21-ci, 24-cü və 27-

ci maddələr həm hüquqi, həm də mövcud gerçəklik baxımından olduqca dəqiq işlənmişdir. Mövcud qanun layihəsinin ən böyük üstünlüklərindən biri və həm də 1992-ci il qanununda fərqlənən üstünlüyü ondan ibarətdir ki, burada televiziya və radio fəaliyyətinin tənzimlənməsinə dair xüsusi fəsil ayrılmışdır.

Müstəqillik tariximizdə ilk dəfə olaraq bu qanunda Azərbaycanda teleradionun təşkili və fəaliyyətinin hüquqi əsasları qanunvericiliyin predmetinə çevrilmişdir.

Layihənin V fəsli məhz Azərbaycanda televiziya və radio sistemi, teleradio təşkilatlarının hüquqları və vəzifələri qanun süzgəcindən keçirilir. Fikrimizcə, teleradio fəaliyyətinə dair nəzərdə tutulmuş maddələr say etibarilə az olsa da, Azərbaycanda teleradio sisteminin tənzimlənməsi üçün mühüm bir sənəddir.

Hörmətli Məclis üzvləri! Müzakirə etdiyimiz qanun layihəsinin üstün cəhətlərindən biri də informasiya düzəlişi, təkzib və cavab verilməsi haqqında müddəaların geniş şəkildə əks etdirilməsidir. Çünki bəzən hər hansı mətbuat orqanında yanlış informasiya məlumatına təkzib vermək böyük bir problemə çevrilir. Bir çox redaktorlar haqqında yanlış informasiya, yaxud böhtan yazılan vətəndaşlar qanun çərçivəsində deyil, öz düşüncələri səviyyəsində danışırlar. Bəzən təkzib vermək üçün dəfələrlə redaksiyaların qapısını döymək lazım gəlir. Lakin indi bu qanun layihəsində təkzib və düzəliş verməyin tam qaydaları, həm də müddəti çox dəqiq şəkildə müəyyənləşdirilmişdir. Əgər bu qanun layihəsini biz indiki təkmil variantda qəbul edəcəyiksə, ölkəmizdə mətbuatın inkişafına daha bir fayda vermiş olacağıq.

Layihənin «Kütləvi informasiya vasitələrinin iqtisadi əsasları» adlanan IX fəsli olduqca mütərəqqi bir halı əks etdirir. Çünki mövcud layihələrə görə kütləvi informasiya

vasitələri əlavə dəyər vergisindən azad olunur və onlar mənfəət vergisini azaldılmış dərəcələr üzrə ödəyirlər. Eyni zamanda mətbuat üçün gömrük güzəştləri və digər güzəştlər nəzərdə tutulur.

Nəhayət, bu layihənin «Kütləvi informasiya vasitələri haqqında» qanunun pozulmasına görə məsuliyyət haqqında bölməsinin mətbuat aləmində mövcud olan bir sıra özbaşınalıqlarının qarşısını alması üçün praktiki əhəmiyyət kəsb edəcəyinə əminlik yaranır. Buradakı konkret müddəalar hansı hallarda hansı bəndlərin pozulmasının yolverilməzliyini göstərir. Eyni zamanda hər bir jurnalistin və kütləvi informasiya orqanının məsuliyyətini müəyyənləşdirir. Bu gün mətbuatdakı bir çox arzuolunmaz proseslər məhz kimlərinsə öz məsuliyyətlərini lazımınca dərk etməməsindən irəli gəlir.

Güman edirik ki, kütləvi informasiya vasitələri haqqında bu gün müzakirəmizə təqdim olunmuş bu dolğun qanun layihəsinin qəbul edilməsi mətbuat aləmində bir çox uyğunsuzluqları nizamlaya biləcəkdir.

Bu qanun layihəsində nəzərə alınması arzu olunan bəzi təkliflərimi də bildirmək istərdim. Məsələn, kütləvi informasiya vasitələrinin dili haqqında 7-ci maddədə deyilir: «Azərbaycan vətəndaşlarının kütləvi informasiya istehsalı və yayımında dövlət dilindən, habelə digər dillərdən istifadə etmək hüququ Azərbaycan Respublikası çərçivəsində müvafiq surətdə təmin edilir». Əlbəttə, bu çox demokratik yanaşmadır, amma arzu edərdim ki, bu maddədə üçüncü abzasa «Azərbaycanda yayımlanan teleradio verilişlərinin 90 faizi dövlət dilində olmalıdır» cümləsi əlavə edilsin. Fikrimizcə, bu, Azərbaycan dilinin aparıcı rol oynamasını bir daha təsbit etmiş olardı.

Yeri gəlmişkən xatırladıram ki, hazırda Azərbaycan efirində artıq nümayəndəliklərin Bakıda olan «Radio trans

internasional», «Amerikanın səsi», «Bürc FM» radiostansiyaları verilişlərini öz dillərində aparırlar. Müzakirə etdiyimiz qanunda bu tip fəaliyyətin necə tənzimlənməsinin göstərilməsi çox lazımlı olardı.

22-ci maddədə yazılır ki, əgər kütləvi informasiya vasitəsinin təsisçisi, buraxılışın adı, dili, dövrü, yayım forması, ixtisaslaşması və s. dəyişdikdə, o, yenidən qeydiyyatdan keçirilməlidir. Mənə elə gəlir ki, burada yalnız ad və dil dəyişdirildikdə mətbuat orqanı yenidən qeydiyyatdan keçirilməlidir.

IV fəslin baş redaktora aid olan 32-ci və 33-cü maddələrini birləşdirib müəyyən ixtisar aparmaq olar. V fəsildə teleradio ilə bağlı olan maddələrdən birinə – ictimai teleradio təşkilatına aid olan 45-ci maddəyə yenidən baxmaq mümkündür. Bunu bayaq Rizvan müəllim də öz çıxışında dedi. Məncə, həmin maddənin tamamilə çıxarılması qanuna heç bir əskiklik gətirməz. Çünki dövlət televiziyası və qeyri-dövlət televiziyalarının adları içərisində bunların hər biri ehtiva oluna bilər. Məncə həmin maddənin, həmçinin geniş bir auditoriyaya yayılan ekran məhsulunun mənəvi-əxlaqi səviyyəsi üçün məsuliyyət dərəcəsini əks etdirən ayrıca maddənin bu fəslə salınması da pis olmazdı. Düzdür, preambulada ümumi kütləvi informasiya vasitələri haqqında deyilişdə bu göstərilir, lakin burada da qeyd olunsa, daha yaxşı olardı.

Hörmətli Məclis üzvləri! Mən burada bir məsələyə xüsusilə toxunmaq istərdim. Son vaxtlar müxalifət mətbuatında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin səhhəti ilə bağlı böhtan, iftira və şayiə xarakterli yazılar dərc edilir. Hakimiyyət uğrunda sivil mübarizə aparmaq iqtidarında olmayan, xalqımızın adət və ənənələrinə riayət etməyən bir çox qeyri-sağlam qüvvələr məqsədli

surətdə, reallıq ilə heç bir əlaqəsi olmayan bu qərəzli kampaniyanı genişləndirərkən əxlaqa, mənəvi dəyərlərimizə, Azərbaycan mentalitetinə ağır zərbələr vururlar. Bir çox müxalifət mətbuatının əxlaq normalarına uyğun gəlməyən bu ədalətsiz mövqeyi respublika ictimaiyyətinin nümayəndələri, ziyalıları, sadə zəhmət adamları tərəfindən qətiyyətlə pislənilir. Heç bir ölkədə prezident haqqında mətbuatda bu cür yazılar, bu cür cəfəngiyatlar dərc edilmir. Bu, Azərbaycan mətbuatında, müxalifət mətbuatında dərc edilir. Unutmaq lazım deyil ki, bir çox qəzetlər Azərbaycanın qonşu dövlətlərinə, başqa respublikalara, ölkələrə gedib çıxa bilir. Bunları oxuyan hər bir adam, Azərbaycan xalqı, onun mentaliteti haqqında nə düşünə bilər? Kim öz prezidenti haqqında yaza bilər ki, «Prezident koma vəziyyətindədir», halbuki həmin gün Prezident Amerika nümayəndələrini qəbul etmişdi və televiziya ilə bu, açıq şəkildə göstərilmişdi.

Mən bir məsələyə xüsusi diqqət yetirmək istəyirəm ki, müxalifətdə olanlar arasında da sağlam qüvvələr vardır. Həmin sağlam qüvvələr bu cür cəfəngiyatları yazanlara çox ciddi dərs verməli, onları ədəb yoluna, ədəb qaydalarına qaytarmalıdırlar. Molla Nəsrəddin demişkən: «Heç olmasa, bilənlər, bu bilməyənləri öyrətsinlər».

Xalq böyük oğlu, görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi altında XXI əsrdə daha yeni, daha görkəmli nailiyyətlər qazanılmasına inanır. Heç bir qüvvə Prezidentlə xalq arasında olan birliyi sarsıda bilməz. Burada bayaq səslənən bəzi məsələlərə mən xüsusi toxunmaq istəyirəm. Qarabağ məsələsi. Bəyanatda da deyildi. Onu unutmaq lazım deyil ki, Qarabağ məsələsinin həllində nə lazımdırsa, hamısı edilmiş, edilir və ediləcəkdir. Heç kim Heydər Əliyevin etdiyi qədər iş görə bilməz. Görün Qarabağ məsələsi hansı vəziyyətdən hansı səviyyəyə gəlib çatıbdır.

Artıq demək olar ki, bütün dünyaya Azərbaycan həqiqətləri birbaşa Heydər Əliyev vasitəsi ilə aşkarlanır. Səriştəsiz AXC hakimiyyəti dövründə Amerika senatı tərəfindən 907-ci maddə qəbul olunubdur. Əvvəllər bu maddənin götürülməsi qeyri-mümkün idisə, indi 907-ci maddənin son dəfə Heydər Əliyevin bütün səyi və təşəbbüsü ilə səsə qoyularkən cəmi 20-25 səs çatışmadı.

Dünya ictimaiyyəti, prezidentlər siyasi təcrübəsinə və biliyinə görə Heydər Əliyevlə hesablaşırlar. Bunu özünüz də yaxşı bilirsiniz. Heydər Əliyevin rəhbərliyi ilə Prezident Aparatının müvafiq şöbələri, Nazirlər Kabineti, parlament komissiyaları məqsədəmüvafiq işlər aparırlar.

Unutmaq lazım deyil ki, hakimiyyətə gəldiyi gündən rüşvətxorluğa, korrupsiyaya qarşı mübarizə aparan Heydər Əliyev hər kəsə və hər kimə nümunədir. Hər kimdən, hər kəsdən intizam tələb edən möhtərəm Prezidentimiz hamıdan intizamlıdır. Hamıdan işgüzarlıq tələb edən Prezidentimiz hər kəsdən işgüzardır, hər kəsdən özünə tələbkarlıq tələb edən Heydər Əliyev özünə qarşı hər kəsdən artıq tələbkardır. Hamıdan səbir və təmkin tələb edən Prezidentimiz hər kəsdən səbirli və təmkinlidir. Görəsən, başqa prezident olsaydı, onun haqqında belə hədyanlar yazsaydılar, o bu cür səbirlə, təmkinlə, düşünülmüş şəkildə onun həlli yolunu sivil qaydada normaya sala bilərdimi? Unutmaq lazım deyil ki, türk oğlu türk Heydər Əliyev hamıdan artıq beynəlmiləlçilik tələb edir, çünki o, kiçik xalqların hamisidir və hər kəsdən artıq beynəlmiləlçidir. Mən bunu qavraya bilmirəm ki, nə üçün müxalifət qüvvələri bunları bilmir və onu qiymətləndirə bilirlərsə də, nə üçün qiymətləndirmirlər? Onlar, birinci növbədə, özlərinə hörmət etməlidirlər. Özünə hörmət etməyən, özünə hörmət etməyi bacarmayan başqalarına hörmət edə bilməz.

Jurnalist etikasına çox ciddi şəkildə əməl etmək lazımdır. Prezident xalqın mənəvi atasıdır. Ataya hörmət etməyən, nə başqalarına, nə də özünə hörmət edə bilməz və xalq özü də onu bağışlamaz.

Bir məsələni də diqqətinizə çatdırmaq istəyərdim ki, möhtərəm Prezidentimiz bütün bu məsələləri səbirlə, böyük ümidlə izləyir və müxalifəti də sağlam mövqeyə çağırır. Bütün ölkələrdə müxalifət vardır, ancaq bu müxalifət sağlam mövqedən çıxış etsə, sağlam istiqamətdə fəaliyyət göstərsə, bu, bütün respublikamızın nailiyyətidir. Unutmaq lazım deyil ki, Heydər Əliyev 10 illərin sınaqlarına sinə gərmiş, alovlardan addamış, fırtınalardan keçmiş, polad kimi möhkəmlənərək zirehlənmişdir. Zirehə heç nə bata bilməz. «Yel qayadan heç nə apara bilməz». Buna görə də boş-boş, cəfəngiyat yazılara son qoyulmalıdır! Hamı iqtidar ətrafında birləşib ölkəmizin gələcəyi, taleyi haqqında inamla, dəyanətlə düşünməli və dövlətçiliyimizin gələcəyinə kömək etməlidir. Diqqətinizə görə təşəkkür edirəm.

25 iyun 1999-cu il

Hörmətli sədr, hörmətli Milli Məclisin deputatları! Mənim sualım yoxdur. Bu məsələ birinci dəfə deyil ki, qaldırılır. Bir neçə dəfədir ki, ad dəyişməsi və ya bərpa edilməsi ilə əlaqədar məsələnin müzakirəsi üçün vaxt ayırırıq. İndi də bələdiyyə seçkiləri ilə əlaqədar müzakirə edirik. Doğrudur, bu seçkilərin keçirilməsi üçün təcili olaraq yer adları verilməli, orada seçki məntəqələri yaradılmalıdır. Bunu başa düşürük. Ancaq mən burada bir məsələyə xüsusi diqqət yetirmək istəyirəm. İndi İldırım müəllim də danışdı. Bir mütəxəssis kimi çox düzgün söylədi. Əgər bələdiyyə seçkilərini keçirmək üçün şərti mənada bu adlar qəbul

olunmalıdırsa, buna etiraz etmirik. Ancaq toponimika, hər şeydən əvvəl, bir elmdir. Xalqın tarixi yaddaşını özündə saxlayan dilçilik vahidləri coğrafi, tarixi vahidlərdir. Bayaq İldırım müəllim dedi, üç elmin – tarixin, coğrafiyanın, dilçiliyin kəsişməsindən yaranan bir elm sahəsidir. Biz bəzən bu məsələyə adi bir məsələ kimi yanaşırıq. Lakin unuduruq ki, bu məsələyə diqqətsizlik ucbatından Azərbaycan xalqının başına nələr gətirildi. Bədnam qonşumuz ermənilər və ya öz içimizdən çıxan bəzi tarixçilər bu adların kökünü, əslini bərpa etmədən özlərindən uydurma toponimik vahidlər yaradır və xalqın tarixi haqqında müxtəlif fərziyyələr yürütməyə başlayırlar.

Siz də çox düzgün dediniz, Murtuz müəllim, biz bu saat ad verməkdən daha çox olan adları bərpa edirik. Əvvəl Gəncə, sonra Yelizavetpol, Kirovabad olub, yenidən köhnə adını qaytarmışıq, indi Gəncə olub. Yəni bu, artıq bərpa etməkdir, yeni ad deyil. Eyni ilə kəndlərə də ad verəndə unutmaq lazım deyil ki, biz əsl adları bərpa etməliyik. Kəndlərə təzə adlar verilir, məsələn, Xaqani kəndi, Cavid kəndi, Yenikənd. 1970-ci illərdə belə bir ənənə yaranmışdı ki, bu köhnə adlarda bir az ahəngdarlıq, lakoniklik olmayanda onun tarixinə baxmırdılar, tez kəndin adını dəyişib bəzəkli ad qoyurdular. Məsələn, Baharlı kəndi, Günəşli kəndi və s. Bütün bunlar tarixin yaddaşından həmin yer adlarını silirdi. İldırım müəllim çox düz dedi. Azərbaycanda və ümumiyyətlə, türkdilli respublikaların hamısında belədir. Meşənin də, dağın da öz adı var. Bu adları dəyişərək Cavid təpəsi, Xaqani dərəsi demək nə verir? Yəni adlar hamısı bir-birinə oxşayır. Belə məsələdə biz çox diqqətli olmalıyıq.

10 ilə yaxındır ki, Toponimika komissiyası fəaliyyət göstərir. Təxminən bizim müstəqilliyimiz dövründən bir az əvvələ düşür. Ancaq bu tərkibə baxdım indi. Əsas gücü

coğrafiyaçılara, bir də tarixçilərə veriblər. Unutmaq lazım deyil ki, hər hansı toponimik vahidi bərpa etmək üçün dilçinin, dil tarixçisinin rəyi əsas olmalıdır. Bu komissiyanın tərkibində bir nəfər dilçinin adı var, qalanları tarixçilərdir. Bu baxımdan Toponimika komissiyasının tərkibinə yenidən baxılmalıdır. Dediyimiz məsələlər nəzərə alınmalıdır.

Bir məsələni mən keçən dəfə Zahid müəllim məruzə edəndə dedim. Bəzən komissiya sədrləri, məsələ ilə məşğul olanlar deyirlər ki, biz kəndin camaatını yığdıq kluba, təklif etdik ki, kəndinizə filan adı verək. Doğrudur, kəndlinin, yerli əhalinin də rəyi nəzərə alınmalıdır. Birinci növbədə isə ona elmi nöqteyi-nəzərdən yanaşmaq lazımdır. İldırım müəllim çox düz dedi, məntəqələri şəxs adı ilə adlandırmaq sovet dövrünün məhsulu idi, kəndin adı unudulur. Bir də gördün, deyirdilər ki, bu, Kirov kolxozudur, kənd də Kirov kəndidir. Bu, müstəqilliyimiz dövründə çox əsaslı şəkildə diqqət yetirilməli bir məsələdir. Bir daha deyirəm şərti mənada, bələdiyyə seçkiləri ilə əlaqədar bunun qəbul edilməsinə etiraz etmirik. Ancaq bu məsələyə çox diqqətlə, elmi cəhətdən yanaşıb, düşünülmüş şəkildə baxmaq lazımdır. Diqqətinizə görə sağ olun.

5 oktyabr 1999-cu il

Hörmətli sədr, hörmətli Milli Məclisin deputatları! Doğrudan da, polis haqqında qanun çox vaxtında qəbul edilir, hətta deyərdim ki, bir az da gecikib. Müstəqil dövlətin özünün polisi də, prokurorluq sistemi də, Ədliyyə Nazirliyi və onlara məxsus qanunları olmalıdır. Başqa qanunlarla müqayisədə bu qanunlar daha təkmil və daha dəqiq olmalı və oradakı məsələlər yerli-yerində əks edilməlidir.

Avropa Şurasına daxil olmaq üçün dünya standartlarına uyğun qanunlar qəbul etməliyik və bu qanunlarda müəyyən

müddəalar da öz əksini tapmalıdır. Təbii ki, bizim qanun layihəsi mükəmməl işlənilib, müzakirələr də bunu göstərdi, biz bunu qəbul edəcəyik. Prokurorluq haqqında da qanun, yəqin, növbəti iclaslarımızdan birində qəbul olunacaq. Mən belə təklif edərdim, belə çıxmasın ki, prokurorluğun müəyyən səlahiyyətləri məhdudlaşdırılır, polisin səlahiyyətləri həddən artıq artırılır. Bunu belə başa düşmək lazım deyil. Azərbaycan prokurorluğunun 80 illiyini möhtərəm Prezidentimizin iştirakı ilə çox yüksək səviyyədə qeyd etdik. Azərbaycan prokurorluğunda işləyən, şərəfli həyat yolu keçmiş insanların əməyini yüksək qiymətləndirdik. Bu baxımdan biz çalışmalıyıq ki, prokurorluq haqqında qanun qəbul ediləndə onun da səlahiyyətlərinə toxunulmasın. Azərbaycan prokurorluğu dövlətin prokurorluğu kimi öz fəaliyyətini mükəmməl, ardıcıl və müstəqil şəkildə davam etdirsin.

Bu qanun layihəsinin 26-cı maddəsinin 2-ci bəndi ilə əlaqədar fikrimi demək istəyirəm. Burada göstərilir ki, inzibati hüquqpozmanı və ya cinayəti törədən şəxs tutulduqda fiziki qüvvə tətbiq edilə bilər. Məncə, bu, Avropa Şurasının tələblərinə, konvensiyaya uyğun deyil. Əgər inzibati hüquqpozmanı və ya cinayəti törədən şəxs tutularkən heç bir müqavimət göstərmirsə, ona qarşı niyə fiziki qüvvə tətbiq edilməlidir. Ona görə təklif edirəm yazılsın: «Cinayəti törədən şəxs müqavimət göstərdikdə fiziki qüvvə tətbiq edilə bilər». İnsan haqlarına uyğun olması üçün mən ciddi şəkildə təklif edirəm, «müqavimət göstərərsə» sözləri əlavə olunsun.

8 oktyabr 1999-cu il

Hörmətli sədr, hörmətli Milli Məclisin deputatları! Doğrudan da, son vaxtlar bizim Milli Məclis xalq təsərrüfatının müxtəlif sahələrinə aid yüksək səviyyədə

hazırlanmış qanunlar qəbul edir. O cümlədən də hüquqi islahatlara aid qanunlar gündəlikdə dayanıb və bu baxımdan da biz Polis haqqında, sonra Cinayət-axtarış tədbirləri haqqında və bu gün də Prokurorluq haqqında bu qanunu çox sürətlə müzakirə edirik və qəbul edəcəyik. Görünür, əsas səbəb ondan ibarətdir ki, biz təcili surətdə Avropa Şurasına daxil olmalıyıq və bu baxımdan da bu qanunları bir qədər də sürətləndiririk. Burada səsləndi ki, guya biz bu qanunları hələ bir az yubatmışıq, gərək çoxdan qəbul edərdik. Ancaq yubanmamışıq.

Mən keçən dəfə də dedim ki, lap bu yaxınlara qədər Türkiyə kimi 65 milyonluq böyük bir cümhuriyyət məhkəmə qanunlarını qəbul etməmişdi. Yəni son dövrlərdə Türkiyədə hüquqi islahatlar aparıldı və belə qanunlar qəbul olundu. Yəni bu heç bir zaman tələsik bir proses deyil. Lakin hamı onu bilməlidir ki, biz Avropa Şurasına daxil olmaq ərəfəsində olduğumuz üçün bu hüquqi islahatları sürətlə apardıq.

Ancaq bir məsələni qəti unutmaq lazım deyil ki, ta demokratik cümhuriyyət dövründən və ondan sonrakı 70 illik sovet dövründən bu yana prokurorluq çox şərəfli bir həyat yolu keçmiş və ümumiyyətlə, keçmiş SSRİ miqyasında və bizim respublikada cinayətkarlığın qarşısının alınmasına böyük əmək sərf etmişdir.

Heç də təsadüfi deyil ki, məhkəmə orqanlarından söhbət gedir, ədliyyə orqanlarından söhbət gedir və deyərdim ki, bu keçən 70 il müddətində bizdə prokurorluq sistemi bu adını çəkdiyim hər iki qurumdan daha qüvvətli olmuş, daha aparıcı mövqedə olmuş və daha sayılan, seçilən bir orqan kimi fəaliyyət göstərmişdir. İndi bu qanunu diqqətlə oxumuşam. Açıb oxuyursan və elə bilirsən ki, prokuraturaya böyük səlahiyyətlər verilib. Ancaq içərisini oxuyanda baxırsan ki, bu səlahiyyətlər elə-belə formal səlahiyyətlərdir. Burada 9-cu

maddədə oxuyuruq. Baş prokurorun səlahiyyətindən bəhs edir. Bir bənddə göstərilir ki, hakimlərin həbs edilməsinə dair qərar verilməsi üçün müvafiq məhkəməyə müraciət edilir. Məncə, bu bənd dəqiqləşdirilməlidir. Çünki hakimlər cinayət edəndə onların həbsinə razılıq verilməsi və işdən kənarlaşdırılması qaydası Konstitusiya ilə müəyyən olunur. Daha bunun səlahiyyətini istəyirsən prokuraturaya ver, istəyirsən apar bunu məhkəməyə ver, Ədliyyə Nazirliyinə ver. Bunlar artıq Konstitusiyada yazılıb, daha bunu prokurorluğun səlahiyyətinə niyə yazırlar?

Yaxud 7-ci maddənin üçüncü bəndində göstərilir ki, prokuror əməliyyat-axtarış fəaliyyətinə dair qanunların tələblərinin əməliyyat-axtarış orqanları tərəfindən icrasını təmin etmək məqsədilə onların qəbul etdiyi qərarların üzərində nəzarəti həyata keçirir. Əməliyyat-axtarış fəaliyyəti haqqında qanunda əks olunurdu ki, əməliyyat-axtarışa məhkəmələr icazə verəcəklər. Əgər əməliyyat-axtarış orqanları qanunsuz qərar qəbul edərlərsə, o zaman məhkəmələr onlara nəzarət edə bilər. Bunun da üzərində düşünməyə dəyər.

9 noyabr 1999-cu il

Hörmətli sədr, hörmətli Milli Məclisin deputatları! Bu gün müzakirə etdiyimiz kütləvi informasiya vasitələri haqqında qanun layihəsi müstəqil Azərbaycan Respublikasının həyatında ən mühüm tənzimləyici sənədlərdən biridir. Qanun layihəsinin hazırlanmasına kifayət qədər vaxt sərf edilmişdir. İşçi qrupunda respublikamızın tanınmış jurnalistləri və hüquqşünasları təmsil olunmuşlar. Belə sanballı bir qanunun hazırlanmasında yüksək fəallıq göstərdiyinə görə Rizvan müəllimə və işçi qrupun üzvlərinə

öz təşəkkürümü bildirirəm. Əlbəttə, qanun layihəsi haqqında müxtəlif fikirlərin, hətta bir-birinə zidd olan mövqelərin mövcud olması təbii haldır, çünki biz yeni cəmiyyət qururuq və hələ ki, ictimai həyatımızın bir çox sahələrinə qanunun tətbiqi mənasında boşluqlar vardır. Hətta əvvəllər qəbul olunmuş bir çox normativ sənədlər bugünkü gerçəkliklərə uyğun gəlmir. 1992-ci ildə qəbul olunmuş kütləvi informasiya vasitələri haqqında qanun da məhz belə sənədlərdəndir. Bu qanunda müəyyən boşluqlar olduğu üçün 1993-1996-cı illərdə ona müəyyən dəyişikliklər edilmişdir. Lakin mətbuatın inkişafı, onunla bağlı bir sıra yeni meyllərin yaranması istər-istəməz mətbuat, televiziya və radio haqqında indi müzakirə etdiyimiz tamamilə yeni bir sənədin meydana çıxmasını zəruri etmişdir.

Bu qanun layihəsi mətbuatın fəaliyyəti ilə bağlı əsas situasiyaları dolğun əks etdirir. Digər tərəfdən, layihənin yeniliyi ondadır ki, o, təkcə çap olunmuş kütləvi informasiya vasitələrinin tənzimlənməsini deyil, həm də elektron, kütləvi informasiya vasitələri olan televiziya və radio haqqında da bir sıra prinsipial müddəaları əks etdirir. Qanun layihəsi təkcə kütləvi informasiya vasitələrinin ayrı-ayrı təsisçilərinin, naşirlərinin vəzifə və səlahiyyətlərini deyil, həm də konkret hallarda ayrı-ayrı jurnalistlərin məsuliyyətini də müəyyən edir. Bütün bunlar barəsində isə məndən əvvəl çıxış edən deputat həmkarlarım ətraflı danışdılar.

O ki qaldı qanun layihəsi haqqında xarici ekspertlərin və ayrı-ayrı ölkələrin nümayəndələrinin çıxışına, mənə elə gəlir ki, bunları da normal qəbul etmək lazımdır. Aydındır ki, səfirlər, iqtidar və eyni zamanda, müxalifət partiyaları da informasiyalar alır və öz qənaətlərini bu informasiyalar əsasında formalaşdırırlar. Müxalifətin isə hər şeyi, hətta ən yaxşı olanı belə özü istədiyi şəkildə mənalandırması istər-istəməz həmin

ekspertlərə müəyyən fikirlər irəli sürməyə imkan verir. Əgər xarici ekspertlərin, yaxud səfirlərin dediklərində Azərbaycan gerçəkliyi ilə uyğunlaşan məqamlar varsa, bunları nəzərə almaq lazımdır.

Bu maddəni aşağıdakı kimi adlandırsaydıq, daha yaxşı olardı: «Kütləvi informasiya vasitələrinin dili və bu dillərin leksik, orfoqrafik normalarından düzgün istifadə edilməsi qaydaları haqqında». Bilirsiniz, dediyimiz kimi yazmaq olmaz: «əsasən Azərbaycan dilidir». Aydındır ki, Azərbaycan Respublikasının dövlət dilidirsə, elə əsasdır.

İkinci tərəfdən, yazmaq olmaz ki, bunlara çox yer verilsin, onlara az yer verilsin. Təbiidir ki, müstəqil respublikanın dilində çox qəzet çıxacaq. Digər dillərdə də qəzet nəşr oluna bilər. Əgər normal nəşr oluna bilirsə, bu da sivil dövlətlərə aid atributlardan biridir. Ancaq anormallıq nədən ibarətdir? Bunu hamımız görürük, hiss edirik, amma heç birimiz demək istəmirik, yaxud bunu etməyi məqsədəmüvafiq bilmirik. Nədir bu? Sovet dövründə nəşr olunan qəzetlərdə çox nadir hallarda orfoqrafiya səhvlərinə, müəyyən leksik, qrammatik səhvlərə rast gəlmək olardı. İndi qəzetlərdə, əlbəttə, buraya dövlət qəzetləri, özəl, müstəqil qəzetlər də aiddir, əsas fikir verirlər mənaya, məzmuna. Halbuki Azərbaycan dilinin qanun və qaydalarını da gözləmək əsas şərtlərdən biridir. Düzdür, indi şagird orta məktəbdə yazı qaydalarına, orfoqrafiya qaydalarına fikir vermir. Deyir, onsuz da məndən bunu kimdir soruşan. Testi əzbərləyir, gedir imtahanını verir, girir. Bisavadlığın bünövrəsi buradan qoyulur. Mətbuat nəşr edir, heç nəyə baxmırlar. Bitişik, defis ilə yazılan sözlər ayrı yazılır, vergülün, nöqtəli vergülün yeri bilinmir, kompüterdə yazıldığına görə sətirdən-sətrə keçirilmə çox gülməli bir şəkildədir. Bəzən sözün bir hissəsi sətrin bu başında qalır, bir hissəsi keçir. Bu nöqsanlar Azərbaycan ədəbiyyatında heç bir zaman olmayıbdır. «Molla Nəsrəddin»

jurnalı, «Əkinçi» qəzeti ərəb əlifbası ilə çap edilirdi. XX əsrin əvvəllərində 200-dən artıq müxtəlif istiqamətli qəzet nəsr olunub, heç birində belə bisavadlığa yol verilmirdi. Bunun da qarşısını alan və tənzimləyən bir qanun da yoxdur. Mən təklif edərdim ki, buraya əlavə olunsun və həmin məsələlər qanunla tənzimlənsin.

Bilirəm ki, son dövrlər çox güclü jurnalistlər ordusu yetişibdir. Əlbəttə, bu üsluba, stilistikaya, jurnalist yaradıcılığına aid deyil. Söhbət qrammatikadan, orfoqrafiyadan, leksikadan gedir. Bunlara diqqəti artırmaq lazımdır. Bir də unutmaq olmaz ki, bu, qəzet dilidir, mətbuat dilidir, bu dil normalara uyğun olmalıdır. Bu, normalardan kənara çıxanda artıq öz varlığını itirir. I fəslə aid təklifim bu idi.

II fəslə aid təklifim isə belədir. 7-ci maddədə senzuranın yolverilməzliyindən bəhs olunur. Hörmətli Prezidentimiz cənab Heydər Əliyevin 1998-ci ilin avqustunda tarixi addım ataraq senzuranı ləğv etməsi mətbuat üçün, bugünkü qanun üçün ən uğurlu cəhətlərdən biridir. Bu məsələ tənzimləndi, öz yerini tapdı. 8-ci maddə «Kütləvi informasiya vasitələrinin məlumat almaq hüququ» adlanır. Keçən dəfəki layihədə bu yox idi, demokratik dövlətlərin bir çoxunda yoxdur. Əgər jurnalist hər hansı bir məlumatı almaq üçün müəyyən idarəyə müraciət edirsə, həmin idarə müdiri jurnalistə məlumat verməyə borcludur. Onun hüququdur. Bax, bundan güclü, bundan da demokratik qanun ola bilər?

10-cu maddə belə adlanır: «Kütləvi informasiya azadlığından sui-istifadənin yolverilməzliyi». Yəni verilən bu hüquq və azadlıqlardan normal istifadə etmək lazımdır. Diqqətinizə görə təşəkkür edirəm.

10 noyabr 1999-cu il

Hörmətli sədr, hörmətli Milli Məclisin deputatları! Əvvəl onu qeyd edim ki, istər dövlət, istər ictimai, istərsə də özəl televiziya və radio haqqında olan bəndlər dünya standartlarına tamamilə uyğundur. Mən, Rizvan müəllim başda olmaqla, bu komissiyanın üzvlərinə öz təşəkkürümü bildirirəm ki, dünya televiziyasında və dünya informasiya vasitələrində olan bugünkü nailiyyətlər və qarşıda duran uzunmüddətli perspektiv plan və nəticələr bu qanun layihəsində öz əksini çox ətraflı tapmışdır. Ona görə qanun layihəsinin həmin hissəsi tamamilə müasir səslənir. Burada verilən o təklifləri mən də qanuni sayıram. Çünki bu elə bir spesifik sahədir ki, bu barədə fikir demək üçün hökmən onunla, heç olmasa, bir müddət məşğul olmalısan.

Əvvəla, mən bir məsələ haqqında fikir bildirmək istəyirəm. Əgər Azərbaycan efiri, Azərbaycan ekranı nəinki Rusiya telekanallarını, Rusiya radiosunu, bütün dünya televiziya və radiolarını tutmaq imkanına malik olarsa, o, ən mühüm, ən sivil dövlət hesab oluna bilər. Bu bizim böyük nailiyyətimiz hesab edilir.

Bu, uzun müddətə qəbul olunacaq qanun layihəsidir. Bu gün üçün deyil. Bu qanun bəşəridir. İkinci tərəfdən, əgər orada hər hansı dezinformasiya verilirsə, yaxşı, ona qulaq asma da. Əgər qulaq asıb, onun təsiri altına düşəcəksənsə, bu o demək deyil ki, onda televiziyaların hamısı bağlanmalıdır. Bu forma çıxış yolu deyil. Onda biz gərək hər şeyi bağlayaq, hər mühitdən aralanaq ki, heç nə eşitməyək. İnsan dərrakəsi, insan düşüncəsi, insan şüuru bunlara öz reaksiyasını verməlidir. Bu bir.

Burada bir fikri də yadda saxlamaq lazımdır ki, Azərbaycan küncə qısılmış bir dövlət, bir ölkə deyil. O,

tarixən karvan yollarının kəsişməsində olubdur. Avropa ilə Asiyanın ortasında yerləşən bir dövlətdir. Bütün Azərbaycan dünya siyasətindən heç də kənarda deyil. Orada verilən məlumatı bizim diktor eyni ilə çatdırırsa, lap yaxşı. Ora qulaq asa bilməyən adamlar bununla məlumatlanırlar. Bu, televiziyanın nailiyyəti hesab olunur. Bir xəbərlə dünyada baş verən müxtəlif məlumatları qısa müddətdə Azərbaycan əhalisinə çatdırmaq imkanı yaranır. Radio və televiziyanın işini tənzimləyəcək uzun müddət üçün nəzərdə tutulan qanun layihəsi tamamilə müasirdir və dünya standartlarına uyğundur. Diqqətinizə görə təşəkkür edirəm.

11 noyabr 1999-cu il

Hörmətli sədr, hörmətli Milli Məclisin deputatları! Mən bir məsələni dilçi kimi xüsusi qeyd etməyi özümə borc bilirəm. Təxminən 1995-1996-cı illərdə mən burada belə bir çıxış etdim. Biz hüquq sisteminə aid hər hansı bir qanunu qəbul edəndə o qanun çox ağır dildə yazılırdı. Bayaq Zakir müəllim izah etdi, bizim hüquqşünaslığa aid terminologiya 30-cu illər səviyyəsindədir. Yəni sonradan bu terminologiya heç də müasirləşdirilməmiş və elə 30-cu illərin məhkəmə dilində də qalmışdır.

Lakin son dövrlər Zakir müəllimin rəhbərliyi ilə bu komissiya qanunların dili üzərində məsuliyyətlə çalışır. Biz dilimizin üzərində işləyib onu cilalamalıyıq, müasir harmonik bir vəziyyətə gətirib çıxarmalıyıq. Yəni bu terminologiya, sahə terminologiyaları sadələşdirilməlidir. Bu haqda mən fikrimi bildirmək istəyirdim. Burada mənim bir təklifim ondan ibarətdir ki, bu «Cəza qanunu», ya «Cinayət qanunu» ifadələri «Cinayət Məcəlləsi haqqında qanun», «Cəza Məcəlləsi haqqında qanun» şəklində yazılsın. Bu, Azərbaycan

dilinin qanunauyğunluqlarına tamamilə münasibdir: Yəni belə bir fikri də irəli sürmək olar ki, birbaşa adlandırılanda o məsələdən yayına bilər.

İndi, icazə verin, III fəslə dair. İkinci bölmədə III fəslin 15-ci maddəsində cinayətlər dörd qrupa bölünür: böyük ictimai təhlükə törətməyən, az ağır, ağır, bir də xüsusilə ağır cinayətlər. Böyük ictimai təhlükə törətməyən cinayətlər həddi 2 ildən yuxarı nəzərdə tutulmayan cinayətlər hesab olunur. Mən təklif edərdim ki, bu, 2 il yox, 3 il müəyyən edilsin. İkincisi, az ağır cinayətlərdə cəzanın yuxarı həddi 6 il həddində göstərilsin. Ağır cinayətlər 12 ildən artıq olmayan cinayətlər hesab edilsin, xüsusilə ağır cinayətlər 12 ildən yuxarı və daha ağır cəza nəzərdə tutan cinayətlər hesab olunsun. Yaddan çıxarmaq olmaz ki, bir neçə maddə və ömürlük azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulacaqdır. Mənim fikrimcə, xüsusilə ağır cinayətlər yalnız o cinayətlər hesab olunmalıdır ki, həmin maddələrin sanksiyasında ömürlük azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulsun. Bu fikrim 15-ci maddəyə aid idi. 18-ci maddənin ikinci hissəsinin «a» bəndində göstərilir ki, qəsdən cinayət törətməyə görə əvvəllər iki dəfə azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş şəxs yenidən qəsdən cinayət törətməyə görə azadlıqdan məhrumetmə cəzasına məhkum olunduqda, zənnimcə, burada mütləq göstərilməlidir ki, məhkum olunmuş şəxs məhkumluğu ödənilməmiş yenidən qəsdən cinayət törətməyə görə məhkum olunduqda. Çünki bu halda məhkumluğun ödənilib-ödənilməməsinin xüsusi əhəmiyyəti vardır. Bu qeyd ikinci «b» bəndində, üçüncü hissəsinin «a», «b», «c» bəndlərində də göstərilmişdir. Diqqətinizə görə sağ olun.

19 noyabr 1999-cu il

Hörmətli sədr, hörmətli Milli Məclisin deputatları! Mənim çıxışım həm sual, həm də təklif xarakterlidir. Qeyd edildi ki, burada hüquq mühafizə orqanlarının nümayəndələri iştirak edirlər. Müzakirənizə təqdim edilən Cinayət-Prosessual Məcəlləsinin layihəsi məhkəmə-hüquq islahatlarının ən əhəmiyyətli tərkib hissələrindən biridir. Hakimin, vəkilin, müstəntiqin, prokurorun, təhqiqat aparan şəxsin, şübhə edilən şəxsin, zərərçəkmişin, müttəhimin, bir sözlə, bütün prosessual şəxslərin hüquq və vəzifələrini nizamlayacaq bu sənədin beynəlxalq standartlara uyğun olaraq qəbul edilməsi funksiyasının böyük əhəmiyyəti vardır. Məcəllələr qəbul edilərkən tanınmış hüquqşünas alimlər, mütəxəssislər, təcrübəli hakimlər, vəkillər Milli Məclisə dəvət edilir və müzakirələrdə onların rəyi nəzərə alınır.

Layihə müəllifləri qanun üzərində çox gərgin iş aparmış, demokratik hüquqi dövlətlərin qanunvericilik təcrübəsindən istifadə etmiş və onu Azərbaycan Respublikasının Konstitusiyasına uyğun hazırlamışlar. Layihədə təklif olunan yeniliklər xüsusilə təqdirəlayiqdir. Ağır cinayətlərə görə ittiham olunan şəxsin işinə məhkəmələr tərəfindən baxılmasını tələb etmək hüququ, girov haqqında, şahid və zərərçəkmişlərin prosessual hüquqları, dövlətin hesabına zərərçəkənə verilən kompensasiya və sairlə əlaqədar yeniliklər dediklərimə sübutdur. Layihəyə aid mənim də bir sıra irad, təklif və suallarım vardır.

1-ci maddənin ikinci hissəsində göstərilir: «Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyi ona yönəlmişdir ki…» Burada fikir aydın deyil. Cümləni belə yazmaq olar: «Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyinin məqsədi aşağıdakılardan ibarətdir» və ya «qanunvericiliyinin məqsədi» kimi göstərmək olar.

7-ci maddənin 37-ci bəndində gecə vaxtının müddəti 22-dən 7-dək göstərilir. Yay mövsümündə saat 7-də artıq səhər açılır. Təklif edirəm ki, gecə vaxtı 22-dən 6-dək olsun.

19-cu maddənin on birinci hissəsinin 1-ci bəndindəki: «şübhəli şəxsin və təqsirləndirilən şəxsin tutulduğu, həbsə alındığı, yaxud ona ittiham elan edildiyi vaxtdan müdafiəçi vasitəsilə yüksək keyfiyyətli hüquqi yardım almaq hüququ». Təklif edirəm ki, «şübhəli şəxsin və ya təqsirləndirilən şəxsin tutulduğu», sonra isə «saxlandığı» şəklində qeyd olunsun.

On birinci hissəsinin 2-ci bəndində «şübhəli şəxsin və ya təqsirləndirilən şəxsin onlardan asılı olmayan müdafiəçisi vasitəsilə yüksək keyfiyyətli hüquqi yardım almaq hüququ» göstərilmişdir. «Onlardan asılı olmayan müdafiəçisi» deyəndə nə başa düşülür? Bu ifadəni uğurlu hesab etmək olmaz. «Şübhəli şəxsin və ya təqsirləndirilən şəxsin istədikləri vəkili dəvət etmək hüququnu» kimi olsa daha məqsədə müvafiqdir.

36-cı maddənin adı «Təmizə çıxarılmaq və zərərin ödənilməsini tələb etmək hüququ»dur. Məncə, «təmizə çıxarılmaq» hüquqi termin deyil, onu «bəraət almaq» və «zərərin ödənilməsini tələb etmək hüququ» kimi qeyd etmək daha düzgün olar. 49-cu maddə «Cinayət işlərinin birləşdirilməsi»dir. Bu maddəyə xüsusilə diqqət yetirmək lazımdır. Məlumdur ki, istintaq orqanları tərəfindən cinayət işləri birləşdirilərkən və ya ayrılarkən ciddi qanun pozuntularına yol verilir. Maddənin üçüncü hissəsində göstərilir: «Toplanmış materialların həcminin böyüklüyünə və ya təqsirləndirilən şəxslərin sayının çoxluğuna görə işin məhkəmədə baxılmasını gecikdirən və ya formada çətinlik yaradan ittihamlar bir icraatda birləşdirilməlidir». Maddənin bu hissəsinə aydınlıq gətirilməlidir. Mən bilmək istəyirəm ki, iş materiallarının həcminin böyüklüyünə görə hansı səbəbdən bir icraatda birləşdirilməlidir? Məncə, obyektiv deyil. İstintaq

orqanları bundan başqa məqsədlə istifadə edə bilər. Bu hissə çıxarılmalıdır.

Həmin maddənin dördüncü hissəsinin 1-ci bəndi – «müxtəlif şəxslər barəsində eyni ittihamlar»da, zənnimizcə, dəyişdirilməlidir. Əgər bir neçə şəxsə qarşı bir neçə ittiham sürülübsə, nə səbəbə eyni icraatda birləşdirilə bilməz?

82-83-cü maddələr «Andlı iclasçı» və «Andlı iclasçıların aparıcısı» adlanır. İclasçılar hansı qaydada seçilirlər və onların tərkibi necə müəyyən ediləcək, bu haqda orada bir şey yoxdur.

92-ci maddə «Müdafiəçi» adlanır. Birinci hissədə göstərilir: «Cinayət işləri üzrə müdafiəçi kimi Azərbaycan Respublikası ərazisində vəkillik fəaliyyətini keçirmək üçün xüsusi icazəsi olan vəkil iştirak edə bilər». Bu hissədə «xüsusi icazəsi olan» ifadəsi çıxarılmalıdır. Çünki Vəkillər haqqında qanun layihəsi ikinci oxunuşda qəbul edilərkən «vəkillərin lisenziya alması» fikri oradan çıxarıldı. «Vəkillər Palatasının üzvü olan vəkil iştirak edə bilər» kimi yazmaq olar.

Həmin maddənin on dördüncü hissəsinin 9-cu bəndinin axırıncı cümləsində «müqavilə əsasında ekspertin rəyini və mütəxəssisin fikrini soruşmağa» şəklində qeyd olunan ifadə «müqavilə əsasında ekspertiza təyin etməyə, mütəxəssis rəyini almağa» kimi yazılsa, daha uyğun olar. İnkişaf etmiş dövlətlərdə vəkillərə bu cür hüquqlar verilib.

Layihə, qeyd etdiyim irad və təkliflər nəzərə alınmaqla, birinci oxunuşda qəbul oluna bilər. Diqqətinizə görə təşəkkür edirəm.

14 dekabr 1999-cu il

Hörmətli sədr, hörmətli Milli Məclisin deputatları! Nəhayət, Azərbaycan Respublikasının Avropa Şurasına qəbul edilməsi gerçəkləşir. Bunu bütün Azərbaycan xalqı, iqtidarlı,

müxalifətli çoxdan gözləyir. O gün yaxınlaşır. Avropa Şurasının göndərdiyi bu öhdəliklər indiki iqtidar tərəfindən mərhələlər üzrə həyata keçirilir və keçirilməkdədir. Belə ki, möhtərəm Prezidentimizin 1993-cü ildən bəri verdiyi fərman və sərəncamlar bu öhdəliklərin reallaşması, həyata keçirilməsi üçün tamamilə əsaslı bir zəmin yaratmışdır. Bundan başqa, Milli Məclisdə qəbul etdiyimiz bir çox qanunlar hüquq mühafizə orqanları, prokurorluq haqqında və digərləri Avropa Şurasının tələblərinə uyğundur. Bu qanunlar müxtəlif ölkələrin parlamentləri, Avropa Şurası və Parlament Assambleyası tərəfindən çox yüksək qiymətləndirilmişdir.

Burada Dağlıq Qarabağ münaqişəsi ilə bağlı söhbət getdi. Ərazi bütövlüyü ilə əlaqədar öhdəlikləri mən çox diqqətlə oxumuşam. Dünən televiziya ilə bunları verəndə, mən diqqətlə baxdım. Bu münaqişənin sülh yolu ilə həll olunması ilə əlaqədar məsələlər 8, 9, 10, 11, 12-ci maddələrdə öz əksini tapmışdır.

Mən demək istəyirəm ki, son dövrdə Azərbaycan Respublikası Prezidentinin müxtəlif ölkələrə səfərləri Azərbaycan reallığı, Dağlıq Qarabağ münaqişəsi Azərbaycan xalqı haqqında yüksək rəy yaratdı. Heç kim üçün gizli deyil ki, bütün dünyaya biz vəhşi xalq kimi təqdim olunmuşduq. Azərbaycan, oradakı demokratiya haqqında müxtəlif müəmmalı fikirlər var idi. Artıq bütün dünya, o cümlədən Avropa Şurasında bu fikir tamamilə dəyişilibdir. Azərbaycan özü haqqında demokratik imic yarada bilibdir. Ona görə də Avropa Şurasından bu öhdəlikləri bizə göndəriblər.

Mənə bir məsələ də bir qədər qəribə gəlir. Bu məsələlər Azərbaycan xalqı üçün taleyüklü məsələlərdir. Bu məsələlərdə iqtidar-müxalifət mövqeyi, münaqişəsi olmamalıdır, ola bilməz. Bu gün burada çıxış edən müxalifət nümayəndələri, partiya sədrləri əsasən bu öhdəliklərin qəbulunu məqbul hesab

edirlər. Müəyyən təkliflər irəli sürdülər. Beynəlxalq aləmdə Azərbaycanın nüfuzunu qaldırmaq üçün hökmən iqtidar və müxalifətin mövqeyi bir olmalıdır, çünki bu, Azərbaycan xalqının taleyüklü məsələsidir. Murtuz müəllim, siz tamamilə düz buyurdunuz ki, bu məsələni uzadıb, geniş müzakirəsi üçün vaxt ayırmaq lazım deyil. Bu taleyüklü məsələlər yaxın günlərdə həll olunmalıdır. Xarici İşlər nazirimiz bu günlərdə həmin toplantılara getməlidir. Bu öhdəliklər çox vaxtında və yerində göndərilibdir. Biz bu öhdəliklərin qəbul edilməsinə tərəfdarıq. Ona görə də heç bir mübahisə yaratmadan biz bu gün öhdəliklərin qəbul edilməsinə səs verməliyik. Çox sağ olun.

25 mart 2000-ci il

Hörmətli sədr, hörmətli Milli Məclisin deputatları! «Ərazi quruculuğu və inzibati ərazi bölgüsü» haqqında qanun layihəsi geciksə də, nəhayət ki, Milli Məclisin müzakirəsinə təqdim olunubdur. Deyərdim ki, layihə uzun müddətli müzakirələrdən sonra çox yüksək səviyyədə işlənibdir. Bu baxımdan, mən komissiyaya və onun sədri Zahid müəllimə öz təşəkkürümü bildirirəm.

Bu, çox ciddi müzakirələrdən sonra milli xüsusiyyətləri nəzərə alınmaqla, üstündə çox düşünüb-daşınmaqla qəbul edilməli bir qanun layihəsidir. Təəssüf, bu gün Milli Məclisdə bəzi təkliflər eşitdim. Bu təkliflərə Zahid müəllimin cavabını da dinlədim. Zahid müəllim çox mədəni, çox yüksək və peşəkar səviyyədə onlara cavab verdi. Mən ona görə öz çıxışımı genişləndirmək fikrində deyiləm. Ancaq bir şeyi yadda saxlamaq və düşünmək lazımdır ki, həm icra hakiminin, həm də yerli inzibati ərazidə yaşayan əhalinin fikri hökmən nəzərə alınmalıdır. Lakin ona məqbul səviyyədə

yanaşmalı, hökm kimi qəbul etməməliyik. Bu münasibət düzgün sayıla bilməz. Zahid müəllim düz dedi. Burada komissiya var. Komissiyada mütəxəssislər iştirak edirlər. Mütəxəssislərin müzakirəsindən keçdikdən sonra icra hakimiyyətində yerli əhalinin təklifləri nəzərə alınıb qəbul olunmalıdır. Yoxsa bu gün filankəs icra hakimidir, bir təklif verir, sabah bir başqası əhali arasında təbliğat aparır ki, filan adla adlandıraq, bununla razılaşmaq düzgün deyil.

Milli Məclisin rəhbərliyi çox düzgün olaraq Toponimiya komissiyasının tərkibinə yenidən baxır və deyildiyi kimi, növbəti iclasda onun tərkibi təsdiq olunacaq. Çünki keçmiş tərkibin təsdiqindən 10 il keçibdir. Hər şeydən əvvəl düşünmək lazımdır ki, bu toponimlər heç bir zaman siyasiləşdirilməməlidir. Yadınızdadırsa, sovet dövründə nə cür vəziyyət yaranmışdı. Ya ruslaşdırmaq, ya da müasirləşdirmək istəyirdilər: Kirovkənd, Jdanov və s. adlar var idi. Qədim türk toponimlərinin adları çıxarılıb, qondarma adlar verirdilər. Guya ki, beynəlmiləl adlar qoyulurdu. Ya da Baharlı, Günəşli və ya şəxs adları verirdilər. Şərur rayonuna İliçin adını qoymuşdular. «Kommunizm» adında kənd, sovxoz var idi. Heç bir ad tapmayanda, sovet dövrünün şkalasına uyğun olaraq Yenikənd, Təzəkənd adlandırırdılar. Rayonda beş yeni kənd varsa, onlara hökmən o yerlərin əslini, kökünü, toponimini tapıb ad qoymaq lazımdır.

Sonra Zahid müəllim çox düzgün olaraq bir məsələyə də toxundu ki, quberniyalara bölünmək, əslində xanlıqlar dövrünə qayıtmaqdır. XVII əsr Azərbaycan tarixinə aid Ziya Bünyadovun bir kitabı nəşr olunub. Mən oradakı adları müqayisə edəndə, bir mütəxəssis kimi görürəm ki, XVII əsrdə mövcud olan bir sıra yer adlarına hələ də toxunulmayıbsa, bu, çox yaxşıdır. Yox, əgər bəzi qədim adlar siyasiləşdirilibsə, tamamilə dəyişdirilibsə, bunlara yenidən baxılmalıdır.

Təsadüfi deyildir ki, «Kitabi Dədə Qorqud» dastanlarında, bizim qədim abidələrimizdə olan yer adlarının bir çoxu, aradan 1300, 1500 il keçməsinə baxmayaraq, qorunub saxlanılıb və xalqın yaddaşında qalıbdır. Biz, hər şeydən əvvəl, yerlərə ad verərkən, ilk növbədə, həmin ərazinin, torpağın əslini, kökünü o toponimlərdə bərpa etməliyik. Çalışmalıyıq ki, onları bu şəkildə siyasiləşdirək. Bu baxımdan, mən qanunun qəbul olunmasını çox məqbul hesab edirəm. İkinci oxunuşda da konkret təkliflərlə çıxış edəcəyəm.

11 aprel 2000-ci il

Hörmətli sədr, hörmətli Milli Məclis deputatları! Bu gün müzakirəmizə çıxarılan qanun layihəsi respublikamızın ən tanınmış dilçi alimlərinin və mütəxəssislərinin iştirakı ilə uzun müddət işləndikdən sonra Milli Məclisin müzakirəsinə təqdim olunub. Ona görə də təbii olaraq bu gün mükəmməl şəkildədir. Düzdür, Azərbaycan dili dövlət dilidir və Azərbaycan xalqını düşündürən taleyüklü bir məsələ olduğuna görə Milli Məclisin bütün deputatları bununla bağlı çıxış etmək, fikirlərini bölüşmək istəyirlər.

Anar müəllimin çox geniş və əhatəli təqdimatından məlum oldu ki, bu yaxında Türkiyədə keçirilən iclasda türk dilləri və o cümlədən Azərbaycan dili haqqında geniş müzakirələr keçirilib. Anar müəllimin çıxışından o da aydın oldu ki, ümumi türk dili haqqında məsələ nə şəkildə qoyulmuşdur. Anar müəllim buna öz münasibətini bildirdi. Mən bunu ortaq əlaqə dili hesab etsəm, daha düzgün olar. Bu haqda fikirlər çoxdur. Hələ XIX əsrdə «Tərcüman» qəzetində bu məsələ çox geniş müzakirə olunmuşdur. Ortaq türk dili problemi bir əsrdən artıqdır ki, bütün türk dünyasını düşündürür və bu gün də mübahisəlidir. Mən o haqda

mübahisə aparmaq istəmirəm. Çünki bu artıq başqa mövzudur.

Qanun layihəsinin maddə-maddə müzakirəsini aparmağa ehtiyac yoxdur. Bir məsələni diqqətinizə çatdırmaq istəyirəm ki, indiki dövrdə Azərbaycan dili ən çox inkişaf etmiş türk dillərindən biridir. Anar müəllim onu çox doğru olaraq vurğuladı ki, biz Azərbaycan dilini qoruyub saxlamaq üçün onu yeni terminologiya ilə zənginləşdirməliyik. Dilə müdaxilə çox zaman arzuolunmaz nəticələrə gətirib çıxarır. Məsələn, 30-cu illərdə erməni dilçi alim Akop Dilaçar purizm adı altında türk dilini təmizləmək ideyasını irəli atdı. Min ildən artıq bir müddətdə işlənmiş ərəb və fars sözlərini türk dilinin tərkibindən çıxardılar və yerinə yeni qondarma sözlər gətirdilər. Məsələn, təsəvvür edin ki, «müəllim» sözünü çıxarıb «öyrətmən» etdilər, «tələbə» sözünü «öyrənçi» etdilər, «məktəb» sözünü fransızcadan «okul» götürdülər. Beləliklə də, dili bu cür təmizləmək cəhdi Türkiyə türkcəsini o biri türkcələrdən xeyli ayırdı. Azərbaycan dilində və o biri türk dillərində isə min illərdən bəri işlənib vətəndaşlıq hüququ alan sözlər, xüsusilə ərəb və fars sözləri qaldı. Beləliklə də, türk dilləri bir-birindən istər-istəməz qısa müddətdə aralanmağa və bir-birindən ayrılmağa başladı. Bizdə bəzən belə çağırışlar eşidilir ki, indiki dövrdə, heç olmasa, ortaq terminologiyanı qəbul edək. Ancaq məsələ orasındadır ki, – indi burada çıxışlarda da dedilər, – müasir türk dilindən yerli-yersiz bəzi terminləri alıb, ədəbi dilə norma kimi daxil edib işlətmək bizim ədəbi dilimizi korlayır. Bu baxımdan ədəbi dilə çox böyük həssaslıqla yanaşmaq lazımdır.

İndi qəzet dilindən, televiziya dilindən, radio dilindən, ümumən kütləvi informasiya vasitələrinin dilindən söhbət gedir. Hər kəs bura bir cür müdaxilə etmək istəyir. Axı, normal ədəbi dil var. Bundan istifadə etmək lazımdır. Hərənin

öz dili ola bilməz ki. İndi Azərbaycan dövlət televiziyası çalışır ki, bu ədəbi normaları qoruyub saxlasın və inkişaf etdirsin.

Eyni zamanda, burada dublyajdan söhbət gedir. Son dövrlərdə televiziyanın nəzdində dublyaj redaksiyası açılıb. İndiyə qədər bizdə gedən filmlərin, – Azərbaycan filmlərindən başqa, əksəriyyəti rus dilindədir. Qısa müddətdə yüzdən artıq film Azərbaycan dilinə dublyaj olunub. Bundan əlavə bizdə ayrıca verilişlər gedir. Məsələn, dedilər ki, televiziyada, radioda Azərbaycan dili haqqında verilişlər açılsın. Mən işləməmişdən qabaq ayda bir dəfə «Azərbaycan dili» verilişi fəaliyyət göstərirdi. İndi bizdə «Türk dili», «Turan», «Türk elləri», «Türk abidələri», «Oğuz», «Dərbənd», «Qala», «Dastan» kimi milli verilişlər var. Bu verilişlərdə Azərbaycan dilinin bütün qayda-qanunları gözlənilir. Biz xalq yaradıcılığı vasitəsilə bu dilin zənginliklərini, incəliklərini xalqa çatdırırıq.

Çıxışlarda səsləndi, özəl televiziyalarda, özəl radiolarda, bəzi müstəqil qəzet və jurnal səhifələrində ədəbi dil normalarının pozulması hallarına təsadüf olunur. Sovet dövründə də XX əsrin əvvəllərində belə hallar olub. Mənə bir dilçi kimi ən çox acıq gələn odur ki, çoxları buna haqq qazandırmaq, bu əllaməliyi qanunauyğunluq kimi qələmə vermək istəyirlər. Bu ola bilməz. Bu, xalqın dilidir. Bu min illik böyük tarixə malik olan bir dildir. Bura barmaq uzatmaq, əl uzatmaq olmaz. Hər adamın orada əməliyyat aparmasına icazə vermək lazım deyil. Dil normaları dövlət tərəfindən qorunub saxlanmalıdır.

6 iyun 2000-ci il

Biz təxminən 3 ay bundan qabaq «Reklam haqqında qanuna əlavələr və dəyişikliklər» haqqında qanun qəbul etdik.

Orada, ümumiyyətlə, spirtli içkilərin televiziya və radioda təbliğ olunması qadağan olunur və biz də hamımız buna səs verdik. Bu mentalitetimizə də uyğundur. Ancaq burada 24-cü maddədə yenidən televiziya və radio vasitəsi ilə 23-dək spirtli içkilərin reklamı ilə əlaqədar maddənin daxil edilməsi nə dərəcədə düzgündür? Axı, bu, çox haqlı olaraq qadağan olundu.

Biz həm də şərq ölkəsiyik. Siqaretin reklamı 3 il bundan qabaq ləğv olunmuşdu, indi də spirtli içkiləri bura daxil etmisiniz. 24-cü maddədən həmin dördüncü abzas çıxarılmalıdır. Çünki bundan əvvəl qəbul olunmuş qanundan çıxarılıbdır.

10 aprel 2001-ci il

Hörmətli sədr, hörmətli Milli Məclisin deputatları! Biz bu qanun layihəsini geniş şəkildə müzakirə etdik. Mən heç bir təcrübə olmadan ilk dəfə olaraq belə bir mükəmməl layihəni hazırlayıb Milli Məclisə təqdim etdiyi üçün komissiyanın bütün üzvlərinə və komissiyanın sədri Zahid müəllimə öz təşəkkürümü bildirirəm. Çünki bələdiyyələrlə əlaqədar hər hansı bir qanunun hazırlanması yenilikdir. Sovet dövründə belə bir qurum, belə bir struktur olmayıb ki, biz də ona əsaslanıb yeni bir layihə hazırlaya bilək. Bunun hamısı yenilikdir, bu baxımdan, mən Zahid müəllimin və komissiyanın təşəbbüsünü alqışlayıram.

Bələdiyyələrin məhəllə komitələri haqqında nümunəvi Əsasnamənin qəbul edilməsi çox vacib və məqsədəuyğundur. Onlar bələdiyyə ərazisində yerli əhəmiyyətli məsələlərin həllinə vətəndaşların cəlb olunmasına kömək edəcək, Bu da çox mühüm məsələdir, bütün vətəndaşlar hər hansı bir işin icrasına fəallıqla cəlb olunurlar, ictimai asayişin, ətraf mühitin

mühafizəsində mühüm rol oynayırlar. Onlar bələdiyyə ərazisində qanunsuz tikintilərin tikilməsinə yol verməyəcək, əhalidən bələdiyyə vergilərinin yığılmasına köməklik göstərəcəklər.

Ümumiyyətlə, Əsasnamə qüvvədə olan normativ hüquqi aktlara uyğun hazırlanmışdır. Maddələr aydın və dolğundur. Lakin 3-cü bəndin ikinci hissəsində göstərilir ki, məhəllə komitələri vətəndaşların yığıncaqlarının qərarı ilə vaxtından əvvəl tamamilə və qismən yenidən seçilə bilər. Burada komitələrin hansı hallarda vaxtından əvvəl yenidən seçilməsinin göstərilməsi daha məqsədəuyğun olardı.

Əsasnamənin 4-cü bəndinin ikinci hissəsində göstərilir ki, məhəllə komitələri lazım olan hallarda, lakin iki ayda bir dəfədən az olmamaq şərti ilə çağırılır. Bayaq bunun üstündə mübahisə düşdü. Burada konkret yazılır ki, bu iclaslar lazım olan hallarda çağırılır. Bu o demək deyil ki, bu, hökmən iki aydan bir çağırılsın. Lazımdırsa, iki gündən bir də çağırıla bilər. Bu, çağırılmanın daxili bölgüsünü müəyyən edən bir cümlədir. Lakin «lazım olan hallarda» dedikdə, hansı halların nəzərdə tutulması aydın göstərilsəydi, daha məqsədəmüvafiq olardı. Mən bir daha qanun layihəsinə səs verilməsinin tərəfdarı olduğumu bildirirəm və onu mükəmməl hazırladıqları üçün komissiyaya öz təşəkkürümü bildirirəm.

13 aprel 2001-ci il

Hörmətli sədr, hörmətli Milli Məclisin deputatları! Artıq 4 saata yaxındır ki, biz sentyabr ayının 11-də Amerika Birləşmiş Ştatlarının on böyük şəhərləri olan Nyu-Yorkda və Vaşinqtonda baş vermiş qatı terror aktını və onun nəticələrini müzakirə edirik. Doğrudan da, bu hadisə bütün dünyanı sarsıtdı və bundan sonra bütün ölkələrdə beynəlxalq terrorizmə qarşı mübarizə haqqında müzakirələr başlandı.

Avropa Şurasında da demokratiya və terrorizmlə əlaqədar müzakirə başlanıb. İndi artıq terrorizmin maliyyələşdirilməsi ilə mübarizə haqqında qanun hazırlanır.

Dünya bu dəhşətli hadisədən o zaman sarsıldı ki, məhz bu hadisə Amerika Birləşmiş Ştatlarında baş verdi. Burada bizim çıxış edən hörmətli deputatlarımız çox ciddi məsələyə toxundular ki, Azərbaycan bir əsrdən artıqdır ki, belə terrora məruz qalır. Özü də Ermənistanda ermənilərin törətdikləri terror aktları dövlət səviyyəsində icra olunur. Ona görə də bu hadisəyə dünya öz münasibətini bildirməli idi. 32 terror hadisəsi, 2000 nəfərdən artıq insanın həlak olması, on minlərlə adamın yaralanması son dövrlərin hadisəsidir. Bunlar hələ dünyanı tərpətmirdi. Bu, ancaq Azərbaycanın faciəsi olaraq qalırdı.

Hörmətli İlham Əliyev çıxışında haqlı olaraq göstərdi ki, işğal olunmuş ərazilərdə, Dağlıq Qarabağ ərazisində bu saatın özündə yeni terrorçuluq aktları hazırlanır. Burada narkotik maddələr üçün geniş şərait yaradılır. Bütün dünya buradan ancaq cinayət yuvası kimi məlumat almalıdır. Mən qeyd etmək istəyirəm ki, Ermənistanın elə terrorçuluğu onda bilindi ki, öz parlamentində özləri-özlərini qırdılar. Bu onu göstərir ki, bu terrorçuluq dövlət səviyyəsində icra olunan bir aktdır. Azərbaycanda avtobuslarda, qatarlarda, metrolarda baş vermiş hadisələr birbaşa erməni terrorunun qatı nəticələridir. İlham Əliyevin bu məsələyə dəqiq və aydın qiymət verməsini mən xüsusi olaraq burada qeyd etmək istəyirəm. Ermənistanın «Aravat» qəzetinin xüsusi müxbiri Armen Zarqanyana verdiyi müsahibədə faktlara bu və ya digər dərəcədə toxunması, Gürcüstan televiziyasına və Ukrayna televiziyasına verdiyi müsahibələrdə bu faktları bir daha aşkarlaması Azərbaycan həqiqətlərinin dünyaya yayılması üçün gözəl bir şərait yarada bildi.

1 oktyabr 2001-ci il

Hörmətli Səttar müəllim, mən sizin məlumatınızı çox diqqətlə dinlədim. Biz 1997-ci ildə Tender haqqında qanunu dövrün ən aktual bir qanunu kimi çox geniş müzakirədən sonra qəbul etdik. Bu gün isə sizin çıxışınızdan aydın oldu ki, bu qanun o qədər qüsurludur ki, hətta siz onları saydıqca qurtarmır. İddiaçılarla, kopirovkaların sifarişi ilə, malların satınalınması, iddiaçıların şikayəti ilə əlaqədar nöqsanlar var, xidmətin bütün hallarını və sahələrini əhatə etmir. O qanun isə qüvvədədir. Yaxşı olmazdamı ki, biz həmin qanunu ya müzakirə edək, ya bu dediyiniz nöqsanları orada düzəldib bərpa edək?

İkinci, əgər bu, birinci qanunda olanları inkar edəcəksə, onda birinci qanunu saxlamağın nə əhəmiyyəti var? Siz qlobal bir məsələni burada qaldırdınız. Məsələn, idarə 250 milyondan aşağı həddə olanda bu tenderə getmir və bunu özü müəyyənləşdirir. İndi təklif edirsiniz ki, bu çox yüksək həddir, bu aşağı enməlidir. Yaxşı, 250 milyondan birdən-birə 15 milyonadək enmək olar? Heç olmasa, enin 250 milyondan 200 milyona, 150 milyona. 15 milyon nə həddir ki, hələ bir qanuna da salınır? İkinci, 50 səhifəlik qanun olar? Bu kitabdır, dəftərdir? Qanun qısa, aydın, birbaşa hədəfə vurmalı, hökm verməlidir. Siz doğru dediniz, buradakı terminlərin çoxu, başqa qanunlardan, xüsusilə rus dilində nəşr olunmuş qanundan istifadə olunduğuna görə bu terminologiya heç tərcümə olunmayıb. Rus sözləri götürülüb, ona Azərbaycan dilinin şəkilçiləri qoşulub, cümlə olubdur.

Burada çox maraqlı bir məsələyə də toxundunuz ki, sahə maraqları prinsipinə imkan verməməliyik. Səlahiyyətlərlə məsuliyyət arasında əlaqə olmalıdır. Bunları tamamilə doğru

dediniz. Bu, bütün qanunlara aid olmalıdır. Məni maraqlandıran cəhət odur ki, 1997-ci ildə geniş müzakirə olunmuş Tender haqqında qanun bu qanunu təkzib etmirmi? Edirsə, o qanunu çıxaraq, bunu saxlayaq. Yox, o qanun əgər varsa, bu qanuna ehtiyac yoxdursa, onda həmin qanundakı qüsurları düzəldək və onu qüvvəsində saxlayaq. Diqqətinizə görə sağ olun.

5 oktyabr 2001-ci il

Hörmətli sədr, hörmətli Milli Məclisin deputatları! Azərbaycan xalqı əsrlər boyu öz milli azadlığı və müstəqilliyi uğrunda mübarizə aparıb. Bu mübarizə 1918-ci il may ayının 28-də Azərbaycan Demokratik Cümhuriyyətin yaranması ilə nəticələnib. Lakin Azərbaycan Demokratik Respublikasının ömrü çox qısa oldu – cəmi 23 ay. Dünyada baş verən ictimai-siyasi hadisələr SSRİ adlanan nəhəng imperiyanın dayaqlarını sarsıtdı və bütün SSRİ məkanında olan respublikalar kimi Azərbaycan Respublikası da müstəqillik qazandı. Lakin bu müstəqilliyi qorumaq, saxlamaq yolları heç də hamar olmadı. Beynəlxalq irtica qüvvələrindən dəstək alan erməni şovinizmi torpaqlarımızın 20 faizini işğal etdi, 1 milyondan artıq həmvətənlərimiz öz torpaqlarından didərgin düşdülər. Bu dövrdə artıq Azərbaycan xalqı gördü ki, respublikada yaranmış vəziyyət çox gərgindir. O dövrdə AXCP və Müsavat cütlüyünün səriştəsiz və yarıtmaz fəaliyyəti nəticəsində ölkə vətəndaş müharibəsi qarşısında dayandı. Artıq qardaş qanı tökülmüşdü.

Belə bir vəziyyətdə özündə güc və inam tapan Azərbaycan xalqı müasir dünyamızın ən böyük dövlət və siyasi xadimi Heydər Əliyevi ikinci dəfə hakimiyyətə

qaytardı. Azərbaycan xalqı öz taleyini bu müdrik və uzaqgörən siyasətçiyə etibar etdi. Azərbaycanın xilası, əbədi qurtuluşu naminə mübarizə meydanına atılan Heydər Əliyev tarixdə misli görünməyən fədakarlıq, siyasi müdriklik nümunəsi göstərdi. 18 oktyabrla bünövrəsi qoyulan, 15 iyunla məhvolmadan xilas edilən milli qurtuluş yolu günbəgün, aybaay, ilbəil möhkəmləndi, davam və inkişaf etdirildi.

1994-cü ilin mayında atəşkəsə nail olunması, həmin ilin sentyabrında dünyanın aparıcı neft şirkətləri ilə böyük beynəlxalq iqtisadi sazişin – «Əsrin müqaviləsi»nin imzalanması, milli ordunun yenidən qurulması, ölkə daxilində dağıdıcı anarxiyaya, hərc-mərcliyə son qoyulması, sosial-siyasi, iqtisadi sabitliyin bərqərar edilməsi, xüsusilə iqtisadi dirçəlişin başlanması, Lissabon sammitində 53 aparıcı dövlətin dəstəyinə nail olunması, böyük İpək yolunun bərpası istiqamətində həlledici addımlar atılması – bütün bunlar Milli Qurtuluş günü ilə başlayan tarixi uğurların bir hissəsidir. Bəli, indi tam cəsarətlə deyə bilərik ki, Heydər Əliyevin xilaskarlıq missiyası böyük perspektivlərə hesablanan uzaqgörən missiyadır. Onun müdrik siyasəti nəticəsində müstəqilliyimiz qorundu. Milli Qurtuluş yolumuz davam etdi, əbədi və dönməz xarakter aldı. Bu yolun böyük uğurlara, əbədi xoşbəxtliyə qovuşacağına inanırıq. Buna Heydər Əliyevi özünə prezident seçən bütün Azərbaycan xalqı, 50 milyondan artıq azərbaycanlı inanır.

Gənc Azərbaycan Respublikasının 10 illik yubiley sevinclərini yaşaya-yaşaya 500 yaşlı Azərbaycan Səfəvilər dövlətini düşünürəm. Orta əsr salnamələrindən bir cümlənin səsini eşidirəm: «Şah İsmayıl Xətai, ruhun bədənə qovuşduğu kimi Təbrizə daxil oldu». Eynən Heydər Əliyev də ruhun bədənə qovuşduğu kimi dar ayaqda, faciəli böhran məqamında Bakıya daxil oldu. Şah İsmayıl Xətainin qurduğu

Səfəvilər dövlətini ondan sonra uzun illər boyu oğlu Şah Təhmasib ləyaqətlə yaşatdı, idarə etdi və möhkəmləndirdi.

Məni iki Heydər oğlunun Azərbaycan tarixi səhnəsində sürətli qalib yüksəlişi sevindirir. Şah İsmayıl Xətainin atasının adı Heydər idi. O, atasının yolu ilə irəliləyərək tarixi qələbələr qazandı. İlham Əliyevin də atasının adı Heydərdir, o da atasının yolu ilə şərəflə irəliləyir.

16 oktyabr 2001-ci il

Hörmətli sədr, hörmətli millət vəkilləri! Artıq bir neçə həftədir ki, möhtərəm Prezidentimiz Heydər Əliyev tərəfindən Azərbaycan Respublikasının 2002-ci il Dövlət büdcəsi haqqında qanun layihəsi Milli Məclisin müzakirəsinə təqdim olunub. Bu, ilin ən ali maliyyə sənədidir. Çünki dövlət büdcəsi xalqın rifahının yüksəldilməsinə, həyat səviyyəsinin daha da inkişaf etməsinə xidmət edir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində ölkə iqtisadiyyatında 1995-ci ildən başlanmış yüksəliş dövrü yeni əsrin birinci ilində davam etmiş, respublikada makroiqtisadi göstəricilərin artımı təmin olunmuşdur. Azərbaycanda hökm sürən möhkəm ictimai-siyasi sabitlik əsaslı iqtisadi islahatları ardıcıl surətdə davam etdirməyə şərait yaratmışdır.

2001-ci ilin ilk doqquz ayının yekunları göstərdi ki, sosial-iqtisadi inkişafın əsas ümumiləşdirici göstəricisi olan ümumi daxili məhsulun həcmi 18,4 trilyon manat, onun nisbi artımı 9,3 faiz olmuşdur. Dövlət büdcəsinin mədaxil proqnozu 2,9 trilyon manata qarşı 2,7 trilyon manat – 93,3 faiz icra olunmuşdur ki, bu da keçən ilin müvafiq dövrünə nisbətən 241,9 milyard manat və ya 9,7 faiz çoxdur.

Bəzi təkliflərimi nəzərinizə çatdırmaq istərdim.

Birincisi, texniki peşə məktəbləri, texnikumlar özlərini doğrultmadıqlarına görə onların ləğv olunması məqsədəuyğundur. Bu müəssisələrin bazasında orta məktəblərin yaradılması məqsədəmüvafiqdir. Orta məktəblərin təmir olunması, maddi-texniki bazanın inkişaf etdirilməsi ən mühüm vəzifələrdən biridir. İndi Əvəz müəllimin çıxışından bilindi ki, gələn il İslam İnkişaf Bankının köməyi ilə orta təhsilə yardım göstəriləcək.

İkinci, Milli Elmlər Akademiyası işçilərinin, ali məktəb müəllimlərinin maaşlarını artırmaq gərəkdir. Bunun üçün gələcəkdə struktur dəyişiklikləri aparmaq lazımdır. Bir çox elmi tədqiqat institutlarının maliyyələşdirilməsi büdcədən çıxarılmalıdır. Çünki bir çox elmi tədqiqat institutlarının binaları bu saat kommersiya üçün istifadə olunur.

Üçüncü, elektrik şəbəkələri uzunmüddətli icarəçiliyə verilməlidir. Çünki bunlardan vergilərin toplanması çox böyük çətinlik yaradar.

Dördüncü, ali məktəblərə qəbulda kəmiyyətdən çox keyfiyyətə fikir vermək lazımdır. Belə ki, hamı icbari şəkildə ali təhsil almamalıdır. Təsəvvür edin ki, Azərbaycan Dövlət Pedaqoji Universiteti ola-ola, bu il ayrıca olaraq Müəllimlər İnstitutu da açılıb. Belə çıxır ki, Tibb Universiteti dura-dura, bir Həkimlər İnstitutu da açılmalıdır, Texniki Universitet dura-dura, Mühəndislər İnstitutu açılmalıdır. Ona görə də büdcənin belə yerlərə xərclənməsi ümumi şəkildə düzgün deyil. Ali məktəblərə qəbul üçün xüsusi proqram olmalıdır.

Bir məsələni də qeyd etmək istəyirəm. Bir çox dövlətlər var ki, onların büdcəsi turizm vasitəsilə maliyyələşir. Bu sənədlərdə də göstərilir ki, turizmin inkişafı üçün 600 milyard vəsait ayrılıb. Gələcəkdə bunu artırmaq nəzərdə tutulur və bu məsələyə diqqəti daha çox yönəltmək lazımdır.

Sonra, kassa sisteminə əməl etmək lazımdır. Vergilər

Nazirliyinin təşəbbüsü ilə Bakıda 20 mindən artıq xidmət və ticarət müəssisəsinin artıq bundan istifadə etməsi təqdirəlayiqdir.

Müzakirələrdən də aydın oldu ki, 2002-ci ilin Dövlət büdcəsi mükəmməl və əhatəli hazırlanmışdır. Rəqəmlər daha çox reallığa əsaslanır. Öz daxili strukturu, sosial yönümlüyü və istiqamətləri baxımından bu ilin büdcəsi ötən illərin büdcə layihələrindən daha mükəmməldir.

13 noyabr 2001-ci il

Hörmətli sədr, hörmətli Milli Məclisin deputatları! Bu gün müzakirə etdiyimiz layihə, doğrudan da, çox lazımlı, çox gərəklidir. Hər bir müstəqil, yeni yaranmış dövlət birinci növbədə öz gəncliyinin qayğısına qalmalıdır. Çünki öz gəncliyinin qayğısına qalmayan dövlət öz gələcəyinə balta çalmış olar. Ona görə də bu qanun çox vaxtında qəbul olunur. Qanun əhatəlidir və əhəmiyyətlidir. Əli müəllim də çox sağ olsun ki, bu layihənin hazırlanmasında xüsusi fəallıq göstəribdir. Bu gün bunu müvəffəqiyyətlə müzakirə edirik.

Bu Əsasnamənin adında bir balaca dəyişiklik edilməsinə mən də tərəfdaram. «Yetkinlik yaşına çatmayanların işləri və hüquq-larının müdafiəsi üzrə komissiyalar haqqında». Əvvəla, mən təklif edirəm ki, adı dəyişdirilsin, belə olsun: «Yetkinlik yaşına çatmayanların işləri üzrə komissiyanın yaradılması». Burada söhbət onların hüquqlarının müdafiəsindən getmir, onların hüquqazidd hərəkətləri ilə əlaqədar yaradılmış komissiyadan gedir. Onların hansı hüquqlarını müdafiə etmək lazımdır? Guya onlar ağıllı iş görürlər, onlara qarşı nə isə qeyri-qanuni hərəkət edilir? Ona görə də biz təklif edirik ki, bunların hüquqlarını müdafiə edək. Əksinə, onların hüquqazidd hərəkətləri ilə əlaqədar komissiya yaradılır. Ona

görə «hüquqazidd» sözünün buraya düşməməsi üçün təklif edərdim ki, «işləri üzrə komissiyanın yaradılması» yazılsın, bu daha məqsədəmüvafiq olardı.

Burada bir məsələ diqqətdən yaymır. Profilaktik tədbirlərin keçirilməsi məsələsi unudulur. Hadisədən əvvəl güclü profilaktik tədbirlər aparılmalıdır ki, belə hadisələrin çoxunun qarşısı alınsın. Burada deyildi, pedaqoqlar daha yaxşı bilir. Makarenko «Pedaqoji poema» adlı çətin tərbiyə olunan uşaqlarla əlaqədar çox gözəl əsər yazıb. Orada göstərilir ki, yeniyetmələrdən, yaxud yetkinlik yaşına çatmayanlardan söhbət gedirsə, hamısına eyni prinsiplə yanaşmaq olmaz. «1 yaşından 18 yaşına qədər» – belə bölgü olmaz axı. 7 yaşına qədər hələ uşaqdır. O, nə cinayətə gedəcək? 7 yaşından 12 yaşına qədər müəyyən cinayətlər törədə bilər. 12 yaşından 15 yaşına və 16-dan 18 yaşına qədər olan dövrə bölmək olar. Makarenko 12 yaşına qədərki dövrü uşaq yaşı hesab edirdi. Onların törətdikləri hər hansı cinayəti uşaqlıq cinayəti kimi qiymətləndirirdi. Heç bunları cinayət adlandırmırdı, uşaqlıq hərəkətləri adlandırırdı. Yetkinlik yaşı da müəyyən mərhələlərə bölünməlidir: yaş və bilik səviyyəsinə. Həmin uşaq yaş dövrünə, bədən quruluşuna uyğun fizioloji proseslərə həmahəng götürülməlidir.

Burada komissiyaya rəhbərlikdən söhbət getdi. Mən təklif edərdim ki, icra hakimiyyətinin nəzdində yaradılan komissiyaya çox ciddi məsələ olduğuna görə buna birbaşa rəhbərliyi icra başçısının özü etsin. Komissiyanın sədri isə seçki yolu ilə təyin edilsin. Bəlkə həmin sahəyə təyin olunmuş müavin bu sahədə mütəxəssis deyil, kənd təsərrüfatı mütəxəssisidir. Birbaşa tərbiyə ilə bağlı məsələyə o, necə rəhbərlik edə bilər? Bu baxımdan konkret yazmaq lazım deyil ki, hökmən icra başçısının müavini olmalıdır. Bır də təklif edərdim ki, həmin tərkibə polisin, bələdiyyələrin də

nümayəndəsi hökmən daxil edilsin. Bu məsələdə xüsusilə polisin qüvvəsindən çox istifadə etmək lazımdır. Burada məsələ qaldırıldı ki, pedaqoq, yoxsa psixoloq olsun. Bu ştat layihədə «məsləhətçi» kimi gedir. Məsləhətçi çox yüngül addır. Doğrudan da, məktəbdə «məktəb psixoloqu», «məktəb pedaqoqu» adlandırıldığı kimi, həmin sahə üzrə də «pedaqoq», yaxud «psixoloq» adı qoyulmalıdır və onlar bu sahəyə birbaşa rəhbərlik etməlidirlər.

Burada yol qırağında duran uşaqlardan söhbət getdi. Onların da tərbiyəsi ilə məşğul olmaq lazımdır. Maşın sürmək, şəhərə çıxmaq mümkün deyil. Dayanırsan, görürsən gəlib maşının şüşəsini silirlər. Çox vaxt da ayaqlarını qoyurlar təkərlərin qırağına, qəza yaradırlar. Hər rayon komissiyası öz rayonunda bu hadisələrlə çox ciddi mübarizə aparmalıdır. Belə kiçik hadisələr gələcəkdə gətirib cinayətə çıxarır. Bu uşaqlar gələcəkdə cinayətkar olacaqlar.

Bu layihə mükəmməl işlənibdir. Müəyyən əlavələr etməklə çox uğurlu şəkildə fəaliyyət göstərə bilər. Diqqətinizə görə təşəkkür edirəm.

15 fevral 2002-ci il

Hörmətli sədr, hörmətli Milli Məclisin deputatları! İstər «Mədəniyyət haqqında», istər «Kitabxana işi haqqında», istərsə də «Kütləvi informasiya vasitələri haqqında» qanunlar müzakirə olunarkən, haqlı olaraq, bu əlavələr o zaman səsləndirildi. Bu gün də çox düzgün olaraq belə əlavələr və düzəlişlər meydana çıxıbdır.

Müzakirə və qəbul edəcəyimiz qanunlara əlavələr və dəyişikliklər içərisində bunlar həddindən artıq mühüm bir məsələdir. Hər bir dövlət öz gəncliyinin, öz dövlətinin gələcəyinin qayğısına qalmalıdır. Bu baxımdan nəzərdə

tutulan dəyişikliklər edilməlidir. Qanunun işlənməsinə ciddi şəkildə nəzarət də vacib məsələdir.

XIX əsrdə, – «Əkinçi» qəzetini nəzərdə tuturam, – XX əsrin əvvəllərində «Molla Nəsrəddin», «Füyuzat», «Ziyayi-Qafqaziyyə», «Ziya» və başqa adla 200-dən artıq müxtəlif qəzet, jurnal nəşr olunurdu. Həmin qəzet və jurnalların əksəriyyəti bu gün də kitabxanalarda, arxivlərdə saxlanılır. Nə zaman istəsək, biz gedib onlardan istifadə edə bilərik.

Sovet dövründə də nəşr olunan jurnalların, qəzetlərin əksəriyyəti Milli Kitabxanada və müxtəlif əlaqədar kitabxanalarda saxlanılır. Çox qəribədir ki, 90-cı ildən bu yana, biz müstəqillik qazanandan sonra nəşr olunan qəzet və jurnalların, kitabların, məcmuələrin böyük əksəriyyətini tapmaq mümkün deyil. Bunlara nəzarət edən yoxdur. Onlar harada nəşr olunursa, orada da oxunur, cırılıb atılır, yox olub gedir. Bu, hər bir şəxsin öz dövlətçiliyinə böyük bir diqqətsizliyinin nəticəsidir. Kitabların hər biri arxiv vasitəsilə qorunub saxlanılmalıdır. Doğrudan da, burada təklif olundu və düzəliş də edildi. Əvvəllər hər bir nəşrdən 25 nüsxə, dəqiq yadımdadır, əvvəlcədən nəşriyyat tərəfindən Lenin adına, Axundov adına, Sabir adına kitabxanalara, Kitab Palatasına göndərilirdi. İndi bunlar yaddan çıxıb, daha göndərmirlər. Burada səsləndi ki, bizdə 4608 kitabxana, 128 nəşriyyat evi var. Bizdə bu qədər kitabxananın olmasına mən çox şübhə edirəm. O kitabxanaların indi ancaq adı var. Əgər o kitabxanalar qalıbsa, 10 il ərzində nəşr olunan kitab ora getməyibsə, köhnə kitablar oxunar-oxunmaz dərəcəsindədirsə, bu, formal rəqəmdir.

128 nəşriyyatın olmasına inanıram. Bəlkə də 228-dir, çünki hamı kitab buraxır. Hərə bir poliqrafiya maşını alıb, kitab çap edir. Bunlara, əlbəttə, nəzarət etmək lazımdır.

Doğru dedilər ki, belə kitabların hər biri kitabxanalara

getsə, onlara bir azdan yer tapılmaz. Qrifi olan, əhəmiyyətinə görə sifariş edilən, görkəmli yazıçıların və başqa bu kimi şəxslərin kitablarını, əlbəttə, toplamaq lazımdır. Belə olanda, onları kitabxana da tutar, yerləşdirib saxlamaq da mümkündür.

Bir məsələni də qeyd etmək istəyirəm. Bakıda çoxlu kitab mağazaları, kitab pasajı var idi. Bir gün mənə özümlə aparmağa kitabım lazım oldu, gedib gəzdim, tapa bilmədim. Tanıdığım yerlərdə kitab mağazaları var idi. Hansına getdimsə, gördüm ora daha kitab mağazası deyil, super marketdir. O mağazaları dəyər-dəyməzinə, qanuni, qeyri-qanuni satıblar. Dünyanın bütün şəhərlərini gəzirik, hər yerdə ən gözəl mağazalarda kitablar satırlar. Ən gözəl binalarda kitabxanalar yerləşir. Bakıda isə, elə bil, bu kitab məsələsini bir sinif kimi ləğv edirlər. Sayıb hesabını götürün, indi o qədər kitab mağazasından neçəsi qalıb. Mən deyərdim, 100-dən 10-u da qalmayıbdır. Biz öz xalqımızın, öz gələcəyimizin qayğısına qalmalıyıq. Bu, çox ciddi məsələdir. Mən xahiş edirəm bu məsələ ilə əlaqədar orqanlar qanunun işləməsinə ciddi nəzarət etsinlər. Diqqətinizə görə təşəkkür edirəm.

30 aprel 2002-ci il

Hörmətli sədr, hörmətli Milli Məclisin deputatları! Bu gün, doğrudan da, Azərbaycan xalqı üçün taleyüklü bir qanunun müzakirəsini aparırıq. Heç təsadüfi deyil ki, bu qanun layihəsi iki il bundan qabaq hazırlanmağa başlamış, nəhayət, uzun müddət müzakirələrdən sonra bu gün Milli Məclisin müzakirəsinə gəlib çıxmışdır. Bu qanun layihəsinin müzakirəsində dilçilər, ədəbiyyatçılar, tarixçilər, hüquqşünaslar, müxtəlif peşə və sənət adamları iştirak ediblər. Qanun layihəsinin hazırlanmasında bütün ziyalı zümrələrinin

iştirakı təmin edilibdir. 2001-ci ilin avqust ayında möhtərəm Prezidentimizin imzaladığı fərman, Azərbaycan əlifbası gününün qeyd edilməsi və Azərbaycan dilinin dövlət dili olması ilə əlaqədar imzalanmış bir çox qanunlar bu gün müzakirə etdiyimiz qanunun əsaslı olmasına təminat verir.

Burada çox böyük məsələlər haqqında söhbətlər getdi. Bu qanunun adında bir balaca dəyişikliyin edilməsinə mən də tərəfdaram. «Azərbaycan dilinin qorunması və inkişaf etdirilməsi haqqında Azərbaycan Respublikasının qanunu» olmalıdır. Özü də «Azərbaycan dili» adı şərti mənada anlaşılmalıdır. Burada söhbət Azərbaycan ədəbi dilindən gedir. Yəni biz «Azərbaycan dili» deyəndə Azərbaycan ədəbi dilini nəzərdə tutmalıyıq. İndi burada söhbət gedən məsələlərdən biri də ondan ibarətdir ki, bütün xalq, millət öz dilinin inkişafı qayğısına qalmalıdır. Lakin bir cəhəti unutmaq olmaz ki, Azərbaycan dili tarixən də dövlətçiliyə xidmət edibdir. Səfəvilər dövründə Azərbaycan dili dövlət dili olubdur. Azərbaycan Demokratik Cümhuriyyəti dövründə Azərbaycan dili dövlət dili olubdur. Azərbaycanda Sovet hakimiyyəti dövründə də dövlət dili olubdur və istər-istəməz dövlətə xidmət edibdir. Bu dilin yaddaşında Azərbaycan dövlətinə xidmət etmək funksiyası var. Ona görə də Azərbaycan dilini biz bir çox başqa dillərlə müqayisə edəndə görürük ki, bu dil dövlət dili funksiyasını tamamilə yerinə yetirmək xüsusiyyətinə malikdir. Heç təsadüfi deyil ki, inkişafla, zənginləşməklə bərabər qorunma məsələsi də əsas olmalıdır ki, bu cür inkişaf etmiş dilin işlənməsi təmin olunsun. Bu dilin dövlət idarələrində dövlət dili səviyyəsində işlənməsi qorunub saxlanılsın.

Burada bir məsələyə də diqqət yetirmək lazımdır. Bəzən məsələ qaldırırlar ki, Azərbaycan dili guya sovet dövründə bir balaca sıxışdırılıbdır. Azərbaycan dili oktyabr çevrilişindən

əvvəl də, hələ 1803-cü ildə rus gəmiləri Xəzər dənizində hərəkət edəndə də bir dil kimi mövcud idi. Azərbaycan torpaqları işğal olunanda və keçmiş SSRİ ərazisində türkdilli respublikalar ilə Azərbaycanın əlaqəsi kəsiləndə bu dil daxili imkanları hesabına zənginləşmişdi. Türk dillərinin bir-birini zənginləşdirməsi işi çox məhdudlaşmışdı. Sovet dövründə, xüsusilə 1930-cu illərdən sonra bu məsələ bir qədər də çətinləşmişdi. Türkün türkə sözünü rus deyirdi. Beləliklə, türk dillərinin bir-birini zənginləşdirməsi imkanları məhdud idi. İndi Allaha şükür, müstəqillik qazanmışıq və türk dillərinin bir-birini zənginləşdirməsi üçün şərait mövcuddur. Mən bir dilçi kimi deyirəm, belə məsələlərdən qorxmaq lazım deyil. Hər bir dilin, o cümlədən də Azərbaycan dilinin zənginləşmə mənbələri var. Birinci mənbə alınma sözlərdir. Təbii olaraq elm və texnikanın inkişafı yeni yaranmış terminlərin Azərbaycan dilinə gəlməsinə imkan və şərait yaradır. Bu bizim ədəbi dilimizi zənginləşdirir.

İkinci, Azərbaycan dili daxili imkanlar hesabına zənginləşir. Bu zənginləşmənin qarşısını almaq yox, bu zənginləşməyə imkan yaratmaq lazımdır. Cənubi Azərbaycanda 35 milyondan artıq azərbaycanlı yaşayır. Keçmiş müddətdə Şimali Azərbaycandakı Azərbaycan dilinin inkişafı və zənginləşməsi ilə Cənubi Azərbaycandakı Azərbaycan dilinin inkişafını heç müqayisə etmək olmaz. Lakin indi burada yenə də səsləndirildi ki, Cənubi Azərbaycanda yaşayan azərbaycanlıların ədəbi dilinin inkişafı üçün radio və televiziyanın xidmətini xüsusi qeyd etmək lazımdır. Onlar ədəbi dili ancaq radio, televiziya və nəşr olunan mətbuat vasitəsi ilə mənimsəyə bilirlər, çünki orada dövlət dilini idarə edən xüsusi bir orqan fəaliyyət göstərmir.

Burada çox təkliflər oldu. Mən konkret olaraq öz təkliflərimi demək istəyirəm. Bu məsələ ilə əlaqədar geniş

danışa bilərəm. Birinci təklifim ondan ibarətdir ki, dünya ədəbiyyatı incilərinin, klassiklərinin əsərlərinin Azərbaycan dilinə tərcümə edilməsi və latın əlifbasında nəşri işi sürətləndirilsin. İkinci təklifim odur ki, latın əlifbası ilə danışıq kitablarının kütləvi nəşrinə nail olunsun. Üçüncüsü, Azərbaycan dili kursları açılsın. Bu kurslarda həm Azərbaycan dili, həm də latın əlifbası öyrədilsin. Dördüncüsü, terminologiya lüğətləri latın əlifbası ilə yenidən nəşr olunsun. Nəşr olunmayanların nəşri sürətləndirilsin. Orfoqrafiya və orfoepiya lüğətlərinin yeni nəşrini maliyyələşdirmək lazımdır. Keçən dəfə də dedim, bir qanuna doğru olaraq salınıb ki, 5 ildən bir orfoqrafiya lüğəti çap olunmalıdır. Bizim axırıncı orfoqrafiya lüğətinin nəşr olunmasının üstündən az qala 30 ilə yaxın vaxt keçib. Orfoqrafiya və orfoepiya lüğətləri yenidən çap olunmalıdır. Sonra, ikidilli, azərbaycanca-rusca, azərbaycanca-ingiliscə, azərbaycanca-fransızca lüğətlərin nəşrinə nail olunsun. Özü də bu lüğətlər dövlət tərəfindən çap edilsin ki, ucuz qiymətə satıla bilsin.

Ali və orta məktəblərdə Azərbaycan dili formal tədris olunmamalıdır. Bakıda rusdilli orta məktəblər çoxdan var. İndi ingilis dili məktəbləri də var. Orada Azərbaycan dili tədris olunur, lakin elə əvvəl də, indi də bu tədris çox formal xarakter daşıyır. Yəni əslində, fənn kimi tədris olunmalıdır. Çox düzgün olaraq ali məktəblərdə test imtahanlarına bütün ixtisaslar üzrə Azərbaycan dili fənni də salınıbdır. Ancaq Azərbaycan dili fənninə çox az – bir bal verilir. Mən təklif edərdim ki, həmin bal artırılsın. Bir də son vaxtlar rus, ingilis dillərindən tərcümə əsərləri nəşr edilir. Digər dillərdən daha çox rus dilindən əsərlər tərcümə olunur. Bu tərcümə əsərlərinin dilinə diqqət artırılsın. Keyfiyyətsiz tərcümədənsə, tərcümə olunmaması daha yaxşıdır.

Bu qanun layihəsinin 1-ci maddəsinə bir təklifim var.

Burada yazılıb ki, Azərbaycan dilini bilmək hər bir vətəndaşın borcudur. Ora bircə söz artırmaq lazımdır: «Azərbaycan dilini bilmək hər bir Azərbaycan Respublikası vətəndaşının borcudur». Qalan maddələrə heç bir iradım yoxdur. Diqqətinizə görə təşəkkür edirəm.

3 may 2002-ci il

Hörmətli sədr, hörmətli Milli Məclisin deputatları! Hamınıza məlumdur ki, bu il may ayının 28-də Azərbaycan Demokratik Cümhuriyyətinin yaradılmasının 84-cü ildönümü tamam olur. Mən bu münasibətlə parlament üzvlərini və bütün respublika ictimaiyyətini təbrik edirəm. Bir təklifim var. Azərbaycan Xalq Cümhuriyyəti rəhbərlərini xalqa tanıtmaq, onların xatirələrini əbədiləşdirmək lazımdır. Ona görə ki, bu rəhbərlərin böyük əksəriyyətini ictimaiyyət çox da yaxşı tanımır. O zaman Azərbaycan parlamentinin rəhbəri Həsən bəy Ağayev olub. Sonra onu Məmmədyusif Cəfərov əvəz edib. Azərbaycan dövlətinin o zamankı başçısı Əlimərdan bəy Topçubaşov, Nazirlər Şurasının sədri Fətəli xan Xoyski olub, sonradan onu Nəsib bəy Usubbəyov əvəz edib.

Mən təklif edərdim ki, bu rəhbərlərin xatirələrini əbədiləşdirmək üçün onların heykəlləri müvafiq olaraq Nazirlər Kabinetinin, parlamentin qarşısında qoyulsun, həmin idarə və müəssisələr onların xatirələrini əbədiləşdirmək üçün muzeylər yaratsınlar, müəyyən tədbirlər həyata keçirsinlər. Eyni zamanda, həmin dövrdə müvafiq partiyaların, fraksiyaların da rəhbərləri olublar. Həmin qaydaya uyğun olaraq partiya rəhbərlərinin və fraksiya sədrlərinin xatirələrini əbədiləşdirmək üçün fikirləşsinlər. Diqqətinizə görə təşəkkür edirəm.

24 may 2002-ci il

Hörmətli sədr, hörmətli Milli Məclisin deputatları! Bu qanun öz əhəmiyyəti etibarilə bu gün çox diqqəti cəlb edən bir qanundur. Ona görə ki, bu hidrotexniki qurğu söhbəti birbaşa su, su hövzəsi, çay, dənizlə bağlı olan məsələdir. Su da ki, həyatdır. Möhtərəm Prezidentimizin köməyi ilə Mingəçevir Su-Elektrik Stansiyasının, Şəmkir Su-Elektrik Stansiyasının, Tərtərdə, Naxçıvanda bir çox su hövzələrinin tikilməsi ölkəni nəinki elektrik enerjisi ilə təmin etdi, həm də bu su hövzələri ölkənin suvarma sisteminə və ümumiyyətlə, ekologiyasına da böyük təsir göstərdi. Bu gün bu qanunu biz qəbul edəndə həmin məsələləri çox diqqətlə nəzərdə saxlamalıyıq. Birincisi, bu qanunun adına bir balaca düzəliş vermək lazımdır. O nədən ibarətdir? Bu, «Hidrotexniki qurğuların təhlükəsizliyi haqqında» Azərbaycan Respublikasının Qanunudur. Bu, insana aid ediləndə təhlükəsizlik olardı. Bunun adını, sadəcə, dəyişmək olar: «Hidrotexniki qurğuların qorunması və istismarı haqqında» Azərbaycan Respublikasının Qanunu. Əmək mühafizəsi, yaxud da təhlükəsizlik texnikası haqqında qanun olar. Bu təhlükəsizlik isə əhaliyə və onun yaşayış şəraitinə aid olan məsələdir. O qurğu dəmirdir. Bunun, sadəcə olaraq, normal işləməsini və istismarını təmin etmək lazımdır. Lakin burada qurğu ilə əlaqədar olaraq bir məsələyə də toxunulur. Hidrotexniki qurğu nə deməkdir? Bu, preambulada verilir. Bunun aşağısında yazır: «Habelə yeraltı və yerüstü su ehtiyatlarından istifadə etmək və suyun zərərli təsirlərinin qarşısını almaq üçün istifadə olunan digər xüsusi mühəndis texniki qurğular». Deməli, təkcə onun özü yox, həm də bunun mühafizəsi ilə əlaqədardır.

II fəslin 7.4-cü maddəsində yazılır: «Dövlət əhəmiyyətli xüsusi mühafizə olunan hidrotexniki qurğuların ərazisində

partlayış işlərinin aparılması və yeraltı təbii ehtiyatların istismarı, habelə qurğuların və ətraf mühitə fiziki, kimyəvi, bioloji təsir göstərə bilən obyektlərin tikintisi və fəaliyyət göstərməsi qadağan edilir». Yəni bu qanunda bu məsələ çox dəqiq və aydın qoyulubdur. Ona görə də bu qanun təkcə avadanlıqların qorunması və onun təhlükəsizlik qaydalarına aid deyil. Ümumiyyətlə, təbiətə, ekologiyaya, insanlara, onun yaşayışına da aid olan qanundur. Buna görə də məsələni çox ciddi şəkildə nəzərə almaq lazımdır.

Azərbaycan ərazisi hər üç tərəfdən xarici dövlətlərlə əhatə olunub. O qədər də böyük ərazi deyil. Kürün başlanğıc xətti Gürcüstandan gəlir, Araz Ermənistandan və İrandan keçib gəlir. Ölkə ərazisində olan bir çox kiçik çaylar da belə. Heç nəyi demirəm, təkcə Ermənistandan atom zavodunun, kauçuk zavodunun bütün tullantıları Araz çayına axıdılır və o da gəlib Kürə birləşir, sonra o da Xəzər dənizinə tökülür. Eləcə də İrandan gələn bir çayın qolu Araz çayına tökülür. Bütün bunlar üçün Azərbaycan ərazisində belə hidrotexniki qurğuların çox yüksək səviyyədə olması və onun qorunması vacib məsələlərdən biridir. İndi Oqtay müəllim danışdı, bizi çox əmin etdi ki, artıq Kür çayında o qurğular vasitəsi ilə su tamam duruldulur, qorunur. Təki belə olsun. Ancaq heç də ondan arxayın olmaq lazım deyil. Ona görə ki, indiki vəziyyətdə təbiətdə suyun imkanlarını nəzərə alıb, onun qorunmasını daha ətraflı təşkil etmək lazımdır. Qalda ki, Ceyranbatanla əlaqədar olaraq mən bayaq dedim. Yenə də həmin fikrimdə qalıram. Əgər, doğrudan da, belə şərait yaransa, biz gələcəkdə fikirləşməliyik ki, Ceyranbatandan içməli su kimi deyil, texniki su kimi istifadə olunsun. Çünki onun həm qorunması, həm mühafizəsi, həm də təmizlənməsi heç cür normal vəziyyətdə deyil. Adi halda baxın, onu Kür suyu ilə müqayisə edəndə görürsən ki, Ceyranbatan suyunda

normadan çox çatışmazlıqlar var. Bu baxımdan, mən elə bilirəm ki, bu qanunun qəbul edilməsi çox təqdirə, diqqətə layiqdir.

21 iyun 2002-ci il

Hörmətli sədr, hörmətli millət vəkilləri! Bildiyiniz kimi, dünyanın bir çox ölkələrində dövlət televiziyası ilə yanaşı, ictimai və özəl televiziyalar da fəaliyyət göstərir. Təsadüfi deyil ki, Azərbaycan Avropa Şurası qarşısında ictimai televiziyanın yaradılması ilə əlaqədar öhdəlik qəbul edib. Bu gün həmin öhdəlik əsasında artıq ictimai televiziya haqqında layihə hazırdır və Milli Məclisin geniş müzakirəsinə verilib. Bir məsələni diqqətdə saxlamaq lazımdır ki, ictimai televiziya haqqında qanun paket şəklində, yəni əvvəlkilərlə birlikdə ikiillik müzakirədən sonra bugünkü səviyyəyə çatıb.

Rizvan müəllim qeyd etdi, burada Avropa dövlətlərinin və ABŞ-ın təcrübəsindən istifadə olunub və bu gün Milli Məclisin müzakirəsinə mükəmməl bir layihə təqdim olunub. Bir məsələni də qeyd etmək istəyirəm ki, hələ 3 il bundan qabaq «Kütləvi informasiya vasitələri haqqında» Qanunda da dövlət televiziyası, ictimai televiziya və özəl televiziya haqqında müəyyən maddələr salınmışdı ki, bu gün artıq onların geniş müzakirəsi aparılır. Dünyada mövcud olan ictimai televiziyaların fəaliyyətləri prinsip etibarilə bir-birinə tamamilə uyğundur. Onlar bir-birindən yalnız maliyyə mənbələrinə görə fərqlənirlər. Məsələn, xalqdan yığılan ödəmələrin hesabına yaranan ictimai televiziya var. Məsələn, «BBC» televiziyası belədir. İkinci, ictimai televiziyaların keçirdiyi vəsait hesabına yaranan televiziyalar. Məsələn, İngiltərədə, Skandinaviya ölkələrində belədir. Bir də var abonent haqları hesabına yaranan ictimai televiziya. Hər üç

halda maliyyə mənbəyi dövlətdən asılı deyil.

Bu gün Azərbaycanda mövcud olan iqtisadi və sosial durum qeyd etdiyimiz üç sistemdən heç birinin tətbiqinə imkan vermir. Ona görə də ictimai televiziyanın müasir dövrdə real maliyyə mənbəyi dövlət büdcəsidir. Ölkədəki ictimai-siyasi durumun vəziyyəti ilə əlaqədar 2010-cu ilə qədər onun dövlət tərəfindən maliyyələşdirilməsi nəzərdə tutulub. Bu, şərtidir. Bu bir az əvvəl də ola bilər, sonra da. Hər halda dövlət tərəfindən maliyyələşmə ictimai televiziyaya göstərilən diqqət və qayğının mühüm nəticələrindən biridir.

İşçi qrupunda olduğum üçün demirəm, ümumiyyətlə, bu layihə mükəmməl hazırlanmışdır. Avropa Şurası qarşısında götürdüyümüz öhdəliklərə tamamilə əməl edilib.

Bununla belə, qanun layihəsi ilə bağlı mənim də bəzi təkliflərim var. Birinci, ictimai yayımın prinsiplərini əks etdirən maddənin bir qədər də dolğunlaşdırılmasına ehtiyac görürəm. Çünki bu maddə bir növ qanunun preambulasını əks etdirir. Ona görə də ictimai televiziyanın əsas mahiyyəti burada dolğun verilməlidir.

İkinci, qanunda göstərilir ki, ictimai televiziya müntəzəm sorğu keçirməli və xalqa hesabat verməlidir. Bu sorğunu kim və necə keçirəcək? Onun obyektivliyi necə təmin olunacaq? Hesab edirəm ki, bu mexanizm qanunla müəyyənləşsə yaxşı olar.

Üçüncü, qanunun kənar istehsalçıların məhsullarının nümayişi ilə bağlı bölməsi yenidən işlənməlidir. Xüsusilə burada göstərilən faizlər xeyli mübahisəlidir və gələcəkdə böyük anlaşılmazlıqlara səbəb ola bilər.

Sonuncu təklifim ondan ibarətdir ki, qanunda ictimai televiziyanın Azərbaycanda mülkiyyət formasına görə fərqlənən dövlət, özəl, kommersiya, bələdiyyə və s. televiziyalarla münasibətlərinə aydınlıq gətirilsin. Məsələn,

Fransa, İngiltərə, Yaponiya kimi ölkələrdə bu məsələ qanunla tənzimlənir.

Burada bir neçə məsələ haqqında fikirlər səsləndi. Mən ona münasibət bildirmək istəyirəm. İndi Azərbaycan televiziyasının birinci kanalı bütün Azərbaycan ərazisində, eyni zamanda, Dağıstanın, Rusiyanın və Cənubi Azərbaycanın bir hissəsində yayımlana bilir. Gələcəkdə ictimai televiziya müasir yayım avadanlıqları ilə təchiz olunsa, təbii ki, yayım əhatəsi dövlət televiziyası qədər, bəlkə də bundan geniş olacaq. Belə olsa, daha yaxşı olar, Azərbaycan həqiqətləri ətrafa daha asan yayıla bilər.

Burada ictimai yayım proqramlarının dili haqqında söhbət getdi. Yazılır ki, ictimai yayım proqramları Azərbaycan dilində aparılır. Bu, ümumi qaydadır. Lakin 10 və 16-cı maddələrdə buna aydınlıq gətirilir. Məsələn, 16.2-ci maddədə yazır ki, başqa xalqların dillərindəki çıxışlar Azərbaycan dilinə tərcümə ilə müşayiət olunur. Sonra 16.3-cü maddədə yazılır ki, xarici bədii, sənədli, cizgi və s. filmlər bir qayda olaraq, Azərbaycan dilində nümayiş etdirilir. Bu qanundur, ancaq olmaya da bilər. 16.4-cü maddədə göstərilir ki, ictimai yayım proqramlarına Azərbaycan Respublikasının ərazisində yaşayan milli azlıqların dilində verilişlər salına bilər. Bu məsələ qanunda çox demokratik qaydada öz əksini tapıb. Ancaq bizdə – Azərbaycan televiziyasında belədir ki, həftədə bir dəfə ingilis dilində «Xəbərlər» verilir. Yaxud da bizdə müxtəlif dillərdə tədris proqramları təşkil olunub. Eyni zamanda, özəl televiziyalarda da bu sistem var. Ancaq bir qayda olaraq Azərbaycanda yayımlanan bütün televiziyaların dili Azərbaycan dilidir. Buna ciddi şəkildə əməl etmək lazımdır. Bu, tam şəkildə qadağa qoymur ki, azlıqda olan xalqların dilində verilişlər aparılmasın. Dövlət radiosunda hər bir xalqın dilində həftədə yarım saat həcmində verilişlər gedir

və həmin xalqlar bu verilişlərə qulaq asa bilirlər. Mən, ümumiyyətlə, bu qanun haqqında onu deyə bilərəm ki, çox mükəmməl işlənmişdir. Diqqətinizə görə sağ olun.

25 iyun 2002-ci il

Hörmətli sədr, hörmətli Milli Məclisin deputatları! Artıq 4 saata yaxındır ki, bu qanunu geniş müzakirə edirik. Doğrudan da, bizim deputatlar, xüsusilə kənd təsərrüfatı ilə əlaqəsi olan və cənub zonasında olan deputatlar çox səmərəli təkliflər verdilər, çox dəyərli çıxışlar etdilər. Mənim təklifim ondan ibarətdir ki, bunun adında bir balaca dəyişiklik edək. Adı belədir: «Çayçılıq haqqında» Azərbaycan Respublikasının Qanunu. Onda hər şeyin adını çəkib onun haqqında qanun deyə bilərik.

Burada söhbət çayçılığı inkişaf etdirməkdən, bunu bir sahəyə çevirməkdən, vaxtilə məşhur olan Azərbaycan çayının dünyaya tanıtdırmaqdan və istehsalını təşkil etməkdən gedir. Ona görə adı «Çayçılığın inkişafı haqqında» Qanun olmalıdır. Burada çıxış edənlərin hər biri çayın mahiyyətindən, keyfiyyətindən, xüsusiyyətindən danışdı. Doğrudan da, Azərbaycan çayı öz keyfiyyəti ilə bir vaxtlar məşhur idi və onun elə iyindən də, dadından da bilmək olurdu. Sovet hökuməti dağılandan sonra bu plantasiyaların hamısı verildi həyətyanı sahələrə və beləliklə də Lənkəran-Astara zonasında olan bu torpaq sahələri camaata paylandı, onlar da bu sahələrdə tikinti apardılar, özlərinin həyətyanı sahələrinə çevirdilər. İndi çayçılığı inkişaf etdirmək üçün yollar müəyyənləşdirilməlidir. Bunlar sahibkarlara, fermerlərə verilməlidir. Sonra birləşdirilməli, yenidən plantasiyalar yaradılmalı və inkişaf etdirilməlidir. Bu baxımdan da biz bunun inkişafı qayğısına qalıb o istiqaməti əsas götürməliyik.

Reklamla əlaqədar çox təkliflər verdilər, düzgün təklif deyil. Məsələ burasındadır ki, reklam sahibləri reklamını hazırlayır, gətirib ya dövlət televiziyasına, ya da özəl kanala təqdim edirlər. İndi bu Azərbaycan çayının da bir sahibi lazımdır ki, reklamını hazırlasın, təşkil etsin, gətirsin versin dövlət və özəl televiziyalara. Biz də onu göstərək. İndi də söhbət gedir ki, çayçılığı inkişaf etdirmək lazımdır. Qoy onun sahibi meydana çıxsın, reklamı gətirsin versin.

Qaldı ki, reklamın keyfiyyətinə, siz düz buyurursunuz. Reklamın içərisində keyfiyyəti, dili, üslubu, təqdimatı qüsurlu olanlar da var. Bunları düzəltmək lazımdır. Bu tamam başqa söhbətdir. Təkcə çayla əlaqədar reklamlara deyil, bütövlükdə reklamlara aiddir. Bizim borcumuz ondan ibarət ola bilər ki, Azərbaycan çayının reklamını tez-tez efirə verək. Yoxsa o birini verməyək ki, bizim öz çayımız var. Bu çıxış yolu deyil. Diqqətinizə görə sağ olun.

1 oktyabr 2002-ci il

Hörmətli sədr, hörmətli Milli Məclisin deputatları! Artıq neçənci ildir ki, ictimai televiziya, radio və onun yayımı haqqında qanun layihəsi üzərində işçi qrupu çox böyük məhsuldarlıqla işləyir. Qrupun rəhbəri Rizvan müəllimin fəaliyyətini xüsusi qeyd etmək istəyirəm. İstər iqtidar, istər müxalifət, istərsə də radio və televiziya yayımı sahəsində səriştəsi olan mütəxəssislər buraya dəvət olunmuş və onların rəyləri, fikirləri dinlənilmiş və qanun layihəsində də nəzərə alınmışdır.

Mən demək istərdim ki, bu layihə birdən-birə meydana çıxmayıb. İşçi qrupu bütün dünya təcrübəsində, o cümlədən Amerikanın «EBC» teleşirkətinin, İngiltərənin «BBC» teleşirkətinin, Almaniyanın, Fransanın, Rusiyanın, Hollandi-

yanın ictimai televiziya şirkəti haqqında qanunlarından istifadə edib və onların modellərinə uyğun olaraq bu qanun layihəsinin hazırlanmasını təşkil edib. Qeyd edərdim ki, bu qanun layihəsi, əsasən, Hollandiya modeli üzərində qurulub və ondan daha çox istifadə olunub. Digər qanunlardan da, təbii ki, istifadə edilib.

Mən qeyd etmək istərdim ki, Avropa Şurası qarşısında öhdəliklər götürməzdən əvvəl, radio-televiziya yayımı haqqında qanun qəbul edərkən üç televiziyanın adını qeyd etmişdik: dövlət televiziyası, ictimai televiziya və özəl televiziya. Təbii ki, bu öhdəliklərdən əvvəl demokratik formada televiziyaların müxtəlif formaları haqqında bizim ümumi qanunumuzda maddə qeyd olunmuşdur. İşçi qrupu YUNESKO-nun model qanunundan da istifadə edərək bu qanun layihəsinin təkmilləşməsində bir addım da irəli atmışdır. Deyərdim ki, Avropa Şurasından buraya gəlmiş ekspert qrupu tək-tək, kiçik qeydlər nəzərə alınmaqla qanun layihəsindən tamamilə razı qaldı və öz razılığını bildirdi. İndi bəzi adamlar çıxışlarında Avropa Şurası haqqında müxtəlif fikirlər söyləyirlər. Ancaq həqiqət belədir ki, bizim fikirlərimiz üst-üstə düşdü və onlar da bu qanun layihəsini qəbul etdilər.

Burada bir məsələyə xüsusi diqqət yetirməyinizi xahiş edirəm. Bildiyiniz kimi, artıq dünyanın bir sıra ölkələrində dövlət televiziyaları ilə yanaşı, ictimai televiziyalar da fəaliyyət göstərir. Azərbaycan Respublikası da Avropa Şurasına üzv olarkən ictimai televiziya yaratmaq öhdəliyi götürmüşdür. Ona görə də Azərbaycanda digər sivil ölkələrdə olduğu kimi, ictimai televiziya yaratmaq zəruridir. Dünyada fəaliyyət göstərən ictimai televiziyaların prinsip etibarilə fəaliyyətləri uyğundur. Yəni hamısının fəaliyyət sferası bir-birinə tamamilə uyğundur. Onlar bir-birindən yalnız maliyyə

mənbələrinə görə üç istiqamətdə fərqlənirlər. Birincisi, xalqdan yığılan ödəmələrin hesabına. Məsələn, İngiltərənin «BBC» televiziyası bu istiqamətdə fəaliyyət göstərir. İkincisi, ictimai təşkilatların köçürdüyü vəsait hesabına. Skandinaviya ölkələrində olan televiziyalar belə fəaliyyət göstərirlər. Bir də abonent haqlarından əmələ gələn vəsait hesabına. Hər üç halda, göründüyü kimi, maliyyə mənbəyi dövlətdən asılı deyil.

Bu gün Azərbaycanda iqtisadi, sosial qurum qeyd etdiyimiz üç sistemdən heç birinin tətbiqinə imkan vermir. Ona görə də ictimai televiziyanın müasir dövrdə real maliyyə mənbəyi dövlət büdcəsidir. Qanun layihəsində də qeyd olunur ki, dövlət büdcəsindən maliyyələşmə 2010-cu ilə qədər davam edəcək. Biz Hollandiya modelini qəbul etmişiksə, istər-istəməz televiziyaya da dövlət nəzarəti olmalıdır. Onun İctimai Yayım Şurası da, baş direktoru da ölkənin prezidenti tərəfindən təyin olunmalıdır. Yəni buna Ekspert Şurası da heç bir etiraz etmir. Bunlar qanunda nəzərdə tutulan məsələlərdir.

Burada mənim konkret hər fəsil üzrə müəyyən təkliflərim olacaq. I fəsil üzrə təklifim belədir. Mənə elə gəlir ki, I fəslin «Əsas anlayışlar» bölməsini bir qədər genişləndirmək, buraya «rəsmi informasiya», «qapalı tədbirlər» və «gizli reklam» anlayışlarını da əlavə etmək lazımdır. Çünki bu anlayışlar layihədə bir neçə dəfə işlədilir. Ona görə də mənalarının izahına ehtiyac vardır. Preambulada və I fəsildə bunlar izah olunmalıdır.

Bir məsələni də qeyd edim. İndiyə qədər çıxış edənlər qanun layihəsinin maddələri üzrə danışdılar. Başqa məsələlər bu qanunun predmeti deyil. Bu gün söhbət ictimai televiziya haqqında maddələrin təkmilləşdirilməsi üçün verilən təkliflərdən gedir.

Bununla əlaqədar işçi qrupu da bu təklifləri dinləməyə

və qanun layihəsini təkmilləşdirməyə borcludur.

Burada Azərbaycan televiziyasının yayımı haqqında bəzi təkliflər oldu. Bunlar, düzdür, problemdir, lakin bugünkü layihənin obyekti deyil. İran, Ermənistan tərəfindən güclü ötürücülər qoyulub. Bu istər-istəməz Azərbaycan dövlət televiziyasının, özəl televiziyaların yayımına maneçilik törədir. Gələcəkdə Rabitə Nazirliyi ictimai televiziyalar üçün də güclü ötürücülər alanda, həmin ötürücünün gücü istər-istəməz onların yayımının qarşısını ala biləcək. Bu, gələcəyin problemidir və bunlar hissə-hissə yerinə yetiriləcəkdir. Məncə, qanun layihəsinin ümumi məzmununu milli-əxlaqi məsələlərlə zənginləşdirməyə ehtiyac var. Düzdür, «Kütləvi informasiya vasitələri haqqında» qanunda bu məsələlər öz əksini tapıb. Amma burada da bu və ya digər maddələrdə həmin məsələlərə toxunmaq lazımdır. Yəni bu gün istər dövlət, istər ictimai, istər özəl televiziya Avropa mentaliteti ilə işləyə bilməz. Avropa Şurasının ekspert qrupunun təkliflərini nəzərə almalıyıq. Ancaq hər xalq öz mentalitetini qoruyub saxlamalıdır. Hansı qanunu qəbul edirsən et, milli əxlaq birinci olmalıdır.

11 oktyabr 2002-ci il

Hörmətli sədr, hörmətli millət vəkilləri! Azərbaycan Respublikasının 2003-cü il dövlət büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsini nəzərdən keçirərkən bir daha yəqinlik hasil olur ki, layihə elmi prinsipləri özündə əks etdirir. Azərbaycan Respublikasında 2002-ci ildə həyata keçirilən iqtisadi siyasət nəticəsində iqtisadiyyatda tam sabitlik təmin olunmuşdur. Layihədə göstərildiyi kimi, 2003-cü il üçün də gəlirlərin ədalətli bölgüsü prinsipi qorunub saxlanmışdır. Əhalinin sosial

təbəqəsinin təminatı məsələsinə, sosial yönümlü sahələrə üstünlük verilmişdir. İqtisadi siyasətdə səmərəliliyə nail olunmasının vacibliyi gəlirlərin ədalətli bölgüsündə öz əksini tam mənasında tapmışdır. 2002-ci ildə aparılan dəqiq iqtisadi siyasətin nəticəsidir ki, 2003-cü ilin dövlət büdcəsində gəlirlər və xərclər arasında fərq cüzidir. Bu fərqin digər mənbələr hesabına ötürülməsi nəzərdə tutulmuşdur.

Layihədə Azərbaycan Respublikasında aparılan dinamik iqtisadi inkişaf nəticəsində makroiqtisadiyyatın əsas göstəricisi olan ümumi daxili məhsulun 19,6 faiz həcmində nəzərdə tutulması ölkədə aparılan doğru, düzgün və elmə əsaslanan iqtisadi siyasətdən xəbər verir. Dövlət müəssisələri tərəfindən büdcəyə ödəniləcək gəlirlərin Dövlət Neft Şirkəti tərəfindən ödəniləcək vergilərin artımı ilə bağlanması bir daha ölkədə aparılan düzgün neft strategiyası ilə bağlıdır. 2003-cü ilin dövlət büdcəsi layihəsində təhsil xərclərinin 2002-ci ilə nisbətən 12,4 faiz artıq nəzərdə tutulması təhsilə qayğının təzahürüdür. Layihədə təhsilin maddi-texniki bazasının möhkəmləndirilməsi, sistemin tədris, elmi-metodiki və informasiya təminatının inkişafı üçün 222.6 milyard manat xərclənməsi nəzərdə tutulmuşdur. Təklif olunur ki, bu vəsaitlərin çərçivəsində maddi-texniki bazanın möhkəmləndirilməsinə yönəldilən xərclər, o cümlədən təhsil müəssisələrinin, yəni ümumtəhsil məktəblərinin kompüter və proqramlarla təchizatı xərcləri kənd məktəbləri üzrə ayrılıqda göstərilsin. Bunun dövlət büdcəsinin layihəsində gələcək illər üçün nəzərdə tutulması məqsədəuyğundur. Bu da gələcək nəslin yüksək səviyyədə elmə yiyələnməsinə şərait yaradardı.

Digər sahələrdə də gəlirlərin artım tempinin gözlənilməsi, əhalinin pul gəlirlərinin 14,7 faiz, yəni 24,9 milyon manat, ümumi xərclərinsə 12,1 faiz, yəni 23,2 trilyon manat proqnozlaşdırılması, həmçinin özəl sektorun inkişafı,

ondan gələn gəlirlərin artımı 2003-cü ilin büdcəsinin sosial yönümlü olduğunu göstərir. Bu, bir daha əsas verir ki, 2003-cü il büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsini təsdiq edək və layihədə nəzərdə tutulan iqtisadiyyatın dinamik inkişafına və əhalinin maddi rifahının təmin olunmasına şərait yaradaq. Mən inanıram ki, bu layihənin təsdiqindən sonra büdcə Azərbaycanda yoxsulluğun azalması probleminin daha sürətlə, ardıcıl, sistemli və ünvanlanmış şəkildə həlli üçün möhkəm təməl olacaqdır. Diqqətinizə görə sağ olun.

8 noyabr 2002-ci il

Hörmətli sədr, hörmətli millət vəkilləri! Mən bu qanun layihəsinin ikinci oxunuşunda maddələr üzrə müzakirəsindən müəyyən məsələlərə toxunacağam. Əvvəlcə bu qanunun konseptual istiqaməti haqqında danışmaq istəyirəm.

Qanunun adı «Folklor nümunələrinin hüquqi qorunması haqqında»dır. Milli Məclisdə Azərbaycan dilini, Azərbaycan tarixini çox gözəl bilən Yaqub müəllim, Nizami Cəfərov kimi alimlərimiz oturublar. Burada Azad Nəbiyev, Gövhər xanım çox gözəl çıxışlar etdilər. Mən onlara diqqətlə qulaq asdım. Bir məsələnin izahını gözləyirdim, nəhayət, ona Gövhər xanım bir qədər toxundu.

Məsələ bundadır ki, bütün qanunları bu istiqamətdə müzakirəyə qoyub qəbul etmək mümkündür. Folklor haqqında qanunu isə ənənəvi formada qəbul etmək olmaz. Çünki dildir, folklordur, mədəniyyətdir – bunların sərhədi yoxdur. Bu bölgü coğrafi əraziyə aid edilə bilməz. Oxuyuram, diqqətlə qulaq asın: «Bu qanun Azərbaycan Respublikası ərazisində folklor nümunələrinin əqli mülkiyyətin bir növüdür…» Folklorun xüsusilə Azərbaycan xalqı üçün, dediyim kimi, sərhədi

yoxdur.

Azərbaycanlıların 8 milyonu Azərbaycan Respublikasında, 35 milyonu İran Azərbaycanında, bir hissəsi Gürcüstanda, bir hissəsi Orta Asiya ölkələrində yaşayır. Tarixən ortaq dil, ortaq folklor, ortaq mədəniyyət olub. Ona görə folkloru yığıb-yığışdırıb çərçivəyə salmaq düzgün hesab olunmur. Əgər bu qanun bizi türk dünyasından ayıracaqsa, o bizə lazım deyil.

Necə yəni bu nəslin kökü folklorumuzun nümunələrini Azərbaycanda axtaracaq? Gövhər xanımın dediyi fikri mən bir qədər dəqiqləşdirmək istəyirəm. Nizami Gəncəvinin «Xəmsə»sinin, yəni beş poemasının qəhrəmanları əfsanədən, miflərdən götürülübdür. Burada «Leyli və Məcnun» dastanının adı çəkildi. IV əsrdə ərəb qəbilələri arasında «Lilaks və Qeys» adlı əfsanə olubdur. Ondan sonra bunu Nizami qələmə alıbdır. Bundan sonra 150-dən artıq «Leyli və Məcnun» yazılıbdır. Deməli, bu gedib ərəb folkloru ilə səsləşdi.

Mən hələ türk folklorunun bütün dünya ərazisində yayımını demirəm. Onları bir-birindən necə ayırmaq olar? Bizdə Molla Nəsrəddin, Türkiyədə isə Xacə Nəsrəddin var. Bunların bütün deyimləri bir-birinə uyğundur. Bütün atalar sözləri, zərbi-məsəllər bir-birinə bənzəyir.

Türk xalqlarında dastanlarımızın müxtəlif variantları vardır. İndi deyək ki, «Koroğlu» bizim dastanımızdır, əgər bir adam bundan istifadə etsə, onu məhkəməyə verəcəyik? Müəllif hüquqları bunu qorusun, – deyirik. Folklorun nəyini qoruyacaq?

Burada təkliflərdə deyildi ki, siyahı təqdim olunsun. Zahid Orucov da düzgün dedi ki, müəlliflik hüququ bunu siyahı əsasında qorumalıdır, ancaq baxır nəyin siyahısı olsun. Folklor deyəndə, Azad müəllim izah etdi, nağılların,

tapmacaların siyahısını soruşmurlar. Məgər tapmacaların, nağılların dəqiq sayı olur? Onları siyahı tutarmı? Onlara yer-göy bəs eləməz.

Xalq yaradıcılığını məgər siyahı ilə toplayırlar? Toplaya bilsəydik, kitab buraxardıq və onları bütün dünyaya yayardıq da. Onu aparıb daha müəllif hüquqları idarəsinə vermək nəyə lazımdır ki? Bunların hamısı qanunun tələbləri baxımından nəzərə alınmalı, əlavə də bir neçə qanun hazırlanmalıdır.

Burada misallar gətirildi ki, İsveçdə Aqşin Əlizadənin, Qara Qarayevin baletləri fars baleti adı ilə oynanılmışdır. İranda balet qadağandır, çünki qadının saçı görünməməlidir. Avropanı heyran qoyan Azərbaycan baleti çox yerdə məşhurdur. İran fars baleti adı ilş onu İsveçdə oynaya bilərmi? Buna inanmaq çətindir. Bunların hamısı dəqiq üzə çıxarılmalı, mədəniyyət abidələrimiz qorunmalıdır. Ancaq qanunun bu istiqaməti ilə mən razılaşmıram. Tutaq ki, bu qanunu səsə qoyduq, qəbul etdik. O işləməyəndən sonra mən bunu nə edirəm? Təklifim nədən ibarətdir. Qanun lazımdır, vacibdir, ancaq o, müxtəlif istiqamətdə işlənməlidir.

Öz fəaliyyətimizdən demək istəyirəm. Azərbaycan televiziyasında mən işə başlayanda, orada çox gərgin vəziyyət var idi. Ramiz Zöhrabov burada oturubdur. O, musiqi tariximizi gözəl bilən mütəxəssisimizdir. Fonetekada bərbad vəziyyət var idi. Topladıq, yığdıq, siyahını düzəltdik, orada qayda yaratdıq. Burada çox gözəl dedilər ki, həmin nümunələr daim qorunub siyahıya alınmalıdır. Videotekada da həmin qaydada iş görülübdür. Bu işlərə vahid qəliblə yanaşıb formalaşdırmaq düzgün deyil.

Konkret fikrim nədən ibarətdir. Qanımda Azərbaycan ərazisində yaşayan etnik xalqların folklorunun qorunması, saxlanması və ondan istifadə edilməsi qayğısına qalmalıyıq. Bu istiqamətdə mən geniş danışmaq istəmirəm.

Bir məsələ də ortaya çıxır. Bunları qorumaq üçün gərək əlimizdə maddi əsas da olsun. Bizdə olan mənbələr – atalar sözlərinin, zərbi-məsəllərin, nağılların hamısı kiril əlifbası ilə nəşr olunub. İndi biz latın əlifbasına keçmişik. Bunların üzü yenidən köçürülməlidir.

Burada bir çıxış oldu. Mən onun müəllifinə böyük hörmətlə yanaşıram. Tutaq ki, filan nağılda qoyulan məsələ indiki müasir vəziyyətlə səsləşmir. Yaxud filan atalar sözləri, tapmaca, bayatı, layla indiki dünyagörüşə uyğun deyil. Bunu nə vaxt yaradıblar, heç vaxtı, mənbəyi dəqiq bilinmir. İkinci bir tərəfdən, yanlış özü də bir naxışdır. Bəzən təsirlənib deyilən söz hər hansı istiqamətdə qoyulan məsələnin məzmunundan asılı olaraq yerinə düşürsə, atalar sözləri səviyyəsində səslənə bilir. İndi bunları seçib, məntiqə uyğun ayırmaq, əlbəttə, bizim üçün çox çətin olar. Onlar onda folklor, xalq yaradıcılığı olmaz, kiminsə təfəkkürünün məhsuluna çevrilər.

Qanun layihəsi respublikamızın, xalqımızın, millətimizin xeyrinə təkmilləşməlidir. Bunun işlənmə mexanizmi düzgün qoyularsa, qanun çox əhəmiyyətli, millətimizə lazım olan bir hüquqi sənəd olar. Diqqətinizə görə sağ olun.

13 dekabr 2002-ci il

Hörmətli sədr, hörmətli millət vəkilləri! Bu gün biz, doğrudan da, çox ciddi və taleyüklü bir qanun layihəsini müzakirə edirik. Birinci dəfə müzakirə çox yüksək səviyyədə keçdi. Belə ki, deputatların əksəriyyəti çıxış etdi, dəyərli təkliflər irəli sürdülər. Bu gün də mən bir deputat kimi, mədəniyyət məsələləri daimi komissiyasına, onun rəhbəri Anar müəllimə, bu layihənin hazırlanmasında xüsusi rolu olan Nizami müəllimə öz təşəkkürümü bildirirəm ki, buradakı

təkliflərin əksəriyyətini nəzərə alıblar. İndi Kamran müəllim çıxış etdi, mən onun çıxışını səbirsizliklə gözləyirdim. O dedi ki, biz bu təklifləri 13 qrupda ümumiləşdirdik və bu təkliflərə uyğun da qərar layihəsinə maddələr əlavə etdik. Mən qərar layihəsini diqqətlə oxuyandan sonra gördüm ki, keçən dəfə irəli sürülən bütün təkliflər bugünkü qərar layihəsində öz əksini tapıbdır. Bu mənada mən komissiyaya və onun üzvlərinə öz təşəkkürümü bildirirəm.

Burada bir məsələ qaldırıldı, o, deyəsən, yaddan çıxıbdır. Doğrudan da, Azərbaycan çoxmillətli respublikadır və təbii ki, burada etnik qrupların da folklor nümunələrinin qorunması və gələcək nəsillərə saxlanılması haqqında bir maddə əlavə olunmalıdır. Bu bizim beynəlmiləlçilik borcumuzdur. Keçən dəfə ancaq Azərbaycan ərazisində folklor nümunələrinin saxlanması səslənirdi. Doğrudan da, folklor sərhədsiz söz nümunəsidir. Bu baxımdan Azərbaycan folklor nümunələri deyəndə, həm Azərbaycan daxilində, həm də xaricində onun qorunması məsələsi ehtiva olunur. Ancaq çox təəssüf ki, bunu yekun müddəalara – IV fəslə əlavə ediblər. Bu, yamaq kimi görünür. Xarici dövlətlərdə folklor nümunələrinin qorunması yekun müddəasına aid deyil. Ona görə də bu həmin qanun layihəsinin içərisində yerləşdirilməlidir. Azərbaycan Respublikasında folklor nümunələrinin qorunması, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə əsasən tənzimlənməsi əlavə kimi yox, yekun müddəası kimi yox, qanunun içərisində öz əksini tapmalıdır. Ancaq burada Kamran müəllim çox gözəl danışdı, mən də diqqətlə qulaq asdım. Burada, bu qanunda bunun qorunması mexanizmi necə olacaq, o göstərilmir. Təbii ki, vacib şərt də bu deyil ki, əsas maddələr üzrə bunu göstərəsən. Ancaq onun qorunma mexanizmi axtarılıb tapılmalıdır. Təkcə beynəlxalq müqavilələrlə yox, düzdür, YUNESKO-nun

folklor nümunələrindən qeyri-qanuni istifadə ilə əlaqədar olaraq belə bir qanunu olacaq. O həm xaricdə, həm də daxildə bunun qorunması üçün müəyyən imkan və şərait yaradacaqdır. Ancaq mən belə fikirləşirəm ki, əgər bu qorunma köhnə mexanizmlə olacaqsa, onda bütün folklor nümunələrinin adı, familiyası, video, audio kasetlər hamısı toplanıb Kamran müəllimin rəhbərlik etdiyi idarəyə təhvil verilsin, ondan sonra buna nəzarət olunsun. Bunu nə yığmaq, nə toplamaq olar, nə də onu yer-yurd tutar. Bunu biz toplayıb nəşr edə biliriksə, onu yığıb həmin idarəyə göndərməyin nə mənası var. Onlar bunun oğurlanmasına, yaxud köçürülməsinə nəzarət etsinlər. Bu sistem, bu cür mexanizm düzgün deyil. Onun fikirləşib yolunu tapmaq lazımdır.

Bütün dünyada belə bir qanun var və bütün dünya öz folklor nümunələrini qoruyub saxlayır. Öyrənmək lazımdır, onlar bunu necə qoruyub saxlayırlar, biz də həmin o qaydadan, həmin o mexanizmdən istifadə edək.

Burada səsləndi ki, folklor nümunələrinin müəyyən ərazi ilə bağlılığı tamamilə yanlışdır. Folklor nümunələri təkcə söz sənətinin nümunələri deyil, bütün burada yazılanlar hamısı folklor nümunələridir. Misal üçün, bu, Təbriz xalçasıdır, bu, Quba xalçasıdır. Azərbaycan böyük ərazidir. Hələ mən bunun cənubunu, şimalını demirəm. «Yallı» nümunələri – «Şərur yallısı» dünyada məşhurdur. Bunun necə yerini, ərazisini deməyəsən? Məhz onun ad-familiyası da o ad-familiyadır, həmin toponimlərlə, yerlərlə bağlı olan maddələrdir.

Burada bir anlayışı xüsusilə demək istəyirəm. Azərbaycan Respublikasının Elmlər Akademiyası «Cənubi Azərbaycan antologiyası» adlı bir neçə cildlik kitab buraxıb. Çox təəssüf ki, 35 milyondan artıq soydaşımızın yaşadığı Cənubi Azərbaycanda hələ bu yaxınlarda folklor nümunələrini toplamağa başlayıblar. Çünki burada Azərbaycan dilinin,

onun nümunələrinin qayğısına qalan olmayıb. Bu dili tənzimləyən, bu mədəniyyəti, bu folkloru tənzimləyən bir mərkəz olmayıb. Bu yaxınlarda mən «Azərbaycan» qəzetində bir məqalə çap etdirdim: «El dili və ədəbiyyatı». İndi-indi başlayıblar bir-iki jurnalda bunu çap etdirməyə. Biz bəzən gözləyirik ki, qanun qəbul edilsin, sonra nə isə hərəkət edək. Ancaq belə məsələləri qanun tənzimləmir. Cənubi Azərbaycana, yəni İrana indi yol da açılıb. Şərait yaratmaq lazımdır.

Bir də görürsən, Azərbaycan dilinin cənub şivələri deyirik. Cənub şivələri haradadır? Lənkəran, Masallı tərəf olur Azərbaycan dilinin cənubu. Belə deyil. O, ərazi etibarilə Azərbaycan Respublikasının cənubu ola bilər, ancaq Azərbaycan dilinin cənubu Lənkəran deyil, Azərbaycan dilinin cənubu, Azərbaycan xalq yaradıcılığının cənubu İran Azərbaycanındadır. Ona görə də ora mütəxəssislər göndərmək lazımdır ki, onlar getsinlər, şivələri, dialektləri, folklor nümunələrmi toplasınlar. Onda Azərbaycan dilinin bütöv atlasından, folkloroji atlasından danışmaq olar. Yoxsa yarısı bu tayda, yarısı o tayda bütövləşmiş halda 8 milyon 35 milyonu ehtiva edib onun haqqında dili, yaxud dialektoloji atlası haqqında ümumi fikir söyləyir. Bunun üçün Milli Məclisi gözləmək lazım deyildir.

Burada bir məsələni mən xüsusi qeyd etmək istəyirəm. 2-ci maddədə yazılıb: «Qorunan folklor nümunələri». Belə çıxır ki, qalan folklor nümunələri qorunan deyil, onlardan danışmaq olmaz. Bu, folklor nümunələridirsə, kiçik detal da göz bəbəyi kimi qorunmalıdır. Ona görə təklif edirəm ki, yazılsın: «folklor nümunələrinin qorunması». «Qorunan folklor nümunələri» olmaz. Burada bir qəribə ifadə də işlədilib: «hiss edilən tətbiqi sənət və xalq sənətkarlığı nümunələri». Belə çıxır ki, o birilərini biz hiss etmirik,

digərlərini biz hiss edirik. Bu hiss, bilirsiniz, nə ilə müəyyənləşə bilər? Belə olsa, bunların iyi, qoxusu yoxdursa, deməli, bu, folklor nümunəsi deyil? Qeyri-dəqiq ifadələrdir, onları dəyişdirmək və dəqiqləşdirmək lazımdır.

Burada bəzi cümlələr var. 1.3-cü maddədə: «folklor nümunələrindən qeyri-qanuni istifadə», «folklor nümunələrindən kommersiya məqsədi ilə ənənəvi və adi olmayan istifadə hallarında». Bu nə deməkdir, bilmək olmur. Bu, folklordur, sərhədsiz söz nümunələridir. Azərbaycan folklor nümunələrini türk dünyasından ayırsaq, heç zaman folklor nümunələrinin əslini, kökünü, mənbəyini, onun yaranma arealını bilmək olmaz.

Mən bir nümunə gətirmək istəyirəm. Xalq mahnısı var: «Pəncərədən daş gəlir, ay bəri bax, bəri bax». Hamı qalır məəttəl ki, pəncərədən necə daş gələ bilər? Pəncərədən baxarsan, daş gəlib dəyər başına. Deyir, xalq mahnısıdır. Bunun üçün türk dünyasına müraciət edirsən. Məsələn, çuvaş dilində, yəni qədim türk dillərindən birində, bu, «daş» deyil, bu, «tauş»dur. «Tauş» səs deməkdir. Buradan müəyyənləşir ki, «pəncərədən səs gəlir, ay bəri bax, bəri bax». Deyir ki, «Çul kimi düşdü yerə». Biz elə bilirik ki, çul atın üstünə atılan nədirsə. Yenə də folklora, qədim mənbələrə müraciət edirsən. Məlum olur ki, çuvaş dilində çul daş deməkdir, yəni daş kimi düşdü yerə. Bunların hər birinin kökünü gərək türk dünyasında axtarasan. Bunları bir-birindən ayırıb heç zaman tək buraxmaq olmaz. Mənim təklifim budur ki, bu söz hökmən ora əlavə olunsun. Ümumiyyətlə, bu qanun layihəsi mükəmməl işlənibdir və çox mükəmməl bir layihədir. Siz də çox sağ olun ki, bunun müzakirəsini geniş təşkil etmisiniz.

4 mart 2003-cü il

Hörmətli sədr, hörmətli millət vəkilləri! Artıq neçənci gündür ki, bu qanun layihəsi müzakirə olunur. Müzakirə çox yüksək səviyyədə keçir. Mən vaxta qənaət etmək üçün birbaşa maddələrə keçirəm.

Layihənin 18.3-cü maddəsində göstərilir ki, seçki komissiyaları Azərbaycan Respublikası Konstitusiyasının 3.83.101 və 142-ci maddələrinə uyğun olaraq daimi fəaliyyət göstərən dövlət orqanlarıdır. Konstitusiyanın həmin maddələrində bələdiyyələrə, Azərbaycan Respublikası prezidentliyinə və Milli Məclisin deputatlığına seçkilərin əsasları və referendum yolu ilə həll edilən məsələlər verilmişdir. Göründüyü kimi, seçki komissiyalarının daimi fəaliyyət göstərən dövlət orqanları olması haqqında Konstitusiyada heç bir söz yoxdur. Ona görə də həmin maddəyə ehtiyac qalmır.

19.3-cü maddədə göstərilir ki, seçki komissiyasının sədri Mərkəzi Seçki Komissiyasında, həmçinin sədr müavini, katibləri seçki komissiyasının birinci iclasında seçilirlər. Seçki komissiyasının sədri seçilənədək onun birinci iclasında və ya sədr olmadıqda iclasa ən qocaman üzv sədrlik edir. Təklif edirəm ki, bu maddə aşağıdakı redaksiyada verilsin: «Seçki komissiyasının birinci iclasında yaşca ən qocaman üzv sədrlik edir və seçki komissiyasının sədri, müavinləri, katibləri seçilirlər».

30.4-cü maddədə göstərilir ki, siyasi partiyanı təmsil edən üzvlər dairə seçki komissiyasının üzvlüyünə namizədi səsvermə ününə 95 gün qalmış təqdim etmədikdə, həmin namizəd məhkəmə hakimiyyətini təmsil edən Mərkəzi Seçki Komissiyası üzvləri tərəfindən təqdim edilir. Bu maddəyə «ərazidə daimi yaşayan» sözləri əlavə edilməlidir.

Layihənin 59.7-ci, 59.9-cu maddələrində «qeyri-düzgün» əvəzinə «etibarsız», 59.13-cü maddədə üçüncü sətrin

əvvəlində «protokol» əvəzinə «arayış», 100-cü maddəsində «seçki komissiyalarının səsvermə protokolları» əvəzinə «seçki komissiyalarının səslərinin hesablanması protokolları» yazılmasını münasib hesab edirəm. 99.3-cü maddədə göstərilir: «Seçki bülleteni dövlət dilində çap edilir». Bu maddədə «dövlət dili»nin «Azərbaycan dili» sözləri ilə əvəz olunması daha münasibdir.

19.8 və 19.9-cu maddələrin birləşdirilib aşağıdakı redaksiyada yazılmasını təklif edirəm: «Seçki komissiyasının həlledici səs hüquqlu üzvlərinin üçdə iki hissəsi iştirak etdikdə onun iclası səlahiyyətli hesab olunur».

29.1-ci maddədə göstərilir ki, deputatların seçkiləri zamanı seçki dairələri birmandatlı seçki dairələri qismində referendum, Prezident seçkiləri, bələdiyyə üzvlərinin seçkiləri zamanı isə seçki əraziləri qismində çıxış edirlər. Elə ərazilər var ki, orada iki və ya üç dairə yaradılıb. Burada sual olunur: dairə ərazi qismində necə çıxış edə bilər? Digər tərəfdən Prezident, bələdiyyə seçkiləri zamanı ərazi seçki komissiyalarını yaratdıqda, külli miqdarda vəsaitə qənaət etmiş olarıq. Ərazi seçki komissiyası vasitəsi ilə seçkilər təşkil edildikdə dairə seçki komissiyalarına nisbətən iki dəfə az məbləğdə pul lazım olur.

Prezident, bələdiyyə seçkiləri dövründə hər rayonun ərazi üzrə seçki komissiyaları yaradılmalıdır. Buradan görünür ki, seçki komissiyaları sisteminə daha bir komissiya – ərazi seçki komissiyaları əlavə edilməlidir. Ona görə də 18.1.2, 18.1.3, 18.1.4-cü maddələr aşağıdakı redaksiyada yazılmalıdır: 18.1.2. Ərazi seçki komissiyaları. 18.1.3. Dairə seçki komissiyası. 18.1.4. Məntəqə seçki komissiyası.

35.1-ci maddə: «Seçkinin təşkili və mütəşəkkil keçirilməsi məqsədi ilə bələdiyyələrin ərazilərində yaşayan seçicilərin sayını nəzərə alaraq, səsverməyə 50 gün qalmış

seçki məntəqələri yaradılır». XIII fəsil: «seçkilər zamanı namizədlərin irəli sürülməsi və qeydiyyatı» əvəzinə «namizədliyin irəli sürülməsi və qeydiyyatı» redaksiyasında yazılsa, yaxşı olar.

53.6-cı maddədə ərazinin qəbulu üçün dəqiq qərar qəbul edilməsi təklif olunur. Bu, əlbəttə, səhvdir. Sənədin qəbuluna görə bildiriş verilə bilər. 17.6.1, 17.6.4 və 60.3-cü maddələrə ehtiyac yoxdur. 74.4-cü maddə seçkiqabağı təşviqatın aparılmasında qoyulmuş qaydalardan ibarətdir. Hər dəfə seçkilər zamanı binaların divarlarına külli miqdarda təşviqat materialları yapışdırılır. Bu da binaların görkəmini korlayır. Bunun qarşısını almaq üçün layihəyə yeni maddə əlavə etmək lazımdır. Diqqətinizə görə sağ olun.

3 aprel 2003-cü il

Hörmətli sədr, hörmətli millət vəkilləri! Bu məsələ ilə əlaqədar mənim elə bir xüsusi sözüm yoxdur. Ancaq indi diqqət etdim ki, burada çox kobud redaktə səhvləri var. 117-ci maddədə yazılıb: «referenduma çıxarılan məsələlər». 118-ci maddədə yazılıb: «referenduma çıxarıla bilməyən məsələlər». Yəni əslində, 118-ci maddədə «referenduma çıxarılmayan məsələlər» yazılmalıydı. 118-ci maddədə deyilir: «Referenduma çıxarıla bilməyən məsələlər Azərbaycan Respublikası Konstitusiyasının 3-cü maddəsinin III hissəsi ilə və 155-ci maddəsi ilə müəyyən edilir».

Bir məsələni mən qeyd etmək istəyirəm. Bizim bu layihədə Konstitusiyaya istinadlar var. Bu təbiidir. Çünki bu seçki qanunu əsasən Konstitusiya əsasında müəyyənləşir. Ancaq sadəcə olaraq, bu qanunu oxuyanda gərək hökmən Konstitusiya kitabçasını da yanında qoyasan, açasan, görəsən ki, məsələn, bu 155-ci maddədə nə deyilir. Ona görə də istinad

olunan əsas maddələr yaxşı olardı ki, burada göstəriləydi. Belə olsa, buradakı müddəalar bir az da dəqiq və aydın olar. Sağ olun.

7 aprel 2003-cü il

Hörmətli Arif müəllim, hörmətli Milli Məclisin deputatları! Bu qanun layihəsi komissiyada müzakirə olunanda mən də orada iştirak etdim və burada qoyulan sualların hamısı və bir az da artıq həmin komissiyada müzakirədə qaldırıldı, mütəxəssislərin cavabları da dinlənildi. Onlar söz verdilər ki, burada olan bəzi anlaşılmayan terminləri dəyişib müvafiq terminlərlə əvəz edəcəklər. Əvvəla, qeyd edim ki, bir çox respublikalarda və dövlətlərdə bu qanunun adı bu şəkildə deyil. Bizdə «Elektron imza və elektron sənəd haqqında Azərbaycan Respublikasının Qanunu» adlanır. Onlarda belədir: «Elektron sənəd haqqında qanun». Elektron imza da elektron sənədin içərisində verilib.

Bu qanun bütün əhali üçün yazılır. Əvvəla, «elektron imza» anlayışı bizdə başqa mənada başa düşülür. Qol çəkmək, imza atmaq kimi başa düşülür. Burada isə elektron imza deyəndə, kodlaşdırılmış, şifrələnmiş, müəyyən rəqəmlərdən ibarət olan yazı sistemi nəzərdə tutulur. Biz başa düşdüyümüz mənada imza deyil. Bu bir az şərti mənada imzadır. Mən təklif etdim ki, heç olmasa, mötərizədə bu imzanın hansı xarakterdə olması verilsin. Nizami müəllim də doğru dedi. Hökm deyil ki, hər hansı bir termin tərcümə olunsun. Azərbaycan dilində necədirsə, o cür də verilsin. Götürüldüyü dildə necədirsə, elə də verilsin. Ancaq hamı üçün anlaşıqlı olsun. Bu qəbul olunmuş qanundur.

Orada da mən bu məsələni qaldırmışdım. «Verilənlər» olmaz axı, münasib bir termin tapmaq lazımdır. «Verilənlər»

anlayışı yoxdur, ola da bilməz. Hansı dildəsə birmənalı vahid şəkildə səslənə bilər. Azərbaycan dilində bu cür səslənmir. Ona görə də onu birləşmə şəklində vermək lazımdır. Düzdür, bu qanunun dili üzərində keçən dəfə təklif verəndən sonra xeyli işlənib, cilalanıb. Amma yenə də oxuyursan, heç nə başa düşmürsən. «Verilənlər daşıyıcısı», «verilənlərin saxlanılması və istifadə edilməsi üçün təyin edilmiş maddi obyekt». Yaxud «verilənlər» anlayışını izah edir: «informasiya texnologiyaları ilə emal edilməyə yararlı informasiya». İki dəfə də cəm şəklində işlədilir: «informasiya texnologiyaları vasitələri». Əslində, anlayışları ona görə verirlər ki, əvvəlki anlayışı izah etsin. Ancaq bu izah verilən anlayışı bir az da dərinləşdirir, qaranlıqlaşdırır. Bu mənada dilin üzərində işləmək lazımdır.

Bütün dövlətlərdə, respublikalarda bu qanun qəbul edilib. İnformasiya vasitələri ilə bağlı bu qanunun rolu böyükdür. Bütün dövlətlərdə də qəbul olunur. İndiki dövrdə məktub yazmırlar. İndiki dövrdə başqa informasiya vasitələrindən istifadə edirlər. Bu qanunun işlənməsi üçün tezliklə qəbul olunması çox vacibdir. Mütəxəssislər özləri də etiraf edirlər ki, bu qanun layihəsi gözəl işlənib, qəbul edilməyə layiqdir. Mən qəbul edilməsinə qətiyyən etiraz etmirəm. Birinci oxunuşda buna səs də verəcəyəm. Amma birinci dəfə komissiyada müzakirəsində dediyim kimi, müəyyən anlayışlara aydınlıq gətirmək lazımdır. Unutmaq olmaz ki, qanun təkcə mütəxəssislər üçün nəzərdə tutulmur, qanun respublikanın qanunudur, ona görə də bir qədər anlaşıqlı dildə olsa, daha yaxşı olar.

30 sentyabr 2003-cü il

Hörmətli sədr, hörmətli millət vəkilləri! Yeni büdcə strukturuna, istiqamət parametrlərinə, şəffaflığına, əhatə

dairəsinə görə 2003-cü ilin büdcə göstəricilərindən kəskin fərqlənir. Görkəmli dövlət xadimi Heydər Əliyevin müdrik iqtisadi siyasəti bir vaxtlar külli miqdarda kəsrlər, hətta əhalinin və ölkənin ən zəruri ehtiyaclarının minimal səviyyədə ödənilməsinin mümkün olmadığı ali maliyyə sənədini indiki böyük göstəricilərə gətirib çıxarıb. Bu kursun layiqli davamçısı İlham Əliyevin seçkiqabağı söylədiyi fikirlər və müzakirə etdiyimiz bu layihə, şübhəsiz, sabaha inamı daha da artırır. Bu sənəd növbəti il üçün əsl iqtisadi inkişaf strategiyasıdır. Büdcə layihəsi ölkə iqtisadiyyatının ötən illərə nisbətən inkişaf tempini göstərmək, Azərbaycanın aşkar inkişaf reallığını əks etdirməklə yanaşı, yeni ildə ölkənin çoxşaxəli tərəqqisinə böyük ümidlər verir. Bu, real büdcədir. 2003-cü ilin 9 ayı ərzində dövlət büdcəsinin mədaxil proqnozuna 103,3 faiz əməl edilməsi və layihədə göstərilən parametrlər bunu söyləməyə əsas verir.

Büdcə layihəsi bir çox sahələrdə sərmayə qoyuluşu üçün geniş imkanlar yaradır. Kiçik və orta sahibkarlığa maliyyə dəstəyinin gücləndirilməsində, onların inkişaf etdirilməsi üçün hazırlanmış proqramların maliyyələşdirilməsində büdcənin artırılması razılıq doğurur. 2004-cü ilin büdcəsində əvvəlki ilə nisbətən bu məqsədlə 2 dəfə çox vəsait ayrılması diqqətəlayiq hadisədir.

Bundan başqa, Azərbaycan iqtisadiyyatı üçün müstəsna əhəmiyyəti olan müəssisələrin sağlamlaşdırılmasına yeni büdcə layihəsindən 40 milyard manat, əvvəlki ilə nisbətən 8 dəfə çox vəsait ayrılması, fikrimcə, ölkədə yeni iş yerlərinin açılması sahəsində öz sözünü deyəcək. 2003-cü ilə nisbətən 2004-cü ildə Ümumi Daxili Məhsulun istehsalının artımının 4,5 trilyon manat – gəlirlərdə 865, xərclərdə isə 849 milyard manat müəyyən olunması da belə bir fikri söyləməyə əsas verir. 2003-cü illə müqayisədə dövlət büdcəsi xərclərinin

xüsusi çəkisinin təhsil sahəsi üzrə 1,7 bənd artaraq 20,6 faizə çatması təqdirəlayiq hadisədir. Dövlət məktəblərində təhsil alan şagirdlərin pulsuz dərsliklərlə təmin olunması məqsədilə yeni büdcə layihəsində 23,3 milyard manat, təhsil proqramlarının və təhsil standartlarının təkmilləşdirilməsi üçün 68 milyon manat, təhsilin maddi-texniki bazasının yaxşılaşdırılması üçün 49,2 milyard manat və s. xərclər müəyyənləşdirilmişdir. Sosial sahələr üzrə əlavə xərclər üçün bu qədər vəsaitin nəzərdə tutulması ölkə daxilində iqtisadi sabitliyin və dinamik inkişafın gözəl nümunəsidir. Layihədə kənd məktəblərinin maddi-texniki təchizatının faizlə göstərilməsi 2004-cü ilin büdcə layihəsinin əsas üstünlüklərindən biri kimi diqqəti cəlb edir.

2004-cü ilin dövlət büdcəsi əvvəlki illərlə müqayisədə şəffaflığına, funksional və iqtisadi təsnifatına, büdcə xərclərinin ünvanlığına görə fərqlənir. Əvvəlki illərdə büdcə xərclərinin təkcə ümumi kəmiyyəti verilirdi. İndiki layihədə isə büdcə xərclərinin strukturu da göstərilir. Burada büdcə xərclərinin son təyinatı kimi ünvanlığı təmin olunur. İlk dəfə olaraq Azərbaycan Respublikasının dövlət büdcəsinin belə tərtib olunması təqdirəlayiq bir haldır. Lakin dövlət büdcəsinin kəsrinin bağlanması mənbələri büdcə layihəsində göstərilmir. Səttar müəllim də öz çıxışmda qeyd etdi ki, büdcə xərclərinin 23,4 faizi «sair xərclər» maddəsi üzrə göstərilir. Bu maliyyə sənədi çox dəqiq sənəddir və sözsüz ki, sair xərclərin hər birinin də öz ünvanı var. Lakin bu, qeyd olunmayıb, yaxşı olardı ki, bunlar öz əksini tapsın.

Azərbaycan müharibə şəraitində yaşayan bir ölkədir. Mən də düşünürəm ki, Müdafiə Nazirliyi üçün büdcədə müəyyən qədər artım olmalıdır. Mən bilmirəm, mütəxəssislər bilirlər, məsələn, Ermənistanda, yaxud Gürcüstanda müdafiə xərcləri üçün nə qədər xərc ayrılıb? Burada dedilər ki, onlarda

çoxdur, bizdə az. Əgər belə bir qeyri-müəyyən bölgü varsa, o hökmən nəzərə almmalıdır. Büdcə layihəsində elm və təhsilin maddi-texniki bazasını yaxşılaşdırmaq üçün xeyli vəsait nəzərdə tutulub. Hesab edirəm ki, bu, qənaətləndiricidir. Lakin bu sahədə çalışanların əmək haqqının, xüsusilə də alimlərin elmi dərəcələrə görə məvaciblərinin həcmi, fikrimcə, bir daha nəzərdən keçirilməli və bu insanların məvacibləri artırılmalıdır.

Pedaqoji kadrlar hazırlanmasında son illər birdən-birə artan paralelliyin də aradan qaldırılmasının vaxtı çoxdan çatıb. Bununla da büdcə vəsaitinə qənaət etmək olar və həmin vəsaiti dediyim sosial qrupun əmək haqlarının artırılmasına yönəltmək olar.

14 noyabr 2003-cü il

Hörmətli sədr, hörmətli Milli Məclisin deputatları! Mən adı qeyd olunan həmin rayonların kəndlərindən deputat seçilmişəm, orada yaşayan seçicilərlə də görüşmüşəm və o əraziləri yaxşı tanıyıram. Bu qərar heç də təsadüfi verilməyibdir. Lehinə də, əleyhinə də danışanlar müəyyən məsələləri nəzərə almırlar.

Əvvəla, Naxçıvan Muxtar Respublikasını Azərbaycanın heç bir yeri ilə müqayisə etmək olmaz. Müqayisə olunsa, Qarabağ torpağı ilə müqayisə olunar ki, o torpaqlar da əlimizdən gedibdir. Naxçıvan üçün hansı şərait yaradılarsa, ona etiraz yox, iki əlli razı olmaq lazımdır. Unutmaq olmaz ki, Naxçıvan kimi strateji əhəmiyyət daşıyan ərazidə bu cür rayonun yaradılması haqqında əbəs yerə təklif irəli sürülməz.

Adları çəkilən Xok, Qarabaglar, Yeni Kərki və Yurdçu, aşağıda Qivraq, Şahtaxta kəndləri düz İran sərhəddinin böyründədir. Bu kəndlər Kəngərli zonası adlanır. Bu zonaya

yaxın kəndlər – Xıncab, Çalxanqala və Böyükdüz bir-birinə yaxındırlar. Halbuki, bu adı çəkilən 10 kənd iki rayona – Babək və Şərura aiddir. O kəndlər bir-birinin təxminən içərisindədirlər. Bu cür kompakt bir ərazini 2 rayon arasında bölmək, heç də düzgün hesab olunmurdu. Hər hansı bir arayış almaq üçün o kəndlərdən Şərurun mərkəzinə 50 kilometr yol getmək lazım idi. İndiki vəziyyətdə, nəqliyyatın az olduğu şəraitdə rayon mərkəzi ilə əlaqə saxlamaq çox çətinləşmişdi. Rayon yarananda onun statusu, ayrıca polisi, müxtəlif idarələri, hərbi komissarlığı, vergi idarəsi olur. Bunlarla həmin ərazidəki problemləri asanlaşdırmaq olar.

Münbit Şərur torpağı ilə Kəngərli torpağının məhsuldarlığı arasında xeyli fərq var. Ayrı-ayrı rayona çevriləndə bu strukturun təminatında, torpaqlarının suvarılmasında, gübrələnməsində müəyyən fərqli xüsusiyyətlər var. Bütün bunlar nəzərə alınıbdır. Naxçıvan qədim türk torpağıdır, Kəngərli tayfalarının yaşadığı yerdir. Bu baxımdan o zonaya Kəngərli adının verilməsi tamamilə doğru və düzgündür. Naxçıvanda bir sıra yer adları ermənilər tərəfindən təhrif olunur. İndi bu yerin kökünün qədim Kəngərli tayfaları ilə bağlanması onlara bir cavabdır. Ermənilərdə «kəngərli» sözü yoxdur. Bu hüquqi sənədi tamamilə qanuni hesab edirəm və qəbul olunmasına səs verirəm.

19 mart 2004-cü il

Hörmətli sədr, hörmətli millət vəkilləri! Doğrudan da, bu qanun layihəsi müzakirəyə tamamilə layiqli bir formada təqdim olunubdur. Çünki o, adından da göründüyü kimi, Azərbaycan Respublikasının dövlət rəmzlərindən biri, Dövlət bayrağı haqqında olan bir qanundur. Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında qanun hər bir

vətəndaşı, hər bir azərbaycanlını, Azərbaycan ərazisində yaşayan, qeyri vətəndaşlığı olan millətlərin nümayəndələrini də maraqlandıran, onların daim hörmətlə yanaşa biləcəkləri bir qanundur.

Mən bir neçə məsələyə diqqətinizi yönəltmək istəyirəm. Qanunun giriş hissəsində deyilir: «Bu qanun Azərbaycan Respublikası Dövlət bayrağının rəsmi istifadə qaydasını müəyyənləşdirir». Deməli, bu, bayraqdan təkcə istifadə haqqında qanun deyil, rəsmi istifadə haqqında qanundur. Ona görə də bu qanunun bütün bəndlərinə və bölmələrinə çox ciddi yanaşmaq lazımdır. Bunun müzakirəsini çox haqlı olaraq belə geniş aparırsınız. Buna ehtiyac var, hərə öz fikrini deməlidir.

Maddə 3. «Azərbaycan Respublikası Dövlət bayrağının yerləşdirildiyi yerlər». Elə müəssisələr vardır ki, onların adları bu maddəyə düşməyib. Yəqin nəzərdə tutulub ki, bunlar mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri barədə olan cümlə ilə tənzimlənəcəkdir. Lakin bir sıra idarə və müəssisələr, məsələn, Dövlət Neft Şirkəti, Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkəti, Dövlət konsernləri və bir çox başqaları mərkəzi icra hakimiyyəti strukturuna aid deyillər. Dünyanın hər yerində dövlət televiziyasının və böyük şirkətlərin üzərində dövlətin rəmzi olan bayraq dalğalanır və həmin idarə rəhbərlərinin oturduqları otaqlarda da bu bayraqlar qoyulur. Bizdə də bu gün dövlət televiziyasının üzərində dövlətin bayrağı dalğalanır. Bu, yəqin, diqqətdən yayınıbdır. Təbii ki, ikinci oxunuşda bu məsələlər burada öz əksini tapacaq.

Burada Naxçıvan Muxtar Respublikasındakı bəzi nazirliklərin, müəssisələrin, dövlət strukturlarının adı sadalanır, bəzilərinki yox. Onun üçün də təklif edirəm ki, muxtar respublikada Azərbaycan Respublikasının strukturuna aid olan hansı hökumət strukturları varsa, orada Azərbaycan

Respublikasının Dövlət bayrağı Azərbaycan Respublikasında yerləşdirildiyi qaydada yerləşdirilməlidir. Burada haqlı olaraq bəziləri qeyd etdilər ki, Naxçıvan Muxtar Respublikasının bir çox idarə və müəssisələrinin adları bura düşməyib. Bayraqların asılması və yerləşdirilməsi bu qanunla tənzimlənir. Sabah deyə bilərlər ki, qanunda yoxdur, çıxar bunu, yaxud da apar başqa yerə qoy. Ona görə də burada əks olunmalıdır. Eynilə də Dağlıq Qarabağı biz heç kimə verməmişik, oranı işğal ediblər. Onun üçün də Dağlıq Qarabağ Muxtar Vilayətinin adı bura düşməlidir. Naxçıvan Muxtar Respublikasına aid olan maddələr eynilə Dağlıq Qarabağa da şamil edilməlidir.

Bəzi məsələlər burada öz əksini tapmayıb, məsələn, rənglər haqqında. Deyirlər ki, bu başqa qanunla tənzimlənəcək. Niyə başqa qanunla tənzimlənsin? Dövlət rəmzi haqqında bütün məsələlər eyni bir qanunun içərisində cəmləşməlidir ki, adam onu oxuyanda bilsin.

Kimin, hansı idarə və müəssisənin imkanı var, gedib bahalı bayraq alır. Biri ipəkdən alır, biri qumaşdan alır, biri çitdən alır. Biri bahalısını alır, biri ucuzunu alır. Təbii ki, ucuzunu günəş, yağış vuranda rəngi tez solur, bahalıda isə bayrağın rəngi çox qalır. Bunu konkret yazmaq lazımdır ki, dövlət bayrağı filan parçadan, filan bahalı və keyfiyyətli parçadan olmalıdır.

Bayraqlar iki cürdür, o burada qeyd olunmayıb. Adətən, otaqda saçaqlı bayraq asırlar, bayırda asılan isə saçaqsız olur. Dövlət idarələrinin üzərindəki bayraqların ölçüsü böyük olur, o biri idarələrdə kiçik olur. Baxırsan, fikirləşirsən ki, yəqin bu idarə böyük idarədir ki, bunun bayrağı iridir, o biri idarə kiçikdir ki, bunda belədir. Həmin məsələlər bu qanun layihəsində öz əksini tapmalıdır. Digər bir məsələ. 8.2-ci maddədə yazılıb: ki, «qarşıdan baxıldıqda Azərbaycan

Respublikasının Dövlət bayrağı həmin bayraqlardan solda olmalıdır». Bu, otağın quruluşuna baxır. Mənim otağımda sol tərəf pəncərədir. Ona görə də burada sağ-sol söhbəti gedə bilməz. Bayrağın yeri otağın quruluşundan asılı olaraq müəyyənləşdirilməlidir. Burada yazılmalıdır ki, bayraq ən görkəmli yerdə, görünən yerdə, diqqəti cəlb edən yerdə yerləşdirilməlidir.

«Dövlət bayrağı bütöv olmalı və solğun görünməməlidir». Əvvəla, bu, bütöv ola bilməz, çünki üç rəng parçadan ibarətdir. Bunları bır-birinə tikirlər. Ona görə bütöv ola bilməz. «Solğun görünməməlidir». Solğun olmamalıdır, görünməməlidir nə deməkdir? Solğun olanda solğun görünər. Nə cürdürsə, o cür də görünəcək.

Burada bir cümləyə də diqqət yetirmək lazımdır: «Dövlət bayrağının təsviri Azərbaycan Respublikasının dövlət mükafatlarının elementi kimi istifadə oluna bilər». Dövlət bayrağı dövlətin rəmzidir, mükafat da o dövlətin mükafatıdır. Ona görə «istifadə edilə bilər» yox, «istifadə edilməlidir».

Mən, ümumiyyətlə, bu qanunun əhəmiyyətini çox yüksək qiymətləndirirəm. Çox gözəl hazırlanıb. Müəyyən qeydlər qanunun əhəmiyyətli olduğuna görə göstərilir.

Dövlət bayrağının rəngləri haqqında. Mən xaricdə olanda həmişə soruşurdular ki, bu üç rəng nə deməkdir. Mən təbii olaraq onu izah edirdim. Məsələn, qırmızı nə rəmzidir, yaşıl nə rəmzidir. Burada müasirliyin, türkçülüyün, azərbaycançılığın və islamçılığın izahı yaxşı verilməlidir.

30 mart 2004-cü il

Hörmətli sədr, hörmətli Milli Məclisin deputatları! Bu gün müzakirəyə təqdim olunan qanun layihəsi artıq ikinci oxunuşda müzakirəyə verilib. İndi, doğrudan da, bizim

respublikada yaranmış vəziyyətə görə belə bir qanuna ciddi ehtiyac yoxdur. Lakin Azərbaycan hüquqi dövlət olduğuna görə, hər bir dövlətdə olduğu kimi, Azərbaycanda da belə bir qanunun qəbul edilməsi lazımdır. Keçən dəfə müzakirədən sonra, indi Ziyafət müəllim məlumat verdi ki, qanun layihəsi üzərində çox ciddi işlənilib və bu gün çox mükəmməl bir qanun layihəsi Milli Məclisin müzakirəsinə göndərilib. Lakin mənim də bir neçə məsələ ilə əlaqədar fikirlərim var. Burada deputat yoldaşlar çox düzgün olaraq qeyd etdilər ki, 4.1-ci maddədə yazılır: «Azərbaycan Respublikasının ayrı-ayrı yerlərində fövqəladə vəziyyət müvafiq icra hakimiyyəti orqanı tərəfindən qəbul edilən normativ hüquqi akt ilə tətbiq edilir». Mən də burada Rizvan müəllimin dediyi ilə razıyam ki, müvafiq icra hakimiyyəti Prezident demək deyil. Ola bilər ki, müvafiq icra hakimiyyətinin təqdimatı əsasında Prezident fövqəladə vəziyyət haqqında sərəncam verə bilər. Ola da bilər, heç müvafiq icra hakimiyyəti belə bir təqdimat verməsin, Prezident özü hiss edir ki, fövqəladə vəziyyəti tətbiq etmək lazımdır, ona görə də sərəncam, yaxud fərman verir. Onun üçün də mən də təklif edərdim ki, bunlar birbaşa Prezidentin səlahiyyətlərinə aid olduğu üçün Prezidentin adı yazılsın.

5.2-ci maddədə göstərilir: «… Milli Məclisin fəaliyyət formalarını nəzərə almadan və xüsusi çağırış olmadan dərhal Azərbaycan Respublikası Milli Məclisinin iclasına gəlməlidirlər». Mən bir məsələni dəqiq başa düşə bilmədim. Necə ola bilir ki, Prezident bütün müvafiq aktları, qanunları əvvəl Milli Məclisin müzakirəsinə göndərir və Milli Məclis razılıq verdikdən sonra həmin qanun qüvvəyə minmiş olur. Burada isə Prezident müvafiq fərmanı verəndən 24 və ya 48 saat sonra Milli Məclisə göndərilir və Milli Məclis baxır və baxandan sonra əgər razılaşsa, razılığını bildirir, razılaşmırsa, Prezident tərəfindən verilən fərman qüvvədən düşür. Mən

bunu xüsusi bir qanuni hal hesab etmirəm.

5.4-cü maddədə yazılır: «Azərbaycan Respublikasının Milli Məclisi fövqəladə vəziyyətin tətbiq edilməsi barədə normativ hüquqi aktın qəbul edildiyi andan 48 saat ərzində onun tətbiqi məsələsinə baxır və müvafiq qərar qəbul edir». Onda bu 48 saat olmur. 24 saat müddətində Prezident bu haqda fərman verir, ondan da artıq 24 saat sonra 48 saat edir, 24-ün üstünə 48 saat gəlir. Onun üçün burada da yazılmalıdır ki, aktın qəbul edildiyi andan 24 saat ərzində, onda olur 48 saat.

Burada biz səsləri, adətən, faizlə hesablayırıq. Rizvan müəllim də, Cəmil müəllim də bu haqda dedilər. 63 səs çoxluğu faiz nisbəti ilə və ya 51 faiz, yaxud da əksər səs çoxluğu ilə nəzərdə tutulsa, yaxşı olar. 63 səs dedikdə 125 deputatın yarıdan çoxu nəzərdə tutulur. O baxımdan biz faiz nisbətində də hesablaya bilərik.

5.6-cı maddədə yazılır ki, 48 saat keçdikdən sonra öz qüvvəsini itirir və təsdiq edilmədikdə və rəsmi qaydada elan edildiyi andan 48 saat keçdikdən sonra öz qüvvəsini itirir. Bu 48 saat nə deməkdir? Əgər qəbul edilmədisə, qüvvəsini itirir. Biz qanunlarda da həmişə deyirik ki, çap olunduğu gündən, elan olunduğu saatdan qüvvəyə minir. Bu baxımdan elə həmin dəqiqədən nəzərdə tutmaq lazımdır.

Sonra, yenə də 6.1-ci maddədə yazılır ki, 60 gündən artıq ola bilməz. Yaxşı, birinci 60 gün bitdikdən sonra ikinci ola bilməz, demək, bu, hökmdür. İndi ondan aşağıdakı maddədə yazılır: «…bu qanunla fövqəladə vəziyyətin tətbiqi üçün nəzərdə tutulmuş sənədlərə riayət olunmaqla 60 gündən çox olmayan müddətə artırıla bilər». Yaxşı, bu iki maddəni birləşdirək. Birində yazılır ki, artıq ola bilməz, qurtardıq. Sonra da yazılır ki, artırıla bilər. Onun üçün də yazaq ki, 60 gün müddətində müəyyən edilir və ondan sonra müəyyən qaydalara riayət olunmaqla müddəti artırıla bilər, daha 60 gün

lazım deyil. Ola bilər ki, 30 və ya 35 gün artırılsın. Yəni bu iki bənd bir-birini təkzib edir. Bunu birləşdirmək lazımdır.

Ancaq mən yenə də deyərdim, bir balaca redaktə etməklə qanun layihəsi çox sistemli şəkildə işlənib.

9 aprel 2004-cü il

Hörmətli sədr, hörmətli Milli Məclisin deputatları! Mənim danışmağa xüsusi hazırlığım yox idi. Ancaq burada bir məsələ dəfələrlə qaldırıldığı üçün mən də öz münasibətimi bildirmək istəyirəm. «Feldyeger rabitəsi orqanında xidmət keçmə haqqında» Əsasnamənin təsdiq edilməsi barədə qanun layihəsini müzakirə edirik. Bu, bir xidmət sahəsidir. Onun üçün də bunu belə qoymaq olmaz ki, bu sahə nisbətən döyüşən, vuruşan sahə deyil. Niyə burada polkovnik, general-mayor, general-leytenant rütbəsi verilir? Bu, müstəqil dövlətimizin hərbi sahə qurumunda olan bir xidmət sahəsidir.

Məndən əvvəl danışan həmkarların rütbələri barədə dedilər. Vergidə də, gömrükdə də, bir çox xidmət sahələrində də belə rütbələr verilir. Sovet dövründən belə, döyüşən orduda da general olurdu, burada OADKYC-də də generallar var idi. Bu mənada bu sahənin əhəmiyyətini çox da kiçiltmək lazım deyil.

Məxfi sənədlər bir yerdən digər yerə aparılır. Şübhəsiz, bu sənədlər adi poçtalyonla göndərilə bilməz. Bunların fərqi olmasaydı, bütün dövlətlərdə belə sahələrə diqqət yetirilməzdi. Bu şəxslər məxfi insan sayılır, silahla təmin olunur, hərbi rütbə alırlar. Mən belə hesab edirəm, bunlar beynəlxalq aləmdə qəbul olunan məsələlərdir. Bizdə də buna şübhə yaranmasın. Müstəqil bir dövlətin belə bir xidmət sahəsi olmalıdır. Biz bu layihənin müzakirəsini keçirib, onu qəbul etməliyik. Sağ olun.

16 aprel 2004-cü il

Hörmətli sədr, hörmətli Milli Məclisin deputatları! Bu gün layihəsini müzakirə etdiyimiz qanun birbaşa müstəqil dövlətimizin təhlükəsizliyini təmin edən bir qanun olduğu üçün çox böyük əhəmiyyət daşıyır. Ona görə də bu qanun layihəsi geniş müzakirə olunmalıdır. Mən təklif edərdim ki, bu qanun layihəsi digər qanunlardan fərqli olduğu üçün Milli Məclisdən kənarda, ola bilsin, mətbuatda, müxtəlif idarə və müəssisələrdə də müzakirə edilsin. Axı çox adam müstəqil dövlətin dövlət sirrinin hansı qaydada saxlanması və dövlət sirrinə hansı mətləblərin aid olması haqqında geniş təsəvvürə malik deyil. Ona görə də onlar hansı məsələlərin birbaşa dövlət sirri olması, hansı məsələlərin isə ümumi konseptual məsələlərdən kənarda qalması haqqında geniş təsəvvürə malik deyil. Ona görə də bunun müzakirəsi bir qədər geniş şəkildə aparılsa, daha məqsədəmüvafiq nəticələrə gələ bilərik.

Bir məsələni mən diqqətinizə çatdırım. Mən kütləvi informasiya vasitələrindən birinə rəhbərlik etdiyimə görə bunları deyirəm. 1993-cü ilə qədər, müharibə getdiyi bir dövrdə fərdi operatorlar, qeyri-peşəkar müxbirlər, yaxud həmin sahə ilə məşğul olmayan qeyri-peşəkar hərbçilər bu sirləri özləri də bilmədən televiziya ekranlarına gətirirdilər və bununla da düşmənə sanki istiqamət verirdilər. Hərbi hissəni çəkməyə gedirdi. «N» hərbi hissəsi» əvəzinə bu hissənin adını, həmin hissədə nə qədər əsgər vuruşduğunu, texnikasının nə qədər olduğunu, hansı mövqeləri tutduqları haqqında özü də bilmədən düşmənə məlumat verirdi və bunun nəticəsində də bu, batalyonların məğlubiyyəti ilə nəticələnirdi. Beləliklə, bizdə ordu quruculuğu hələ başa çatmadığı dövrdə müxtəlif hadisələr baş verirdi. Bu da bizim ordumuzun məğlubiyyəti ilə nəticələnirdi. Bax, dövlət sirrini qorumağın qayda-qanunlarını

bilməmək belə acınacaqlı nəticələrə gətirib çıxarmışdı.

1993-cü ildən sonra burada müvafiq qanunçuluğun möhkəmlənməsi, vahid ordunun yaradılması və s. nizam-intizamın yaradılmasına səbəb oldu. İndi burada mən çox diqqətlə qulaq asdım, Milli Təhlükəsizlik nazirinin müavini geniş və ətraflı məlumat verdi. Bizi bir peşəkar kimi məlumatlandırdı.

Ancaq burada qarşıya bir neçə sual çıxır. Mən bunları diqqətə çatdırmaq istəyirəm. Əvvəla, çox zaman informasiya ilə sirri qarışdıra bilərlər və düşünərlər ki, sirrin qorunması demokratiyanın boğulmasıdır. Ancaq bunu heç cür belə başa düşmək lazım deyil. Sirrin qorunması dövlətçiliyin qorunmasıdır. Bunun demokratiyaya heç bir dəxli yoxdur. Hər bir müstəqil dövlət öz təhlükəsizliyini müdafiə etməlidir. Burada mən bir məsələni mütəxəssislərdən soruşmaq istəyirəm. 8.2-ci maddədə yazılıb: «Dövlət sirri təşkil edən məlumatların üç məxfilik dərəcəsi və müvafiq olaraq, bu məlumatların daşıyıcıları üçün üç məxfilik qrifi müəyyənləşdirilir: «xüsusi əhəmiyyətli», «tam məxfi» və «məxfi». Bu, orqanların özlərinə aid ola bilər. İndi belə çıxır ki, xüsusi əhəmiyyətli sirri lap möhkəm, tam məxfini bir az gizli saxlamaq lazımdır, məxfini bir az saxlamaq olar, bir az da yox. Bunlar sirdirsə, hər üçü məxfi olmalıdır. Bu, daxili bölgüdür, sirri qoruyan idarənin qrifidir və bu qanunun predmetinə dəxli yoxdur, onun daşıyıcıları və qanunu oxuyub bilənlər üçün elə bir əhəmiyyəti yoxdur.

İkinci, 13.3-cü maddədə yazılır: «Dövlət sirri təşkil edən məlumatların məxfilik müddəti 30 ildən artıq olmamalıdır». Bildik, bəs niyə 30 il? Bunu bilmədik. Sonra ardınca yazılır: «Bu müddət müvafiq icra hakimiyyəti orqanının rəyi ilə

uzadıla bilər». 30 il müddət şərti mənada götürülə bilər. Əgər bu müddət artırıla bilərsə, onda «30 il» yazmaq lazım deyil. Yazmaq olardı ki, «dövlət sirri təşkil edən məlumatların məxfilik müddəti təxminən 30 il nəzərdə tutulur. Bu müddət müvafiq icra hakimiyyətinin rəyi ilə uzadıla bilər». Yəni burada dəqiq hökm yoxdur, bir də bu, sirdirsə, bunun nə 30-u, nə 15-i. Məsələn, indi icazə veriblər ki, repressiya qurbanları haqqında arxivlər açılsın və camaata çatdırılsın. Deməli, 1937-ci ildən bu yana 30 il keçdi? SSRİ dağıldı və müstəqil dövlətlər yarandı, buna icazə verildi. Yəni buna müddət qoymaq o qədər də düzgün deyil.

Burada bir çox məsələlər haqqında fikirlərimi deyə bilərəm, lakin ikinci oxunuşda maddələr üzrə nəzərdən keçirəcəyik. Məsələyə xüsusi diqqəti çatdırmaq istəyirəm. Dövlət sirri məsələsində müxalifət, iqtidar mübahisə və münaqişəsi olmamalıdır, çünki burada söhbət dövlətin təhlükəsizliyindən və mühafizəsindən gedir. Dövlətdə yaşayan hər bir vətəndaş da bu qanunun bütün tələblərinə ciddi əməl etməlidir. Diqqətinizə görə çox sağ olun.

23 aprel 2004-cü il

Hörmətli sədr, hörmətli millət vəkilləri! Bu qanunun əhəmiyyəti haqqında danışmaq artıqdır. Mənim də birinci təklifim ondan ibarətdir ki, «Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında» Qanun adlandırılmalıdır. Bu təklifi biz keçən dəfə də vermişdik, tamamilə düzgündür, çünki bir bayraq haqqında bir neçə qanun qəbul etmək düzgün deyil.

İkinci bir təklifim isə 2-ci maddə ilə bağlıdır. Burada yazılır: «Azərbaycan Respublikasının Dövlət bayrağının qaldırıldığı yerlər». Bunu Səyyad müəllim düzgün müşahidə

etmişdi, ancaq o maddələri demədi. Maddə 3-də yazılır: «Azərbaycan Respublikasının Dövlət bayrağının yerləşdirildiyi yerlər». Başa düşmürəm, yerləşdirmək ayrı şeyə deyirlər? Bu söz yerində deyil və bunların hər ikisi eynidir. 3-cü maddəni təsdiqləyən bir maddə də var. Bu da 5-ci maddədir və belə adlanır: «Azərbaycan Respublikasının Dövlət bayrağının digər yerlərdə qaldırılması (asılması)». Demək, üçü eyni funksiyanı ifadə edir. Burada əsas nədən ibarətdir?

2-ci maddədə yazılır: «Azərbaycan Respublikasının Dövlət bayrağı Azərbaycan Respublikasının Prezident Sarayının və dövlət iqamətgahlarının üzərində, Azərbaycan Respublikası Milli Məclisinin…» sadalanır. Maddə 3-də eyni ilə həmin yerlərin adı çəkilir, bu dəfə yazılır ki, həmin yerlərdə yerləşdirilməlidir. Bu da təkrar gedir. Sonra, maddə 5-də isə bu ikisini də təkzib edən bir müddəa vardır: «Azərbaycan Respublikasının Dövlət bayrağı yerli özünüidarə orqanlarının, qeyri-hökumət təşkilatlarının, müəssisələrin və idarələrin binaları, habelə yaşayış evlərinin üzərində qaldırıla (asıla) bilər». Yaxşı, bu adlar çəkilir, sonra birində «qaldırılır», o birində «yerləşdirilir» sözü yazılır, üçüncüdə deyir ki, bunu hər yerdə, lap evlərdə də asmaq olar. Bayaq Sabir müəllim təklif etdi ki, balkonlarda asılsın. Bunu hər yerdə asmaq olarsa, həmin yerləri üç maddədə sadalamaq nəyə lazımdır, elə üçündə də yaz ki, hər yerdə qoyula bilər. Əslində, 3-cü maddədə deyildiyi kimi, dövlət bayrağı dövlətin rəmzidir və hamı eyni dərəcədə bundan istifadə edə bilər. Mən evimin üstündə, balkonumdan bayraq asıram, dövlətin bayrağı, eyni zamanda, mənim də bayrağımdır, mən də bu dövlətin vətəndaşıyam. Onun üçün də konkret yerlərin adı sadalanır. İndi mənim yadımda o qaldı ki, şirkətlərin adı buraya düşməyib. Bəlkə elə müəssisələr var ki, düşməyib. Siyahını necə yazmaq olar ki, yaddan çıxan olmasın.

Ümumiyyətlə, mən təklif edərdim ki, 2 və 3-cü maddələr çıxarılmalıdır, bunun əvəzinə 5-ci maddədə yazılmalıdır ki, dövlət bayrağı müəssisələrin, idarələrin və qeyri-hökumət təşkilatlarının, binaların, habelə yaşayış evlərinin üzərində qaldırıla bilər. Bu şəkildə verilsə, daha məqsədəmüvafiqdir.

Sonra, burada bir hissə var: «Azərbaycan Respublikasının vəfat etmiş (həlak olmuş) vətəndaşlarına hərbi ehtiram göstərilməsi ilə bağlı Azərbaycan Respublikasının dövlət bayrağının istifadə qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir». Yaxşı, bir idarədə filankəs rəhmətə gedibsə, bayrağın qaldırılması və endirilməsi qaydalarını bu idarənin müdiri müəyyənləşdirir? Bunun üçün vahid bir qayda olmalıdır. Bayraq hansı formada, hansı istiqamətdə qaldırılmalı, endirilməli və istifadə olunmalıdır?

Burada bir maraqlı məsələ də var. Mən keçən dəfə də dedim: «qarşıdan baxıldıqda Azərbaycan Respublikasının Dövlət bayrağı həmin bayraqlardan solda olmalıdır». Əvvəla, niyə solda? Orada yazmaq lazımdır ki, görünən yerdə, daha münasib yerdə yerləşdirilməlidir. Solun, sağın bura heç bir dəxli yoxdur. Çünki bayrağın görünmə yeri otağın quruluşundan asılıdır.

Sonra, burada bir maraqlı hal var. Bunu, doğrudan da, çox düzgün ediblər. 9.2-ci maddədə yazılır ki, Azərbaycan Respublikasının Dövlət bayrağının rəngi hansı rənglər kataloquna uyğun olmalıdır. Çox zaman bizim bayraqların qırmızı rəngi ya tünd, ya da açıq olur. Yaşıl rəngi heç bilmirsən ki, hansı yaşıldır, açıq yaşıldır, tünd yaşıldır? Rənglər, nəzərdə tutulan rənglər kataloquna uyğun olmalıdır. Əgər uyğun deyilsə, həmin bayraq Azərbaycan Respublikasının bayrağı deyil, ayrı respublikanın bayrağıdır.

Yenə də bir təklifim var, keçən dəfə də bunu demişdik, düzəldilməyibdir. 9.3-cü maddədə yazılır: «Azərbaycan

Respublikasının Dövlət bayrağı bütöv olmalı və solğun görünməməlidir». Əvvəla, necə bütöv ola bilər ki, bayraq 3 rəngdən ibarətdir? Hansı fabrik birdən-birə üç rəngi bütöv buraxa bilər? Həmin rənglər ayrı buraxılır, sonra bir yerdə tikilir, tikiləndən sonra üçrəngli bütöv bir bayraq olur. Həmin cümlə buradan götürülməlidir. İkinci, yazılır ki, «solğun görünməməlidir». «Solğun görünməməlidir» yox, «solğun olmamalıdır» yazılmalıdır. Solğun olacaqsa, solğun görünəcək, olmazsa, tünd görünəcək. Onda gərək gözünə eynək taxasan ki, tünd görünsün. Tünd etmək lazımdır ki, tünd də görünsün.

9.5-ci maddədə yazılır: «Azərbaycan Respublikasının Dövlət bayrağı elə qaldırılmalıdır ki, onun parçasının aşağı tərəfi yerdən azı üç metr hündürlükdə olsun». Otağın hündürlüyü 2,80 metrdirsə, bunu necə qaldırarsan? Onda gərək otağın tavanını deşib göydən sallayasan. Bunu yazanda, bu bayrağın qoyulduğu, qaldırıldığı, yerləşdiyi mühiti nəzərə almaq lazımdır. Bunlara fikir vermək vacibdir.

Ümumiyyətlə, bu qanun çox əhəmiyyətli qanundur. Biz xarici dövlətlərdə, lap elə qardaş Türkiyədə olanda görürük ki, hər vətəndaş ölkənin himni oxunanda ayağa qalxır və onu, doğrudan, oxuyur. Bayraq da, himn də dövlətin rəmzləridir. Himn oxunanda biz farağat komandasında durmalıyıq və himni oxumalıyıq. Rəhmətlik cənab Prezident də dəfələrlə bizə tövsiyə edirdi ki, himni öyrənin. Biz Milli Məclisdə nümunə göstərək, qoy xalq da bizdən nümunə götürsün. Diqqətinizə görə sağ olun.

11 may 2004-cü il

Hörmətli sədr, hörmətli millət vəkilləri! Biz Azərbaycan Respublikası və Gürcüstanın Birgə Bəyannaməsinin təsdiq

edilməsi barədə və «Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında informasiya sahəsində əməkdaşlıq haqqında» sazişin təsdiq edilməsi barədə məruzələri dinlədik. Doğrudan da, Əli müəllim düzgün dedi, bu paket halında olan məsələdir. İstər birinci məsələ, istər ikinci məsələ bəyannamənin tərkib hissəsinə aid olan məsələlərdir. Ona görə də biz bunu birlikdə müzakirə edib fikir bildirə bilərik.

Əli müəllimin məruzəsində bir məsələ mənə bir qədər aydın olmadı. Saziş niyə üç il müddətində bağlanır? Üç ildən sonra bunun təzələnməsinə ehtiyac var? Qanunçuluqda belə bir qayda var, əgər bir qanun qəbul edilirsə, ikinci dəfə yeni bir qanun qəbul edilən müddətə qədər həmin qanun, həmin saziş, həmin bəyannamə qüvvədədir. Ona əvvəlcədən 3 il müddəti qoymaq mənim üçün hüquqi cəhətdən aydın deyil. Xahiş edirəm, ona bir aydınlıq gətirəsiniz.

Ancaq qeyd edirəm ki, bu məsələ çox vacib və Azərbaycan xalqının taleyüklü bir məsələsidir. Çünki biz bəzən unuda-unuda unudduluruq. Elə məsələlər var ki, bəzən onu unuduruq, diqqət yetirmirik. Unutqanlıq gələcəkdə bizim üçün çox acı bir nəticəyə gətirib çıxara bilər.

Burada əslən Gürcüstandan olan deputat yoldaşlarımız çıxış etdilər. Onlar o torpağın sakinləridir və oradakı məlumatları bizdən daha yaxşı bilirlər. Lakin Gürcüstan qonşu da olsa, bizim istər informasiya sahəsində, istərsə də başqa sahələrdə əlaqələrimiz çox zəifdir.

İndi danışırlar ki, yer adlarımız dəyişdirilir. Buna əhəmiyyət vermirik. Meşə adları, dağ adları, hamısı dəyişdirilir. Bu yerlər, bu torpaqlar haqqında tarixən danışmırıq. Hal-hazırda bu yerlərin adları Azərbaycan-türk toponimləridir. Qardaş deyə-deyə bunlar bu adları yavaş-yavaş dəyişirlər. Bir vaxt Ermənistanda da belə olmuşdu.

Bizim etinasızlığımızın və həmin məsələlərə dırnaqarası baxmağımızın nəticəsi idi ki, əvvəl yer adları dəyişdirildi, sonra torpaqların bir hissəsi, daha sonra bir hissəsi, ən nəhayət, Qərbi Azərbaycan torpaqları bütövlükdə əldən getdi.

Mən bir vətəndaş kimi deyirəm ki, biz belə məsələlərə çox diqqət yetirməliyik. Bu informasiya mübadiləsi heç də kiçik məsələ deyil. Müxalifət qəzetləri də, Gürcüstanda nəşr olunan qəzetlər də yazır ki, Saakaşvili getdi filan yerə, Acarıstanda filan məsələni yüksək həll etdi, dövlət məmurlarını belə dəyişdi, filan etdi. Soydaşlarımızın mənafeyi haqqında isə bizim qəzetlərdə heç bir şey yazılmır.

Gürcüstanı bizə nümunə göstərirlər. Bizim ölkəmizin varlığı da var, uğuru da var, müvəffəqiyyəti də. Heç nədə biz ətraf respublikalardan geridə deyilik, irəlidəyik. Əslinə baxsan, nümunəni onlar bizdən götürməlidirlər. Mənim məlumatlarım o qədər də dəqiq olmaya bilər. Gürcüstanda 700 minə yaxın azərbaycanlının yaşadığı haqqında ilkin informasiya vardır. İndi deyirlər ki, bunların sayı 500 minə yaxındır. Təsəvvür edin ki, oradan Azərbaycana axın başlasa, heç bunu yerləşdirmək mümkün olmaz.

Mayis müəllim də təhsil məsələsini dedi. Bu, strateji məsələdir. Burada qarşıya məqsəd qoyublar. Bir ana dilindən, bir də vətən tarixindən başqa qalan bütün dərslər qonşu respublikanın dövlət dilində tədris olunmalıdır. Belə şey olar? Biz bu haqda da fikirləşməliyik. Bu məsələlərə vaxtında reaksiya vermədiyimizə görə sonra başımıza döyməli oluruq.

Biz qardaş dövlətlərik, qonşu Gürcüstanla bizim aramızda lap qədimdən çox gözəl münasibətlər olub. Ancaq bu münasibətləri güzəştə gedə-gedə saxlamağın nə mənası var? Təklif edirəm ki, biz bu məsələni parlament səviyyəsində qaldıraq. Bu informasiya mübadiləsində həqiqəti yazmaq lazımdır. Azad mətbuat bu məsələlərə çox obyektiv münasibət

bildirməlidir. Ümumiyyətlə, mən bu sazişlərin hər ikisinin qəbul edilməsinin tərəfdarıyam. Ancaq dediyim məsələlər nəzərə alınmalıdır. Diqqətinizə görə sağ olun.

18 may 2004-cü il

Hörmətli sədr, hörmətli millət vəkilləri! Bir az bundan əvvəl biz komissiyanın sədri Əli müəllimin müfəssəl, ətraflı məruzəsini dinlədik. Doğrudan da, bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi çox zəruri bir məsələdir. Mən də bir millət vəkili kimi həmin əlavə və dəyişikliklərin edilməsinə səs verəcəyimi bildirirəm. Burada Mübariz müəllim «BBC» radiostansiyasının təxribat xarakterli yayımı ilə əlaqədar bir məsələ qaldırdı.

Əvvəla, mən qeyd edim ki, «BBC» 10 ilə yaxındır – 1995-ci ildə bağlanmış beynəlxalq müqaviləyə əsasən Azərbaycan ərazisində yayımlanır. Çox tanınmış şirkət olduğu üçün dünyanın əksər ölkələrində, o cümlədən də Azərbaycanda iki saat «Araz» proqramı ilə, bir saat Azərbaycan dilində, yarım saat rus dilində, yarım saat ingilis dilində yayımlanır. Üç dildə Azərbaycanda yayımlanır. Eyni zamanda, özəl teleradiolar, məsələn, «ANS» radiosu vasitəsi ilə də FM dalğasında yayımlanır. Bu radiostansiyaya əvvəl Yuri Qalıqoyski adlı bir nəfər rəhbərlik edirdi. Onunla biz dəfələrlə görüşmüşdük və həmişə biz bu radiostansiyanın fəaliyyətini diqqətdə və nəzarətdə saxlayırdıq.

Mübariz müəllim düz deyir, son dövrlər onlar verilişlərində çox təxribat, böhtan xarakterli müəyyən çıxışlar ediblər. Bu da orada erməni millətindən olan işçilərin fəaliyyətinin nəticəsidir. Ermənilik belə bir xəstəlikdir ki, hara düşürsə, oranı o dəqiqə yoluxdurmalıdır, öz məqsədlərinə müvafiq hərəkət etməlidir.

Biz bu radiostansiyanı həmin dəqiqə bağlaya bilmərik, beynəlxalq müqavilənin şərtləri var. Ona görə də biz oraya etiraz bəyanatı göndərmişik. Müqavilənin şərtlərinə görə xəbərdarlıq edilmədən həmin radiostansiyanı bağlamaq, yaxud da onun fəaliyyətinə xitam vermək düzgün deyil. Ona görə də biz oraya bəyanat vermişik, xəbərdarlıq məktubu göndərmişik, bir daha təkrar olunsa, biz həmin radiostansiyanın Azərbaycanda yayımını saxlayacağıq, yəni ona xitam verəcəyik. Milli Məclisin belə bir bəyanat göndərməsinə ehtiyac yoxdur. Bu bizim sahə fəaliyyəti ilə bağlı olduğuna görə, biz buna cavabdehik və qanunauyğun şəkildə də hərəkət edirik. Diqqətinizə görə sağ olun.

25 may 2004-cü il

Hörmətli sədr, hörmətli Milli Məclisin deputatları! Mən çox diqqətlə qulaq asıram. Bizim deputatların hamısı dilçi kimi fikir yürüdürlər, fikirlərində çox zaman hökm edirlər. Bir şeyi unutmaq lazım deyil ki, bu bir elmdir, elm sahəsidir. Onomastika elmi var. Toponimika da onun bölmələrindən biridir. Bu elm tarix, dilçilik və coğrafiya kimi üç böyük elmin kəsişmə nöqtəsidir. Yəni üç elmin birlikdə gəldiyi nəticələr onomastikanı, xüsusilə toponimikanı müəyyənləşdirir. Bu bir elm sahəsidir. Ona görə toponimika məsələlərini kimlərinsə təklifi ilə həll etmək olmaz. Kənddə adamlar yığışıb deyirlər ki, bizim kənddə bunu belə deyirlər, elə belə də deyək. Professor Ə.Dəmirçizadə 70 il ömür yaşadı, cəmi 50 sözün etimologiyasını verdi. Bu gün də o, mübahisəlidir. Bizim bir çox deputatlar hər sözə etimologiya verir – bu, filan şeydən əmələ gəlib, o, filan şeydən əmələ gəlib. Bunu tapmaq üçün camaat dissertasiya yazır, doktorluq işi müdafiə edir. Bəyəm bir-iki kəlmə ilə sən sözün kökünü

tapdın? Bu, əsrlərdən gələn söhbətlərdir. Belə məsələlərdə bir az ehtiyatlı olmaq lazımdır.

Zahid müəllim alimdir. Bu komissiyaya da gözəl rəhbərlik edir. Toponimika isə bu komissiyanın mütəxəssislərinin iştirakı ilə geniş müzakirə nəticəsində verilən hökm olmalı və yalnız ondan sonra gəlib bura çıxmalıdır. Mən bilirəm ki, elə belə də olur.

Ancaq burada mən bir dilçi kimi bir neçə məsələyə münasibət bildirmək istəyirəm. Əvvəla, Əli Bayramlı kəndi indi şəhərdir. Bu, inqilabçı Əli Bayramovun adınadır. İndi buradakı bir qəsəbənin adını təzədən Bayramlı qoymaqla, Əli adını atmaqla yeni ad olmadı ki. Bunu dəyişiriksə, bütövlükdə dəyişmək lazımdır. Yoxsa adını at, familiyasını saxla…

Elə qəsəbə bölgüsü. Burada akademik Cəlal Əliyev də dedi. Mən bunun üstündə xüsusi dayanmaq istəyirəm. Belə bir praktika yoxdur – 1-ci Qayıdış, 2-ci Qayıdış, 3-cü Qayıdış. Əvvəla, bu nə qayıdışdır, hara qayıdışdır? Bunlar qayıdış deyil, bunlar, əksinə, torpaqdan məcburi köçkünlərdir, gəlib burada məskunlaşıblar. Bunlar qayıtmayıblar ki, bunlar gediblər. Qayıdış bunlar öz yerlərinə qayıdanda olacaq. Bunları nömrələmək də düzgün deyil. Nəyi nömrələyərlər? Stolu nömrələyərlər. Ona görə də son vaxtlar biz «nömrəli» əvəzinə «saylı» sözünü işlədirik. Filan saylı məktəb və s. Bu «nömrəli» sözünü yığışdırmaq lazımdır.

Malakan kəndləri var – İvanovka, Saratovka, Aleksandrovka, Xersonovka. Bu adların hamısı, əlbəttə, dəyişilməlidir.

Azərbaycanda, xüsusilə türk dünyasında hər yerin öz adı var – dağın da, dərənin də, meşənin də, çəmənin də, suyun da. O yerlərdə adların əksəriyyəti türk mənşəli toponimlərdir. Onun əslini, kökünü axtarıb, tapıb, bərpa etmək lazımdır.

Burada bir neçə məsələyə də mən fikir bildirmək

istəyirəm. Yer adlarında gülməli dəyişmələr gedir. Əvvəla, bunun heç bir elmi əsası yoxdur. Burada onu dedilər. Bağban kəndinin Bağman olmağı. «B»nın əvəzinə «m» yazmaqla nə olur? Əslinə baxsan, Bağbandır, Bağban da qalmalıdır. Qarıs Əyribənd kəndi. Bunu "Qorus" sözü ilə əlaqələndirirlər. Bu, əlbəttə, elmi təhqiqatın işidir. Ona görə buna da ehtiyac yoxdur. Rizvan müəllim də etiraz etdi. Rizvan müəllim çox yaxşı ədəbiyyatçıdır. Ədəbiyyat fakültəsini bitirmiş adamdır, gözəl jurnalistdir. Bu «bey» sözü nədir axı? Bəydir də. Bəyə elə bəy deyərlər də. Ona görə «bəy» sözünü təhrif etmək lazım deyil. Komissiya çox düzgün edib, onu bəy kimi də saxlayıbdır.

Qovlar kəndi. Qovlar türk toponimidir. Bunu hamı bilir. Ona görə də Qovlar elə Qovlar qalmalıdır. Bunu rus tələffüzünə salmağa, Kovlar etməyə heç bir ehtiyac yoxdur. Bala Haşımxanlı. Bu adamın adı Haşımdır. Haşımı edirlər Həşim. Bundan ötrü ad dəyişməyə elə bir ehtiyac yoxdur.

Biz bəzən kəndlərin adlarını dəyişir, onlara Nizami, Füzuli, Xətai kimi klassiklərimizin adlarını qoyuruq. Bu heç bir vətənpərvərliyə uyğun şey deyil. Orcenikidzeni dəyiş, Nərimanov qoy. Bir azdan ona təzədən ad qoy. Bu kəndin adı olub. Nərimanov sonradan çıxıbdır. Bu kənd isə bəlkə 100 illərdir yaşayır. Öz adını bərpa etmək lazımdır ki, bunlar əbədi, daimi qalsın. Bizim klassiklərin adını ayrı yerə verək. İnstituta verək, məktəbə verək, böyük bir elmi tədqiqat müəssisəsinə verək. Yazıçılar İttifaqının təklifi ilə kitabxanaya verək. Ancaq kəndə, şəhərə bu yazıçıların adını sıraya düzməyin nə mənası var?

Bəzən biz çox demokratik danışırıq ki, yox, bunu saxlayaq. Birdən malakan millətinin acığına gələr. Əşi, bizim adımızı da dəyişiblər, yerimizi də dəyişiblər, yurdumuzu da dəyişiblər. Ermənistanda, Qərbi Azərbaycanda bütün

torpaqlarımızın adlarını dəyişiblər. İndi Gürcüstanda başlayıblar silsilə adları dəyişirlər, bəlkə də dəyişib qurtarıblar. Heç biz onlara söz demirik. Biz özümüz olmuşuq demokrat. Bu cür beynəlmiləlçilik heç kimə lazım deyil. Diqqətinizə görə sağ olun.

3 sentyabr 2004-cü il

Hörmətli sədr, hörmətli millət vəkilləri! Doğrudan da, «Hərbi xidmətkeçmə haqqında» Əsasnaməyə əlavələr və dəyişikliklər edilməsi çox yerindədir. Deyərdim ki, hüquqi dövlətlərin hamısında ehtiyata buraxılmış, hərbi xidməti normal keçmiş adamlara güzəştlər şəklində təminat həyata keçirilir.

Mənim yadımdadır ki, SSRİ vaxtında normal hərbi xidmət keçmiş zabiti SSRİ-nin istənilən şəhərində evlə təmin edirdilər. Azərbaycanlıdırsa, əgər Kamçatkada ev istəyirdisə, orada ona ev verirdilər. Türkiyədə, inkişaf etmiş dövlətlərin hər birində belədir. Hərbi xidmət keçmiş, yaxud istefaya buraxılmış zabitlərə qayğı və diqqət göstərilir. O baxımdan mən «Hərbi xidmətkeçmə haqqında» Əsasnaməyə bu cür əlavə və dəyişiklik edilməsinin tam tərəfdarıyam.

Əsasnamədə, burada da deyildi, bir məsələ öz əksini dəqiq tapmalıdır. Mən ali məktəbdə işlədiyim dövrdə də belə olurdu. Ali məktəbi qurtarıb, magistraturaya daxil olmaq istəyənə qəti imkan vermirlər ki, imtahanını versin, nəticəsini aparsın təqdim etsin. Yaxud da, aspiranturaya imtahan verməlidir, ona kağız verirlər ki, imtahan verəcək, onlar buna da imkan vermirlər.

Əsasnamədə öz əksini tapmalıdır ki, istər magistraturaya, istərsə də aspiranturaya qəbul müddətində gənclər hərbi xidmətə çağırılmamalıdırlar. İmtahanın nəticəsindən

asılı olaraq hər bir gənc magistraturaya daxil olursa, deməli, qanun var, o aparılmamalıdır. Yaxud, aspiranturaya daxil olmursa, təbii ki, bir ay gec, bir ay tez olsun, onu aparmalıdırlar. Ondan da bəzən alver məqsədi ilə istifadə edirlər. Deyirlər, görək də, bəlkə apardıq, bəlkə aparmadıq. Qanunda «bəlkə» olmamalıdır. Qanunda hökm verilməlidir. Olar, ya olmaz. Bu bir.

İkinci bir tərəfdən bu məsələni bəzən tamamilə yıxırıq bələdiyyələrin üzərinə. Burada təkcə bələdiyyələr yox, dövlət də olmalıdır. Yazılmalıdır ki, dövlət və bələdiyyə təşkilatları tərəfindən hökmən ev, yaxud torpaq sahəsi ilə təmin olunmalıdır.

Əsasnamədə bir məsələyə də çox ciddi diqqət yetirilməlidir. 35 yaşına qədər adamları hərbi xidmətə çağırmaq olar? 35 yaşında adam gəncliyin mərhələsini adlayıb. O yaşda adam əsgərliyə gedəndən sonra 17-18 yaşlı əsgərlərlə necə davrana bilər? Necə onunla bir yerdə yata, dura, sıravi əsgərlik edə bilər? Bu, əslində, heç ağlasığan söhbət deyil. Onlar az qala onların atası yaşındadırlar. 35 yaşında adam 17 yaşında evlənsə, 17 yaşında oğlu olar. Bu baxımdan mən belə təklif edirəm ki, gələcəkdə, bu məsələyə bir daha diqqət edək. 27 yaş idi, heç olmasa, qaldırsınlar 30 yaş etsinlər. Əsasnamədə bu qaydada dəyişikliklər daha demokratik olardı. Diqqətinizə görə sağ olun.

* * *

Hörmətli Ziyafət müəllim, hörmətli Milli Məclisin deputatları! Hər dəfə bu məsələlər Milli Məclisin müzakirəsinə çıxarılanda bəzi mübahisələr yaranır. Çox yaxşıdır ki, müstəqillik dövründə bəzi kənd və şəhər adlarında müvafiq və məqsədəuyğun dəyişikliklər edilir. Bəzən bu

dəyişikliklərdə bir az iftira da vardır. İndi mən bəzi məsələləri diqqətinizə çatdıracağam.

Əvvəla, bu dəyişikliklər lazımlıdır, amma bunun tərtibatı düzgün verilməyibdir. Yazılır ki, «Şəhər və rayon icra hakimiyyətləri tərəfindən daxil olmuş vəsatətlərdə göstərilmiş bəzi ərazi vahidlərinin Azərbaycan Respublikasının SSRİ-nin tərkibində olduğu dövrlərdə rus dilindən tərcümə olunarkən təhrif olunmuş tarixi, coğrafi adlarının dəqiqləşdirilməsi». Sənəddə 6 dəyişiklik edilib, bunun biri ancaq rus dili tələffüzünə uyğundur. O da burada Oryat kəndinin Öyrət adlandırılmasıdır. Ola bilər ki, bunu rus tələffüzü ilə adlandırıldığına görə ediblər.

Cumay kəndinin Cumakənd olmasının isə rus dilinə qəti dəxli yoxdur. Kosalı kəndinin Kosalı Zəyzid, Qırxbulaq kəndinin Qırxbulaq Zəyzid, Dərəcənnətli kəndinin Dərəcənnət kəndi adlandırılması da onun kimi. Sonuncu dəyişiklikdə bir «li» şəkilçisini götürüb, qalanını saxlayıblar. Bunun rus dilinə nə dəxli var? Burada Çayqaraqoyunlu kəndinin bitişik yazılması, bilmirəm, hansı ehtiyacdan əmələ gəlir?

Cumay kəndi dedik ki, Cumakənd adlandırılıb. Ora Aşıq Cumanın adı verilib. O, görünür, bu kənddə anadan olubdur.

Azərbaycanda belə adlar çoxdur. Filankənd kəndi. Onu, ümumiyyətlə, bir az qısaltmaq lazımdır. Nəyə görə? Əvvəla, daha yaxşı olar ki, adlar tələffüzdə iki sözdən artıq olmasın. Eyni sözlərin təkrarı tələffüzdə çətinlik yaradır. Dil də həmişə qısaya qaçır, ona görə də belə təkrarlar o qədər də əhəmiyyətli deyil.

Sonra, burada Kosalı kəndinin Kosalı Zəyzid kəndi adlandırılması nədən doğubdur, mən bunu bilmirəm. Çünki orada Orta Zəyzid kənd inzibati ərazisi var. Qırxbulaq kəndinin Qırxbulaq Zəyzid adlandırılmasının nə mənası var? Dərəcənnətli kəndi olar, çünki orada «li», doğrudan da, ağırlıq edir.

Çayqaraqoyunlu kəndi barədə fikrim belədir. Qaraqoyunlu, təbii ki, vaxtilə Azərbaycan dövlətinin adı olubdur. Ona görə də bu, Çayqaraqoyunlu kəndi ola bilər. Qaraqoyunlu kəndi var, oradan çay axdığına görə buna deyirlər: «Çayqaraqoyunlu». Yəni belə ola bilər. Məsələn, bizdə də belə idi. Şahbuz var, bir də var ki, Çayşahbuz. Çünki oradan çay axır, ona görə həmin yaşayış məntəqəsini belə adlandırmaq münasibdir.

Mən nəyi təklif edirəm? Bu, bir vurğu, bir də bitişik, yoxsa ayrı yazılmaqla bağlıdır. Elə bir prinsipial məsələ deyil ki, onu qərar kimi qəbul edək. Tərcümə söhbəti buradan çıxarılmalıdır. Bərpa olunması konsepsiyası da doğru deyildir. Bunların hamısı bərpa olunmur. Eləsi var ki, əlavə olunur, eləsi var, dəyişdirilir. Yəni bu layihədə verilən «rus dilindən tərcümə olunarkən təhrif olunmaq» və «bərpa olunmaq» sözləri çıxarılmalıdır. Yəni bunlar bütövlükdə bu mətnə aid olan sözlər deyil. Diqqətinizə görə sağ olun.

17 sentyabr 2004-cü il

Hörmətli Arif müəllim, hörmətli millət vəkilləri! Artıq 4-cü ilə yaxınlaşır ki, biz bu qanun layihəsini müxtəlif şəkildə müzakirə edirik. İndi mükəmməl bir layihə ortaya qoyulmuşdur. Mən işçi qrupuna, onun rəhbəri Rizvan müəllimə öz təşəkkürümü bildirirəm ki, çox mükəmməl, Avropa standartları səviyyəsində bir layihəni hazırlayıb. Müzakirənin də gedişi göstərir ki, bu gün layihə bəyəniləcək və səsvermə yolu ilə qəbul ediləcəkdir.

Mən kiçik bir məsələyə toxunmaq istəyirəm. İstər dövlət televiziyası olsun, istər ictimai televiziya, istərsə də özəl televiziya, onların hər biri üçün ortaq olan 3 prinsip var. Televiziya məlumatlandırır və informasiya verir, televiziya

maarifləndirir, televiziya əyləndirir. Onların yerinə yetirilmə səviyyəsinə görə televiziyanın auditoriyası müəyyənləşir və onun işinə qiymət verilir.

Mən burada bir məsələyə də diqqət yetirmək istəyirəm. Dünya təcrübəsi göstərir ki, ictimai televiziya demokratik dəyərlərin inkişafında, xüsusən fikir plüralizminin genişlənməsində həlledici rol oynayır. Təəssüf ki, bizdə bir çoxları bildiyini və bilmədiyini danışmaqla bütövlükdə ictimai televiziya ideyası üzərinə kölgə salmaq istəyirlər. Ən pisi odur ki, bəziləri ictimai və dövlət televiziyalarının bir-birinə zidd, antaqonist mövqedə dayanmaları fikrini cəmiyyətə təlqin etməyə çalışırlar. Tam məsuliyyətlə deyirəm ki, konseptual cəhətdən bu fikirlər yanlışdır.

Dünya təcrübəsi göstərir ki, yayım formasına, həmçinin ictimai məqsədlərinə görə bu televiziyalar nəinki bir-birilərini inkar edir, hətta biri digərini tamamlayır. Mən buna parlaq nümunə kimi Rusiyanın təcrübəsini göstərmək istərdim. 90-cı illərin əvvəllərində «ORT» ictimai televiziya kimi formalaşdırıldı. Lakin Rusiya hökuməti belə hesab etdi ki, o, dövlət televiziyası olmadan ötüşməyəcək. Ona görə də indi Rusiyada yüzlərlə müstəqil televiziya ilə yanaşı, həm ictimai, həm də dövlət televiziyası uğurla fəaliyyət göstərir. Mən istərdim ki, millət vəkilləri və televiziyanın problemləri ilə məşğul olan mütəxəssislər bu kimi faktlara diqqət yetirsinlər.

Bəzən belə fikirlər səslənir ki, guya Avropa Şurasının üzvü olan ölkələrin bir çoxunda dövlət televiziyası yoxdur. Əslində isə belə televiziyalar var və onlar İspaniyada, İtaliyada, Finlandiyada, Rusiyada, Türkiyədə, Ukraynada, Belarusda, Moldovada və s. dövlətlərdə heç bir maneə olmadan tamaşaçılara maraqlı proqramlar təklif edirlər.

Hörmətli millət vəkilləri, hörmətli sədr. Biz bu yaxınlarda Avropa Şurasının ekspertləri ilə dövlət televiziyasında görüşdük. Onlar Amerika standartlarını bəyənmirlər. Amerikalılar da

Avropa standartlarını bəyənmirlər. Fransa, Almaniya, İtaliya və s. kimi ölkələrdə vahid standartdan söhbət gedə bilməz. Hər birində televiziya ölkənin öz şəraitinə, öz qanunlarına, öz milli mənəvi dəyərlərinə uyğun şəkildə qurulubdur. Biz Avropaya təzə daxil olmuşuq, birdən-birə bütün Avropa standartlarını yığıb bizim qanunda cəmləşdirməli deyilik ki. Bu mənada Rizvan müəllim çox ətraflı və dolğun məlumat verdi. Belə yanaşma çox zaman bizi yanlışlığa gətirib çıxara bilər.

Avropa Şurası bizə tövsiyələr verir, biz də həmin tövsiyələr əsasında öz milli dəyərlərimizə uyğun qanun layihəsi hazırlayırıq və müzakirə edirik. Avropa ekspertləri də bizim layihəyə müəyyən təkliflərini verirlər, biz yenə ona baxırıq və yenə onlardan milli dəyərlərimizə uyğun olanlarını qəbul edirik. Təbii ki, bu, fikir plüralizmidir. Hökmən onlar nə deyirsə, biz onu qəbul etməli deyilik ki.

Bizim bəzi müxalifət nümayəndələri qəribə mövqe tutublar. Hər şeyi dağıtmaq, hər şeyi uçurtmaq, yenidən qurmaq, köhnənin külünü göyə sovurmaq. Köhnənin əsasında biz yeni bir şey qurmalıyıq. Bunun üçün isə hökmən baza olmalıdır. Mən bir dəfə də demişəm, Avropa standartları bizə lazımdır. Çünki biz Avropa Şurasına daxil olmuşuq, gələcəkdə Avropa İttifaqlarına daxil olacağıq. Amma bütün göstərişləri biz tutuquşu kimi qəbul etməməliyik ki.

Hər ölkənin milli dəyərləri var. İstər müxalifətin, istərsə də iqtidarın milli dəyərlər məsələsində fikri eyni olmalıdır. Ölkənin milli varlığını hər bir vətəndaş müxalifətsiz, iqtidarsız qəbul etməlidir. Müxalifətdə də, iqtidarda da çox dəyərli təklifləri olan insanlar var. Onların fikirlərinə hörmət etmək lazımdır. Ancaq «Avropa Şurası dedi, qurtardı» fikri düz deyil. Demokratiya şəraitində bu prinsiplə işləmək düzgün deyil. Diqqətinizə görə sağ olun.

28 sentyabr 2004-cü il

Hörmətli sədr, hörmətli millət vəkilləri! Təməli 2003-cü ildə ümummilli liderimiz möhtərəm Heydər Əliyev tərəfindən qoyulmuş büdcə vergi siyasətinin əsas istiqamətləri ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən daha da təkmilləşdirilməklə beynəlxalq standartlara yaxınlaşdırılmış, ölkənin əsas maliyyə təminatı olan dövlət büdcəsi, həqiqətən, insanların iqtisadi və mənəvi tələbatının ildən-ilə dolğun təminatının qarantına çevrilməyə başlamışdır. Bu gün müzakirə etdiyimiz 2005-ci il ölkənin sosial-iqtisadi inkişaf konsepsiyası və proqnoz göstəriciləri, dövlət büdcəsinin göstəriciləri buna əsaslı təminat verir.

Ölkənin makroiqtisadi göstəricilərinə nəzər salsaq, görərik ki, ümumi daxili məhsulun artım surəti keçmiş postsovet məkanında olan bir sıra inkişaf etmiş Avropa dövlətlərinin göstəricilərinin artım sürətindən qat-qat çoxdur. Ümumi daxili məhsulun tərkibində qeyri-neft sektorunun xüsusi çəkisi ildən-ilə neft sektorunun xüsusi çəkisini üstələyir, adambaşına düşən ümumi daxili məhsulun artım sürəti 2004-cü ilə nisbətən 3,7 bənd çox nəzərdə tutulur. Bütün maliyyə mənbələri hesabına iqtisadiyyata 2004-cü ilə nisbətən 74,1 milyon dollar çox investisiya cəlb ediləcək. Pərakəndə əmtəə dövriyyəsi 9,4 faiz çox olacaqdır. Ölkədə daxili istehsalın böyük vüsət alması, sahibkarlığın inkişafı əhalinin bir sıra mallara olan tələbatının daxili istehsal hesabına ödənilməsinə, hətta bir sıra məhsulların ixracına imkan verəcəkdir. Buna bariz nümunə kimi 2005-ci ildə ticarət dövriyyəsində ixracın idxala nisbətən 916 milyon ABŞ dolları çox olacağını göstərmək olar.

Mən 2005-ci il dövlət büdcəsinin əsas istiqamətlərini,

onun gəlirlərinin formalaşması mənbələrini, xərclərinin təyinatını, kəsirinin maliyyələşmə mənbələrini çox diqqətlə öyrənməyə çalışdım. Büdcə göstəriciləri möhtərəm Prezident cənab İlham Əliyevin iqtisadi platformasının bir illik dövrünü bizə çox dolğun və ətraflı əks etdirir. Mən belə təkmil və dolğun büdcə layihəsinə görə ölkə Prezidentinə, Baş nazirə, Maliyyə Nazirliyinə, Dövlət Gömrük Komitəsinə, Vergilər Nazirliyinə və digər icra strukturlarına dərin minnətdarlığımı bildirirəm.

Dəyərləndirici hal odur ki, ildən-ilə büdcə proqnozlaşmasında beynəlxalq prinsiplərin tətbiqinə üstünlük verilir ki, bu da dövlətin iqtisadi strategiyasına insanların inamını artırır, əhali çəkinmədən və qorxmadan gəlirlərinin artıq hissəsini ölkənin daxili istehsalına, ehtiyatların yaradılmasına yönəldir, o cümlədən əmanət şəklində banklarda yerləşdirir.

Bir ildə Dövlət Sosial Müdafiə Fondunda ayırma faizinin birdən-birə 5 bənd azalması ölkənin dövlət və qeyri-dövlət sektorunda 300-400 milyard vəsaitin sərbəstləşərək iqtisadiyyatın digər sferalarına cəlb edilməsinə imkan verəcəkdir. Bu tədbir Dövlət Sosial Müdafiə Fonduna ayırmaların nəinki azalmasına səbəb olmayacaq, əksinə, 25,8 faiz artımına gətirib çıxaracaqdır.

Mən əminəm ki, 2005-ci ildə dövlət büdcəsinin gəlirləri üzrə nəzərdə tutulmuş 25,3 faiz artım tempi realdır, həm də əminəm ki, gələn ilin ortalarında, bu il olduğu kimi, müvafiq orqanların səyi nəticəsində əlavə mənbələr tapılmaqla dövlət büdcəsinin gəlirlərinin yenidən artırılmasına nail olunacaqdır.

Dövlət büdcəsinin xərclərinə gəldikdə isə qeyd etmək istəyirəm ki, bu büdcə layihəsində dövlətin əsas vəzifə və funksiyalarının yerinə yetirilməsi üçün lazım olan maliyyə

təminatı öz əksini tapmışdır. Çox müsbət haldır ki, büdcədə əsaslı xərclərin artım sürəti digər xərclərin artım sürətini qat-qat üstələməklə büdcənin orta artım sürətində nə az, nə də çox, 24,5 bənd çox olacaqdır. Son illərdə ilk dəfədir ki, bizim büdcənin sosial yönümlüyü üzrə xüsusi çəkisi 1,3 bənd aşağı düşərək bu qədər istehlak funksiyasını istehsal və investisiya funksiyalarına vermişdir. Mən təqdim olunmuş büdcə göstəricilərinə istinadən bir daha qeyd etmək istərdim ki, ölkənin büdcəsi ildən-ilə təkmilləşir və ən əsası da odur ki, bu büdcə 1990-cı illərdə olduğu kimi, ayrı-ayrı məmurların, dövlətin rəhbərliyində oturanların şəxsi maraq prinsiplərinə və onların maraqlarına xidmət üçün deyil, müstəqil Azərbaycanımızın çiçəklənməsinə, əhalinin maddi rifah halının yaxşılaşmasına, əsasən də əhalinin aztəminatlı təbəqəsinin güzəranının yaxşılaşmasına xidmət prizmasından hazırlanmışdır.

Mən burada bəzi çıxışları dinlədim. Ünvansız, ümumi, bəzi cümlələrlə… büdcə belə məsələdir ki, konkret rəqəmlərlə görülən işləri demək lazımdır və hansı çatışmazlıqlar varsa, onu təklif şəklində irəli sürmək lazımdır. Mən öz sahəmə aid olan söhbəti deyirəm. Burada səsləndi ki, televiziyada mənəviyyatı pozan verilişlər verirlər. Azərbaycanda 6 televiziya fəaliyyət göstərir. Hansı televiziyada? Ünvanını demək lazımdır. Bu mənəviyyatı pozmaq nədir? Hamının, o danışanın özünün də arxayınlıqla oturub ailəlikcə baxdığı televiziya Azərbaycan Dövlət Televiziyasıdır. Ailəsi ilə ancaq ona baxırlar. Mən demirəm, bunu xüsusi qeyd etsin. Ancaq, heç olmasa, desin bəziləri.

Azərbaycan Prezidenti möhtərəm İlham Əliyevin bu büdcənin formalaşmasındakı xidməti, seçildiyi bir il müddətində gördüyü fəaliyyət göz qabağındadır. O,

Azərbaycanın ucqar rayonlarına da gedir. İndi də Cənub zonasına səfər edib. O, hər bir kəndə getməli deyil ki. Seçildiyi müddət bir ildir. Lazım olanda lap kəndə də gedəcək, baxacaq da. Əvvəl yaxşı işləri demək lazımdır. Yəni demək istəyirəm, ümumiləşmiş məsələlərdən danışmaq lazımdır.

Burada hörmətli Səttar müəllim büdcə kəsirinin maliyyələşdirilməsi istiqamətinin açıqlanmasını tövsiyə edir. Bu mənim də fikrimlə üst-üstə düşdüyünə görə həmin məsələni aydınlaşdırmağa çalışdım və həqiqətən də, sonra çox müsbət nəticələrə gəldim. Bəli, 2005-ci il dövlət büdcəsini kəsirsiz proqnozlaşdırmaq mümkündür. Lakin mən reallığı qeyd etmək istəyirəm. Bu gün iqtisadiyyata çox güzəştli şərtlərlə xarici kreditlərin cəlb edilməsi üçün büdcənin kəsirlə proqnozlaşdırılmasına ehtiyac vardır.

Hörmətli həmkarlarım, vaxtın darlığını nəzərə alaraq, ölkənin növbəti il üçün müəyyən edilmiş sosial-iqtisadi inkişaf konsepsiyası və proqnoz göstəriciləri, dövlət büdcəsi layihəsinin müsbət parametrləri haqqında öz fikirlərimin hamısını diqqətinizə çatdıra bilmədim. Bütün bunlarla yanaşı, gələcəkdə ölkənin sosial-iqtisadi inkişaf konsepsiyası və büdcə layihələrinin daha düzgün və effektli tərtibi üçün aşağıdakı bəzi problemlərin həllini məqsədəuyğun hesab edirəm.

İqtisadiyyatda dövlət sektorunun xüsusi çəkisinin üstünlük təşkil etdiyini nəzərə alaraq onun iqtisadi effektliliyinin daha da artırılmasına ehtiyac duyuram. Sosial sferaya aid olan bir sıra sahələrdə, o cümlədən elm, təhsil, səhiyyə, mədəniyyət və s. sahələrdə islahatların dərinləşdirilməsi, ayrı-ayrı sosial obyektlərin özəlləşməyə getməsi üçün bu orqanların icra strukturları tərəfindən məqsədyönlü işlərin sürətləndirilməsinin vaxtı çatmışdır.

Büdcə vəsaiti təşkilatlar arasında onların ictimai faydalılığı və göstərdikləri xidmətlərin keyfiyyəti nəzərə alınmaqla, əsasən, məqsədli proqramlara uyğun olaraq bölüşdürülür. Təklif edirəm ki, pensiyaların, aztəminatlı ailələrin sosial vəziyyətinin yaxşılaşdırılması məqsədilə pensiyaya əlavə olunan müavinətlərin ünvanlılığının artırılması, uşaq müavinətləri üzrə sosial yardım sisteminin tətbiqinin sürətləndirilməsi, yanacaq, energetika sahəsində yığımın səviyyəsinin ciddi surətdə artırılması, yeni borcların yaranmasının qarşısının alınması, həmin sektora dövlət büdcəsindən verilən dolayı subsidiyaların həcminin azaldılması vacibdir.

9 noyabr 2004-cü il

Bu gün yenə Heydər Əliyev fenomenindən danışırıq, Heydər Əliyev bənzərsizliyindən söhbət açırıq. İnsanlar var ki, onu bir müddət ağızlarda dolaşan nəğmələrə bənzədirlər, az sonra bu nəğmə unudulur. Dahilərin adı isə hər zaman dillərdə olur. O da dahi idi və bütün dövrlərin dahisi olaraq qalacaq.

Bu siyasət nəhənginin heç bir təbliğat təntənələrinə ehtiyacı olmasa da, biz dönə-dönə ona qayıdacağıq. O səbəbdən ki, özümüzün ona ehtiyacımız vardır. O, 34 illik rəhbərliyi dövründə, ən ağır vaxtlarda, ən çətin məqamlarında belə vətənimizi təklənməyə, dağılmağa, parçalanmağa qoymadı. İndi bütün dünyadan səsi, sözü eşidilən, ən super dövlətlərin belə hesablaşdığı Azərbaycan bu fenomenal şəxsiyyətin ən parlaq əsəridir.

Ümummilli liderimizin fiziki yoxluğunu mən də böyük ürək ağrısı və yanğı ilə yaşayıram. Çünki o, bütövlükdə Azərbaycanın, bütün türk dünyasının itkisidir. Amma bu,

cismani yoxluqdur. O, ölməzdir, bizimlədir. Nə qədər ki, Azərbaycan adlı məmləkət var, o da var olacaq və hər zaman insanlara doğru yol göstərəcək. Unutmayaq ki, yaşarı dünyasından sonra xalqın yaddaşında qalmaq hər kəsə qismət olmur. Xalq yalnız sevdiklərini yadda saxlayır və yaşadır. Heydər Əliyev misilsiz xidmətlərinə görə, hər zaman doğulub böyüdüyü torpaq üçün, xalqı, milləti üçün, Azərbaycan üçün müqəddəslər müqəddəsi olaraq qalacaq. Bu sevgi onun halal haqqıdır.

İllər keçəcək, əsrlər dəyişəcək, amma bir fakt faktlılığında qalacaq: dünyanın Atilla, Atatürk, Corc Vaşinqton, Şarl De Qol, Bismark, Ruzvelt kimi siyasi liderləri sırasına Azərbaycan XX əsrdə Heydər Əliyev kimi dahini bəxş etdi. Bu, xalqımızın xoşbəxtliyidir. Heydər Əliyev sağlığında hər zaman zirvədə oldu və ölümündən sonra da zirvədədir. Onun ruhu da o zirvədən canı qədər sevdiyi, «Həyatımın qalan hissəsini də xalqıma bağışlayıram» dediyi Azərbaycan xalqına duaçıdır.

Mən xalqımızın dahi xilaskarı möhtərəm Heydər Əliyevin ruhu qarşısında baş əyir və deyirəm: böyük öndər, ruhun şad olsun! Azərbaycan ləyaqətli övladınız Prezident İlham Əliyevin rəhbərliyi ilə sabaha doğru inamla, uğurla irəliləyir, arxayın ola bilərsiniz. Allah sizə rəhmət eləsin.

10 dekabr 2004-cü il

Hörmətli sədr, hörmətli millət vəkilləri! Mən danışmaya da bilərdim. Çünki məndən əvvəl çıxış edən yoldaşlar bu məsələ ilə əlaqədar çox konkret, aydın fikir irəli sürdülər. Ancaq mən nəyə görə çıxış edirəm? Bir məsələ məni təəccübləndirir. Əvvəla, bütün demokratik dünyanın təcrübəsini biz ümumiləşdirib Azərbaycan mühitinə tətbiq

edirik. İstər-istəməz burada müxalifət, iqtidar və başqa yönümlü nümayəndələrin çıxışları, danışıqları gərək bir qədər nümunəvi, düşünülmüş olsun.

Hüquqşünas həmkarımın danışığı məni razı salmadı. Qulamhüseyn müəllim yaxşı hüquqşünas, yaxşı millət vəkilidir. Burada bir çox məsələlərdə həmişə bir hüquqşünas kimi gözəl təkliflər verir. O, çıxışının əvvəlində dedi ki, Prezident partiyanın sədri ola da bilər, olmaya da bilər. Yaxşı olar ki, bizdə olmasın. Niyə? Bütün Avropada, Amerikada, sivil dövlətlərin hamısında ola bilir, bizdə olmur? Demokratiyanın mühüm şərtlərindən biri də budursa, niyə bizdə olmaya bilər ki? Demək istəyirəm ki, nədənsə nəyi isə axtarıb tapmaq heç ağlasığan söhbət deyil.

Azərbaycan Respublikası dünya dövlətləri içərisində çəkisi, dəyəri olan bir ölkədir. Onun Prezidenti də çox nüfuzlu bir şəxsiyyətdir, bütün xarici dövlətlər də bu həqiqəti qəbul edir. Hamısı ilə ünsiyyətə girməyi, hamısı ilə polemikada olmağı, hamısı ilə müəyyən münasibətləri qurmağı bacaran Prezidentdir. Nə üçün partiyanın sədri o olmamalıdır? Burada misal çəkdilər ki, cəbhə vaxtı belə olub. Onu özləri də bilirlər ki, belə olub və dünyada da belədir. Yəni mənə çox təəccüblü gəlir ki, o şey ki gün kimi aydındır, buna nəyə görə şəkk etməyi özlərinə rəva bilirlər? Qanun layihəsi çox mükəmməl hazırlanıbdır, çox düzgündür və mən onun səsə qoyulmasını təklif edirəm.

15 aprel 2005-ci il

Hörmətli sədr, hörmətli millət vəkilləri! Mən Zahid müəllimi dinlədim və Lerik rayonunun inzibati ərazi bölgüsündəki dəyişikliklərlə diqqətlə tanış oldum. Budaq müəllimin burada iştirakından istifadə edib bir məsələyə

aydınlıq gətirmək istəyirəm. Əvvəla, bir şey xoşbəxtlikdir ki, «qismən dəyişiklik edilməsi» yazıblar. Müəyyən bir dəyişmə həddi olmalıdır. İndi söhbət oldu ki, sözün əsli, kökü talış dilindədir. Buna heç kim etiraz etmir. Xalqın, o torpağın taleyidir, onu qorumalıdırlar. O torpağa hörmət əlaməti olaraq tarixi adlar da yaşayır və yaşamalıdır. Ancaq bu dəyişikliklər çox qəribədir. Məsələn, diqqətlə fikir verin. Sinəbənd kəndi Sinəbənd kəndi adlandırılsın. Əvvəla, Azərbaycan dilində ahəng qanunu var. Sinəbənd sözündə incə saitlər bir-birini izləyir və asanlıqla tələffüz olunur. «Ə»-ni «a» etməklə nə alırlar? Sinəbənd. Bunu heç demək olur ki? Sinəbənd də qalmalıdır. Bu, xalq arasında da belə işlədilir. Heç kim özünü məcbur edib incə saitdən sonra qalın saiti tələffüz etməz. Çünki dil həmişə çətindən qaçır.

İkinci, Camanşəir kəndinin adını dəyişib Camaşair ediblər. Mən inanmıram ki, dilçilik, tarix, yaxud da coğrafi baxımdan nə isə bir yenilik əmələ gəlib. «Şəir»i «şair» etməklə kənd şair kəndi olmur. Hilədərə kəndinin adını dəyişib Hiledərə ediblər. Hilədərə ahəng qanununa daha uyğundur. Onu Hiledərə edəndə məgər dil, söz dəyişir? Əksinə, bir az da tələffüz çətinləşir. Sonra, yazılır ki, Çoqara kəndi Çökərə kəndi adlandırılsın. Qosmalyan kəndi Qosmalian kəndi adlandırılsın. Burada nə kəşf ediblər ki? Eyni adı bir də təkrar ediblər. Ola bilsin, bu, texniki, orfoqrafik səhvdir. Yaxud da yazılır ki, Qosmalyan kənd inzibati ərazi dairəsi Qosmalian kənd inzibati ərazi dairəsi adlandırılsın. Bu nə kəşfdir, bilmirəm. Heç bir əhəmiyyəti olmayan dəyişiklik edib bu qədər maliyyə xərci çəkməyə heç bir ehtiyac yoxdur.

Pirəsora kəndi Pirzora kəndi adlandırılır. Əgər bu, mənalı vahiddirsə, etiraz etmirəm. Dili bilənlər, toponimiya haqqında məlumatı olanlar dedilər ki, bunlar talış, fars və

başqa dildə mənalı vahidlər deyillər. Ola bilsin ki, bir çoxu mənalıdır. Lakin burada adı çəkilənlər mənalı vahidlər deyil. Mənalı vahiddirsə, dəyişək, deyilsə, dəyişməyək.

Yaxud da Nücü kənd inzibati ərazi dairəsi tərkibindəki Davidonu kəndi Davidonu kəndi adlandırılsın. Bu ona oxşayır deyəsən ki, stol stol adlandırılsın. Stol stoldur da. Yaxud da yazılır ki, Nuravud kəndi Nuravud kəndi adlandırılsın. Belə uyğunsuzluqlar var.

Osyedərə kəndi Osyodərə adlandırılır. «E»-ni «o» ediblər. Bu haqda məlumatı olanlar desinlər, burada fərq nədir? Məna dəyişirsə, dəyişək. Zərigümac kəndi Zərküməco kəndi, Əliabad kəndi Veri Əliabadi kəndi adlandırılır. Belə uyğunsuzluqlar və qismən kiçik dəyişikliklər, mənə elə gəlir ki, inzibati ərazi bölgüsünə heç nə vermir. Ad dəyişmədir, mahiyyətə dəxli yoxdur. Mən keçən dəfə də təklif etdim, mənalı deyilsə, bunları dəyişib maliyyə uyğunsuzluğu yaratmağa, sənədlərdə dəyişiklik aparmağa mənə elə gəlir ki, ehtiyac yoxdur. Keçən dəfə də demişdim, bu, üç fənnin – tarixin, coğrafiyanın, bir də dilçiliyin kəsişmə nöqtəsidir. Bu, üç sahənin tələbatına uyğundursa, dəyişək. Sağ olun.

29 mart 2005-ci il

Hörmətli sədr, hörmətli millət vəkilləri! Bu gün qəbul etdiyimiz layihə, məncə, xeyli gecikibdir. Bu, müharibə şəraitində olan bir ölkə üçün çox mühüm əhəmiyyət kəsb edən bir qanun layihəsidir. Çox təəssüf ki, gecikib. Geciksə də, layihənin belə mükəmməl və normal şəkildə işlənib Milli Məclisin müzakirəsinə təqdim olunmasını mən təqdirəlayiq bir hal kimi qiymətləndirirəm. İkinci oxunuşdan hiss olunur ki, birinci oxunuşda deyilən nöqsanlar, müəyyən qüsurlar çox mükəmməl şəkildə düzəldilibdir. Mən birinci dəfədir görürəm

ki, həmin düzəlişlər qara hərflərlə verilibdir. Bu da diqqəti cəlb edir və düzəlişlərin hansı istiqamətdə olduğunu müəyyənləşdirməyə çox böyük kömək göstərir.

Burada bir məsələni diqqətinizə çatdırmaq istəyirəm. 1.0.1-də belə bir hissə var: «… Azərbaycan Respublikası Silahlı Qüvvələrinin, qanunvericiliklə nəzərdə tutulmuş digər silahlı birləşmələrin, habelə müvafiq icra hakimiyyəti orqanı tərəfindən yaradılan xüsusi dövlət orqanlarının və müharibə dövrü üçün yaradılan xüsusi birləşmələrin hazırlığına aid dinc dövrdə əvvəlcədən keçirilən tədbirlər kompleksidir». Əvvəla, səfərbərlik təkcə dinc dövrdə keçirilmir. Bu, əsasən, dinc dövrdə müharibə şəraiti yaradıldıqda keçirilir. Müharibə gedə-gedə də, müharibə şəraitində də səfərbərlik aparılır. Ona görə də bu cümlə yerinə düşmür. Burada konkret hökm verilir. «Dinc dövrdə əvvəlcədən keçirilən tədbirlər kompleksidir» ola bilməz. Çünki ondan sonrakı maddələrin hər birində bu, inkar olunur. Məsələn, baxın, ondan sonrakında deyilir: «Azərbaycan Respublikası Silahlı Qüvvələrinin, qanunvericiliklə nəzərdə tutulmuş digər silahlı birləşmələrin və xüsusi birləşmələrin müharibə dövrü üçün müəyyən edilmiş təşkilati – ştat strukturlarının keçirilməsinə dair tədbirlər kompleksidir». Yəni bu geniş bir kompleksdir. Ona görə də həmin cümlə dəyişilsə, yerinə düşər.

Sonra, 3.2-də yazılır: «Səfərbərliyin elan olunması barədə müvafiq icra hakimiyyəti orqanının qərarı kütləvi informasiya vasitələri ilə dərhal yayılır. Bu, mümkün olmadıqda qərar başqa üsullarla yayılır». Həmin cümlələri birləşdirmək lazımdır: «kütləvi informasiya vasitələri ilə və digər üsullarla». Burada 4.3.4-də göstərilir ki, «… təşkilatların müharibə dövrünün iş rejiminə keçirilməsi ilə bağlı tədbirlərin görülməsi». Yəni bu da əvvəlcədən müəyyənləşdirilmiş bir tədbirlər planıdır. Sonra, «təxsislənmə» sözü, mən bir dilçi

kimi deyirəm, bu, Azərbaycan dilinə məxsus olan söz deyil. Bu gün Səfərbərlik idarəsinin nümayəndəsi dedi ki, bu, «bronlaşma» ilə sinonim olan sözdür. Ona görə elə «bron» sözünü yazmaq lazımdır. «Təxsislənmə»ni izah etmək üçün gərək hər adama bir lüğət də verəsən ki, onu aça, oxuya. Ona görə də onu «bron» yazmaq lazımdır. Beynəlxalq alınma sözdür, bütün dillərdə işlənir, biz də işlədirik. Burada nə var ki?…

4.3.20-də yazılır: «… silahlı qüvvələrin və s. komplektləşdirilməsi üçün vətəndaşların hərbi uçot ixtisasına görə hazırlanması». Mən bir şeyi başa düşmürəm. Müdafiə Nazirliyinin Səfərbərlik idarəsi var və onların da nümayəndəsi burada oturub. Burada yazılan işləri bu adamlar göndərməlidirlər də. Bunlar gözləməlidirlər ki, müharibə başlasın, ya müharibə təhlükəsi olsun, sonra Səfərbərlik idarəsi işləməyə başlasın?! Bəs onlar indiyə qədər maaş alırlar. Nə iş görürlər ki? Burada yazılanların bir çoxunu orada bekar qalınca oturub işləsinlər, səfərbərlik vaxtı da hazır materialı təqdim etsinlər. Gözləyəcəklər ki, nə zaman müharibə təhlükəsi yarananda bunlar işləməyə başlasınlar? Belə şey olmaz.

Sonra, burada yazılır: «Səfərbərlik planlarının yerinə yetirilməsi üzrə təlim və məşqlərin keçirilməsi». Təlim və məşqləri keçirsinlər də. Ona kim icazə vermir ki? Başlasınlar, keçirsinlər… Sovet dövründə idarə və müəssisələrdə qəribə qaydalar var idi. Camaat tərəfindən çox yüksək qiymətləndirilirdi. Əvvəlcədən nüvə silahlarının istifadəsinə qarşı hazırlıqlar görülürdü, zirzəmilər boşaldılırdı, camaat həyəcan siqnalından sonra gizlədilirdi. İndi nə zirzəmi var, nə yer var… Hamısını dükan, bazar, anbar ediblər. Səfərbərlik idarəsi məşğul olsun… Belə bir hadisə baş verəndə, camaatı səfərbərliyə cəlb etsin.

* * *

Hörmətli sədr, hörmətli deputatlar! Ölkəmizdə bazar iqtisadiyyatı prinsipləri əsasında iqtisadi tərəqqiyə nail olunmuş və bu proses ildən-ilə öz müsbət nəticələrini verməkdədir. Dahi öndərimiz Heydər Əliyev tərəfindən əsası qoyulan müstəqil iqtisadi siyasət və bu siyasətin inamla, uğurla davam etdirilməsi iqtisadiyyatda sabitliyi təmin etmiş, iqtisadiyyatın hüquqi əsasları, bazası beynəlxalq iqtisadi əlaqələrin yaradılması və inkişafı nəticəsində təkmilləşdirilərək Azərbaycan dövləti dünya iqtisadi sisteminin prinsiplərinə uyğun olaraq müstəqil inkişaf yolunu tutmuşdur. Makroiqtisadiyyatda istifadə olunan əsas makroiqtisadi göstəricilər inflyasiya və qiymətin səviyyəsi, məşğulluq, yəni işsizliyin səviyyəsi son 10 ildə tamamilə dəyişmiş, ölkəmizdə ildən-ilə regionlar üzrə yeni-yeni istehsal sahələri, orta və iri həcmli beynəlxalq standartlara cavab verən müəssisələr açılmış, inflyasiyanın səviyyəsi minimum həddə düşərək stabil saxlanılmış, işsizliyin aradan qaldırılması istiqamətində dövlət səviyyəsində xeyli iş görülmüşdür.

Ölkədə həyata keçirilən düzgün iqtisadi siyasətin nəticəsidir ki, dövlətin iqtisadi siyasətini həyata keçirən orqanlar – Maliyyə Nazirliyi, Milli Bank və bu prosesdə iştirak edən digər qurumlar vaxtlı-vaxtında parlamentə hesabat verirlər. Bu mənada Azərbaycan Respublikasının 2004-cü il dövlət büdcəsinin icrası haqqında Azərbaycan Respublikası qanunu layihəsinin müzakirəmizə təqdim olunması buna əyani sübutdur. İqtisadiyyatda, əsasən, bir neçə subyekt, o cümlədən ev var, təsərrüfatlar və şirkətlər fəaliyyət göstərirlər. Fəaliyyət üçün ölkədə real şərait yarandıqda dövlət büdcəsinin gəlirləri və xərcləri bərabərləşir. Reallıqda, adətən,

gəlirlərin bir hissəsi qənaət şəklində saxlanılır və lazım gəldikdə bu qənaətdən şirkətlər, sahibkarlar investisiya şəklində istifadə edirlər.

Dövlət büdcəsinin icrasına dair hesabatda dövlət büdcəsinin gəlirləri ümumi daxili məhsulun 18 faizini təşkil etməklə 2003-cü illə müqayisədə 9 bənd çox olmuşdur. Vergi ödəyiciləri mütəmadi olaraq ödənişləri yerinə yetirmişlər. Elm üzrə xərclər 92,2 faiz və ya 100,2 milyard manat və ya 20,6 faiz çox olmuşdur. Təhsil xərcləri üzrə icra 95,4 faiz və ya 1470, 5 milyon manat, 2003-cü illə müqayisədə 296,3 milyon manat və ya 25,2 faiz çox olmuşdur. Ölkədə sahibkarlığın inkişafına 100 milyard manat ayrılmış, vəsait tam istifadə edilmişdir. Dövlətin iqtisadi siyasətinin faktik nəticələri onun inamla həyata keçirilməsini sübut edir.

Dövlət, eyni zamanda, maliyyə-nəzarət sistemini təkmilləşdirir. Onun keyfiyyətinin yüksəldilməsi məqsədilə müvafiq tədbirlər görür. 2004-cü ildə aparılan tədbirlər nəticəsində 4,4 milyard manatdan çox qanunsuz xərclənmiş vəsait büdcəyə bərpa edilmiş və dövlətdən əsassız iddialarla çoxlu vəsaitin tələb olunmasının qarşısı alınmışdır.

Hörmətli deputatlar, son vaxtlar, artıq üçüncü həftədir ki, Azərbaycan televiziyasında müxtəlif nazirliklər canlı yayımla çıxış edirlər. İki həftə bundan qabaq Maliyyə Nazirliyi başda Əvəz müəllim olmaqla, onun müavinləri, şöbə müdirləri saat yarım canlı efirdə oldular. Bu müddətdə tamaşaçılar bunu təkidlə diqqətimizə çatdırdılar ki, verilən suallara yerli-yerində, düzgün və aydın cavab verildi. Bir həftə sonra isə Dövlət Gömrük Komitəsi, Kəmaləddin müəllim, onun müavinləri, bölmə müdirləri iştirak etdilər. Eyni səviyyədə tamaşaçıların suallarına layiqli cavablar verdilər. Bu gün isə saat 10 tamamda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin işçiləri iştirak edəcəklər. Bu onu göstərir ki,

ölkəmizdə büdcənin istər xərclənməsi, istərsə də smeta sənədindən istifadə qayda və qanunla həyata keçirilir. Bununla mən diqqətinizə çatdırmaq istəyirəm ki, hörmətli cənab Prezident tərəfindən Milli Məclisə təqdim olunmuş Azərbaycan Respublikası 2004-cü il dövlət büdcəsinin icrası haqqında Azərbaycan Respublikası qanun layihəsinin təsdiq olunmasını təklif edirəm.

17 may 2005-ci il

Hörmətli sədr, hörmətli millət vəkilləri! Bu iclasda Təhsil Nazirliyinin işçiləri və bu qanunu hazırlayan işçi qrupu iştirak edir. Bu sözləri qanun layihəsi komissiya iclasında müzakirə olunarkən də demişəm. Burada çıxış edən Musa müəllim də, digər deputat həmkarlarım da çox düz dedilər. Bu qanunu qəbul etmək də olar, etməmək də. Bu qanun hələ sovet dövründə, sovet təhsil sistemində də var idi, indi də fəaliyyətini davam etdirir. Biz buna yeni bir ad vermək istəyiriksə, adını qoyaq yaşlıların qanunu və qəbul edək.

Sovet dövründə təhsil sistemi planlı təhsil sistemi idi. Məktəbəqədər təhsil sistemi, sonra gəlirdi orta təhsil, ali təhsil, sonra ali təhsildən sonrakı mərhələlər. Sovet quruluşu dağılandan sonra biz bazar iqtisadiyyatına keçdiyimiz üçün bu planlı sistem bir az pozuldu. Ona görə indi yaşlıların təhsili haqqında ayrıca qanun qəbul edirik. Həqiqətdə isə bunu qəbul etməyə heç bir ehtiyac yoxdur. Bunun bütün maddələri bu saat fəaliyyətdədir. Düzdür, sovet dövründəki kimi planlı, sistemli şəkildə deyil. Hər halda bu sistem davam edir. Nedir bu sistem? Ümumi təhsil, bir də peşə təhsili. Bu sistemdə ən maraqlı hissələr nədir? Ümumi təhsilin və peşə təhsilinin pillələridir, ixtisas dəyişmədir, bir də ixtisasartırma kurslarıdır. Bunların hər biri fəaliyyətdədir. Mən təkrar edirəm, bu, tam sistemli şəkildə, sovet dövründəki qüvvətli

şəkildə davam etmir. Ancaq bu qanunu hazırlayanlardan heç biri deyə bilməz ki, bu davam etmir.

Davam etməyən nədir? Xaricilər burada gəlib şirkətlər açıblar. Onlar da işə kompüteri və xarici dilləri bilən adamları daha çox qəbul edirlər. Bunun üçün onlara diplom lazım deyil. 50 diplom apar, onlar işə götürməyəcəklər, xarici dili bilən, kompüteri bilən, müəyyən tələblərə cavab verən mütəxəssisi işə qəbul edəcəklər. Onun üçün də həmin şəxslər istər müstəqil təhsil alsın, istərsə gedib o kursların birində təhsil alsın, bunun yaşlıların təhsili ilə heç bir əlaqəsi yoxdur.

Bu terminin adına gəlincə, bunun özü mübahisəlidir. Yaşlıların təhsili. Mən işçi qrupuna sual verdim ki, yaşlı deyəndə, siz neçə yaşı nəzərdə tutursunuz? Orada belə bir fikir var idi ki, məsələn, 35 yaşına qədər əyani təhsil alırdılar, 35 yaşdan yuxarı qiyabi. Bu 35-dən yuxarı hesab olunurdu. Bəziləri də deyir ki, 22 yaşdan sonrakı təhsil yaşlıların təhsilidir. Ancaq işçi qrupu izah etdi ki, xeyr, artıq vətəndaşlıq hüququ alan, pasport alan 16 yaşlıların adı olur yaşlı. İndi ondan kiçiyinin adı nə olacaq? Uşaq. Ondan sonra böyüyün adı nə olacaq? Gənc. Və ya birinə ahıl adı qoyaq, o birinə qoca qoyaq. O terminlər qanun sözləri deyil. Bu, mənəviyyata, poetikaya aid olan terminlərdir, sözlərdir. Yaşlıların, cavanların, filanların. Kimə aiddir? Hələ o konkret müəyyənləşməyib.

Qaldı ki, biz bu təhsil sistemini görmüşük, tanımışıq, bu var. Avropa ölkələrində bu təhsil sistemi olmayıb. İndi Hamburqda yığışıb bir bəyannamə qəbul ediblər və bu, Almaniya Xalq Universitetləri Birliyi Beynəlxalq Əməkdaşlıq İnstitutunun dəstəyi ilə həyata keçirilir. Yəni Avropa ölkələri yığışıb, belə bir təhsil sistemi, belə bir bəyannamə hazırlayıblar. Çünki onlarda humanizm, xeyirxahlıq, zahiri forma da qabarıqdır. Bizdə isə bu əvvəldən var idi. Ona görə

biz bunu indi, sadəcə olaraq, təkmilləşdirə bilərik. Onların bu qanununda istifadə edə bilərik. Bu təhsil sistemi bizdə var idi, indi də var. İndi bunu qəbul etmək lazımdırsa, etirazımız yoxdur. Ancaq yenə deyirəm, bu qanunu qəbul etmək də olar, etməmək də ziyan deyil. Ona görə ki, bu bizdə qanun adında olmasa da, təhsil qanununun bir forması kimi işləkdir. Qanunu qəbul etmək olar, ona görə ki, Avropadan geri qalmayaq. Deməsinlər ki, Azərbaycan bizdən geri qaldı. Bu mənada qəbul etmək olar.

Burada mübahisəli məqamlar bilirsiniz nədir? Bizim deputatlar haqlı olaraq sual da veriblər. Bu, pullu olacaq, yoxsa pulsuz? Diplom veriləcək, yoxsa diplom verilməyəcək? Bu, könüllü olacaq, yoxsa məcburi? Bunun sovet dövründən sxemi var. Təzə bir şey icad etməyəcəyik ki? Biz bilirik ki, ixtisasartırma bu saat hər yerdə var. Bizim Pedaqoji Universitetdə də var, kim istəyir getsin, ixtisasını dəyişsin. Orta məktəblərdə bu saat bizim müəllimlər 3-4 ixtisas üzrə dərs deyirlər. Heç olmasa, bədən tərbiyəsi ilə əməkdən, rəsmdən. İndi bizdə ixtisasdəyişmə və ixtisasartırma fakültələri fəaliyyət göstərir. Yenə də davam etsinlər. Ona heç kimin sözü yoxdur.

Bu qanunun bir xeyri bilirsiniz nədədir? Avropa Birliyi, Avropa Şurası, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, YUNESKO, bir də Dünya Bankı bu qanuna dəstək verir. Yəqin, maliyyələşməsinə də kömək edəcəklər. Edəcəklərsə, bu qanunu qəbul edək. Çox sağ olsunlar, bizə yardım əllərini uzadırlar.

Qaldı təhsil qanununa, həqiqətən, əvvəlcə təhsil qanunu qəbul olunmalı idi, sonra onun hissələri. Biz başlayırıq bu hissələrdən qanun düzəltməyə. Ekoloji təhsil, yaşlı təhsil, sonra gələcək əyalətdə təhsil. Sonra bu hissələri yığıb-yığışdırıb, böyüdüb, bundan təhsil qanunu düzəldəcəyik. Elə

olmaz. Əvvəl qanun olur, sonra onun hissələri. İndi belə məsləhətdirsə, yenə də deyirəm, bunu qəbul etmək də olar, etməmək də. Sağ olun.

27 may 2005-ci il

Hörmətli sədr, hörmətli millət vəkilləri! Mən bir neçə kəlmə ilə münasibətimi bildirmək istəyirəm. Əvvəla, bu sazişin əhəmiyyəti haqqında siz də dediniz, Nizami müəllim də ətraflı dedi. Xüsusilə indiki dövrdə o qədər əhəmiyyətli bir sazişdir ki, mən deyərdim, bunun qiyməti yoxdur. Tamamilə doğru buyurdunuz ki, sovet dövründə bütün nəşriyyatlar çap olunan kitablardan 25 nüsxə MDB dövlətlərinin hər birinə, mərkəzi kitabxanalara göndəriblər. 50 nüsxəsi isə müəllif icazəsi ilə xarici dövlətlərin tanınmış kitabxanalarına gedirdi. Beləliklə, bizim kitablar bütün dünyaya yayılırdı. Eyni qaydada xaricdə nəşr olunan kitablar bizim mərkəzi kitabxanaların hər birinə gəlirdi. Hər hansı kitabı gedib Axundov, Sabir və ya Akademiyanın kitabxanasından tapmaq mümkün idi. Çox qəribə bir vəziyyət ondan ibarətdir ki, bu, jurnallara da aiddir.

Pedaqoji Universitetdə işləyəndə çoxlu xarici jurnallar alırdıq. Əvvəl təəccübləndim ki, ingilis, fransız dilində bu qədər jurnal alırıq. Bunlar üçün oxu zalımızda xüsusi bir guşə ayırmışdıq. Xüsusilə texnikaya aid dünyada baş verən ən mühüm hadisələr orada tezislər şəklində olurdu və bu jurnallardan istifadə edirdilər. İndi mənim hərdən universitetə yolum düşəndə, gedirəm həmin zala, görürəm bomboşdur. Deyirlər ki, artıq həmin jurnalların və kitabların heç birini almırıq. Mən elə bilirəm ki, bu, bizim gələcək nəsillərin fəaliyyəti, Azərbaycan elminin inkişafı üçün çox böyük işdir.

Bu sazişin əhəmiyyəti ondan ibarətdir ki, siz də

buyurdunuz, Murtuz müəllim, bizim gələcəyimiz üçündür. Bu saziş bağlanmalıdır ki, biz dünyadakı elmi nailiyyətlərdən xəbərdar olaq. Yusif Məmmədəliyev kimi böyük bir alim yetişdirən Azərbaycan alimlərinin də nailiyyətləri, kəşfləri niyə dünyaya yayılmamalıdır? İndinin özündə də bizim xüsusilə dəqiq elmlərlə, humanitar elmlərlə bağlı çox tanınmış mütəxəssislərimiz var. Bir də, doğru buyurdunuz, bu məsələ dövlət səviyyəsində tənzim olunmalıdır. Biz bir kitab yazırıq, düşürük kitabxanalara ki, mənim kitabımdır, heç pul da istəmirəm. Deyirik, kitabxanalar bizim kitablardan götürsünlər ki, heç olmasa, yadigar qalsın. Bu özfəaliyyət kimi olmamalıdır, dövlət səviyyəsində tənzimlənməlidir.

* * *

Hörmətli sədr, hörmətli Milli Məclisin deputatları! İqtisadiyyatın inkişafında tütünçülüyün rolu təbiidir. Bütün kənd təsərrüfatı məhsulları iqtisadiyyatımızın inkişafına köməkdir, yardımdır. Buna söhbət yoxdur.

Bu sazişdə mühüm bir məsələ də nəzərdə tutulub. Ümumdünya Səhiyyə Təşkilatı insan orqanizminə tütünün ziyam haqqında bu sazişə müəyyən bəndlər əlavə edib. Yaxşı bilirsiniz ki, tütünçülüyü inkişaf etdirmək, məhsul istehsal edib xaricə, yaxud da daxildə satmaq ölkənin iqtisadi qüdrətini möhkəmləndirər. Bu, işin bir tərəfidir.

İkinci tərəfdən, dünya siqaret çəkmədən və siqaret tüstüsündən artıq imtina edir. Məsələn, iki böyük dövlətdə – Amerika və İtaliya kimi dövlətlərdə, ümumiyyətlə, siqaret çəkmək qadağan olunubdur. Digər Avropa ölkələrində isə siqaret çəkilməsi üçün xüsusi yerlər ayrılıbdır. Ancaq həmin otaqları elə yerdə ayırıblar ki, adam gedib orada durub siqaret çəkməyə utanır. Yəni bunu yığışdırmaq istiqamətində iş gedir.

Biz İtaliyada – Romada olanda restoranda oturub çörək yeyirdik. Yoldaşlardan biri siqaret çəkmək istədi. Üç-dörd tərəfdən gəldilər ki, siz nə edirsiniz? İndi cərimələnə bilərsiniz, buralarda siqaret çəkmək qəti qadağandır. Çıxdılar bayırda çəkməyə. Dedilər yox, bayırda da olmaz. Hara tərpəndilər gördülər ki, deyəsən, bu ölkədən çıxmayınca siqaret çəkmək mümkün deyil. İndi hər bir ölkə öz insanlarının sağlamlığının qayğısına ciddi şəkildə qalır. Tütünçülüyü inkişaf etdirək, ancaq sağlamlığı da unutmayaq. Sazişdə bunlar da nəzərə alınıbdır. Bizim ölkəmiz üçün də bunu tətbiq etmək lazımdır. Diqqətinizə görə sağ olun.

20 sentyabr 2005-ci il

Hörmətli sədr, hörmətli Baş nazir, hörmətli millət vəkilləri! Respublikamız müstəqillik əldə etdikdən sonra ölkəmizdə iqtisadi inkişafın möhkəm təməli müasir Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli liderimiz Heydər Əliyevin hakimiyyəti dövründə qoyulmuşdur. Məhz Heydər Əliyevin apardığı uzaqgörən siyasət nəticəsində respublikada siyasi-iqtisadi sabitlik əldə edilmiş və iqtisadi islahatların həyata keçirilməsi üçün əlverişli zəmin yaranmışdır. Bu siyasi-iqtisadi inkişaf strategiyasının Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində ölkənin gələcək inkişafı üçün əlverişli şərait yarandı. Cənab İlham Əliyevin dövlət başçısı kimi fəaliyyətə başlaması isə ölkənin sosial-iqtisadi inkişafının sürətləndirilməsi, regionların inkişafının təmin edilməsi, yoxsulluğun azaldılması, yeni iş yerlərinin açılması və nəticədə yaşayış səviyyəsinin daha da yaxşılaşdırılması sahəsində görülmüş işlərə yeni təkan verdi.

Hörmətli millət vəkilləri, ölkənin iqtisadi siyasətinin tərkib hissəsi olan 2006-cı ilin dövlət büdcəsinin layihəsini diqqətlə oxuduqca bu sənədin milli əhəmiyyətinin, onun strateji istiqamətlərinin, real bazaya söykəndiyinin və maddi rifah halının yaxşılaşdırılması üçün təminat rolu oynadığının şahidi oluruq. Mən bu layihədə aşağıdakı istiqamətlərin paritet kimi qəbul edilməsini gördüm. Bunlar hansılardır? İlk növbədə sürətli sosial-iqtisadi inkişaf, yoxsulluğun səviyyəsinin azaldılması, regionların inkişafı, işsizlik problemlərinin həllinə təkan, qeyri-neft sektorunun inkişafı, əhalinin sosial müdafiəsinə təminat, ölkənin müdafiə qüdrətinin artırılması və onun təhlükəsizliyinə təminat, sahibkarlığın inkişafına dəstək, energetika, kənd təsərrüfatı, kommunal sektor, nəqliyyat infrastrukturu və digər vacib iqtisadi sferaların inkişafına yardım, ipoteka xidməti ilə gənc nəslin məişət şəraitinin yaxşılaşdırılmasına dövlət qayğısı, sosial sferalar, o cümlədən elm, təhsil, səhiyyə, mədəniyyət, sosial təminat, idman kimi vacib sosial yönlü xərclərə üstünlük və dəstək. Bu kimi faktorlar bu layihədə daha çoxdur. Ancaq vaxtın darlığından onların hamısını sadalamaq olmur.

2006-cı ildə dövlət büdcəsinin gəlirləri ümumi daxili məhsulun 23,6 faizi həcmində nəzərdə tutulmaqla, 2005-ci ilin təsdiq olunmuş göstəricilərinə nisbətən 67,8 faiz çoxdur. 2006-cı ildə dövlət büdcəsinin xərcləri isə 2005-ci ilə nisbətən 66,8 faiz artıqdır. 2006-cı ilin dövlət büdcəsinin xərclərində elm xərcləri 2005-ci ilə nisbətən 32,9 faiz, səhiyyə xərcləri 41,2 faiz, sosial təminat xərcləri 10,7 faiz, mədəniyyət, incəsənət və kütləvi informasiya vasitələrinin xərcləri 41 faiz artırılmışdır. Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə dövlət proqramında səhiyyə, təhsil, mədəniyyət, sosial müdafiə və sosial təminat

sahələri üzrə dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilməsi nəzərdə tutulan tədbirlərin həlli üçün müvafiq vəsaitlər ayrılmışdır. Çox təqdirəlayiq haldır ki, büdcə xərclərinin 32 faizi və ya 1 milyard 135 milyon manatı elmin, təhsilin, səhiyyənin, sosial təminatın, mədəniyyətin payına düşmüşdür.

Hörmətli millət vəkilləri, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin yürütdüyü düzgün siyasətin nəticəsidir ki, qısa müddətdə büdcəmiz 4 milyarda yaxın artmışdır. Çıxışımın sonunda mən bu mükəmməl və uğurlu layihənin hazırlanmasında əməyi olan insanlara, ilk növbədə hörmətli Baş nazir Artur Rasizadəyə və onun rəhbərlik etdiyi Nazirlər Kabinetinə, hörmətli maliyyə naziri Əvəz müəllimə və digər nazirlərimizə, onların idarə etdikləri kollektivlərə öz minnətdarlığımı bildirir və təklif edirəm ki, dövlət büdcəsi layihəsini hörmətli millət vəkillərinin müvafiq təklifləri nəzərə alınmaqla bəyənib qəbul edək. Diqqətinizə görə sağ olun.

11 oktyabr 2005-ci il

Hörmətli sədr, hörmətli millət vəkilləri! «Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında» Azərbaycan Respublikasının Qanununa dəyişikliklər heç də gecikməyib və bu, vaxtında qəbul olunmuş bir qanundur. Müşahidəçilik institutunun bu metodunun qüvvəyə minməsi və bu gün tətbiq olunması tamamilə vaxtındadır. Qulamhüseyn müəllim indi çıxış edəndə dedi ki, biz bunu əvvəldən demişik, bu, gərək 2000-ci ildə qəbul ediləydi.

Barmağa mürəkkəb vurmaq da indi bir çox ölkələrdə təzə tətbiq olunur və bizdə də vaxtında öz həllini tapıbdır. Məncə, biz heç də gecikməmişik. Möhtərəm Prezidentimiz

bunu vaxtında deyibdir.

Venesiya Komissiyasının rəyinə gəlincə, onların çox rəyləri vardır. Hər şey öz vaxtında olur. Biz SSRİ-dən ayrılmış respublikalardan, MDB dövlətlərindən biriyik. Hər şeydə birinci addımı atmaq bizim adımıza yazılmayıb ki. Təbii ki, biz də axınla bərabər bu qanunu qəbul edirik və bu da vaxtında edilən dəyişiklikdir. Ona görə mən möhtərəm Prezidentimizin irəli sürdüyü bu təklifin təsdiq olunmasına tərəfdaram.

28 oktyabr 2005-ci il

Hörmətli sədr, hörmətli millət vəkilləri! 2005-ci il dekabrın 30-da biz hər iki qanun layihəsini Milli Məclisin növbəti iclasında geniş müzakirə etdik. Sonradan bu qanun layihəsi komissiyalar tərəfindən müzakirə olundu və bu gün də Hadi müəllim bu müzakirələrdən sonra yenə xeyli əlavəni bizim diqqətimizə çatdırdı. Bu onu göstərir ki, bu qanun çox mükəmməl işlənir. Möhtərəm Prezidentimiz tərəfindən qanunun Milli Məclisə göndərilməsi, qanun üzərində hər cür müvafiq təkliflərlə çıxış edilməsi üçün onun şərait yaratması bizim üçün çox qiymətli bir məsələ hesab olunmalıdır.

Əmək pensiyaları haqqında qanunun 1.0.1-ci maddəsində «və» bağlayıcısından sonra «məcburi dövlət» sözləri əlavə edilsin. Yəni «məcburi dövlət sosial sığorta olunan şəxslərin». «Dövlət» sözü olmasa, onun hüququ bir qədər aşağı olur.

Maddə 2-nin 1-ci bəndində «Əmək pensiyaları haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından» sözlərindən sonra «bu qanundan» sözləri əlavə olunsun.

9.4-cü maddədə «prokurorluq orqanları» sözləri «hüquq

mühafizə orqanları» sözləri ilə əvəz edilsin. Təkcə prokurorluğa aid deyil, bütün hüquq mühafizə orqanlarına aid olan məsələlərdir. Ona görə əlavə edilsin.

14-cü maddənin 14.1.1.1 yarımbəndində «18 yaşına çatmamış» sözləri «yetkinlik yaşına çatmamış» sözləri ilə əvəz edilsin.

14-cü maddəyə aşağıdakı məzmunda 14.1.1.4-cü yarımbənd əlavə olunsun: «Vəfat etmiş şəxsin yeni doğulmuş uşağı». Çünki belə hallar da mövcuddur. Ona görə də bu cümlə hökmən əlavə olunmalıdır.

47-ci maddə aşağıdakı redaksiyada verilsin: «Bu qanun dərc edildiyi gündən qüvvəyə minir». Bu qanun, ola bilər ki, həmin müddətdə, yanvarın 1-də və ya burada göstərilən müddətdə qəbul edilməsin. Ona görə hökmən ənənə olaraq biz verməliyik ki, bu qanun dərc edildiyi gündən qüvvəyə minir. Bu qanun qüvvəyə mindiyi gündən «Vətəndaşların pensiya təminatı haqqında» Azərbaycan Respublikasının Qanunu qüvvədən düşmüş hesab olunur.

Burada təklif olundu ki, «təqaüd» sözü «pensiya» sözü ilə əvəz edilsin. Mən bir dilçi kimi demək istəyirəm ki, «pensiya» sözünün «təqaüd» sözünü əvəz etməsi heç də yerinə düşmür. Məsələn, tələbələrə təqaüd verilir. Tələbəyə pensiya verilmir ki. Prezident kiməsə təqaüd verir, ona pensiya vermir ki. «Təqaüd» sözü də alınma sözdür. Ərəblərdən alınmadır. «Pensiya» sözü də ruslardan alınmadır. «Pensiya» sözü artıq dilimizdə işlək sözdür. Ona görə də onun yerində qalmasını məsləhət bilirəm.

Sosial müavinətlər haqqında qanunla əlaqədar, Oqtay müəllim, xahiş edirəm, mənə vaxt verəsiniz, onları bir-bir deyəm. 1.0.2-ci maddənin mətnində «18 yaşına çatanadək əlil olmuş» sözləri «yetkinlik yaşına çatanadək əlil olmuş» sözləri ilə əvəz edilsin. Nə üçün? Əvvəla, bizdə yetkinlik yaşının 18,

yoxsa 16, yoxsa 14, yoxsa 17 olmağı hələ müəyyənləşməyibdir.

* * *

Hörmətli sədr, 1.0.2-ci bənddə «Vəfat etmiş şəxsin ölümündən sonra doğulmuş uşağı» sözləri əlavə edilsin. Burada yoxdur. Vəfat etmişin himayəsində olmuş və onun ölümündən sonra 5 il ərzində əmək qabiliyyətini itirmiş şəxslər əlavə olunsun. Çünki Azərbaycan Respublikası Mülki Məcəlləsinin 11.2.1-ci maddəsinə əsasən bu burada hökmən olmalıdır. 4-cü maddəyə aşağıdakı redaksiyada 4.0.1.11 və 4.0.1.12-ci bəndlər əlavə edilsin: «əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinət», «hamiləliyə və doğuma görə müavinət». Sosial sığorta haqqında qanunun 6-cı maddəsinə əsasən, bu, hökmən əlavə olunmalıdır.

7 fevral 2006-cı il

Hörmətli sədr, hörmətli millət vəkilləri! Bu gün qəbul elədiyimiz qərar çox əhəmiyyətli bir məsələyə toxunur. Naxçıvanın cənub tərəfdən sərhədinin cəmi 11 kilometri Türkiyə ilədir, qalan hissəsi isə İranladır. Ancaq çox qəribədir ki, İrana gediş-gəliş müddəti 15 gün, Türkiyəyə isə gediş-gəliş müddəti 30 gündür.

Bu Memorandum təxminən 2000-ci ildə qəbul edilib. Mənim yaxşı yadımdadır. 2000-ci ildən indi 6 il keçib, elə o qüvvədədir, indi də davam edir. Bundan sonra da bu Memorandum 2 illiyə qəbul olunmalıdır. Heç bu, qəbul olunmasa da, 6 il davam eləyən 8 il də davam eləyə bilər.

Bu Memoranduma hökmən müvafiq bəndlər əlavə olunmalıdır. O müvafiq bənd nədən ibarətdir? Doğrudan da,

Azərbaycanla İran arasında tarixən çox ciddi əlaqələr olubdur. Orada təxminən 35 milyona yaxın azərbaycanlı yaşayır. Azərbaycanlıların çox az bir hissəsi, təxminən 300 minə yaxını Naxçıvanda yaşayır. Bunların cəmi 45 kilometr o tərəfə və 45 kilometr bu tərəfə keçməsinə icazə verilir. Yaxşı, İran böyük bir ərazidir, onun hər tərəfinə yox, cəmi 45 kilometrinə icazə verilir. Naxçıvan ərazisində isə ən ucqar yer Batabatdır. O da sərhəddən təxminən 60 kilometr məsafədə olar. Demək, belə çıxır ki, Naxçıvanın da bunlar yarısına gələ bilərlər. Yaxşı, sabah bir hadisə olsa, necə ki Türkiyədə oldu, vaxtilə Çanaqqalada olan hadisələr zamanı buradakı azərbaycanlılar öz türk qardaşlarına köməyə getdilər. İndi biz müharibə şəraitində yaşayan bir ölkəyik. Lazım olanda bəlkə onlar da bizə köməyə gəlmək istəyəcəklər. Cəmi 45 kilometr gələ bilərlər, 60 kilometr məsafəyə gəlib çıxa bilməzlər. 45 nə 45-dir? 45 dəqiqə vaxt olar, sinifdə dərs deyərlər. Bu 45-in kilometrə nə dəxli var? Bu hansı meyara uyğundursa, o uyğunluğa görə sərhədin kilometrajına fikir vermək lazımdır.

Burada Rafael müəllim çox gözəl bir məsələyə toxundu. Milli Məclisdə hazırlanmış qanunlarda ciddi orfoqrafik, yaxud üslub nöqsanları olmur. Ancaq bizə Xarici İşlər Nazirliyindən gələn layihələri oxumaq mümkün deyil. Heç bilmirsən hansı dildədir, azərbaycancadır, yoxsa ruscadır. Çünki orada işləyənlərin, əvvəllər, – indi dəqiq bilmirəm, – təxminən 90 faizi rus təhsilli adamlar idi və hazırladıqları qanunlar da elə rusdilli qanunlara oxşayırdı. Bu razılaşma, bu qanun, yəqin ki, İrana da gedəcək. Heç olmasa, ona görə təmiz ədəbi dildə yazılmalıdır.

Bir məsələni də mən xüsusi olaraq qeyd etmək istərdim. Cənubi azərbaycanlılar çox düzgün olaraq Azərbaycan ədəbi dilini, yəni bu saat bizim Azərbaycanda danışılan bu normal ədəbi dili məqbul hesab eləyiblər. Yəni özləri yeni bir ədəbi

dil forması yaratmaq istəmirlər. Onlar bu tərəfdə, Şimali Azərbaycanda olan ədəbi normanı çox könüllü şəkildə qəbul eləyirlər. Onlar qəbul eləyirlər, biz öz dilimizin üstündə oyun çıxarırıq. Bu baxımdan Rafael müəllimin təklifini mən çox yüksək qiymətləndirirəm.

Belə qanunların hazırlanmasında çox diqqətli olmaq lazımdır. Əgər bu yeni qəbul olunubsa, bu razılaşma yenidirsə, orada yeni cəhətlər də öz əksini hüquqi mənada tapmalıdır. Bu baxımdan mən belə deyərdim ki, bu qanun çox münasib qanundur və bunun üstündə bir az da dəqiqləşdirmə işləri aparmaq lazımdır. Bunu əhali çox yüksək qiymətləndirir.

Bir məsələ də mənə qəribə gəlir. Orada yazılıb ki, Naxçıvanda yaşayanlar İrana keçə bilərlər. Yəni Azərbaycanın başqa yerlərində yaşayanlar İrana keçə bilməzlər. O gərək hökmən naxçıvanlı ola, ora gedə. Amma iranlının dəxli yoxdur. Haradan olur olsun, gəlib keçə bilər. Heç olmasa bu, Naxçıvanda anadan olanlara da şamil olunsun. Yoxsa elə çıxır ki, ata gedə bilər, oğul gedə bilməz, oğul gedə bilər, bacı gedə bilməz. Burada da qeyri-müəyyənlik var.

1 mart 2006-cı il

Hörmətli sədr, hörmətli millət vəkilləri! Doğrudan da, Azərbaycan Respublikasında «Səfərbərlik hazırlığı və səfərbərlik haqqında» Qanunun tətbiqi ilə əlaqədar qəbul edəcəyimiz dəyişikliklər çox ciddi məsələdir. Xüsusilə bizim kimi müharibə şəraitində olan bir ölkənin qanunlarında daha ciddi dəyişikliklər etməyə ehtiyac vardır. Bu gün bu qanun layihəsinin müzakirəsini təbii bir hal kimi qiymətləndirirəm.

Keçən dəfə də müzakirə zamanı mən bu sualı verdim. Bu dəfə də həmin sualı təkrar səsləndirmək istəyirəm. Burada

hərbi komissarlığın nümayəndələri iştirak edirlər, onlardan soruşmaq istəyirəm ki, 35 yaş həddi başqa ölkələrin hansında var? 35 yaş həddi nə dərəcədə məqbul sayıla bilər? 17 yaşında evlənmiş şəxsin 35 yaşı olanda 17 yaşında oğlu ola bilər. Əsgərliyin öz qanunları var. Əsgərlik sivil qaydada əxlaqi kodekslərlə müəyyənləşdirilmiş pedaqoji məktəb, institut deyil. Ata və oğlun eyni səviyyədə və eyni sistemdə ilkin xidmət göstərmələri nə dərəcədə həqiqətə uyğundur? Bu məsələyə hərbi komissarlığın nümayəndələri bir aydınlıq gətirsinlər.

İkinci tərəfdən, burada söhbət getdi ki, bu məsələni müvafiq icra strukturu müəyyənləşdirəcəkdir. Ali Baş Komandan əmr verir və hərbi səfərbərlik keçirilir. Bu, qanunauyğundur. Ona görə də bələdiyyələrin, ya da ictimai təşkilatların hər hansı özfəaliyyətinə nə ehtiyac var? İstəyirəm, hərbi komissarlığın nümayəndələri bu suala da cavab versinlər. Hərbi səfərbərlik haqqında əmr veriləndən sonra onu tənzimləmək dövlət səviyyəli bir işdir. Hərbi səfərbərlik haqqında qanun var, ona ciddi əməl etmək lazımdır. Sayı artırmaqla heç də qanunun hüquqi gücünü qüvvətləndirmək mümkün deyil. Diqqətinizə görə sağ olun.

* * *

Hörmətli sədr, hörmətli millət vəkilləri! Bu elə mövzudur ki, Milli Məclisin hər bir üzvü bu barədə öz fikrini deyə bilər. İndi müzakirəyə çıxardığımız qanun keçən il geniş şəkildə müzakirə olunub və qəbul edilibdir, yəni bu keçən il olub. Bugünkü qanun layihəsi isə ona edilən əlavə və dəyişikliklərdən ibarətdir. Ona görə də biz bu məsələnin müzakirəsi ilə əlaqədar danışmalıyıq. Bu sahədə işlədiyimə görə millət vəkillərinin diqqətinə çatdırım ki, təxminən 10

ildir Azərbaycan Dövlət Televiziyasında bir dəfə də olsun nə spirtli içkilərin, nə tütünün, nə narkotik maddələrin, nə də silahların heç birinin reklamı getməyib, biz bunu etməmişik. Ona görə ki, bunlar qanunla qadağan idi və biz də göstərməmişik. İndi hansı televiziya göstəribsə, buna özü cavabdehdir. Bu məsələdə qanuna əməl olunmalıdır. Dəyişikliklər barədə fikirlərim var, onları mən bir mütəxəssis kimi, yazılı şəkildə komissiyaya təqdim edəcəyəm.

Hörmətli millət vəkilləri, Azərbaycan Respublikasının Prezidenti tərəfindən Milli Məclisə göndərilmiş bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi ilə bağlı qanun layihəsi bir daha göstərir ki, cənab Prezident cəmiyyətimizin sosial həyatı üçün narahatlıq yaradan heç bir detalı nəzərdən qaçırmır. Reklamın təyinatı aydındır. Fransızcadan dilimizə tərcümədə «çağırıram» mənasını verən bu söz müxtəlif əmtəələr, xidmət növləri haqqında informasiya vasitələri ilə tələbat yaradılmasını təmin etməlidir. Bu, tələbatın formalaşdırılmasında əsas vasitələrdən biri sayılır. Lakin bu da var ki, bu əsas vasitə cəmiyyətin təməl və sağlam həyat tərzinə, prinsiplərinə mənfi mənada təsir etməməlidir.

Bu mənada, «Reklam haqqında» Azərbaycan Respublikası Qanununun 17-ci maddəsinin birinci bəndi cənab Prezidentin təklifində ona görə xüsusi nəzərə alınıbdır ki, burada daha çox böyüməkdə olan gənc nəslin, ümumilikdə, gələcəyimizin taleyi, onun formalaşdırılması ilə bağlı bəzi məqamlar mövcuddur. Burada söhbət spirtli içkilərin reklamından gedir.

İlkin olaraq təklif edərdim ki, qanunun 17-ci maddəsinə təklif olunan «spirtli içkilərin bütün üsullarla reklamına aşağıdakı hallarda yol verilmir» cümləsi «spirtli içkilərin bütün üsullarla reklamına aşağıdakı formalarda yol verilmir»

şəklində redaktə olunsun. «Hallarda» sözü məkan və zaman anlayışı bildirdiyindən «reklamın formaları» semantika cəhətdən daha düzgün olardı. Həmin maddənin 3-cü bəndi «spirtli içkilərin içilməsinin ictimai, idman və şəxsi uğur qazanmaqda, yaxud fiziki və psixi halın yaxşılaşmasında vacib rolu olmasının təəssüratının yaradılmasına» kimi yox, «spirtli içkilərin ictimai, idman və şəxsi uğurların qazanmasında, yaxud fiziki və ya psixi halın yaxşılaşmasında müsbət rolu haqqında təəssüratının yaradılmasına qəti imkan vermək olmaz» şəklində verilsin.

Cənab sədr, hörmətli millət vəkilləri! Nəzərinizə çatdırıram ki, müasir dünyada reklam işində son zamanlar belə bir tendensiya – gizli, qabardılmayan reklam güclənməkdədir. Bu sahə üzrə ekspertlər sübut ediblər ki, birbaşa reklam effekti ilbəil aşağı düşür. Belə olan halda reklamçılar ilk baxışda nəzərə çarpmayan, ancaq daha səmərəli olan gizli reklamdan istifadə edirlər. Gizli reklamlar kinofilmlər, kliplər, kompüter oyunları, hətta cizgi filmlərində yerləşdirilir ki, mütəxəssislərin qənaəti də daha çox effekt verir.

Dünyanın bir çox inkişaf etmiş ölkələrində alkoqollu içkilərin və tütün məmulatlarının reklamının telekanallarda qadağan olunması həmin məmulatların adı çəkilən video məhsullara ayaq açmasını daha da intensivləşdirir. Müzakirələrdə bütün bunlar nəzərə alınmalı idi.

«İctimai televiziya və radio yayımı haqqında» Azərbaycan Respublikası Qanununun 14.9-cu maddəsinə təklif olunan variantda yazılır: «Reklamına Azərbaycan Respublikasının qanunvericiliyi ilə məhdudiyyətlər qoyulmuş məhsulların, habelə saat 7.00-dan 23.00-dək spirtli içkilərin reklamına yol verilmir». Mən həmin cümlənin belə redaktə edilməsini təklif edirəm: «Reklamına Azərbaycan

Respublikasının qanunvericiliyi ilə məhdudiyyətlər qoyulmuş məhsulların, habelə saat 7.00-dan 23.00-dək spirtli içkilərin heç bir formada reklamına yol verilmir». Zənnimcə, bu, bütün formalarda reklam anlayışını daha düzgün ehtiva edir. Bilirsiniz mən nəyə görə bu təklifləri verdim? İndi onları komissiyanın sədrinə verəcəyəm. Bir var əsl reklam, bir də var kinofilmlərin, cizgi filmlərinin içərisində gizli şəkildə verilən reklamlar. Bu tamamilə qadağan olunan bir şeydir və cinayət xarakteri daşıyır. Bunu bilməlidirlər. Diqqətinizə görə sağ olun.

3 mart 2006-cı il

Hörmətli sədr, hörmətli millət vəkilləri, bugünkü mövzumuz bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətlə bağlı illik məruzədir. Yəni 2005-ci illə əlaqədar məruzədir. Keçən il aprel ayının 19-da biz 2004-cü ilin hesabatını dinlədik və təbii ki, gələn il biz 2006-nın hesabatını dinləyəcəyik. Amma nədənsə, bu mövzu ətrafında bəzi deputatlar çox emosional çıxış edirlər. Hər kəs deyilən nöqsanı başqa mövzulara yönəltmək istəyir. Bu da tamamilə təbiidir. Çünki bələdiyyələrin cəmi 7 yaşı var. 1999-cu ildə yaranıb və yeni yaranan bir qurum, yeni yaranan struktur, təbii ki, uzun müddət işləmədiyinə görə, uzun müddət fəaliyyətdə olmadığına görə onun özünəməxsus müəyyən çatışmayan cəhətləri və perspektiv planları olacaq. Ona görə də bu cür söhbətlərin deyilməsi tamamilə təbiidir.

Mən konkret məsələlərə toxunmaq istəyirəm. Çünki burada çox məsələlər deyildiyinə görə onlar haqqında danışmayacağam. Əvvəla, sizə məlumdur ki, Ədliyyə Nazirliyində Bələdiyyələrlə İş və Bələdiyyələrə Metodoloji Yardım Mərkəzi bu işə rəhbərlik edir. Onun da rəhbəri Mehdi

Səlimzadə adlı çox ləyaqətli, çox qabiliyyətli bir insandır. Qısa müddətdə o, böyük fəaliyyət göstərib və təbii ki, gələcəkdə öz fəaliyyətini davam etdirəcəkdir. Burada görülən işlər əhalinin maariflənməsi, koordinator missiyasının həyata keçirilməsi, beynəlxalq əlaqələrin inkişaf etdirilməsi, təcrübə mübadilələrinin genişləndirilməsi, elmi-nəzəri seminarların keçirilməsi və s. bağlıdır. Bu heç də özbaşına olmayıb, müəyyən işlər görülüb. Düzdür, bunların bir hissəsi məruzədə ətraflı şəkildə deyilmədi, ancaq bu bizim gözümüzün qarşısında olan məsələlərdir.

Konkret olaraq, burada nöqsanlar nədən ibarətdir? Mən onları nəzərinizə çatdırıram. Yoxsa filan yerdə torpaq satdılar, filan yerdə qoymadılar, filankəs elədi və s. Mən bunu konkretləşdirib ümumiləşdirirəm. Birincisi, yerli büdcənin tərtib edilməsi, yaxud qanunvericiliyə zidd olaraq tərtib edilməsi. İkincisi, bələdiyyə sədrlərinin, yaxud kiminsə, bilmirəm, rayonda buna baxan, yaxud şəhərdə bu işi təşkil eləyən şəxsin, adətən, təkbaşına qərarlar qəbul etməsi. Üçüncüsü, bələdiyyənin seçicilər qarşısında hesabat vermək praktikasının sıfıra bərabər olması. Bələdiyyə sədrləri hesabat vermir. Nə istəyir, eləyir. Amma bunu seçiblər, bu seçkili orqandır. Bu cür tendensiya adamların bələdiyyə qurumlarına etimadsızlığına gətirib çıxara bilər. Ona görə də deməliyik ki, bələdiyyə torpaqları çox zaman təyinatına uyğun olmayan məqsədlər üçün və bələdiyyə sədrlərinin, yaxud icra başçılarının, yaxud əlaqədar şəxsin təkbaşına qərarları əsasında satılır.

Onu da təəssüflə qeyd etmək istərdim ki, yerli bələdiyyələrdə kollegiallıq yoxdur. Onun bürosu, onun kollegiyası bunu həll etməlidir və ümumilikdə hamı səs verməlidir, sonra qərar qəbul edilməlidir. Xarici ölkələrin təcrübəsindən də çox istifadə etməliyik. Təəssüf ki, zəif

istifadə edirik. Müqayisə üçün qeyd etmək istərdim ki, Türkiyədə insanlar bələdiyyələrin yardımını sosial həyatlarında addımbaşı görürlər, bələdiyyə məktəbləri yaradılır, bələdiyyə xəstəxanaları yaradılır, bələdiyyə uşaq evləri və bələdiyyələr tərəfindən təşkil olunmuş çeşidli xidmət növləri həyata keçirilir. Bunlar bizdə yoxdur.

Məruzədən də göründüyü kimi, Ədliyyə Nazirliyinin nəzdindəki mərkəz xeyli iş görüb və görür. Lakin həmin məruzədə ölkəmizdəki 2735 bələdiyyə qurumundan nümunəvi işi ilə seçilən bircə bələdiyyənin də adı çəkilmədi, həmin təcrübənin yayılmasından danışılmadı. Belə bir nümunə yoxdursa, əlbəttə, bu çox pisdir. Varsa, təcrübənin yayılmaması da yaxşı əlamət deyildi. Yekun olaraq, həmin mərkəzə təklif edirəm ki, cari ildə vətəndaşların bələdiyyələrin fəaliyyəti barədə məlumatlandırılması istiqamətində daha səmərəli işlər görsünlər. Möhtərəm Prezidentimizin göstərdiyi kimi, bu, bələdiyyələrdə məsuliyyət hissini artırmaqla bərabər, onların işində şəffaflığa da təminat yarada bilər. Diqqətinizə görə sağ olun.

7 mart 2006-cı il

Hörmətli sədr, hörmətli millət vəkilləri! Biz İnsan hüquqları daimi komissiyasının təqdim etdiyi Gender bərabərliyinin təminatları haqqında qanun layihəsini geniş şəkildə müzakirə edirik. Müzakirədən məlum olur ki, qanun layihəsi üzvü olduğumuz təşkilatın – Avropa Şurasının tələblərinə tamamilə uyğundur. Avropa Şurasının üzvləri bu qanunu müzakirə edib müəyyən qənaətə gəliblər. Bizim də vəzifə borcumuzdur ki, bu layihəni müzakirədən sonra qəbul eləyək.

Qanun layihəsi dolğun işlənib, burada Avropa Şurasının

və başqa dövlətlərin də təcrübəsi ciddi şəkildə nəzərə alınıbdır. Rastlaşdığım bəzi redaktə və üslub səhvlərini komissiyanın sədrinə verəcəyəm ki, ikinci oxunuş üçün onları düzəltsin. Mən onları sadalamaq fikrində deyiləm, ancaq bir məsələyə toxunmaq istəyirəm. Qadın və kişilərin bərabərlik hüquqlarının təmin edilməsi ilə əlaqədar olaraq keçmiş SSRİ dövründə, 1918, 1920, 1928, 1940-cı illərdə bizdə və Avropa ölkələrində qanunlar qəbul edilmiş və onlara ciddi şəkildə əməl olunmuşdu.

Möhtərəm Prezidentimiz Heydər Əliyevin vaxtında qadınların kişilərlə bərabərhüquqluluğu məsələsi həmişə diqqət mərkəzində olmuş, dövlət və hökumət strukturlarında onlara yer verilməsi nəzərə alınmışdır. Burada həmin məsələyə toxunuldu, mən də müəyyən cəhətləri demək istəyirəm. Avropa Şurasının üzvü kimi bunu qəbul eləyiriksə, burada mentalitetdən, bəzi seksual qruplardan söhbət gedirsə, həmin məsələlər Avropa Şurası səviyyəsində də qəbul olunmalı, qanuni şəkildə bizdə öz əksini tapmalıdır. Yoxsa nəyə görə deyəsən ki, biz elə bir ölkəyik, bunları qəbul etmək doğru olmazdı? Axı, belə şeylər var. Olduğu təqdirdə bunları qanun şəklində qəbul eləyib onlara qarşı müəyyən mənada rəyimizi bildirməliyik.

Mən çıxış edəndə bəzi müxalifət üzvləri qəti etiraz elədilər ki, Avropa Şurası bunu qəbul elədi, qurtardı, buna Avropa Şurası deyə bilər ki, əsas qanundur. Yaxşı, bunları da Avropa Şurası deyib ki, yer var ki, orada mentalitetlə bağlı şəxsi fikrə, müəyyən mübahisəyə ciddi ehtiyac var. Mən də o fikri qəbul eləyərək iki maddənin – 12 və 18-ci maddələrin üzərində dayanmaq istəyirəm. 12-ci maddədə belə yazılır: «İşçilərin əmək müqavilələrinin kütləvi şəkildə ləğv edilməsi hallarında işdən azad edilən bir cinsdən olan şəxslərin sayı həmin müəssisədə bu cinsdən olan işçilərin sayına mütənasib

olmalıdır». Buradakı fikir, ümumilikdə, qanunun ruhunu inkar edir, gender bərabərliyi prinsipini pozur.

Ola bilər ki, hansısa istehsal sahəsi rentabelli deyil və həmin sahə üzrə istehsal dayandırıldığından işçilər əvvəlcədən xəbərdarlıq olunmaqla ixtisara salınırlar. Bu o deməkdir ki, mütənasiblik xatirinə həmin sahədə işləyən kişilərin və ya qadınların əks cins nümayəndələrini də ixtisar edəcəklər. Ona görə də təklif olunur ki, həmin maddə bu redaksiyada verilsin: «İşçilərin əmək müqavilələrinin kütləvi şəkildə ləğv edilməsi hallarında cinsi mənsubiyyətə görə seçim yolverilməzdir». Belə fikir aydındır. Burada isə yazılır ki, bir müəssisədə ixtisar gedirsə, gərək böləsən, 4 qadın ixtisar edilirsə, 4 kişi də tapmalısan. Belə də qanun olar? Bu, hansı mənəvi haqla edilir? Əgər idarəyə, müəssisəyə işçi, rentabellilik lazımdırsa, bu işin öhdəsindən gələ biləcək ya qadın, ya da kişi nəzərə alınmalıdır. Bizə işin öhdəsindən gələn adam lazımdır, say bərabərliyinə nail olmağa ehtiyac yoxdur. Ona görə qanunun bu maddəsi dəyişdirilməlidir.

18-ci maddənin üçüncü bəndində yazılır: «Qeyri-hökumət təşkilatları gender bərabərliyi mədəniyyətinin təbliği sahəsində tədbir görməlidirlər». Təklif olunan redaktə: «Qeyri-hökumət təşkilatları gender bərabərliyi mədəniyyətinin təbliği sahəsində tədbirlər görmək öhdəliklərini nizamnamələrində əks etdirməlidirlər». Burada vəzifə daha konkret əks olunur. Bu da, ümumilikdə, qanunun tələblərindən biridir. Yəni qeyri-hökumət təşkilatları Nazirlər Kabineti deyil, Milli Məclis deyil, Prezident Aparatı deyil. Belə çıxır ki, təbliğat sahəsində tədbir görməlidir. Bu nə tədbir görə bilər? Getsin, öz təşkilatı ilə məşğul olsun. Burada, ola bilər ki, qeyri-hökumət təşkilatları gender bərabərliyi mədəniyyətinin təbliği sahəsində tədbirlər görmək öhdəliklərini nizamnamələrində əks etdirməlidirlər. Məgər bu

hökumətin qayda-qanununu qeyri-hökumət təşkilatı həll eləyir? Bu baxımdan dediyim maddələrdə müəyyən dəyişiklik aparmaq lazımdır. Ancaq bu qanunun qəbul olunması mütərəqqi bir haldır. Qanun dolğun işlənilibdir. Kiçik qüsurlar nəzərə alınmaqla onu ikinci oxunuşa çıxarmaq olar.

10 mart 2006-cı il

Hörmətli sədr, hörmətli millət vəkilləri! Bildiyiniz kimi, Azərbaycan Respublikasında təməli ulu öndərimiz tərəfindən qoyulmuş iqtisadi, sosial strategiya bu gün də uğurla davam etdirilir. Bu strategiyanın həyata keçirilməsi respublikamızı dərin iqtisadi, siyasi, sosial böhrandan çıxarmış, ölkəmizdə makroiqtisadi sabitlik təmin olunmuş, əhalinin yaşayış, həyat səviyyəsi ardıcıl olaraq inkişaf etmiş, respublikamız inkişaf tempinə görə dünyada liderlik səviyyəsində duran dövlətlər sırasına çıxmışdır. Bu fakt vətənimizin hər bir övladını qürurlandırır, sevindirir və işləməyə, yaratmağa olan həvəsini gündən-günə artırır.

Hörmətli Baş nazir Artur Rasizadənin verdiyi hesabatda qeyd olunduğu kimi, cənab Prezidentimiz İlham Əliyev tərəfindən ölkənin sosial-iqtisadi inkişafına 2004-2008-ci illər üzrə respublikanın sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramının həyata keçirilməsi ilə bir daha təkan verilir. O, bununla bir çox qlobal, respublikamızda həyat üçün zərurət təşkil edən vəzifələrin təmin olunmasını qarşıya əsas vəzifə və məqsəd kimi qoymuş oldu. Bunlardan respublikamızda suveren, sosial-iqtisadi inkişafa nail olmaq, sənaye sahələrini inkişaf etdirmək, qeyri-neft sektorunun inkişafı, sosial sferanın inkişafı, yoxsulluğun səviyyəsinin azaldılması, regionların inkişafı, ölkənin müdafiə qabiliyyətinin möhkəmlənməsi və sairi göstərmək olar.

Hörmətli Prezidentimiz İlham Əliyev tərəfindən müəyyənləşdirilmiş məqsəd və vəzifələr sözlə yox, dövləti idarəetmənin prinsiplərinə uyğun müvafiq qanuni, tənzimləyici sənədlərin, proqramların qəbul olunması şəklində düşünülmüş ardıcıl fəaliyyətlə həyata keçirilir. İlin yekun göstəriciləri və cənab Prezidentin regionlara səfərləri, yeni iş yerlərinin açılması və bu proseslərdə vətəndaşların söylədikləri fikirlər həmin məqsədlərin mütəmadi, ardıcıl, uğurla həyata keçirildiyini bir daha sübut edir.

Respublikamızda ildən-ilə artan iqtisadi nailiyyətlər 2005-ci ildə də iqtisadiyyatın əsas nəticəsində özünü büruzə vermişdir. Ümumi daxili məhsulun 2004-cü ilə nisbətən müqayisədə 26,4 faiz artması və onun məbləğinin 59,4 trilyon manata, yəni 12,6 milyard dollara çatması çox əhəmiyyətli iqtisadi nəticədir. Yoxsulluğun azaldılması istiqamətində aparılan işlərin nəticəsində ölkədə yoxsulluğun səviyyəsi 40,2 faizdən 29,3 faizə qədər azalmışdır.

Regionlarda 2003-cü ilin oktyabrından sonra 346 min yeni iş yerləri açılmış, bu, 2005-ci ildə 169 min təşkil etmişdir. 2005-ci ildə sosial sahə üzrə, o cümlədən təhsilin, mədəniyyətin müasir tələblərə uyğun olaraq inkişafına, bu sahələrin maddi-texniki bazasının möhkəmləndirilməsi, keyfiyyətinin yüksəldilməsi və sair istiqamətlərdə müəyyən işlər görülmüşdür. 2003-2007-ci illər üzrə yeni məktəblərin tikintisi, müasir tədris, texniki avadanlıqlarla təminat Dövlət Proqramına əsasən xeyli işlərin görüldüyünü göstərdi. Ali təhsil istiqamətində təhsil sisteminin Avropaya inteqrasiyası davam edir. Elm sahəsində Milli Elmlər Akademiyasına ildən-ilə maliyyə vəsaiti artırılmış, 2004-cü illə müqayisədə 30 milyon manat artıq vəsait verilmişdir. Mədəniyyət üzrə işçilərin əmək haqqı 2 dəfə artmışdır. Bir daha hesabatdan göründüyü kimi, respublikamız dinamik, sosial-iqtisadi

inkişaf yolundadır. Biz bu hesabatı müsbət qiymətləndirməklə bərabər onun cari ildə də uğurla davam etdirilməsinə öz dəstəyimizi verəcəyik. Bu gün Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci ildəki fəaliyyəti haqqında hesabatını yüksək qiymətləndirir, gələcək işlərində müvəffəqiyyət arzulayıram.

14 mart 2006-cı il

Hörmətli sədr, hörmətli millət vəkilləri! Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili Elmira xanım Süleymanovanın Milli Məclisə təqdim etdiyi illik məruzə insan hüquqları və demokratik prinsiplərin cəmiyyətimiz üçün prioritet olduğunu bir daha təsdiq edir. Bildiyimiz kimi, bu təsisatın özünü də demokratik dəyərlərə münasibətimiz yaratmışdır.

Məruzədən göründüyü kimi, ötən il müvəkkilə 7 min 460 müraciət daxil olmuşdur. Bu rəqəm ölkə əhalisinin 0,1 faizindən azını əks etdirsə də, özlüyündə az deyil. Amma nəzərə alsaq ki, ombudsman institutu cəmiyyətimiz üçün yeni bir qurumdur və yenicə populyarlıq qazanır, bu rəqəmin ciddiliyi daha çox nəzərə çarpır. Qurumun missiyası belədir – dövlət və Özünüidarə orqanları, vəzifəli şəxslər tərəfindən pozulan insan hüquq və azadlıqlarının bərpa olunması məqsədi ilə təsbit olunmuş məhkəmədənkənar hüquq müdafiə orqanı.

Elmira xanımın məruzəsini dinlədik. Çox yaxşı. Hansısa vətəndaşlarımızın şəxsiyyət vəsiqəsi alması və sair məsələlərin həll edilməsində, adamların pozulmuş mənzil və əmək hüquqlarının bərpasında yaxından iştirak ediblər. Bütün bunlar çox yaxşı. Biz bunları ətraflı şəkildə dinləyə bildik və məruzədən oxuduq. Amma yaxşı olardı ki, daha çox qlobal

məsələlərin həlli haqqında danışılaydı. Elmira xanım məruzədə adı çəkilən BP, ŞEL, Koka-Kola, Azercell, Bakcell kimi nəhəng şirkətlərdə Həmkarlar İttifaqının fəaliyyətinə qarşı əngəllər haqqında danışdı. Lakin bu işdə hansı konkret nəticəyə nail olunduğu barədə məlumat verilmədi. Əcnəbi şirkətlər onu heç vaxt yaddan çıxarmamalıdırlar ki, onlar Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərir və bu ölkənin qanunlarına, həmin qanunların qoruduğu vətəndaş hüquqlarına hörmət etməyə borcludurlar. Həmkarlar İttifaqı təşkilatlarında birləşmək də həmin vətəndaşların müstəsna hüququdur və bunu heç kim poza bilməz. Lakin bir çox xarici şirkət Azərbaycan Respublikasının qanunlarına əməl etmir və onu kobud surətdə pozur. Hörmətli ombudsmanımız belə məsələlərdə ardıcıl və prinsipial olmalıdır.

Məruzədə qaçqın və məcburi köçkün statusunda olan bir milyona yaxın soydaşımızın taleyi ilə bağlı görülmüş işlərdən söhbət açılarkən daha çox qaçqınların və məcburi köçkünlərin işləri üzrə dövlət komissiyasının adı çəkildi. Sözsüz ki, adı çəkilən komitə qaçqın və məcburi köçkünlərin ümid yeridir. Ölkə Prezidentinin onlara qayğısı və diqqəti ümidi daha da artırır. Mən istərdim ki, ombudsmanın sonrakı fəaliyyətində həmin məsələ ilə bağlı daha çox beynəlxalq və regional təşkilatlarla aparılan iş xüsusi yer tutsun.

Dünya azərbaycanlılarının mart ayının 16-da keçirilən II qurultayı hamımıza qürur verməklə bərabər qarşımızda vəzifələr də qoyur. Bu kontekstdən çıxış edərək bildirmək istərdim ki, bu illik məruzədə xaricdə yaşayan Azərbaycan vətəndaşları ilə bağlı heç nə yoxdur. İnsan hüquqları üzrə müvəkkil institutu bütün demokratik ölkələrdə var. Mən istərdim ki, həmin ölkələrdə müvəqqəti yaşayan soydaşlarımızın haqlarının qorunması ombudsmanımızın beynəlxalq fəaliyyətində prioritet olsun. Miqrasiya və

emiqrasiya insanın beynəlxalq hüquq normaları ilə tanınmış hüququdur. Buna baxmayaraq, bəzi ölkələrdə, xüsusi ilə 200 illik müştərək tariximiz olan ölkələrdə azərbaycanlıların etnik və irqi mənsubiyyətinə görə hüquqlarının pozulması ilə bağlı xəbərlər cəmiyyətimizdə tez-tez eşidilməkdədir. Ombudsman institutu həmin ölkələrdə də var və gələcək fəaliyyətində Elmira xanım həmin ölkələrin insan haqları üzrə müvəkkilləri ilə əməkdaşlığı bu istiqamətdə qursa, oradakı Azərbaycan vətəndaşlarının pozulan hüquqlarına diqqəti cəlb etsə, bu, sözsüz ki, təsirsiz qalmaz. Sağ olun.

24 mart 2006-cı il

Hörmətli sədr, hörmətli millət vəkilləri, biz bu layihəni çox geniş şəkildə müzakirə edirik. Hamımıza məlumdur ki, bu Qanun 1994-cü ildə qəbul edilib. Biz bunu qəbul edəndə geniş müzakirə etmişik və 1994-cü ildən bu günə qədər bu qanun qüvvədədir. İndi həmin Qanunun cəmi 2 maddəsində – 3-cü və 7-ci maddələrində müəyyən dəyişiklik olunubdur. Biz onun müzakirəsini bu gün həyata keçiririk. Ancaq çox təəssüf ki, burada çıxış edənlər bütövlükdə Qanun haqqında, onun maddələri haqqında təkliflər irəli sürürlər. Mən bu iki maddə haqqında təklifimi irəli sürmək istəyirəm.

Birincisi, indi təklif olunan variantda təkcə Yaponiyanın adı çəkilib. Bəs İtaliya, Rumıniya, Polşa və digər ölkələrdə faşizmə dəstək verən silahlı qüvvələrlə vuruşanları nə adlandıraq? Ona görə də göstərəcəyim variantı təklif edirəm. Əvvəla, burada söhbət imperialist Yaponiyasından, faşist Almaniyasından getdi. 1994-cü ildə biz bunu qəbul etdik, indi həmin formada da gedir. Onda gərək biz İtaliyanın da adını çəkək. Onda Mussolini hökuməti idi, faşist İtaliyası idi. Yaxşı olar ki, elə həmin ölkələrin adları ya çəkilsin, ya da onun

müttəfiqlərinin adı verilsin. Ona görə də mən təklif edirəm ki, 3-cü maddə bu şəkildə yazılsın: «Azərbaycan Respublikasının vətəndaşları və ölkə ərazisində daimi yaşayan, II Dünya müharibəsi illərində Sovet İttifaqı Silahlı Qüvvələrinin, həmçinin müttəfiq orduların, partizan dəstələrinin tərkibində alman faşizmi və onun müttəfiqləri ilə döyüş əməliyyatlarında iştirak etmiş şəxslər». Belə getsə, daha düzgün və aydın olar.

7-ci maddədə veteran adları belə sadalanır: «müharibə veteranı, Silahlı Qüvvələrin veteranı və əmək veteranı». Bu, fikri tam əhatə etmir. Ona görə ki, burada Əfqanıstan veteranlarının adı çəkilmir, Vyetnam döyüşlərindəki veteranların adı çəkilmir və Çernobıl kateqoriyasına aid olan adamların adları çəkilmir. Mən təklif edərdim ki, bu belə yazılsa, yaxşıdır: «müharibə veteranı, Silahlı Qüvvələrin veteranı, əmək veteranı və onlara bərabər tutulan veteranlar». Hər halda hüquqşünaslar bu barədə fikirləşsələr, daha yaxşı olar.

İkinci tərəfdən, bu variantda veteranların hər biri nəzərə alınır. Bəs necə olur ki, Azərbaycan ərazisində Qarabağ müharibəsi şəhidləri nəzərə alınır, əlillər nəzərə alınır, lakin Qarabağ döyüşlərində iştirak edən veteranların ailələrinə həmin güzəştlər verilmir? Ona görə də təklif edərdim ki, burada Qarabağ müharibəsi veteranlarının da ailələrinə həmin güzəştlərin aid edilməsi nəzərə alınsın. Diqqətinizə görə sağ olun.

7 aprel 2006-cı il

Hörmətli sədr, hörmətli millət vəkilləri! Azərbaycan Respublikasının «Daxili işlər orqanlarında qüsursuz xidmətə görə» medalının Əsasnaməsinin bu gün təsdiq edilməsi, doğrudan da, çox vacib və təxirəsalınmaz məsələlərdən

biridir. Çünki Azərbaycan dövlətçiliyinin, ümumiyyətlə, dövlətçiliyin möhkəmlənməsində daxili işlər orqanları çox böyük fəaliyyət göstərirlər. Ona görə də onların qüsursuz fəaliyyətinin qiymətləndirilməsi, bu və ya digər şəkildə mükafatlandırılması çox vacibdir. Bu onları həvəsləndirmək və öz işlərinə sədaqətini bir qədər də möhkəmləndirmək vəzifəsi daşıyır. Ona görə də bu çox vacibdir.

Ancaq burada çıxış eləyən deputatlar müəyyən məsələləri qaldırdılar. Şəxsən mənim fikrim ondan ibarətdir ki, «qüsursuz xidmətə görə» ifadəsi bir qədər dəqiqləşdirilməlidir. Onu düzgün təklif elədilər. Əvvəla, Daxili İşlər Nazirliyinin işçisi vaxtından tez də işə gələ bilər, vaxtında işdən gedə də bilər və işdə otura da bilər, işləyə də bilər və heç bir qüsuru da olmaz. Belə çıxır ki, bunların hamısına medal vermək lazımdır. Ona görə də mən təklif eləyirəm ki, «qüsursuz» sözü ilə yanaşı orada bir «fədakar» sözü də yazılsın – «qüsursuz və fədakar fəaliyyətinə görə». Vaxtında gəlib vaxtında getmək və xüsusi bir fədakarlıq göstərmədən qüsursuz işləmək olar. Belə çıxır ki, hərəyə bir medal vermək lazımdır. Bu mənada o sözü artırmağa çox ciddi ehtiyac var.

Burada təklif olundu ki, bu medallar verilərkən filan məsələlər nəzərə alınsın. Heç unutmaq lazım deyil ki, Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, başqa nazirliklər öz sahələri üçün müəyyən mükafatlar, medallar, ordenlər təsis eləyə bilərlər. Bu, sahə adamları üçündür. Hər bir qüsursuz işləyən adama Daxili İşlər Nazirliyinin medalını verməyəcəklər ki. Ona görə bu sahə üzrə verilən həmin medalın strukturu öz Əsasnaməsinə tam uyğundur.

Burada bir məsələ də qalır. Daxili işlər orqanlarında 20 il işləyənə I, 15 il işləyənə II, 10 il işləyənə III dərəcəli medal veriləcək ki, bunlar da bir-birindən seçilən şəkildədir. Birinə

qızılı lövhə asılacaq, o birinə yox. Burada dəqiqləşmə getsə, daha yaxşı olar, çünki yazısı arxasında olacaq, üstündə bilinməyəcək. Yenə camaat fikirləşəcək ki, filan lövhə varsa, bu, demək, I dərəcəlidir, yoxdursa, III dərəcəlidir, heç nə yoxdursa, bu lap ali dərəcəlidir. Yəni burada müəyyən dəqiqləşməyə ehtiyac var. Ümumiyyətlə, bu Əsasnamənin qəbul edilməsinə mən tərəfdaram.

* * *

Hörmətli sədr, hörmətli millət vəkilləri! Mən bu qanun layihəsinin müzakirəsi ilə əlaqədar çıxış eləyən deputatlara bayaqdan diqqətlə fikir verirəm. Onların əksəriyyəti hüquqşünasdır. bu qanunun ayrı-ayrı maddələrini çox uyğun və mükəmməl şəkildə şərh edirlər. İlk olaraq bildirmək istərdim ki, şübhəli və təqsirləndirilən şəxslərin həbsdə saxlama yerlərində saxlanması haqqında Azərbaycan Respublikası qanununun layihəsi ideologiyasına görə aktualdır.

İnsan haqlarına hörmət ruhunda hazırlanan qanun layihəsi haqqında danışmazdan əvvəl, onun adı ilə bağlı bir-iki söz demək istərdim. Bu barədə məndən qabaq çıxış edən hüquqşünaslar da fikirlərini bildirdilər. «Həbsdə saxlama yerlərində saxlanılması» ifadəsini daha yaxşı olardı ki, «təcridxanalarda saxlanılması» kimi yazaq. Bu həm mənalı, daha geniş ifadə edir, həm də ədəbi dilin normalarına uyğun olur. «Həbsdə saxlama yeri» hansısa məkanı ehtiva edir və sözsüz ki, həmin məkan şübhəli, təqsirləndirilən, məhkum olunan, tutulan və başqa adamları təcrid üçündür. Həmin istintaq təcridxanası sonradan müvafiq təyinata uyğun olaraq «hauptvaxt» və yaxud «karser» adlandırıla bilər. Burada o təklif oldu, amma mən bir dilçi kimi dəqiqləşdirirəm. Ad bir

az qısa, aydın və mənalı olmalıdır. «Şübhəli və ya təqsirləndirilən şəxslərin həbsdə saxlama yerlərində saxlanılması haqqında» – bu, şeirə oxşayır. Ona görə də təklif edirəm ki, bunun adı konkret olaraq belə yazılsın: «Şübhəli və ya təqsirləndirilən şəxslərin təcridxanalarda saxlanılması haqqında», yaxud «Şübhəli və ya təqsirləndirilən şəxslərin istintaq təcridxanalarında saxlanılması haqqında».

Qanun layihəsinin üçüncü fəslinin 33-cü maddəsi belə adlanır: «Həbsdə saxlama yerinin müdiriyyətinin vəzifələri». Mən təcridxanalarda şübhəli və təqsirləndirilən adamların heç də hamısının öz hüquq və vəzifələrini yaxşı bilmədiklərini nəzərə alaraq təklif edərdim ki, həmin maddəyə təklif etdiyim şəkildə bir bənd əlavə olunsun. Bu həmin sahənin rəisləri üçün nəzərdə tutulmuş vəzifəyə aiddir: «Şübhəli və ya təqsirləndirilən şəxsin hüquq və vəzifələrini əks etdirən hüquqi sənədlərlə onları tanış etmək». Sirr deyil ki, şübhəli və ya təqsirləndirilən, məhkum olunan adamların öz hüquq və vəzifələrini bilməmələri daha çox neqativ hallar üçün şərait yaradır. Əslində, islah olmalı adamların nəzərə çarpan hissəsi daha çox kriminallaşır ki, bu da ümumilikdə cəmiyyətimiz üçün təhlükəlidir.

Mən burada onu da qeyd edim ki, qanunun adı ilə bağlı bayaq təklif etdiyim ifadəni bu qanunda müəlliflərin elə özləri sinonim olaraq işlədiblər. Əsas anlayışlarda müvəqqəti saxlama yerləri istintaq təcridxanaları kimi izah olunub. Yəni bunu özləri də deyiblər, ancaq əməl etməyiblər.

Ümumiyyətlə, mən bu qanun layihəsinin beynəlxalq hüquq qaydalarına tam uyğunluğunu nəzərə alaraq, qəbul edilməsini təklif edirəm.

21 aprel 2006-cı il

Hörmətli sədr, hörmətli millət vəkilləri! Mənim yaxşı yadımdadır ki, dərman preparatları ilə əlaqədar qanun 1996-cı ildə müzakirə olundu, qəbul edildi. 1997-ci ildə yenidən müzakirə olundu. 2002-ci ildə bir daha müzakirə olundu, indi də 2006-cı ildə bir daha müzakirə olunur. Hər dəfə bu qanun təkmilləşir və bunun təkmilləşməyə çox ciddi ehtiyacı var, qəbulları da, təkmilləşməni də mən təbii bir proses hesab edirəm. 4 fəsil və 19 maddədən ibarət olan bu qanun layihəsinin bütün maddələri zəruri və lazımlıdır. Heç təsadüfi deyil ki, Musa müəllimin məruzəsində biz dinlədik ki, 2600-ə qədər dərman preparatı qeydiyyatdan keçibdir. Ancaq satışda onların sayı 5 mindən, yəni 2 dəfədən çoxdur. 5 mindən artıq dərman satılır ki, bunun yarısı da qeydiyyatdan keçməyib.

Burada çıxış edənlər tamamilə düzgün bir məsələyə toxundular ki, həmin dərmanların çox böyük hissəsi formaca dərmandır, məzmunu yoxdur. Atırsan, baş ağrısına xeyir etmir, başqa xəstəliklərə xeyir etmir. Deməli, bunlar süni şəkildə düzəldilmiş, üstünə isə başqa adlar yazılmış, yaxud düzgün hazırlanmamış dərmanlardır. Ona görə də bizim qanunlar daha möhkəm, ciddi olmalıdır, çünki söhbət insanın sağlamlığından gedir. Burada bəzi yoldaşlar dedilər. Xeyr, bu saat müəyyən xəstəxanalara pulsuz dərmanlar paylanır və onlardan da kifayət qədər istifadə edirlər. Lakin bunun keyfiyyəti və kəmiyyətini artırmaq lazımdır. Bütün bunlarla əlaqədar mənim bir neçə təklifim var, xahiş edirəm, onlara diqqətli olasınız.

Göstərilən qanun layihəsinin 3-cü maddəsi «Dərman vasitələri ilə davranış sahəsində dövlət siyasətinin əsas prinsipləri» adlanır və həmin prinsiplər sadalanır. İstərdim ki, həmin maddəyə belə bir bənd əlavə olunsun: «Dərman bazarının Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq tənzimlənməsi». Bu bəndin artırılmasını ona görə

zəruri hesab edirəm ki, dəyişən hər bir məqamda dövlət vətəndaşlar qarşısında məsuliyyətdən irəli gələ biləcək qanunla nəzərdə tutulmayan addımlar da ata bilsin.

Qanun layihəsinin II fəslinin 4-cü maddəsindəki 2-ci bəndinin üçüncü hissəsində yazılır: «dərman vasitələrinin idxalına icazə verir». Müvafiq icra hakimiyyəti orqanının əczaçılıq fəaliyyətinin tənzimlənməsinə yönələn bəndlərindən birində idxal haqqında danışılırsa, bu, ixraca da aid edilə bilər. Ona görə də təklif edirəm ki, həmin hissə belə yazılsın: «4.2.3. dərman vasitələrinin idxalına və ixracına icazə verir». Musa müəllimin məruzəsindən də dinlədik, çox qəribə haldır ki, Azərbaycana gələn dərmanların 99 yox, 100 faizi alınmadır, hamısı idxaldır. İxraca bir dənə də dərman getmir. Həqiqətdə isə bu dərmanlar gedir, sahibkarlar tərəfindən xaricə göndərilir, yəni ixrac olunur. Ancaq bu, sadəcə olaraq, dövlət nəzarətindən, dövlət qeydiyyatından kənar gedir. Ona görə də qanun layihəsində yazılmalıdır: «idxalına olunduğu kimi ixracına da icazə verir». Yəni dövlət tərəfindən bunlara nəzarət olunmalıdır. Həmin maddənin 2-ci bəndinin altıncı hissəsində yazılır: «Həyati vacib və təcili hallarda istifadə edilən dərman vasitələrinin siyahısı»nı təsdiq edir». Bu hissə belə redaktə edilərsə, daha məqsədəuyğun olardı: «Həyati vacib və təxirəsalınmaz hallarda istifadə edilən dərman vasitələrinin siyahısı»nı təsdiq edir». Həmin maddəyə əsaslı fəaliyyətin tənzimlənməsi ilə məşğul olan müvafiq icra hakimiyyəti orqanının funksiyalarına dərman vasitələrinin saxlanılması ilə bağlı xüsusi qaydaların hazırlanıb təsdiq olunması da əlavə olunmalıdır.

Heç kimə sirr də deyil ki, müəyyən apteklərdə dərman saxlanılması biabırçı vəziyyətdədir və bu çox zaman ağır nəticələrə aparıb çıxarır. Sizə məlumdur ki, süni özəl apteklər açılıb, orada dərmanlar çox yarıtmaz halda saxlanılır və onlar

müvafiq təlimata uyğun saxlanılmır. Ancaq çox təəssüf ki, bu məsələ qanun layihəsinin bir maddəsinə və bəndinə salınmayıb.

Qanun layihəsinin IV fəslinin 17-ci maddəsi «Dərman vasitələrinin istifadəsi nəticəsində insanın sağlamlığına vurulmuş zərərin ödənilməsi» adlanır. Bu maddədə bir sıra məqamlar nəzərə alınsa da, istehsalçının səhvi nəticəsində vurula biləcək zərər nəzərə alınmamışdır. Zənnimcə, bu, hökmən qeydə alınmalıdır, çünki həkimin, satıcının nöqsanı nəzərə alınır, əsas onu istehsal eləyib yaman günə qoyan istehsalçının nöqsanı nəzərə alınmır. Ona görə də təklif edirəm ki, oraya istehsalçının adı da hökmən yazılsın.

* * *

Hörmətli sədr, hörmətli millət vəkilləri! 7 fəsil, 29 maddədən ibarət olan bu qanun layihəsini mən diqqətlə oxudum. Nizami Cəfərovun geniş və məzmunlu məruzəsini dinlədim. Doğrudan da, bu qanun çoxdan qəbul olunmalı və teatrlarımız, teatr işçiləri, teatr xadimləri üçün normal şərait çoxdan yaradılmalı idi. İndi də gec deyil, bu qanun normal şəkildə qəbul olunmalıdır. Burada bir neçə məsələyə aydınlıq gətirmək lazımdır.

Azərbaycan teatrının tarixi qədimdir. 1873-cü ildə Mirzə Fətəli Axundovun komediyaları vasitəsi ilə yaradılıbdır. Azərbaycanda sovet hakimiyyəti qurulandan və demokratik cümhuriyyət yaradılandan, yəni hələ 1919-cu ildən həmin teatra dövlət teatrı adı verilibdir. Bu formada sovet dövründə çox geniş və ətraflı şəkildə fəaliyyət göstəribdir və onların fəaliyyəti də yüksək qiymətləndirilir.

Qanun layihəsinin preambula hissəsində mənə məlum olmayan bir neçə məsələ var. Orada mülkiyyət forması ilə

fəaliyyət forması qarışdırılır. Məsələn, fəaliyyətinə görə 3 növ teatr var: dövlət teatrı, qeyri-dövlət teatrı və bələdiyyə teatrı. Bütün dünyada belədir. İndi layihədə fəaliyyət növünə görə 5 növ müəyyən ediblər. Bunlar hansılardan ibarətdir: kommersiya teatrı, qeyri-kommersiya teatrı. Yaxşı, var dövlət teatrı, bir də qeyri-dövlət teatrı. Qeyri-dövlət teatrı içərisində bunların hamısı ehtiva olunur. Əli Məsimli çıxış edəndə çox düzgün olaraq preambulanın bu hissələrinə bir qədər də diqqətli olmağı tövsiyə etdi. Burada oxuyuram: «kommersiya teatrı mülki qanunvericilikdə nəzərdə tutulan əsaslarla kommersiya təşkilatları üçün yaradılan teatr müəssisəsi». Bu, kommersiya teatrıdır. Sonra gəlir qeyri-kommersiya teatrı, sonra dövlət teatrı belə müəyyən edilir: «Dövlət orqanı tərəfindən yaradılan və qeyri-kommersiya fəaliyyəti ilə məşğul olan teatr müəssisəsi». Mən bilmirəm, nəyə görə 5 növə ayırıblar.

Unutmaq lazım deyil ki, burada həm də belə bir cümlə verilib: «mülki qanunvericilikdə nəzərdə tutulan əsaslarla qeyri-kommersiya təşkilatları üçün yaradılan teatr müəssisəsi». Teatr müəssisəsi təşkilatlar üçün yaradılmır, adamlar, insanlar üçün yaradılır. Bu ifadələr də dəqiqləşdirilməlidir. Mən bilirəm, layihəni Mədəniyyət və Turizm Nazirliyi hazırlayıbdır. Nizami müəllim çox düzgün dedi. Teatrın rəhbəri kim olmalıdır? Teatrın rəhbəri kommersant ola bilər? Teatrın yaradıcısı, rəhbəri rejissordur. Rejissor aktyorları seçir, müəyyənləşdirir. Belə şeylərin üstündə mübahisə edərlər?

Dediyim məsələlərdən əlavə burada bir xüsusiyyət də var. 4-cü maddənin birinci bəndində yazılır: «teatr sənətindən və teatr yaradıcılığından bəhrələnmək hüququnun hər bir vətəndaşa aid olunması». Həmin bənd bu cür gedərsə, daha məqsədəuyğun olardı: «hər bir vətəndaşın teatr sənəti və teatr

yaradıcılığından bəhrələnmək hüququnun təmin olunması». Belə olanda teatr və teatr fəaliyyəti ilə bağlı dövlət və vətəndaş münasibətləri daha aydın ifadə edilmiş olur. Burada «səhnə əsəri» anlayışı belə verilir: «teatr tamaşasının canlı ifada kütləvi nümayişi». Teatr elə səhnə əsəridir də. Bu, hekayə deyil, dram, səhnə əsəridir. Bu anlayışların dəqiqləşdirməyə çox ciddi ehtiyacı var. Ancaq bu qanunun qəbul edilməsi isə uğurlu və müvəffəqiyyətli bir fikirdir. Layihənin birinci oxunuşda qəbul olunmasına tərəfdaram. Növbəti oxunuşlarda onu maddələr üzrə oxuyub müzakirə edərik. Diqqətinizə görə sağ olun.

25 aprel 2006-cı il

Hörmətli sədr, hörmətli millət vəkilləri! Mən çıxışlara çox diqqətlə qulaq asdım, məsələ çox aktualdır. Müstəqil Dövlətlər Birliyinin Dövlət Başçıları Şurasının 2004-cü il sentyabrın 16-da Astana şəhərində keçirilən iclasında imzalanan bu qərar Mərkəzi Asiya regionunda narkotiklərin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizənin əlaqələndirilməsi işində, əlbəttə, səmərəliyi artıracaq. Nəzərə alsaq ki, Müstəqil Dövlətlər Birliyi ölkələrinin böyük əksəriyyəti üçün narkotiklərin və prekursorların qanunsuz dövriyyəsi heç də azalan xətlə müşahidə olunmur, onda bunun əhəmiyyəti daha qabarıq görünər.

Mövzu ətrafında danışarkən mən bir daha diqqəti Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal edilmiş ərazilərində və Dağlıq Qarabağda salınan narkotik plantasiyalara yönəltmək istərdim. Bu, artıq beynəlxalq təşkilatların da qəbul etdiyi faktdır. Mərkəzi ofisi Kiyev şəhərində yerləşən Xarkov Araşdırma Mərkəzinin Birləşmiş Millətlər Təşkilatı üçün hazırladığı hesabatda yazılır:

«Ermənistan silahlı qüvvələrində gərgin mühit əsgərlər arasında qorxu və stress vəziyyətini artırıb. Hər 10 əsgərdən altısı artıq müxtəlif çeşidli narkotik maddələrdən istifadə edir». Bu misal işğalçı Ermənistan ordusunda yaşanan vahimənin göstəricisi olduğu kimi, nəzarətsiz ərazilərdə ildən-ilə genişlənən narkotik plantasiyaların da göstəricisidir.

Mən sizin yadınıza salmaq istəyirəm ki, 2001-2002-ci illərdə hörmətli Prezidentimiz Avropa Şurasında nümayəndə heyətinin rəhbəri olarkən həmin narkotik maddələrin Qarabağ bölgəsində əkilməsi haqqında ciddi çıxış etdi və bu çıxışın da mühüm təsiri oldu. İndi həmin müddətdən 5-6 il keçir. Yenə də ermənilər öz bildiklərini edir və Qarabağda həmin fəaliyyətləri ilə məşğuldurlar. Rusiya Federasiyasının rəsmi qanunları və Müstəqil Araşdırma Mərkəzinin rəsmən ortalığa qoyduğu məlumat bundan ibarətdir ki, Rusiyanın narkotik bazasının 78 faizini Orta Asiya respublikaları təmin edirsə, yerdə qalan 22 faizi Qafqaz regionunun payına düşür. Sözsüz ki, həmin mənbələr, adətən, konkret Ermənistan anlayışını Dağlıq Qarabağ regionu kimi təqdim etməkdə maraqlıdırlar.

Bütün bunları nəzərə alaraq Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin ərazisində mütəşəkkil cinayətkarlıq və digər təhlükəli cinayət növləri ilə mübarizənin əlaqələndirilməsi haqqında Əsasnaməyə Azərbaycan tərəfinin əlavəsini təklif edərdim. Həmin əlavədə işğal zonalarında bu növ cinayətlərlə mübarizənin forması əks olunmalıdır. Heç kim üçün gizli deyil ki, narkotik maddələrin gəliri terror, separatçılıq və onlardan doğan silah qaçaqmalçılığı üçün xərclənir. Məhz həmin faktların gündəmdə olması narkobiznes üçün münbit şərait deməkdir.

Diqqətinizə belə bir faktı çatdırıram. Amsterdamdakı transmilli sənədli informasiyalar üzrə strateji mərkəzin əməkdaşları dünya praktikasında analoqu olmayan tədqiqat

işinə yekun vurublar. Ekspert qrupunun Ermənistanda və Azərbaycanda müəyyənləşdirdiyi narkotik maddələrin aludəçilik əmsalı belə görünür: Ermənistanda adamların 35 faizi onların əkilməsində, 11 faizi daşınmasında, 40 faizi isə satılmasında iştirak edir. Bu faiz əmsalı Azərbaycanda müvafiq olaraq belədir: 2, 4 və 6 faiz. Biz tərəf olaraq ad ^əkilən qərara Azərbaycan Respublikasının qeyd-şərti ilə, yəni maliyyə imkanları nəzərə alınmaqla qoşulacağıq. Buna baxmayaraq, erməni separatizminin və terrorizminin yaratdığı narkotika plantasiyaları barədə mütəmadi danışmalıyıq. Diqqətinizə görə sağ olun.

23 may 2006-cı il

Hörmətli sədr, hörmətli millət vəkilləri! Biz bu gün komissiyanın sədri hörmətli Ziyad Səmədzadənin çox dolğun və ətraflı məruzəsini dinlədik. Bir neçə gün əvvəl Milli Məclisin ötən iclasında 2005-ci il dövlət büdcəsinin icrası ilə bağlı hesabatı müzakirə etdik. Hökumətin hesabatı və onun təhlili göstərdi ki, ölkəmizin iqtisadiyyatındakı dinamik inkişafın tempi yüksələn xətlə gedir. Bu gün Azərbaycan Respublikası Prezidentinin Milli Məclisin müzakirəsinə təqdim etdiyi «Azərbaycan Respublikasının 2006-cı il dövlət büdcəsi haqqında» və «Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun 2006-cı il büdcəsi haqqında» Azərbaycan Respublikası qanunlarına dəyişikliklər və əlavələr edilməsi barədə qanun layihələri də həmin tendensiyanın davam etdirilməsindən xəbər verir.

«Azərbaycan Respublikasının 2006-cı il dövlət büdcəsi haqqında» Azərbaycan Respublikasının qanununa dəyişikliklər və əlavələr edilməsi barədə qanun layihəsi göstərir ki, dövlət büdcəmiz sosial yönümlüdür. Smeta

maliyyələşdirilməsində qeyri-istehsal sahələrinin, məktəblərin, səhiyyə ocaqlarının nəzərə çarpan şəkildə diqqətdə saxlanılması təqdirəlayiq haldır. Mən büdcə maliyyələşdirilməsindəki təhsil bölməsi haqqında bir neçə söz demək istərdim. Büdcədə bu sahəyə 498 milyon, 520 milyon 274 manat, təxminən 500 milyon manata yaxın vəsait ayrılıb. Bu isə, ümumilikdə, büdcəmizin 12 faizə yaxın hissəsi deməkdir. Həmin vəsait ilk növbədə əməyin ödənilməsinə yönəldilməlidir. Hamımız üçün gizli deyil ki, ölkəmizdə ümumtəhsil məktəblərinin böyük hissəsi fiziki cəhətdən köhnəlmiş, müasir tələblərə cavab verməyən binalarda yerləşir, bu isə təlimin səmərəliyini aşağı salır. Bundan əlavə, son vaxtlar Abşeronda yeni qəsəbələr salınmış, oralardasa, demək olar ki, heç bir sosial obyekt, o cümlədən məktəblər, həmçinin də səhiyyə ocaqları yoxdur. Bunlar da gələcəkdə büdcədə nəzərə alınmalıdır.

Ümumtəhsil məktəblərinin maddi-texniki bazasının yeniləşdirilməsi ümummilli məsələdir. Buna görə də sadaladığım faktların nəzərə alınması vacibdir. Düzdür, bu istiqamətdəki müəyyən boşluqlar Heydər Əliyev Fondunun, onun sədri Mehriban xanım Əliyevanın şəxsi təşəbbüsü ilə doldurulur, lakin dövlət büdcəsində bu məsələnin ətraflı nəzərdə tutulması çox müsbət hal kimi qiymətləndirilməlidir. Təhsil bölməsindəki ali məktəblərlə bağlı hissədə müəllim və tələbələrin elmi tədqiqat işlərinin maliyyələşdirilməsi ilə bağlı maddənin hökmən salınması zamanın tələbidir. Azərbaycan xalqı ümummilli liderimizin dediyi kimi, istedadlı xalqdır və həmin istedadlara münbit şəraitin yaradılması isə hökumətin borcudur.

Millət vəkillərinin diqqətinə çatdırım ki, «İpoteka krediti haqqında» Qanun ölkənin mənzilə ehtiyacı olan adamlarında, xüsusilə gənc ailələrdə rezonans yaratdı. Onlar qəbul edilmiş

bu qanuna böyük ümidlərlə baxırlar. Lakin 2006-cı ilin mart ayından verilməsinə başlanılan bu kredit cəmiyyətdə canlanma yaratmadı. Düzdür, bu bir az da sahə ilə bağlı maarifləndirmə işinin zəif qurulması ilə bağlı olsa da, kreditin verilməsinin sənədləşdirilməsi ilə daha çox əlaqələndirilir. Həmin təyinatlı kreditlərin verilməsindən 3 ay keçməsinə baxmayaraq, ondan yararlananların sayını barmaqla saymaq, göstərmək olar. Məgər bizdə mənzil almaq və yaxud mənzil şəraitini yaxşılaşdırmaq istəyənlərin hamısının kredit almağa ehtiyacı yoxdur? Bu, əlbəttə, belə deyildir. Kreditin verilməsi prosedurlardakı çətinliklər və aylıq ödəmələrdəki qeyri-real məbləğ ilə daha çox bağlıdır. Bunları nəzərə alaraq, büdcə maliyyələşdirilməsində İpoteka Fondunun smetasına bir daha diqqət yetirilməlidir.

Büdcədəki bir məqama da diqqətinizi yönəltmək istəyirəm. «Kənd təsərrüfatı məhsullarının qiymətlərinin sabitləşdirilməsi» adlanan bölmə diqqət çəkəndir. Ona görə də təklif edirəm ki, bu bölmənin gələcəkdə həqiqətənmi bu şəkildə fayda verəcəyi mütəxəssislər tərəfindən dəqiq öyrənilsin. Mədəniyyət, incəsənət, bədən tərbiyəsi və turizm sahəsində fəaliyyət xərclərini 2005-ci il dövlət büdcəsi ilə müqayisədə çoxluğu yaxşı haldır. Daha yaxşı olar ki, artımların, xüsusilə turizmlə bağlı infrastrukturların yaradılmasına yönəldilməsi təmin edilsin və bu məsələ də büdcədə nəzərə alınsın.

Yekun olaraq deməliyəm ki, 2006-cı ilin dövlət büdcəsi öz şəffaflığına, funksional və iqtisadi təsnifatına, büdcə xərclərinin ünvanlığına görə fərqlənir. Həqiqətən də, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin iqtisadi platformasının inkişaf tempini bu büdcə göstəriciləri çox dolğun və ətraflı əks etdirir. Mən belə bir təkmil və dolğun büdcə layihəsinə dəqiq əlavə və dəyişikliklərə görə, birinci

növbədə, ölkə Prezidentinə, sonra Baş nazirə, Maliyyə Nazirliyinə, İqtisadi İnkişaf Nazirliyinə, Dövlət Gömrük Komitəsinə, Vergilər Nazirliyinə, Milli Banka və digər icra strukturlarına dərin minnətdarlığımı bildirirəm. Ümumilikdə, layihəni təqdir edib qəbul olunmasını təklif edirəm. Diqqətinizə görə sağ olun.

26 may 2006-cı il

Hörmətli sədr, hörmətli millət vəkilləri! 4 fəsil, 32 maddədən ibarət olan bu qanun layihəsi çox əhəmiyyətlidir. Təəssüf ki, bu bir qədər gecikib. Ancaq indiki müzakirələrdən və məruzəçinin məruzəsindən aydın oldu ki, gecikmiş olsa belə, bunun çox tezliklə qəbul olunması lazımlıdır, əhəmiyyətlidir. Müzakirəsinə qoşulduğumuz «Əmanətlərin sığortalanması haqqında Azərbaycan Respublikası qanunu»nun layihəsi həm də ona görə maraq kəsb edir ki, seçicilərimiz dəfələrlə bizə müraciət edərək sovetlər dövründə əmanət kassalarına qoyulmuş əmanətlərin taleyi ilə maraqlanırlar. Həmin adamları başa düşmək olar. Müxtəlif vaxtlarda müxtəlif məmurlar, o cümlədən həmkarlarımız, deputatlardan bəziləri həmin adamlara ümid verən bəyanatlarla çıxış etmişlər. Fürsətdən istifadə edərək, bu məsələnin tezliklə həll olunmasının lazım olduğunu bir daha diqqətinizə çatdırıram. Sovetlər birliyi dağıldı, ona görə əmanətlərin taleyi belə oldu. Bu, əslinə baxsan, sığortalanmalı idi ki, belə olmasın. Lakin bu, ikitərəfli oldu. Həm birlik dağıldı, həm də o dövrdən belə sığortalanma olmamışdı. Bunlar bizim üçün bir dərs olmalıdır. Bu gün əmanətlərin sığortalanması haqqında bu qanun layihəsinin aktuallığını xüsusi vurğulamaq istərdim.

İlkin olaraq I fəsildəki 1-ci maddə haqqında. Həmin

maddədə əmanətlərin icbari sığortalanması sisteminin məqsədi belə şərh olunur: «Əmanətlərin kollektiv icbari sığortalanması sisteminin yaradılması bankların və xarici bankların yerli filiallarının ödəmə qabiliyyətlərini itirdiyi zaman onlarda olan fiziki şəxslərə məxsus pul vəsaitinin mümkün itkisinin qarşısını almaq, maliyyə sisteminin təhlükəsizliyini və bank sisteminin inkişafını təmin etmək məqsədi daşıyır». Burada əgər əmanətlərin kollektiv icbari sığortalanmasından söhbət gedirsə, niyə ancaq «fiziki şəxslər» ifadəsi vurğulanır, ola bilməzmi ki, hansısa hüquqi şəxs də müəyyən faizlərlə gəlir müqabilində adı çəkilən banklarda əmanət saxlasın? Belə fikrə düşmüş hüquqi şəxsləri nəyə görə bəri başdan ayrı-seçkiliyə məruz qoymalıyıq? Ona görə həmin maddənin belə redaksiyada yazılmasını təklif edirəm: «Əmanətlərin kollektiv icbari sığortalanması sisteminin yaradılması bankların və xarici bankların yerli filiallarının ödəmə qabiliyyətini itirdiyi zaman onlarda olan fiziki və hüquqi şəxslərə məxsus pul vəsaitinin mümkün itkisinin qarşısını almaq maliyyə sisteminin təhlükəsizliyinin dayanıqlılığını və bank sisteminin inkişafını təmin etmək məqsədi daşıyır».

6-cı maddədə Fondun Himayəçilik Şurasının səlahiyyət müddəti ilə bağlı konkretlik yoxdur. 6-cı maddənin 6-cı bəndində yazılır: «Himayəçilik Şurası üzvlərinin səlahiyyət müddəti 5 ildir və onlar təkrar müddətə təyin edilə bilərlər». Mən təklif edərdim ki, təkrar müddətin həddi müəyyən olunsun. Bütün qanunlarda belədir. Məsələn, deyilir ki, 5 ildən sonra yenə də seçilə bilərlər. Niyə? Nəyə görə, hansı şərtlərlə, bu, qanunda öz əksini tapmayıb. Belə çıxır ki, 5 il də, ondan çox da seçilə bilərlər.

8-ci maddədə Fondun Himayəçilik Şurasının səlahiyyətləri sadalanır. Həmin səlahiyyətlərə icraçı

direktorun və onun müavinlərinin səlahiyyətləri daxil edilmir. Buna görə də 8.1.15 belə redaksiyada təklif olunur: «Fondun icraçı direktoru onun müavinlərini təyin edir və onlar fondun digər əməkdaşları ilə bağlı şikayətlərə baxırlar».

Qanun layihəsinin 10-cu maddəsinin 2-ci bəndi fondun icraçı direktorunun səlahiyyətlərinə hansı hallarda xitam verilə biləcəyini göstərir. Həmin maddənin 2-ci bəndinin ikinci hissəsində yazılır: «Öz funksiyalarını icra edə bilmədikdə və ya lazımınca icra etmədikdə». Burada fikir konkretliyi yoxdur. Ona görə də 10.2.2-də belə redaksiyanı təklif edirəm: «Öz funksiyalarını icra edə bilmədikdə». İkinci hissə nəyə lazımdır ki?

Qanun layihəsinin 22-ci maddəsi fond ilə iştirakçı bankların qarşılıqlı münasibətini aydınlaşdırır. Həmin maddənin 4-cü bəndində yazılır: «Bank Fondun iştirakçıları sırasından çıxarıldıqda, Fond 2 iş günündən gec olmayaraq kütləvi informasiya vasitələrində bu barədə elan verir, həmin banka və Milli Banka bildiriş göndərir». Burada «kütləvi informasiya vasitələri» anlayışı ilə bağlı konkretlik çatışmır. Yəni «kütləvi informasiya vasitələrində məlumat verir» dedikdə, elə qəzetlər var ki, 300-500 nüsxə ilə çap olunur. Ayda bir, iki dəfə çıxır. Burada kütləvilik olmasa da, adi kütləvi informasiya vasitəsidir. Ona görə də mən bu maddənin belə yazılmasını təklif edirəm: «Bank Fondun iştirakçıları sırasından çıxarıldıqda Fond 2 iş günündən gec olmayaraq rəsmi qəzetlərdə və elektron kütləvi informasiya vasitələrində bu barədə elan verir, həmin banka və Milli Banka bildiriş göndərir».

Sığortalanma çox mühüm bir məsələdir. İndi əhali əmanət banklarına əmanət qoymaqdan qorxur, çünki başına gələn başmaqçı olar. Burada da dedilər, Vahidbank, Mərhəmətbank yaxşı yadımızdadır. Hələ nə qədər də başqa

banklar var idi, onlar gizli surətdə nələr elədilər, Allah bilir. Onların həbs olunanları da oldu, həbsdən çıxıb indi də sədrlik eləyənlər var. Ancaq məsələ burasındadır ki, – məruzəçi də dedi, – dünyanın 90 ölkəsində bu, qəbul olunub. Amerika Birləşmiş Ştatlarında bu qanun 70 ildən artıqdır ki, qəbul olunub və o biri dövlətlər də bu qanunu qəbul edəcəklər. Bir sözlə, mən bu qanunun əhəmiyyətini çox yüksək qiymətləndirirəm.

Burada deyirlər ki, konseptual olsun, birinci oxunuşdur, məruzəçinin ağzından nə eşitdinsə, sən də özün istədiyin şeyi danış, de. Bu qanunu oxuyub, düşünülmüş təkliflər verib, bu qanun layihəsini hazırlayana faktiki olaraq kömək etmək lazımdır. Yoxsa ümumi şəkildə danışaq, ümumi istiqamətdə deyək, bunlar bizə səmərə verməz. Bu, birinci müzakirədir. Bu qanun layihə şəklindədir. Birinci müzakirədən keçirilməsini və ona səs verilməsini təklif edirəm. Lakin ikinci və üçüncü oxunuşlarda bu qanunun o biri qanunlardan daha mükəmməl işlənməsini təklif edirəm. Diqqətinizə görə sağ olun.

30 may 2006-cı il

Hörmətli sədr, hörmətli millət vəkilləri! 22 maddədən ibarət olan bu qanun layihəsi çox vacib və lazımlı məsələlərə həsr edilibdir. Mən çox məmnunam ki, nəhayət bu gün Milli Məclisin müzakirəsinə təqdim olundu. Qeyri-dövlət mühafizə xidməti haqqında qanunla bağlı demək istərdim ki, müstəqil insanların və hüquqi şəxslərin öz hüquq mühafizəsini təşkil etməsi prosesində silahla təminat məsələsi ən ziddiyyətli məqamdır. Çünki qanunda yazılıb ki, ov tüfəngi ilə mühafizə olmaz. Bu da məncə gülməli səslənir. Sənədin bu hissəsi yenidən işlənməlidir. Bir də təkcə fiziki və hüququ şəxslər yox, dövlət təşkilatlarından bəziləri də öz mühafizəsini

müqavilə əsasında özəl mühafizə xidmətlərinə ehtiva edə bilərlər. İnkişaf etmiş Avropa dövlətlərində belə hallar çoxdur.

Bu qanun Azərbaycan Respublikasında qeyri-dövlət mühafizə xidmətinin həyata keçirilməsi zamanı qeyri-dövlət mühafizə fəaliyyətin subyektlərinin dövlət orqanları ilə qarşılıqlı münasibətlərini müəyyən edən bir qanundur. Bu qanunda göstərilir ki, hüquqa zidd qəsdlərdən mühafizə məsələsi binalara, tikililərə, qurğulara, ərazilərə və sairə aiddir və daşınan əmlaka da bu məsələlər şamil edilməlidir.

Burada bəzi məsələlər var, bu qanun da çox vaxtında verilmiş qanundur. Sahibkarlıq fəaliyyətinin inkişafına xüsusi köməklik göstərən bir qanundur. Lakin burada bir məsələyə diqqətinizi çatdırmaq istəyirəm. Maddə 10.1.2-də yazılır ki, mühafizə olunan obyektə giriş və ya çıxış zamanı Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada fiziki şəxslərin qulluq vasitələrini icra edən hüquq mühafizə və digər dövlət orqanlarının əməkdaşları istisna olmaqla onların əşyalarını və nəqliyyat vasitələrini, texniki vasitələr tətbiq etməklə və ya tətbiq etmədən gözdən keçirtmək – bunlar qadağan olunan məsələdir. Qeyd edim ki, hər yerdə deputatlara bu səlahiyyət verilibdir. Burada necə olur ki, başqa təşkilatlar, hüquq mühafizə orqanları nəzərə alınır. Yəqin yaddan çıxıb ki, burada Milli Məclisin deputatlarının da adı olmalıdır. Onların toxunulmazlıq hüququ burada da hökmən təmin edilməlidir.

Burada yazılır ki, mühafizə olunan obyektlərə hüquqi şəxsin müvafiq vəzifəli şəxslərinin, habelə mühafizə olunan obyektin mülkiyyətçiləri və ya qanuni sahiblərinin yazılı icazəsi olmadan audio yazı, foto və kino çəkiliş aparmaq olmaz. Bu əslən, ümumiyyətlə, qadağan olunan şeylərdir. Yoxsa o mühafizəçilərin hərəsinin əlində bir maqnitofon, bir mikrofon gəlib gedəni yazmaq dövləti baxımından düzgün

deyil. Yalnız hüquq mühafizə orqanlarının hüquqi araşdırmaları nəticəsində bunları etmək olar. Ancaq hər hansı bir müəssisənin sahibi bunun icazəsi ilə kimin isə səsini yazmaq, kimin isə fotosunu götürmək, bu məsələ bir qədər aydınlaşdırılmalıdır. Çünki bu dövləti məsələdir. Hər bir kəsə bu məsələni həll etmək üçün xüsusi icazə verilməsi düzgün hesab oluna bilməz.

Maddə 11.2-də yazılır ki, özəl mühafizə fəaliyyətini həyata keçirən şəxslərə hüquq mühafizə orqanlarının əməkdaşlarının hüququ statusu şamil edilmir. Bu doğru yazılıbdır. Çox təəssüf ki, biz indi Avropa ölkələrində və Rusiyanın şəhərlərində olarkən hiss edirik ki, özəl müəssisələrində mühafizə xidmətinin işçiləri bəzən özlərini hüquqi dövlət şəxsi kimi aparırlar. Bu baxımdan da bu maddənin bura düşməsi tamamilə düzgündür və ona da ciddi əməl olunmalıdır.

Bir məsələni xüsusi diqqətinizə çatdırmaq istəyirəm. Əli müəllim çıxışında da dedi. Geyim məsələsi. Tutaq ki, biri gömrükdə mühafizəçidir, o biri Ədliyyə Nazirliyi xidmətindədir, o biri başqa təşkilatlarda. Hər biri özü müəyyən bir paltar icad eləsə və bunlara geyindirsə və onlar da istədikləri şəkildə özünü həmin orqanın səlahiyyətli nümayəndələri kimi aparsalar, elədə onları tanımaq olmaz ki. Burada da düzgün olaraq qeyd olunur ki, bunlar paltarları geyib öz əhatə dairəsindən, yəni həmin müəssisədən kənarda fəaliyyət göstərib öz hüquqlarını nümayiş etdirə bilməzlər. Çox təəssüf ki, belə hallar, ümumiyyətlə, bütün Avropa ölkələrində mövcuddur. Bu məsələ məni narahat edir ki, bizdə bu yaradılanda həmin mühafizə işçiləri hüquq-mühafizə orqanları işçiləri kimi ondan istifadə eləyələr. Mənim belə bir təklifim var ki, onlar üçün eyni formalı paltarlar tikdirilsin və bunların özəl, dövlət, mühafizə xidməti işçiləri olmaqları da bilinsin. Çünki hüquq-mühafizə orqanlarının paltarlarını

qəşəng düzəldirlər. Səlahiyyətli hüquq-mühafizə orqanlarının paltarına oxşayır. Ona görə də hər adam onları tanıya bilmir. Yaxşı olar ki, eyni formalı olsun ki, insanların gözündə o paltarlar seçilsin.

Maddə 12.3-də yazılır ki, özəl-mühafizə müəssisəsi və hüquqi şəxsin mühafizə bölməsinin mühafizəçisinin xüsusi geyim formasının üzərində həmin müəssisənin tam adı, fərdi qeydiyyat nömrəsi, habelə mühafizəçinin adı və soyadı göstərilməlidir. Bu böyük hərflərlə yazılmalıdır, bilinməlidir ki, hüquq-mühafizə, ya özəl-müdafiə xidmətinin işçiləridir. Bunu gizlətməyə ehtiyac yoxdur. Sonra burada mülki silahın digər şəxs tərəfindən keçirilməsi və sair məsələlər də diqqəti çəkən məsələlərdir.

Mühafizəçinin xidməti vəzifəsinin icrası zamanı həlak olması, bədən xəsarəti alması, sağlamlığına digər zərərin dəyməsi halları isə götürənin vəsaiti hesabına icbari sığorta olunmalıdır. Çünki bu məsələlər gündəlikdə duran əsas məsələlərdən biridir.

Maddə 18.3-də yazılır ki, «Azərbaycan Respublikasının ərazisində xarici hüquqi şəxslər və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən təsis edilmiş hüquqi şəxslər, o cümlədən birbaşa dolayı yolla xarici kapitalın iştirakı ilə yaradılmış hüquqi şəxslər, habelə əcnəbi və ya vətəndaşlığı olmayan şəxslər özəl mühafizə müəssisəsi yarada, özəl mühafizə müəssisəsi və ya hüquqi şəxsin mühafizə bölməsinə rəhbərlik edə, mühafizə qismində fəaliyyət göstərə bilməz. Bu qanunu da çox düzgün, həqiqi olaraq bura salıblar. Qanunda olan bu maddələrə ciddi əməl olunmalıdır. Dediyim qeydlər nəzərə alınmaq şərtilə mən bu maddənin qəbul olunmasına tərəfdaram.

13 oktyabr 2006-cı il

Hörmətli sədr, hörmətli millət vəkilləri! Hörmətli dəvət olunmuş nazirlər, komitə sədrləri, qonaqlar! Ulu öndərimiz Heydər Əliyev 1993-cü ildə ikinci dəfə hakimiyyətə qayıdışı ilə özünün zəngin iqtisadi bilik və təcrübəsi əsasında Azərbaycanın yeni dövr iqtisadi inkişaf prioritetlərini müəyyənləşdirmiş, bu sahədə mövcud problemlərin həlli yollarını elmi-nəzəri və praktiki əsasda göstərmiş, mərkəzi planlaşdırma prinsipinin hakim olduğu ictimai-siyasi formasiyada azad bazar iqtisadiyyatına optimal keçid modelini özünəməxsus uzaqgörənliklə irəli sürmüşdür. Bu kursun davamı olaraq hörmətli Prezidentimiz cənab İlham Əliyevin ölkə həyatında apardığı çoxsahəli islahatlar bütün vətəndaşlarımız tərəfindən böyük rəğbətlə qarşılanıb. İnsanlar ölkədəki ictimai-siyasi sabitliyi, tərəqqi və inkişafı yüksək dəyərləndirir, mövcud siyasi kursu səmimi şəkildə dəstəkləyirlər. Prezident İlham Əliyevin uğurlu iqtisadi siyasəti bu gün Azərbaycanı dünyanın iqtisadi cəhətdən ən sürətlə inkişaf edən ölkələrindən birinə çevirmişdir. Hazırda bu yüksək dinamizm statistik rəqəmlərlə yanaşı insanların gündəlik həyatında öz əksini tapır. 2006-cı ilin 9 ayının yekunlarına həsr olunmuş müşavirədə Azərbaycan hökuməti üzvlərinin cənab Prezidentin şəxsində bütün Azərbaycan xalqına verdikləri hesabat, həmin müşavirədə diqqətə çatdırılan faktlar bunun əyani göstəriciləridir. Cari ildə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tam istismara verilməsi isə Azərbaycanı daha böyük iqtisadi nailiyyətlərə qovuşduracaq, qüdrətli dövlətə çevirəcəkdir.

Hörmətli millət vəkilləri, bu ildə olduğu kimi növbəti ilin dövlət və icmal büdcə layihələri Milli Məclisin müzakirəsinə vaxtında təqdim edilmişdir. Qeyd etmək istəyirəm ki, növbəti ilin büdcə layihəsi yüksək peşəkarlıqla hazırlanmışdır. Büdcə parametrləri müsbət mənada həm

keyfiyyət, həm də kəmiyyət baxımından keçən ilin büdcə layihəsindən fərqlənir. Bu işdə əməyi olan möhtərəm Prezidentimizə, Baş nazirə, Maliyyə Nazirliyinə, hökumətin digər qurumlarına minnətdarlığımı bildirirəm.

Müsbət hal kimi demək lazımdır ki, 2007-ci ildə büdcənin həcminin artması ilə yanaşı onun xərclərinin daha çox proqramlara uyğun olaraq bölüşdürülməsi praktikasına üstünlük verilmişdir. Dünya iqtisadi praktikasına mühüm makroiqtisadi göstəricilərdən biri də xərclərinin ümumi daxili məhsuldakı xüsusi çəkisinin göstəricisidir. Bu göstəricinin yaxşılaşdırılması üçün hökumət ildən-ilə ciddi addımlar atır. Statistikaya nəzər yetirsək görərik ki, son 3 ildə xərclərin ümumi daxili məhsulda xüsusi çəkisi 18%-dən 25,7%-ə qədər yüksələrək 7,7 bənd artmışdır ki, bu da çox ciddi artım deməkdir. Diqqətəlayiq haldır ki, ölkə Prezidenti cənab İlham Əliyevin daimi diqqət mərkəzində olan sosial proqramların, problemlərin həlli üçün 2007-ci ilin dövlət büdcəsində xeyli vəsait nəzərdə tutulmuşdur. Həmin xərclərə aid olan sosial yönümlü xərclər cari illə müqayisədə 47%, o cümlədən əməyin ödənişi fondu 62,3%, ərzaq və dərman xərci 27,6%, təqaüdlər və sosial müvazinətlər üzrə xərclər 20,7% artacaqdır. 2007-ci il dövlət büdcəsinin tərtibi zamanı təhsil sahəsinə diqqət artırılmış, bu məqsəd üçün icmal büdcədə 776 min manat vəsait nəzərdə tutulmuşdur ki, bu da 2006-cı ilə nisbətən 47,4% və ya 23,2 milyon manat artım deməkdir.

2007-ci il dövlət büdcəsində məqsədli dövlət proqramları üçün, o cümlədən «Yeni ümumtəhsil məktəblərinin tikintisi, mövcud məktəblərin əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair Proqram (2005-2009-cu illər)»ın icrası üçün 8,5 milyon manat, «Ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqram (2005-2007-ci illər)»na

13 milyon manat vəsait nəzərdə tutulmuşdur.

Dövlət hesabına təhsil alan aspirantların, tələbə və şagirdlərin aylıq təqaüdlərinin artırılması üçün əlavə olaraq 1,1 milyon manat vəsait nəzərdə tutulmuşdur. Bu artımlar Azərbaycanda humanizm, şəxsiyyətin inkişaf istiqamətlərini və həyati dəyərlər sistemini əks etdirən sosial normalar kimi prinsipləri cəmləşdirən bir təhsil sisteminin qurulmasına, bu sahənin yeni şəraitin tələblərinə uyğun olaraq daha da inkişaf etdirilməsi üçün əlverişli iqtisadi və hüquqi mühitin yaradılmasına imkan verəcəkdir. Bununla yanaşı demək istəyirəm ki, təhsil sahəsində aşağıdakı prioritet məsələlərə xüsusi diqqət yetirmək lazımdır. 1. Təhsil sektorunda mövcud bazanın daha da möhkəmləndirilməsi. 2. Tədris metodlarının beynəlxalq standartlar səviyyəsinə çatdırılması. 3. Peşə təhsilində bazar iqtisadiyyatının tələblərinə uyğun müvafiq ixtisasların açılması. 4. Normativ hüquqi bazanın yenidən qurulması. 5. Təhsil sistemi işçilərinin əməyin ödənişi sisteminin təkmilləşdirilməsi.

Büdcə xərclərinin prioritet istiqaməti kimi 2007-ci il dövlət büdcəsində əsaslı xərclər üçün 2 milyard 227 milyon manat, o cümlədən dövlət əsaslı vəsait qoyuluşuna yönəldilən hissə üçün 1 milyard 499 milyon manat vəsait ayrılmışdır ki, bu da 2006-cı ilə nisbətən 522 milyon manat və ya 53,5 faiz çoxdur.

Büdcə layihəsinə əlavə edilmiş izahatdan məlum olur ki, əvvəlki illərdən fərqli olaraq investisiya xərclərinin strukturu xeyli təkmilləşmişdir. Bu xərclərin bir çox infrastrukturların bərpasına və yeniləşdirilməsinə, o cümlədən avtomobil yollarının tikintisinə və yenidən qurulmasına, yeni məktəblərin, xəstəxanaların, idman komplekslərinin tikintisinə, Naxçıvan Muxtar Respublikasında, eləcə də bir sıra rayon və şəhərlərdə su təchizatı və kanalizasiya sisteminin

və enerji sisteminin yenidən qurulmasına, ölkə ərazisində modul tipli elektrik stansiyaların tikintisinə və digər zəruri tədbirlərə yönəldiləcəkdir.

Bütün bu müsbət meyllərlə yanaşı mən bəzi məsələlərin 2008 və sonrakı illərin büdcə layihələrinin tərtibi zamanı nəzərə alınmasını hökumətin aidiyyatı orqanlarının diqqətinə çatdırmaq istəyirəm. İlk növbədə büdcə gəlirlərinin tərkibində qeyri neft sektorunda gəlirlərin artırılmasına, iri vergi ödəyicilərinin fəaliyyətini artırmaqla onlardan daha çox vergilərin büdcəyə cəlb edilməsinə, büdcə proqnozlaşdırılmasında ildən-ilə proqramların maliyyələşdirilməsinə üstünlük verilməsinə, kommunal sektorda islahatların sürətləndirilməsinə və bu sahəyə kompleks yanaşmanın təmin edilməsinə ehtiyac vardır. Hörmətli cənab sədr, hörmətli həmkarlarım, mən əminliklə qeyd etmək istəyirəm ki, Milli Məclisin müzakirəsinə təqdim olunmuş 2007-ci il dövlət və icmal büdcə layihələri ölkənin dinamik inkişafına, əhalinin maddi rifah halının yaxşılaşdırılmasına, büdcənin ölkə iqtisadiyyatında tənzimlənməsi rolunun keyfiyyətcə yeni mərhələyə çatdırılmasına zəmin yaradacaq. Mən bu layihələrin qəbul edilməsinə səs verəcəyəm və sizləri də yekdilliklə səs verməyə çağırıram. Diqqətinizə görə sağ olun.

7 noyabr 2006-cı il

Hörmətli sədr, hörmətli millət vəkilləri! Bir neçə iclasdır ki, biz iqtisadiyyatla bağlı məsələləri geniş müzakirə edirik. Ona görə də mütəxəssislərin fikirlərini dinləmək, onların müəyyən məsələlərə münasibət bildirməsini daha məqbul hesab etmək olar. Lakin «Dövlət rüsumu haqqında»kı qanuna əlavələrlə əlaqədar olaraq bəzi məsələlər var. Mən də ona öz

münasibətimi bildirmək istəyirəm. «Dövlət rüsumu haqqında» Azərbaycan Respublikası qanununa əlavələr və dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanun layihəsində 10.9-cu maddədə yazılır: «nəqliyyat vasitələrinin özününküləşdirməsi və ona sərəncam verilməsi ilə bağlı verilən etibarnamələrin təsdiqi üçün». Məncə burada «özününküləşdirməsi» sözü o qədər yerinə düşmür. Bu sözün əvəzinə «nəqliyyat vasitələrinin yəni sahibkarlara, fiziki və hüquqi şəxslərə» yazılsa, fikir daha düzgün ifadə olunar. Yenə həmin qanun layihəsində 18.64.3-cü maddədə nəqliyyat vasitələrinin özününküləşdirilməsi haqqında müqavilələrin müvafiq icra hakimiyyəti orqanında dövlət qeydiyyatına görə 20 manat yazılıb. Burada da «özgəninküləşdirməsi» sözünün əvəzinə «sahibkarlara, fiziki və hüquqi şəxslərə» yazılsa, fikir düzgün ifadə olunar. «Dövlət rüsumu haqqında» qanuna redaktə xarakterli dəyişiklikləri nəzərdə tutan yeni layihənin 6-cı maddəsində belə bir bənd var. Qanunun 14.1.1-ci maddəsində nəzərdə tutulur ki, Azərbaycan Respublikası vətəndaşlarına xaricə getmək hüququ verən ümumi vətəndaş pasportlarının verilməsi və dəyişdirilməsinə görə 5 gün müddətinə verildikdə və ya dəyişdirildikdə 120 manat rüsum nəzərdə tutulur. Qanunun 14.1.2-ci maddəsində isə deyilir ki, həmin proses 5 iş günündən sonra müddətdə yerinə yetirildikdə 40 manat rüsum ödəməlidir. Burada uyğunsuzluq var. Vətəndaş həmin pasportu 5 günə alsa, 120 manat, 6 və ya 7 günə alsa, 40 manat ödəməlidir. Bu fərqi azaltmaq lazımdır. Qanunun 14.1.1 maddəsində 5 iş günü müddətində verildikdə və ya dəyişdikdə 120 manat əvəzinə 80 və ya 100 manat rüsum nəzərdə tutulsa, daha ədalətli olar.

Müzakirə etdiyimiz layihənin 12-ci maddəsində qanunun 22.3-22.39-cu maddələrinə əlavələr təklif olunur. Oraya da redaktə xarakterli bir təklifim var. 22.10 maddədə yazılır:

«Tibbi fəaliyyət üçün 5 min 500 manat». Məncə bu maddədə tibb fəaliyyəti üçün yox, «tibbi fəaliyyət üçün» yazılsa, daha düzgün olar. Tibb fəaliyyəti daha geniş anlayışdır.

Qanunun 22.5 maddəsində radioaktiv və ionizə şüaları üçün maddələrin tullantılarının saxlanması və basdırılmasına görə 1100 manat rüsum nəzərdə tutulur. Bu rəqəmi qanunun 22.3 və 22.4-cü maddələri ilə müqayisə edəndə belə çıxır ki, 1-ci və 2-ci məsuliyyət səviyyəli bina və tikililərin dövlət standartlarına uyğun olaraq layihələşdirilməsi və mühəndis axtarışı üçün də kateqoriya fəaliyyətində 1100 manat müəyyənləşdirilir. İnsan sağlamlığına ciddi təhlükə törədən radioaktiv və ionizə şüaları verən maddələrin tullantılarının saxlanması və basdırılması üçün eyni məbləğ müəyyənləşdirilir. Bu halda məbləğ artırılmalıdır. Diqqətinizə görə təşəkkür edirəm.

15 noyabr 2006-cı il

SSENARİLƏR

TARİXİ HÜNƏR

«Əsrin müqaviləsi»nin
10 illiyinə həsr olunur

Teleqüllənin ən yüksək çəkiliş nöqtəsindən Bakının bütöv panoramı görünür. Gülüstan sarayı qarşısındakı Azərbaycan və məlum xarici ölkə bayraqları ilə diqqəti cəlb edir. 20 sentyabr 1994-cü il hadisəsi – «Əsrin müqaviləsi»nin imzalanması təntənələri ümumi və fraqmental planlarda təqdim olunur…

MƏTN: – 20 sentyabr 1994-cü il, Bakı şəhəri… Həmin gün qədim tarixli yeni Azərbaycan dövlətinin – azad, müstəqil Azərbaycan Respublikasının həyatında tarixi bir hadisə baş verdi. Altı ölkəni təmsil edən on bir xarici şirkətlə bağlanan, otuz illik böyük perspektivlərinə, geniş miqyasına görə «Əsrin müqaviləsi» adlandırılan tarixi sənəd imzalandı. Bu, Azərbaycan qapılarını dünyaya açan, gənc respublikanın neft sənayesini, bütövlükdə iqtisadiyyatını qabaqcıl dünya ilə qovuşduraraq ağır böhrandan xilas edən Heydər Əliyev qüdrətinin tarixi hünəri, müdriklik və qətiyyətin qələbəsi idi.

* * *

Təntənəli mərasimdə tarixi imzalanmanı əks etdirən xronikal kadrlar bir-birini əvəz edir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev sənədi imzalayır. Alqışlar bütün Gülüstan sarayını bürüyür… Ümummilli liderimiz Heydər Əliyevin imzalanma mərasimindən sonrakı tarixi çıxışından bəzi fraqmentlər göstərilir. Gurultulu alqışlar səslənir. Milli dövlət bayrağımız əzəmətlə dalğalanır.

Azərbaycan bayrağından ikili, daha sonra tam keçidlə respublikamızın neft sahəsində qazandığı böyük uğurlar xronikal ardıcıllıqla göstərilir.

MƏTN: – Azərbaycan çox qədim zamanlardan bütün dünyada neft ölkəsi kimi tanınmışdır. Tarixi mənbələr bizim eradan 2500 il əvvəl Abşeron neftindən istifadə olunduğunu təsdiq edir. X əsrin məşhur tarixçisi əl-Məsudi Bakıda çıxarılan neftin çoxluğundan heyrətlənərək buranı «Bilal əl-naffata», yəni «neft fəvvarələrinin məskəni» adlandırmışdır… Zamanlar ötdü, dövrlər dəyişdi. Azərbaycanın min illərlə davam edən neft tarixində ən böyük müqavilə müstəqillik dövrünün bəxtinə düşdü…

* * *

MƏTN: – «Əsrin müqaviləsi» ilə başlayan bütün bu uğurların əsası, əslində, 1969-82-ci illərdə respublika rəhbəri Heydər Əliyevin müdrik uzaqgörənliyi ilə qoyulmuşdur. Bunu təsdiq edən çoxsaylı tarixi faktlardan yalnız bircəsini xatırlayaq: 1969-82-ci illərdə həyata keçirilən böyük quruculuq dövrünün yadigarı – 1976-cı il

iyulun 1-də tikintisi başa çatdırılan «Xəzərdənizneft» yarımdalma üzən qurğusu… O vaxt gizli-aşkar təzyiqlərə baxmayaraq, Heydər Əliyev qüdrəti, qətiyyəti ilə yaradılan bu nəhəng qurğu vaxt gəldi ki, «Əsrin müqaviləsi»nin həyata keçirilməsi işlərinə cəlb edildi…

Belə tarixi, ibrətamiz faktlar çoxdur. Ümummilli liderimiz, dahi dövlət və siyasət xadimi Heydər Əliyev 35 illik şərəfli hakimiyyəti dövründə ürəyini məşəl kimi yandıraraq Azərbaycanı qaranlıqlardan xilas etdi, işıqlı, xoşbəxt gələcəyə doğru apardı. O, xalqımızın böyük keçmişinə, milli-mənəvi yaddaşına, Dədə Qorqud dünyasına tükənməz sevginin, Azərbaycan istiqlalına əbədi sədaqətin rəmzi idi. Təsadüfi deyil ki, «Əsrin müqaviləsi»nin həyata keçirilməsi ilə bağlı ən böyük qurğulara «Dədə Qorqud» və «İstiqlal» adları verdi Heydər Əliyev.

«Dədə Qorqud», «İstiqlal» və «Lider» yarımdalma qurğularının açılışından qısa fraqmentlər və Heydər Əliyevin çıxışlarından uyğun məqamlar göstərilir.

* * *

MƏTN: – 20 sentyabr 1994-cü ildə imzalanan «Əsrin müqaviləsi» həmin ilin 12 dekabrında qüvvəyə mindi. Azərbaycan neft sənayesi tarixində analoqu olmayan nəhəng bir layihə praktik fəaliyyətə başladı və tezliklə uğurlu nəticələr verdi. Azərbaycan və dünya neft sənayesinin yaddaş kitabına yeni bir tarix yazıldı: 7 noyabr

1997-ci il. Həmin gün «Əsrin müqaviləsi»nin Çıraq-1 platformasındakı ilk hasilat quyusu neft verməyə başladı. Bu, Azərbaycan tarixinin ən sevincli, fərəhli günlərindən biri idi…

* * *

MƏTN: – Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin «Xəzər dənizinin Azərbaycan sektorunda xarici şirkətlərlə birgə işlənən neft yataqlarından ilkin neftin çıxarılması gününün qeyd olunması haqqında» 27 oktyabr 1997-ci il tarixli sərəncamında deyildiyi kimi: «Bütün bunlar Xəzər lövhəsinin enerji ehtiyatlarından istifade olunmasında yeni, mühüm mərhələnin başlandığını nümayiş etdirir».

* * *

MƏTN: – Azərbaycan Respublikasının paytaxtında – Bakının Gülüstan sarayında imzalanan «Əsrin müqaviləsi» yeni, böyük yolun uğurlu başlanğıcı oldu. Daha sonra Fransanın paytaxtı Parisdə – Yelisey sarayında, Rusiya Federasiyasının paytaxtı Moskvada – Kremldə, Amerika Birləşmiş Ştatlarının paytaxtı Vaşinqtonda – Ağ evdə, Böyük Britaniyanın paytaxtı Londonda – Baş nazir iqamətgahında, 1999-cu ilin 27 aprelində isə yenidən Vaşinqtonda növbəti müqavilələr imzalandı. Beləliklə, qədim neft ölkəsi Azərbaycan dünyanın nüfuzlu ölkələri, ən qabaqcıl şirkətləri ilə real əməkdaşlıq nəticəsində

tarixi şöhrətini yenidən qaytarır, planetin əsas neft mərkəzlərindən birinə çevrilirdi. 1994-cü ildən başlayaraq Bakıda keçirilən Beynəlxalq Xəzər Neft-Qaz sərgiləri azad, müstəqil Azərbaycan Respublikasının iqtisadi-siyasi həyatında mühüm rol oynamışdır. Son 10 ildə dəfələrlə keçirilən, dünyanın ən nüfuzlu ölkələrini, aparıcı neft-qaz sənayesi mərkəzlərini əhatə edən bu beynəlxalq sərgilər müstəqillik tariximizin unudulmaz, şərəfli səhifələridir.

Yeni əsrin, üçüncü minilliyin ilk aylarından «Əsrin müqaviləsi»nin həyata keçirilməsində qüvvələr bir daha səfərbər olundu. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin «Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən «Azəri», «Çıraq», «Günəşli» yataqlarının, həmçinin «Şah-dəniz» yatağının işlənməsi, «Bakı-Tbilisi-Ceyhan» Əsas İxrac Boru Kəmərinin və «Şah-dəniz» yatağından təbii qazın ixracı üzrə boru kəmərinin tikintisi və istismara verilməsi ilə bağlı təxirəsalınmaz tədbirləri haqqında» 15 may 2001-ci il tarixli sərəncamı yeni bir yüksəliş mərhələsinə yol açdı. Bir qəder sonra 2001-ci il avqustun 30-da Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində, Prezident iqamətgahında «Mərkəzi Azəri» yatağının işlənilməsinin başlanması üzrə «Faza-1»in sanksiyası verildi.

Supsa terminalının, Qərb İxrac Boru Kəmərinin açılışı, «Faza-1», «Faza-2» layihələrinin reallaşması, ideya müəllifi və ən böyük müdafiəçisi Heydər Əliyevin olduğu Bakı-

Tbilisi-Ceyhan əsas ixrac xəttinin addım-addım irəliləyən nəhəng tikintisi, bütün bunlar son 10 ilin əfsanəvi həqiqətləri – Heydər Əliyev həqiqətləridir. Təsadüfi deyil ki, qədirbilən Azərbaycan xalqının arzusu, istəyi nəzərə alınaraq, Azərbaycanın neftlə bağlı ən böyük ünvanlarına Heydər Əliyevin adı verilib… Tarixin halal haqqı, qismətidir ki, bu gün Bakı-Tbilisi-Ceyhan Əsas İxrac boru kəməri Heydər Əliyevin adını daşıyır.

* * *

30 avqust 2001-ci ildə Prezident iqamətgahında «Mərkəzi Azəri» yatağının işlənməsinin başlanması üzrə «Faza-1»in sanksiyasının verilməsi tədbirindən qısa fraqmentlər göstərilir.

* * *

«Çıraq-1» platformasından çıxanları ilkin neftin böyük sevinc anları yaşanır. Azərbaycanın ümummilli lideri Heydər Əliyev, ölkə prezidenti İlham Əliyev və Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev ilkin neftdən əllərilə üzlərinə çəkirlər… Heydər Əliyevin bu münasibətlə etdiyi çıxışdan qısa fraqmentlər göstərilir.

* * *

MƏTN: – Bəli, bu gün tam cəsarətlə demək olar ki, 20 sentyabr 1994-cü ildə imzalanan «Əsrin müqaviləsi» azad, müstəqil Azərbaycan

Respublikasının neft-qaz sənayesi tarixində yeni, parlaq bir səhifə açdı. 1995-96-cı illərdə Bakıda imzalanan neft müqavilələri dahi Heydər Əliyevin müdrik uzaqgörənliklə həyata keçirdiyi böyük neft siyasətinin – Azərbaycanın dünya miqyaslı yeni neft strategiyasının uğurlu nəticələri idi. Bu və digər tarixi sənədlər praktik fəaliyyətə çevrilərək «Əsrin müqaviləsi» ilə başlayan böyük işi davam və inkişaf etdirirdi. Bu müqavilələrlə azad Azərbaycan dövlətinə yaxın və uzaq tariximizdə analoqu olmayan böyük kapital, investisiya axını başlayır, müstəqil məmləkətimiz sözün həqiqi mənasında tərəqqi, intibah yoluna çıxırdı.

* * *

MƏTN: – Yeni əsrin yeni lideri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin böyük ləyaqətlə, siyasi müdriklik, uzaqgörənliklə davam etdirdiyi həmin tərəqqi, intibah yolu artıq real nəticələr verir.

O, Azərbaycanın yeni neft strategiyasını addım-addım həyata keçirir, müxtəlif Avropa, Asiya ölkələrinə, Amerika Birləşmiş Ştatlarına etdiyi tarixi səfərlərlə, əldə olunun praktik, ardıcıl razılaşmalarla qədim neft ölkəsini müasir dünyaya qovuşdurur, beləcə min illərin neft tarixinə uğurlu səhifələr yazılır.

(Qısa sinxron)

Artıq 10 ildir ki, «Əsrin müqaviləsi» əfsanədən həqiqətə, layihədən reallığa çevrilib,

«Dədə Qorqud», «İstiqlal», «Heydər Əliyev», «Bakı-Tbilisi-Ceyhan» addımlarıyla irəliləyir. Bu, bütünlüklə azad Azərbaycan dövlətinə, Azərbaycançılığa xidmət edən əbədiyaşar Heydər Əliyev ideyalarının daha bir təsdiqi, təntənəsidir. Azərbaycanın ümummilli lideri Heydər Əliyev öz tarixi işləri, böyük əməlləri, əbədiyaşar ideyalarıyla bu gün də, sabah da bizimlədir. O, dünənimizin, bu günümüzün, sabahımızın ümummilli lideri, dahi yol göstərənidir.

SON

2004

XİLASKAR

III film

MƏTN: – Tarix yolu XX əsrin sonuncu onilliyinə gəlib çatmışdı. Məkrli imperiyanın maraqları, şovinist torpaq iddiaları, qanlı təcavüzlər poliqonunda sosial təlatümlər, siyasi burulğanlar girdabında çırpınan Azərbaycan gəmisini xilas etmək üçün dahi bir şəxsiyyətə tarixi ehtiyac var idi. Bu xilaskar **Heydər Əliyev** oldu.

Fondan musiqinin müşayiəti ilə filmin adına keçid edilir. Ekranda titr görünür.

XİLASKAR

MƏTN: – Prezident seçkilərində inamlı qələbədən və təntənəli andiçmə mərasimindən sonra müstəqil Azərbaycanın dövlət başçısı kimi fəaliyyətə başlayan Heydər Əliyevin qarşısında faktiki olaraq parçalanma təhlükəsi ilə üzləşən sosial-iqtisadi tənəzzül girdabına düşmüş siyasi, hərbi istiqamətlərdə böhran içində çapalayan ölkəni yenidən qurmaq, dünya miqyasında öz mövqeyi olan demokratik dövlət yaratmaq vəzifəsi dururdu. Bunun üçün ilk növbədə Azərbaycanın daxili və xarici siyasət xəttini müəyyənləşdirərək

Qərbə inteqrasiya prosesinə başlamaq lazım idi. Bu məqsədlə təcrübəli siyasətçi və dövlət xadimi Heydər Əliyev Avropanın ən nüfuzlu və qüdrətli ölkələrindən biri olan Fransaya səfərə yola düşdü. Müstəqil Azərbaycanın dövlət başçısı kimi ilk rəsmi səfər üçün Fransanın seçilməsi də səbəbsiz deyildi.

HEYDƏR ƏLİYEV: – Azərbaycan müstəqil dövlət olaraq Fransa kimi böyük bir dövlətlə, bu müstəqillik əldə olunandan sonra, artıq iki ildir keçir, bu müddətdə əgər bir lazımı münasibətlər yarada bilməyibsə, bu Azərbaycan Respublikasının xarici siyasətində olan qüsurdur. Fransa dünyanın böyük dövlətlərindən biridir. Dünya siyasətinə o, çox böyük təsir edir. Dünya iqtisadiyyatında onun çox görkəmli yeri var, onun iqtisadiyyatının xüsusi çəkisi var və xüsusən, Fransanın Ermənistanla yaxın dostluq əlaqəsi olduğuna görə, Fransa ilə Azərbaycan arasında əlaqələr qurulmalı idi. Və bizim keçmişimizə baxsaq, keçmişimizdə də tarixən Fransa ilə Azərbaycan arasında əlaqələr olubdur. İndiyə qədər əgər bu yaranmayıbsa, bu dediyim kimi bizim xarici siyasətdə olan qüsurdur və güman edirəm ki, indi bu səfərdən sonra biz bu qüsuru aradan götürməyə çalışacağıq.

MƏTN: – Azərbaycan torpaqlarının 20 faizini işğal edən ermənilərin sayca ən böyük diasporu məhz Fransada fəaliyyət göstərir və öz iftira dolu təbliğat maşınını tam gücü ilə işə salaraq

Ermənistanın dövlət terrorçuluğu siyasətini pərdələyir, eyni zamanda Azərbaycanın ünvanına böhtanlar yağdırır, bununla da demək olar ki, bütün Avropa xalqlarının ictimai fikrində yanlış rəy formalaşdıra bilirdi. Unutmaq olmaz ki, Qarabağın guya Ermənistana məxsus olduğu barədə ilk bəyanat da elə Fransa mətbuatında dərc olunmuşdu. Beynəlxalq siyasətin incəliklərinə dərindən bələd olan Heydər Əliyev mənfur stereotipləri darmadağın etmək üçün xaricə ilk rəsmi səfərini bu ölkədən başladı. O zaman Fransada Azərbaycan haqqında xeyli məhdud təsəvvür olsa da, Heydər Əliyev şəxsiyyəti kifayət qədər yaxşı tanınırdı.

* * *

MƏTN: – Parisin möhtəşəm Yelisey sarayı. Fransa prezidentinin iqamətgahı. Planetimizin bir çox görkəmli dövlət və hökumət başçıları – Şarl de Qol, Konrad Adenuyer, ata və oğlu Corc Buş, Hüsni Mübarək, Yasir Ərəfat və başqaları bu sarayda beynəlxalq siyasətin ən müxtəlif məsələləri barədə fikir mübadiləsi apararaq mühüm sənədlər imzalayıblar.

İndi öz əzəməti ilə hamını heyrətə gətirən Yelisey sarayı yeni tarixi hadisənin şahidi olacaq. Bütün dünyada siyasət aləmində böyük nüfuza malik olan iki görkəmli şəxsiyyət – Fransua Mitteran və Heydər Əliyev.

Yelisey sarayının o vaxtkı sahibi Azərbaycan Prezidentinin qətiyyətli

addımlarından bu səfərin iki ölkə arasında münasibətlərdə dönüş nöqtəsinə çevriləcəyini, mühüm əhəmiyyət kəsb edəcəyini hiss edirdi.

Həqiqətən də 1993-cü il dekabrın 20-də dünya şöhrətli siyasətçilər və dövlət xadimləri Fransua Mitteranla Heydər Əliyevin Azərbaycanla Fransa arasında dostluq, qarşılıqlı anlaşma və əməkdaşlıq barədə müqavilə imzalamaları, eləcə də Azərbaycanın Paris xartiyasına qoşulması ilə Yelisey sarayının tarixinə yeni şanlı səhifə yazıldı. Təkcə bu faktın özü Fransada dərin kök salmış erməni diasporuna sarsıdıcı zərbə oldu.

Xaricdə yaşayan soydaşlarımızda belə bir təsəvvür formalaşmışdı ki, yerli dövlət və hökumət strukturları ilə sıx əlaqədə olan erməni diasporuna qarşı mübarizə aparmaq mümkün deyil. Bu amillərdən yaxşı xəbərdar olan müdrik dövlət başçısı Heydər Əliyev səfərin elə ilk günü Fransada yaşayan bir qrup soydaşımızla görüşündə bu təsəvvürü heçə endirdi.

HEYDƏR ƏLİYEV: – Yığışmaq lazımdır, birləşmək lazımdır, bir-biri ilə sıx əlaqədə olmaq lazımdır. Nə olursa olsun, biz azərbaycanlıyıq, biz müsəlmanıq. Nə biz müsəlmanlığımızdan dönəcəyik, nə azərbaycanlılığımızdan dönəcəyik. İndi də Azərbaycan müstəqil bir dövlətdir. Azərbaycan demokratiya yolu ilə gedən bir dövlətdir. Azərbaycan indi dünya dövlətlərinin, inkişaf etmiş sivilizasiyalı dövlətlərin birliyinə girmək istəyən və birliyinə girən bir dövlətdir və

Azərbaycanda o köhnə rejim ki, artıq yoxdur və olmayacaqdır. Azərbaycan bir müstəqil dövlət kimi, demokratiya yolu ilə inkişaf edən bir cəmiyyət kimi və iqtisadiyyatında sərbəst iqtisadiyyata, bazar iqtisadiyyatına, iqtisadi reformalar vasitəsi ilə bazar iqtisadiyyatına keçmək istəyən bir dövlət kimi indi artıq bütün azərbaycanlıları cəlb etməlidir. Təbrizlini də, zəncanlını da, urmiyalını da, ərdəbillini də, bakılını da, gəncəlini də, şuşalını da, ağdamlını da, parislini də.

* * *

MƏTN: – Ümumiyyətlə, Fransa müxtəlif dövrlərdə bir çox görkəmli xadimlərin sığınacaq yeri olub. Onların bir çoxu vətəni tərk edərək siyasi fəaliyyətlərini bu ölkədə davam etdirib və burada da dünyalarını dəyişiblər.

HEYDƏR ƏLİYEV: – Burada Azərbaycanın dəyərli oğlanları həyatını tərk ediblər. O cümlədən, Azərbaycanın ən dəyərli adamlarından biri Əlimərdan bəy Topçubaşov ilk Azərbaycan demokratik dövlətinin burada səfiri olub, eyni zamanda parlamentin sədri olub. Onun qəbrini biz istəyirik ziyarət edək. Sonra, bizim dahi bəstəkarımız Üzeyir Hacıbəyovun qardaşı Ceyhun Hacıbəyli və onun oğlu Timurçin bu yaxınlarda vəfat etmişdir. Mən onun adına başsağlığı məktubu göndərdim.

MƏTN: – Azərbaycan Demokratik Respublikası xadimlərinin xatirəsini əziz tutan Heydər Əliyev səfərin elə ilk günü Sen Klu qəbiristanlığına gələrək Azərbaycan Demokratik Respublikasının görkəmli xadimləri Əlimərdan bəy Topçubaşovun və ailəsinin, Ceyhun Hacıbəyli və oğlu Timurçinin məzarlarını ziyarət etdi və bununla da özünün möhkəm tellərlə bağlı olduğu azərbaycançılıq missiyasını yerinə yetirdi.

* * *

MƏTN: – Erməni diasporu bütün mümkün vasitələrlə parlamentin hər iki palatasında dərin rişələr saldığı halda, müstəqilliyimizin ilk iki ilində keçmiş iqtidar əksinə Avropanın bu nüfuzlu ölkəsinə düşmən münasibət bəsləməklə, arada olan uçurumu daha da dərinləşdirirdi. Heydər Əliyevi düşündürən vacib məsələlərdən biri də məhz bu qüsuru aradan qaldırmaq, senat vasitəsi ilə Azərbaycan həqiqətlərini həm Fransa xalqına, həm də dünya ictimaiyyətinə çatdırmaq idi.

KRİSTİAN PONSOLE (Fransa senatının üzvü): – Prezident Əliyev ölkəsində sülhü və birliyi təcəssüm etdirən siyasətçidir. O, Azərbaycana olan hər hansı bir təhlükəni dəf etməyə hazırdır. O, bu xalqa özünə inamını qaytardı. Bu sosial inkişafın təməli olan iqtisadi inkişaf üçün çox vacibdir. Prezident Əliyev ölkəsinin təbii sərvətlərinin düzgün istifadə olunmasına çalışır. Təbii sərvətlərdən əldə olunan gəlir isə ölkədaxili

infrastrukturun yaradılmasına sərf olunur. Bu da növbəsində əhalinin həyat tərzini daha da yaxşılaşdırır. Hal-hazırda Azərbaycan bazar iqtisadiyyatı üçün açıqdır. Bu cəsarətli mövqedir. Bu ölkə eyni zamanda demokratiyaya açıqdır. Yəni hər kəs öz fikirlərini azad ifadə edə bilər. Ölkə məhz belə yüksəlir. Bütün qüvvə və enerji bir məqsəd üçün səfərbər olur. Hər kəs eyni məqsəd üçün çalışaraq, əlbəttə, Azərbaycanı daha sürətlə tərəqqiyə doğru apara bilər. Prezident Əliyev prinsipial adamdır. O, bilir ki, qərbdəki demokratiyanın əsas prinsiplərindən biri dünyavilikdir. Azərbaycanın Cənubi Qafqaz regionu hüdudlarından kənarda tanınması prezident Əliyevin xidməti sayəsində mümkün olmuşdur. Məhz prezident Əliyev Fransa və Azərbaycan arasında münasibətlərin yaxşılaşdırılmasının böyük memarıdır.

MƏTN: – Təbii ki, iki ildən artıq müddətdə yarıtmaz xarici siyasət Azərbaycanı az qala bütün dünyadan təcrid olunmuş vəziyyətə salmışdı. Bir tərəfdən ölkə ərazisində davam etməkdə olan müharibə, digər tərəfdən qeyri-sabit daxili şərait qərbin müqtədir dövlətlərinin iş adamlarını Azərbaycan iqtisadiyyatına, hətta neft kimi mühüm strateji sənaye sahəsinə sərmayə qoymaqdan çəkindirirdi. Ölkəmiz haqqında xarici iş adamlarında yaranmış yanlış təsəvvürləri alt-üst etmək, Azərbaycan iqtisadiyyatına xarici investisiya cəlb etmək üçün güclü qaranta, etibarlı dayağa böyük ehtiyac duyulurdu. O zaman ki, son

dərəcə ağır və ziddiyyətli bir dövrdə həmin qarant rolunu beynəlxalq aləmdə kifayət qədər yaxşı tanınan, nüfuzlu siyasətçi və dövlət xadimi Heydər Əliyev öz üzərinə götürdü. Fransanın iş adamları ilə görüş Azərbaycan iqtisadiyyatını düşdüyü blokada vəziyyətindən çıxarmaq istiqamətində ilk uğurlu addım oldu.

JAN RORE (Fransa – Azərbaycan Ticarət Palatasının sədri): – O vaxt Heydər Əliyev Azərbaycanın prezidenti seçilmişdi və birinci səfərini Fransaya etmişdi. Mən həmin vaxt ona bir neçə fransızın adından dedim ki, biz Azərbaycanı yüksək qiymətləndiririk və sizinlə əməkdaşlıq etmək istəyirik. Prezident dəmir məntiqə əsaslanan dərin məzmunlu, çox gözəl və aydın məruzə etdi. Bir sözlə, onun Azərbaycan haqqında təqdimatı məni valeh etdi. Mən orada ondan soruşdum ki, Azərbaycanla əməkdaşlıq etmək üçün mənə nə məsləhət görərdiz? O dedi: «Azərbaycana gəlmək lazımdır. Və gəlsəniz, mənə zəng edin». Belə də oldu. Dörd ay sonra, mart ayında Azərbaycana gəldim və orada Heydər Əliyevlə görüşə bildim. Ölkədə vəziyyətin hələ də çətin olduğunu müşahidə etdim. Qarşıda həll edilməli vəzifələr çox idi. O vaxtdan bəri mən Azərbaycana bir neçə dəfə səfər etmişəm və deyə bilərəm ki, insan gərək kor və ya kar olsun ki, Azərbaycanda Prezident Heydər Əliyevin rəhbərliyi altında bu xalqın əldə etdiyi nailiyyətləri görməsin, eşitməsin. Demokratiya, bazar iqtisadiyyatı sahəsində uğurlar çox çətin vəziyyətə düşmüş

dövlətin yenidən qurulması, onun hakimiyyət orqanlarının formalaşması göz qabağındadır.

MƏTN: – Azərbaycan – Ermənistan – Dağlıq Qarabağ münaqişəsinin başlandığı gündən erməni separatçılarının ruporuna çevrilmiş Fransanın kütləvi informasiya vasitələrində Azərbaycan əleyhinə böhtan, iftira və uydurma səpkili yazılar və verilişlər əslində enənə şəklini almışdı. Erməni diasporu Fransa xalqında yerli mətbuat və televiziya vasitəsi ilə əzabkeş və məzlum erməni milləti obrazını formalaşdırmaq, eyni zamanda qəddar və işğalçı azərbaycanlılara nifrət oyatmaq məqsədi ilə milyonlarını əsirgəmirdi. Elə buna görə də parlaq zəkaya, dünya miqyasında yüksək nüfüz və təcrübəyə malik olan bir şəxsiyyətin erməni təbliğatının yuvası sayılan ölkənin telekanalında çıxışı, mətbuat nümayəndələrinin suallarına məntiqli, dolğun cavabları ermənilərin, hətta Fransadakı güclü diaspora arasında da zəlzələ zamanı müşahidə olunan dəhşət və çaşqınlıq ovqatı yaratmışdı. Bu mənada dahi siyasətçinin Fransa Beynəlxalq Akademiyasında keçirdiyi görüş və ermənipərəst jurnalistlərin suallarına tutarlı cavabları ən məşhur politoloqları və alimləri belə heyrətə gətirir, Azərbaycanın dövlət başçısının səmimi hazırcavablığına, incə yumoruna və Fransa xalqına dost münasibətinə sonsuz rəğbət oyadırdı.

JURNALİST: – Moskvanın keçmiş xadimi kimi, bu yaxınlarda keçirilmiş seçkilərdən sonra Rusiyada

yaranmış hazırkı siyasi şəraiti necə qiymətləndirirsiz və Jirinovskinin Qafqaza dair dediyi kifayət qədər təşviş doğuran mülahizələrə münasibətiniz necədir?

HEYDƏR ƏLİYEV: – Əgər məni Moskvanın keçmiş xadimi hesab edirsizsə, siz özünüz hazırkı dövrün sovetoloqusuz. Buna görə də, yəqin ki, siz bu barədə məndən daha artıq deyə bilərsiz. Çünki mən keçmişdə, özüm işləyən dövrdə nələr olduğunu deyə bilərəm. İndisə, necə deyərlər, siz sovetoloq kimi çox bilirsiz. Qafqaza dair mülahizələrə gəlincə isə düzü, bu barədə bilmərəm. Amma əgər hansısa mülahizə varsa, biz bunu araşdırarıq. Siz isə sovetoloq kimi görünür Qafqaza, Sibirə, yaxud Baltikyanı ölkələrə və ya Ukraynaya dair bütün mülahizələrə daha dəqiq qiymət verə bilərsiniz.

MARİ-ELEN BERAR (MHB firmasının prezidenti. Prezident Jak Şirakın katibliyinin keçmiş əməkdaşı): – Mən prezident Əliyevin Fransadakı çıxışlarını, onun konfranslardakı çətin suallara verdiyi cavabları dinləmişəm. O zaman mən gördüm ki, prezident Əliyev bütün çıxışları zamanı özünün əsl dövlət başçısına xas olan keyfiyyətlərini nümayiş etdirir. Hər bir çətin vəziyyətdən asanlıqla çıxmaq prezident Əliyev kimi böyük dövlət xadiminə məxsus keyfiyyətdir. Fransaya səfəri zamanı prezident Əliyev bizi heyran etdi. O, Fransanın bütün rəhbərlərini öz mövqeyi ilə razılaşdıra bildi. Onun öz ölkəsi üçün

həyata keçirdiyi müasirləşmə və inkişaf siyasəti olduqca təqdirəlayiqdir.

MƏTN: – Azərbaycanla Fransa arasında münasibətlərin təməlini möhkəmləndirməyə, şaxələndirməyə çalışan Heydər Əliyev bunun üçün ilk baxışda təsadüfi xarakter daşıyan ən kiçik imkandan da məharətlə istifadə edir, buna xalqlarımızın dostluğunun rəmzi mənası kimi baxırdı. Ulu öndərin tarixin hər bir əlamətdar hadisəsinə belə diqqətlə yanaşması, Fransa ilə Azərbaycan arasında hərtərəfli əlaqələrin genişlənməsinə göstərdiyi bu diqqət ən yüksək siyasi dairələrdə layiqli qiymət alır və arzulanan bəhrə verirdi.

HEYDƏR ƏLİYEV: – 14 iyul 1969-cu ildə Bastiliya günündə mən Azərbaycanın başçısı seçilmişəm. Xatırlayıram ki, həmin 69-cu il 14 iyul günündə bugünkü kimi Bakıda çox isti idi. Elə bir isti gündə mən Azərbaycan Respublikasının bütün məsuliyyətini öz üzərimə götürdüm. Əlbəttə ki, mən düşünürdüm ki, mənim üçün bu çox çətin olacaqdır. Oldu çətinliklər, amma mən hamısını arxada qoydum. Ona görə bu Bastiliya günü – 14 iyul bayramı həm Fransa inqilabıdır, həm sizin bayramınızdır, həm də mənim həyatımda olan çox tarixi bir gündür.

KRİSTİAN PONSOLE (Fransa senatının sədri): – Hesab edirəm ki, Azərbaycan və Fransa xalqları bir-biri ilə gözel münasibətlər qurmuşdur. Onları yüksək hisslər bir-birinə bağlayır. Mənim üçün çox

xoşdur ki, prezident Əliyev hər dəfə 14 iyul tarixini özünə əziz tutur. Bu Fransa inqilabının baş verdiyi gündür. Bu elə bir gündür ki, Fransada inqilab baş verib və həmin tarixi prosesdə Fransa xalqı demokratiya və azadlıq yolunu seçib. Eyni gündə isə prezident Əliyev hakimiyyətə gəlib. Beləliklə, onun da ölkəsinə daha böyük tərəqqi və azadlıq ümidi vermək imkanı yaranıb.

MƏTN: – Dövlətlərarası münasibətlər və beynəlxalq siyasətdə liderlər arasında olan Heydər Əliyev şəxsi dostluqda da sədaqəti, qədirbilənliyi ilə tanınırdı. Təkcə Fransanın deyil, bütövlükdə Avropanın ən məşhur və nüfuzlu dövlət xadimlərindən biri olan prezident Fransua Mitteranın vəfatı xəbərini alan Heydər Əliyev yeni, müstəqil Azərbaycan dövlətinin qurulması istiqamətində vaxtının xeyli məhdud olmasına baxmayaraq, yaxın dostunu son mənzilə yola salmağa da vaxt tapa bildi.

MARİ-ELEN BERAR: – Prezident Əliyev şərq ənənələrinə sadiq, eyni zamanda dünyaya, xüsusən də qərbə açıq şəxsiyyətdir. Bir insanda bu keyfiyyətlərin toplanması çox çətindir. Məhz buna görə də biz prezident Əliyev haqqında deyirik ki, o, Qərbi Avropa və ümumiyyətlə, qərb sistemini çox gözəl anlayır. Və eyni zamanda bu sistemdə özünəməxsus mədəniyyəti və adət-ənənələri olan Azərbaycanın yerini görür. Bu iki dünya görüşünün bir liderdə cəmləşməsi fundamental əhəmiyyət daşıyır.

MƏTN: – Tükənməz enerjisi, güclü iradəsi, fövqəladə bilik və idarəetmə bacarığı, xalqına, vətəninə intəhasız sevgisi ilə Azərbaycanın dövlət quruculuğu keşiyində duran Heydər Əliyev prezident kimi fəaliyyətinin elə ilk aylarında xarici ölkələr ilə münasibətlər yaradılmasına, möhkəmləndirilməsinə böyük önəm verirdi. Fransaya ilk səfəri zamanı bu istiqamətdə nəzərə çarpacaq irəliləyiş əldə olunsa da, təbii ki, bunlar hələ ilk addımlar idi. Öz fəaliyyətində hər vaxt bugünkü uğur ilə kifayətlənməyən, daim təkcə sabahı deyil, Azərbaycanın onilliklərlə sonrakı tərəqqisini düşünən uzaqgörən dövlət xadimi Fransa ilə Azərbaycan arasında əlaqələrin müntəzəm, daimi xarakter alması üçün vasitələr, yollar axtarmasını davam etdirirdi. O, həssas siyasi duyumu ilə əmin idi ki, bu məqsədə çatmaq nə qədər ağır zəhmət, gərgin iş tələb etsə də, son nəticə xalqımızın, vətənimizin Avropa və dünya miqyasında layiqli yer tutmasına geniş perspektivlər açacaq. Azərbaycan Prezidentinin Fransaya uğurlu səfərindən sonra Fransada Azərbaycan barədə daha çox və daha dəqiq məlumat almağa ehtiyac aşkar hiss olunmaqda idi. Ölkəmizdə gedən demokratik prosesləri izləmək, mövcud sosial-iqtisadi və siyasi vəziyyət ilə bilavasitə əyani tanış olmaq üçün diplomatik nümayəndəliyin açılması artıq zəruriyyətə çevrilmişdi.

MARİ-ELEN BERAR: – Prezident Əliyev öz ölkəsini inkişafa doğru aparan bir lider və rəhbərdir. Onun

böyük siyasi təcrübəsi həm Azərbaycan, həm qonşu ölkələr üçün vacib olan işlərin öhdəsindən gəlməyə imkan verir. Eyni zamanda onun zəkası bütün dünya üçün hansı işlərin görüləcəyini müəyyənləşdirir. Prezident Əliyevin apardığı siyasət çox tarazlıdır. Öz xalqı, ölkəsi üçün gördüyü işlərdə böyük xeyirxahlıq müşahidə olunur. Fikirləri və düşüncələri çox aydındır.

Avropada digər ölkələri müşahidə etməyi adət ediblər. Bu müşahidələrimizə əsaslanaraq deyə bilərəm ki, sizin ölkə prezident Heydər Əliyevin fəaliyyəti sayəsində cəlbedici məkana çevrilmişdir. Bu bizi çox məmnun edir. Qısa müddət ərzində prezident Əliyev bu keçmiş sovet respublikasının müstəqil dövlətə çevrilməsini uğurla həyata keçirdi. Bu çətin, lakin fundamental fəaliyyətdir. Əgər keçmiş SSRİ respublikalarına nəzər salsaq, Azərbaycan yeganə ölkədir ki, Heydər Əliyevin sayəsində keçid dövrünü uğurla arxada qoyub belə gözəl nailiyyətlər əldə etmişdir.

MƏTN: – Dərin siyasi və iqtisadi böhran məngənəsində sıxılan, parçalanma təhlükəsi ərəfəsində olan bir ölkənin son dərəcə qısa zaman kəsiyində inamlı dirçəliş. demokratik inkişaf yoluna çıxması və Avropaya inteqrasiya istiqamətində ilk addımları bütün dünya ictimaiyyətində böyük heyranlıq doğurmaqda idi. Artıq qərb dövlətlərinin tanınmış şirkətləri Azərbaycanda bərqərar olan sabitliyi layiqincə qiymətləndirərək ölkəmizə üz tutur, heç nədən çəkinmədən iqtisadiyyatımıza, xüsusən də

neft sektoruna investisiya qoymağa hazır olduqlarını bildirirdilər. Onların arasında Fransa şirkətləri də, iş adamları da az deyildi. Hamıda möcüzə təəssüratı doğuran bütün bu nailiyyətlərin qazanılmasını dünyanın hər yerində yekdilliklə dahi şəxsiyyət Heydər Əliyevin idarəçilik səriştəsi və yaradıcı zəkası ilə əsaslandırırdılar. Fransa ilə yenicə dirçəlməkdə olan dostluq münasibətlərini daha da möhkəmləndirərək genişləndirmək məqsədi ilə Heydər Əliyev ikinci dəfə Fransaya yola düşdü.

JAK ŞİRAK (Fransa Respublikasının prezidenti): – Mən Azərbaycan Prezidentinin bu müqaviləni Parisdə imzalamağa razılıq verməsi faktını yüksək qiymətləndirirəm, hərçənd, ənənəyə görə, tamamilə aydındır ki, bu sənəd Bakıda imzalanmalı idi. Demək istərdim ki, prezidentin bu alicənablığını mən ölkəmizə qarşı dostluq əlaməti kimi qiymətləndirirəm. Əziz prezident, ümidvaram ki, bu, bizim siyasi, iqtisadi və mədəni əlaqələrimizin, Ölkələrimizin arasında münasibətlərin möhkəmləndirilməsi istiqamətində mühüm addımdır. Mən buna çalışıram. Təşəkkür edirəm.

HEYDƏR ƏLİYEV: – Mən bu müqavilənin Parisdə, Yelisey sarayında, prezidentin, dostum cənab Jak Şirakın iştirakı ilə imzalanmasına şadam və əminəm ki, bu müqavilə Fransa ilə Azərbaycanın iqtisadiyyatına böyük fayda gətirəcək.

MƏTN: – Bu dəfəki səfər zamanı Heydər Əliyevi istər ən yüksək dairələrdə, istərsə də ictimai təşkilatlarda artıq gələcəyi şübhə doğuran, müharibə alovuna bürünmüş bir ölkənin rəhbəri kimi deyil, öz vətənini dəhşətli uçurumun kənarından uzaqlaşdıraraq inkişafa doğru aparmağa nail olan, atəşkəs rejimi yaratmaqla münaqişəni beynəlxalq normalar çərçivəsində həll etməyə çalışan qüvvətli siyasətçi, öz xalqının layiqli lideri kimi qarşılayır, özlərinə qaranlıq qalan bir çox problemləri ondan öyrənməyə can atırdılar. İnkişaf etməkdə olan Azərbaycan dövlətinin başçısı Fransada daim arzulanan doğma insan idi.

MARİ-ELEN BERAR: – Prezident Əliyev dünəndən bu günə, keçmiş dövrdən indiki dövrə uğurlu keçidin simvoludur. Mən hətta Sovet İttifaqı vaxtlarında politbüroya üzv olduğu zaman onun haqqında artıq çox eşitmişdim. Fransada biz onu barışdırıcı və vasitəçi mövqedən çıxış edən siyasətçi kimi tanıyırıq. Onun idarəçilik sisteminin inkişaf etməsi haqqında fikirlərini bilirdik. Biz o vaxt hesab edə bilməzdik ki, Sovet İttifaqı dağılacaq, Azərbaycan Respublikası da digər keçmiş sovet respublikaları kimi yenidən müstəqil olacaq. Lakin biz fransızlar, hətta həmin vaxtlardan prezident Əliyevin idarəçilik məharətini görürdük. Ən vacib məsələlərdən biri budur ki, hər bir vətəndaş üçün prezident ölkənin rəhbəridir və bu elə bir şəxs olmalıdır ki, ona bütün ölkələrdə, bütün beynəlxalq münasibətlər

çərçivəsində, beynəlxalq səviyyədə hörmət etsinlər. Digər ölkələr ilə münasibətlərdə prezident müstəsna rol oynayır. Bu baxımdan prezident Əliyev öz şəxsiyyəti, xarici əlaqələr haqqında öz bilikləri ilə keçmiş Sovet İttifaqında şübhəsiz ki, ən birinci liderlərdən biridir.

MƏTN: – İndi artıq Fransa və Azərbaycan parlamentləri arasında əlaqələr də xeyli genişlənmişdir. Milli Məclisin nümayəndə heyəti Parisdə, Fransa senatının üzvləri isə Bakıda mütəmadi məsləhətləşmələr aparır, birgə komissiya yaradırdılar. Elə bu intensiv davam edən görüş və seminarların nəticəsində bir vaxtlar az qala düşmənçiliyə çevrilmiş münasibətlərin buzu tədricən əriməyə başladı.

KRİSTİA PONSOLE: – Mən prezident Əliyevi gözəl insan, müdrik ölkə başçısı kimi tanıyır və onun fəaliyyətini yüksək qiymətləndirirəm. Azərbaycana səfərim zamanı prezident Əliyev ilə görüşmək mənim üçün böyük şərəf və sevinc idi. Onun yüksək qonaqpərvərliyi məni çox təsirləndirdi. O, məni və nümayəndə heyətinin üzvlərini şam yeməyinə dəvət etdi. Bu elə bir hadisədir ki, yaddan çıxmır. Mən bu gözəl anları yaxşı xatırlayıram. Prezident Əliyev çox cəsarətli, möhkəm iradəli bir şəxsiyyətdir. Bu insan ölkəsinə çox bağlıdır, onunla yaşayır. Onu çox gözəl bilir, çətinlikləri aradan qaldırır və əhalinin həyat şəraitinin yaxşılaşması üçün tükənməz enerji ilə çalışır. Onun işi praqmatizmə və reallığa

arxalanır. O, çalışır ki, insanların arzusunu yerinə yetirsin və bu məqsədlə müxtəlif məsələlərlə bağlı konkret qərarlar qəbul edir. Əgər söhbət möhkəm iradədən gedirsə, mən onu deyə bilərəm ki, ən ağır cərrahiyyə əməliyyatı keçirməsinə baxmayaraq, prezident Əliyev məni qəbul etdi və mənimlə kifayət qədər geniş söhbət apardı. Söhbət əsasında mən ona dəfələrlə dedim: «Cənab prezident, siz dincəlməlisiniz». Lakin o, mənimlə heç cür razılaşmadı və dedi ki, mən Fransa ilə Azərbaycan arasındakı münasibətləri çox vacib hesab edirəm və sizinlə söhbətə böyük əhəmiyyət verirəm. Bu söhbətin də çox müsbət nəticələri oldu.

PYERİ DE MONBRİAL (Fransa Beynəlxalq Münasibətlər İnstitutunun direktoru, akademik): – Mən prezident ilə 1995-ci ilin oktyabr ayında tanış olmaq şərəfinə nail oldum. Bu hadisə Parisə rəsmi səfəri zamanı baş verdi. Həmin vaxt biz Fransa Beynəlxalq Münasibətlər İnstitutunda onun şərəfinə təşkil olunmuş böyük ziyafətdə müzakirələr apardıq. Əvvəllər mən onu yalnız fotoşəkillərdə görmüşdüm. Lakin onun qeyri-adi həyat və fəaliyyəti ilə tanış idim. İlk baxışdan onun zahiri görünüşü, alicənablığı adamı təsirləndirir. Prezident Əliyev çox tanınmış şəxsiyyətdir. Onun çox gözəl qəddi-qaməti var. Həmin gün axşam bizim səmimi söhbətimiz oldu. Bu söhbət müəyyən anlarda çətin olsa da, çünki hamı eyni fikirdə deyildi, həddindən artıq əhəmiyyətli bir söhbət oldu. Səhv etmirəmsə,

1995-ci ildə cəmi iki il idi ki, o, Azərbaycan Respublikasının Prezidenti seçilmişdi. Bu çox çətin bir dövr idi. Sovet İttifaqı dağıldıqdan sonra yeni yaranmış respublikalarda demək olar ki, anarxiya hökm sürürdü. Doğrudan da çox çətin dövr idi. O bu cür çətin sınaqlarla üzləşmiş ölkədə qayda-qanunun bərpa olunmasına nail oldu. Sovet İttifaqının süqutu həqiqətən də böyük hadisə idi və beynəlxalq aləmdə gedən proseslər məhz bu hadisənin nəticəsi idi. Belə bir şəraitdə Azərbaycan kimi ölkədə yenidən sabitlik yaratmaq çox vacib sayılırdı. Təbii ki, ölkədaxili vəziyyətə Dağlıq Qarabağ problemi də mənfi təsir göstərirdi. Mən həmin birinci görüşü çox yaxşı xatırlayıram. Prezident Əliyev xeyirxahlıqla məni Bakını ziyarət etməyə dəvət etdi. İkinci görüşümüz 1997-ci ilin yanvar ayında baş tutdu. Bu prezidentin Parisə növbəti səfəri zamanı idi. O, yenidən Fransa Beynəlxalq Münasibətlər İnstitutuna gəldi və orada təşkil olunmuş konfransda ümumi beynəlxalq vəziyyət, xüsusən də Qafqaz regionunda vəziyyət mövzusunda çıxış etdi. Onun şəxsiyyəti məni bir daha məftun etdi. Prezident Əliyevin geosiyasətlə bağlı dərin və çox əhəmiyyətli fikirləri məni çox maraqlandırdı.

MƏTN: – Fransanın Beynəlxalq Münasibətlər İnstitutunda dünya siyasət aləminin korifeyi ilə növbəti görüş ustad dərsini xatırladırdı. Azərbaycanın geosiyasi vəziyyətinə, beynəlxalq siyasətin müxtəlif məsələlərinə dair suallara təmkinlə cavab verən təcrübəli dövlət xadimi auditoriyanı

büsbütün ələ ala bilir, eyni zamanda incə yumoru ilə hamıda xoş ovqat yaratmağa nail olurdu.

PYERİ DE MONBRİAL: – Cənab prezident, bu tədbirdə iştirak etməyə razılaşdığınıza və bizə belə dəqiq cavablar verdiyinizə görə sizə təşəkkür etmək istərdim. Həmçinin arzu edərdim, indi ki, artıq sizinçin vərdişə çevrilib, növbəti dəfə Fransaya gələndə də bizim Beynəlxalq Münasibətlər İnstitutuna baş çəkəsiniz və nəhayət, Fransaya səfərinizi uğurla başa çatdırmağınızı diləmək istərdim. Ümidvaram ki, səfər məhsuldar başlandığı kimi, bu minvalla davam edəcək. Bir də mən sizə və sizi müşayiət edən şəxslərə yeni ildə xoşbəxtlik arzu etmək istərdim. İndi biz prezidenti alqışlayaq. Amma xahiş edirəm ki, prezident öz avtomobilinə əyləşənə qədər salonda qalasız.

HEYDƏR ƏLİYEV: – Yox dayanın, söz mənimdir. Əvvəla, siz burada işi demokratik aparmırsınız. Özünüz xeyli sual verdiniz, amma başqalarının nəsə soruşmasına macal vermirsiz. Biz Fransaya demokratiya öyrənməyə gəlmişik, amma sən demə bu institutda totalitar rejim hökm sürür.

PYERİ DE MONBRİAL: – Avtoritar.

HEYDƏR ƏLİYEV: – Avtoritar. Avtoritar. Avtoritar. Buna görə də mən hələ daha bir saat qalıb, suallara cavab verə bilərəm. Çünki istəyirəm siz biləsiz ki, biz demokratiya yolu ilə gedirik. Mən

hər kəsin istənilən sualına cavab verməyə hazıram.

PYERİ DE MONBRİAL: – 1997-ci ilin yanvar ayında keçirilən konfransı yaxşı xatırlayıram. Konfransdan sonra sizin ölkənizə səfər barədə düşünməyə başladım. Səfərim isə 2002-ci ilin sentyabr ayında baş tutdu. Qısa, lakin görüşlərlə dolu səfər zamanı prezident kimi böyük şəxsiyyətlə görüşmək məni təsirləndirdi. Söhbətimiz çox uzun çokdi. Görüşümüzün rəsmi hissəsi yumorlu əhval-ruhiyyə ilə başlandı. Mən yenidən onu görməyimə çox şad oldum. Onun yerişi kübar yerişidir. Onu xarakterizə edən qeyri-adi baxışı da adamı valeh edir, ovsunlayır. Beləliklə, xoş əhval-ruhiyyə ilə başlayan görüşümüz televiziya ilə yayımlanmağa başladı. O dedi: «Nəhayət ki, 7 ildən sonra mənim dəvətimi qəbul edib Azərbaycana gəldiz». Bu da şübhəsiz, əla bir zarafat idi. Mən isə öz növbəmdə, onun Fransaya etdiyi birinci və ikinci səfərlərini xatırlatmağa çalışdım. İkinci səfərin tarixi kimi 1997-ci ilin fevral ayını vurğuladım. Prezident isə dərhal mənim səhvimi düzəldərək, səfərin fevral ayında deyil, yanvar ayında olduğunu bildirdi.

HEYDƏR ƏLİYEV: – 97-ci il fevral ayında yox, yanvar ayında.

PYERİ DE MONBRİAL: – Cənab prezident, bunu da siz bir test kimi hesab edin. Mən bir də demək

istəyirəm ki, sizin o əfsanəvi yaddaş reputasiyanız doğurdan da bir daha təsdiqini tapdı.

PYERİ DE MONBRİAL: – Əslində səhvimi düzəltməyə çalışıram. Prezidentin yaddaşını yoxlamaq haqqında sözlərim də məni bu vəziyyətdən çıxarmaq üçün idi. Prezident Əliyevin yaddaşı çox möhkəm idi. Bu da müstəqillik qazanan Azərbaycanda mürəkkəb dövlət işlərində çox vacibdir. Onun yaddaşı ölkəni daha da səmərəli idarə etməyə imkan yaradır.

Görüşün ümumi hissəsi başa çatdıqdan sonra prezident vaxt ayıraraq mənimlə təkbətək söhbət etdi. Həmin vaxt ərzində biz müasir problemlər haqqında danışdıq, Sovet İttifaqının tarixinə nəzər saldıq, sovet sisteminin dağılması şəraitini və səbəblərini müzakirə etdik və bundan sonra keçmiş sovet respublikalarının, o cümlədən Azərbaycanın keçdiyi müstəqillik yollarını xatırladıq. Bu söhbət mənim həmişəlik xatirimdə qaldı və bir daha əmin oldum ki, prezident Əliyev dövrümüzün planetar miqyaslı siyasi lideridir. O, bitmiş şəxsiyyətdir və belə bir şəraitdə yalnız möhkəm iradəli adamlar ölkəni idarə edər. Prezident Əliyev beynəlxalq siyasi və geosiyasi problemləri çox gözəl bilir.

MƏTN: – Artıq ölkəmiz və Qafqaz regionunda baş verən hadisələr haqqında müəyyən həqiqətlərə bələd olan Fransa ictimai fikrində xeyli dönüş yaranmışdı. Hətta erməni separatçılarının bir növ əsas təbliğat vasitəsi sayılan Fransa mətbuatı da

Azərbaycanın nail olduğu nəzərə çarpacaq uğurları etiraf etməyə məcbur idi. Azərbaycan Prezidenti Heydər Əliyevin Fransaya ikinci səfəri iki ölkə xalqları arasında dostluğun möhkəmlənməsi faktı kimi qeyd olunurdu. Bu səfər zamanı Fransadakı ictimai təşkilatların nümayəndələri və mədəniyyət xadimləri Azərbaycanın dövlət başçısı ilə görüşə, ona öz dostluq duyğularını ifadə etməyə can atırdı. Bütün bunlar xalqlarımızın gələcək, hərtərəfli əlaqələrinin təşkili idi.

JAN RORE: – Mən tez-tez dostlarıma deyirəm ki, neft və qazdan əlavə, siyasi nöqteyi-nəzərdən Azərbaycanın böyük sərvəti onun prezidentidir. Bir daha prezident Əliyevi beynəlxalq miqyaslı siyasətçi adlandırsam, yanılmaram. Keçmişdə prezidentin kommunist sistemində işlədiyi vaxt onun prinsipial mövqeyi, müxtəlif məsələlərlə lazım olan hallarda razılaşması, digər hallarda razılaşmaması mənim ona olan böyük hörmətimi daha da artırır. Deyərdim ki, Şarl de Qola verdiyim qiyməti eynilikdə Azərbaycan Prezidentinə verirəm. İnsanların gözündə bu prezidenti ucaldan digər vacib faktor onun Avropaya meylli olmasıdır. O, düzgün hesab edir ki, onun ölkəsi Avropanın bir hissəsidir. Heydər Əliyev haqqında çox danışmaq olar. O, güclü xorizması olan bir şəxsiyyətdir. Heydər Əliyev uzaqgörən dövlət xadimidir. Elə insanlara indiki dövrdə çox nadir hallarda rast gəlmək olur.

PYERİ DE MONBRİAL: – Onun zəngin təcrübəsi var. Daha doğrusu, zəngin dövlət idarəçiliyi təcrübəsi var. Doğrudur, o, Sovet İttifaqının çox çətin və mürəkkəb sınaqlarından keçib. Prezident Əliyev Kommunist Partiyası sistemində ən tanınmış azərbaycanlı idi. Onun Andropov ilə işləməsi, politbüroya namizəd və üzv olması ona təcrübəsini inkişaf etdirmək və beynəlxalq miqyasda siyasətlə məşğul olması üçün imkanlar açırdı. Beynəlxalq səviyyədə qazanılmış təcrübə, az sonra artıq Azərbaycanın Prezidenti seçildikdən sonra ona lazım oldu.

MƏTN: – Heydər Əliyevin Parisə ikinci səfəri zamanı Fransanın dövlət və hökumət başçıları, bütün Fransa xalqı gələcəyin daha bir siyasi xadimi, Heydər Əliyevin oğlu və şagirdi İlham Əliyev ilə yaxından tanış oldular. Bu tanışlıq əslində iki ölkənin gələcəyinin görüşü, daha sıx əlaqələrin uzaq üfüqlərdən görünən parıltısı idi. O vaxt bunu hələ heç kim bilməsə də dahi siyasi xadim Heydər Əliyevin başçılıq etdiyi nümayəndə heyətinin ən kiçik üzvü, böyük diplomatiyada ilk uğurlu addımlarını atan İlham Əliyev artıq çoxlarının diqqətini özünə cəlb edə bilmişdi.

MARİ-ELEN BERAR: – Mən şəxsən Heydər Əliyevin insani keyfiyyətlərinə məftun oldum. Onun dinləmək və qərar qəbul etmək qabiliyyəti məni heyran etdi. Fransa Respublikasının Prezidenti Jak Şirakın keçmiş işçisi kimi deyə bilərəm ki, Heydər Əliyevin şəxsi keyfiyyətləri bizim

ürəklərimizdə dərin iz buraxmışdır. Əgər mümkündürsə, mən rus dilində sizə bir neçə kəlmə demək istəyirəm ki, Fransada cənab prezident Heydər Əliyev çox tanınmış şəxsdir. Prezident Əliyev dünyanın ən böyük liderlərindən biridir.

Demək istərdim ki, cənab prezident Heydər Əliyev Fransada bizim üçün çox məşhur və tanınmış şəxsdir. Prezident Əliyev bizim üçün dünyanın ən böyük liderlərindən biridir.

MƏTN: – Dövrün ictimai-siyasi fırtınalarına, burulğanlarına mətanətlə sinə gələrək, nəhəng insan kütlələrini, canından əziz tutduğu vətənini, xalqını qətiyyətlə kəmiyyətdən keyfiyyətə, tənəzzüldən yüksəlişə, keçmişdən gələcəyə aparan Heydər Əliyev Fransanı fateh kimi tərk edirdi. Siyasət və dövlət idarəçiliyi dahisi, ulu öndər öz təkrarsız istedadı və tükənməz enerjisi sayəsində bütöv bir hakimiyyət sisteminin uzun illər boyu nail ola bilmədiyi zəfəri qısa müddətdə təkbaşına əldə edərək Azərbaycanı siyasi blokadadan xilas etdi.

İllər keçəcək Azərbaycan Qafqaz regionunun və keçmiş sovet məkanının sosial-iqtisadi cəhətdən ən çox inkişaf etmiş dövlətlərindən birinə çevriləcək, müstəqilliyinin dayaqlarını daha da möhkəmləndirəcək, sonra isə xalq dövlətin liderlik estafetini etibarlı əllərə, böyük öndərin layiqli davamçısı İlham Əliyevə həvalə edəcək. Artıq bu iki ölkə arasında münasibətlərin tarixində yeni mərhələnin, yeni

tarixin başlanğıcı olacaq. Fransa xalqı Azərbaycana daha da yaxınlaşacaq.

JAK ŞİRAK: – Cənab prezident, xanım Əliyeva! Sizi görməyimdən bir az həyəcan hissi keçirirəm. Çünki tez-tez məhz burada sizin atanızla görüşlərim olardı. Və indi elə bilirəm ki, o, sanki bizim yanımızdadır. Amma həyat belədir. O, mənim dostum idi və mən istəyirdim ona Fransanın ən yüksək mükafatım, «Fəxri Legionun böyük Xaç» ordenini təltif edim. Həyat buna imkan vermədi. Beləliklə, mən bu məqsədlə yeni praktiki üsuldan istifadə edərək, qeyd edim ki, mən bunu birinci dəfədir ki, edirəm. Bu ordeni məhz qərara gəldim ki, sizə təqdim edim. Mən və Heydər Əliyev arasında olan dostluq telləri və hörmət münasibətləri haqqında sizin xəbəriniz var. O öz dövrünün dövlət başçıları arasında ən dahi şəxsiyyət idi və cəlbedici idi. Bu qədər çətinliklər və qarşıdurmadan sonra Azərbaycan onun rəhbərliyi altında sabit ölkəyə çevrilə bildi və öz müstəqilliyinin əsaslarını möhkəmləndirməyə qadir oldu. Heydər Əliyev demokratik islahatlara və Azərbaycanın Avropa Şurasına qəbul olunmasına yol açdı. Fikrimcə, onun irsi ilə siz fəxr edə bilərsiniz. Şübhə etmirəm ki, siz bu yolu davam etdirəcəksiniz və Azərbaycan hüquqi dövlət quruculuğu yolunda və demokratiya yolunda addımlayacaq. Keçmiş illər ərzində biz atanızla dostluq və etimad dialoqunu qura bildik. «Fəxri legion» 200 il bundan əvvəl Napoleon tərəfindən təsis olunmuşdur. Mən çox

istəyirdim ki, atanızın 80 illik yubileyi zamanı onu Fransanın ən yüksək mükafatı sayılan «Fəxri Legionun böyük Xaç» ordeni ilə təltif olunduğunu bir daha təsdiq edim. Bu gün Heydər Əliyevin əziz xatirəsini yad edərək, istəyirəm həmin ordeni məhz sizə təqdim edim. Eyni zamanda, mən onun oğluna, cənab İlham Əliyevə, Azərbaycan Prezidentinə öz dostluq hisslərimi bildirirəm. Mən onun xanımı Əliyevaya hörmət və ehtiramımı eyni zamanda ifadə edirəm. Bilin ki, Fransa sizi özünə dost hesab edir. Budur, bu ordeni mən sizin atanıza təqdim etmək istəyirdim.

3-CÜ FİLMİN SONU

2004

XİLASKAR

IV film

MƏTN: – Tarix yolu XX əsrin sonuncu onilliyinə gəlib çatmışdı. Məkrli imperiya maraqları, şovinist torpaq iddiaları, qanlı təcavüzlər poliqonunda sosial təlatümlər, siyasi burulğanlar girdabında çırpınan Azərbaycan gəmisini xilas etmək üçün dahi bir şəxsiyyətə tarixi ehtiyac var idi. Bu xilaskar **Heydər Əliyev** oldu.

Dinamik musiqi verilir. Kadrlar bir-birini əvəzləyir. Titr ekranda canlanır.

XİLASKAR

MƏTN: – 1997-ci il. Vaşinqton. Azərbaycan Prezidentini dünyanın ən nəhəng ölkəsinin paytaxtında, məşhur politoloqlar və sovetoloqlar səbirsizliklə gözləyirdilər. Blerhauzun soyuq dəhlizi ilə qətiyyətlə addımlayan siyasət aləminin korifeyi Heydər Əliyev bu görüşə tamamilə yeni ideyalarla gəlirdi. Artıq beynəlxalq miqyasda öz sözlərini demiş Amerika siyasətçiləri onu kifayət qədər yaxşı tanıyır və səmimiyyətinə inanırdılar. Azərbaycan liderini isə bu görüşlərdə 2 əsas məsələ: Ermənistan-Azərbaycan-Dağlıq Qarabağ

münaqişəsinin həllində irəliləyişə nail olmaq və konqresin Azərbaycana qarşı qəbul etdiyi azadlığa dəstək haqqına 907-ci düzəlişin tam ədalətsiz olduğunu sübut etmək. Azərbaycan üçün böyük əhəmiyyət daşıyan bu məsələlər ətrafında müzakirələrdə hər iki tərəf üçün məqbul sayılan anlaşma hökm sürürdü. Həqiqətən də həm Azərbaycanda iqtidarda olmuş səriştəsiz rəhbərlər Birləşmiş Ştatların Azərbaycana laqeyd münasibətinə yol vermiş, həm də Amerika konqresi problemin mahiyyətini dəqiq aydınlaşdırmadan tələsik qərar qəbul etmişdi. Lakin indi bu səhvləri aradan qaldırmaq, hərtərəfli əməkdaşlığa başlamaq üçün münasib şərait var idi. Bunun en etibarlı qarantı isə şübhəsiz ki, nüfuzlu dövlət başçısı, dünya siyasətinin tanınmış nümayəndələrindən biri Heydər Əliyev idi.

FREDERİK STARR (Con Hopkins Universitetinin Mərkəzi Asiya və Qafqaz İnstitutunun prezidenti): – Təbii, o da istərdi ki, ötən 10 il ərzində həyata keçirilən tədbirlər daha yüksək səviyyədə olsun. Lakin onun fəaliyyətində diqqəti cəlb edən mühüm xüsusiyyət, insanların bilik və qabiliyyətinə yüksək qiymət verməsi idi. Elə bunun sayəsində də cəmiyyətdə tərəqqiyə nail olunurdu. Şübhəsiz. O, təkcə neft vasitəsilə bütün problemləri həll etməyin mümkünlüyü kimi sadəlövh fikirlərə qapılmayıb. O, bilirdi ki, ölkəsinin, xalqının inkişafı daha qlobal məsələlərin həyata keçirilməsini tələb edir.

Məncə, ən böyük müdriklik də, elə budur. Doğrudur, indi də problemlər mövcuddur. Amma başlıcası budur ki, cəmiyyətdə güclü canlanma var. İnkişaf, tərəqqi göz qabağındadır. Bütün ölkədə təkamül prosesi getməkdədir və inamla demək olar ki, bu təkamül Heydər Əliyev dühası sayəsində mümkün olub. Əgər kimsə Azərbaycanın gələcəyi ilə bağlı nikbin, yaxud bədbin fikirdə olduğumu soruşsa, mən qətiyyətlə deyə bilərəm ki, 30 ildən sonra bu ölkənin qazandığı uğurlar çoxlarını heyrətə gətirəcək. Bu uğurun bünövrəsi isə məhz Heydər Əliyevin hakimiyyətdə olduğu 10 il ərzində qoyulub. Bu, qeyd-şərtsiz suverenliyin bərqərar olunduğu həlledici dövr idi. Heydər Əliyev zəif, ehtiyac olmadan gülümsəyən şəxslərdən deyil. Əksinə, mən deyərdim ki, son dərəcə tələbkar, lazım gəldikdə isə sərt və qətiyyətli şəxsiyyətdir. Bu keyfiyyət isə ölkənin suverenliyinin bərpası üçün mühüm amil idi. Elə buna görə də qonşu ölkələr müstəqil Azərbaycan amilini tam ciddiyyətlə qəbul edirlər. Elə buna görə də Azərbaycanın gələcəyinə nikbin baxmaq olar. Bəzən soruşurlar: Azərbaycan daha sərt, qətiyyətli ola bilərdimi? Məsələn, Qarabağ məsələsində. İndi silaha sarılmaq vacibdimi? Maraqlı sualdır. Lakin bu məsələlərdə Azərbaycanın haqlı olduğuna heç bir şübhə yoxdur. Birləşmiş Millətlər Təşkilatı da, digər beynəlxalq təşkilatlar da bunu bilir. Azərbaycan ərazilərinin işğal olunmasına heç cür bəraət qazandırmaq olmaz. Ona görə də prezident Heydər Əliyevin seçdiyi tərəqqi yolunu mən

düzgün sayır və bəyənirəm. Ruslarda belə bir məsəl var: Тише едешь, дальше будеш. Fikrimcə, o, çox müdrik addım ataraq, ölkəsini inkişafa doğru aparır. Əminəm ki, bu müdrik siyasət, ən ağrılı problem olan Qarabağ münaqişəsinin nizamlanmasında həlledici rol oynayacaq.

* * *

MƏTN: – Amerika Birləşmiş Ştatları kimi qüdrətli bir dövlətlə geniş əlaqələr yaradılması Azərbaycan üçün dünya birliyinə inteqrasiya istiqamətində həlledici amil idisə, Birləşmiş Ştatlar üçün də Qafqaz regionunda nüfuzunu gücləndirmək baxımından zəruri idi. Azərbaycan Prezidentinin qətiyyəti sayəsində Amerika tarixində ilk dəfə olaraq, məhz Ağ Evdə iri neft konsorsiumları ilə Xəzər dənizinin enerji ehtiyatlarının işlənməsinə dair bir sıra müqavilələr imzalandı. Dünya siyasətində misli görünməmiş bu hadisə Azərbaycanla Amerika Birləşmiş Ştatları arasında geniş strateji əməkdaşlığın başlanğıc nöqtəsi oldu. Heydər Əliyevin diplomat dühası Azərbaycanın xarici siyasətinə daha bir parlaq zəfər qazandırdı. Artıq Amerika ilə Azərbaycan arasında qarşılıqlı etimad yarandı.

* * *

FREDERİK STARR: – Xəzər dənizi neftinin yenidən inkişaf etdirilməsi, prezident Heydər Əliyevin

rəhbərliyi ilə başlanıb. Amma bu, məsələnin yalnız yarısıdır. Çox maraqlıdı ki, biz hələ 1979-cu ildə burada – Vaşinqtonda Xəzər nefti ilə bağlı konfrans keçirirdik. O vaxt Sovet İttifaqı ən yaxşı ekspertlərini bura göndərmişdi. Lakin onlar dedilər ki, Xəzərdə qətiyyən neft qalmayıb, tükənib, qurtarıb. Çox güman ki, sovetlər artıq son dövrünü yaşadığına görə belə fikirlər ortaya atılırdı. Ola bilər ki, sovet rəhbərliyi Qərbi Sibir neftini inkişaf etdirməyə cəhd göstərirdi. Təbii ki, indi də prezident Heydər Əliyev neftin bütün problemləri həll edəcəyi kimi sadəlövh və fanatik fikrə düşmür, Buna görə də o, digər istehsal sahələrinə də böyük diqqət yetirir. İndi hamımız görürük ki, bunun nəticəsində Azərbaycan inkişaf etməkdə olan cəmiyyətə çevrilib. Respublika sürətlə inkişaf edir. Həyat tərzi müsbət dəyişiklərlə zəngindir. Ölkə dərin uçurumun kənarından uzaqlaşıb. Bu yol Azərbaycanı nikbin gələcəyə aparır. Lakin bu yolda çətinliklər də var. Azərbaycan çətin qonşuluq şəraitində yaşayır. Həm də Azərbaycan nəhəng ölkələrdən deyil. Amma heç kəs inkar edə bilməz ki, tərəqqi üçün möhkəm özül qoyulub. Həm də təkcə Azərbaycanın özü üçün yox, eyni zamanda bütün dünya ölkələri ilə münasibətlərdə də bu zəmin mövcuddur. Beləliklə, mən gələcək barədə nikbin düşünürəm. Sizin çox istedadlı kadrlarınız var. Bu məsələdə mən stalinçiyəm və inanıram ki, kadrlar bütün məsələləri həll edir. Gənc istedadların qlobal perspektivləri var. Mən ilk dəfə 1960-cı illərdə Bakıda olmuşam və hələ o vaxt şəhərin

müasirliyi, açıqlığı məni heyrətə gətirmişdi. Bu gün də bacarıqlı gənclərniz var. Onlar dünya ölkələrində olur, xaricdə təhsil alırlar, öz biliklərini Azərbaycana sərf edirlər. Buna görə nikbin ola bilərsiniz. Gələcək təkcə neftlə bağlı deyil. Neft yalnız inkişafa kömək edir, amma bütün problemləri həll etmir. Əsas amil insanlar – işgüzar, bacarıqlı insanlardır. Biz prezident Heydər Əliyevə çox minnətdarıq. İndi Azərbaycan, regionda ən güclü ölkədir və bu işdə bütün xalq Heydər Əliyevə dayaq olub. Tarix bunu daim təsdiq edəcək.

* * *

MƏTN: – Dahi lider uzaqgörənliklə bilirdi ki, müstəqil Azərbaycanın beynəlxalq aləmdə tanınması, iqtisadiyyatının möhkəmlənməsi əhəmiyyətli dərəcədə neft sənayesinin inkişafı ilə bağlıdır. Məhz neft strategiyasının ölkəmizə böyük uğurlar gətirəcəyinə əmin olan Heydər Əliyev Xəzərin Azərbaycan sektorundakı enerji ehtiyatlarının işlənməsinə xüsusi diqqət yetirirdi. Bu strategiya, Azərbaycanın beynəlxalq aləmlə əlaqələrinin formalaşmasına da əhəmiyyətli təsir göstərirdi.

* * *

SEM BRAUNBƏK (ABŞ.Senator): – Mənim prezident Heydər Əliyevlə ilk görüşüm Bakıda olub. O, əvvəlcə mənə görüşdən məmnun olduğunu dedi. Sonra 907-ci maddəni xatırlatdı. Bu, bədnam

sanksiyanın aradan götürülməsinin vacibliyini bildirdi. ABŞ-ın Azərbaycana qarşı tətbiq etdiyi bu sanksiyaya xüsusi diqqət yetirirdi. Deyirdi ki, Amerika bu sanksiyanı ləğv edə bilər, amma indiyədək aradan götürməyib. O, Birləşmiş Ştatlarla Azərbaycan arasında əlaqələr yaratmaqda çox güclü idi. Həmin səylərin bəhrəsini indi də görmək olar. Məsələn, İraqdakı əməliyyatlara dəstək, Əfqanıstanın azad olunmasında Xəzər dənizində əməkdaşlıq. Onun gücü bütün regionda hiss olunur. Böyük nüfuza malikdir. Mən Gürcüstanın prezidenti Şevardnadze ilə bir neçə dəfə görüşmüşəm və o, prezident Heydər Əliyev haqqında böyük sayğı ilə danışıb. Onun regionda gücü haqqında mənə çox söyləyib. O, ölkəsini irəli aparıb. Azərbaycanda demokratik cəmiyyət qurulmasının ilk 10 ili çətin dövr idi. O, iqtisadiyyatı inkişaf etdirməkdə böyük liderlik göstərdi. Biz demokratik islahatlar uğrunda möhkəm işləməliyik. Prezident Əliyevlə ilk görüşümüzdə mənimlə olan nümayəndə heyətinin tərkibindəki Kristina Roker əvvəllər dövlət departamentində işləyib. Sonrakı fəaliyyəti mənimlə bağlı olub. O, prezident Əliyevi hələ sovet liderliyində işlədiyi dövrdən tanıyır. Deyir ki, şəxsən qarışıq hisslər keçirir. Çünki bir vaxtlar opponent kimi tanıdığı şəxs, indi bizə dostdur Biz regionda bütün ölkələri azad görmək istəyirik İstəmirik bu ölkələr radikal islamçılıq yolunu tutsunlar. Biz terrorizmi dəstəkləməyən ölkələr görmək istəyirik. Prezident Əliyevin və bizim məqsədimiz eynidir. Ümid edirəm ki, ölkələrimiz

arasında güclü tərəfdaşlıq əlaqələri davam edəcək. Prezident Əliyevin irəli sürdüyü əsaslara söykənərək, irəli gedə bilərik. Düzdür, bu əlaqələr tam mükəmməl olmasa da möhkəmdir və daim genişlənir. Doğru istiqamətdə irəliləyir və biz bu tərəqqini davam etdirməliyik.

* * *

MƏTN: – Amerika Birləşmiş Ştatları Konqresi Azərbaycana qarşı ədalətsiz 907-ci düzəliş məhz bu binada qəbul edilib. Heydər Əliyevin konqresmenlərlə görüşündə bu məsələ diqqət mərkəzində idi. Məhz dünya şöhrətli siyasətçiyə dərin inam və etibar sayəsində bu binanın tarixində də ilk dəfə olaraq, növbəti neft müqavilələrinə imza atıldı. Heydər Əliyevin sarsılmaz qətiyyəti burada da Azərbaycan haqqında yanılmış təsəvvürləri alt-üst etdi.

* * *

BOB LİVİNQSTON (ABŞ. Sabiq konqresmen): – 90-cı illərin ortalarında konqresdə konqresmen kimi fəaliyyətə başlayarkən, ilk əvvəl 907-ci maddəni öyrənməyə başladım. O vaxta qədər prezident Əliyevi görməmişdim. Onunla görüşdükdən sonra jsə məni inandırdı ki, Azərbaycan ədalətsiz şəkildə bizim qanunvericilik tərəfindən 907-ci maddə üzrə diskriminasiyaya məruz qalıb. Əgər amerikalılar Qafqazda və Mərkəzi Asiyada yaxşı münasibətlər qurmaq istəyirlərsə, vacib şərt odur

ki, biz gərək regionda dost qazanaq. Dünyanın bu hissəsində gördüyümüz işlərin bir çoxunda Azərbaycan Amerikaya dost münasibət, xoş münasibət göstərdiyini nümayiş etdirib. Bundan sonra mən belə düşündüm ki, azərbaycanlıları əslində onların nəzarəti altında olmayan bir şeyə görə cəzalandırmaq axmaqlıqdır. Mövzunu çox öyrəndikcə, mən daha çox anlamağa başladım ki, Mərkəzi Asiya və Qafqaza mütləq səfərə çıxmaq lazımdır. Unikal imkanlarımızdan biri prezident Əliyevi Azərbaycanda görmək oldu. O, çox qonaqpərvər idi. Bizi hörmətlə qarşıladı. Görüşümüzdən əvvəl mən imkan tapıb onun haqqında, onun Birləşmiş Ştatlar haqqında fikirlərini oxumuşdum. Mən çox yaxşı qarşılandığımı hiss etdim və onunla görüşümüzdən məmnun oldum. Bundan sonra biz konqresə qayıtdıq və elə həmin səfər, həmin görüşün təəssüratı 907-ci maddəni ləğv eləməyə, ölkələrimiz arasında münasibətləri istiləşdirməyə, ABŞ-ın Mərkəzi Asiyada və Qafqazda mövcudluğunu daha da artırmağa əsas verdi. Biz tərəqqi əldə etməkdə davam edirik. Amma 99-cu ildə konqresi tərk edərkən, mən həmin coğrafi əraziyə marağımı azaltmadım. İndi burada – Vaşinqtonda Türkiyə üzrə xüsusi nümayəndə kimi çalışıram. Türkiyə ilə Azərbaycan arasında çox ümumi maraqlar var. Azərbaycan Vaşinqtonda, Corctaunda ticarət və kommersiya palatası açdı. Yenə də biz onunla görüşərkən, bu elə bil 2 köhnə dostun görüşü idi. Bundan artıq qonaqpərvər, istiqanlı olmaq mümkün idimi? O,

geniş qucaqlarını açdı, məni özünə sıxdı və: «Sən mənim dostumsan, Azərbaycana gəl və qonağım ol», – dedi. Əlbəttə, bu məni ona və Azərbaycan xalqına daha çox yaxınlaşdırdı. Prezident Heydər Əliyevi tanımaq nadir imkan idi.

* * *

MƏTN: – 1998-ci ilə qədər artıq bir sıra beynəlxalq və regional təşkilatların üzvü olan Azərbaycan üçün Ermənistan-Azərbaycan-Dağlıq Qarabağ münaqişəsinin həlli ən vacib məsələ olaraq qalırdı. Bu münaqişənin nizamlanması prosesində vasitəçilik missiyasını üzərinə götürən ATƏT-in Minsk qrupunun fəaliyyətində heç bir ümidverici perspektiv nəzərə çarpmırdı. Portuqaliyada keçirilən ATƏT-in növbəti zirvə toplantısının gündəliyinə bu problemin müzakirəsi də daxil edilmişdi. Ermənistan hələ də işğal etdiyi ərazilərdə ikinci erməni dövləti yaratmaq xülyasından əl çəkmir, bu məqsədlə «Sammit»də qəbul ediləcək yekun sənədinə böyük ümidlər bəsləyirdi. Bu məqsədlə onlar «Sammit»in yekun aktına dəyişiklik edərək, bu sənədin özlərinə sərfəli şəkildə qəbul olunmasına çalışırdılar. Lakin bu dəfə də onlar bir amili diqqətdən qaçırmışdılar. «Sammit»də Azərbaycanı dünya siyasətinin patriarxı Heydər Əliyev təmsil edirdi. Mahir siyasətçi Azərbaycan ərazilərinin toxunulmazlığı və bütövlüyünün istisnasız olaraq, bütün iştirakçı dövlətlər tərəfindən tanınması və Dağlıq Qarabağa Azərbaycan daxilində hər hansı

status verilməsi məsələsinin yekun aktında beynəlxalq hüquqi norma kimi təsdiq olunmasını tələb etdi.

* * *

HEYDƏR ƏLİYEV: – Mən bəyan etdim ki, belə olarsa, onda bütün deklarasiyaya Azərbaycan konsensus verməyəcək. Bu o deməkdir ki, «Sammit» heç bir sənəd qəbul edə bilməyəcəkdir. Əvvəlcə bəlkə bəziləri hesab ediblər ki, mənim bu addımım müəyyən qədər taktiki manevrdir, ancaq aparılan intensiv danışıqlar, demək olar ki, saatla yox, dəqiqələrlə ölçülürdü. Son nəticədə, ayın 2-də gedən danışıqlar, 2-dən 3-nə, dekabrın 3-nə keçən gecə səhərə qədər gedən danışıqlar və dekabrın 3-də səhər tezdən, erkəndən başlanan danışıqlar onu göstərdi ki, Azərbaycan bu mövqeyindən geriyə çəkilməyəcəkdir və artıq ATƏT-in dövlət başçıları və «Sammit»i təşkil edənlər hamısı gördülər real təhlükəni ki, demək ola bilər ki, «Sammit» heç bir sənəd qəbul etməsin.

MƏTN: – «Sammit»də iştirak edən erməni nümayəndələrinin elə zahiri görünüşündən də aydın görünürdü ki, onlar şok vəziyyətindədilər. Zirvə toplantısının yekun sənədi Ermənistanın təcavüzkar və dövlət terrorizmi siyasətinə sarsıdıcı zərbə, Azərbaycan diplomatiyasının beynəlxalq miqyasda yeni parlaq uğuru idi.

* * *

HEYDƏR ƏLİYEV: – Mən bu qərarı qəbul edəndən sonra çox dövlət başçıları, nümayəndə heyətlərinin yüksək vəzifəli şəxsləri mənlə xüsusi görüşlər keçirdilər və hər biri məndən xahiş edirdilər və təkidlə xahiş edirdilər ki, mən bu qərarımı geri götürüm. Ancaq bütün gətirilən arqumentlərin əvəzində ona cavab olaraq, mən onlara anladırdım ki, mən bu mövqeyimdən geri çəkilməyəcəyəm. Ancaq onu da demək lazımdır ki, mənə olan bütün müraciətlərdə, indi kimsə bunu təzyiq adlandırır, təzyiqlərdə hər bir dövlət başçısı, hər bir nümayəndə heyətinin nümayəndəsi mənim bu qərarımın əsaslı olduğunu qeyd edirdi. Yəni məni günahlandırmırdı heç kəs ki, mən niyə belə bir qərar qəbul etmişəm. Heç kəs mənə bunu irad tuta bilmirdi. Mənə deyirdilər ki, sizin buna haqqınız var. Ancaq xahiş edirdilər ki, mən bu Lissabon görüşünü pozmayım. Mən də deyirdim ki, siz istəmirsiz ki, Lissabon görüşü pozulmasın? Mən də istəmirəm. Ancaq siz bizim vəziyyətimizi anlayın. Hər dövlət başçısı burada öz dövlətinin mənafeyi üçün çalışır. Mənim bu dəqiqə tələblərim ATƏT-in prinsiplərinə tam uyğundur. ATƏT-in prinsiplərinə zidd bir hərəkət etmirəm. Ona görə mənim bütün addımlarım tam hüquqidir. Ona görə də mənə ya təzyiq edirdilər, ya xahiş edirdilər, ya müraciət edirdilər, bunlar hamısı nəticəsiz qaldı. Əgər mənim belə mövqeyim olmasaydı, o sənəd də əldə olunmayacaqdı.

* * *

MƏTN: – Heydər Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Lissabonda keçirilən ATƏT-in zirvə toplantısında müstəqil Azərbaycan dövlətinin diplomatiya tarixinə yeni parlaq səhifə yazdı. Dünya ictimaiyyətinə bir daha aydın oldu ki, Heydər Əliyevin xarici siyasət kursu təkcə Azərbaycan üçün deyil, bütövlükdə regionda sabitliyin qorunmasının təminatçısıdır. Bu siyasət Azərbaycanın Avroatlantik məkana doğru inteqrasiya prosesi geniş beynəlxalq əlaqələr quruculuğu deməkdir. Böyük öndərin özünün də dəfələrlə dediyi kimi bizim xarici siyasətimiz sülhsevər siyasətdir və Azərbaycanın daha geniş miqyasda tanınmasına xidmət edir.

* * *

YAN ELİYASON (İsveç. ATƏT-in sabiq sədri): – 1984-cü ildə nəqliyyat nazirimiz Moskvaya gəlməli idi. Xarici əlaqələr sahəsində təcrübəsiz olduğuna görə baş nazirimiz Uluv Palme xahiş elədi ki, onunla gedim və xarici siyasətlə bağlı fikir mübadilələrində iştirak edim. O vaxt hələ kiminlə görüşəcəyimizi dəqiq bilmirdik. Xoşbəxtlikdən elə oldu ki, SSRİ Baş nazirinin müavini cənab Əliyevlə görüşdük. Söhbətimiz xeyli canlı və maraqlı keçdi. İsveç-Sovet münasibətləri üçün vacib görüş oldu. O zaman bizim problemlərimiz var idi. Xüsusilə də rus sualtı qayığının İsveç

ərazi sularına daxil olması ilə bağlı. İsveçin cənubunda bir qayıq sərhədimizi pozmuşdu. Digər qayıqların da sərhədi pozduğuna şübhəmiz var idi. Biz bu məsələni çox konstruktiv şəkildə müzakirə etdik. Buna görə də sovet dövründən sonra onu görəndə çox da təəccüblənməzdim. Bilirdim ki, o, özünün Azərbaycandakı keçmiş fəaliyyəti ilə fəxr edə bilər. İlk görüşümüzdə o, təbii ki, Sovet İttifaqını təmsil edirdi. İkinci görüşümüzdə isə o öz doğma ölkəsi ilə fəxr edən rəhbər təəssüratı oyadırdı. O öz ölkəsinin əsl lideri kimi danışırdı. Təbii ki, Azərbaycanın maraqları mövqeyindən çıxış edirdi. Bu mənim üçün çox zəngin təcrübə idi. Çünki o, həm qətiyyətlə, həm də bizə hörmətlə danışırdı.

* * *

MƏTN: – Dünya siyasət dahisilə hər bir görüş həqiqətən diplomatlar, bir çox ölkələrin dövlət və hökumət nümayəndələri üçün əhəmiyyətli təcrübə məktəbi, örnək idi. Heydər Əliyev onlarla görüşdə nikbin, xoş əhval-ruhiyyə yaratmaqla yanaşı, qarşıya qoyulan problemin yüksək səviyyədə həll olunması üçün həmsöhbətlərindən də məsələyə tam ciddiyyətlə yanaşmağı, bütün qüvvə və bacarıqlarının sərf olunmasını tələb edirdi.

* * *

YAN ELİYASON (İsveç. ATƏT-in sabiq sədri): – Biz 3 görüş keçirdik. Geniş nümayəndə heyəti ilə

görüşdə hamımız böyük masanın arxasında oturmuşduq. O, çox diqqətlə qulaq asırdı. Deyilənləri dərhal tuturdu. Öz mövqeyini aydın çatdırırdı. Amma mən hiss etdim ki, o, kiçik qrup tərkibində də görüşmək istəyir. Sonra mən cənab prezidentlə onun şəxsi ofisində görüşdüm. Birinci görüşü heç vaxt unutmaram. Çünki mən əllərimi kənara açıb deyəndə ki, biz gərək müxtəlif maraqlar əsasında düzgün balans tapaq, təsadüfən çayı dağıtdım. Çay ətrafdakıların hamısının üstünə töküldü. Bir anlıq çaşqınlıq yarandı. Çox keçmədən səmimi ovqat yenidən bərpa oldu. Üçüncü dəfə o, məni şəhər ətrafındakı evinə dəvət etdi. Xəzər dənizinin sahilinə. Orada o, mən və tərcüməçi, gecə, qaranlıqda Xəzər dənizi sahili boyunca gəzişib, danışıqların ən məsuliyyətli və həlledici anlarından söhbət edirdik. Belə razılığa gəldik ki, 2 iş görməliyik. Başlıcası inam yaratmaq prosesinə başlamalıyıq. Əvvəlcə kiçik addımlar atmalıyıq ki, gələcəkdə bəhrəsini görə bilək. İkinci də, qərara aldıq ki, danışıqların sonunu gözləyək. Düzü, belə bir balansı saxlamaq çox çətin idi. Amma bu sahədə prezident mənə böyük köməklik göstərdi. Biz həm də hiss edirdik ki, problemi həll etmək üçün beynəlxalq ictimaiyyət də əlindən gələn köməyi göstərməlidir. Bu baxımdan Macarıstandakı ATƏT zirvə görüşü həlledici məqam oldu. Çünki həmin görüşdə bütün iştirakçılarla yüksək səviyyədə görüşmək mümkün idi və mən bunun üçün bacardığım qədər şərait yaratdım. Biz ümid edirik ki, bu dəfə müəyyən uğur əldə edəcəyik.

Doğrudur, mayın 12-də atəşkəsə nail olduq. Amma bu, əsas məsələni həll etmirdi. Biz bu dəfə siyasi cəhətdən durğunluq nöqtəsindən çıxacağımıza ümid edirdik. Təəssüf ki, həmin görüşün atmosferi Yeltsinin Brüsseldəki danışıqlarının təəssüratı nəticəsində korlandı. NATO-nun genişlənməsi ideyası ona pis təsir etmişdi. Yaxşı ovqatda deyildi. Yeltsinin belə vəziyyətə düşməsinin nə olduğu hamıya aydındır. İkincisi, Bosniya məsələsində diskussiyalarda əhəmiyyətsiz cəhətlər çox vaxt apardı. Nəticədə istəyimizə nail ola bilmədik. Rusiya nümayəndələri də bizə yardım etmədilər. Cənab Əliyev təbii ki, nəticənin əldə olunacağına ümid bəsləyir, məsələnin həllini səbirsizliklə gözləyirdi. Eyni zamanda qürurla təmkinini saxlayırdı. Halbuki hövsələsizliyə əsas var idi. Xüsusən də həlli vacib məsələlərdə. Amma neyləmək olardı? Hamı kimi o da faktlarla kifayətlənməli oldu. Doğrudur, indi atəşkəs var. Həm də hər bir siyasi məsələnin həlli üçün münasib şərait olmalıdır. O, bunu bilir, çox təcrübəlidir. Danışıqların nəticəsiz qalması onu razı salmasa da, təmkinini pozmurdu. Mən onu sonralar da bir neçə dəfə gördüm. Hər dəfə mənə əvvəlki görüşlərimizi xatırladırdı. Doğrudur, biz istəyimizə nail ola bilməsək də, onunla görüşlərim mənim üçün xoş xatirə olaraq qalır. O, Azərbaycanın maraqlarını təkidlə müdafiə edirdi. Mənim vəzifəm bu maraqları nəzərə alaraq, danışıqlar kontekstinə yerləşdirmək idi. Mən eyni zamanda Ermənistanda Ter-Petrosyanla və Dağlıq Qarabağda Koçaryanla da

fikir mübadiləsi aparmışdım. Oradakı diskussiyalar xeyli sərt keçdi. Amma prezident Əliyevin sözünə həmişə inanmaq olardı. O öz mövqeyini qətiyyətlə qoruyurdu. Buna görə mən digər tərəfə deyə bilərdim ki, qarşı tərəfin mövqeyi qətiyyətlidir. Bu mövqe həm vasitəçi kimi mənim tərəfimdən, həm də qarşı tərəfdən hörmətlə qarşılanırdı. Şübhə yox ki, Azərbaycanın mövqeyini müdafiə etməkdə o, böyük nüfuz sahibidir. Onun sözləri ilə əməlləri həm peşəkar səviyyədə, həm də qeyri-rəsmi cəhətdən üst-üstə düşürdü. Fikrimizcə, inandırmaq qabiliyyətini xalqın maraqları ilə bağlı peşəkar təcrübəni uyğunlaşdıran şəxs, hamıya güclü təsir göstərmək qabiliyyətinə malik idi. Mən prezidentin təklifi ilə qaçqınlarla görüşəndə, bu problem qaldığına görə xeyli peşmançılıq keçirdim. Amma prezident Əliyevlə Dağlıq Qarabağ münaqişəsinin müzakirələrindən çox güclü və xoş xatirələrim qalıb.

* * *

MƏTN: – Qaçqın və məcburi köçkünlərin daimi yaşayış yerlərinə qayıtmasını özünün bir nömrəli problemi hesab edən Heydər Əliyev bu məqsədlə bütün yüksək səviyyəli görüşlərdə həmin problemi qaldırır, dünya ictimaiyyətini həmin məsələdə obyektiv mövqe tutmağa çağırır, ATƏT rəhbərlərindən haqlı olaraq, daha qətiyyətli olmağı, beynəlxalq miqyasda qəbul olunmuş prinsiplərə əsaslanmağı tövsiyə edirdi.

* * *

KNUT VOLEBEK (Norveç. ATƏT-in sabiq sədri): – Mənim prezident Əliyevlə ilk görüşüm 1999-cu ildə olub. Mən Norveçin Xarici İşlər naziri və ATƏT-in sədri idim. O vaxt ATƏT kimi bir təşkilat üçün prezident Əliyevin rolu çox vacib idi. Mənim bu görüşlə bağlı ümidlərim özünü tam doğrultdu. O, böyük nüfuza malik siyasi lider idi. Onu dinləyərkən əmin olurdum ki, o öz köklərinə dərindən bağlıdır və bunu yüksək qiymətləndirir. Söhbət əsnasında məndən vilinqlər barədə soruşdu. Düzü, onun belə dərin məlumath olduğunu bilmirdim. Maraqlı söhbət zamanı belə qənaətə gəldik ki, azərbaycanlılarla norveçlər əslində dərin ümumi köklərə, hətta qohumluq əlaqələrinə malikdir. Mən bunu komplement kimi qəbul etdim. Amma biz həm də ciddi məsələləri həll etməli idik. Mənə elə gəldi ki, prezident mənim ATƏT-in sədri kimi rolumdan çox da razı deyil. O vaxt ATƏT-in ən vacib və deyərdim ki, ən çətin işlərindən biri Qarabağ münaqişəsini həll etmək idi. Fikrimcə, prezident Əliyev mənim sədrliyim dövründə bu münaqişənin həlli yolunun tapılacağına çox ümid edirdi. Təəssüf ki, bunu bacarmadım. Amma inamla deyə bilərəm ki, prezident Əliyev Qafqazda və ATƏT-də mühüm rol oynayırdı.

* * *

MƏTN: – Azərbaycanın müstəqilliyinin əbədi və dönməz olması üçün bütün qüvvəsini sərf edən Heydər Əliyevin hər bir diplomatik addımı doğma vətənini beynəlxalq aləmə daha yaxından tanıdır, nüfuzunu artırırdı. Bu uğurlar böyük səylər bahasına başa gəlsə də Azərbaycana, öz xalqına xidmət etməyi o, böyük şərəf bilir, qürur hissi keçirirdi.

* * *

QREQ LAFLİN (ABŞ. Sabiq konqresmen): – Mən, prezident Əliyevlə həm burada – Vaşinqtonda, həm vətənim Texasın Hyuston şəhərində, həm də Azərbaycanda – Bakıda görüşərkən həmişə onun Azərbaycan xalqına hədsiz sadiqliyinə və xidmətinə valeh olmuşam. Burada onu müşahidə edərkən, gördüm ki, o, ABŞ prezidentilə, senatorlarla, konqresmenlərlə, Amerika sənayesinin nüfuzlu şəxslərilə görüşlərdə Azərbaycanı Birləşmiş Ştatlara, Amerika xalqına ən yaxşı tərəfdən təqdim edirdi. Eyni zamanda o, bizi maarifləndirirdi. Azərbaycanın gözəl insanları, zəngin tarixi, mədəniyyəti haqqında, dünya incəsənətinə verdiyi töhfələr barədə ürək dolusu danışırdı. Bütün bunlar bizə göstərirdi ki, Azərbaycan xalqı istiqanlı, qayğıkeş, öz ölkələrini sevən, ailələrinə möhkəm bağlı olan millətdir. Mən onunla bir sıra tədbirlərdə görüşərkən, onun şəxsi farizmasını, ölkəsinə məhəbbətini, ailəsinə bütün varlığı ilə bağlılığını, xalqını sevdiyini müşahidə etmişəm. Rəsmi görüşlərdə özünü əsl

prezident kimi aparsa da, şəxsi görüşlərdə onun incə yumor hissi olduğunu görürdüm. O, yalnız siyasətçilərin danışa biləcəyi maraqlı əhvalatlardan söhbət açırdı. Yalnız böyük siyasətçilər və prezidentlər kimi tarixi dərindən bilirdi. Mən onun təbəssümünə, ürəkdən gülmək qabiliyyətinə həsəd aparırdım. Mən prezident Heydər Əliyevi konqresmen olduğum dövrdə rastlaşdığım ən nadir şəxsiyyətlər siyahısına daxil edirəm. Mən dünyanın xeyli ölkəsini gəzib-dolaşmışam. Buna görə də inamla deyə bilərəm: prezident Əliyev kimi dost tapdıqlarına görə amerikalıların bəxti gətirib.

* * *

ROALD SAQDEYEV (ABŞ. Merilend Universitetinin professoru, akademik): – Düşünürəm ki, hətta bütün dünyada ən müxtəlif siyasi vəziyyətlərdə yeganə doğru yol axtarıb tapa bilən Heydər Əliyev kimi təcrübəyə malik siyasi xadim tapmaq çox çətindir. Bir müddət əvvəl ağlıma gəldi ki, zarafatyana üslubda alleqorik müqayisə aparım. Fikirləşdim ki, postsovet dövrünün siyasi rəhbərlər fonunda Heydər Əliyev vəziyyəti hiss etmək qabiliyyətinə və müdrikliyinə görə başqalarından xeyli yüksəkdir. Bu cəhətdən onu basketbolçu Maykl Cordanla müqayisə etmək olar. Doğrudur, Maykl Cordan Heydər Əliyev nisbətən xeyli cavandır, buna görə də Heydər Əliyev qat-qat yüksəkdir. Əlbəttə, mən onu Maykl Cordanla müqayisə edirəmsə, buradakı

alleqoriyanı anlamaq üçün yumor hissinə malik olmaq lazımdır. Şübhəsiz ki, Heydər Əliyev belə hiss zəngindir.

Yadımdadır, 70-ci illərdə səfərlərimin birində Heydər Əliyev söhbət zamanı o, mənə həmin dövrdə Azərbaycanın əldə etdiyi nailiyyətlərdən danışırdı. Dedi ki, bilirsizmi bizim respublikamız İttifaqda konyak istehsalına görə birinci yerə çıxıb. Onda sövq-təbii belə bir sual verdim. Bəs keyfiyyətə görə? Heydər Əliyev dedi: «Bilirsizmi, bu cəhətdən çox lovğalana bilmərik. Bax, bizim ermənistanlı qonşularımız hesab edirlər ki, dünyada ən yaxşı konyak onlarındır. Gürcüstanlı qonşularımız deyirlər ki, SSRİ-də ən yaxşı konyak onlarınkıdır. Biz isə təvazökarlıqla bildiririk ki, Zaqafqaziyada ən yaxşı konyak bizdədir».

* * *

MƏTN: – Hər bir məsələnin həllində son dərəcə ciddi, tələbkar olan Heydər Əliyev bəzən özü ortaya çökən gərginliyi azaltmaq üçün söhbətin məcrasını dəyişər, öz incə yumoru ilə hamının diqqətini cəlb edərdi. Onu tanıyanlar bilirdilər ki, bu da söhbətin daha uğurlu keçməsi naminə edilirdi. Çünki az sonra o, yenidən hamını tam ciddiyyətini toplayaraq, qarşıya qoyulan mövzunu tamamlamağa, qərara gəlməyə sövq edirdi.

* * *

1988-ci ildən başlayaraq, ermənilərin təcavüzü, o vaxtkı ölkə başçılarının tam laqeydliyi şəraitində Ermənistandan, Dağlıq Qarabağdan və ətraf ərazilərdən 1 milyondan artıq qaçqın və məcburi köçkün Azərbaycanın müxtəlif bölgələrində acınacaqlı şəraitdə yaşamağa məhkum olunmuşdu. Yalnız Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra onların sosial vəziyyətinin yaxşılaşdırılması dövlət səviyyəsində nəzarətə alındı. O, qaçqın və məcburi köçkünlərin məskunlaşdığı çadır şəhərciklərinə baş çəkən, onların problemləri ilə yerindəcə tanış olan ilk dövlət başçısı idi. O, taleyin ümidinə buraxılmış bu insanların həyatını daxilən yaşayır, onların dərdini öz dərdi bilirdi. Onları doğma torpaqlara, yurd yerlərinə qaytarmağı özünün ən mühüm vəzifəsi hesab edirdi.

* * *

I KİŞİ: – Cəbrayıl çörəyidir. Ondan bir loxma yeyin.

HEYDƏR ƏLİYEV: – Dadacağam. Qəşəng çörəkdir. Buğda da yaxşı buğdadır.

1IKİŞİ: – Bu da Cəbrayıl pendiridir.

HEYDƏR ƏLİYEV: – Cəbrayıl pendirini burda necə tutursuz?

I KİŞİ: – Qoyundu, quzudu, bəsliyirik, əmələ gətiririk.

II KİŞİ: – Ordan gətirilən damazlıqdandır. Hələ kökünü kəsməyib.

I KİŞİ: – Mən özüm Cəbrayıl rayonundanam. Bu toy şənliyi də bu gün mənim oğlumundur.

HEYDƏR ƏLİYEV: – Dadlı çörəkdir.

II KİŞİ: – Dadlı çörəkdir? Nuş olsun. Cəbrayıhn insanları da dağ vüqarlıdır, əzəmətlidir.

HEYDƏR ƏLİYEV : – Mən məsələni sülh yolu ilə həll etmək istəyirəm. Doğrudur, bu vaxt tələb edir. 4 ildir ki, atəşkəs rejimində yaşayırıq, 4 ildir müharibə yoxdur. 4 ildir döyüşlər getmir. Amma sizi də belə görəndə ürəyim ağrıyır. Başa düşürsünüz? Ürəyim ağrıyır. Mən indi orada, şadlıq evində bir bacımı gördüm, qucağında uşaq, 1 yaşında uşaqdır. Burada uşaq doğulub, bu şəhərcikdə.

1 KİŞİ: – Bir az dayandır.

HEYDƏR ƏLİYEV: – İşin yoxdur. Eybi yoxdur. Qoy yandırsın, sənin nə işin var? Mənim üçün xoşdur bu tüstü. Bu tüstü elə bizə buranın əhval-ruhiyyəsini göstərir. Ənənəni göstərir. Mən də uşaq vaxtında anam sacın üstündə həmişə mənə belə lavaş bişirərdi. Mən bunların hamısını görmüşəm. Belə ocağın başında çox oturmuşam. Bu mənim üçün qəribə bir şey deyil. Buna narahat olmayın. Və mən elə bunu görməyə gəlmişəm

bura ki, sizin həyatınızı olduğu kimi görüm. Siz də toya hazırlaşırsınız. Hardadır mənim dostum? Gəl. Gəl. Gəl bura görüm, ay bəy. Toyunuz mübarək! Sənə öz sevdiyin qız ilə birlikdə xoşbəxt həyat arzu edirəm. Burada evlənəndə, əlbəttə ki, burada yaşayacaqsan. Amma mən bu gün bura 20 dənə xüsusi qurulmuş ev gətirmişəm. Dedim ki, baxın burada ən çox ehtiyacı olan adamlara verin. Bu evin birini mən bağışlayıram bu bəylə gəlinə.

* * *

Dünya heç vaxt belə qalmayacaq. Dünyada hər şey dəyişir və XX əsrin sonu, XXI əsrin əvvəlki illəri, ilk illəri bunu sübut edir və bunu göstərir ki, dünyada çox böyük dəyişikliklər gedir. Beli, heç bir şey bir yerdə durmur, heç bir şey olduğu kimi qalmır və mən inanıram, mən tam inanıram ki, hər şey ədalət naminə dəyişəcək bizim bu ölkədə. Azərbaycan xalqının əzab-əziyyəti onun xeyrinə dəyişəcək və mütləq, mütləq siz gələcəkdə hələ gedib öz gözəl Göyçə torpağınızı görəcəksiniz. Öz doğma dağlarınızı, bulaqlarınızı, çaylarınızı görəcəksiniz. Ata-babalarınızın qəbirlərini görəcəksiniz. Mən buna heç şübhə etmirəm. Mən buna inanıram. Bu qəsəbədə sizə xoşbəxt həyat arzulayıram. Arzulayıram ki, burada həmişə sevinc olsun, məhəbbət olsun, burada toy olsun, şənlik olsun, musiqi çalınsın, burada Aşıq Ələsgərin sazı çalsın, Aşıq Ələsgərin sözləri bu dağlara yayılsın.

Burada siz gözəl, xoşbəxt həyat içində yaşayasınız.

* * *

SÜLEYMAN DƏMİRƏL (Türkiyə Respublikasının 9-cu prezidenti): – Təbii ki, dünya fani. İnsanlar gelib-keçiyor. Mühüm olan, geridə nə buraxdıq. İnsanların ölçüsü əsərləridir. Sayın Haydar Alievi çox iyi tanıyorum. Böyük devlet adamıdır. Böyük Azərbaycan milliyetçisidir. Böyük türk dünyasının lideridir və benim üçün benim aziz kardeşimdir və kendisinin 90-mı yılların başından itibarən, benim tekrar Türkiyə Cumhuriyyetinde söz sahibi olmam, Baş bakan olmam, Cumhur başkanı olmam münasibetile həmən 10 yıl çox yakın çalışdıq. Yeni Azərbaycan devletinin, Azərbaycan Respublikasının Cumhuriyyetinin kuruluşımda Haydar bəyin çox böyük hizmetleri vardır. Azərbaycanı Karadeşliyə düşmekdən kurtarmışdır və bu gün Azərbaycan bugünkü durumuna gələ bilmişsə, bu sayın Haydar Aliyevin qiraətli idaresi sayesində olmuşdur. Azərbaycanda demokresinin kurulmasına böyük emək vermişdir. Azərbaycanın dünya ilə böyük iş birliyi yapmasına böyük emək vermişdir və takib etdiyi doğru politikalar Azərbaycanı böyük devletler nəzdində itibarlı yapmışdır. Dünya nəzdində itibarlı yapmışdır. Sayın Haydar Aliyev Amerikada da aranan adamdı. Fransada da aranan adamdı, Rusiyada da aranan adamdı və DİŞ politikalara dengelidir, barışçıdır.

* * *

HEYDƏR ƏLİYEV: – Azərbaycan mənim ürəyimdir, Azərbaycan mənim nəfəsimdir. Azərbaycan mənim həyatımdır. Mənim ürəyim daima öz doğma vətənim Azərbaycanla bağlı olubdur. El bilir ki, sən mənimsən, Yurdum, yuvam, məskənimsən. Anam, doğma Vətənimsən, Ayrılarmı könül candan? Azərbaycan! Azərbaycan!

SON

2005

MÖHTƏŞƏM TÜRK

I film

Kadrda qədim Ərbilin qala divarları. Səhər çıxan günəşin şüaları. Ərbilin xan sarayından görüntülər. İhsan Doğramacının uşaqlıq və gənclik illərini əks etdirən foto şəkillər kadrda bir-birini əvəz edir. Bütün bu kadrlar Kərkük musiqisinin müşayiəti ilə efirə verilir. Filmin ilk titri yazılır.

MÖHTƏŞƏM TÜRK

10 saniyədən sonra birinci titri ikincisi əvəz edir.

İHSAN DOĞRAMACI – 90

Bir neçə saniyədən sonra titr kadrdan çıxır. Diktor kadr arxası mətni oxuyur.

MƏTN: – Tarixi şəxsiyyətlər yaradır. Öz fəaliyyətləri, öz qüdrətləriylə. Tarix həm də təkrarların xronologiyasıdır. Zaman-zaman olaylar başqa müstəvidə, başqa biçimdə ortaya çıxar. Forma, məzmun dəyişsə də mahiyyət dəyişməz. Elə İhsan Doğramacı fenomeni kimi…

Altı min il öncə Ortadoğuda cahanı bir şumer günəşi nura qərq etmişdi. Mədəniyyətə, incəsənətə bəxş etdiyi kəşfləri dünyaya yeni-yeni

tərəqqi, inkişaf gətirmişdi. Altı min il sonra bu qədim torpaqda – türkün əbədi və əzəli torpaqları olan Kərkükdə, Ərbildə dünyaya gələn bu cocuq da böyüyərək öz zəkasının günəşiylə təkcə Mesopatomiyanı deyil, bütün cahanı nura qərq etdi. Elm, təhsil nuruna. Bu körpə bu gün iftixar və güvənc yerimizə çevrilən, ömrünün və müdrikliyin 90 yaş zirvəsindən boylanan İhsan Doğramacı əfəndimizdir.

Kadr dəyişir. İhsan Doğramacının 1932-ci ilə qədərki fəaliyyəti efirə verilir. Çıxış başa çatır. Diktor kadr arxası mətni oxuyur.

MƏTN: – Birinci Cahan savaşından sonra İraqın idarəçiliyi ingilislərin əlinə keçdi və İhsan bəyin dünyaya göz açdığı Kərkük mahalında türk dili sıxışdırılmağa başlandı. Min bir bəhanə ilə xalqa dilini, adət və ənənəsini unutdurmağa çalışırdılar.
Dilim-dilim,
Al doğra, dilim-dilim.
Hər şeydən şirindir mənə,
Mənim öz ana dilim.
İraqın quzeyində baş verən bu hadisələr gənc İhsanın da taleyində müəyyən rol oynamışdı.

Kadr dəyişir. İhsan Doğramacının Türkiyəyə gəldiyi illərə qədər ki, xatirələri efirə verilir. Çıxış başa çatır. Diktor kadr arxası mətni oxuyur.

MƏTN: – Doğramacılar ailəsinin kökü Osmanlı padşahı IV Muradın sərkərdələrindən Qara Mehmet

Doğramacıya gedib çıxır. Doğramacı sözünün mənası dülgər, xarrat deməkdir. Ailənin ulu babaları Anadoluda bu peşəylə ad çıxarmışdı. Sonralar dövlət xidmətinə girən Doğramacıların bir qolu IV Muradın zamanında Quzey İraqda yerləşmiş Kərkük mahalında, Ərbildə sayılıb-seçilən kişilərdən olmuşlar. İhsan Doğramacının atası Əli Doğramacı isə Ərbil məclisinə rəhbərlik edib. Bu gün dünyanın hər yerində şəxsiyyətinə hörmət edilən İhsan bəy də onun ailəsində dünyaya göz açıb.

Kadr dəyişir. İhsan Doğramacının uşaqlıq illəriylə bağlı xatirələri efirə verilir. Çıxış başa çatır. Diktor kadr arxası mətni oxuyur.

MƏTN: – Türkiyə gənc İhsanın həyatında dönüş nöqtəsi olur. Mustafa Kamal Atatürkün rəhbərliyi ilə Türkiyədə dünyəvi dövlət qurulmuşdu. Elmin, səhiyyənin, təhsilin inkişafı üçün böyük səylər göstərilirdi. Xüsusən də uşaq ölümünün qarşısını almaq üçün xaricdən gələn mütəxəssislər dəvət olunurdu.

Kadr dəyişir. İhsan Doğramacının alman professoru Esksteinlə tanışlığına aid çıxışı efirə verilir. Çıxış başa çatır. Diktor kadr arxası mətni oxuyur.

MƏTN: – Alman professoru Esksteinlə tanışlıq gənc həkimdə uşaq həkimliyinə marağı birə-beş artırır. Və İhsan Doğramacı 1939-cu ildə Ankara nümunə xəstəxanasında pediatriya assistenti olur.

Burada çalışarkən Türkiyənin səhiyyə sistemində olan çatışmamazlıqları açıq-aşkar görməyə başlamışdı. O zamanlar heç nəyi ilə seçilməyən paytaxt Ankarada çox işlər görmək istəyirdi İhsan bəy.

Kadr dəyişir. Uzun illər İhsan bəylə bərabər çalışmış professor Yüksel Bozərin çıxışı efirə verilir. Kadr başa çatır. Diktor kadr arxası mətni oxuyur.

MƏTN: – İhsan bəy alman professoru Esksteinin yanında ixtisası üzrə təkmilləşdikdən sonra Bağdada ailəsini görməyə gəlir. Burada amerikan qız kollecində oxuyan və Hikmət Süleyman bəyin qızı olan Aysər xanımla tanış olur, 16 aprel 1942-ci ildə ailə həyatı qurur. Aysər xanımla bərabər Amerikaya təhsilini davam etdirməyə gedir. Beş il Harvard və Vaşinqton universitetlərində kurslar keçir, elmi işçi kimi çalışır. 1947-ci ildə Türkiyəyə qayıdır və mübarizələrlə dolu illər başlayır.

Kadr dəyişir. İhsan Doğramacının Türkiyənin səhiyyə sistemilə bağlı xatirələri efirə verilir. Çıxış başa çatır. Diktor kadr arxası mətni oxuyur.

MƏTN: – O zamanlar Türkiyədə səhiyyənin vəziyyəti çox ağır idi. Dövlət xəstəxanalarında tibbi personalların, həkimlərin sayı çox az idi. Cüzi miqdarda əmək haqqı alan həkimlər gününün çox hissəsini özəl qəbul otaqlarında keçirirdi. Gənc doktor İhsan Doğramacı isə bunlarla barışa bilmirdi Türkiyədə. Amerika səhiyyəsinə uyğun

bir şey yaratmaq istəyirdi. Və nəhayət çıxış yolunu özəl xəstəxana qurmaqda gördü. İki otaqlı bir xəstəxana açdı. Sonra dəmək yaratdı. Onunla da kifayətlənməyib Türkiyədə ilk vəqf xəstəxanası açdı. Vəqfin bütün xərcləri isə ailənin şəxsi vəsaiti hesabına ödənilirdi. İhsan bəy Ankaranın Hacətəpə səmtində ərazi alır. 1957-ci ildə burada üç mərtəbəli xəstəxana tikir. 1958-ci ildə Hacətəpə universitetinin ruşeymləri meydana çıxır.

Kadr dəyişir. İhsan Doğramacının xatirələrindən bir hissə efirə verilir. Çıxış başa çatır. Diktor kadr arxası mətni oxuyur.

MƏTN: – Tarixdə o şəxsiyyətlər iz buraxır ki, onlar məlum çərçivələrə sığışmır. Bu çərçivənin həddini aşmaq, yeniliklər gətirmək üçün mübarizə aparmalı olur. İhsan Doğramacı da tarixin yaratdığı belə şəxsiyyətlərdəndir.

1961-ci ilin martında tale yenidən İhsan bəyi sınağa çəkir.

Sevə-sevə qurub-tikdirdiyi xəstəxana yanıb külə dönür.

Kadr dəyişir. İhsan bəyin çıxışından bir hissə efirə verilir. Çıxış başa çatır. Diktor kadr arxası mətni oxuyur.

MƏTN: – İhsan bəy xəstəxananı yenidən tikmək üçün yollar arayır. Pul, vəsait tapmaq üçün Maliyyə naziriylə görüşür. Bu yolda hər şeyə dözür. Hətta gecəni Maliyyə naziri Kamal Kurdaşın dəhlizində keçirir.

Kadr dəyişir. İhsan bəyin xəstəxananı tikmək barədəki söhbəti efirə verilir. Söhbət başa çatır. Diktor kadr arxası mətni oxuyur.

MƏTN: – İhsan Doğramacı xəstəxananı bərpa etsə də onun planları daha geniş idi. Hacətəpədə torpaq ərazisini nahaqdan almamışdı. Bu reformaçı insanın beynində yeni-yeni ideyalar meydana çıxırdı. Və bu ideyaları həyata keçirmək üçün dostlar səfərbər edilirdi.

Kadr dəyişir. Türkiyənin tanınmış siyasət adamı İsmət Sezginin çıxışı efirə verilir. Söhbət başa çatır. Diktor kadr arxası mətni oxuyur.

MƏTN: – Bəzən cəmiyyət zamanı qabaqlayan islahatlara hazır olmur. Və bu islahatlar, yeniliklər, əzab-əziyyət bahasına həyata keçirilir. İhsan bəyin 1950-ci illərdən başlayan reformaları da çox zaman müqavimətlə qarşılanırdı. Amma bu xəyalpərvər İhsanın arzuları, ideyaları, istəkləri bitib tükənmək bilmirdi. Beləcə, bu gün Türkiyənin elmi bazası ilə öyündüyü Hacətəpə universiteti meydana çıxdı. Ölkənin bir çox regionlarında tibb fakültələri açıldı.

Kadr dəyişir. İhsan Doğramacının universitetlərlə bağlı söhbəti efirə verilir. Söhbət başa çatır. Diktor kadr arxası mətni oxuyur.

MƏTN: – İhsan bəy Türkiyədəki universitetləri məhəlli

səviyyədən qurtarmaq üçün səylər göstərirdi. Təhsildəki çatışmamazlıqlar İhsan bəyi dərindən düşündürən məsələlər idi. O, Türkiyədə Amerikanın və Avropanın qabaqcıl təhsil sistemini görmək istəyirdi. Azad və asılı olmayan 1963-1965-ci illər ərzində Ankara universitetində çalışanda da, Hacıtəpə universitetində işləyəndə də bu ideyaları həyata keçirməyə çalışırdı. 1982-ci ilin anayasasına daxil etdirdiyi təhsil haqqındakı fikirləri də buna xidmət edir. Və nəhayət 80-ci illərin əvvəllərində Türkiyədə ilk vəqf universiteti olan Bilkənt meydana gəldi.

Kadr dəyişir. İhsan Doğramacının Bilkənt universiteti barədə söylədikləri efirə verilir. Çıxış başa çatır. Diktor kadr arxası mətni oxuyur.

MƏTN: – Böyük təşkilatçı olan İhsan bəy Bilkənt universitetini yaratmaqla kifayətlənmədi. Hər şeydə ona köməklik edən dostlarını, həmkarlarını səfər etdi. Türkiyənin imkanlı adamlarını, vəqf sahiblərini yeni universitetlər qurmağa ruhlandırdı. Beləcə, ölkədə vəqf universitetləri şəbəkəsi yaradıldı.

Kadr dəyişir. Qoç universitetinin rektoru Atilla Aşqarın və professor Mehmət Xabaralın çıxışları efirə verilir. Çıxış başa çatır. Diktor kadr arxası mətni oxuyur.

MƏTN: – İhsan bəyin uğurları artdıqca, şöhrətin zirvəsinə doğru yüksəldikcə onu gözdən salmağa çalışanlar da tapıldı, zaman-zaman «kommunist»

damğası vuruldu. «Amerikanın adamı» hesab edildi. O, isə öz işində, öz aləmində.

Ömrünü, taleyini həkimliyinə, təhsilə bağlamışdı. Cəmiyyətdə qazandığı böyük nüfuz Türkiyənin siyasi dairələrinin də marağına səbəb olmuşdu. Ölkədə tez-tez baş verən hökumət böhranlarında ilk yada düşən İhsan bəy olurdu. Təklif olunan baş nazir vəzifələri də onu yolundan döndərə bilmədi. Elm, təhsil yolundan.

Kadr dəyişir. İhsan Doğramacının siyasətlə bağlı fikirləri efirə verilir. Çıxış başa çatır. Diktor kadr arxası mətni oxuyur.

MƏTN: – Böyük zəka sahibi, reformaçı İhsan Doğramacı gözəl ailə sahibidir. Fransızlar «hər başarlı kişinin arxasında bir başarlı qadın» olduğunu vurğulayırlar. İhsan bəyin də arxasında professor Aysər xanım var. Uzun illər Aysər xanım İhsan bəyə həm mənəvi, həm də maddi dayaq olub. Elm, təhsil yolunda böyük alimi yalnız buraxmayıb. Ata-anayla bərabər üç övladın da hər biri elmlər doktoru, professordur. Professor Əli Doğramacı Bilkənt universitetinin rektorudur.

Kadr dəyişir. Əli Doğramacının elmi fəaliyyəti ilə bağlı söhbəti efirə verilir. Söhbət başa çatır. Diktor kadr arxası mətni oxuyur.

MƏTN: – İhsan bəy elm, qurub-yaratmaq, yeni layihələrini həyata keçirmək xatirinə yaxşı mənada ailəsinə, uşaqlarına da zülm edərdi. Yay

aylarında qonun-qonşu uşaqları Türkiyənin çeşidli istirahət yerlərinə gedərdi. İhsan bəyin uşaqları isə yay tətilini o zamanlar yaşadığı Baxçalı evlərin küçələrində keçirərdi.

Kadr dəyişir. Əli Doğramacının uşaqlıq illəri ilə bağlı xatirələri efirə verilir. Söhbət başa çatır. Diktor kadr arxası mətni oxuyur.

MƏTN: – İhsan bəyin uşaqları atalarını bir abidə kimi görür, onu qorumağa çalışırlar. Bosniyada baş verən faciələr zamanı Əli bəy atasının bu təhlükəli regiona getməməsi üçün çox səy göstərsə də bir nəticə hasil olmadı. İnadkar ata bu bölgədəki uşaqların köməyinə tələsdi. Daha sonra Əfqanıstan fəlakəti baş verdi. Ustad bu bölgəyə də tələsdi. Özü də həyat yoldaşı Aysər xanımla bərabər.

Kadr dəyişir. Əli Doğramacının son çıxışı efirə verilir. Çıxış başa çatır. Diktor kadr arxası mətni oxuyur.

MƏTN: – Bu gün Türkiyədə hər kəsin Xoca bəy deyə müraciət etdiyi İhsan Doğramacı həm də qayğıkeş rəhbərdir. Tabeçiliyində çalışan hər kəsin ən kiçik probleminin həllinə vaxt tapır bu əzəmətli insan.

Kadr dəyişir. Rasim Özürəyin çıxışı efirə verilir. Çıxış başa çatır. Diktor kadr arxası mətni oxuyur.

MƏTN: – İhsan bəylə çalışan hər kəs öncə ustadın tələbkarlığını qeyd edir. Onun insanpərvərliyi və

xeyriyyəçilik əməllərindən söz açır.

Kadr dəyişir. Oya Çangüloğlunun çıxışı efirə verilir. Çıxış başa çatır. Diktor kadr arxası mətni oxuyur.

MƏTN: – Hərtərəfli biliyə, böyük zəkaya sahib olan ustad Doğramacı sənətin, musiqinin də qayğıkeşidir. Yaratdığı Bilkənt universitetində dünyanın bir çox Ölkəsindən dəvət edilmiş musiqiçilər, bəstəkarlar, rəssamlar çalışır. Universitetin musiqi salonunda keçirilən bütün konsertlərin dinləyicisi olur ustad. Həyatdan köçmüş sənətkarların irsinin qorunması qayğısına da qalır bu böyük insan. Fikrimizi tamamlamaq üçün bircə nümunə göstərək. İhsan bəy bəstəkar Adnan Sayçunun bütün əsərlərini nəşr etdirmiş, Bilkənt universitetində onun xatirə muzeyini yaratmışdır.

Kadr dəyişir. Pianoçu Gülsün Onayın çıxışı efirə verilir. Çıxış başa çatır. Diktor kadr arxası mətni oxuyur.

MƏTN: – İhsan Doğramacı həmişəlik Türkiyədə yaşasa da doğulduğu torpağı heç zaman unutmur, əlaqəsini kəsmir. Kərkükün, Ərbilin inkişafı üçün lazımı yardımlar göstərir. Onun şəxsi vəsaiti hesabına Ərbildə onlarca məktəblər, liseylər tikilib. Yaxşı oxuyanlara təqaüdlər təsis edilib. Bir sözlə, bu bölgədə elmin, maarifin inkişafı üçün heç nə əsirgəmir İhsan Doğramacı.

Kadr dəyişir. Şairə Nəsrin Ərbillinin çıxışı efirə verilir. Çıxış başa çatır. Diktor kadr arxası mətni oxuyur.

MƏTN: – İhsan Doğramacı Bilkənt universitetini dünyanın qabaqcıl elm mərkəzinə çevirməyi bacardı. İndi bir çox Avropa, Şərq ölkələrindən təhsil almaq üçün buraya gələnlərin sayı artır. 1995-ci ildən isə universitetdə inkişaf etməkdə olan ölkələrin tələbələri üçün 63 kurs açılıb. Bu kurslarda təhsil alıb məzun olan gənclərin tam yarısı öz ölkələrinə müəllim kimi dönüb.

Kadr dəyişir. Əfqan tələbələrin çıxışlarından parçalar efirə verilir. Çıxışlar başa çatır. Diktor kadr arxası mətni oxuyur.

MƏTN: – İhsan Doğramacının Türkiyə və dünya elminə göstərdiyi xidmətlər yüksək qiymətləndirilib. Vaxtilə Hacətəpə universitetində gördüyü işlərə görə heykəli qoyulub. Universitetlərə onun adını vermək istəyiblər. Amma bu təvazökar insanın razılığını ala bilməyiblər. Dövlətin zirvəsində duranlar ustad Doğramacını həmişə ayaqüstə alqışlayıblar. Ölkəsində az adama qismət olan «Dövlətə xidmət» medalını isə ona Türkiyənin 9-cu prezidenti Süleyman Dəmirəl təqdim edib.

Kadr dəyişir. Süleyman Dəmirəlin çıxışı efirə verilir. Çıxış başa çatır. Göy fonda «birinci filmin sonu» sözləri yazılır.

I FİLMİN SONU

2005

MÖHTƏŞƏM TÜRK

II film

I filmin başlığı efirə verilir. Sonra titr yazılır.

MÖHTƏŞƏM TÜRK

10-15 saniyədən sonra bu titri ikinci titr əvəzləyir.

İHSAN DOĞRAMACI – 90

Ərbil şəhərindən görüntülər. Diktor kadr arxası mətni oxuyur.

MƏTN: – İhsan Doğramacının Ərbildən başlayan və dünyamızın zirvəsinə yüksələn yaşam hekayəsi bir neçə cildlik əsərin mövzusu ola bilər. Sonradan dünyaya göz açdığı Ərbilin, Kərkükün, bütövlükdə Quzey İraqın havasından, suyundan, dağından, dərəsindən uzaq düşsə də insanlarını unutmadı. Onların qayğılarını, arzu və istəklərini həmişə diqqətlə dinləməyə hazır olub Xoca bəy. Xüsusən də təhsil qayğılarına anlayışlı yanaşıb bu böyük insan. Təkcə Ərbildə onlarla məktəb açıb. Və açmaqla kifayətlənməyib, daima diqqət və qayğısını əsirgəməyib. Uzun illər və gərgin əməyin ona gətirdiyi şöhrət bir misqal da olsun

vətən sevgisini onun qəlbindən çıxara bilməyib. İhsan bəy bu gün də Kərkük musiqisinin dəli-divanəsi və təbliğatçısıdır.

Kadr dəyişir. Ömər Türkmənoğlunun ifa etdiyi musiqidən biri efirə verilir. İfa başa çatır. Diktor kadr arxası mətni oxuyur.

MƏTN: – İhsan Doğramacı güclü xarakterə, möhkəm əqidəyə malik bir insandır. Müstəqillik və azadlıq onun həyat devizidir. Ömrü boyu siyasətdən qaçmağa çalışıb. Amma siyasət onun yaxasından əl çəkməyib. Rəsmi siyasətçi olmasa da dünyanın ən görkəmli siyasət adamları Türkiyədə Xocanın şəxsi evində onu ziyarət edib. Düşüncələrini paylaşıb. Uzun illər sıralarında 500 min insanı birləşdirən dünya pediatriya cəmiyyətinə rəhbərlik edib. 1992-ci ildən ömürlük onun fəxri sədri seçilib. YUNİSEF-in Türkiyə şöbəsinin rəhbəridir.

Kadr dəyişir. İhsan Doğramacının YUNİSEF-lə bağlı çıxışı efirə verilir. Çıxış başa çatır. Diktor kadr arxası mətni oxuyur.

MƏTN: – Təpədən-dırnağa türkçü olan İhsan bəy türk dünyasının inkişafı üçün çox işlər görür. Doğulduğu torpaqla bu gün əzab-əziyyətlər içərisində yaşayan Quzey İraqla – Kərkük və Ərbillə əlaqələrini kəsmir. Şibşirin ana dilində dərs almaq üçün onlara lazımi yardımlar da bulunur. Xoca bəyin yardımsevərliyi,

maarifpərvərliyi bir qitəyə sığmır. İnsanlıq üçün etdikləri böyük işlərin nəticələri dolayısıyla özünə dönür. Bu gün İhsan Doğramacı dünyanın ən mötəbər elm ocaqlarının, akademiyalarının fəxri doktorudur. Hər xalqın dilində danışmağı bacarır Xocamız. Yeni-yeni dil öyrənmək, hər getdiyi ölkənin öz dilində danışmaq onun xobbisidir.

Kadr dəyişir. İhsan Doğramacının xobbi barədə etdiyi söhbət başa çatır. Diktor kadr arxası mətni oxuyur.

MƏTN: – Böyük zəka sahibləri, elm və siyasət adamları təkcə doğulduğu məmləkətin deyil, mənsub olduğu xalqın, geniş mənada dünyanın övladı olur. Xoca bəy də istisna deyil. O, yaşadığı Türkiyə ilə bərabər Azərbaycanı da özünün vətəni hesab edir. İki vətənindən biri. Elə Azərbaycanda da dövlət rəsmlərindən tutmuş sadə insanlara qədər hər kəs bu möhtəşəm insanı səmimiyyətlə sevir. Xüsusən də ölkə başçısı Azərbaycan Prezidenti cənab İlham Əliyev böyük alim İhsan Doğramacının insanlıq naminə gördüyü işləri yüksək qiymətləndirir. Eyni zamanda İhsan bəyin şəxsi keyfiyyətləri, dostluqda sədaqəti, xüsusən də onun ulu öndərimiz Heydər Əliyevlə səmimi dostluğu ölkə başçısı tərəfindən xüsusi olaraq vurğulanır.

Kadr dəyişir. İhsan Doğramacının Azərbaycan barədə dediyi sözlər efirə verilir. Söhbət başa çatır. Diktor kadr arxası mətni oxuyur.

MƏTN: – Böyük insanların dostluğu və bu dostluğa sədaqəti də böyük olur. Bəzən bu dostluqlar bir-birini görmədən də meydana çıxır. Və elə ilk görüşdən sarsılmaz dostluğa çevrilir. Xalqımızın ümummilli lideri Heydər Əliyevin Xoca bəylə dostluğu da zamanın sınağından çıxmış dostluq idi.

Kadr dəyişir. Xalqımızın ümummilli lideri Heydər Əliyevin 1992-ci ildə İhsan Doğramacıyla görüşü efirə verilir. Söhbət başa çatır. Diktor kadr arxası mətni oxuyur.

MƏTN: – Ömrü boyu elmin, mədəniyyətin, incəsənətin böyük qayğıkeşi olan xalqımızın ulu öndəri Heydər Əliyev İhsan Doğramacı faktorunu lazımınca qiymətləndirirdi. Bu türk oğlunun dünya elminə verdiyi layiqli töhfəni dəyərləndirməklə yanaşı Xoca bəyə mənəvi dayaq olurdu. Ümummilli liderimizin şəxsi təşəbbüsü ilə İhsan Doğramacının 80 və 85 illik yubileyləri ölkəmizdə təntənə ilə keçirildi. İlk öncə 80 illik yubileyi barədə.

Kadr dəyişir. İhsan Doğramacının Azərbaycanda keçirilən 80 illik yubileyindən hazırlanmış süjetlər efirə verilir. Süjet başa çatır. Diktor kadr arxası mətni oxuyur.

MƏTN: – İhsan Doğramacının azərbaycanlılarla ilk tanışlığı 50-55 il öncəyə gedib çıxır. Beynəlxalq konfranslarda öz ana dilində danışan insanları görərkən çox sevinmişdi Xoca bəy. Elə o günlərdən də Azərbaycana, onun elm və

mədəniyyətinə, musiqisinə heyran olmuş və dostlarına da təbliğ etmişdi. İhsan Doğramacı Azərbaycana gələrkən tarixi yerləri mütləqa ziyarət edər. Şəhidlər xiyabanına, ustad Füzuliyə «baş» çəkər. «İran – Türkmən» ocağında milli sərvətimiz – muğamlara qulaq asar.

Kadr dəyişir. İhsan Doğramacının 1995-ci ildə Bakının görməli yerləri ilə tanışlığı efirə verilir. Süjet başa çatır. Diktor kadr arxası mətni oxuyur.

MƏTN: – 1998-ci il. İhsan bəyin 85 yaşı tamam olur. Azərbaycan da bu təntənələrə hazırlaşır. Bu böyük insanın yubileyinin hər kiçik detalı ilə şəxsən ulu öndər Heydər Əliyev özü maraqlanır. Bu da onun İhsan Doğramacı şəxsiyyətinə nə qədər böyük hörmətlə yanaşdığının əyani nümunəsidir.

Kadr dəyişir. 1998-ci ildə Bakıda keçirilən yubiley təntənələrindən hazırlanmış süjet efirə verilir. Süjet başa çatır. Diktor kadr arxası mətni oxuyur.

MƏTN: – Heydər Əliyev və İhsan Doğramacının nəsillərə nümunə olacaq dostluğundan çox danışmaq olar. Qarşılıqlı hörmət, səmimiyyət və məhəbbət üzərində qurulan bu dostluq ideallara söykənir. Bütün türk dünyasına, insanlığa xidmətdə keçib bu ömürlər, təm-təraqdan, bər-bəzəkdən uzaq…

Ulu öndərimizin göstərişi ilə 2000-ci ildə Bilkənt universitetinin qarşısında Azərbaycanın

görkəmli heykəltəraşı Eldar Ömərov İhsan Doğramacının heykəlini qoydu. Heykəlin açılışı Azərbaycan-Türkiyə dostluq və qardaşlığının parlaq nümunəsi idi.

Kadr dəyişir. 2000-ci ildə Bilkəntdə İhsan Doğramacının heykəlinin açılışından hazırlanmış süjet efirə verilir. Süjet başa çatır. Diktor kadr arxası mətni oxuyur.

MƏTN: – Dostu dar gündə sına, – deyib atalarımız. İhsan Doğramacının dostluğu, xalqımıza sevgisi, ulu öndər Heydər Əliyevə sədaqəti çətin günlərin sınağından keçib. 1999-cu il. Türk dünyasının lideri, dünya şöhrətli siyasətçi Heydər Əliyevin səhhətində problemlər yaranıb. Ulu öndər Amerikada, Klivlent xəstəxanasında müalicə kursu keçir. Türkiyədən bu şəhərə uçuş müddəti 19 saatdır. Amma İhsan Doğramacını nə uzun yol, nə də ki, ixtiyar yaşı qorxudur. O, tərəddüd etmədən dostu Heydər Əliyevə baş çəkməyə gedir. Xalqımızın ümummilli lideri Heydər Əliyev dünyasını dəyişsə də Azərbaycanda İhsan Doğramacıya münasibət dəyişməz olaraq qaldı. Elə Xocamız İhsan bəyi 90 illik yubileyi ilə təbrik edən dövlət başçısı İlham Əliyevin məktubu buna əyani sübutdur.

Başqa bir tarixə nəzər salaq. 2003-cü il 12 dekabr. Təkcə Azərbaycanın deyil, bütün türk dünyasının ağrılı-acılı günü. Ulu öndər Heydər Əliyev dünyasını dəyişib. İhsan Doğramacı burada da öz sədaqətini, dostluğunu bir daha sübut edir. Səhhətindəki problemlərə baxmayaraq,

dostunu son mənzilə yola salmaq üçün ölkəmizə gəlir.

İhsan bəyin Ankarada keçirilən 90 illik yubiley təntənəsində ölkə başçısı İlham Əliyevin təbriki yüksək qarşılandı.

Kadr dəyişir. İhsan Doğramacının Amerikada Heydər Əliyevi ziyarət etməsiylə bağlı söhbəti və Bakıdakı dəfn mərasimində iştirakını əks etdirən kadrlar efirə verilir. Süjet başa çatır. Diktor kadr arxası mətni oxuyur.

MƏTN: – Ömür insana Allah tərəfindən verilir. Və nə qədər yaşayacağını da Ulu Tanrı müəyyən edir. Amma bu ömrü necə yaşamaq insanın öz əlindədir. Bu gün 90 yaşı qatlayıb dizinin altına qoyan İhsan bəy elə bir yaşam sahibidir ki, onun ömrünün hər zərrəsi insanlığa xidmət edib. Bu ömür nəsillərə, xalqlara xidmətdə keçib. İhsan bəy şöhrətin, ad-sanın zirvəsinə çox-çox illər öncə çatıb. Bu gün ömrünün 90 yaş zirvəsindədir. Bütün zirvələr bir-bir fəth olunub, ulu ustad. Qarşıda bir zirvə var, – 100 yaşın zirvəsi!

100 yaşın zirvəsində görüşənədək, bəyimiz!

Bilkənt universitetinin 20 illik fəaliyyəti dövründə çox az adama onun fəxri doktoru olmaq nəsib olub. Barmaqla sayıla biləcək bu insanlar arasında xalqımızın ümummilli lideri Heydər Əliyev və onun siyasi varisi və layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də var.

Kadr dəyişir. Prezident İlham Əliyevin 12 aprel 2004-cü

ildə Ankaraya rəsmi səfəri zamanı İhsan Doğramacı ilə görüşündən hazırlanmış kadr efirə verilir. Diktor kadr arxası mətni oxuyur.

MƏTN: – Bu gün İhsan Doğramacı Azərbaycanın elmi ictimaiyyəti ilə sıx əlaqədədir. O, ölkəmizin bir neçə universitetinin fəxri doktoru adına layiq görülüb. Bunların arasında Azərbaycan Tibb Universiteti xüsusi yer tutur.

Kadr dəyişir. Azərbaycan Tibb Universitetinin rektoru, akademik Əhliman Əmiraslanovun çıxışı efirə verilir. Çıxış başa çatır. Diktor kadr arxası mətni oxuyur.

MƏTN: – İhsan bəy Azərbaycanın səhiyyə sahəsində baş verən yeniliklərlə, həyata keçirilən islahatlarla yaxından maraqlanır. Yeri gəldikcə azərbaycanlı həmkarlarına məsləhətlər də verir. Azərbaycanın səhiyyə ictimaiyyəti də İhsan bəyin xidmətini dəyərləndirməklə yanaşı onu ustad kimi qəbul edirlər. Ömrünün, gününün bu müdriklik çağında da işsiz dayana bilmir bu cəfakeş insan. Türkiyədə təhsilin inkişafı üçün bütün imkanlarını səfərbər edir. Yeni-yeni layihələr üzərində çalışır İhsan bəy. Türkiyə hökuməti, türk xalqı bu dəyərli insanın xidmətlərini hər fürsətdə dilə gətirməyə çalışır. Elə ömrünün 90 illik təntənəsində də dövlət və hökumət adamlarıyla bərabər 33 xarici ölkədən, o cümlədən də Azərbaycandan gələn nümayəndələr İhsan bəyin xidmətlərindən, xüsusən də dünya uşaqları üçün gördüyü işlərdən minnətdarlıqla söhbət açdılar.

Bu nadir istedad sahibi o qəbil insanlardandır ki, onlar gördükləri titanik işləriylə minillikdən çıxaraq bəşəri dəyər qazanırlar. İhsan Doğramacının dünya elminə verdiyi töhfə, tibb sahəsində, xüsusən də uşaqların sağlamlığı uğrunda verdiyi əmək, gördüyü işlər dünyanın bir çox alimləri tərəfindən yüksək qiymətləndirilir.

Kadr dəyişir. Filmin son titri yazılır.

SON

2005

TÜRKÜN ZƏFƏR DASTANI

ÇANAQQALA

Kadrda Türkiyənin siyasi xəritəsi. Sahilə çırpman dəniz ləpələri, Gelıbolu yarımadasının cizgiləri. Şəhidlik abidələri. Dəniz döyüşlərindən fraqmentlər. Həyəcan fitləri. Bütün bu kadrları dramatik musiqi izləyir. Filmin ilk titri kadra gəlir.

TÜRKÜN ZƏFƏR DASTANI

ÇANAQQALA

10 saniyədən sonra titr efirdən çıxarılır. Diktor kadr arxası mətni oxuyur.

MƏTN: – Bu film 90 il öncə Çanaqqala savaşlarında şəhid olmuş 250 min Azərbaycan və Türkiyə əsgərlərinin parlaq xatirəsinə həsr olunur.

Sonra filologiya elmləri doktoru, professor Nizami Xudiyev kadra gəlir.

NİZAMİ XUDİYEV: – Elə dövlətlər var ki, təkcə öz coğrafi mövqelərinə görə digər dövlətlərdən üstün mövqeyə sahib olurlar. Türkiyə də bu dövlətlərdəndir. Mərkəzi Anadoluda olan bu dövlət üç qitənin – Asiya, Avropa və Afrikanın

düyün nöqtəsi sayılır. Elə buna görə də Birinci dünya müharibəsi ərəfəsində dünyanı yenidən bölüşdürməyə hazırlaşan dövlətlərin diqqət mərkəzi Osmanlı dövlətinin torpaqlarında birləşmişdi. Başqa sözlə, Osmanlı dövlətinin geopolitik durumu Avropa dövlətlərinin marağına səbəb olmuşdu. 500 ilə yaxın bir müddətdə Avropanın, xüsusən də Balkanların bir çox ərazisini öz hakimiyyəti altında saxlayan osmanlılardan qisas almağın məqamı gəlib çatmışdı. İnkişaf edən Avropa iqtisadiyyatı ilə ayaqlaşmayan Osmanlı iqtisadiyyatı çökmək üzrə idi. Bunu yaxşı başa düşən avropalılar 1904-1914-cü illər ərzində, yəni Birinci dünya müharibəsinə qədər Osmanlı imperiyasını müxtəlif məhəlli müharibələrə cəlb etməyə nail oldular və bu müharibələrdən Türkiyə üçün ən ağırı Birinci və İkinci Balkan savaşları oldu. Osmanlı ordusunun cəbhələrdəki fədakarlığına baxmayaraq, obyektiv və subyektiv səbəblərdən Balkan savaşları faciə ilə nəticələndi. Təkcə Sarıqamış əməliyyatında 90 min türk əsgəri donaraq şəhid oldu.

Burada bizim üçün əhəmiyyətli olan bir məsələ üzərində dayanmağı vacib sayıram. 1910-cu ildən başlayaraq rus ordusunda bolşeviklərin apardığı siyasət o zamanlar bu ordu sıralarında olan azərbaycanlı döyüşçülərə də təsir göstərmiş və bunun nəticəsi olaraq bir çox cəbhələrdən, xüsusən də Qafqaz cəbhəsindən çoxlu sayda azərbaycanlı əsgər qaçaraq Osmanlı ordusunun tərkibinə daxil olmuş və Balkan savaşlarında

qəhrəmancasına döyüşmüşdü. Digər fakt ondan ibarətdir ki, Bakı milyonçuları 1912-ci ilin sonlarında pul toplayaraq həlak olan əsgərlərin uşaqları üçün Ədirnədə bir yetimxana tikdirmişdilər. Bu faktları təsdiqləyən sənədlər İstanbul dövlət arxivində indi də saxlanılır.

Beləliklə, Birinci dünya müharibəsi ərəfəsində Osmanlı imperiyası taqətdən salınaraq Avropa dövlətlərinin dedikləri kimi «xəstə adam» vəziyyətinə gətirilmişdi. Müharibə ərəfəsində öz neytrallığını qorumağa çalışan Osmanlı dövləti 1914-cü ilin 11 noyabrında istər-istəməz fəlakət girdabına girməli oldu və nə az, nə çox, düz altı cəbhədə döyüşməyə başladı. Bu cəbhələrdən hər iki tərəf üçün ən vacibi Çanaqqala savaşları idi. Müharibə başlayan gün açıqlama verən Maliyyə naziri Cavit bəy dövlətin xəzinəsində cəmi 92 min lirənin olduğunu bildirdi.

Osmanlı dövlətinin müharibəyə girməsi müttəfiqlərə gizli fikirlərini aşkarlamaq imkan verdi. Yəni Anadolunu öz aralarında bölmək üçün 28 yanvar 1915-ci ildə Londonda bir araya gəldilər. Hərbi şura müdaxiləyə Çanaqqaladan başlamağı qərar verdi.

Bunun səbəbləri aşağıdakılar idi:

1. Boğazlar keçilərək, İstanbulu işğal etmək. Osmanlı dövlətini məhv etmək.

2. Şərq cəbhəsində ağır vəziyyətə düşən ruslara lazımı köməklik göstərmək.

3. Qərb cəbhəsində almanları məğlub etmək üçün kifayət qədər qüvvə toplamaq.

4. Balkan dövlətlərini dərhal öz cəbhələrinə

qatmaq.

5. Vacib bölgə sayılan boğazlara ruslardan qabaq ingilislərin çıxmasını təmin etmək.

Toplantı zamanı xəritə önünə keçən ingilislərin o zamankı dəniz naziri Çerçel əliylə Çanaqqalanı göstərərək… «Beli… Çanaqqala! Türklərin qırtlağı burada… Bir sıxıldımı?» – deyəndə Hərbi nazir Lord Kitxner: «Yox, xeyr!… Sıxmaq işə yaramaz… İş uzanar. Xeyr! Xeyr! Bu boğazı bir anda «kəsəcəksən», – demişdi.

Beləliklə, türkün zəfər və qəhrəmanlıqla dolu bir savaşı addım-addım yaxınlaşırdı.

Kadr dəyişir. Diktor kadr arxası mətni oxuyur.

MƏTN: – Birinci dünya müharibəsi başlayanda Osmanlı dövləti bitərəf qaldığını elan etdi. Çünki Balkan fəlakətinin şoku hələ keçməmişdi. Fransa və İngiltərəyə görə Osmanlı dövləti ölümə düçar olan xəstə adam idi. Ayıq almanlar isə belə düşünmürdü. Onlara görə «xəstə» də olsa bu adam hələ çox işlər görə bilərdi. Elə buna görə də almanlar türk ordusunun yüksək rütbəli komandirlərilə, xüsusən də Ənvər, Tələt, Xəlil və Səlim paşalarla gizli iş birliyi qurdular.

Almanlardan alınan iki gəmi 16 avqust 1914-cü ildə Çanaqqala boğazını keçərək İstanbula gəldi. Bununla kifayətlənməyib 29 oktyabr 1914-cü ildə Qara dənizdə yerləşən rus limanlarını topa tutdular. Buna cavab olaraq 5 noyabrda müttəfiqlər Osmanlı dövlətinə müharibə elan etdi və Osmanlı dövləti 11 noyabrda

müharibəyə girdi.

O günlərdə Mustafa Kamal Sofiyada Hərbi ateşe vəzifəsində çalışırdı. Osmanlıların müharibəyə girməsinin qəti əleyhinəydi. Və başqalarından fərqli olaraq bu müharibədə Almaniyanın məğlubiyyətini öncədən görə bilirdi. Baş qərargaha israrla yazdığı məktublarda ön cəbhəyə göndərilməsini tələb edirdi. O, tezliklə Təgirdağda yeni qurulan 19-cu tümənə komandan təyin edilir və qərargahını cəbhəyə yaxın Biğalı kəndində yerləşdirir. Bu zaman artıq müharibənin yeli əsməkdəydi.

* * *

«Dənizə hakim olan dünyaya hakim olar» deyən ingilislər boğazları ələ keçirmək üçün donanmalarının gücünə inanırdılar. Fransanın da dəstəyini nəzərə alsaq, ingilislərin necə bir gücə malik olduğunu görərik.

Beləliklə, boğazları ələ keçirmək üçün işğalçı qüvvələr 19 fevral 1915-ci ildə hərəkata başladılar.

* * *

18 mart döyüşünə qədər müttəfiqlər Avropa və Anadolu yaxasında bir neçə kiçik zəfər əldə etsələr də, hələ qarşıda nələr olacağı məlum deyildi. Martın 17-də son dəfə qüvvələrinə baxış keçirən müttəfiqlər tarixin ən qanlı dəniz döyüşlərindən olan 18 mart döyüşünə

hazırlaşırdılar.

* * *

Təbii ki, türk tərəfi də həlledici döyüşə hazırlaşırdı. Martın 17-si gecə qaranlığında «Nüsrət» mina gəmisi bütün çətinliklərə baxmayaraq, ingilislərin boğazlardan təmizlədiyi minaları təkrar sulara buraxdı. Anadolu və Rumeli hisarında yerləşən topçu batareyalar gücləndirildi.

18 mart saat 3 tamamda düşmən donanması boğazların içərisinə doğru hərəkətə gəldi. Və beləliklə, məşhur Çanaqqala savaşlarının birinci mərhələsi – dəniz döyüşləri başladı. Qüvvələr qeyri-bərabər olsa da, türk əsgərləri qəhrəmanlıq göstərirdi. Top komandiri Seyid onbaşının igidliyi dillərdə dastan oldu. Seyid onbaşı təkbaşına 275 kiloluq mərmini topun lüləsinə qoyaraq düşmənin avanqard gəmisini vurdu. Çaşqın qalan düşmən geri çəkilərkən bir gün öncə «Nüsrət» adlı mina daşıyan gəminin buraxdığı minalara toxunaraq bir-bir sulara qərq oldular. 18 mart dəniz döyüşü düşmənə elə bir dərs verdi ki, onlar bir daha dənizdən hücuma keçməyə cəsarət etmədilər və beləliklə, müharibənin ikinci mərhələsinə – quru döyüşlərinə hazırlaşmağa başladılar.

1915-ci il aprelin 25-i müttəfiq gücləri Səddülbahir bölgəsinə qoşun çıxardılar və beləliklə, Çanaqqala savaşlarının yerüstü döyüşləri başladı. Beş istiqamətdən Gelibolu yarımadasına qoşun çıxaran ingilis, fransız və

onların şərq müstəmləkələrindən gətirdikləri qüvvələr güclü müqavimətlə üzləşdilər. Quruya doğru cəmi 3-4 km irəliləyə bilən düşmən bir həftə ərzində bu vəziyyətdə qaldı. Nə vaxtıyla böyük fateh tərəfindən inşa edilmiş Kilitbahir qalası, nə də ki, namazgahdakı türk qüvvələri bir addım da olsun geri çəkilmədi. Düşmən yalnız xəstə və yaralılarla dolu «Hələb» gəmisini batırdı və 200 türk əsgəri şəhid oldu. Ərtoğrul kəndində mövqe tutan 26-cı alayın 10-cu bölüyünə 4650 mərmi atılmışdı ki, bu da döyüşlərin nə qədər qanlı keçdiyini bir daha təsdiq edir. 25 apreldəki döyüşlərin ən qanlısı Arıburnu ətrafında baş verən döyüşlər idi. Buradakı türk mövqelərini 19-cu tümən qoruyurdu ki, onun da komandiri podpolkovnik Mustafa Kamal idi.

* * *

İngilislər bu istiqamətdə Avstraliya və Yeni Zelandiyadan gətirdikləri qüvvələri çıxardılar. Bu birliklər qısaca olaraq «Anzak»lar adlandırılırdı. Arıburnu döyüşlərində çox saylı azərbaycanlı döyüşçülər də iştirak edirdi. Qafqaz və Balkan cəbhələrindən gələrək Osmanlı ordusuna qoşulmuşdular. Hətta Misirdən, Şamdan, Kərkükdən, Təbriz və Ərdəbildən Çanaqqalaya gələnlər də vardı. Elə buna görə də Çanaqqala zəfərini bütün türk dünyasının zəfəri kimi də qiymətləndirmək olar. Əsasən 25, 27 və 57-ci alayların tərkibində döyüşən Azərbaycan əsgərlərinin sayı təqribi hesablamalara görə 1200

nəfərə yaxın idi. Təəssüf ki, Çanaqqala şəhidliyində yalnız onların bir neçəsinin şərti məzarları var. Əlbəttə ki, 300 min şəhidin arasında onların hamısını tapmaq və ayrı-ayrılıqda xatirə lövhələri qoymaq qeyri-mümkün olsa da, bizdəki kimi, yəni Bakıdakı Şəhidlər xiyabanında 1918-ci ildə Azərbaycanda şəhid olmuş türk əsgərlərinə qoyulan abidəyə oxşar bir abidənin də Gelibolu yarımadasında qoyulması savab, həm də vətəndaşlıq borcu sayılardı…

Qayıdaq döyüş meydanına.

MUSTAFA KAMAL: – «Bu əsnada Çonkbayırın güneyindəki 261 rəqəmli təpədən sahilin gözlənilməsi və qorunmasına cavabdeh olan bir neçə əsgərin qərargaha doğru qaçdığını gördüm… Əsgərin qarşısına çıxaraq:

– Niyə qaçırsan? – dedim.

– Əfəndim, düşmən – dedi.

– Harada?

– Burada! – deyə 261 rəqəmli təpəni göstərdi.

– Əsgər, düşməndən qaçılmaz, – dedim.

– Sursatımız qalmadı – dedilər.

– Sursat, güllə yoxsa, süngümüz var – dedim. Və bağıraraq əsgərlərə süngü taxtırdım. Bu əsgərlər süngü taxıb yerə yatınca, düşmən əsgərləri də yerə yatdı. Qazandığımız an, bu andır!

* * *

MƏTN: – Beləliklə, Çanaqqala savaşlarının qədərini dəyişdirən bir an qazanıldı. Daha sonra Mustafa

Kamal, tərkibinin çox hissəsini həmvətənlərimizin təşkil etdiyi 57-ci alaya bu əmri verdi: – «Mən sizə hücum etmək əmri deyil, ölməyi əmr edirəm. Bizim ölümümüzdən keçən zaman müddətində başqa qüvvələr yerimizi tuta bilər». 25 aprel 1915-ci ildə, günorta namazı vaxtı anzaklar bir tümən əsgərlə sahilə çıxdı və Arıburnu istiqamətində 27 və 57-ci alayların mövqelərinə hücuma başladılar və hər dəfə də geri oturuldular. 1915-ci ilin avqust ayına qədər, yəni dörd ay boyunca bu hücumlar davam etdi.

Qumqala-Orhaniyyə istiqamətində qoşun çıxaran fransızlar da tutarlı bir qələbə əldə edə bilmədilər. Dənizdən yarımadanın içərisinə doğru hərəkət etməyə çalışsalar da yalnız 3-4 km irəliyə gedə bildilər və xeyli itki verdilər. Aprelin 26-dan 27-nə keçən gecə general Hamiltonun əmri ilə geri çəkildilər.

Avqusta qədər bir iş görə bilməyən müttəfiqlər Anafartalara qoşun çıxararaq türk ordusunu mühasirəyə almaq və məhv etmək istədilər. 6-7 avqustda başlayan bu döyüşlər əvvəlkilərdən də qanlı oldu. Bu ərəfədə, yəni 8 avqust saat 21.45-də polkovnik Mustafa Kamal Anafartalar qrup komandiri təyin edildi. Gecikmədən, yəni 9 avqustda iki tümənlə ingilis və anzak ordularına qarşı hücuma keçdi. 3 gün çəkən döyüşlərdə düşmən ağır itkilər verərək geri çəkilməli oldu.

Anafartalarda qazanılan qələbələrdən sonra müttəfiq gücləri tamamilə iflasa uğradı və Çanaqqalanın keçilməz olduğunu bir daha

anladılar. 1916-cı ilin yanvarından başlayaraq düşmən əsgərləri Geliboludan çəkilməyə başladı və 9 yanvarda artıq düşmənin bu yerlərdə bir əsgəri də qalmamışdı.

* * *

Çanaqqala döyüşlərinin ibrətlə dolu səhnələri çoxdu. Bəzi əsgər məktublarına nəzər salaq. Baş leytenant Zahidin məktubu: «Bu günlər hər zamankından daha qanlı döyüşlərə girəcəyik. Bilirsən, hər döyüşə girən ölməz. Fəqət əgər mən ölərəmsə qəm yemə… Məni və səni yaradan Allah bu dünyada bizi necə qovuşdurdusa, məndən şəhidlik rütbəsini əsirgəməyəcəyi təqdirdə, əlbəttə, ruhlarımız da bir-birinə qovuşar…»

Başqa bir əsgər, anasına belə yazır: «Anacığım, qardaşımı əsgərə göndərərkən başına xına qoyma… Başımın niyə qırmızı olduğunu məndən soran zabitə cavab verə bilmədim. İstəmirəm qardaşım da cavab verə bilməyib, utansın».

Anasının cavab məktubu:

«Ey oğlum, gözümün nuru Murat! Zabit əfəndiyə salam söylə. Biz qurbanlıq qoçlara xına yaxır, sonra qurban verərik. Sən dörd qardaşın arasında qurbansan. Sən İsmayılsan. Sən orada şəhid olacaqsan, inşallah. Qurbanlıq qoçlara necə xına qoyulursa, mən də sənin saçına elə xına qoydum».

MEHMET TOFİQ (Bölük komandiri): – «Sevgili babacığım, anacığım. Arıburnunda ilk girdiyim müharibədə sağ yanımdan güllə keçdi, həmd olsun qurtuldum. Fəqət, bundan sonra girəcəyim müharibələrdən qurtulacağımdan ümidim olmadığından bir xatirə qalması üçün bu yazılarımı yazıram.

Həmdsənalar olsun cənabi Haqqa, məni bu rütbəyə qədər yüksəltdi, vətəni qorumaq üçün məni əsgər yaratdı. Siz də valideynlərim olmaq üzrə məni vətən yolunda yetişdirdiniz. Həyatımın mənası oldunuz. Cənabi Haqqa və sizlərə çox təşəkkür edirəm. İndiyə qədər millətim mənə sərf etdiyi əməyi haqq etmək zamanıdır. Əsgər olduğum üçün Allahın əmri ilə ölüm mənə çox yaxındır. Sevgili babacığım, anacığım, göz bəbəyim olan zövcəm və oğlumu əvvəlcə cənabi Haqqın, sonra sizin himayənizə buraxıram. Onlar haqqında nə mümkünsə görün.

Sevgili babacığım və anacığım. Bəlkə bilməyərək sizə qarşı bir çox günahlar etmişəm. Məni əfv edin. Haqqınızı halal edin. Ruhumu şad edin. Vətən yolunda şərəflə öləcəyimə əmin olun».

MƏTN: – Bu qısa məktublardan türk əsgərinin vətənpərvərlik hissi, torpağa, elə, obaya sevgisi açıq-aydın görünür.

Azərbaycan və Osmanlı türkünün tarixə qanları, canları ilə yazdıqları Çanaqqala savaşlarından 90 il keçir. Bu gün Gelibolu yarmadasında minlərlə hektar ərazini tutan milli

park Çanaqqala qəhrəmanlarının şərəfinə salınıb. Və bu abidələrdə də qəhrəmanlıq, bəşərə dərs verə biləcək örnəklər az deyil. Gelibolu yarımadasında gedən döyüşlərdə cəmi 500 minə yaxın insan həlak olub. Onun tən yarısı canı canımızdan, qanı qanımızdan olan türk əsgərləridir. Lakin böyük Atatürk bu torpağı qanları ilə suvaran əsgərlər arasında heç bir aynlıq qoymadan hamısını ehtiram və izzətlə dəfn etdirib. İşğalçı kimi gələn ingilisə, fransıza, anzaklara xatirə abidələri qoyulub. Bu gün özünü Avropa dəyərlərindən yararlanan ölkələr sırasında görən bir çox ölkələr 1915-ci il «erməni» soyqırımından ağzı köpüklənə-köpüklənə danışır. «Qarışqadan fil düzəltmə, qardaş, Çanaqqalaya gəl. Son tikəsini özü yeməyib əsir düşmüş ingilisə verən türk əsgərinin hekayəsini dinlə. Öz əsgərləri ilə düşmən əsgəri arasında fərq qoymayan türk həkimlərinin insanpərvərliyini gör və türk əsgərinin kəsilmiş başını 87 il qutuda saxlayan, yalnız vəfatından sonra övladları tərəfindən Çanaqqalaya gətirilərək dəfn edilən «kəsik» başın naləsinə qulaq as. Assan, o zaman türkün necə böyük ürəyə malik olduğunu görəcəksən. Və onda kimin kim olduğunu da anlayacaqsan».

Gelibolu milli parkında şəhidlərin qəhrəmanlığına 29 müxtəlif abidə qoyulub. 1960-cı ildə açılan abidə ümumi şəhidlərə aiddir. Hündürlüyü 41 m 70 sm-dir. Abidə müəllifləri 40 metrin üstünə Atatürkün də boy ölçüsünü gəlmiş və abidə 41,7 metr olmuşdur. Abidənin başına doğru çıxan pilləkənlərin sayı 241 ədəddir ki, bu

da 241 min şəhidə işarədir. Bu abidələr arasında bizim üçün ən maraqlısı və müəyyən mənada doğması 22 və 57-ci alay şəhidliyidi. Burada cəmi 567 şəhid məzarı olsa da bütün şəhidlərin, xüsusən də 57-ci alayın qəhrəmanları şərəfinə qoyulub. 57-ci alayın qəhrəmanlığı barədə Mustafa Kamal Paşa belə yazır: «Biz fərdi qəhrəmanlıq səhnələriylə məşğul olmuruq. Yalnız sizə bomba beli yaxasını anlatmadan keçinə bilmirəm. Düşmən sipərləri ilə aramızdakı məsafə 8 metrdir, yəni ölüm labüddür. Birinci cərgədə-kilər özlərini ölümə atır. İkinci cərgə onların yerini tutur. Nə qədər qibtə ediləcək şahanə bir mənzərə. Ölən görür, üç dəqiqə sonra ölümün onu da yaxalayacağını bilir. Amma heç bir çaşqınlıq, sarsılmaq yox. Oxumaq bilənlər əllərində Qurani-Kərim, cənnətə getməyə hazırlaşır. Bilməyənlər kəlmeyi-şəhadət çəkərək yürüyür. Bu türk əsgərinin ruh qüvvətini göstərən heyrət və təbrik misalıdır. Əmin olmalısınız ki, Çanaqqala müharibəsini qazandıran bu yüksək ruhdur.

MƏTN: 57-ci alay şəhidliyindən söz düşmüşkən bir məsələni təkrar vurğulamaq yerinə düşərdi. Burada qəhrəmancasına həlak olan mindən yuxarı azərbaycanlı şəhidin xatirəsinə bir abidə qoyulması barədə düşünməyin vaxtı çatıb.

57-ci alay əsgərlərinin şəhidlik zirvəsi də ibrətamiz bir hadisədir. 1915-ci ilin qurban bayramının ilk günü alayın əsgərləri təmiz ağ paltarlar geyərək səngərlərdə dayanmışdı. Ətrafdakı ölüm sükutunu minlərlə top

mərmisinin, güllələrin səsi pozdu. Qeyri-bərabər döyüşlərdə alay düşmənin 10 minlərlə əsgərini məhv etsə də son əsgərinə kimi döyüşdə həlak oldu, amma mövqeyini əldən vermədi.

* * *

Axşamlar qəribə bir rəng çökür Çanaqqalanın üstünə. Bayraq və qan rəngi… Şəhidliyin zirvəsi torpaq üstündəki qan.

Kadr dəyişir. Nizami Xudiyev ekrana gəlir.

NİZAMİ XUDİYEV – Türklərin tarixə yazdığı çox qəhrəmanlıq dastanı olub. O dastanlardan ən böyüyü və şübhəsiz ki, ən vacibi 1071-ci ildəki Malazgirt savaşı idi. Bu savaş Anadolunu daimi olaraq türk yurduna, türk ulusuna çevirdi. Zənnimcə, 840 il sonra tarixə yazılan Çanaqqala dastanı isə türk varlığını Anadoluda bir daha təsdiqlədi. Qeyd edim ki, istər Malazgirt, istərsə də Çanaqqala savaşı türk xalqlarının müştərək qələbəsi hesab edilməlidir. Çanaqqalada qazanılan qələbə elə bir qəhrəmanlıq nümunəsi idi ki, bu qələbə qarşısında hətta düşmənlər belə heyranlığını gizlədə bilməmişdi. Tarixi faktlara nəzər salaq. Savaş sonrası Londonda keçirilən müşavirədə ingilis generalı Hamilton Çanaqqala döyüşlərini belə dəyərləndirir: «…Lordlarım, biz vəzifəmizi bitirdik. Minlərcə mərmi atdıq. Apardığımız hesablamaya görə Gelibolu yarımadasını 2,5 sm qalınlığında bir dəmir lövhə

ilə qapayacaq qədər mərmi atdıq. Ancaq nə yazıq ki, qarşımızda ölümə meydan oxuyan bir türk əsgəri və çox mühüm və başarlı idarəçiliyə malik komanda heyəti vardı. Bundan artıq biz nə edə bilərik».

Müttəfiqlər Çanaqqalaya ordu çıxartmaq təşəbbüsünün müəllifi və təşəbbüskarı Çerçel isə məğlubiyyətini belə etiraf edir: «Bu an məğlubiyyəti bütün damarlarımda hiss etməkdəyəm. Çox üzgünəm. Olduqca şadıydım, umutluydum. Daha dünənə qədər Çanaqqala bizimdir! – deyirdim. Çünki bu savaşı qazanmaq üçün əsgəri, pulu, sursatı – hər şeyi hesablamışdım. Hər sahədə çox üstündük. Mütlaka qazanaçağdıq. Yalnız bir tək şeyi hesaba almamışıq. Mustafa Kamal! Bağrımda ingilis qüruru olmasaydı, türkləri alınlarından öpmək, onları ayaqüstə alqışlamaq istərdim».

İngilislərin birinci donanma rəisi Lord Fişerin də söylədikləri ibrətamizdir: «Qəhr olsun. Çanaqqala hamımızın məzarı oldu. Əsgərlik həyatım boyunca belə bir vəziyyətlə qarşılaşmadım. Niyə məğlub olduğumuzu soruşursunuz. Bütün açıqlığıyla gerçəyi bildirmək istəyirəm. Çox cəsur savaşan bir ordunun və Mustafa Kamal kimi bir komandirin qarşısında aciz qaldıq. Bunu heç zaman unutmayacağam.

Sonra kürsüyə böyük bir məcburiyyətlə çıxan hərbi nazir Kitxner isə bunları söyləmişdi: «Qədərə də məğlubiyyət varmış nə deyim, boğazım düyünləndi, sözü uzatmayacağam. Hardan çıxdın sən. Mustafa Kamal! Sənnən qarşılaş-

madan öncə çox mutluydum». Belə nümunələr olduqca çoxdu. Son olaraq admiral Çardenin sözlərini çatdırmaq istərdim. «Bəylər məgər gördüyümüz dadlı yuxu idi. Anladım, dostlarım, anladım. Bir türk dünyaya bərabər imiş…»

Bir az öncə qeyd etdiyimiz kimi, Çanaqqala döyüşünün tarixi əhəmiyyəti, bu döyüşlərdə türk əsgərinin göstərdiyi qəhrəmanlıq bütün dünyanı lərzəyə gətirmişdi. Bəs Gelibolu yarımadasında baş verən bu əfsanəvi döyüşlərdə qələbə qazanılmasaydı, dünyanı nələr gözləyərdi?

Birinci: – Osmanlı imperatorluğu elə müharibənin əvvəlində məğlub olar, Anadolu qısa zamanda işğal edilərək parçalanar, türklərin vəziyyəti daha da çətinləşərdi.

İkinci: – Rusiyada inqilab olmaz, Çar Rusiyası yıxılmazdı və Rusiya gizli imzaladığı anlaşmaya əsasən boğazları və Şərqi Anadolunu ələ keçirərdi. Qurtuluş savaşında Rusiyaya qarşı vuruşma lazım gələrdi.

Üçüncü: – Çanaqqala qələbəsi Fransa və İngilis müstəmləkəçiliyinin genişlənməsinin qarşısını aldı və əsarətdə olan xalqlara bir ümid çırağı yandırdı. Dördüncü: – Türk ordusunun Balkan savaşlarından sonrakı psixoloji durumu yaxşılaşdı və ordunun özünə güvəni artdı.

Beşinci: – Çanaqqala savaşı türk millətinə, türk dünyasına Mustafa Kamalı qazandırdı.

Altıncı: – Çanaqqaladan alınan ilham qurtuluş savaşlarında əhalinin Mustafa Kamal Atatürkün ətrafında sıx birləşməsini təmin etdi.

Yeddinci və sonuncu: – Çanaqqala

savaşında tarixə dastan yazan türk milləti: «Yurdda sülh, cahanda sülh» formulasını dünyaya bəyan etdi.

MƏTN: – Beləliklə, Çanaqqala savaşlarının başlanmasının 90 illiyi ərəfəsində sizlərə təqdim etdiyimiz bu film ulu öndərimiz Heydər Əliyevin söylədiyi kimi «bir millət, iki dövlət» olan Türkiyə və Azərbaycan oğullarının qəhrəman xatirəsinə bir minnətdarlıq borcudur.

Çanaqqalada salınmış şəhidlik abidələri bir-bir ekrana gəlir. Onların üzərində böyük türk şairi Mehmət Akif Ersoyun «Çanaqqala şəhidlərinə» adlı şeiri səsləndirilir.

Şu Boğaz Harbi nedir? Var mı kı dünyada eşi?
En kesif orduların yükleyniyor dördü beşi
Tepeden yol bularak geçmek için Marmaraya
Kaç donanmayla sarılmış ufacık bir karaya,
Ne hayasızca tahaşşüt ki ufuklar kapalı!
Nerede gösterdiyi vahşetle «bu bir Avrupalı»
Deririr yırtıcı, his yoksulu, sırtlan kümesi
Varsa gelmiş, açılıp mahpesi, yahut kafesi!
Eski Dünya, Yeni Dünya, bütün akvam-ı beşer,
Kayniyor kim gibi… Mahşer mi, hakikat mahşer,
Yedi iklimi cihanın duruyor karşısında;
Ostralyayla beraber bakiyorsun Kanada!
Çehreler başka, insanlar, deriler, renqarenk.
Sade bir his var ortada; Vahşetler denk.
Kimi Hindu, kimi Yamyam, kimi bilmem ne bela…
Hani tauna da züldür bu rezil istila…

Yerin altında cehennem gibi binlerce lağam,
Atılan lağamın yaktığı binlerce adam.
Ölüm indirmede gökler, ölü püskürmede yer;
O nə müdhiş tipidir; savrulur enkaz-ı beşer…
Kafa, göz, gövde, bacak, kol, çene, parmaq, el, ayak

Vurulup tertemiz alnından uzanmış yatiyor;
Bir hilal uğruna, ya Rab, nə güneşler batiyor!
Ey, bu torpaklar üçün torpağa düşmüş, asker!…
Goktan ecdad inerek öpse o pak alnı deqer,
Ne büyüksün ki kanun kurtarıyor Tevhid-i…
Bedrin arslanları ancak, bu kadar şanlı idi…
Sana dar gelmeyecek makberi kimler kansız?
«Gömeim gel seni tarihe» desem, sığmazsın.

Sen ki, İslamı kuşatmış, boğuyorken hüsran;
O demir çemberi göğsünde kırıp parçaladın;
Sen ki ruhunla beraber dezer ercamı adın;
Sen ki asara gömülsen taşacaksan… Heyhat
Sana gelmez bu ufuklar, seni almaz bu hicat…
Ey şehid oğlu şehid, isteme benden makber,
Sana ağaşunu açmış duruyor Peyqamber

Şeir başa çatır. Qara fonda bu sözlər yazılır.

«Gün gələcək 57-ci alayın qəhrəmanlıq nümunəsi işğal altında olan Qarabağ torpaqlarında da yazılacaq. O gün şəhid ruhların bayram gününə çevriləcək».

SON

2005

NAXÇIVAN.
AZADLIĞIN ADDIMLARI

I film

PROLOQ

Azərbaycan Respublikasının xəritəsi panoram olunur… Üçrəngli, ay-ulduzlu dövlət bayrağı bütün xəritə boyu əzəmətli dalğalanır…

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi andiçmə məqamında görürük. Həmin tarixi andiçmənin bu hissəsi sinxron təqdim olunur:

«… Azərbaycanda bütün sahələrdə quruculuq işləri aparılacaq, sosial proqramların həlli istiqamətində böyük işlər görüləcəkdir… Bizdə bütün imkanlar – təbii sərvətlər, insan potensialı və ən önəmlisi, xalqın iradəsi vardır. Biz hamımız birləşərək və bir nöqtəyə vuraraq Azərbaycanı zəngin, qüdrətli dövlətə çevirəcəyik».

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimindəki nitqindən.

31 oktyabr 2003-cü il

MƏTN: – Bu tarixi sözlərin deyildiyi vaxtdan keçən bir il müddətində Azərbaycan Respublikasında, eləcə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında elə böyük, əməli işlər görüldü, elə ciddi perspektiv yollar davam və

inkişaf etdirildi ki, xalq yeni prezidentinə bütün varlığıyla inandı. Azərbaycan xalqı bir daha inandı, tam qətiyyətlə əmin oldu ki, böyük əksəriyyətlə səs verib özünə prezident seçdiyi İlham Əliyev ümummilli liderimiz Heydər Əliyevin ən layiqli davamçısıdır, onun başladığı tarixi işləri əzmlə, inadla, siyasi müdrikliklə başa çatdıracaq cəsarətli dövlət xadimidir.

Azad, müstəqil Azərbaycanın bütün guşələrində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da prezident seçkilərindən keçən bir il böyük inam və uğurlar ili oldu. Bu filmdə əksər bölgələrimizə nümunə ola biləcək Naxçıvan uğurlarına üz tuturuq.

* * *

NAXÇIVAN. AZADLIĞIN ADDIMLARI

Ekran boyu yazılan adın («Naxçıvan. Azadlığın addımları») içərisində Naxçıvan Muxtar Respublikasındakı son uğurları əks etdirən kadrlar sürətlə bir-birini əvəz edir. Ad («Naxçıvan. Azadlığın addımları») irəli gələrək ekranı bütünlüklə uğurların «ixtiyarına verir»…

Muxtar Respublikanın bütün sahələrini – sosial-iqtisadi, kənd təsərrüfatı, təhsil, səhiyyə, idman və s. əhatə edən uğurlar bobsleyi təqdim olunur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ən mühüm obyektlərin açılışı mərasimindəki görüntüləri diqqəti cəlb edir…

* * *

MƏTN: – Azərbaycan Respublikası prezident seçkilərindən ötən bir il qədim dövlətçilik və sivilizasiya yurdu Naxçıvanın sosial-iqtisadi, mədəni həyatında əlamətdar tarixi hadisələrlə zəngin oldu. Muxtar Respublikanın bütün bölgələrində inkişaf strategiyası yeni sürət götürdü, əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan perspektiv dirçəliş yollarında yeni uğurlar qazanıldı. «Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ölkədə Heydər Əliyev siyasəti davam etdirilməlidir» – yeni əsrin yeni lideri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu müdrik, qətiyyətli mövqeyi, Heydər Əliyev ideyalarına əbədi sədaqəti bütün ölkədə olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da inkişafın əsas hərəkətverici qüvvəsinə, inam qaynağına, tükənməz enerji mənbəyinə çevrildi…

* * *

Naxçıvanın qədim və müasir mənzərələri bütövlükdə, assosiativ keçidlərlə göstərilir. Əsas fikir hədəfi budur ki, tarixdən gələn sivilizasiya yolları bu gün daha böyük vüsətlə davam və inkişaf etdirilir…

MƏTN: – 3500 yaşlı zəngin dövlətçilik, qüdrətli sivilizasiya yollarının sahibi olan ulu Naxçıvan bu gün əsl inkişaf, intibah meydanını xatırladır. Sənayenin, kənd təsərrüfatının, sosial-iqtisadi və mədəni mühitin bütün sahələrində davamlı

müsbət dəyişikliklər, yüksək standartlara cavab verən yeniliklər bu gün Naxçıvan Muxtar Respublikasının danılmaz reallıqlarıdır. Muxtar Respublikanın 80 illiyinə həsr olunan təntənəli toplantıda bu tarixi reallıqlardan danışan Prezident İlham Əliyev demişdir: (Həmin çıxışdan 3-4 dəqiqəlik sinxron təqdim olunur)

* * *

Yenicə yaradılan Kəngərli rayonunun ünvan lövhəsi və digər planlar diqqəti cəlb edir. Yeni tikintilər, yarımçıq və istifadəyə verilən inzibati binalar bir-birini əvəz edir.

MƏTN: – Son dövrün Naxçıvan yeniliklərindən söz düşəndə ilkin xatırlananlardan biri də Kəngərli rayonu olur. Naxçıvan, eləcə də bütün Azərbaycan tarixində mühüm, özünəməxsus rol oynamış qədim türk tayfasının adı verilən bu yeni rayon indi əsl tikinti-quruculuq meydanını xatırladır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi və qayğısı ilə Kəngərli rayonunun yaradılması Muxtar Respublikanın sosial-iqtisadi və ictimai-siyasi həyatında çox mühüm hadisədir. Belə ki, yüzlərlə yeni iş yerləri açılmış, regionun özünəməxsus xüsusiyyətləri nəzərə alınaraq inkişaf etdirilməsi üçün imkanlar yaranmışdır. Kəngərli rayonunda yeni infrastrukturların formalaşdırılmasına başlanmışdır.

* * *

Naxçıvan Muxtar Respublikasında hərbi quruculuğu əks etdirən kadrlar təqdim olunur. Ümummilli liderimiz H. Əliyevin, Prezident İ. Əliyevin hərbi hissələrdəki görüşləri diqqəti cəlb edir. Yeni inzibati binalar, hərbi qurğular və s…

MƏTN: – Naxçıvan Muxtar Respublikasında hərbi sahədə qazanılan uğurlar hər bir Azərbaycan vətəndaşında haqlı qürur hissi oyadır.

Əsası Heydər Əliyev tərəfindən qoyulan hərbi quruculuq işlərinin diqqət mərkəzində saxlanması son bir ildə də davam etdirilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının bazasında ümummilli liderimiz Heydər Əliyevin adını daşıyan Hərbi Liseyin yaradılması ilə bağlı 2004-cü il 27 fevral tarixli sərəncam imzalamışdır. Hal-hazırda Heydər Əliyev adına Naxçıvan Hərbi Liseyinin tədris korpusunun, yataqxana binasının genişləndirilməsi, yeni qərargah binasının, idman zalının, tibb məntəqəsinin, «Naxçıvan» Sərhəd Diviziyasının, Şərur hərbi komendantlığının qərargah binasının, «N» saylı Hərbi Hissənin tibb məntəqəsinin tikintisi və bir sıra yardımçı binaların tikintisi başa çatdırılmaq üzrədir.

Bundan əlavə Naxçıvan Muxtar Respublikası Mülki Müdafiə Mərkəzi üçün yeni binalar, xidmət obyektləri tikilmiş, Naxçıvan şəhərindəki hərbi hissələr üçün qərargah binası, əsgər və zabit yeməkxanaları, əsgər yataqxanası,

tibb məntəqəsi, əsgər hamamı, çamaşırxana və qazanxana, Şahbuz rayonundakı hərbi hissə üçün tibb məntəqəsi, hamam, çamaşırxana və ərzaq anbarı istifadəyə verilmişdir.

Ölkə Prezidenti İlham Əliyev Azərbaycanda qeyri-neft sektorunun inkişaf etdirilməsi, təbii resurslardan səmərəli istifadə olunması, paytaxt Bakı şəhəri ilə yanaşı regionlarda sosial-iqtisadi inkişaf, əhalinin həyat səviyyəsinin daha da yüksəldilməsi və məşğulluğunun təmin edilməsi zərurətini nəzərə alaraq 2003-cü il noyabr ayının 24-də «Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında» fərman imzalamış və 2004-cü il fevralın 11-də «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nı təsdiq etmişdir. Bu mühüm dövlət sənədləri ümummilli lider Heydər Əliyevin quruculuq xəttinin davamı olmaqla yeni şəraitdə ölkənin sosial-iqtisadi inkişafına sistemli və ardıcıl xarakter vermişdir. Proqramda nəzərdə tutulmuş tədbirlərin icrası ilə şəxsən tanış olmaq üçün ölkə Prezidenti regionlara, o cümlədən də cari ilin may və sentyabr aylarında Naxçıvan Muxtar Respublikasına da səfərlər etmişdir.

Muxtar Respublikaya səfəri zamanı Prezident İlham Əliyev Naxçıvan Beynəlxalq Hava Limanının və aerovağzal kompleksinin, Naxçıvan Respublika Xəstəxanasında kompüter tomoqrafiyası kabinetinin, «N» saylı hərbi hissənin, Naxçıvan Dövlət Universitetinin elektron kitabxana binasının, Azərbaycan Milli

Elmlər Akademiyası Naxçıvan Bölməsinin, Təbii Sərvətlər İnstitutu üçün yeni binanın, Naxçıvan Əlillərin bərpa Mərkəzinin, Yeni Sənaye Kompleksinin, Heydər Əliyev adına orta məktəbin, Naxçıvan şəhərində Üzgüçülük Mərkəzinin, Mülki Müdafiə Regional Şöbəsinin açılışlarında, Naxçıvan Muxtar Respublikasının 80 illik yubiley tədbirində iştirak etmiş, Muxtar Respublika Ali Məclisində günün vacib məsələləri ilə bağlı, o cümlədən Naxçıvana qaz çəkilişi ilə əlaqədar müşavirələr keçirmişdir.

Muxtar Respublikada aparılan quruculuq işlərini bilavasitə müşahidə edərək yüksək qiymətləndirən ölkə rəhbəri demişdir: «Abadlıq, quruculuq işlərini, yeni binaların yüksək zövqlə, səliqə ilə, diqqətlə tikilməsini Naxçıvana gələn hər bir vətəndaş, qonaq görür. Hiss olunur ki, bu işlər böyük məhəbbətlə görülür. Bu da əsas şərtdir. Bəzən sual verirlər ki, uğurlu siyasətin əsas səbəbi nədir? Mən hesab edirəm ki, xalqa olan məhəbbətdir. Doğma torpağa olan məhəbbətdir. Əgər bu varsa, deməli, rəhbərlikdə olan şəxslər də öz doğma xalqına ləyaqətlə, məhəbbətlə xidmət edirlər…

… Mən çox sevinirəm ki, Naxçıvanda gözəl quruculuq və abadlıq işləri aparılır. Blokada şəraitində yaşayan, Azərbaycanın əsas hissəsindən ayrı düşmüş Naxçıvan yaşayır, güclənir və irəliyə doğru inamla addımlayır».

Görülən işlərə, həyata keçirilən tədbirlərə ölkə rəhbərinin verdiyi yüksək qiymət, dəyərli tövsiyə və tapşırıqlar əhalini daha məhsuldar

fəaliyyətə, qurub yaratmağa həvəsləndirir.

* * *

Naxçıvan Muxtar Respublikasının sənaye (2004) uğurlarını əks etdirən kadrlar bir-birini əvəz edir, mətnin ümumi ovqatını tamamlayır. Yeri gəldikcə iqtisadi artım kompüter qrafikası ilə təqdim olunur. Əsas sənaye obyektləri, ümumi və fraqmental planlarda təqdim olunur və s…

MƏTN: – Naxçıvan Muxtar Respublikasında sənaye müəssisələrinin işinin bərpası, istehsal olunan məhsulların həcminin və çeşidinin artırılması sahəsində həyata keçirilən tədbirlərin davamı olaraq 2004-cü ilin 9 ayında 96 milyard 167 milyon manatlıq məhsul istehsal edilmişdir. Bu, keçən ilin müvafiq dövrü ilə müqayisədə 23,7 faiz artım deməkdir. Ötən ilin müvafiq dövrünə nisbətən dövlət sektorunda məhsul istehsalı 22,5 faiz, qeyri-dövlət sektorunda isə 24,6 faiz artmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2004-cü il 11 fevral tarixində imzaladığı «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı»na (2004-2008-ci illər) uyğun olaraq yeni istehsal və emal müəssisələrinin yaradılması və mövcud sənaye strukturlarının yenidən qurulması nəticəsində sənaye məhsullarının çeşidi artırılmış, daxili tələbatın ödənilməsi ilə yanaşı ixracyönümlü əmtəə istehsalının dinamikliyi təmin olunmuşdur.

Bu dövrdə təkcə istehsal və emal sahəsində 592 nəfərin işlə təmin olunmasına imkan verən 7 sənaye müəssisəsi tikilmiş və 4 sənaye obyekti yenidən bərpa olunaraq istifadəyə verilmişdir.

Görülən tədbirlərin nəticəsi olaraq Naxçıvan Muxtar Respublikasının bir sıra müəssisələrində məhsul istehsalı əvvəlki ilin müvafiq dövrünün səviyyəsindən yuxarı olmuşdur. Cari ilin yanvar-sentyabr aylarında ötən ilin müvafiq dövrünə nisbətən məhsul istehsalı hasilat sənayesində 23,5 faiz, emal sənayesində 24,2 faiz, elektrik enerjisi, qaz və su təchizatı bölməsində 21,4 faiz artmışdır.

Muxtar Respublika üzrə yüklənmiş məhsulun, xidmətlərin həcmi 70 milyard 385 milyon manat təşkil etmiş, sənaye müəssisələrinin anbarlarında hazır məhsulun qalığı 952 milyon manat olmuşdur.

Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının prezident seçkilərindən ötən bir il müddətində ümumi mənzərəsini, inkişaf xəttini əks etdirən kadrlar göstərilir. Kənd təsərrüfatı sahəsində görülən işlər, tikilib istifadəyə verilən ən mühüm obyektlər, perspektivli sahələr təsvirlərin əsas xarakteristikasını təşkil edir.

Naxçıvan Muxtar Respublikasında nəqliyyat, rabitə və energetika sahəsində əldə edilən uğurlar ümumi və fraqmental kadr-bloklarla təqdim olunur. Yolları, yük və sərnişin daşımalarını, yeni rabitə xidmətlərini, teleötürücüləri, Muxtar Respublikanın elektrik sistemindəki yenilikləri və s… əhatə edən kadrlar sürətli keçidlərlə təqdim olunur. Bu blokda H. Əliyev adına məktəbin açılışı və Prezident İlham Əliyevin çıxışından fraqment təqdim olunur.

MƏTN: – 2004-cü ilin yanvar-sentyabr aylarında Muxtar Respublikada nəqliyyat müəssisələri və avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən fiziki şəxslər tərəfindən yük və sərnişin daşınmasının həcmi ötən ilin göstəriciləri ilə müqayisədə müvafiq olaraq yük daşınmasında 7,4 faiz, sərnişin daşınmasında isə 4,1 faiz artmışdır. Yük və sərnişin daşınmasında 67 milyard 263 milyon manat gəlir əldə edilmişdir ki, bu da 2003-cü ilin müvafiq dövrü ilə müqayisədə 7,4 faiz çoxdur.

Muxtar Respublikada hava nəqliyyatı ilə 195 min nəfər sərnişin, 3,3 min ton yük daşınmışdır. 2004-cü ilin müvafiq dövrü ilə müqayisədə sərnişin və yük daşınmasından əldə olunan gəlir 20,3 faiz artaraq 16 milyard 697 milyon manata çatmışdır.

Cari ilin 9 ayında Muxtar Respublikanın rabitə müəssisələri tərəfindən 6 milyard 773 milyon manatlıq, o cümlədən əhaliyə 4 milyard 629 milyon manatlıq rabitə xidməti göstərilmişdir. Ötən ilin göstəriciləri ilə müqayisədə ümumi xidmətlər 20,3 faiz, o cümlədən əhaliyə göstərilən xidmətlər 19,3 faiz artırılmışdır.

Cari ilin ötən dövrü ərzində Muxtar Respublika ərazisində rabitə xidmətlərinin səviyyəsinin yüksəldilməsi, rabitə xidmətinin yaxşılaşdırılması, teleyayımların gücləndirilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir. Belə ki, Şərur rayonunun Alışar

kəndində 256, Babək rayonunun Böyükdüz kəndində 112, Aşağı Buzqov kəndində ümumi tutumu 384 nömrə olan elektron avtomat telefon stansiyaları qurularaq istifadəyə verilmişdir. Babək rayonunun Sirab kəndində 100 nömrəlik elektron avtomat stansiyası 200 nömrəlik daha müasir elektron avtomat telefon stansiyası ilə əvəz olunmuşdur. Rabitə xidmətinin yaxşılaşdırılması üçün kartlı taksofonlar almıb quraşdırılmış, yeni servis xidmətləri və yeni «Kanal-35» televiziyası yaradılmışdır. Şərur rayonunun Muğanlı və Təzəkənd, Babək rayonunun Yuxarı Buzqov və Kərməçataq kəndləri telefonlaşdırılmışdır. Bu müddət ərzində Naxçıvan şəhərində 256, Şərur rayonunda 268, Babək rayonunda 209, Ordubad rayonunda 292, Culfa rayonunda 102, Şahbuz rayonunda 116, Sədərək rayonunda 69, cəmi 1312 nömrəlik yeni telefon xətləri çəkilib istifadəyə verilmişdir.

Muxtar Respublikaya İran İslam Respublikasından daxil olan elektrik enerjisinin miqdarını artırmaq məqsədilə Culfa rayonunda gücü 50 meqavat olan 132/110 kilovolt gərginlikli, Babək rayonunun Çeşməbazar kəndində 110/35/10 kilovoltluq transformator yarımstansiyalarının tikintisi və quraşdırılması, Babək rayonunda Kərpic zavodu üçün 10 kilovoltluq elektrik xətti və 10/0,4 kilovoltluq transformator yarımstansiyasının tikintisi başa çatdırılaraq istifadəyə verilmişdir. Bundan əlavə 93 ədəd müxtəlif güclü yeni transformator quraşdırılmış və mövcud transformator

yarımstansiyaları daha güclüsü ilə əvəz edilmişdir.

2004-cü ilin yanvar-sentyabr ayları ərzində Naxçıvan Muxtar Respublikasının elektrik şəbəkələrinə cemi 789 milyon 800 min kilovat/saat elektrik enerjisi daxil olmuşdur ki, bu da 2003-cü ilin müvafiq dövrü ilə müqayisədə 23 milyon 700 min kilovat/saat və yaxud 3,1 faiz artıqdır.

Cari ilin 9 ayında texniki itki nəzərə alınmaqla, daxil olan 682 milyon 800 min kilovat/saat enerjinin dəyəri 72 milyard 100 milyon manat olduğu halda, Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin işlədicilərində istifadə olunmuş enerjiyə görə daxil olan 4 milyard 601 milyon manat vəsait də nəzərə alınmaqla cəmi 27 milyard 482 milyon manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 38,1 faizini təşkil edir.

Muxtar Respublikada təhsilin, elm və mədəniyyətin prezident seçkilərindən keçən bir il müddətində uğurlarını əks etdirən kadrlar göstərilir.

EPİLOQ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və digər rəsmi şəxslər Əcəmi seyrəngahında ümummilli liderimiz Heydər Əliyevin abidəsi önünə gül qoyurlar… Daha sonra H. Əliyevin Naxçıvanda daha bir abidəsinin açılışı və Prezident İlham Əliyevin açılış mərasimindəki çıxışından bir fraqment təqdim olunur. Daha sonra tarixi və müasir mənzərələr,

quruculuq, inkişaf lövhələri assosiativ keçidlərlə təqdim edilir.

MƏTN: – Tarixin dönə-dönə təkrarlanan, təsdiq və etiraf olunan ibrətli bir həqiqəti var: böyük ataların yolunu böyük oğullar davam və inkişaf etdirirlər. Azərbaycan tarixində bütöv bir yüksəliş mərhələsi yaradan, dahiyanə xilaskarlıq missiyasını şərəflə həyata keçirən ümummilli lider Heydər Əliyevin başladığı böyük işləri, əbədiyaşar ideyaları bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ləyaqətlə davam və inkişaf etdirir, əməli şəkildə həyata keçirir. Prezident seçkilərindən ötən bir il öz böyük uğurları, ümumxalq inamı ilə bunu bir daha təsdiq etdi.

I FİLMİN SONU

2005

NAXÇIVAN.
AZADLIĞIN ADDIMLARI

II film

PROLOQ

Azərbaycan Respublikasının xəritəsi panoram olunur… Üçrəngli, ay-ulduzlu dövlət bayrağı bütün xəritə boyu əzəmətlə dalğalanır…

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi andiçmə məqamında görürük. Həmin tarixi andiçmənin bu hissəsi sinxron təqdim olunur:

«… Azərbaycanda bütün sahələrdə quruculuq işləri apardacaq, sosial proqramların həlli istiqamətində böyük işlər görüləcəkdir… Bizdə bütün imkanlar – təbii sərvətlər, insan potensialı və ən önəmlisi, xalqın iradəsi vardır. Biz hamımız birləşərək və bir nöqtəyə vuraraq Azərbaycanı zəngin, qüdrətli dövlətə çevirəcəyik».

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimindəki nitqindən.

31 oktyabr 2003-cü il

MƏTN: – Bu tarixi sözlərin deyildiyi vaxtdan keçən bir il müddətində Azərbaycan Respublikasında, eləcə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında elə böyük, əməli işlər görüldü, elə ciddi perspektiv yollar davam və

inkişaf etdirildi ki, xalq yeni prezidentinə bütün varlığıyla inandı. Azərbaycan xalqı bir daha inandı, tam qətiyyətlə əmin oldu ki, böyük əksəriyyətlə səs verib özünə prezident seçdiyi İlham Əliyev ümummilli liderimiz Heydər Əliyevin ən layiqli davamçısıdır, onun başladığı tarixi işləri əzmlə, inadla, siyasi müdrikliklə başa çatdıracaq cəsarətli dövlət xadimidir.

Azad, müstəqil Azərbaycanın bütün guşələrində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da prezident seçkilərindən keçən bir il böyük inam və uğurlar ili oldu. Bu filmdə əksər bölgələrimizə nümunə ola biləcək Naxçıvan uğurlarına üz tuturuq.

* * *

NAXÇIVAN. AZADLIĞIN ADDIMLARI

II film

Ekran boyu yazılan adın («Naxçıvan. Azadlığın addımlan») içərisində Naxçıvan Muxtar Respublikasındakı son uğurları əks etdirən kadrlar sürətlə bir-birini əvəz edir. Ad («Naxçıvan. Azadlığın addımları») irəli gələrək ekranı bütünlüklə uğurların «ixtiyarına verir»…

Muxtar Respublikanın bütün sahələrini – sosial-iqtisadi, kənd təsərrüfatı, təhsil, səhiyyə, idman və s. əhatə edən uğurlar bobsleyi təqdim olunur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ən mühüm obyektlərin açılışı mərasimindəki görüntüləri diqqəti cəlb edir…

* * *

MƏTN: – Zəngin dövlətçilik, qüdrətli sivilizasiya yollarının sahibi olan 3500 yaşlı ulu Naxçıvan bu gün əsl inkişaf, tərəqqi meydanını xatırladır. Sənayenin, kənd təsərrüfatının, təhsilin, səhiyyənin, sosial-iqtisadi və mədəni mühitin bütün sahələrində davamlı müsbət dəyişikliklər, yüksək standartlara cavab verən uğurlu yeniliklər bu gün Naxçıvan Muxtar Respublikasının danılmaz reallıqlarıdır. Muxtar Respublikanın 80 illiyinə həsr olunan təntənəli toplantıda bu tarixi reallıqlardan danışan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev onları yüksək qiymətləndirmişdir (Həmin çıxışdan 3-4 dəqiqəlik sinxron təqdim olunur).

* * *

MƏTN: – Qabaqcıl dünya təcrübəsi göstərir ki, azadlığa qovuşan dövlətlərdə təhsil sistemi həmişə strateji sahə olub. Gənc nəslin təlim-tərbiyəsi, həm mütəxəssis, həm də vətəndaş kimi necə hazırlanması ölkənin gələcəyi, azadlığın, müstəqilliyin əbədi və dönməz olması üçün mühüm əhəmiyyət kəsb edir. Bütün bunlara görədir ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında təhsilə xüsusi diqqət yetirilir, bu istiqamətdə böyük perspektivləri olan taleyüklü işlər görülür. Təkcə 2004-cü ilin yanvar-noyabr aylarında Naxçıvan şəhərində Heydər Əliyev adına 1206 yerlik, hərbi

hissənin nəzdində 762 yerlik, Şərur rayonundakı Təzəkənddə 110 yerlik, Vərməziyar kəndində 306 yerlik, Babək rayonunun Yarımca kəndində 378 yerlik, Şahbuz rayonunun Sələsüz kəndində 234 yerlik, Güney Qışlaq kəndində 110 yerlik, Badamlı qəsəbəsində 174 yerlik, Ordubad rayonunun Xanağa kəndində 270 yerlik, Tivi kəndində 306 yerlik, Culfa rayonunun Göynük dağ kəndində 110 yerlik orta məktəb binaları tikilərək istifadəyə verilmişdir. Həmin məktəblər ən müasir tədris avadanlığı, tam dərs vəsaitləri, kompüter otaqları, kitabxanalar, idman və hərbi hazırlıq zalları ilə təmin olunmuşdur. Bundan əlavə həmin qısa dövrdə ondan artıq köhnə məktəb binasının yenidən qurulması və əsaslı təmiri başa çatdırılmış, yeni maddi-texniki təminatla istifadəyə verilmişdir. Bu adi, quru statistik rəqəmlərin arxasında son dərəcə böyük, əməli, fədakar fəaliyyət dayanır.

Bir vaxtlar dahi yazıçı Cəlil Məmmədquluzadə söz çoxluğundan və əməl yoxluğundan gileylənərək ürək ağrısıyla yazırdı: «Mənə əməl lazımdır, əməl, əməl!…» Bu gün Naxçıvan Muxtar Respublikası məhz həyata keçirilən böyük əməlləri, ciddi perspektivləri olan praktik işləri ilə seçilir. Bircə rəqəmi xatırlatmaq kifayətdir ki, 2004-cü ilin yanvar-noyabr aylarında Muxtar Respublikanın məhsul istehsalı və xidmət sahələrində faktiki qiymətlərlə 1 trilyon 284,3 milyon manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 17,4 faiz çox ümumi məhsul istehsal olunmuşdur. 2003-cü ilin ilk on bir ayı ilə

müqayisədə məhsul istehsalı sahələrində 20,9 faiz, xidmət sahələrində isə 8,5 faiz artım əldə edilmişdir. Bu, Naxçıvan Muxtar Respublikasında inkişafın sürətini, ümumi yüksəliş tempini əyani göstərən çox uğurlu, tarixi bir faktdır. 2003-cü ilin 1 oktyabrından 2004-cü ilin 1 dekabrınadək olan dövrdə Muxtar Respublikada 7855 yeni iş yerinin açılması, ehtiyacı olanların bu iş yerlərinə cəlb olunması, bir sıra sənaye və kənd təsərrüfatı obyektlərinin, çoxsaylı dəyirmanların, sex və zavodların fəaliyyətə başlaması Naxçıvanın ən yeni tarixinin uğurlu səhifələridir…

Əvvəllər Türkiyədən çox baha qiymətə gətirilən dekorativ küçə daşları indi Naxçıvan şəhərində istehsal olunur. 2004-cü ilin iyun ayında fəaliyyətə başlayan «Dekorativ səki daşları» sexinin on çeşiddə gündəlik istehsal həcmi 600 kvadrat metrdir. Burada orta aylıq əmək haqqı 800 min manatdan artıqdır. Müasir texnologiya əsasında yaradılan bu sex indi Muxtar Respublikanın dekorativ səki daşlarına olan bütün tələbatını ödəyir…

Əsaslı texnoloji yenidənqurmadan sonra tam gücü ilə fəaliyyətə başlayan Naxçıvan Mebel fabriki… Bu fabrikdə 2004-cü ilin on ayında 2 milyard 914 milyon manatlıq məhsul istehsal olunub. Daha çox dövlət, eləcə də fərdi sifariş əsasında işləyən müəssisədə 76 işçi çalışır. İndi Muxtar Respublikanın mebelə olan tələbatının ödənilməsində bu fabrik əsaslı rol oynayır…

Naxçıvan şəhərindəki Yeyinti Məhsulları Sənaye Kompleksi 2004-cü ildə istehsal gücünü

xeyli artırıb. Yeni sexlər yaradılıb, müasir texnoloji avadanlıqlar alınaraq təzə axın xətləri istifadəyə verilib. Naxçıvanın bütün təzə müəssisələrində olduğu kimi bu böyük sənaye kompleksində də kəmiyyət və keyfiyyət bir-birini tamamlayır. Təkcə onu demək kifayətdir ki, müəssisənin dəyirmanında unun uyğun vitaminlərlə zənginləşdirilməsi sahəsində beynəlxalq normalara ciddi şəkildə əməl olunur. Naxçıvan əhalisinə ekoloji cəhətdən tam təmiz, keyfiyyətli məhsul göndərilir…

Naxçıvan Tikiş Fabriki… 2004-cü ildə bu müəssisədə Azərbaycan Müdafiə Nazirliyi üçün 180 min ədəd üst geyim tikilərək sifarişçiyə göndərilib. Əsasən güc nazirliklərinin sifarişi əsasında işləyən fabrikdə 185 nəfər çalışır. 2005-ci ildə burada 60 yeni iş yerinin açılması planlaşdırılıb…

İndi Naxçıvan şəhərində tam gücü ilə işləyən, ciddi uğurlar qazanan belə istehsal sahələri çoxdur. Bu filmdə onların hamısını əhatə etmək iddiasından uzağıq. Məqsədimiz qədim tarixli bu şəhərin yeni, sürətli inkişaf mənzərəsini canlandırmaqdır. İndi tam cəsarətlə demək olar ki, min illər yaşı olan Naxçıvan nəinki Azərbaycanın, bütövlükdə Qafqazın, postsovet məkanının ən sürətli inkişaf yoluna çıxan ən müasir, abad şəhərlərindən biridir…

Azərbaycan Respublikası prezident seçkilərindən keçən bir il müddətində təkcə Naxçıvan şəhərində açılan yeni obyektləri saysaq uzun bir siyahı alınar. Naxçıvan Beynəlxalq Hava Limanı, Naxçıvan Dövlət Universitetinin elektron

kitabxana binası, Naxçıvan şəhərində Əlillərin Bərpa Mərkəzi, Heydər Əliyev adına 1206 yerlik orta məktəb və digər orta ümumtəhsil məktəbləri, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi Təbii Sərvətlər İnstitutunun binası, «Ana dili» abidəsi, «N» saylı hərbi hissə üçün inzibati bina, Üzgüçülük mərkəzi, bütünlüklə yenidən qurulan, akademik Zərifə Əliyeva adına Naxçıvan şəhər poliklinikası və başqa yeni, çoxsaylı binalar, memarlıq kompleksləri indi Muxtar Respublika paytaxtının bəzəyinə çevrilib…

Müxtəlif açılış mərasimləri göstərilir – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ön planda görünür və lenti kəsir.

MƏTN: – Azərbaycan Prezidenti İlham Əliyevin iştirak etdiyi mərasimlər ən yeni tariximizin unudulmaz səhifələridir.

Yenicə yaradılan Kəngərli rayonunun ünvan lövhəsi və digər planlar diqqəti cəlb edir. Yeni tikintilər, yarımçıq və istifadəyə verilən inzibati binalar bir-birini əvəz edir.

MƏTN: – Son dövrün Naxçıvan yeniliklərindən söz düşəndə ilkin xatırlananlardan biri də Kəngərli rayonu olur. Naxçıvan, eləcə də bütün Azərbaycan tarixində mühüm, özünəməxsus rol oynamış qədim türk tayfasının adı verilən, Qarabağlar, Şahtaxtı, Qıvraq, Çalxanqala kimi qədim yurd yerlərini, eləcə də digər kəndləri əhatə edən bu yeni rayon indi əsl tikinti-quruculuq,

inkişaf meydanıdır. Uzun illər içməli su sarıdan korluq çəkən Qarabağlar kəndində yeni-yeni artezian quyuları istifadəyə verilib, 6000-dən çox kənd əhalisinin içməli su təminatı əsaslı şəkildə yaxşılaşdırılıb, yeni yarımstansiyalar vasitəsi ilə kəndlərin normal elektrik enerjisi ilə təmin edilməsi həyata keçirilib, yeni rayonun yeni inzibati binaları tikilərək istifadəyə verilib…

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 19 mart 2004-cü il tarixli fərmanı ilə Kəngərli rayonunun yaradılması Muxtar Respublikanın sosial-iqtisadi və ictimai-siyasi həyatında çox mühüm hadisədir. Belə ki, mindən artıq yeni iş yerləri açılmış, regionun özünəməxsus xüsusiyyətləri nəzərə alınaraq inkişaf etdirilməsi üçün imkanlar yaranmışdır. Yeni rayonun ərazisi 681,9 kvadrat kilometr, əhalisi 26 min nəfərdir. Yarandığı gündən bütün qüvvələrini səfərbər edən Kəngərli rayonu artıq ilk uğurlarını qazanıb. Əkin sahələri 1,5 dəfə artırılıb, Qabıllı kəndi yaxınlığında 20 hektar sahədə böyük badam bağı salınıb. Nəinki Naxçıvanda, bütün Azərbaycanda analoqu olmayan on min tinglik bu badam bağına Arpaçay sol-sahil kanalından daimi suvarma xətti çəkilib. Yeni rayonun öz tarixinə onlarla hektar sahəni əhatə edən yaşıllıqlar, badam, alma, ərik bağları salınması ilə başlamasının həm də rəmzi mənası var. Ozanlar ozanı ulu Dədə Qorqudun «Anam adın sorar olsan qaba ağac» deyib öydüyü ağac müqəddəsliyinə sığınan, tarixinin ilk günlərində, aylarında boz torpaqlara yaşıl imzasını atan Kəngərli rayonuna adı qədər ucalıq,

böyük uğurlar arzulayırıq. Tarixin Qarabağlar, Şahtaxtı zirvələrinə söykənən Kəngərli rayonunun tarixi uğurlar qazanacağına inanırıq…

* * *

MƏTN: – Azərbaycan Respublikasının prezident seçkilərindən keçən bir il müddətində ciddi uğurlar qazanan Şərur rayonu…Rayon mərkəzində aparılan tikinti-quruculuq, kompleks abadlıq işləri, yaxşı haldır ki, kəndlərdə də eyni səviyyədə davam etdirilir. Məsələn, Alışar kəndində tikilib istifadəyə verilən, bütünlüklə yeni avadanlıqla təmin olunan orta ümumtəhsil məktəbi hər hansı şəhər məktəbi ilə müqayisə edilə bilər. Bu baxımdan bu yaxınlarda istifadəyə verilən Vərməziyar kənd məktəbini də qeyd etmək olar. Ümumiyyətlə, son illər Şərur rayonunun əksər kəndləri yeni, yüksək standartlara cavab verən məktəblərlə təmin olunub…

Əsasən kənd təsərrüfatı rayonu olan Şərurda suvarma sisteminin yenidən qurulması, yüz hektarlarla torpaqların su ilə təmin edilərək əhalinin istifadəsinə verilməsi müsbət hal kimi qeyd oluna bilər. 2004-cü il may ayının 10-da istifadəyə verilən «Zeyvə-1» nasos stansiyası 600 hektar əkin sahəsini suvarma suyu ilə təmin edib. Başlanğıcını Arpaçay dəryaçasından götürən bu su minlərlə ailəyə, ondan artıq kəndə sevinc bəxş edib, xeyir-bərəkət gətirib…

Rayonda elektrik enerjisi ilə normal təminat problemləri də uğurla həll edilir. Artıq tikintisi

başa çatan 154-110-35 kilovatlıq yarımstansiya Sədərək, Şərur və Kəngərli rayonlarının elektrik enerjisi ilə normal təminatına şərait yaradacaq. 2004-cü ilin sentyabrında tikintisinə başlanan, smeta dəyəri 5 milyard manatdan artıq olan bu yarımstansiyada son sazlama və işə salma tədbirləri görülür…

Şərurun müxtəlif kəndlərində yaradılan, müasir standartlara cavab verən un dəyirmanları da son ilin uğurlarıdır. Əhalinin tələbatına tam cavab verən bu un dəyirmanları Azərbaycan kəndinin müstəqillik addımlarıdır…

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin gündəlik qayğısı, köməyi ilə Şərurun Kərimbəyli, Diyadin kəndlərində aparılan Araz sahilbərkitmə işləri onlarla hektar torpaq itkisinin qarşısını alıb. Artıq bu ərazilərdə Araz çayının daşaraq yolunu dəyişməsi, çay-sərhəd zolağının Naxçıvan kəndlərinə doğru «irəliləməsi» mümkün deyil. Bu, Vətənə əsl vətəndaşlıq xidmətidir, Azərbaycanın hər qarış torpağını göz bəbəyi kimi qorumaq nümunəsidir.

Naxçıvan Muxtar Respublikasının sənaye (2004) uğurlarını əks etdirən kadrlar bir-birini əvəz edir, mətnin ümumi ovqatını tamamlayır. Yeri gəldikcə iqtisadi artım kompüter qrafikası ilə təqdim olunur. Əsas sənaye obyektləri, ümumi və fraqmental planlarda təqdim olunur və s…

II FİLMİN SONU

2005

NAXÇIVAN.
AZADLIĞIN ADDIMLARI

III film

PROLOQ

Azərbaycan Respublikasının xəritəsi panoram olunur… Üçrəngli, ay-ulduzlu dövlət bayrağı bütün xəritə boyu əzəmətlə dalğalanır…

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi andiçmə məqamında görürük. Həmin tarixi andiçmənin bu hissəsi sinxron təqdim olunur:

«… Azərbaycanda bütün sahələrdə quruculuq işləri aparılacaq, sosial proqramların həlli istiqamətində böyük işlər görüləcəkdir… Bizdə bütün imkanlar – təbii sərvətlər, insan potensialı və ən önəmlisi, xalqın iradəsi vardır. Biz hamımız birləşərək və bir nöqtəyə vuraraq Azərbaycanı zəngin, qüdrətli dövlətə çevirəcəyik».

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimindəki nitqindən.

31 oktyabr 2003-cü il

MƏTN: – Bu tarixi sözlərin deyildiyi vaxtdan keçən müddətdə Azərbaycan Respublikasında, eləcə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında elə böyük, əməli işlər

görüldü, elə ciddi perspektiv yollar davam və inkişaf etdirildi ki, xalq yeni prezidentinə bütün varlığıyla inandı. Azərbaycan xalqı bir daha inandı, tam qətiyyətlə əmin oldu ki, böyük əksəriyyətlə səs verib özünə prezident seçdiyi İlham Əliyev ümummilli liderimiz Heydər Əliyevin ən layiqli davamçısıdır, onun başladığı tarixi işləri əzmlə, inadla, siyasi müdrikliklə başa çatdıracaq cəsarətli dövlət xadimidir.

Azad, müstəqil Azərbaycanın bütün guşələrində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da prezident seçkilərindən keçən müddət böyük inam və uğurlar dövrü oldu. Bu filmdə əksər bölgələrimizə nümunə ola biləcək Naxçıvan uğurlarına üz tuturuq.

* *

NAXÇIVAN. AZADLIĞIN ADDIMLARI

III film

Ekran boyu yazılan adın («Naxçıvan. Azadlığın addımlan») içərisində Naxçıvan Muxtar Respublikasındakı son uğurları əks etdirən kadrlar sürətlə bir-birini əvəz edir. Ad («Naxçıvan. Azadlığın addımları») irəli gələrək ekranı bütünlüklə uğurların «ixtiyarına verir»…

Muxtar Respublikanın bütün sahələrini – sosial-iqtisadi, kənd təsərrüfatı, təhsil, səhiyyə, idman və s. əhatə edən uğurlar bobsleyi təqdim olunur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ən mühüm obyektlərin açılışı mərasimindəki görüntüləri

diqqəti cəlb edir…

* * *

MƏTN: – Ötən minilliklərdən keçib gələn böyük tarix yolu III minilliyin 5-ci ilinə çatdı. Bu il Naxçıvan Muxtar Respublikasının çağdaş tarixinə sosial-iqtisadi inkişafın yeni uğurlar ili kimi yazıldı. 2005-ci il ərzində iqtisadi inkişafı xarakterizə edən əsas göstərici ümumi daxili məhsul istehsalının 2004-cü illə müqayisədə 27% artması həmin uğurların ciddi, fundamental mahiyyətindən, geniş miqyaslarından xəbər verir.

Muxtar Respublikaya son 2 il ərzində etdiyi səfərlər arasındakı müddətdə burada baş verən inkişaf meyllərini ölkə prezidenti İlham Əliyev yüksək qiymətləndirərək demişdir:

İLHAM ƏLİYEV: (Azərbaycan Respublikasının Prezidenti) – Naxçıvan inkişaf edir. Burada böyük işlər görülür. Respublikanın iqtisadi potensialı güclənir, müəssisələr, fabriklər, yeni iş yerləri açılır. Eyni zamanda sosial xarakterli tədbirlər, tikililər burada geniş vüsət alır. Bu məni çox sevindirir. Çünki Azərbaycanın inkişafı məhz bundadır. İqtisadi potensialın möhkəmlənməsi və sosial problemlərin həlli. Hər iki istiqamətdə Naxçıvanda çox böyük uğurlar var və mən bu münasibətlə sizi ürəkdən təbrik edirəm.

Keçən il mən 2 dəfə Naxçıvanda olmuşam və bir ildən artıqdır ki, gəlmişdim buraya. Bu bir il ərzində də böyük dəyişikliklər gördüm. Müasir

binalar, çox zövqlə tikilmiş binalar… Abadlıq-quruculuq işləri. Blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasının belə böyük uğurlar əldə etməsində əlbəttə ki, sizin hər birinizin əməyi var. Xüsusilə mən Naxçıvan Muxtar Respublikasının rəhbərini – Vasif Talıbovu bu münasibətlə təbrik etmək istəyirəm. Ona öz minnətdarlığımı bildirmək istəyirəm. Və bunu təkcə mən yox, Naxçıvana gələn hər bir qonaq, hər bir xarici nümayəndə, vətəndaş qeyd edir. Bu məni çox sevindirir. Mən əminəm ki, gələcəkdə bu gözəl işlər davam etdiriləcək.

Bu illərdə Naxçıvanın gələcək perspektivləri müəyyən olunur. Hamımız bilirik ki, xalqımızın ümummilli lideri Heydər Əliyev Naxçıvana həmişə böyük diqqət göstərirdi, qayğı göstərirdi. Məhz onun təşəbbüsü ilə nəhəng, böyük layihələr ərsəyə gəldi və əlbəttə ki, biz hamımız çalışmalıyıq ki, əlimizdən gələni edək ki, Naxçıvan daha da möhkəmlənsin, müasirləşsin, zənginləşsin. Və burada güclü potensial yaransın.

Bir sözlə, görülən işlər, əldə edilən bütün uğurlar bir də onu göstərir ki, biz düz yoldayıq. Naxçıvanda görülən işlər, əldə edilən uğurlar bir də onu sübut edir ki, geniş quruculuq, abadlıq işləri gedir. Biz hamımız çalışmalıyıq ki, əlimizdən gələni edək ki, Naxçıvana kömək eliyə bilək. Mən bilirsiz ki, bütün nazirlərə tapşınq vermişəm ki, onlar ulu öndər H. Əliyevin tapşırığını unutmasınlar. Çünki H. Əliyev tapşırıq vermişdi ki, bütün nazirlər vaxtaşırı Naxçıvana gəlməlidirlər. Lazım olan işləri görməlidirlər.

Respublika rəhbərliyilə daim əlaqə saxlamalıdırlar və onlardan tələb olunan bütün işləri görməlidirlər.

* * *

MƏTN: – Təqdirəlayiq haldır ki, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı birtərəfli istiqaməti ilə yox, bütöv, kompleks xarakterilə seçilir. Təkcə qədim Naxçıvan şəhəri, digər rayon mərkəzləri yox, Muxtar Respublikanın bütün guşələri, bütün kənd və qəsəbələri kompleks inkişafın strateji istiqamətləri ilə əhatə olunur.

Burada yaddan çıxan, unudulan bir bölgə, inkişaf, tərəqqi yollarından kənarda qalan bir sahə tapmaq mümkün deyil. Blokada şəraitində yaşamasına baxmayaraq, belə bütöv, kompleks inkişafa nail olmaq, aydan-aya, ildən-ilə inkişaf tempini daha da yüksəltmək haqlı qürur hissi doğurur. Bu, insanın öz doğma, əzəli torpağı qarşısında həqiqi övladlıq borcunun şərəflə yerinə yetirilməsidir. Vətəndaşın öz ana vətəninə əsl xidmət mədəniyyətinin təntənəsidir. Bu, ümummilli liderimiz, dahi dövlət xadimi H. Əliyevin vətənə, Azərbaycana hüdudsuz sevgi və sədaqətinin, onun müdrik, uzaqgörən siyasətinin layiqincə davam etdirilməsidir. Xalq öz dahi oğlunun şərəfinə ucaltdığı heykəl-abidələrlə tarixi sözünü deyir, böyük məhəbbətini bildirir. Azərbaycanın bütün guşələrində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da hörmət və ehtiramla ucaldılan bu abidələr xilaskar H. Əliyev

ideyalarına ümumxalq sevgi və sədaqətinin əbədiləşən simvollarıdır.

Naxçıvanın ayrı-ayrı guşələrində ucaldılan H. Əliyev abidələri panoram olunur. Yeni tikintilər bir-birini əvəz edir.

MƏTN: – 3500 yaşlı ulu Naxçıvan. Əsrlərin, min illərin tarix yollarında heç vaxt yorulmayan yadigar yurd, köhnəlməyən köhnə şəhər. Təzə yollarla, geniş prospektlərlə, əzəmətli binalarla göz güldürən, könül sevindirən, müasir memarlıq komplekslərilə azadlığın nəhəng addımları ilə irəliləyən qədim tarixli yeni şəhər. 2005-ci ildə Muxtar Respublikanın paytaxtında çox böyük quruculuq-abadlıq işləri görülüb. Sənaye, təhsil, səhiyyə və eləcə də digər sosial-mədəni sahələrdə uğurlu addımlar atılıb. Yeni Kitab evi, Gənclər Mərkəzi, Sosial-müdafiə fondunun təzə binası və digər çoxsaylı sosial mədəniyyət obyektləri, məktəblər istifadəyə verilib.

Naxçıvan Dövlət Universitetinin binası, onun nəzdində fəaliyyət göstərən televiziya studiyaları panoram olunur.

Naxçıvan Dövlət Universitetinin yeni tədris korpusları qapılarını tələbələrin üzünə açıb. Azərbaycan maarif sistemində layiqli yeri, özünəməxsus mövqeyi olan bu 40 yaşlı ali təhsil ocağında ayrıca Universitet televiziyası fəaliyyətə başlayıb. Qafqazda analoqu olmayan bu televiziya ingilis, alman, fransız, ərəb, rus dillərində xəbər bülletenləri hazırlayacaq, internetə qoşulmaqla

blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasının haqq səsini bütün dünyaya çatdıracaq.

Universitet televiziyasının başqa mühüm bir vəzifəsi isə Muxtar Respublikası üçün daha səviyyəli, praktik radio, televiziya kadrları hazırlamaqdan ibarətdir.

* * *

Naxçıvan şəhərini gəzdikcə hər addımda inkişafın yeni bir mənzərəsi ilə qarşılaşırsan. Şəhər əsl övlad məhəbbətilə tikilir, qurulur, abadlaşdırılır. Milli-memarlıqla dünya şəhərsalma mədəniyyətinin uğurları bir-birini tamamlayır. Yenilik təkcə şəhərin xarici görünüşündə, memarlıq biçimlərində yox, eyni zamanda təzə tikilən binaların daxilindəki dizayn, tərtibat estetikasında, hətta mebel düzümündə də diqqəti cəlb edir. İndi Muxtar Respublikanın hər hansı bir bölgəsində yeni tikilən binaya, elm, təhsil, səhiyyə, idman, mədəniyyət obyektlərinə, inzibati binalara daxil olsan, Naxçıvan Mebel Fabriki Məhdud Məsuliyyətli Cəmiyyətin keyfiyyətli məhsullarına rast gələrsən.

Bir neçə il əvvəl 14 nəfərlə fəaliyyətə başlayan Naxçıvan Mebel Fabrikində indi 111 nəfər daimi, 16 nəfər müqavilə ilə işçi çalışır. Burada dövləti və şəxsi sifarişlər qəbul edilərək 100 çeşiddə məhsul istehsal olunur. 2005-ci ildə 1 milyon manatlıq məhsul istehsal edilərək satılıb ki, bu 2004-cü ildəkindən 30% çoxdur. 2006-cı

ilin ilk 4 ayında ötən ilin uyğun dövrü ilə müqayisədə artım 35%-i keçib. Bu quru rəqəmlər mebel fabrikindəki inkişaf tempini çox gözəl əks etdirir. Türkiyə, İtaliya və Avstriyadan gətirilən təzə, qiymətli avadanlıqlar müəssisənin daha böyük inkişaf yoluna çıxaracağından xəbər verir. Uğurları ölkə rəhbərliyi tərəfindən yüksək qiymətləndirilən Naxçıvan Mebel Fabrikinin öz keyfiyyətli məhsulları ilə dünya bazarlarına çıxacağı gün uzaqda deyil.

Ekranda Naxçıvan Mebel Fabriki Məhdud Məsuliyyətli Cəmiyyətin müxtəlif çeşidli məhsulları görünür.

MƏTN: – Naxçıvan şəhərinin ən uca guşələrinin birində yaradılan Xatirə muzeyi. Azərbaycan xalqına qarşı illər, on illərlə davam edən iblisanə xəyanətlərin, amansız, kütləvi qətllərin kədərli tarixinə üz tutan, soyqırım qurbanlarının xatirəsinə həsr olunan bu monumental memorial kompleks Naxçıvanın ən yeni abidələrindən, ən müqəddəs and yerlərindən biridir. Xalq öz keçmişinə, öz sevinc və kədərinə sahib çıxanda ruhən bütövləşir, saflaşır, böyük gələcəyə daha inamlı addımlarla irəliləyir. Xatirə muzey kompleksi vətəndaş qəlbində belə duyğular oyadır, onu vətən naminə mübarizəyə, qələbəyə səsləyir.

Naxçıvan Xatirə muzey kompleksi müxtəlif panoramlarla təqdim olunur.

MƏTN: – Naxçıvan şəhərindən bir qədər aralıda yerləşən məşhur Duzdağ. Ötən il burada Naxçıvan Filiz İdarəsinin 4 saylı yeni sexi istifadəyə verilib. Yeni sexdə qurulan üyüdücü texnoloji xəttin istehsal gücü gün ərzində 20 tondur. Buradakı təzə paketləyici avadanlıq Almaniya, İtaliya və İranın birgə istehsalıdır. 2005-ci ildə ötən illərlə müqayisədə üyüdülmüş duz istehsalı dəfələrlə artırılaraq 2.707 ton həddinə çatdırılıb. Mütəxəssislər bunun çox böyük uğur olduğunu təsdiq edir. Yaxın gələcəkdə Naxçıvan Filiz İdarəsi mədənlərində duz istehsalının gün ərzində 35-40 tona çatdırılacağı təmin ediləcək. Bu isə Naxçıvan Muxtar Respublikasının, bütünlükdə Azərbaycanın beynəlxalq standartlara cavab verən yüksək keyfiyyətli duzla tam təminatında həlledici rol oynayacaq.

Ekranda Naxçıvandakı «N» saylı hərbi hissə göstərilir. Əsgərlər üçün yaradılan şərait, əsgər kazarmaları, yataqxanaları, yeməkxanaları panoram olunur.

MƏTN: Muxtar Respublikada sərhəd mühafizə sistemlərinə, hərbi hissələrin yüksək beynəlxalq standartlar səviyyəsində təşkilinə, maddi-texniki təminatına, bütövlükdə müasir tələblərə tam cavab verən ordu quruculuğuna xüsusi diqqət və qayğı göstərilir. Bütün kommunal tələblərə uyğun tikilərək istifadəyə verilən yeni əsgər kazarmaları, yataqxana və yeməkxanalar göz oxşayır, haqlı razılıq hissi doğurur. Naxçıvan şəhərində, Şərur,

Şahbuz rayonlarında, ümumiyyətlə, Muxtar Respublikanın bütün bölgələrində hərbi hissələr üçün tikilən kompleks binalar, yaradılan nümunəvi şərait Azərbaycan ordusuna dövlətimizin həqiqi qayğısından xəbər verir. Naxçıvan şəhərindəki «N» saylı hərbi hissədə və ümummilli liderimiz H. Əliyevin adını daşıyan hərbi liseydə bu böyük qayğının bir daha şahidi olduq. Ötən il H. Əliyevin adını daşıyan hərbi liseyin yeni binaları istifadəyə verilib. İndi bu lisey, nəinki Azərbaycanın, bütövlükdə Qafqazın ən yaxşı ilkin hərbi təhsil ocaqlarından biri sayılır. Dünyanın müxtəlif ölkələrindən gələn nüfuzlu qonaqlar H. Əliyev adına hərbi lisey önündə heyranlıqlarını gizlədə bilmirlər.

* * *

Hər bir regionun iqtisadi potensialının güclənməsində, ümumi inkişafında sənaye istehsalının həcmi və bu həcmin daimi artım ardıcıllığı mühüm rol oynayır. Bu baxımdan Naxçıvan Muxtar Respublikasında sənayenin son illərdəki artım tempi, inkişaf dinamikası nümunə göstərilə bilər. Ənənəvi təbii ehtiyatların müasir dünya standartları səviyyəsində emalı məqsədilə yeni-yeni sənaye müəssisələrinin, keyfiyyət və kəmiyyət üstünlüyü ilə seçilən, mütərəqqi texnologiyanın, sivil axın xətlərinin yaradılması, maddi və mənəvi cəhətdən köhnəlmiş müəssisələrin daha məhsuldar səviyyədə bərpası, istehsal olunan məhsulların həcminin və çeşidinin

artırılması nəticəsində 2004-cü illə müqayisədə 56%-lik artıma nail olunmuşdur. İstehsalın ümumi həcmində məhsul istehsalının payı 83%, xidmətlərin payı isə 17% təşkil etmişdir. Ümumilikdə 2005-ci ildə 15-dən çox yeni sənaye müəssisəsi tikilərək, yaxud yenidən qurularaq yüksək texniki standartlar səviyyəsində istifadəyə verilmişdir. Bunlar Muxtar Respublikanın ən yeni tarixinə yazılacaq çox ciddi, əlamətdar rəqəmlər, faktlardır. Bu quru rəqəmlərin, faktların arxasında yüzlərlə, minlərlə yeni iş yerləri, əhalinin yüksələn, ildən-ilə daha da yaxşılaşan maddi rifah halı, xoş güzəranı dayanır.

* * *

2005-ci ildə Naxçıvanın həyatında baş verən ən əlamətdar hadisə uzun illərin fasiləsindən sonra ölkə prezidenti İlham Əliyevin bilavasitə himayə və qayğısı nəticəsində İran İslam Respublikasından mübadilə olunmaqla Muxtar Respublikaya təbii qazın çəkilişi oldu. Bu, blokada şəraitində yaşayan Muxtar Respublikanın gələcək inkişafına göstərilən dövlət qayğısının parlaq ifadəsidir. Naxçıvan Muxtar Respublikasının təbii qaza olan ehtiyacını təmin etmək üçün Culfa-Naxçıvan yüksək təzyiqli, Naxçıvan-Cəhri orta təzyiqli magistral, Naxçıvan şəhər orta təzyiqli dairəvi qaz kəmərlərinin çəkilişi başa çatdırılmışdır. Naxçıvan Muxtar Respublikası üzrə Naxçıvan şəhərində 4839 mənzil və 195 fərdi ev, Kəngərli rayonunda 102

mənzil, Babək rayonunda 60 mənzil, Şahbuz rayonunda 232 mənzil, Ordubad rayonunda 134 mənzil, Culfa rayonunda 1101 mənzil, Şərur rayonunda 302 mənzil qazlaşdırılmışdır. Naxçıvan Muxtar Respublikasının qaz və elektrik enerjisilə tam təminatına yönələn tarixi işlər uğurla davam etdirilir.

Naxçıvanın Babək, Şahbuz, Ordubad, Culfa, Şərur rayonlarını əks etdirən kadrlar görünür. Yeni tikililər bir-birini əvəz edir.

MƏTN: – Naxçıvan Muxtar Respublikasının Babək rayonu. 2005-ci il bu bölgənin həyatında əlamətdar hadisələrlə zəngin olub. Yeni-yeni məktəb binaları, sosial mədəniyyət obyektləri tikilərək istifadəyə verilib. Təzə bağlar, xiyabanlar, yollar salınıb. Babək rayonunda istifadəyə verilən yeni sənaye obyektləri xüsusilə diqqəti cəlb edir. Gəmiqaya Məhdud Məsuliyyətli Cəmiyyətinin Provertin fabriki və Beton zavodu. Ötən il istifadəyə verilən bu sənaye nəhəngləri Muxtar Respublika tikinti-inşaat sektorunun bir sıra ehtiyaclarını ödəyir. Gündə 500 kvadratmetr üzlük və döşəmə daşları istehsal edən Provertin fabrikində bu yaxınlarda qranit emalı üçün İtaliyadan gətirilən daha bir kəsin xətti quraşdırılacaq.

Gündə 500 kvadratmetr daş plitələr, 200 kubmetr qum, 250 kubmetr çınqıl, 1000 kubmetrdən artıq beton məhsulu emal edən Beton zavodunda 103 nəfər işçi çalışır. Əsasən ətraf

kəndlərin əhalisindən ibarət olan bu işçilərin orta aylıq əmək haqqı 130-150 manatdır. Kəndlərdən xüsusi avtobuslarla işə pulsuz gələn və qayıdan işçilərə zavodda gündə 2 dəfə pulsuz yemək verilir. Bu işçi əhaliyə yüksək xidmət nümunəsidir.

Əsaslı yenidenqurmadan sonra tam istehsal gücü ilə fəaliyyətə başlayan «Sirab» Açıq Tipli Səhmdar Cəmiyyəti. Bu mineral sular zavodu yenidən əvvəlki şöhrətini bərpa edib, yüksək keyfiyyətli məhsulları ilə əhalinin razılığına nail olub. Gündəlik 8 saatlıq istehsal həcmi 7 çeşiddə 20 min şərti butılka su olan «Sirab» zavodunda 80 nəfər işçi çalışır. Orta əmək haqqı 150 manatdır. Dəniz səviyyəsindən 1400 m yüksəklikdə Kəlbəağıl adlı ərazidə yerləşən Sirab su mənbəyi indi yüksək ekoloji və sanitar standartları səviyyəsində mühafizə olunur. Zavodun əsas devizi belədir: «Əhaliyə yüksək keyfiyyətli, şəfalı mineral su vermək». «Sirab» zavodu bu devizinə şərəflə əməl edir.

* * *

Bu gün Naxçıvan Muxtar Respublikası əsaslı tikinti quruculuğu, genişmiqyaslı sosial-mədəni abadlaşdırma meydanını xatırladır. İndi çoxları etiraf edir ki, neçə min illik tarixi boyunca Naxçıvan heç vaxt belə əhatəli, davamlı, kütləvi tikinti-quruculuq meydanına dönməmişdir. Sevindirici haldır ki, bu sürətli, genişmiqyaslı tikinti-abadlaşdırma meydanında əsas yeri ötən

illərdə olduğu kimi yenə təhsil sistemi tutur. Bu, yeni cəmiyyətin yeni tələb və təkliflərindən qaynaqlanan, ümummilli, strateji hədəflərə istiqamətlənən tarixi bir prosesdir. Dövlətin əsl müstəqilliyi, milli azadlığı, xalqın həqiqi xoşbəxtliyi onun məktəbindən, ümumi təhsil sistemindən başlayır. Ümummilli liderimiz H. Əliyevin müdrik sözləri yada düşür: «Uşaqlar bizim gələcəyimizdir. Gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, böyüdəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin gələcəyi bundan asılı olacaqdır».

Naxçıvan Muxtar Respublikasında tikilən yeni məktəb binaları bir-birini əvəz edir, panoram olunur.

MƏTN: – Naxçıvanı bölgə-bölgə, el-el, kənd-kənd gəzdikcə yeni tikilən çoxsaylı məktəb binaları göz oxşayır, həyata keçən H. Əliyev arzularından soraq verir. Əlamətdar hadisədir ki, ümummilli liderimizin adını daşıyan fond da Muxtar Respublikada yeniləşən Azərbaycana yeni məktəblər proqramı ilə fəal, praktik iş görür, yeni məktəb binalarının tikintisinə öz dəyərli töhfəsini verir. Naxçıvan şəhərində 930 şagird yerlik 1 saylı məktəb. Şərur rayonunda Qarahəsənli kəndində 216 şagird yerlik, Həmzəli kəndində 192 şagird yerlik, Gümüşlüdə 156 şagird yerlik, Yuxarı Yayçı kəndində 144 şagird yerlik yeni məktəblər, Babək rayonunun Hacavar kəndində 252 şagird yerlik, Vayğırda 324 şagird yerlik, Çeşməbasar kəndində 252 şagird yerlik yeni məktəblər, Ordubadın Kotan kəndində 110 şagird

yerlik, Aza binəsində 216 şagird yerlik təzə təhsil ocaqları, Culfanın Xoşbeşin kəndində 144 şagird yerlik, Milad obasında 234 şagird yerlik yeni məktəblər, Kəngərli rayonunun Şaxtaxtlı kəndində akademik Zərifə Əliyeva adına 594 şagird yerlik, Xıncab kəndində 144 şagird yerlik məktəblər, Şahbuzun Yuxarı Qışlaq elində 156 şagird yerlik yeni məktəblər. Bütün lazımı avadanlıq, yeni tədris vəsaitlərilə tam təchiz edilərək istifadəyə verilən bu təzə tədris ocaqları 2005-ci ilin yadigarlarıdır. Bunlar dövlətin öz xalqına, öz gələcək nəsillərinə diqqət və qayğısının danılmaz təzahürləri, real faktları, dünən-dən bu günə bu gündən sabaha gedən böyük Azərbaycan yolunda azadlığın şərəfli addımlarıdır.

* * *

Azərbaycanda qeyri-neft sektorunun kompleks inkişafı, regionların sosial-iqtisadi tərəqqisinin sürətləndirilməsi tədbirləri dövlətimizin daim diqqət mərkəzindədir. Ölkə prezidenti İ. Əliyev 2003-cü il noyabrın 24-də «Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi haqqında» fərman imzalamış və 2004-cü il fevralın 11-də «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nı təqdim etmişdir. Ümummilli liderimiz H. Əliyevin bütöv quruculuq xəttini, qlobal strateji inkişaf konsepsiyasını yeni şəraitdə davam etdirən bu

tarixi sənədlər regionların sosial-iqtisadi tərəqqisinə güclü, həlledici imkan vermişdir.

Əlamətdar haldır ki, prezident İ. Əliyev tez-tez regionlara səfər edir. Həmin tarixi sənədlərin həyata keçirilməsi prosesilə şəxsən tanış olur, qarşıya çıxan problemləri yerindəcə operativ şəkildə həll edir, yol göstərici tapşırıqlar və tövsiyələrini verir. Belə daimi, praktik diqqət və qayğının, məqsədyönlü, realist, fəal rəhbərlik mexanizminin nəticəsidir ki, Azərbaycanın hər bir guşəsində regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı uğurla həyata keçirilir. Bu sahədə şübhəsiz ki, ön sırada Naxçıvan Muxtar Respublikası addımlayır.

Azərbaycan Prezidenti İ. Əliyevin bu qədim tarixli doğma yurda, müstəqillik yollarında böyük, ardıcıl uğurlar qazanan Muxtar Respublikaya hər gəlişi bayrama dönür, regionun sosial-iqtisadi inkişafında yeni bir dövr açır.

Azərbaycan Prezidenti İlham Əliyevin Naxçıvan şəhərindəki Diaqnostika Müalicə Mərkəzinin təməlqoyma mərasimində iştirakını əks etdirən kadrlar görünür.

MƏTN: – Azərbaycan Prezidenti 1. Əliyevin Naxçıvan şəhərindəki Diaqnostika Müalicə Mərkəzinin təməlqoyma mərasimindəki iştirakından, unudulmaz çıxışından keçən qısa müddətdə burada böyük tikinti işləri aparılıb. Prezidentin tövsiyələrinə, arzularına real işlə cavab verilib. Qısa bir vaxt keçəcək, qədim tarixli Naxçıvan şəhərində daha bir yeni memarlıq kompleksi –

dünya standartlarına tam cavab verən Diaqnostika Müalicə Mərkəzi qapılarını Muxtar Respublika əhalisinin üzünə açacaq.

* * *

Ulu tarix yollarından keçib gələn, əsrlər boyu öz hünərli sözünü deyən, dünəni bu gününə, bu günü sabahına örkən olan bir bölgə var. Bu Naxçıvan Muxtar Respublikasının Şərur bölgəsidir. İndi bu bölgə hərtərəfli sosial-iqtisadi inkişaf tempilə nəinki Muxtar Respublikada, eləcə də bütün Azərbaycan miqyasında seçilir, ön sıralarda addımlayır.

Şərur rayonundakı H. Əliyev prospekti panoram olunur.

MƏTN: – Yaz yağışlarının gülləri güldürdüyü bir gündə, Arpaçay dəryaçası sahilində qədimlərdən-qədim Şərur yallısının qonağı olduq. Min illərin qayaları kimi qəlbimiz qalalandı, ruhumuz çiçəklədi.

Yaşıl, laləli, çəmənlikdə Şərur yallısı ifa olunur.

MƏTN: – Şərur yallısının gur işığında, yaz havasında Şərur kəndlərinə üz tutduq. Adı kimi gözəl olan Qarahəsənli, Həmzəli, Gümüşlü, Yuxarı Yayçı kəndlərində istifadəyə verilən gözəl məktəb binaları gördük. Heyranlığımızı görənlər dedilər ki, indi Şərurun yaxın-uzaq hər bir kəndində belə yüksək səviyyəli məktəblər fəaliyyət göstərir. Bəli, bunlar müstəqillik dövrümüzün ən şərəfli

reallıqlarından biridir. Bütövlükdə Azərbaycanın daha xoşbəxt gələcəyinə qoyulan mənəvi kapitaldır, mənəviyyat sərmayəsidir.

Kəndləri kimi Şərurun rayon mərkəzi də ildən-ilə abadlaşır, gözəlləşir. Təzə binalar, yeni yollar orijinal memarlıq kompleksləri ilə göz oxşayır. Əsaslı yenidənqurmadan sonra bu yaxınlarda istifadəyə verilən dəmiryol stansiyası, vağzal binası şəhərin müasir memarlıq simasını tamamlayır. İndi bu özünəməxsus, öz sözü olan şəhərdə təkcə dünəndən gələn yaddaş yolları yox, həm də uğurlu sabahlara gedən inkişaf yolları aydın görünür.

Ordubada aparan yollar… Ordubadın səfalı yerləri, təzə tikililəri bir-birini əvəz edir.

MƏTN: – Azərbaycanın incisi adlandırılan Ordubad. Şərəfli tarixi, böyük mədəniyyət örnəkləri olan bu qədim yurd son illər sürətli inkişaf yoluna çıxıb. Rayonun inzibati mərkəzi olan Ordubad şəhəri, eləcə də bütün kəndləri indi əsl tikinti-quruculuq meydanını xatırladır. Yeni-yeni binalar tikilir, yollar çəkilir, bağlar salınır. Həyatın ən müxtəlif sahələrini əhatə edən, yaddaqalan uğurlar qazanılır. Keçmişinə, böyük oğullarına ehtiramla qayğı göstərir, daha xoş gələcəyin təməllərini qoyur Ordubad.

Akademik Y. Məmmədəliyevin ev muzeyi təqdim olunur.

MƏTN: – Əsaslı yenidənqurmadan sonra tam yeni

ekspozisiya ilə qapılarını açan Yusif Məmmədəliyevin ev muzeyi. Böyük kimyaçı alim, alovlu vətənpərvər, həqiqi vətəndaş ziyalı, akademik Y. Məmmədəliyevin ibrətli ömür, tale yollarına güzgü tutan bu yüksək səviyyəli muzey milli mədəniyyətimizin son uğurlarından sayıla bilər. Ev muzeyin otaqlarını gəzdikcə, zəngin ekspozisiyası ilə tanış olduqca məğrur bir səs eşidirsən. Bu fədakar alim, böyük vətəndaş Y. Məmmədəliyevin 1925-ci ildə «Örnək» jurnalında çap edilən «Qurtuluş çələngi» şeirində əbədiyyətə qovuşan səsidir.

Uzaq ölkələrdən, dərdli ellərdən,
Dizinə üzümü sürtməyə gəldim.
Yalçın qayalardan, azğın sellərdən,
Adlayaraq səni görməyə gəldim.

Öksüz çocuqların yanıq səsindən,
Tasalı qızların dinləməsindən.
Ümidli gəncliyin son nəfəsindən
Uğursuz xəbərlər verməyə gəldim.

Dinlə qəlbimi, ey canlı xəyal,
İniltimi susmuş rübabında çal.
Sehrli bağçadan şanlı ideal
Bir dənə ağ çiçək dərməyə gəldim.

Uzaq ölkələrdən, dərdli ellərdən,
Uğursuz xəbərlər verməyə gəldim.
Bağçada dərdiyim pənbə güllərdən,
Qurtuluş çələngi hörməyə gəldim.

Bu qüdrətli səsin vətən eşqi adlı çağırış yolları ilə Ordubadın ucqar bir kəndinə, Kotan binəsinə üz tuturuq. Ayağı Xan Arazda, başı uca dağlarda olan ucqar Kotan kəndi yüksək səviyyəli yeni məktəbilə paytaxtımızın hər hansı təhsil ocağı ilə yarışa bilər. Kəndin ötən il istifadəyə verilən tibb məntəqəsi, poçtu, telefon qovşağı, bələdiyyə binası, mədəniyyət klubu və kitabxanası göz oxşayır, könül sevindirir.

Bu müasir kənd mərkəzidir. İndi Naxçıvan Muxtar Respublikasının bütün kəndlərində belə mədəni mərkəzlər yaranır. Kənddə psixoloji, sosial-mədəni ab-havanı saflaşdıran, kəndliyə xidmət mədəniyyətini yüksəldən belə mədəni mərkəzlər yaratmasa ənənəsi bütün Azərbaycan miqyasında yayılmağa layiqdir.

Naxçıvanın səfalı guşələri görünür. Yeni tikinti obyektləri bir-birini əvəz edir.

MƏTN: – 2005-ci ildə Muxtar Respublikada elm, səhiyyə, mədəniyyət obyektlərinin tikintisinə diqqət daha da artırılmışdır. Ötən il Naxçıvan şəhərində H. Əliyev adına hərbi liseyin yeni binaları, Naxçıvan Dövlət Universitetinin sosial idarəetmə, hüquq və iqtisad fakültələri üçün tədris korpusu, Ordubad şəhərində kompüter təlim-tədris mərkəzinin binası, Culfa şəhərində şahmat məktəbi tikilərək istifadəyə verilmiş, Şahbuz rayonunda şahmat məktəbinin, Naxçıvan Dövlət Universiteti ərazisində idman kompleksinin

tikintisi davam etdirilmiş, başa çatdırılmışdır. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin Bioresurslar İnstitutunun, Naxçıvan musiqi kollecinin, Şahbuz qəsəbəsində Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi və Uşaq kitabxanasının binaları əsaslı təmir olunaraq, istifadəyə verilmişdir. Kəndlərdə 15 tibb məntəqəsi tikilərək, 11 sağlamlıq mərkəzi əsaslı təmir olunaraq müasir avadanlıqlarla tam təmin edilərək istifadəyə verilmişdir.

Naxçıvan şəhərində yeni Kitab evi tikilmiş, Gənclər mərkəzinin, Xatirə muzey kompleksinin, Culfa bölgəsində Xanəgah abidə kompleksinin elmi bərpa və restavrasiyası başa çatdırılmışdır.

* * *

Dahi Fəzlullah Nəiminin ruhu yaşayan Xanəgah memarlıq kompleksi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin əməli diqqət və qayğısı ilə bərpa olunan bu abidə dövlətin öz tarixinə, öz mədəniyyətinə hörmət və ehtiramının, sevgi və sayğısının nəticəsidir. Nəimi türbəsi bütöv memarlıq kompleksi kimi elmi şəkildə bərpa və restavrasiya olunmuş, müasir dünya standartları səviyyəsində mədəniyyət abidəsi kimi turizm xəttinə daxil edilmişdir. Müqəddəs Xanəgahı gəzdikcə, orta əsrlərdən baş qaldıran məğrur bir ruhun çağırış səslərini eşidirsən. Bu Nəsimi ustadı Nəiminin – dahi şairin milli mədəniyyət, mənəviyyat zirvələrinə çağıran səsidir.

Üzü əzəmətli İlan dağa baxan, məğrur Əlincə dağa söykənən Xanəgah – Nəimi türbəsi indi tarixdə ən xoşbəxt günlərini yaşayır.

* * *

Nəimi türbəsindən, Əlincə dağ ucalığından bir qədər aşağılara ensən, Xoşkeşin kəndinin qonağı olursan. Və bu ucqar dağ kəndində səni ilk qarşılayan Xoşkeşin kənd məktəbinin yeni binasıdır. Xoşkeşin əhalisi etiraf edir ki, tarix boyu bu kənddə belə yüksək səviyyəli məktəb olmayıb. Bu, müstəqil Azərbaycan dövlətinin kənd və kəndlilərə qayğısının danılmaz faktıdır.

Məktəbdən bir qədər yuxarıda Əlincə çayı üzərində salınan yeni körpü dövlətin öz vətəndaşlarına daha bir qayğısından soraq verir. Culfa rayonunu gəzdikcə belə dövlət qayğısının genişmiqyaslı, çoxsaylı faktları ilə qarşılaşırsan.

Culfa rayon mərkəzində ucaldılan şahmat məktəbi, digər inzibati binalar, rayon üzrə elektrik enerjisini nizamlayan yeni yarımstansiya, yeni qaz paylayıcı şəbəkə, 350 hektarlıq xam torpağı suvarma suyu ilə təmin edən, bar-bəhərli zəmilərə həyat verən yeni nasos stansiyası. Azərbaycan Silahlı Qüvvələri Culfa Rayon «N» saylı hərbi hissəsinin yeni 600 yerlik yataqxanası. Bütün bu və digər çoxsaylı tikililər 2005-ci ilin tarixə dönən faktlarıdır.

Culfanın ötənilki uğurlarından biri də Darıdağ Arsenli Su Müalicəxanasının istifadəyə verilməsidir. Fransadakı Labulvu, İtaliyadakı Lebi

Po sularından daha keyfiyyətli olan Darıdağ müalicəxanası revmotik və sinir sistemi xəstəliklərində misilsiz təsir göstərir.

* * *

Muxtar Respublikada ötən il 4 yeni körpü tikilərək, 3 körpü əsaslı təmir olunaraq istifadəyə verilmiş, eyni zamanda 100 km-ə yaxın şəhər, kənddaxili və magistral yollara yeni asfalt salınmışdır. Onlarla kəndə içməli su xətləri çəkilmiş, çoxsaylı nasos stansiyaları tikilmiş, subartezian quyuları qazılmış, kəhrizlər bərpa edilmişdir. Bunlar bircə ildə həyata keçirilən çox böyük əməli tədbirlərin, praktik işlərin kiçik bir hissəsidir. Bunlar Muxtar Respublikada əhaliyə, bütün vətəndaşlara həqiqi, daimi dövlət qayğısından xəbər verir.

Naxçıvanın Kəngərli rayonu panoram olunur. Onun meyvə bağları, yeni tikililəri təqdim olunur.

MƏTN: – Naxçıvan Muxtar Respublikasının ən yeni rayonu Kəngərli. Yarandığı il bu rayonda 20 hektar sahədə badam bağı salınmışdısa, ötən il müxtəlif yeni meyvə bağlarının sahəsi 100 hektara çatdırılmışdır. Bu bütün Azərbaycan üzrə rekord göstəricidir.

Kəngərli kimi qədim, qüdrətli bir tayfadan ad alan bu rayonun öz yeni tarix yolunu 100 hektarlıq bərəkətli bağlarla başlaması hər bir vətəndaş, azərbaycanlı qəlbində qürur hissi

doğurur.

Bir müddət əvvəl «Naxçıvan. Azadlığın addımları» sənədli teleserialının ilk filmini çəkərkən gəlmişdik bu yerlərə. Onda ilk inzibati binaların bünövrəsi qoyulurdu Kəngərlidə. Aradan il yarım keçib. Artıq yeni binaları göz oxşayır bu yeni yurdun.

Kəngərlinin yeni rayon mərkəzilə yanaşı ucqar dağ kəndlərində də tikinti-quruculuq işləri uğurla davam etdirilir. Xıncab kəndində 2005-ci ildə tikilib istifadəyə verilən yüksək səviyyəli məktəb binası, Çalxanqala kəndində tək bir ildə 23 qaçqın ailəsinin yeni evlərlə təmin edilməsi, təzə nasos stansiyaları, kəhrizlər, parklar, tibb məntəqələri – bütün bunlar Kəngərli rayonunun qısa müddətdə qazandığı uğurlardır.

Kəngərlinin Şaxtaxtlı kəndində istifadəyə verilən yeni təhsil ocağı – akademik Zərifə Əliyeva adına məktəb yüksək səviyyəsi ilə seçilir. Bu məktəb H. Əliyev Fondunun Şaxtaxtlı kəndinə hədiyyəsidir. Məktəbi gəzdikcə ziyalı ömrünün, böyük alim zəkasının işığına düşürsən.

Ekranda akademik Z. Əliyeva adına məktəbin sinif otaqları, kitabxana panoram olunur. Ümummilli liderimiz və onun ömür-gün yoldaşı Z. Əliyevanın fotoşəkilləri, kitablar təqdim olunur.

MƏTN: – Naxçıvan Muxtar Respublikasının qeyrət qalası adlandırılan Sədərək. Ümummilli lider H. Əliyevin təşəbbüsilə bünövrəsi qoyulan, dahi rəhbərin adını – daşıyan Heydərabad qəsəbəsi –

Sədərəkin inzibati mərkəzi gündən günə, ildən ilə böyüyür, gözəlləşir, küçə-küçə, bina-bina addımlayır.

Sərhəddin lap yaxınlığında namərd, xəyanətkar düşmənlərin gözü qarşısında sürətli inkişaf edən bu təzə şəhər dosta sevinc, qürur mənbəyidir, düşmənə göz dağıdır.

Heydərabad qəsəbəsində 2005-ci ildə 20 yeni ev tikilərək qaçqın ailələrinin istifadəsinə verilib. Sədərək kəndində yeni xalça sexi, un məmulatları istehsalı müəssisəsi yaradılıb. İndi bu müəssisənin 2 çeşiddə məhsulları Sədərək rayonundan başqa Şərura, Naxçıvana da göndərilir, alıcıların razılığına səbəb olur.

Sədərək, Heydərabad ünvanlı məhsullara Muxtar Respublikanın bütün guşələrindən sifariş verilir. Sədərəkdə yeni-yeni istehsal müəssisələrinin yaradılacağı, daha çox iş yerlərinin açılacağı gün uzaqda deyil.

* * *

Bəli, Naxçıvan kəndləri bütöv sosial-iqtisadi tərəqqi yollarındadır. Muxtar Respublika əhalisinin 70%-dən çoxunun kənddə yaşaması, əmək qabiliyyətli əhalinin əksər hissəsinin kənd təsərrüfatında çalışması nəzərə alınaraq aqrar sahənin dinamik inkişafı daim diqqət mərkəzində saxlanılır.

Ötən il bu sahədə də ciddi uğurlar ili olmuşdur. İl ərzində çoxsaylı traktor və kombaynlar, kotan və kultivatorlar, ümumilikdə

13 adda 55 ədəd yeni texnika gətirilərək Muxtar Respublika mülkiyyətçilərinin istifadəsinə verilmişdir. Sahibkarlara güzəştli kreditlər verilməsinin, real kömək göstərilməsinin, daimi diqqət və qayğının nəticəsidir ki, kənd təsərrüfatının bütün sahələrində əhəmiyyətli uğurlar qazanılmışdır.

* * *

Zəngin təbiəti, rəngarəng faunası, Batabat kimi cənnətməkan guşələri ilə seçilən Şahbuz rayonu. Ümummilli liderimiz H. Əliyevin təşəbbüsü ilə bünövrəsi qoyulan, illər boyu sürətlə tikilən, 2005-ci ildə prezident İ. Əliyevin iştirakı ilə istifadəyə verilən nəhəng su anbarı bu rayonda yerləşir. 100 milyon kub metr su tutumu olan ana kanal, eləcə də sağ sahil və sol sahil kanallar şəbəkəsində 10 min hektarlarla sahəni su ilə təmin edəcək, yeni su elektrik stansiyasına həyat verəcək, Muxtar Respublikanın ekoloji mühitində çox müsbət rol oynayacaq bu misilsiz təbiət abidəsi dahi H. Əliyevin çoxsaylı böyük əsərlərindən biridir, onun Naxçıvana əbədi töhfəsidir. İllər, əsrlər keçəcək H. Əliyev su anbarı vətənimizə, xalqımıza xidmət edəcək, susuz torpaqlara bərəkət, həyat enerjisi, qaranlıq evlərə işıq, nur, ekoloji tarazlığı pozulan təbiətə şəfa verəcək.

* * *

Şahbuz rayonunun hər bir guşəsində sosial-iqtisadi inkişafın addım səsləri eşidilir. Ötən il xeyli inzibati bina tikilərək istifadəyə verilib. İstər kəndlərdə, istərsə də rayon mərkəzində ucaldılan orijinal memarlığı, səliqə-sahmanı ilə seçilən bu binalar Şahbuzun yeni dövründən, sistemli quruculuq, abadlıq işlərindən söz açır. Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin, Uşaq kitabxanasının, şahmat məktəbinin təzə binaları rayon mərkəzinə xüsusi gözəllik verir.

Dahi öndərimiz, ümummilli liderimiz H. Əliyevin abidəsi görünür. Onun söylədiyi: «Bizim bir vətənimiz var: Azərbaycan!» sözləri yazılır.

MƏTN: – Salvartı zirvəsinin yaxınlığında dəniz səviyyəsindən 2160 m yüksəklikdə yerləşən Gülür kəndinin yeni məktəb binası keçən il istifadəyə verilib. İndi bu ucqar dağ kəndində tibb məntəqəsi, kitabxana, digər yeni sosial-mədəniyyət obyektləri də fəaliyyət göstərir. 2005-ci ildə bu sərhəd kəndində 5, ümumilikdə isə 20 ev tikilərək, müəyyən avadanlıqla təmin edilərək tam təmənnasız olaraq qaçqın ailələrinin ixtiyarına verilmişdir. 8 km məsafədən kəndə içməli su xətti, 6200 m məsafədən isə suvarma suyu çəkilib. Beləliklə, əsrlərlə əziyyət çəkən ucqar dağ kəndinin bütün problemləri əsasən həll edilib. Bu dövlət qayğısını Şahbuzun, eləcə də Naxçıvan Muxtar Respublikasının bütün kəndlərində, qəsəbələrində görmək mümkündür. Hər addımda rast gəlinən yeni nasos

stansiyalarının nəticəsidir ki, bu bölgədə az qala dağlarda da yeni bağlar, yaşıllıqlar salınır. Bərəkətli zəmilər, bağlar, bostanlar göz oxşayır, ulların müdrik sözünü yada salır: «Torpağı qorumursansa, əkib becərməyə dəyməz. Əkib becərmirsənsə, qorumağa dəyməz».

Son dövrlərdə arıçılıq da özünü perspektivli sahə kimi göstərmişdir. Araçılığın inkişafı üçün Muxtar Respublikada hər cür şərait vardır. 2005-ci ildə 2004-cü illə müqayisədə arı ailələrinin sayı 2800 ailə artaraq 20.551-ə çatmışdır. Təkcə 2004-cü ildə Şahbuz rayonunun 5 dağ kəndində yaşayan fermer təsərrüfatlarına 373, 2005-ci ildə isə daha 5 kənddə 85 mülkiyyətçiyə 470 arı ailəsi verilmişdir. Əldə olunmuş nəticələr bu sahənin gələcəkdə daha intensiv inkişaf etməsi üçün geniş imkanlar açır. 2005-ci ildə Muxtar Respublikada 297,4 ton bal istehsal edilmişdir.

Yaşıl çəmənlər panoram olunur. Arıçılıqla məşğul olan insanlar, onların maraqlı, qeyri-adi sənəti incəliklə təqdim edilir.

MƏTN: – Tarixin dönə-dönə təkrarlanan, təsdiq və etiraf olunan ibrətli bir həqiqəti var. Böyük ataların yolunu böyük oğullar davam və inkişaf etdirirlər. Azərbaycan tarixində bütöv bir yüksəliş mərhələsi yaradan, dahiyanə xilaskarlıq missiyasını şərəflə həyata keçirən ümummilli lider H. Əliyevin başladığı böyük işləri, əbədiyaşar ideyaları bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ləyaqətlə davam və inkişaf etdirir, əməli

şəkildə həyata keçirir. Prezident seçkilərindən ötən illər öz böyük, hərtərəfli uğurları, ümumxalq inamı ilə bunu dönə-dönə təsdiq edir.

Naxçıvan Muxtar Respublikasının son uğurlarını əks etdirən kadrlar bir-birini əvəz edir. Ad («Naxçıvan. Azadlığın addımlan») irəli gələrək ekranı bütövlüklə uğurların «ixtiyarına» verir.

Muxtar Respublikanın sosial-iqtisadi, kənd təsərrüfatı, təhsil, səhiyyə, idman və s. sahələrini əhatə edən uğurlar bobsleyi təqdim olunur.

SON

2006

TÜRK FATEHLƏRİ
ƏMİR TEYMUR VƏ İLDIRIM BƏYAZİT

Süvari dəstələri. Nizami ordu. Döyüş səhnələri. Mavi irmaqlar Yaşıl vadilər. At ilxıları. Möhtəşəm türk şəhərləri. Ticarət karvanları. Hökmdar saraylarındakı təntənəli ziyafətlər. Avropa elçiləri.

Bütün bu kadrlar ney musiqisinin sədaları altında ekranda bir-birini əvəzləyir. Sonra filmin titri yazılır.

ÇUBUQ AĞRISI

10-15 saniyədən sonra titr yığılır. Kadr arxası mətn səsləndirilir.

MƏTN: – XIV əsrin ortaları. Şərqdə elmin, mədəniyyətin çiçəkləndiyi dövr ticarət geniş vüsət alır, qədim İpək yolu dəvə karvanlarıyla aşıb-daşırdı. Sakit okean sahillərindən Avropanın göbəyinə kimi uzanan on minlərlə kilometr ərazilərdə türk dili, türk qanunları hökm sürür, yeni-yeni şəhərlər salınır, elmin, ədəbiyyatın nadir inciləri dünyaya göz açırdı. Dünya iki qüdrətli türk dövlətinin – şərqdə, Mavərinnələrdə Teymurun, bir az qərbdə – Anadoludakı Osmanlı imperiyasının qanadları altında yaşamaqdaydı. Demək olar ki, bütün Avropa Osmanlıların, Orta və Yaxın Şərq isə Teymurilərin nüfuz

dairəsindəydi. Təbii ki, Avrasiya məkanındakı bu bölgüylə razılaşmayan qərb dünyası çıxış yolları axtararaq türk təsirindən qurtarmağa çalışırdı.

Kadr dəyişir. Filologiya elmləri doktoru, professor Nizami Xudiyevin çıxışı efirə verilir.

NİZAMİ XUDİYEV: – Dünyanı lərzəyə gətirən qədim türklərin cahanşümül qələbələrindən və tarixdə yaratdıqları dövlətlərdən öncəki filmlərimizdə sizlərə söhbət açmışıq. Bu dövlətlərin tarixdə oynadığı rol və dünya sivilizasiyasına gətirdikləri yeniliklər barədə də yetərincə örnəklər vermişik. Bu gün sizlərə təqdim etdiyimiz bu film XIV əsrdə dünya tarixində mühüm rol oynamış iki türk imperatorunun fitnə-fəsada uyaraq törətdikləri qardaş qırğınından bəhs edir. Əlbəttə, tarixin müəyyən çağlarında türklərin bir-biriylə mübarizə apardıqları zamanlar da olub. Lakin az qala dünyanın hakimi olan iki türk imperiyasının qarşı-qarşıya gəlməsini tarix ilk dəfəydi ki, görürdü. Həmin dövrün tarixi mənzərəsinə nəzər salaq: şərqdə Çingiz xanın qurduğu imperiyanın çökmüş divarları arasından yeni bir imperiyanın baş qaldırması və 1369-cu ildən sonra bu dövlətə Əmir Teymurun başçılıq etməsi tarix səhnəsində yeni bir türk cahangirinin parlamasından xəbər verirdi. Qızıl Orda xanlığının çəkingən siyasəti, gözləmə mövqeyi Əmir Teymurun işinə yarayırdı. Monqol imperiyasının süqutundan sonra Şimali Çində, Dehlidə, Monqolustan və Əfqanıstanda baş qaldıran yerli feodallarla mübarizə aparmaq

və onları vahid imperiya halında birləşdirmək üçün gözəl, əlverişli imkan yaranmışdı. Teymur da bu imkandan məharətlə istifadə edərək şərqdəki qədim türk torpaqlarını öz imperiyasının qanadları altında birləşdirdi. Sonra da Xəzər dənizinin quzeyindən tutmuş Azərbaycan, İran, İraq torpaqlarını ələ keçirməyə başladı və beləliklə, Çindən Avropaya qədər olan ticarət yoluna da sahib oldu. Bu zamanlar digər türk imperatorluğu – Osmanlılar da bütün Anadoluya hakim olmaqla yanaşı Balkanlarda yeni-yeni zəfərlər qazanırdılar. Trakiyada, Serbistanda, Kosovada sultan Muradın qoşunları inanılmaz qələbələr qazanır, Bizans imperiyasının alınmaz qalaları bir-bir türk qılıncı qarşısında təslim olurdu. Osmanlı taxtına çıxan Murat 41 yaşındaydı. Təqribən Əmir Teymurla eyni yaşda dövlətin başına gəlmişdi. Və gələn gündən də atasının yolunu davam etdirərək Balkanlarda, Apenin yarımadasında uğurlu müharibələr aparırdı. Xaincəsinə öldürüldükdən sonra taxta çıxan Bəyazit də 1389-1390-cı illər arasında Anadoluda və Balkanlarda qazandığı ildırım sürətli qələbələri ilə İldırım ləqəbini aldı və tarixə İldırım Bəyazit kimi daxil oldu. Təəssüf ki, qazandığı qələbələrdən məst olan Bəyazit şərab və qadın düşkünlüyünə mübtəla oldu. Sultanın bu məziyyətlərini yaxşı dəyərləndirən düşmənlər onun hərəmxanasını serb gözəlləri ilə doldurdu. tkinci tədbir kimi onun Avropa səfərlərinin qarşısını almaq lazım idi. Bu da bir şərtlə baş tuta bilərdi; dövrün iki güclü türk imperatorunu qarşı-

qarşıya qoymaqla İldırım Bəyazitlə Əmir Teymurun arasını vurmaq, onları qarşı-qarşıya gətirmək üçün Vatikan və bütün qərb dünyası dəridən-qabıqdan çıxırdı. Beləliklə, Osmanlı imperatoru İldırım Bəyazitin səbatsızlığı, lovğalığı, ağı qaradan, həqiqəti yalandan seçə bilməməsi və Əmir Teymurun da qəzəbini, kinini uda bilməməsi iki qüdrətli türk imperatorluğu arasındakı münasibətləri gərginləşdirdi. Beləliklə, onlar çubuq fəlakətinin bir addımlığına gəlib çıxdı. Bu həmin fəlakət olacaq ki, türk dünyasını inkişafdan 100 il geri atacaq. Balkanlarda, Avropada türk nüfuzunu sarsıdacaq.

Hələlik isə bu iki imperiyanın fəlakətə doğru gəldikləri yola nəzər salaq.

Kadr dəyişir. Kadr arxası mətn oxunur.

MƏTN: – Tarixə Çubuq meydan müharibəsi kimi daxil olan və hər iki tərəfin böyük itkilər verdiyi savaşın iki səbəbkarı var. Sultan İldırım Bəyazit və Əmir Teymur türk dünyasının, türk hərb tarixinin iki böyük oğlu olan bu imperatorlar şəxsi istəklərini idarə etdikləri dövlətin mənafeyindən üstün tutaraq qardaş qırğınına rəvac verdilər. Onları bu hala gətirən Çubuq fəlakətinin zəminində nələr və kimlər dayanırdı? Bu savaşın qarşısı alma bilərdimi? Bu suallara cavab vermək üçün Teymurilər və Osmanlıların o dövrdəki tarixi mövqeyinə nəzər salaq. Öncə Teymur və onun yaratdığı imperatorluq barədə.

Kadr dəyişir. Mətnə uyğun təsvirlər ekrana gəlir. Kadr arxası mətn oxunur.

MƏTN: – 1336-cı il 8 apreldə Türküstanın Keş şəhərində dünyaya gələn Teymur Barlas boyundan olan Turqayla Təkinə xatunun oğludur. O, Elxanilər dövlətinin və ona tabe olan Cığatay xanlığının intriqalara sarsıldığı dövrdə yenilməz bir güc kimi meydana çıxdı. O zaman görkəmli şərq tarixçiləri bu qarışıqlığa yəhudi tacirlərinin və bütün Orta Şərqə dolan missionerlərin əsas səbəb olduqlarını bildirirlər. Onlar cəsuslar kimi şəhərbəşəhər dolaşır, türk hökmdarları arasına nifaq toxumu səpirdilər. Bunu yaxşı bilən Teymur fəth etdiyi ərazilərdə, o cümlədən də Hindistanda onların fəaliyyətinə son qoymağı bacardı.

Cəsurluğu, iti ağlı və hərbi biliyi ilə Teymur hər fürsətdən istifadə edərək qısa zamanda Cahangirlik mərtəbəsinə yüksələ bildi. 35 ildən yuxarı bir müddətdə 17 hərbi səfər edən və hamısında da qələbəylə geri dönən Teymur 27 ölkəni özünə tabe edə bilmişdi.

1370-ci ildə Bəlxdə toplanan qurultay Teymura, «Qütübəddin» və «Sahib Qıran» adı verməklə onu Mavərinnələrin mütləq hakimi etdi. Yeni hökmdar paytaxtı Bəlxdən Səmərqəndə köçürüldü. Təqribən 30 il müddətinə – yəni sultan Bəyazitlə apardığı Çubuq müharibəsinə qədər olan dövrü Teymurun saray tarixçisi onun dilindən belə nəql edir: «Əvəzsiz bahadırlar sayəsində çox yerlər fəth etdim və 27 ölkənin xaqanı oldum». Sonra da işğal etdiyi ölkələri

sayır: Turan, İran, Rum, Məğrib, Suriya, Misir, İraqi-ərəb, İraqi-əcəm, Mazandaran, Gilan, Kabilistan, Baxtər, Zəmin, Hindistan və s.

Göründüyü kimi, böyük sərkərdə, dünya fatehi artıq Şərqdə və Orta Doğuda qarşısına çıxacaq bir düşmən qüvvəsi saxlamamışdı. Bununla belə o, yenə də Anadoluya getməyi planlaşdırmırdı. Qızıl Orda xanı Toxtamışı məğlub etdikdən sonra onun Avropaya doğru yolunu kəsə biləcək ciddi bir qüvvə qalmamışdı. Bunu yaxşı görən düşmənlər 1390-cı ildən başlayaraq cəsusları vasitəsilə Bursa sarayına və Səmərqəndə düşmənçilik toxumu səpə biləcək yalan məlumatlar göndərməyə başladılar və iki cahangiri qarşı-qarşıya gətirmək üçün dəridən-qabıqdan çıxdılar.

Bəs bu zaman Osmanlı sarayında vəziyyət necəydi? Osmanlıları Çubuq fəlakətinə sürükləyən səbəblər hansılar idi?

Anadoluda türk dövləti yaradan Osman və onun davamçıları qısa bir müddətdə bu dövləti imperatorluq halına gətirə bildilər. İldırım Bəyazitin atası sultan Murad zamanında demək olar ki, iç Anadolu tamamilə Osmanlıların əlinə keçmişdi. Yenicə yaradılan yeniçəri qoşun dəstəsi öz döyüş qabiliyyətinə görə o zamankı ordularından qat-qat üstün idi. Yeri gəlmişkən qeyd edək ki, bu yeni qoşun növünün adını şərqin ən böyük dini cərəyanlarından olan Bektaşilik təriqətinin banisi Hacı Bektaşi vermişdi. 1365-ci ildə yeniçərilər Asiyada Batayı, Avropada Zağara və Gümülçinəni işğal etdi. Bizans imperatoru

Andronikos Bolqarıstan kralına qarşı Muraddan kömək istəyəndə sultan Lala Şahin paşanı Avropaya göndərdi. Və tezliklə türk ordusu Bolqar kralının güclərini darmadağın etdi. 1381-ci ildə Anadolu bəylərini Sultan Murad mərkəzi hakimiyyətə tabe edərək Asiya qitəsindəki işlərini tamamlayıb bir il sonra Avropaya üz tutdu. Gelibolu yarımadasından keçən qoşunlar ciddi müqavimətə rast gəlsə də Albaniyaya qədər olan ərazilər Osmanlıların əlinə keçdi. Vəziyyəti belə görən Balkan hökmdarları Murada qarşı bir ittifaq yaratdılar. Birləşmiş ordunun komandanlığı Serb kralı Lazara həvalə edildi. İki ordu Kosovada üz-üzə gəldi. Tarixə Kosova meydan müharibəsi kimi daxil olan bu döyüşün taleyi son dəqiqələrdə həll edildi. Çətin keçən döyüş Osmanlıların qələbəsi ilə başa çatdı. Rəvayətə görə sultan Murad vəziriylə bərabər döyüş meydanını dolaşarkən düşmən tərəfindən çox sayda gəncin həlak olduğunu görür və ona deyir: «Məni daha çox çaşdıran şey işin xeyrimizə bu cür həll olunmasıdır. Çünki keçən gecə yuxuda bir düşmən əsgəri tərəfindən vurulduğumu görmüşdüm». Bu sözləri eşidən yaralı bir serb əsgəri qəflətən ayağa qalxaraq xəncəri sultanın qarnına soxur. Təbii ki, sui-qəsdçi yerindəcə tikə-tikə doğranır. Amma sultan Murad da aldığı yaradan sağ qalmayaraq iki saat sonra ölür. Dərhal divan toplanaraq Muradın böyük oğlu Bəyaziti padşah elan edir.

İldırım Bəyazit 1389-1390-cı illər arasında Avro paya səfər edir. Əvvəlcə işləri çox yaxşı

gedirdi. Qoşunları Dunayın sol sahillərinə qədər gedib çıxır. Dalbadal qələbələrdən məst olan qoşun qarətlərə başlayır, hərbi hissələri özbaşına tərk edərək vaxtlarını əyləncəyə sərf edir. Bu vəziyyəti dəyərləndirən düşmən qüvvələrini toplayaraq İldırım Bəyaziti Ədirnəye qədər geri çəkilməyə məcbur edir.

Bəyazitin bu məğlubiyyət xəbərini eşidən Karamanoğlu Osmanlılara meydan oxumaq zamanının gəldiyini düşünərək ordusunun başında Kütaya hücum edir. Bu xəbəri alan İldırım Bəyazit Ədimədə heç kimin təsəvvür edə bilməyəcəyi bir sürətlə güclü ordu yaradaraq Karamanoğlunun xəbəri olmadan belə qəfildən onu yaxalayır. Vəziyyəti belə görən Karamanoğlu oğullarıyla bərabər qaçmağa çalışsa da, Bəyazitin adamları tərəfindən yaxalanır və edam edilir. Elə həmin il Dunay çayı üzərindəki Niğbol, Silistrə və Ruscuku, Anadoluda isə Amasiya, Toqat, Niskar, Samsun və Çaniki sultan Burhanəddinin əlindən alınır.

* * *

Sonradan yenə də Avropaya dönən sultan 1395-ci ildə Macarıstan kralının birləşmiş ordularını darmadağın etdi. Bizans imperatoru sultana xərac ödəməyə məcbur oldu. Lakin bu məğlubiyyətlə barışmayan Avropa liderləri Kral Sigizmundun rəhbərliyi ilə yeni birləşmiş ordu yaratdılar. Dunaya doğru hərəkət etdilər. Bəyazit də öz qoşunlarının başında çayın sağ sahilində

düşməni gözləməyə başladı. Ağır və qanlı keçən döyüş İldırım Bəyazitin tam və parlaq qələbəsi ilə başa çatdı. 25 iyul 1396-cı ildə Niqbolu meşəsində baş verən bu döyüş səlibçilərin sayca dördüncü yürüşü idi. Bəyazit bu döyüşdə 130 minlik ordunu 100 minlik əsgəri il darmadağın etdi, Serb kralı Stefanın bacısı Dəspinə ilə evləndi. Qısa müddət ərzində qazandığı qələbələr onun başını gicəlləndirdi. Sultan qüruruna qapanaraq gününü sərxoşluqla keçirirdi. Özündən başqa ikinci bir türk sultanı ola biləcəyi fikrini yaxına belə buraxmırdı. Bu işdə saray işlərini əlinə alan arvadı Dəspinə də az rol oynamırdı.

Əmir Teymurun Şərqi və Mərkəzi Asiyada qazandığı qələbələr onu narahat edirdi. Bu iki türk sərkərdəsi, dövlət xadimi müttəfiq olmaq əvəzinə bir-biriylə rəqabət aparırdı. ildırım Bəyazit Teymurun dostluq və əməkdaşlıq üçün yazdığı məktublara sərt, kinli, qərəzli cavablar göndərirdi.

Tarix iki türk cahangirinin üz-üzə gəlmə səhnəsini hazırlayırdı.

Kadr dəyişir. Professor Nizami Xudiyevin çıxışı efirə verilir.

NİZAMİ XUDİYEV: – Hadisələrin gedişindən göründüyü kimi, Osmanlı sultanı İldırım Bəyazit qısa müddət ərzində qazandığı parlaq qələbələrdən sonra dincini almaq üçün saraya çəkilərək bütün vaxtını əyləncələrə sərf edirdi. Qasidlər Əmir Teymur ordularının imperiyanın sərhədlərinə doğru hərəkətini sultana çatdırsalar

da o, bunu ciddi qəbul etmirdi. Bir tərəfdən də Papanın və Avropa liderlərinin, xüsusən də serb sarayının göndərdiyi cəsuslar Bəyazitin sayıqlığını əlindən alır, Teymurun zəif, gücsüz sultanın qarşısında davam gətirə biləcək bir gücə malik olmadığını söyləyirdilər. Serb sarayının bütün planlarını cani-dildən həyata keçirən Dəspinə xatun İldırım Bəyazitdə təkcə Əmir Teymura qarşı deyil, sultanın yaxın və sadiq adamlarına qarşı da kin və nifrət yaradırdı. Bunun nəticəsiydi ki, Əmir Teymura qarşı çıxmamağı, əksinə ona dost münasibəti göstərməyi təklif edən bir çox dövlət adamının boynu vurulmuşdu. Teymurun dəfələrlə bu lazımsız savaşdan, təhqirlərdən əl çəkmək xahişləri Bəyazit tərəfdən rədd edilmişdi.

Bizans tarixçisi Duqasa görə Əmir Teymurun Osmanlıya yürüşünün əsas səbəbi İldırım Bəyazitin ona qarşı göstərdiyi hörmətsizlik deyil, sultanın türk bəylərinə etdiyi zülm idi. Teymur Bəyazitin səlibçilərlə apardığı müharibələrdə qazandığı qələbələri tərifləyiyi halda müsəlmanlara qarşı göstərdiyi ədalətsizliyi pisləyirdi. Duqasın bu fikirlərini demək olar ki, bütün Batı tarixçiləri də təkrar edir. Türk tarixçilərinə görə Əhməd Çələyiri Misir sultanına qarşı mübarizədə Bəyazitə sığınmış, sultan da bundan istifadə edərək Elbistan, Malatiya, Divçigi və Nebbiyi Misir sultanının əlindən almışdı. Eyni zamanda Ərzincan şahzadəsi Tahrin bəyi məğlub edərək onun xərac verməsiylə kifayətlənməyib, arvadı və iki oğlunu da girov kimi Bursa sarayına

gətirmişdi. Tahrin bəy də Əmir Teymura sığınaraq sultana qarşı ondan yardım istəmişdi.

Bəzi tarixçilər isə Bəyazitin Tahrin bəyin qadınına aşiq olduğu üçün onu saraya gətirdiyini qeyd edirdi. Tarixçi şərafəddin Əliyə görə isə müharibənin birbaşa səbəbi Bəyazitin Tahrin bəyə qarşı haqsızlığı, Əmir Teymurun elçilərinə göstərdiyi hörmətsizlik idi.

Əmir Teymurun elçiləri saraydan biabırcasına qovulanda Teymurun özü Gürcüstanda idi. Sultanın bu hərəkətlərinə artıq dözməyən Əmir qoşunlarını Anadoluya doğru yeritməyə başladı və hicri tarixiylə 803-cü ilin məhərrəm ayının 1-də Anadoluya ayaq basdı. Sivasa doğru irəlilədi, Kirişçi ləqəbiylə tanınan Mehmət Çələbinin qoşunlarını təqib etdi. Tezliklə onun ordusunu qılıncdan keçirərək Sivası mühasirəyə aldı. Qala qapıları şiddətli zərbələrə dözməyərək uçub-dağıldı. Şəhər əhalisi Teymurun qəzəbindən qorxaraq şəhərin əmiri Mustafa bəyi Teymura təslim etdilər. Əmir Teymur bütün qala divarlarını yerlə-yeksan etdirdi. Beləliklə, hər iki tərəf addım-addım Çubuğa doğru yaxınlaşmaqda davam edirdi.

Kadr dəyişir. Kadr arxası mətn oxunur.

MƏTN: – Sivasın işğalından sonra çoxları Teymurun Bursa üzərinə yürüş edəcəyini düşünürdü. Lakin belə olmadı. Əmir qoşunlarına Suriyaya doğru hərəkət etməyi tapşırdı. Bununla da o, Bəyazitə barışıq üçün daha bir şans verdi. Özü isə Misir

sultanına sığınaraq onunla mübarizə aparan Əhməd Cəlayir və Qara Yusifi ələ keçirmək üçün qeyd etdiyimiz kimi Suriyaya doğru gedərək bu torpaqları ələ keçirdi.

Əmir Teymur Suriyada olarkən Bəyazit Əhməd Cəlayir və Qara Yusifin təhriki ilə Ərzincan üzərinə yeridi və bu şəhəri ələ keçirdi. Ərzincan hökmdarının arvadlarıyla uşaqlarını Bursaya göndərdi. Bu xəbər Teymura çatan kimi o, Şahrux Mirzənin başçılığı ilə ordu hissəsini Osmanlılara qarşı göndərdi. Şahrux Mirzənin Osmanlıya doğru yol aldığını eşidən sultanın elçiləri Bəyazitin barışıq haqqındakı məktubunu Teymura çatdırmağa tələsdilər. Eyni zamanda Ərzincan hakiminin ailəsini sərbəst buraxaraq Tahartendən də onunla Teymur arasında vasitəçi olmasını xahiş etdi. Əmir Teymur onsuz da Anadoluya könülsüz getmişdi. Odur ki, Şahrux Mirzəni geri çağırdı. Sultanın elçilərinə isə iki şeyi Bəyazitə çatdırmalarını söylədi.

Birincisi, illərdən bəri onun hakimiyyəti altında olan Ketah qalasının ona qaytarılmasını, ikincisi, Qaraqoyunlu əmiri Qara Yusifin ya öldürülməsini, ya təslim edilməsini, ya da ölkədən qovulmasını. Bundan əlavə Teymur Bəyazitin düşmənlərinə qarşı mübarizəsinə hər cür dəstək verəcəyini də vəd etdi. Eyni zamanda öz elçisini də Bəyazitin elçiləriylə bərabər sultanın hüzuruna göndərdi. Daha sonra hər on beş gündən bir Bəyazitin sarayına yeni elçilər gəlməkdə davam edirdi. Lakin aradan iki ay keçməsinə baxmayaraq, elçilərdən bir xəbər çıxmayınca

Anadoluya doğru yol aldı. Yolüstü Bəyazitdən istədiyi Kəmah qalasını ələ keçirərək komandanlığı Tahartenə tapşırdı. Sivas civarlarında göndərdiyi elçilərdən biri Bəyazitin təhqirlə dolu cavabını ona gətirdi. Teymur yenə də səbrini basaraq Bəyazitə son məktubunu göndərdi. Bu məktubda o, Osmanlı qüvvələrinin xeyli hissəsinin kafirlərlə mübarizə apardığı üçün Bəyazitə hücum etməyəcəyini, əvəzində isə şahzadə Tahartenin adamlarını buraxmağı və oğullarından birini onun sarayına göndərilməsini təklif etdi. Lakin bu şərtləri qəbul etməyən Bəyazit ordusunun başında Toqata gəldi.

Bu xəbəri eşidən Teymur birbaşa yolun qalın meşəlikdən keçməsini nəzərə alaraq Kayseri yoluna döndü və Ankara üzərinə yeridi. Bəyazitin də orduları hərəkətə gələrək demək olar ki, eyni zamanda Ankaraya yetişdi. Teymur Ankara qalasının mühasirəsini dayandıraraq Osmanlıların su mənbələrini ələ keçirməklə ordunu susuz buraxdı. Belə olan şəraitdə Bəyazitin ordusu Ankaranın 45-50 kilometrliyindəki Çubuq bölgəsinə çəkildi. Teymur da onu izləyərək qarşı-qarşıya mövqe tutdu.

Türk dünyasını uzun müddət inkişafdan qoyan Çubuq döyüşü ərəfəsində rəqiblərin döyüş taktikasına nəzər salaq. Öncə Teymurun taktikası barədə. Şərq aləmində islamın ən böyük bilicilərindən olan Əmir Teymur bütün gecəni ibadətlə keçirdikdən sonra sabah erkəndən qüvvələrini üç yerə böldü. Hər birliyə oğullarından birini komandan təyin edən Teymur

yardım üçün onlara ən təcrübəli sərkərdələrini verdi. Qoşunun sol qanadına Şahrux Mirzə və nəvəsi Xəlil Sultan rəhbərlik edirdi. Bu qanadın önündə Sultan Hüseyn bəy yer alırdı. Sağ qanad Miran şahın əmirindəydi və onun da ön qanadında Əbubəkr Mirzə mövqe tutmuşdu. Əsas cəbhədə isə o zamankı Asiyanın ən təcrübəli döyüşçüləri 80 minbaşının əmrində idi. Bu qüvvələrə də Məmməd Sultan Mirzə rəhbərlik edirdi. Pir Məmməd, Şeyx Ömər Mirzə, Mirzə İsgəndər və qardaşları da Sultan Məmmədə yardım edirdilər. Teymurun özü isə 40 birlikdən ibarət olan ehtiyat ordunun başındaydı. Bu ordunun ,ön cərgələrində Hindistan səfəri zamanı ələ keçirilmiş döyüş filləri dayanmışdı ki, onların belindəki qəfəsdə də oxçular yerləşdirilmişdi.

Bəyazit də ordusunun lazımi səviyyədə müharibəyə girməsi üçün bir sıra tədbirlər gördü. O, ordusunun sağ cinahını Dəspinə xatunun qardaşı – qaynı Pasir Lausun komandanlığına verdi. Onun əmrində Avropadan gətirilmiş və döyüş üçün yetişdirilmiş 20 min zirehli at varıydı. Bu atların təkcə gözləri görünürdü. Qalan yerləri ox batmayan zirehlə örtülmüşdü.

Anadolu birliklərindən ibarət olan sol cinah Bəyazitin oğlu müsəlman Çələbinin ixtiyarındaydı. Bəyazitin özü isə döyüşə girəcək qüvvələrin başında dayanmışdı. Ona üç oğlu İsa, Musa və Mustafa yardım edirdi. Kirişçi ləqəbiylə tanınan və sultanın beş oğlu içərisində ən bacarıqlısı olan Mehmət Çələbi isə ehtiyat qüvvələrə komandan təyin edilmişdi. Onun

əmrində 6 paşa (6 general) və çox sayda piyada qüvvələr varıydı.

1402-ci ilin bir sabahı bütün qərb dünyasının səbirsizliklə gözlədiyi döyüş baş tutdu. Teymurun qoşunları ətraf təpələri tutaraq özlərinə mövqe qurdular. Teymur öncə atından düşüb namazını qıldı. Sonra da təkrar atına minərək qoşuna rəhbərlik etməyə başladı. Osmanlılar isə cərgəni pozmadan, düzənli bir şəkildə savaş borularının, təbillərin, gərənayların sədası altında böyük bir coşğuyla irəliləyirdi. Teymurun sağ cinah ordusunun başında duran Əbubəkr Mirzə Bəyazitin böyük oğlu müsəlman Çələbinin (ona Süleyman Çələbi də deyirdilər) komandasındakı Osmanlı ordusunun sol qanadını ox yağışına tutdu. Süleyman Çələbi cəsurca döyüşsə də Əmirin qoşunları qarşısında tab gətirməyərək geri çəkilmək məcburiyyətində qaldı. Sərkərdə sultan Hüseyn isə Bəyazit ordusunun sağ cinahına hücum edərək onları pərən-pərən salaraq çoxlarını qılıncdan keçirdi. Döyüşü diqqətlə izləyən Teymur Sultan Hüseynin çox irəli getdiyini görərək sultan Məmmədi onun köməyinə göndərdi. O da dördnala çaparaq Osmanlı ordusunun içərisinə soxularaq, onların nizamını pozdu. Avropadan gələn əsgərlər cəsarətlə döyüşürdü. Bir neçə dəfə nizamlı şəkildə Teymur ordularının üzərinə yerisələr də geri oturdulurdular. Növbəti cəhddə isə Bəyazitin qaynı Pasir Laus öldürüldü və Osmanlıların sağ qanadı tamamilə dağıdıldı. Pir Məhəmməd, Ömər Mirzə və İsgəndər Mirzənin birlikləri

Osmanlıların təpələrdə mövqe tutmuş əsgərlərini geri çəkilməyə məcbur edə bildilər. Teymur düşmən qüvvələrinin geri çəkildiyini görər-görməz bütün qüvvələri hücuma qoşdu. Türk ordusuna elə bir zərbə vuruldu ki, hücumdan çox az adam canını salamat qurtara bildi.

Qüvvələrinin azaldığını görən Bəyazit öz dəstəsilə sultan Məhəmmədin qərar tutduğu təpələrə hücum etdi və Məhəmmədin birliklərini təpədən vurub çıxardı. Lakin Teymur bunu gözlədiyi üçün oğlu Şahrux Mirzəni ora göndərdi. Osmanlılar qaçmağa başladılar. Amma Teymurun qüvvələri mühasirə halqasını yavaş-yavaş daraldırdı. Ədalət naminə demək lazımdır ki, Osmanlı sultanı bütün gün boyu qəhrəmancasına döyüşdü. Bir an da olsun döyüş meydanından geri çəkilmədi. Amma gün batandan sonra döyüş xəttini yararaq qaçmağa çalışsa da buna nail ola bilmədi. Teymurun sərkərdəsi sultan Mahmud xan tərəfindən yaxalandı və gecə yarısı Teymurun hüzuruna gətirildi.

Əmir Teymur qalib gəlsə də sultanın bu halından çox pərişan oldu. Onun qollarını açmağa əmr etdi. Özünü isə çadırının önündə təntənəli şəkildə qarşıladı, yanında oturtdu. Bu fəlakətə onun özünün səbəbkar olduğunu incə bir dillə anlatdı. Bəyazit də qəbahətli olduğunu dilə gətirərək üzr istədi. Sultan Bəyazitə çox qiymətli bir xalat hədiyyə edən Teymur ona və ailəsinə yaxşı baxılacağını da vəd etdi.

Onunla böyük bir imperator kimi rəftar edildiyini görən Bəyazit müharibə zamanı

yanında olan oğlanları Musa ilə Mustafanın axtarılmasını xahiş etdi. Amma təkcə Mustafanı tapmaq mümkün oldu. Əmir Teymur Mustafaya atasının çadırı yanında bir çadır qurulmasını əmr etdi. Bəyazitin məğlubiyyətini eşidən Ankara valisi Yaqub şəhərin və qalanın açarlarını Teymura təslim etdi. Bundan sonra Teymurun qoşunları İç Anadoluya daraşaraq qənimət toplamağa başladılar. Salnamələrin yazdığına görə ən kasıb əsgər belə o qədər sərvət ələ keçirmişdi ki, hətta adlı-sanlı bəylərin belə o qədər sərvəti yox idi.

Sultan Məhəmməd də Bəyazitin xəzinələrini əldə etməkçün Bursaya yola düşdü. Amma bunu gözləyən Süleyman Çələbi onu qabaqlayaraq atasının xəzinəsini gizlədə bildi. Məhəmməd də əliboş dönməyərək Bəyazitin arvadlarından birini və Mustafanın nişanlısını əsir aldı. Qara Yusif isə canını qurtararaq Misirə qaça bildi. Amma Bursada daş üstündə daş qalmadı. İznik yağmalandı. Çanaqqala boğazına qədər olan ərazilər talan edildi. Bəyazitin oğullarından Süleyman Çələbinin ailəsi əsir alınsa da özü Avropaya qaçdı.

Əmir Teymur Bursa yaxınlığında bir ay qaldıqdan sonra Bəyazitin Serb əsilli arvadını, bu Lki türk oğlunun arasının vurulmasında önəmli rol oynayan Dəspinəni, qızını və bütün qulluqçularını sultana qaytardı. Amma bu qadının müsəlmanlığı qəbul etməsini şərt kimi irəli sürdü. 12 ildən bəri Bəyazitin tabeçiliyində olan Karaman oğlu Əmir Mehmət də Teymurun

hüzuruna gətirildi. Onu xoş üzlə qarşılayan Teymur Mehmətə bir xalat və kəmər hədiyyə etdi. Konya, Aksaray, Anzariya və başqa yerləri də onun idarəçiliyinə verdi.

Bir müddətdən sonra Tangözlükə gələn Teymur burda əyləncə məclisləri təşkil etdi, Bəyaziti də bu məclislərə dəvət edib onun əylənməsini, fikir çəkməməsini istədi. Hətta onun məğlubiyyətini dilə gətirməyərək əvvəlki kimi onu «Anadolu sultanı» deyə çağırdı. Başına qiymətli tac, əlinə isə hökmranlıq rəmzi olan əsa verdi.

Teymur bir elçi heyəti də İstanbula göndərərək Bizans imperatorundan xərac tələb etdi. Süleyman Çələbidən isə dərhal Teymurun sarayına gəlməsi, yaxud vergi ödəməsi istənildi.

Bir müddətdən sonra Bizans imperatorunun elçiləri Teymurun hüzuruna gələrək Bizansın ona xərac ödəyəcəyini bildirdilər. Süleyman Çələbinin də elçiləri eyni sözləri təkrar edərək Teymura minnətdarlıqlarını və şükranlarını bildirdilər. Süleyman Çələbi bir məktubla da Teymura atası Bəyazitə göstərdiyi hörmət üçün təşəkkürünü bildirdi.

Teymurun kəşfiyyatçıları dəniz sahillərində İzmir adlı bir qala şəhərinin olduğunu və bu şəhərdən birində müsəlmanlar, digərində isə xristianlar yaşamaqla iki istehkamın da mövcudluğunu xəbər verdilər. Öz dindaşlarına böyük rəğbət göstərən Teymur ikinci istehkamı mühasirəyə almağı əmr etdi. İki həftə sürən mühasirə qələbə ilə başa çatdı.

Onu da qeyd edək ki, bu qala istehkamı I Murad və elə Bəyazitin özü də almağa çalışsalar da buna müvəffəq ola bilməmişdilər. Çünki qala 3 tərəfdən su ilə əhatə olunmuşdu. Quru tərəfdən isə 2 metr uzunluğunda olan yonulmuş daşlardan hörülmüşdü. Teymurun qoşunları da qalanı dəniz tərəfdən almağa qərar verdilər. Qala müdafiəçilərinin hər cür qəhrəmanlığına baxmayaraq, iki həftə sonra təslim olmağa məcbur edildilər. Bundan sonra Ege bölgəsindəki bir çox qala-şəhərlər Teymura xərac verməyi qəbul etdi.

Bu arada Osmanlıların görkəmli saray şeyxi Şeyx Ramazan ikinci dəfə Süleyman Çələbi adından Teymurun hüzuruna gələrək şahzadənin hədiyyələrini və ona bağlılığını bir daha təsdiq edən məktubu gətirdi. Teymur da bu şahzadənin Tunis bəyliyini təsdiq etdi. Ona qızıl ulduzlu bir xalat, bir tac və bir qurşaq yolladı. Qısa bir zamandan sonra Bəyazitin oğlu İsa Çələbinin də bir elçisi Əmirin hüzuruna gəldi və onlar da eyni hörmətlə yola salındı.

İzmirdən ayrılmadan öncə Teymur müsəlman əhalini silahlandırdı. Dağıtdığı xristian qalasının yerində möhkəm bir istehkam divarlarının tikilməsini tapşırdı. Oradan yola çıxaraq sultan Hissara gəldi, ətraf bölgələrin idarəçiliyini Yakub Çələbiyə həvalə etdi. Oradan da Ağşəhərə doğru gedərkən yolda İldırım Bəyazit xəstələndi. 1403-cü ilin mart ayında beyninə qan sızması nəticəsində vəfat etdi. Onun ölümünə çox yanan Teymurun hətta hönkür-

hönkür ağladığı belə qeyd edilir.

Kadr dəyişir. Professor Nizami Xudiyevin çıxışı efirə verilir.

NİZAMİ XUDİYEV: – Əvvəlcə onu vurğulayaq ki, Əmir Teymur Anadolunu tamamilə fəth etdikdən sonra Bəyaziti yenidən sultanlıq taxtına oturtmaq fikrindəydi. Lakin onun qəfil ölümü Əmirin planlarını dəyişdi. O, əvvəlcə Bəyazitin bütün sərkərdələrini qiymətli hədiyyələrlə mükafatlandırdı. Sonra sultanın oğlu Musa Çələbini Bursaya yola salarkən başdan-başa qızıla tutulmuş bir xalat, bir qurşaq, bir qılınc, bir kisə qızıl və 40 at hədiyyə etdi. Bəyazitin cənazəsini təntənəli surətdə Bursaya göndərdi və sağlığında tikdirdiyi türbədə dəfn olunmasını tapşırdı.

Yeri gəlmişkən qeyd edək ki, Bəyazitin ölümü barədə günümüzə müxtəlif məlumatlar çatıb. Bəzi salnamələrdə sultanın düşdüyü vəziyyətə dözmədiyini və özünü öldürdüyünü qeyd edirlər. Həmin salnamələrə görə sultan Teymurun ona olan xoş münasibətindən və özünün ona qarşı törətdiyi əməllərdən utanaraq 1403-cü il martın 8-dən 9-na keçən gecə özünü öldürdüyü qeyd olunur.

Beləliklə, iki böyük türk hökmdarının qəzəbi nəticəsində onlardan biri öldü, digəri isə əməllərindən peşman olaraq öz ölkəsinə döndü.

Sultan Bəyazit 14 il 3 ay hakimiyyətdə qaldı. 58 il ömür sürən hökmdar çox fəal bir şəxsiyyət idi. O, tez qəzəblənsə də, dərhal da

qəzəbi soyuyar, ürəyi mərhəmətlə dolardı. Elmin, maarifin, sənətin inkişafına xüsusi qayğı göstərərdi. Onun sultanlığı dövründə məmləkət gözəl binalar, məscidlər və mədrəsələrlə süstlənmişdi. Eyni zamanda, dəniz savaşlarında iştirak edən ilk Osmanlı imperatoru da Bəyazit idi. Onun zamanında Osmanlı donanmasında 300-dən yuxarı gəmi varıydı. Bununla belə Bəyazitin sultanlıq dövrü ziddiyyətlərlə də dolu idi. Bir tərəfdən Avropanın bir neçə xaç ordusunu darmadağın edərək bir çox ölkələri fəth edən İldırım Bəyazit, o biri tərəfdən də Serb şahzadəsi Dəspinə ilə evləndikdən sonra sarayı bir çox krallıqların cəsuslarıyla dolmuşdu. Bu cəsuslar sultanın gələcək hücumlarının qarşısını almaq üçün ona öz qanından, türk soyundan olan bir düşmən obrazı yaratmışdılar ki, bu da şərqin ən böyük cahangirlərindən olan Əmir Teymur idi.

Əmir Teymurun imperatorluğunun sərhədləri Volqadan Qanq çayına qədər, Tanrı dağlarından İzmirə, oradan da Suriyaya qədər uzanırdı.

Tarixçilərin Teymur haqqında söylədiklərinə diqqət edək:

– At minən, qılınc qurşanan, atdığı oxu üzüyün qaşından keçirən bir igid. On iki yaşından müharibələrdə ad qazanan bir sərkərdə.

– Müharibələrdən, hərbi təlimlərdən artıq qalan vaxtını oxumaqla, böyük alimlərdən dərs almaqla keçirən gənc bir idealist.

– 300 nəfərlik bir qüvvə ilə 10 min nəfərlik bir ordunu məğlub edən əvəzsiz strateq.

– Dünya tarixini, xüsusən də türk-islam tarixini yaxşı bilən, dinin, elmin, sənətin qoruyucusu.

– Asiyada türk dilinin, türk sənət və mədəniyyətinin fars mədəniyyətinin təsiri altında yox olub getməsinin qarşısını alan, inkişaf etməsinə, nümunə olmasına yol açan bir hökmdar.

Firdovsinin «Şahnamə» əsərində türklərə qarşı münasibətinə cavab olaraq onun qəbri başında Teymur bu sözləri söyləmişdi: «Ey Firdovsi, qalx, qalx da, hər misrada pislədiyin məğlub türkü indi gör».

Teymurun islamiyyətə üstünlük verməklə türkçülüyə ziyan verdiyini söyləyən tarixçilər də olmuşdur. Amma o, öz dövrünə qədər Bilgə xaqandan başqa heç bir türk hökmdarının göstərmədiyi bir qürurla türklüyünü belə bildirmişdi:

«– Biz ki, Müluki-Turan, Əmiri-Türküstanıq;

– Biz ki, türk oğlu türkük;

– Biz ki, millətlərin ən qədimi və ulusu türkün başçısıyıq».

Teymurun nəsli türk dünyasına alim hökmdar Şahruxu, şair hökmdar Hüseyn Bayaqaranı, astronom hökmdar Uluq bəyi verdi.

Amma bütün bunlara baxmayaraq, onun İldırım Bəyazitlə apardığı və türk dünyasının tarixinə Çubuq fəlakəti kimi daxil olan müharibəsi ümumilikdə türkçülüyün inkişafına mane oldu. Bu özünü üç istiqamətdə daha qabarıq göstərdi.

Birincisi, Çubuq müharibəsiylə qərbə doğru

yürüş dayandırıldı. İkincisi, istər Anadoluda, istərsə də Orta Asiyada elmin, sənətin inkişafı tənəzzülə uğradı. Ticarətin həcmi azaldı. Üçüncüsü, Əmir Teymur Çinə yürüşünü həyata keçirə bilmədi. Başqa sözlə, Çinin şimalında yaşayan 10 milyonlarla türksoylu insanlar Çin boyunduruğundan xilas ola bilmədilər.

Bir sözlə, kimin səhvindən asılı olmayaraq, baş verən bu müharibə türk dünyasına ağrıdan başqa bir şey gətirmədi.

Kadr dəyişir. Mətnə uyğun kadrlar efirə verilir. Kadr arxası mətn oxunur.

MƏTN: – Çubuq savaşının nəticələri Osmanlılar üçün çox ağır oldu. Bəyazitin qurduğu dövlətin sərhədlərini bərpa etmək üçün onun ikinci oğlu Mehmət Çələbi 15 ilə qədər bir zaman xərclədi. Öncə qardaşları Süleyman və Musa Çələbi ilə mübarizə apardı. Daha sonra uzun müddət İzmir valisi olmuş Qarasu Paşanın oğlu Çüneyd bəylə vuruşdu. Bizans imperatoru Manueli geri oturtdu. Amma buna baxmayaraq, Osmanlı dövlətində, xüsusən də Asiya hissəsində əmin-amanlıq yaratmaq mümkün olmadı.

Təqribən buna bənzər, lakin bir qədər fərqli hadisələr Əmir Teymurun səltənətində də baş verdi. Anadolunu tərk edəndən 2 il sonra 1405-ci ilin fevralında Çinə səfəri zamanı ölən Teymurun səltənəti də oğulları tərəfindən qorunub saxlanıla bilmədi. Ölkə ayrı-ayrı dövlətlərə bölündü. Göründüyü kimi, bir-birini bağışlaya bilməyən iki

imperatorun şəxsi istəyinin cəzasını bütün türk dünyası çəkdi. Lakin təəssüflər olsun ki, sonrakı nəsillər düşmənlərin törətdiyi bu qardaş qırğınından elə də nəticə çıxarmadı. Çubuq fəlakətindən tam 112 ü sonra türk qılıncları yeni bir döyüşdə – Çaldıran döyüşündə bir-birini kəsməyə başladı. Artıq bu başqa bir söhbətin mövzusudur.

Kadr dəyişir. Filmin son titrləri verilir.

SON

2006

ÇALDIRANA APARAN YOL

Qarşı-qarşıya dayanmış ordular. Atlar kişnəyir, təbillər, kərənoylar çalınır, qılınc səsləri, yaralıların iniltiləri, həlak olmuş döyüşçülərin cəsədlərini sərgiləyən döyüş meydanı. Ölən əsgərlərin önündə diz çökən bir sərkərdə, həzin ney səsi, Bizans sarayı. Nəşəli qəhqəhələrlə gülən sərxoş bizans əsgərləri. Uca bir zirvədə əlləri göyə yüksəlmiş ağsaqqal.

Kadr dəyişir, filmin titri efirə verilir.

ÇALDIRANA APARAN YOL

10-15 saniyədən sonra titr yığılır. Kadr arxasından mətn oxunur.

MƏTN: – Dünya sivilizasiyasında özünəməxsus yeri olan türk dünyasının möhtəşəm tarixinə nəzər saldıqda iblis xislətli, şeytan əməlli düşmənlərin fitnə-fəsadına aldandığımız çağlar olduğunu və bu zamanlarda da öz qılıncımızla özümüzü doğradığımızı açıq-aydın görürük. Bu o zamanlar olurdu ki, türkün yenilməz qüvvəsi qarşısında düşmənin çıxara biləcəyi qüvvəsi olmurdu. Elə bu zamanlarda uzun illər sınanılmış taktika – qardaşı-qardaşa qarşı qoymaq taktikası ön plana çıxırdı.

XIV əsrin ikinci rübündə şərqdə və qərbdə iki türk imperiyasının parladığı zamanda da bu

belə olmuşdu, yüz il sonra, yəni XV əsrin sonlarında da beləydi. Tarix səhnəsində yerini dəyişənsə sadəcə hökmdarların adıydı.

Kadr dəyişir. Filologiya elmləri doktoru, professor Nizami Xudiyevin çıxışı efirə verilir.

NİZAMİ XUDİYEV: – Orta əsr türk tarixinə nəzər salsaq, bu dövrün inkişaf, intibah dövrü olduğunu açıq-aşkar görərik. Tutduqları coğrafi məkanla, oynadıqları siyasi rolla türklər həmişə bir çox xalqların həyatında önəmli rol oynayıblar. Öz hökmranlıqları altına saldıqları torpaqlara aclıq, səfalət, cəhalət deyil, elm, mədəniyyət, sənət, tərəqqi gətirən türklər yerli əhalinin inkişafına, dövlət idarəçiliyində iştirakına böyük diqqət və qayğı göstəriblər. Örnək olaraq Osmanlı imperiyasının Balkanlarda və Avropanın bir çox yerlərində dövlətçilik, idarəçilik ənənələrinin əsasını qoyduqlarını göstərə bilərik. Əlbəttə ki, uzun illər qeyd etdiyimiz coğrafi məkanları işğal və istila altında saxlayan Roma və sonradan onun törəməsi olaraq meydana çıxan Bizans imperiyası bu regionlarda ağır vergi və zülmdən başqa bir şey qoymamışdı. Odur ki, yerli əhalinin türklərə göstərdiyi xüsusi münasibəti həzm edə bilmir, nəyin bahasına olursa-olsun sözü gedən zamanın qüdrətli türk dövlətlərini bir-birinə qarşı qoymağa çalışırdılar.

Haqqında bəhs etdiyimiz dövrdə, yəni XV əsrin sonu və XVI əsrin birinci rübündə dünyaya meydan oxuyan iki türk imperiyası mövcud idi:

Osmanlı və Səfəvilər. Düzdür, Səfəvilər dövlət kimi tarix səhnəsinə 1502-ci ildən sonra çıxsalar da tez bir zamanda hər kəsə meydan oxuya biləcək bir gücə çevrilə bildilər və İraq əcəmindən Qızıl üzən çayına qədər olan əraziləri vahid mərkəzdə birləşdirdilər.

O zaman Osmanlı imperatorluğu da bütün Balkanları ələ keçirməklə Mərkəzi Avropaya hərbi səfərlər etmişdi. Xüsusən də Osmanlı səltənətinin VIII padşahı fateh sultan Mehmətin dövründə böyük qələbələr əldə edilmişdi. 1453-cü ilin 29 mayında İstanbulun fəthi bütün xristian dünyasına bir vəlvələ salmışdı. Amma fateh bununla da kifayətlənməyib Egey dənizindəki bir sıra şəhər-dövlətləri ələ keçirdi. Afinanı tutdu, sonra da Bosniyanı öz torpaqlarına qatdı. Sultan Avropada başladığı işi təhlükəsiz bir şəraitdə davam etdirmək üçün Şərqdəki rəqibi, o zamanlar Azərbaycanda meydana çıxan, siyasəti və qolunun gücüylə bir çox dövlətlərə meydan oxuyan Ağqoyunlu Uzun Həsənlə münasibətləri həll etmək qərarına gəldi. Amma Uzun Həsənin anası, Şərqin ilk diplomat qadını, qılıncların həll edə bilmədiyi məsələləri öz incə siyasəti ilə həll edə bilmək qüdrətinə sahib Sara Xatun sultanla görüşərək məsələləri sülh yolu ilə çözə bildi.

Lakin Osmanlı sultanları qonşuluqda meydana çıxan hər hansı bir dövlətin varlığı ilə barışa bilmirdilər. Bu siyasət də uzun illər türk dünyasının inkişafını geriyə atırdısa, Qərbin – xristian aləminin dəyirmanına su tökürdü. Beləliklə, türklər Qərbin hiyləgər siyasətinə

uyaraq yeni bir qardaş qırğınına doğru yol almışdılar. Bu yol Uzun Həsənlə Osmanlı sultanı Fatehin Otluqbelindəki vuruşmasından başlayaraq Çaldırana qədər uzandı. Bir-biriylə dil tapa bilməyən iki türk hökmdarının cahangirlik iddiası yenə də qərb dünyasının işinə yaradı. 1499-cu ildə Ağqoyunlu dövlətinin ərazisi iki hissəyə parçalansa da bu dövlətin konturları üzərində bərpa olunan Səfəvi xanədanlığı ilə Osmanlı sultanları arasında çəkişmələr yeni forma kəsb etməyə başladı.

Kadr dəyişir. Kadr arxasından mətn oxunur.

MƏTN: – XV əsrin son rübündə Osmanlı taxtında sultan II Bəyazit oturmuşdu. Yalnız doqquz ay sürən Məkkə səfəri zamanı taxt-tacı oğlu Korkuta həvalə etmişdi. O da əmanət aldığı hakimiyyəti öz xeyrinə deyil, dövlətin böyüməsi, sərhədlərin genişlənməsi, daxildəki nizam-intizamın qorunması üçün istifadə etdi. Atası səfərdən dönər-dönməz əyanları ilə birlikdə İznit yaxınlığında Bəyaziti təntənə ilə qarşıladı və taxt-tac rəmzi olan əsayla tacı atasına qaytardı. Sultan da oğlunu Manisa valisi təyin edərək təntənə ilə yola saldı.

O zamanlar şərqdə, xüsusən də Osmanlı sarayında taxt-tacı qorumaq üçün yaxın varislərin öldürülməsi adi hal almışdı. Hətta Osmanlılar «Əli-Ömər» deyilən bir qanun da çıxarmışdılar. Öz sələfləri kimi II Bəyazit də bu qanundan istifadə edərək qardaşını öldürtdü. Oğlanlarını

saraydan uzaqlaşdıraraq müxtəlif əyalətlərə vali təyin etdi.

II Bəyazitin dönəmində Azərbaycanla münasibətlər dəyişməz olaraq qalmışdı. Yəni Azərbaycan ərazisində qüvvətli bir qonşunu istəməyən Osmanlılar zaman-zaman lokal xarakterli müharibələr aparsalar da ciddi bir nailiyyət əldə edə bilməmişdilər. Xüsusən də Yaqub padşahın ölümündən sonra Azərbaycanı işğal etmək planları puça çıxmışdı.

Osmanlı tarixçilərinin yazdığına inansaq, II Bəyazit çox igid bir padşah olmuş, hakimiyyəti isə 32 il sürmüşdü. 62 yaşında oğlu Səlim tərəfindən zəhərlənərək öldürülmüşdü. Onun ölümünə əsas səbəblərdən biri də beş oğlu arasında tarazlı siyasət yürüdə bilməməsi, birini digərinə qarşı qoyması olmaqla bərabər, qoşun arasında da nüfuzunu itirməsi olmuşdu. Açıq-aşkar oğlu Əhmədi öz taxtında görmək istəməsi o zamanlar Trabzon valisi olan Səlimi qəzəbləndirmiş, Yeniçərilərin fəal dəstəyi ilə ayağa qaldırmışdı. Lakin İstanbul yaxınlığındakı ilk vuruşma sultan II Bəyazitin xeyrinə bitsə də 1509-cu ilin 14 iyulunda İstanbulda 13 min adamın ölümünə səbəb olan və 10 gün sürən dəhşətli zəlzələnin vurduğu yaralar sağalmamış Səlim yenə də qüvvələrini toplayaraq atasını taxt-tacdan əl çəkməyə vadar edə bilmişdi. Beləliklə, tarixdə Yavuz Sultan Səlim adı alaraq tarixçilər tərəfindən ailə qatili kimi tanıdılacaq bu hökmdar 1512-ci ildə Osmanlı taxtına çıxdı. Əhalini sakitləşdirmək üçün qonşu əraziləri işğal etmək

planlarını açıqladı. Əlbəttə ki, onun Şərqdə ən böyük təhlükəsi o zamanlar möhtəşəm bir dövlət halına gələn Səfəvilər idi. Bəs bu zaman Səfəvilərin ictimai-siyasi durumu necəydi?

1488-ci ildə Səfəvi təriqətinin son şeyxi Heydər öldükdən sonra onun üç oğlu Ağqoyunlu hakimlərinin təqibinə məruz qaldı. Tezliklə şeyx Heydərin böyük oğlu gənc Sultan Əli də öldürüldü və İbrahimlə İsmayılı axtarmağa başladılar. Atası ölləndə İsmayıl iki yaşındaydı. Müritlər onu 6 il Lahicanda qoruyub saxladılar. 1499-cu ildə 13 yaşlı İsmayıl Ərdəbilə gəldi və bir çox tanınmış türk tayfaları İsmayıla qoşuldular. Bütöv Azərbaycanı öz hakimiyyəti altında birləşdirməyi qarşısına məqsəd qoyan İsmayıl yaxşı başa düşürdü ki, Ağqoyunlu dövləti iki hissəyə parçalansa da hələlik onlarla mübarizə aparmaq iqtidarında deyil. Odur ki, 1500-cü ilin yazında İsmayıl Anadoluda olan qızılbaşları öz tərəfinə çəkmək üçün Ərzincana yola düşdü. Ərzincana çatana qədər onun dəstəsi xeyli böyüdü. Salnaməçilərin yazdığı bir rəvayət də onun şöhrətinin artmasına səbəb olmuşdu. Rəvayətə görə Ərzincanda olarkən əhali onun yanına gəlir və dağlarda, mağarada yaşayan və ətraf əhaliyə böyük ziyan verən nəhəng bir ayıdan söz açırlar. Gənc İsmayıl heç tərəddüd etmədən ora gedir və ayını oxla vurub öldürür. Bundan sonra onun dəstəsinə qoşulanları sayı daha da çoxalır.

Başqa bir rəvayətə görə isə hətta toy gecəsi gəlinə əlini belə toxundurmayan gənc bəy

İsmayılın çağırışını eşidərək tələm-tələsik onun qərargahına gəlir.

Bu hadisələr İsmayılın Ərzincan və Anadolunun digər bölgələrində böyük nüfuza malik olduğunu açıq-aşkar göstərir. Elə Çaldıran döyüşünü hazırlayan səbəblərdən biri də bu idi.

Gənc İsmayıl qüvvələrinin artdığını görərək Azərbaycanı vahid dövlət halında birləşdirmək üçün mübarizəyə başladı. İlk hədəf Səfəvi şeyxlərinə düşmən olan Şirvan seçildi. Gülüstan qalası yaxınlığındakı döyüşdə Şirvanşah Fərrux Yasar öldürüldü. Əvvəlcə Şamaxı, ciddi müqavimətdən sonra isə Bakı ələ keçirildi. (Məqsədimiz Çaldıranı törədən səbəbləri açmaq olduğu üçün belə hadisələrin üzərində çox dayanmayacağıq)

Şirvan dövlətini özündən asılı vəziyyətə salan İsmayıl 1501-ci ilin payızında Şərur yaxınlığında yeddi minlik qoşunuyla Əlvənd Mirzənin otuz minlik ordusunu ağır məğlubiyyətə uğratdı. Elə həmin il Təbrizə daxil olaraq özünü yeni yaratdığı Səfəvilər dövlətinin şahı elan etdi.

Ölkə daxilində Şah İsmayılın yalnız bir düşməni qalırdı – Ağqoyunlu Murad. 1503-cü ildə Murada məktub yazan Şah İsmayıl onun təslim olmasını istəsə də Murad bu təklifi rədd etdi. 1503-cü il iyunun 21-də Həmədan yaxınlığında 12 minlik qoşunuyla Muradın 70 minlik ordusunu darmadağın edən gənc şah daxili düşmənlərdən qurtulmuş oldu. Şah İsmayıl Muradı təqib edərək ölkənin içərilərinə doğru hərəkət etdi. 1508-ci il ərəfəsində Şah İsmayıl

Xorasandan başqa bütün İranı, Ermənistanı, Ərəb İraqını, Kiçik Asiyanın bir çox vilayətlərini tutdu. Beləliklə, XVI əsrin birinci on illiyində Azərbaycan Səfəvi dövləti mərkəzi Təbriz olan böyük bir qüvvəyə çevrildi. Şah sarayındakı 74 əmirdən 69-u azərbaycanlı olan dövlətin dili də Azərbaycan dili idi. Gənc şahın şan-şöhrəti bütün Orta və Yaxın Şərqi bürümüşdü. O dövrün bir çox hökmdarları Şah İsmayılla yaxın münasibət qurmaq üçün öz elçilərini qiymətli hədiyyələrlə Təbriz sarayına göndərirdilər. Bu da o zaman özbək taxtında oturan və özünü Çingiz xanın varisi hesab edən Şeybani xanın xoşuna gəlmirdi. Herat hökmdarı Hüseyin Bəyqaranın satqın oğulları sayəsində öncə Heratı, sonra da Xorasanı tutan Şeybani xan Şah İsmayıla «İsmayıl dəvriş» başlığı ilə başlayan bir məktub göndərdi. Bu məktubda o, Məkkəyə gedəcəyini bildirir və keçəcəyi yerlərdə onun adına xütbə oxunmasını, üstündə şəkli olan sikkələrin basılmasını, qiymətli hədiyyələrlə onun pişvazına çıxmasını İsmayıla əmr edirdi.

Qonşu dövlətlərlə normal münasibətə önəm verən Şah İsmayıl Şeybani xanın yanına elçilər göndərsə də bir nəticə hasil olmadı. O, Şah İsmayıla əsa və kəşkül göndərərək məktubda onun dədə-babasının dəvriş, özünün isə yeddi iqlim padşahı olduğunu, ona görə də İsmayılın ona tabe olmasının vacibliyini yazdı.

Şeybani xanın yola gəlmədiyini görən Şah İsmayıl da ona məktub yazaraq Məşəd şəhərində babalarına məxsus 70 batman cəvahirlə bəzənmiş

qızıl nəzirləri olduğunu və yaxın vaxtlarda onu almağa gələcəyini bildirirdi.

Şah İsmayılın qoşunları Xorasana çatmamış Şeybani xan Herata qaçmağa çalışsa da Mərv yaxınlığındakı Mahmudi kəndində baş verən döyüşdə öldürüldü. Xorasan və Heratla yanaşı Bədəxşan, Qəndəhar, Kabülüstan və digər şəhərlər Səfəvilərin əlinə keçdi. Şah İsmayıl Heratı Səfəvilərin ikinci mühüm mərkəzinə çevirərək oranı əvvəlcə Təhmasib, sonra Sam Mirzənin valilik mərkəzinə çevirdi. Həmin qışı Heratda keçirən şah o dövrün görkəmli alim və sənətkarlarını ətrafına toplayır, böyük bir qismini paytaxt Təbrizə göndərir. Bəzilərini də bilik və bacarıqlarına görə dövlət qulluğuna təyin edirdi.

Kadr dəyişir. Nizami Xudiyevin çıxışı efirə verilir.

NİZAMİ XUDİYEV: – Göründüyü kimi, 1512-ci ildə Osmanlı taxtına çıxan Sultan Səlim zamanında səltənətdə elmin, sənətin inkişafına böyük qayğı göstərilirdi. O dövrün bir çox padşahları kimi Sultan Səlim də incə ruhlu şeirlər yazırdı. «Divanı» və «Səlimnamə» adlı külliyyatı indi də əlimizdə qalmaqdadır. Bütün bunlara baxmayaraq, o öz dövrünün oğlu idi. Şahlığı, sultanlığı şairliyinin önündə gedirdi. Sultan Səlimin elmə, sənətə qayğısı bəlkə də Səfəvi hökmdarı Şah İsmayıldan qaynaqlanırdı. Şah İsmayıldan 16 yaş böyük olan Səlim öz sələfindən geri qalmamaq üçün hakimiyyətə gələn kimi şeir məclisləri, sənət yarışları keçirirdi.

Beləliklə, Çaldıran savaşına bir neçə il qalmış şərqin iki böyük türk dövlətinin başında incə ruhlu, şair təbiətli hökmdarlar dayanmışdı. Zənnimizcə burada o zamanlar Təbriz sarayında, Şah İsmayılın ətrafında necə böyük simaların olmasını anlatmadan keçmək olmaz.

Onu qeyd edək ki, Şah İsmayılın adı çəkiləndə hər şeydən öncə Azərbaycan dili yada düşür. Mübarizəyə başladığı ilk gündən Azərbaycan uğrunda mübarizə apardığını bəyan edən bu böyük insan ömrünün sonuna qədər verdiyi vədə əməl etdi. Azərbaycan dili dövlət dili elan edildi. Uzaq-yaxın qonşulara, Avropa saraylarına yazılan məktublar dilimizin şəhdişirəsini, təravətini, dünya dili olmaq imkanlarını üzə çıxardı. Mühüm dövlət işlərinə Azərbaycan əsilli əmirlər təyin edildi. Digər ölkə səfirlərinin dilimizi öyrənməsi üçün Təbriz kitabxanasında şərait yaradıldı. Şah İsmayıl təkcə dilimizin inkişafı qayğısına qalmaqla kifayətlənmədi, Xətai təxəllüsüylə gözəl şeirlər, qəzəllər, qəsidələr yaratdı.

Böyük Azərbaycan şairi Məhəmməd Füzuli «Bəngü-Badə» əsərini ona həsr etdi.

XVI əsrin birinci rübündə Azərbaycanda rəssamlıq, xüsusən də miniatür sənəti özünün ən yüksək zirvəsinə qalxmasında Şah İsmayıla borcludu. O dövrdə Kəmaləddin Behzad, Ağamirək, sultan Məhəmməd Təbrizi, Xacə Əbdül Əziz, Seyidmir, Şah Məhəmməd, Dost Məhəmməd və onlarca başqaları şahın himayəsi ilə ölməz incilər yaradırdılar. İndi dünyanın

müxtəlif muzeylərinin ən qiymətli inciləri olan Azərbaycan miniatürləri Səfəvi dövrünün məhsullarıdır.

Şairə, sənətkara, rəssama böyük qiymət verən Şah İsmayıl rəvayətə görə Çaldıran savaşında onları dağda bir mağarada saxlayıbmış ki, düşmən əlinə keçməsinlər. Şah tez-tez deyərmiş: – Mən ölsəm yerimə başqa şah tapılar, amma tarix Kəmaləddin Behzadı, sultan Məhəmmədi bir də min ildən sonra yetirər.

Təəssüflər olsun ki, elmə, mədəniyyətə, sənətə böyük dəyərlər verən hər iki türk hökmdarı qərbin təhriki ilə üz-üzə gəlməkdə idi. O dövrün tarixini qələmə alan Osmanlı tarixçiləri, salnaməçilər Çaldıran döyüşünün əsas səbəbi kimi dini məzhəbi ortaya qoyurdular. Yəni bütün İranda, İraqda sürətlə yayılan şiəlik məzhəbinin guya Anadoluya yayılması sultanlıq üçün təhlükə mənbəyi kimi qələmə verilirdi.

Öncə də söylədiyimiz kimi hələ Şah İsmayılın babaları zamanında da şiəlik Şərqi Anadolunun bir çox əyalətlərində yayılmışdı. Hətta ilk Osmanlı sultanları Səfəvi şeyxlərinə «Çıraq axçası» deyilən bir vergi də verirdilər. Buradan aydın olur ki, Sultan Süleymanı narahat edən heç də dini məsələ deyildi. Hələ Trabzon valisi olarkən Azərbaycanda baş verən hadisələri diqqətlə izləyən Süleyman gənc İsmayılın uğurlarını qəbul edə bilmirdi. Təbii ki, burada qərb təsirini də unutmaq olmazdı. Sultan Səlimin daha qətiyyətli, daha bacarıqlı olduğunu görən Avropa kralları, Papa tərəfdarları bu iki türk

hökmdarının arasına nifaq toxumu səpirdilər. Düşünərək etməyən, etdikdən sonra düşünən sultan sonra peşman olurdusa da artıq peşmançılığa yer də qalmırdı. Atası II Bəyazitin Şah İsmayıla qarşı apardığı «dəymə mənə, dəyməyim sənə» siyasətini bəyənmir, hətta onun Şah İsmayıla yazdığı: «Siz, Rum elini istila etmək fikrindən ümidinizi kəsin. Yaxşısı odur ki, İran, Turan və Hindistandakı xanlıqları məğlub edib, o tərəflərdə olduqca qüvvətli bir dövlət təşkil edin» nəsihətini qorxaqlıq adlandırardı.

Sultan Səlimi Şah İsmayılla üz-üzə gətirən səbəblərdən biri də o zamanlar Qızılbaşlarla Bektaşilərin birləşməsi, bir çox paşanın bu təriqəti dəstəkləməsi qorxusu idi. Odur ki, hakimiyyətə gəldiyi 1512-ci ildən 1514-cü il Çaldıran savaşına qədər olan dövrdə Şərqi Anadoluda on minlərlə şiə müsəlman öldürüldü. Sultan Səlimin əksinə olaraq Şah İsmayıl bu düşmənçiliyi istəmirdi. Bunu müxtəlif vasitələrlə Osmanlı padşahına çatdırmağa çalışsa da məqsədinə nail ola bilmədi. Şah İsmayılın dostluq düşüncələrini anladan ən yaxşı sübut onunla Səlim arasındakı məktublar idi.

Kadr dəyişir. Kadr arxasından mətn oxunur.

MƏTN: – Çaldıran savaşı ilə bağlı olan ilk mənbə bütün tarixçilərin qəbul etdiyi kimi Şah İsmayılla Sultan Səlim arasında olan məktubları, döyüşə həsr olunmuş fəthnamələri, Şah İsmayılın Osmanlı sultanını daim sülhə çağıran məktubları, Osmanlı

padşahının Misir sultanı Qansu Qori ilə məktublaşmaları və s. qəbul edilir.

Yavuz Sultan Səlim yürüşə başladığı ilk gündən o zamanlar Osmanlı sarayının tanınmış salnaməçisi olan Lütfi Paşaya gündəlik tutmağı əmr etmişdi. Həmin yol qeydləri əsasında da «Tarixi ali-Osman» əsəri meydana çıxmışdı.

Çaldıran savaşıyla bağlı Səfəvi sarayının tarixçiləri də maraqlı əsərlər yazmış, Osmanlı tarixçilərindən fərqli olaraq hadisələri qərəzsiz, ədalətlə təsvir etmişdilər.

Artıq söylədiklərimiz kimi, Çaldıran döyüşünün səbəblərini ən düzgün anladan iki hökmdar arasındakı məktublardır. Əslində buna Osmanlı padşahının yazdığı məktublar desək, daha doğru olar. Çünki Sultan Səlimin Şah İsmayıla yazdığı dörd məktuba Səfəvi şahı yalnız bir cavab məktubu yazmışdı. Burada bir məsələni də xüsusi olaraq vurğulamaq lazımdır ki, Sultan Səlim Şah İsmayıla ilk iki məktubu farsca yazmış, sonrakı iki məktub isə türk dilində tərtib edilmişdi. Təbii ki, Şah İsmayılın yeganə cavabı doğma türk dilində olmuşdu. Sultan Səlim bütün məktublarında Şah İsmayılı alçaltmağa, təhqir etməyə, özünü isə uca tutmağa çalışırdı. Məktublarının birində yazır: «Bu müraciət cənab xəlifə Sultan Səlim sultan Bəyazit oğlundan əcəmi əmiri İsmayıl Namdara edilmişdir». Göründüyü kimi, Sultan Səlim Şah İsmayılı bir şah kimi tanımır, bəzən ona əsrin Əfrasiyabı, bəzən də Ərdəbil oğlu deyə müraciət edir. Farsca yazılmış ikinci məktubunda isə Səfəvi şahına

«Məlik-e-mülki-əcəm» – yəni əcəm mülkünün məliki ləqəbini verir.

Osmanlı sultanı artıq üçüncü məktubunda vəziyyəti daha da qızışdıraraq Şah İsmayılı hədələməyə başlayaraq yazır: «Hənüz səndən nə namə gəldi, nə də özün itaətə gəldin. Əgər səndə bir az qeyrət və namus qalıbsa, gərək atına minib Qayseri ilə Sivas arasındakı düşərgəmə gələsən».

Sultan Səlimin üçüncü təhqirlə dolu məktubundan sonra Şah İsmayıl ona mənalı bir cavab yazdı: «Məhəbbət dolu salam və dostluq ifadə edən salamlarımızı qəbul ediniz… Şərəfli məktublarınız yetişdi. Onların məzmununu ədavət bildirsə də cürət və mətanət etdiyi üçün bizə ləzzət verdi. Lakin bilmədim ki, bu düşmənçiliyin başlanğıcı və səbəbi nə ilə əlaqədardır. Sizin cənnətlik atanız zamanında Əlaüdövlə üzərinə gedərkən, sizin sərhədlərdən keçməli olduq. Ancaq aramızda dostluq və ittifaqdan başqa bir şey olmadı. Siz həzrətləri, o zaman Trabzon valisi idiniz, aramızda birlik əlaqəsi göstərdik. İndilikdə isə ədavətin səbəbi məlum olmur. Əgər məhz hakimiyyət davası üçün bu tərəflərə gəlmişsinizsə, qoy belə olsun. Ancaq təhqirlər sözü o yerə çatdırar ki, köhnə xanımanın bünövrəsi bərbad olar. Bizim o tərəfə gəlməyimizin iki səbəbi vardı: birincisi, budur ki, o diyarın sakinlərinin əksəri bizim yüksək mənsəbli babalarımızın müridləridir. İkincisi, sizin müqəddəs yürüşlü xanədanınıza olan məhəbbətim idi. İstəmirdim ki, Teymur zamanındakına bənzər bir çaxnaşma, gözlənilməz

halda o məmləkətdə baş qaldırsın. Bunu indi də istəmirəm. Vəziyyətin belə hal almasından da incimirəm. Niyə də gərək inciyim? Hökmdarlar arasında ədavət köhnə adətdir. Necə ki, deyiblər: – Məmləkət gəlinini o şəxs möhkəm quca bilir ki, suvarılmış qılıncın dodağından öpə! Lakin nalayiq sözlərin mənası yoxdur. Bunlar ola bilsin ki, həşiş və tiryək çəkən mühərrirlərin nəşədən beyinləri quruduğu bir vaxtda yazılmış, eləcə də göndərilmişdi.

Elə düşünürük ki, sizin qarşınıza çıxmaqda bu qədər yubanmağımız əsasız olmamışdır. Ancaq heç kimin sözünə uymadan məsələnin əsli barədə düşünülsə yaxşıdır. Çünki axırıncı peşmançılıq fayda verməz… Əgər iş hərbə çəkərsə, təxir olunmasın. Lakin uzaqgörənlik yolu ilə hərəkət edilsin».

Şah İsmayılın son dərəcə müdrik və ləyaqətlə yazdığı məktuba Osmanlı sultanı yenə də nifrət və təhqirlə dolu bir məktubla cavab verdi. «… Sənlə vuruşmaq üçün ağır leşgərlə uzaq məsafəni ötüb, hökmranlığın altındakı məmləkətinə daxil olmuşduq. Böyük hökmdarlar qanununda və qüdrətli xaqanlar məzhəbində məmləkət padşahların namusu hesab olunur. Kişilikdən və cavanmərdlikdən payı olanlar, cəsarətli şəxslər, özündən başqalarının ona toxunmasına heç cür dözə bilməzlər. Əgər belədirsə, indi neçə gündür qalib əsgərlərin məmləkətinə daxil olub, hökmranlıq edirlər. Lakin səndən əsər-əlamət görünmür. Elə gizlənmisən ki, diri olmağınla ölümün arasındakı

fərq bilinmir… Məsələnin əsli budur ki, indiyə qədər səndə bahadırlıq və mərdlik əlaməti olan bir iş hələ zühura çıxmamışdır. Əgər bundan sonra da əvvəlki tək qorxudan zöviyə küncündə gizlənməli olsan, ərlik adı sənə haramdır! Belə olarsa, taskülah əvəzinə, yaylıq, zireh əvəzinə çadra ixtiyar elə. Sərdarlıq sevdasından və sünəhsalarlıq iddiasından əl çək! Səndə ki, belə bir əməl yoxdur, nə üçün ona əl atırsan?!»

Sultan Səlimin belə kəskin və təhqiredici məktubundan sonra barışmağa hələ də ümidli olan Şah İsmayılın döyüşə getməkdən başqa çarəsi qalmadı. Çaldırına qədərki 13 illik şahlıq dövründə keçirdiyi bütün vuruşmalardan qalib çıxan Şah İsmayıl öz gücünə arxalanaraq «məğlubedilməz» bir sərkərdə olduğuna inanırdı. Az müddət içərisində əldə etdiyi parlaq qələbələr ona bu əsası verirdi. Şah İsmayılın özünə güvənməsində Sultan Selimin cəsuslarının da böyük rolu olmuşdu. Cəsuslar şahın sarayına gələrək Sultan Səlimin qoşununda Bektaşi-Ələvi görüşlü paşaların, bəzi ordu rəhbərlərinin, qazilərin onun tərəfində olduğunu, hətta bir neçə dəfə sultana sui-qəsd təşkil edildiyini söyləyirdilər. Sonradan sultanın salnaməçilərinin yazdığından aydın oldu ki, o, Şah İsmayıh çaşdırmaq üçün qəsdən belə şayiələr yayırdı. Odur ki, Şah İsmayıl hətta Çaldıran döyüşünə bir gün qalmış əmirləriylə keçirdiyi müşavirədə düşmən qüvvəsini layiqincə qiymətləndirməyərək sərkərdələrin «Osmanlılar dinclərini almadan hücuma keçmək» təklifini rədd edir və özünün

məşhur «Mən karvan basan quldur deyiləm» ifadəsini işlədir. Osmanlılar döyüş meydanında tam yerlərini aldıqdan sonra onlarla vuruşmaq qərarına gəlir. Osmanlı tarixçiləri Sultan Səlimin döyüş taktikasını belə anladır: ordunun sol qanadında Sinan paşanın topçular alayı yerləşdirilmişdi. Onların yanında isə Avropadan gəlmiş əsgərlər mövqe tutmuşdu. Sultan özü isə sağ qanaddakı topçuların yanında, özünün 13 minlik yeniçəri dəstəsiylə dayanmışdı. Mərkəz qüvvələrə isə Piri paşa rəhbərlik edirdi.

Şah İsmayılın ordusu Osmanlılara nisbətən çox az idi. Ordunun bir dənə də olsun nə topu, nə də odlu silahı varıydı. Bəzi rəvayətlərə görə Şah İsmayıl Sultan Səlimin qüvvəsinə o qədər əhəmiyyət vermirdi ki, hətta döyüşün birinci günü bildirçin ovuna belə çıxıbmış. Lakin belə rəvayətlərin tarixi həqiqətlərə uyğunluğu şübhə doğurur.

Beləliklə, iki türk hökmdarı arasındakı düşmənçilik orduları Çaldıranda üz-üzə gətirdi. Sultanın əmrilə türk əsgərləri təbillərin, gərənayların sədaları altında hücuma keçdilər. Elə döyüşün ilk saatlarından sultan ordusunun silah üstünlüyü aşkara çıxdı. Qeyd olunduğu kimi topların, tüfənglərin atəşi Səfəvi əsgərlərinin cərgələrini pozmağa başladı. O zamanlar bütün şərqdə igidliyi ilə ad çıxarmış Məhəmməd xan Ustaclı özünü orduya vuraraq döyüşə-döyüşə Sultan Səlimin çadırına yaxınlaşdı. Onu başqa cür dayandıra bilməyən Osmanlılar top atəşi ilə bu böyük qəhrəmanı öldürürlər. Şah İsmayılın

özünün də bu vuruşdakı qəhrəmanlığı həm Səfəvi məxəzlərində, həm də Osmanlı mənbələrində çox tutarlı şəkildə təsvir edilmişdir.

Təqribən üç gün çəkən Çaldırın döyüşünün son günündə Şah İsmayıl yeddi dəfə atını dəyişərək özünü sultanın qoşununun içərisinə vurur. Hər dəfə də əlindəki qılıncla bir-birinə bağlanmış topların zəncirini kəsərək sürüyüb meydandan çıxarır. Hətta qaynaqların yazdığına görə əlindəki qılıncla bir topun lüləsini də yarır ki, bu barədə də sonralar rəvayətlər meydana çıxıb.

Rəvayətə görə Çaldıran savaşından bir müddət sonra Sultan Səlim məktub yazaraq Şah İsmayıldan xahiş edir ki, döyüş zamanı top lüləsini ikiyə böldüyü qılıncı ona göndərsin. Şah İsmayıl sultanın bu istəyini yerinə yetirərək qılıncı İstanbula, sultan Səlimin sarayına göndərir. Sultan da qılıncı götürüb saray əyanlarının gözü qarşısında top lüləsinə zərbə yendirir. Ancaq istəyinə nail ola bilmir. Buna görə də Şah İsmayıla gileylə dolu bir məktub yazaraq bildirir: «Görünür Qızılbaş şahı bir qılıncı qardaşından qızırqanıb və vermək istəməyib».

Şah İsmayıl da ona məşhur cavabını göndərir: – «Qılınc haman qılıncdır, qol haman qol deyil!»

Səfəvilərə aid tarixi qaynaqlarda qeyd edilir ki, qürub zamanı Qızılbaş ordularının əsas əmirləri öldürülür. Hava qaralarkən yaralı Şah İsmayıl sağ qalan hissələrlə geri çəkilir. Vəziyyəti öyrənən sultan Səlim də ordunun qərargahdan

ayrılmamasına əmr verir. Eyni zamanda əsgərlərin qarətlə məşğul olmasını da yasaqlayır. Sultan Səlim Çaldıran vuruşmasından sonra Təbrizə girir. Lakin burada bir həftədən bir qədər çox qala bilmir. Buna döyüş başlamazdan əvvəldə narazı olan yeniçərilərin qiyam qaldırma qorxusu, ərzaq azlığı, yolların bağlanması səbəb kimi göstərilir. Osmanlı sultanının qoşunları Səfəvi ərazilərindən çəkilib getsə də bir il sonra Diyarbəkr və Ərzincan onlardan qoparılaraq Osmanlıların idarəçiliyinə keçir.

Kadr dəyişir. Professor Nizami Xudiyevin çıxışı efirə verilir.

NİZAMİ XUDİYEV: – Şah İsmayılın birinci və sonuncu məğlubiyyəti sayılan və ona bir çox əsərlərində kədərli notlarla yer ayıran Xətai ibrətli lövhələr yaradırdı:

Fərəqü atəşü dərdü ələmlər bağrımı yaxdı,
İliglər qarə su oldu, əridi üstxanimdə…
Mən ol şahbazi-köhsarəm, baş əyməm qülleyu-Qafə,
Neçə ünqa kimi yavru uçurdum aşiyanimdə!…

Bu vuruşmadan sonra Şah İsmayılın həyat sevinci bir də özünə qayıtmamış, şənlik və qürur ifadə edən qiyafəsində isə əbədi tutqunluq, kədər hissləri həkk olunmuşdu. Çünki bu vuruş onun qürurunu sarsıdan adicə bir məğlubiyyət olmamış, böyük arzu və məqsədlərinin həyata keçirilməsindəki əngəlləri, çətinlikləri qabarıq

şəkildə aşkara çıxarmaqla, ona başladığı işdə müəyyən yanlışlıqları, qüsurları bütün çılpaqlığıyla ortaya qoymuşdu. Bu döyüşün baş tutmaması üçün bütün vasitələrdən istifadə edən Şah İsmayılın şəxsən bir daha döyüş meydanlarında görünməməsinin özü də ibrətamizdir. Düzdür, ömrünün sonuna yaxın qoşunun başında Gürcüstana hərəkət etsə də saray tarixçiləri belə səfərləri məmləkətdaxili yürüşlər kimi qeyd edir. Onu da deyək ki, Çaldıran döyüşü qərbdə böyük maraqla izlənilirdi. Döyüşdə Şah İsmayıl qalib gəlsəydi, Osmanlıların Avropaya yürüşləri bir neçə onilliklər ləngiyə bilərdi. Eyni zamanda Avropanın bəzi krallıqları, xüsusən də Səfəvi sarayı ilə sıx əlaqədə olan macarlar regionda möhkəm dayağa malik olacaqdılar. Amma bunlar olmadı və Osmanlılar döyüşdən qalib çıxdılar.

Bütün bunlara baxmayaraq, Çaldıran döyüşündən sonra Balkan və Avropa dövlətləri qısa müddətə olsa da asudə nəfəs almaq imkanı qazandılar. Avropanın təhrikiylə baş tutan döyüşdə uduzan tərəf təkcə Səfəvilər deyildi. Eyni zamanda Osmanlılar da döyüşdən qalib kimi çıxmadılar. 1520-ci ilə, yəni Sultan Səlimin ölümünə qədər Osmanlı ordusu şərqdə ilişib qaldı. Bir neçə xırda lokal müharibələrdəki qələbələrini saymasaq, elə böyük nəticələr əldə edilmədi.

Çaldıran döyüşünün ən ağır nəticələrini isə sadə xalq hiss etdi. Şərqi Anadoluda yaşayan on minlərlə türk dini etiqadına görə sultanın qəzəbinə

gələrək qılıncdan keçirildi. Elmin, sənətin inkişafına ağır zərbələr dəydi. Amma Anadolu insanının ürəyindən Şah İsmayıla qarşı olan məhəbbəti çıxara bilmədi.

Təəssüflə qeyd etmək lazımdır ki, Roma Papası və qərb krallarının fitvasıyla Çaldıranda üz-üzə gələn və o dövrün ən qüdrətli iki türk dövləti olan Osmanlı və Səfəvi şahları sonrakı illərdə də bu düşmənçiliyi davam etdirirdilər. Xüsusən də Sultan Səlimdən sonra hakimiyyətə gələn Sultan Süleyman dövründə Osmanlılar tez-tez Səfəvi ərazilərinə soxulmağa başladılar. Bu hadisələri analiz edərkən ortada yenə də qərb faktorunu açıqca görə bilirik. Adi köləlikdən sultanın baş hərəmi olmağa qədər yüksələn, tarixdə Xürrəm sultan kimi ad çıxaran bir qadının dedikləri ilə oturub-duran Qanuni qardaş qanı tökməkdə davam edirdi. Yazıqlar olsun ki, tarixdə türk dünyasının belə bəd əməllərindən söhbət açan onlarca salnamələr mövcuddur. Fikrimizi qısaca yekunlaşdırsaq, Çaldıran savaşının hər iki ölkə üçün böyük itki olduğunu qeyd edə bilərik.

Kadr dəyişir. Kadr arxasından mətn oxunur.

MƏTN: – Türk xaqanlarının bir-birilə apardığı mübarizələr, qanlı müharibələr əsrlərin o üzündə qaldı. Bu gün tarixin verdiyi o dərslərdən nəticə çıxararaq əl-ələ, diz-dizə irəliyə getməyin zamanıdır. Yüz ildən çox sürən, hər iki dövlətə böyük itkilər verən Osmanlı-Səfəvi müharibələri çoxlarının bir dini məzhəb uğrunda gedən

müharibə, – deyə yazdıqları kimi deyil, sadəcə o dövrdə regionda nüfuz üstünlüyü qazanmaq üçün aparılmış müharibələr – mübarizələr idi. İstanbulun fəthindən sonra Avropaya gedən ticarət yollarının və bazarların bir hissəsinin Osmanlıların elinə keçməsi bu mübarizəni bir qədər də qızışdırdı. Amma səbəb nə olursa-olsun tökülən qanlar eyni millətin – türk millətinin qanı idi.

Bu gün 300 milyonluq türk dünyası Teymur-Bəyazit, Yavuz Səlim-Şah İsmayıl mübarizələrindən dərs çıxarmağı bacarmalı, birliyini, varlığını qorumalıdır.

Kadr dəyişir. Filmin son titri efirə verilir.

SON

2006

GÜNDOĞANDAN GÜNBATANA…
QƏDİM TÜRKLƏR…

I film

Filmin başlığı. Xüsusi effektlərlə sürətlə yığılan təsvirlər fona verilir və aparıcı filologiya elmləri doktoru, professor Nizami Xudiyevin çıxışı verilir.

NİZAMİ XUDİYEV: – Bəşəriyyət tarixində elə xalqlar var ki, onların təşəkkül və inkişaf tarixi, dünya sivilizasiyasında tutduğu yer başqa xalqların, dövlətlərin, qədim mədəniyyətlərin tarixinin araşdırılması ilə müqayisədə çox az öyrənilib.

Əvvəlki filmlərdə qeyd etdiyimiz kimi, belə tarixi az öyrənilmiş xalqlardan biri də qədim dövlətçilik və mədəniyyət ənənələrinə malik olan türk xalqlarının tarixidir.

Bu görüşümüzdə sizinlə birlikdə türkün qədim tarixini bir də səhifələyəcək, türksoylu, türkdilli xalqların tarixi, mədəniyyəti, dünyagörüşü, yaşam tərzi ilə bir daha yaxından tanış olacağıq. Varlığımızın ən böyük göstəricisi olan dilimizdən, qədim türkcəmizdən, onun yazısından söz açacağıq.

Türk dillərinin nə vaxt əmələ gəlməsi, hansı zamanda meydana çıxması haqqında hələ ki, dəqiq məlumata malik deyilik. Türk dillərini

səciyyələndirən qədim yazılı abidələr eramızın VII əsrinə aiddir. Ondan əvvəl bu dillərə aid olan maddi yazılı abidələr xeyli azdır. Ola bilsin ki, bu abidələrin bir qismi məhz elə eramızın əvvəllərinə də aid olsun. Orxon-Yenisey abidələrinin mükəmməl əlifbasına (run), təkmilləşmiş fonetik və qrammatik quruluşuna, leksik tərkibinin əhatəliliyinə əsaslanaraq cəsarətlə demək olar ki, bu abidələrin sahibləri – türkdilli xalqlar yeni eradan çox-çox əvvəl qəbilə ittifaqları, tayfa və tayfa ittifaqları şəklində meydana çıxmışlar. Uzun bir inkişaf yolu keçərək, müxtəlif sistemli dillərlə təmasda olaraq, dəfələrlə ayrılma və birləşmələr nəticəsində sonralar bir neçə böyük qohum dil ailələri şəklində formalaşmışlar. Orta türk dövründə isə 25-ə qədər müstəqil dil müasir türk sistemli dil səviyyəsinə yüksəlmişdir.

Hazırda 30-a qədər müasir türk dili mövcuddur. Türk dilləri ən böyük dünya dilləri ailəsindən biri hesab olunur. Yayıldığı ərazi Şimali Çindən başlayıb, Şərqi Sibiri, Yakutiyanı, Qərbi Sibiri, Altayı, Uralı, Volqaboyunu, Şimali Qafqazı, Zaqafqaziyanı, Cənub-şərqi Avropanı, Balkanları, Kiçik Asiyanı, İranın şimal və şərq hissələrini, Orta Asiyanı, Xəzər hövzəsini əhatə edir. Türk dillərinin dünya dilləri sırasında yerini müəyyənləşdirmək üçün, hər şeydən əvvəl, morfoloji və genealoji meyar əsasında onlara xas xüsusiyyətləri səciyyələndirmək lazımdır. Məlum olduğu kimi, dünya dilləri morfoloji əlamətlərə – kök və şəkilçilərin mahiyyətinə, qarşılıqlı münasibətinə görə iltisaqi, flektiv və amorf dillər

olmaqla üç qrupda birləşdirilir. Türk dilləri bu meyara görə iltisaqi dillər qrupuna daxil edilir. Türk dillərinin tarixi inkişaf mərhələlərini dəqiq müəyyənləşdirmək çox çətindir. Bu hər şeydən əvvəl əldə olan qədim yazılı abidələri ətraflı şərh etməklə bağlıdırsa, digər tərəfdən də türk sistemli dillərin həm ölüb getmiş, həm də müasir dialekt və şivələrini, ayrı-ayrı türk dillərinin fonetik, leksik və qrammatik quruluşunu müqayisəli şəkildə səciyyələndirməklə üzvi şəkildə bağlıdır. R. Rack, T. Stralenberq, V. Şott, M.Müller, V. Kotviç, M. Kastern, U.Nemet, L. Liketi, J. Bentsinq, K. Menqes, Q. Ramsted, B. Vladimirtsev, V. Radlov, S. Malov, N. Baskakov kimi tədqiqatçılar qədimlərdən başlayaraq bu günə qədər türk dillərinin inkişaf tarixini müəyyən mərhələlərə, dövrlərə bölmüşlər:

1. Altay dövrü.
2. Hun dövrü.
3. Qədim türk dövrü.
4. Orta türk dövrü.
5. Yeni türk dövrü.
6. Ən yeni türk dövrü.

Türk ellərindən görüntülər – çadır obalar, at ilxıları, insanlar milli geyimlərdə. Əzəmətli tikililər, qurub-yaradan, rəqs edən, sevinən insanlar təqdim olunur.

MƏTN: – Dünyaya xalqlar, millətlər, insanlar arasında nizam, harmoniya yaratmaq üçün gəldiklərinə həmişə ürəkdən inanan türklər dünyanı öz iradələrinə tabe etməyə çalışmaqdan çox,

zamanın, dövrün xarakterini müəyyənləşdirməyə, böyük dünyəvi proseslərin arxasınca deyil, önündə getməyə cəhd etmişlər. Türkləri qaniçən, davakar, despot kimi tanıtmaq istəyən bəzi dırnaqarası tarixçilər indiyə qədər yazdıqlarına, söylədiklərinə bir fakt, bir sübut, bir hadisə belə şahid çekə bilməmiş, əvəzində isə böhtançı adını qazanmışlar.

Türklər əsrlər, hətta min illər boyu dünyanın müxtəlif xalqları ilə sülh şəraitində yaşamış, qurduqları nəhəng imperiyalarda bütün millətlərə yer vermiş, dünyanın vaxtaşırı pozulan harmoniyasını bərpa etmək üçün böyük ideologiyalar yaratmışlar.

İnsanları əl-əlvan geyimlərdə, bayram əhvalında olan bir saxa məclisindən görüntülər. Mərasim oyunu tamaşaçılara olduğu kimi təqdim olunur…

MƏTN: – Zaman dördnala çapdıqca öz köhlənilə naxışlar vurdu yer üzünə. Kimlərisə, nələrisə öz sürət dəyirmanında izsiz-soraqsız üyütdü. Kimlərin, nələrinsə izini qoydu özünü əbədiləşdirən həmin naxışlarla yer üzündə.

Əbədiləşən, ölməzliyə qovuşan aləmlərdən biri də Ulu Tanrı tərəfindən gündoğandan günbatana qədər uzanan bir ərazidə yerləşən türk dünyası oldu… Böyük Turan adlandı bu yerlər. Bu Böyük Torpaq üzərində məskunlaşdırdığı millətə türk adı verdi Ulu Tanrı. Tarixə bu adla daxil oldu bu Böyük Turanın sakinləri.

Lakin tarix dediyimiz zamanın

qovğalarından kənarda qala bilmədi bu böyük torpaqda… Zamanın sınaqları, dövrün ağrı-acılı, dünyanın tərsinə işləyən dəyirmanı öz işini gördü. Turan – Böyük Torpaq parça-parça oldu. Hər parçaya toplumunun adını verdi onun sakinləri: qazax, qırğız, uyğur, tatar, türkmən, özbək…

Xoşbəxtlikdən zamanın ancaq adları dəyişməyə gücü çatdı, mahiyyəti, məkanı dəyişə bilmədi. Ulu Tanrının buyurduğunu, yaratdığını dəyişə bilməzdi de. Nə qədər qovğalı, nə qədər keşməkeşli olsa da dünya…

Kadr dəyişir. Professor Nizami Xudiyevin çıxışı efirə verilir.

NİZAMİ XUDİYEV: – Bəşər tarixində heç bir xalq, heç vaxt uzun müddət müəyyən məhdud bir coğrafi ərazidə təkbaşına qapanıb qalmayıb. Millət öz keçmişinə isnad edib, təmasda olduğu xalqlardan öyrənib və özünün yaxşı cəhətlərini də başqalarına təlqin edib. Bu, qədim və güclü türklərə də aiddir. Türklər çinlilər, hindlilər, bizanslar, farslar, ərəblər və bir çox başqa xalqlarla qonşu olmuş, dostluq əlaqələri yaratmış və bəzən də mənafelər toqquşanda üz-üzə gəlmişlər.

Qədim türklər dünyanın, insanlığın istər iqtisadi-təsərrüfat, istərsə də dövlət-mədəni quruculuq cəhətdən ümumbəşəri dəyərlərinin formalaşmasında müstəsna rol oynayıblar. Lakin bu şərəfli tarix onların özləri tərəfindən heç vaxt yazıya, qələmə alınmayıb. Hər zaman tarixin

sükanı arxasında olmağa öyrənən türklər bu tarixi yaradıblar, yazmağa lüzum görməyiblər. Və bu gün tarix müəyyən qədər olsa da bu böyük millət, bu xalqlar qarşısında öz borcundan çıxmağa çalışır.

Əlbəttə, çox istərdik əsl həqiqətlər üzə çıxsın. Bu qədim xalq dünya xalqları içərisində, nəhayət, öz layiqli yerini tutsun. Bunun üçün də bu tarixi, bu elmi, bu keçmişi özümüz qədər canıyananlıqla, dərindən araşdıran olmayacaq. Elə isə, həm də qan yaddaşının söylədikləri ilə uzaq əsrlərə daha bir diqqət, nəzər.

Türk dillərinin tarixi quruluşunu göstərən cədvəllər, sxemlər, yazılar təqdim olunur.

MƏTN: – Türk dillərinin tarixinin öyrənilməsində ən qədim türk dövrü iki mərhələni özündə birləşdirir: Altay və Hun mərhələlərini. Bu dövrün göstəricisi olan maddi yazılı abidələr zəmanəmizə qədər gəlib çıxmamışdır. Türkdilli xalqların yerləşdiyi ərazilərdə aparılan arxeoloji qazıntılar, qədim yunan, ərəb və Çin mənbələrində verilən məlumatlara əsasən miladdan əvvəl birinci minilliyə qədər davam edən Altay imperiyasının varlığı haqqında da danışmaq mümkündür. Tədqiqatçılar yeni eradan əvvəl (üçüncü minillikdə) Mərkəzi Asiyada bürünc dövründəki mədəniyyəti Qəbir daşları mədəniyyəti adlandıraraq, onu türkdilli xalqlarla əlaqələndirirlər. Qəbir daşları dövrünə üzərində daha çox maral şəkli ovulmuş hündür daşlar, o

dövrdə istifadə olunun alətlər, qayalar üzərində həkk olunmuş rəsmlər daxildir. Tuvada skif məzarlarından aşkarlanan məişət, döyüş əşyaları bu ərazidə skif-Sibir mədəniyyətinə malik qədim türk-tuva qəbilələrinin məskən saldığından xəbər verir. Altay dövründə bu ərazidə üç böyük dil silsiləsinin varlığından danışmaq mümkündür: türk dilləri ailəsi, monqol-tunqus-mancur dilləri ailəsi və uqor-fin dilləri ailəsi. Məhz bu dövrdə həmin dil ailələri arasında uzun müddət əlaqə, ünsiyyət olmuş, onların daha çox leksik, qismən də fonetik və qrammatik quruluşunda uyğunluqlar əmələ gəlmişdir.

Ən qədim türk dövrünün Hun mərhələsi eramızdan əvvəl birinci minillikdən başlayıb eramızın beşinci əsrinədək davam etmişdir. Bu dövr Hun imperiyası adı ilə məlum olan böyük və qüdrətli qəbilə birləşməsinin inkişafı ilə xarakterizə olunur. Bu imperiya Mərkəzi Asiyadan başlayıb Şərqi Avropayadək olan sahəni tutmuş və çoxlu türk-monqol, tunqus-mancur və başqa qəbilələri ətrafında birləşdirmişdir. Asiya və Avropa xalqlarının tarixində əsaslı rol oynamışdır.

* * *

Eramızın I əsrində Hun dövləti iki hissəyə – Qərbi Hun və Şərqi Hun dövlətlərinə bölünür. Sonralar bunlardan Qərbi Hun dövləti və Şərqi Hun dövləti əmələ gəlir. Bu dövrdə türk dillərinin qrammatik quruluş və əsas lüğət fondu daha da

zənginləşir, Hun dilinin qədim Bulqar, Xəzər və Çuvaş dilləri ilə genetik uyğunluğundan da bəhs olunur. Əski Çin mənbələrindən məlum olur ki, hunların öz yazısı olmuşdur. Əhalinin hesabı aparılan, vergi müəyyənləşdirən kitablar da təsis etmişdilər. Təəssüf ki, həmin hun yazıları zəmanəmizə gəlib çatmamışdır. Ola bilsin ki, run əlifbasının yazısının əsasını məhz elə həmin hun yazısı təşkil edir.

Bu dövrdə türkdilli xalqların qəhrəmanlıq eposlarının da varlığı şübhə doğurmur. Belə ki, arxeoloji qazıntılar nəticəsində əldə edilən materiallardan, kəmər toqqalarına həkk olunmuş rəsmlərdən bunlar aydın görünür. Hun imperiyası dövründə bu ərazidə bulqarların, xəzərlərin, avarların, qırğızların, yakutların, qıpçaq və oğuzların dil ailəsi kimi qəbilə və tayfa ittifaqları şəklində formalaşması da özünü göstərir. Burada oğuz-karluq-qıpçaq tayfaları hələ bir-birlərindən təcrid olunmamış şəkildədir.

Bu həm də türkün qədim tarixinin dastanlaşdığı zamanlar idi.

Ucsuz-bucaqsız çöllər, intəhasız torpaq və bu yurd yerlərində qılınc oynadan, at çapan atlılar, igidlər təqdim olunur.

MƏTN: – Üç min il əvvəl… Tarixin dastanlaşdığı dövr… Qurd nəfəsli, dağ sinəli igidlər Asiyanın bir ucundan digər ucuna at çapırdılar… Onlar ulu əcdadlarımız, yenilməz dədələrimiz qədim türklər idi…

Üç min il əvvəl tarixin dastanlaşdığı dövrdə başlarında Alp Ər Tunqa vardı. Onlara «Sakalar» deyirdilər… Dünya çox kiçik idi sakalar üçün. Altay ətəklərində gecələyər, Qafqazda gəzər, Anadolu yaylaqlarında dolaşardılar. Başlarında Xaqan Alp Ər Tunqa dünyanı qələbəylə bəzəyərdilər. Türkün izlərini həkk edirdilər zamanın yaddaşına.

Onu «Şahnamə»dən tanıyırıq…

Onu «Kutat-qu-bilik»dən tanıyırıq…

Alp Ər Tunqa atamız türk xalqlarından əmələ gələn sakalar, Asiyanı elə böyük bir qüvvət halına gətirdi ki, bununla da sakalardan sonra Asiyada türk əzəmətini ucaldacaq olan hunlara əlverişli bir şərait yaratdı.

Çin kitablarında, keçmiş yunanlara qımız içən, türk çadırından istifadə edən sakalardan (iskitlərdən) danışılan zaman farslar çıxdı onların qarşısına. Alp Ər Tunqanın gücünü, ordusunu görüb bu döyüşdən yayınmaq istədilər, aman vermədi igid türk xaqanı. Həqiqətən Anadoluda, Azərbaycanda, Orta Asiyada iranlılarla ölüm-dirim savaşı aparan sakalar bu gün türk xalqlarının ərazilərini, vətənlərini elə o vaxtdan, o günlərdən sübut etməyə, sınırlamağa çalışırdılar. Sakaların şanlı xaqanı Alp Ər Tunqa miladdan öncə yeddinci yüzilin Asiyasının qəhrəmanlıq abidəsi olaraq dastanlarda hələ də yaşamaqdadır. Yalnız türk dastanlarından deyil, digər millətlərin şifahi ədəbiyyatlarından da onun böyük bir xaqan olduğunu öyrənə bilirik.

İran şairi Firdovsi «Şahnamə»sində yazır ki:

«Turan şahzadəsi Əfrasiyab (Alp Ər Tunqa) atasının məsləhəti ilə İrana hücum etdi. İki ordu Dihistanda qarşılaşdı. Boyu sərv kimi, sinəsi və qolları aslan kimi, fil qədər güclü olan Əfrasiyab iranlılara qalib gəldi, İran padşahı Əfrasiyabın əlinə keçdi…»

Yusif Xac Hacib «Kutat-qu-bilik»də belə yazır: «Türk bəyləri içində adı tanınmış Alp Ər Tunqa çox məşhur, savadlı və fəzilətli bir hökmdardır. İranlılar ondan çəkinib adına Əfrasiyab deyirlər».

Mahmud Kaşğarlı türklüyün və türk dilinin qüruru, fəxri olan «Divani-lüğət-it türk» adlı əsərində Alp Ər Tunqadan söz açır, sakaların bu tanınmış xaqanının qəhrəmanlığını öyür. Qəzvin şəhərinin onun qızının adına adlandırıldığından soraq verir. Yenə həmin əsərdə Alp Ər Tunqanı «dünya xanı» adlandırır.

* * *

Alp Ər Tunqanı düşmənlər miladdan öncə 624-cü ildə hiylə ilə öldürdülər.

Alp Ər Tunqanın qanı yerdə qaldımı?

Yüz il sonra, anaların cəsur ürəkli oğlanlar, qızlar doğduğu çağda, saka türkünün bəxt üfüqündə Tomris (Dəmir iz) xatun dünyaya gəldi… Tomris xatun Alp Ər Tunqanın nəvəsiydi. Əbədi həyat burulğanında buyruğu altındakı sakalarla bir fırtına kimi əsdi. Və qanını yerdə qoymadı babasının. İran şahını döyüş meydanında türkə yaraşan bir igidliklə məğlub etdi. Beləcə

babası Alp Ər Tunqanın qanını aldı… Türk xalqları böyük xaqanları Alp Ər Tunqanı unutmadı, ölümünün acısı könüllərində, dastanlarda, nəğmələrdə yaşadı.

Yüz illərdir ki, Asiyanın çöllərində – ozanların, aşıqların sazında onun ölümünə ağılar dolaşır, dastanlar söylənir:

«Alp Ər Tunqa öldümü?!
İzsiz dünya qaldımı?
Zaman öcün aldımı
İndi ürək dağlanır…»

Kadr dəyişir. Professor Nizami Xudiyevin çıxışı efirə verilir.

NİZAMİ XUDİYEV: – Qarşıdakı görüşlərimizdə ulu əcdadlarımızın – qədim türklərin tarixindən hələ çox danışacağıq. İndi isə yenə qayıdırıq bu böyük tarixin, mədəniyyətin ən dəyərli göstəricilərindən, vacib şərtlərindən biri olan qədim türkcəmizə. Türk dillərinin yarandığı, yayıldığı məkan, bu dildə danışan xalqlar, bu dillərin əlifbasının, yazısının tarixində üçüncü dövr V-X əsrləri əhatə edən qədim türk epoxasıdır.

Bu dövr üç mərhələyə bölünür: 1) V-VIII əsrləri əhatə edən Tukyuy – (göytürk) mərhələsi, 2) VIII-IX əsrlər qədim uyğur mərhələsi, 3) IX-X əsrləri əhatə edən qədim qırğız mərhələsi. Qədim türk dövrünün xüsusiyyəti ondan ibarətdir ki, bu dövrdə türk və monqol dilləri tamamilə diferensiallaşır. Monqol dillərinin inkişafı əsas etibarilə Şərqi Hun qəbilələri tərkibinə daxil olan

qəbilələrlə bağlı olur. Türk dilləri isə bundan əlavə qərbdə geniş yayılır. Qərbi Hunlar rast gəldiyi digər türk tayfalarını, eləcə də başqa qəbilələri məğlub edir, ətrafına birləşdirir və onlar IV əsrdə Qərbi Avropaya çatırlar. Hun dövləti dağılandan sonra bulqar və xəzərlərin ittifaqına daxil olurlar.

MƏTN: – Qədim türk əlifbası haqqında ilk məlumata eramızın VI yüzilliyindən başlayaraq tərtib olunmuş tarixi sənədlərdə təsadüf edilir. Suriya xronikasının müəllifi Zaxariya Ritter VI yüzillikdə bu haqda belə deyir: «Ağıllı hunların hun dilində öz əlifbaları da var idi».

Müəllifin yazdığına görə, bunu ona daha əvvəllər hunlar ölkəsində olmuş adamlar danışmışlar.

Maraqlıdır ki, 1950-ci illərdə YUNESKO xətti ilə İranda aparılan qazıntılar zamanı tapılan və eramızdan əvvəl V əsrə aid edilən hunlara məxsus yazılarla əski göytürk yazıları arasında ciddi qrafik fərq yoxdur.

Əgər VI əsrədək türk xalqlarının dilləri haqqında əldə elə bir materiallar yoxdursa da, göytürk dövrünə aid VI-VIII əsrlər Orxon-Yenisey abidələri vardır.

* * *

Başqa bir məlumata görə, 568-ci ildə Bizansda olmuş türk səfiri türk xaqanının sağdan sola üfüqi istiqamətdə yazmış olduğu məktubu

Bizans imperatoruna təqdim etmişdir. Tədqiqatçılar həmin məktubun məhz göytürk əlifbası ilə yazıldığını güman edirlər. Buna bənzər məlumata IX-X yüzilliklərin təzkirələrində məşhur ərəb tarixçisi Təbəərinin kitabında da rast gəlirik.

Göytürk əlifbasının mövcud olması haqda qeyd Mahmud Kaşğarinin «Divan»ında da yazılmışdır. Bəllidir ki, Mahmud Kaşğari material toplayarkən yalnız islam dininə etiqad bəsləyən türk qəbilələrini, onların dilini, adət-ənənələrini öyrənməklə məşğul olmuşdur. Beləliklə, XI yüzillikdə budda, xristian, yəhudi, taman dinlərinə və etiqadlarına, inanclarına tapınan türk qəbilələrinin tədqiqi alimin diqqət mərkəzindən kənarda qalmışdır. Mahmud Kaşğari çox ötəri bir şəkildə göstərir ki, «uyğur və tabğaclar»ın bir də özlərinə məxsus ayrı yazıları vardır ki, işgüzarlıq kağızlarını həmin əlifba ilə yazırlar».

Mahmud Kaşğarinin yazdığına görə bu əlifba ilə tərtib olunan mətnləri müsəlman olmayan uyğurlardan və çinlilərdən başqa heç kəs oxuya bilmirdi. Deyilənlərdən aydın olur ki, islam dinini qəbul edən türk qəbilələri həmin gündən öz ənənəvi türk əlifbalarını unutmuş və ərəb əlifbasını yazılarına gətirmişlər.

Qədim əlyazmalardan günümüzə yetişən miniatürlər bir-bir ekrana gəlir. Mətndəki hadisə sanki canlı kadrlara çevrilir. Qədim yazılar, Mahmud Kaşğarinin «Divan»ı… Uyğurların yaşadığı yerlər, Turfan ətrafı görüntülər…

MƏTN: – Klyaştornıya görə Mahmud Kaşğarinin haqqında bəhs etdiyi yazı göytürk əlifbasıdır və ondan Dunxanda və Turfanda yaşayan uyğur qəbilələri istifadə etmişlər. Belə ki, indiyədək əldə edilən bəzi tapıntılar . Şərqi Türküstanda uyğur qəbilələrinin göytürk əlifbasından hətta XII yüzillikdə də istifadə etdiklərini göstərir. Mahmud Kaşğaridən yüz il sonra İran alimi Fəxrəddin Mübarəkşah Mərvərdi də türk qəbilələrinə məxsus yazıdan bəhs edərkən məhz göytürk əlifbasını görmüşdü. O, həmin yazını «doqquz oğuz əlifbası» adlandırmışdır. Maraqlı burasıdır ki, IX yüzillikdə ərəb mənbələrində hunları da doqquz oğuz adı ilə tanımışlar. Bu cəhətdən İran tarixçisi Məlik ibn Cüveyninin XIII yüzillikdə verdiyi məlumat da maraq doğurur. 1260-cı ildə Monqolustana etdiyi səfər zamanı ibn Cüveyni VII-IX yüzilliklərdə dağılmış qədim uyğur şəhərində – Qaraqorumda torpaq altından çıxarılan böyük daş üzərindəki yazıdan bəhs edir. O göstərir ki, bu yazını heç kəs oxuya bilmir. Olsun ki, dövrümüzə qədər gəlib çatmayan həmin daş üzərindəki yazı da göytürk əlifbası ilə yazılmışdı. Çünki haqqında bəhs olunan şəhərin xarabalıqlarından tapılmış bəzi yazılar doğrudan da göytürk əlifbası ilə yazılıb.

Çöllük. Orxon-Yenisey abidələri, yazısı balballar, bəngüdaşlar sehrli bir musiqi ilə təqdim olunur.

MƏTN: – Orxon-Yenisey abidələrindən ilk dəfə XII əsrdə tarixçi Alaəddin Ata Məlikin «Cüveyni

tarixi cahangüşa» adlı əsərində bəhs edilmişdir.

XIII yüzillikdən sonra uzun müddət göytürk əlifbası ilə yazılmış abidənin tapıntısı haqqında heç bir məlumata təsadüf olunmur. Beləliklə, göytürk əlifbası türk qəbilələrinin islam dinini qəbul etmələri və kütləvi halda bir ərazidən başqa əraziyə köçmələri, apardıqları ağır müharibələr, düşdükləri vəziyyət, tutduqları siyasi mövqe ilə bağlı olaraq tamamilə unudulmuşdu. Ona görə də türk qəbilələrinin gələcək nəsilləri bir neçə yüz il ərzində həmin yazıları oxuya bilməmiş və hətta müxtəlif əşyalar üzərində qalmış yazılı sənədlərin hansı xalqa mənsub olduğundan belə xəbərsiz idilər. Sonralar hansı dildə yazıldığı, hansı xalqa mənsub olduğu sirr olaraq qalan bu qədim yazılı sənədləri yenidən oxumağa, yazıldığı dili müəyyənləşdirməyə maraq göstərənlər Avropa səyyahları, diplomatları və alimləri olmuşlar.

Orxon-Yenisey kitabələri. Daha çox Yenisey boyunca aşkarlanan yazılı daşlar. «Kızıl şəhər» milli tarix muzeyində sərgilənən abidələr.

MƏTN: – Kitabələr haqqında ilk məlumatı avropalılara Niderlandın paytaxtı Amsterdam şəhərinin burqomistri Nikolay Vidzen vermişdir. Onun 1692-ci ildə çapdan çıxmış «Nord and Oasi Tartarye» adlı kitabında oxuyuruq ki, … Verxoturye çayından bir qədər aralı qayada bir neçə şəkil və naməlum hərflərlə yazılmış yazılar tapılmışdır. O yerlərin ən qocaman sakinlərinin dediyinə görə, həmin yazılar moskvitlərin, yəni

rusların bu ölkəni fəth etdiyi zamandan əvvəl də orada olmuşdur. Beləliklə, bu şəkillərin nə vaxt və kim tərəfindən çəkilməsi haqqında heç bir dəlil yoxdur.

N. Vidzenin məlumatından bir qədər sonra Tobol boyarlarından birinin oğlu Seymon Remezov da Orxon-Yenisey abidələri haqqında xəbər verir. Məlumdur ki, 1696-cı ildə I Pyotrun göstərişi ilə «Sibirin bütün şəhər və torpaqlarının xəritəsi» və «Bütün susuz və çətin keçilən daşlıq çöl torpaqlarının xəritəsi» adlı iki böyük xəritə hazırlanaraq 1697-ci ildə nəşr etdirilir. S. Remezov bu xəritələrdə Talas çayı sahilində, indiki Qırğızıstanın Talas şəhərinin yanında topoqrafik işarə kimi «Orxon daşı» işarəsini qoyur. Sonralar, yəni 1896-1897-ci illərdə V. Kallaur və Q. Heykel də həmin işarənin göstərildiyi yerdə qədim türk əlifbası ilə yazılmış və türkologiyada Talas kitabələri adı ilə tanınmış qədim türk abidələrini tapırlar.

İstər N. Vidzen, istərsə də S. Remezov qədim türk Orxon-Yenisey yazılı abidələri haqqında dolayısı ilə məlumat verir, onların olduğu yerləri göstərir, lakin abidələrin özləri haqqında elmi əhəmiyyət daşıyan heç bir söz demirlər.

Qədim türklərin yaşadığı və yazılarının izlərini qoruyub saxlayan yerlər xəritələrdə göstərilir… Koşo Saydam bölgəsi.

MƏTN: – Rus alimi N. Yadrintsev 1885-ci ildə Yenisey abidələri haqqında yazdığı məqalədə deyirdi:

«Yenisey yazılarının və Sibir balballarının hansı xalqa məxsusluğu məsələsini həll etmədən də biz deyə bilərik ki, bu abidələrin mənşəyi çox qədimdir. Bəlkə də İsanın anadan olmasından əvvəlki vaxtlara aiddir. Bu abidələrin 2000 il salamat qalması çox təəccüblüdür. Güman etməyə əsas var ki, bu abidələr türk qəbilələrinə məxsusdur. Türkoloji ədəbiyyatda Koşo Saydam abidələri adlanan və Orxon-Yenisey əlifbasının kəşfinə səbəb olan Kül Tikin və Bilgə xaqan abidələrinin tapılması da 1889-cu ildə barada ekspedisiya rəhbəri olmuş N. Yadrinstevin adı ilə bağlıdır».

N. Yadrinstevin Kül Tikin abidəsi ilə bağlı yazdığı məlumatından: «Qeyri-adi davamlı və möhkəm qranit əsrlərdən bəri aşınmamışdır və minillik qədimliyi göstərir. Bunlar Sibirin başqa yerlərində də rast gəldiyimiz sirli run yazısından ibarətdir».

Kadr dəyişir. Professor Nizami Xudiyevin çıxışı efirə verilir.

NİZAMİ XUDİYEV: – Orxon-Yenisey əlifbasının oxunması üzərində Danimarka alimi professor V.Tomsenin xidmətləri əvəzsizdir. O, 1893-cü il dekabrın 15-də Danimarka Elmlər Akademiyasının iclasında Orxon-Yenisey yazılarının oxunması haqqında məlumat verməklə, Kül Tikin abidəsindəki dörd sözü – Tenri, türk, kül və tikin sözlərini oxuyur. O vaxta qədərsə akademik V. Radlov bu yazıların 20-yə

qədər işarəsini artıq açmışdı. 1899-cu ildə P. Melioranski «Kül Tekin şərəfinə abidə» kitabını nəşr etdirir. 1891-ci ildə N. Yadrintsev «Ongin abidəsi»ni kəşf edir. Altı il sonra Orxon çayının qolu Talas çayının sahilində Tonyukuk şərəfinə qoyulmuş abidə aşkarlanır. 1896-1897-ci illərdə Semireçyedə qədim türk Orxon-Yenisey əlifbası ilə yazılmış daha yeni bir kəşf edilir.

Bütün bu söylədiklərimiz tədqiqatçıların apardığı böyük işlər, qədim türk tarixini, daha çox onun yazılı abidələrinin aşkarlanmasında atılan ilkin uğurlu addımları idi. İkinci belə tapıntıların yüksəliş dövrü 1909-cu ildə Ratstedtin Monqolustana ekspedisiyası zamanı Süci və Selenqa çayı sahillərində tapılmış qədim türk abidələridir. Bu abidələr uyğur sülaləsinin birinci xaqanı Moyon Çorun şərəfinə ucaldılmışdır. Dilçilik baxımından da bu abidələr böyük əhəmiyyət daşıyırdı. Özlərini türk, göytürk, oğuz adlandıran qəbilələrin dili ilə uyğur qəbilələrinin arasındakı uyğunluqları, müəyyən qədər fərqləri də bu abidələrdən araşdırmaq mümkündür.

E. Bloşenin fikrinə görə, runik yazılarını qədim türklər əcdadları hunlardan almışlar. A. Aristovun fikrinə görə runik yazılar qədim türklərdə işlənən damğalardan əmələ gəlmişdir. H. N. Orkun da bu fikri təsdiq edir. Doğurdan da bəzi hərflərin damğaya oxşarlıqları vardır. Orxon-Yenisey yazılarının əlifbası hərflərin vahid sistemini təşkil edir. Orxon yazılarında hərflərin Yenisey yazılarından fərqi ancaq üslubi cəhətdəndir. Yenisey yazılarında hərflərdə daha

qədim xüsusiyyətlər özünü göstərir.

Orxon-Yenisey abidələrinin lüğət tərkibi V-VIII əsrlər üçün zəngindir. Burada qəbilə və xalq həyatının müxtəlif sahələrinə aid sözlər vardır. Bu materialların leksik tərkibindən aydın olur ki, Orxon-Yenisey abidələrinin dilində nitq hissələri artıq formalaşmışdır. Abidələrin lüğət tərkibində başqa dillərin sözləri azdır, tək-tək Çin sözləri vardır. Məsələn: *kunçuy* (şahzadə), *çıntan* (sandal ağacı)…

Əgər Orxon-Yenisey abidələrinin lüğət tərkibini müasir Azərbaycan dilinin lüğət tərkibi ilə müqayisə etsək, tutuşdursaq, lüğət tərkibindəki sözləri 4 qrupa bölmək olar. Birincisi, məna və fonetik tərkibcə müasir Azərbaycan dilindəki sözlərə tam uyğun olan sözlər: *ay, al, ara, at, ata, aş, bəla, baş, bel, bil, bu, buyur, kelin, keyik, gün, gög, gör, altun, yol, arık.*

İkincisi, fonetik cəhətdən fərqli olan sözlər: *ab-ov, adak-ayak, yat-yad, uya-yuva, eder-yəhər*... Üçüncüsü, müasir Azərbaycan dilində işlənməyən, arxaik hesab olunan sözlər: *ün-səs, ürün-işıqlı, çeri-əsgər, ıduk-müqəddəs, eren-qəhrəmanlar, buk-kədər, qəm; esen-sağlam, erk-iradə, koşuc-kütlə*... Dördüncüsü, mənaca dilimizdə dəyişilən sözlər: tez-yerimek, qaçmaq-indi isə sürətli mənasında, kişi-adam, indi isə mərd adam mənasında, olur-oturmaq, yaşamaq; yoluk-görüşmək, indi isə xəstəni görməyə, getməyə deyilir, kalın-çoxlu.

Orxon-Yenisey abidələrində sözlərdə hecaların təşkili ahəng qanununa əsaslanır, yəni

sözlərdə hecaları təşkil edən səslər, ya dilönü (incə), ya da dilarxası (qalın) səslər olmalıdır. Yazı sistemi də bu əsasda qurulmuşdur.

Orxon-Yenisey abidələrinin 30-cu illər tədqiqatçılarından türk alimi H.Orkun və rus alimi S. Malovun gördüyü işləri xüsusi dəyərləndirmək lazımdır.

MƏTN: – Arxeoloq Masson 1931-ci ildə arxeoloji qazıntı zamanı təsadüfən Qırğızıstanda tapılmış «Talas çubuğu» adlanan abidəni aşkarlayır. Bu, dünyada Orxon-Yenisey əlifbası ilə ağac üzərində yazılmış yeganə nüsxədir. Çox keçmir ki, H. Orkun özünün dörd-cildlik «Əski türk yazıtları» əsərini nəşr etdirir. Onun ardınca ötən əsrin 50-ci illərində S. Malovun "Памятники древнотюркской писменности», «Енисейская писминной тюркок», «Памятники древнотюркской писменности» adlı əsərləri nəşr edilir. İ. Batmanovla birlikdə A. Kunaanın «Tuvanın qədim türk abidələri» əsəri də bu mövzuda çox qiymətli tədqiqat işidir.

* * *

NİZAMİ XUDİYEV: – Əldə olan yazılı abidələr üzərində aparılan müşahidələr göstərir ki, indiki türk dillərinin lüğət tərkibi eramızdan çox əvvəl yetkinləşmiş, sabitləşmişdir. Hər hansı bir dilin zənginliyi ilk növbədə onun lüğət tərkibinin zənginliyi ilə müəyyənləşir. Qədim türk yazılı abidələrinin lüğət tərkibini öyrənərkən nəzərə

almaq lazımdır ki, göytürk yazılı abidələri, başqa dillərin təsirindən uzaq olmuşdur. Dövrümüzədək qorunub saxlanan qədim türk yazılı abidələrinin indiki dilimizə yaxınlığını müəyyənləşdirmək üçün daş kitabələrdən qədim bir balbalın lüğət tərkibini indiki Azərbaycan türkcəsi ilə müqayisə etmək kifayətdir ki, həmin sözlərin kök etibarı ilə bütünlüklə türk mənşəli olduğu görünsün.

Türk bodunğ Ötükən yerkə konmıs teyin esidin bəriyəki bodun, kuryakı, yıryakı, önrəki bodun kəlti.

Eki bin ertimiz. Biz eki su boltı. Türk bodun olurğalı, Türk kağan olurğalı, Şantun balıka taluy üqüzgə təğmis, yok ermis. Kağanıma ötünün, sülətdim.

Kırkızda yantımız. Türgəş kağanta körüğ kalti, sabı an təg: öndən kağanğaru su yorılım – timis. Yorımasar, biznikağanı alp ermis. Kaç nən, ersər bizni ölürtəçi küktimtis. Tabğac süsi bar ermis. Ol sabığ esidip, kağanım: bən ebkərü tüsəyintidi.

Altun yısıg yolsuzın asdım. Ertis ügüzük keçiksizin keçdimiz, tün katdımız. Tılığ kəlürti, sabı antağ. Varıs yazıda on tümən sü təriltitir. Ol sabığ eşidip bəglər, kopan.

Kəlmisi alp, – tidi, tuymadı. Tanrı Umay, iduk – Yer-Sub başa berti erinc. Üküş tiyin, nəkə korkur biz, az tiyin. Nə basınalım. Ekinti gün kəlti. Tənri yarlı-kaduk üçün üküs tiyin, biz. Bodun yəmə, bodun boltı uluğ boltım, nənyərdəki kağanlıq.

Türk xalqının Ötükən torpağında, ölkəsində

məskən saldığını cənubdakı xalqlar, qərbdəki, şimaldakı, şərqdəki xalqlar eşidib yaxın gəldilər.

Biz iki min idik. İki qoşun birliyi yaratdıq. Məskən saldığımız torpaqda türk xalqı qalsın, türk xam qalsın, – deyə Şantun şəhərinə, dənizə, çayadək çatmadığımızı xana bildirdim. Xandan xahiş etdim və döyüşçüləri vuruşa apardım…

Qırğız elindən qayıtdıq. Türkəş xanlığından müşahidəçi gəldi. Onun sözləri belə idi: şərqdən anoxların üzərinə qoşun çəkək, – demiş, biz qoşun çəkməsək o, bizə qalib gələcək, onun xanı igid, məsləhətçisi ağıllıdır… Altun meşəli dağdan gəldik.

İrtış çayını körpü olmadan keçdik. Dan yeri qızaranda Bolçuya çatdıq… Dedilər ki, bu yolu keçib gələn igiddir… Düşmən bunu duymadı, qəflətən hücum edib, onlar üzərində qələbə çaldıq. Tanrı Umay, müqəddəs Vətən bizə qələbə bəxş etdilər. Onların iki cəbhəsi iki dəfə bizdən artıq idi. Düşmən çoxdur deyə biz qorxmadıq, vuruşduq. Tarduş şadı vuruşmada iştirak etdi. On ox bəyləri, xalqı qələbəmizi eşidərək gəldi, baş endirdi. Dövlət də dövlət oldu, xalq da xalq oldu.

Təqdim etdiyimiz yazılı abidə mətnindəki sözlər öz fonetik quruluşuna görə indiki dilimizdə işlədilən sözlərə tam uyğun gəlir: *al, öl, altun, alp, oğlan, yarat* və digərləri… Bir qisim sözlər dilimizdə bu və ya digər şəkildə fonetik dəyişmə hadisəsinə məruz qalmış halda qorunub saxlanmışdır ki, bunlardan: *bin, tokuz, tənrı, yok, alır* və s…. Abidədə yüzdən artıq söz indiki dilimizdə tamamilə unudulub sıradan çıxmış

sözlərdir: *bodun-xalq, qəbilə, yığ-yaxşı…* Maraqlıdır ki, ədəbi dilimizdə unudulmuş bəzi sadə və düzəltmə sözlərə bu və ya digər şəkildə indi də bölgələrimizin müəyyən şivələrində rast gəlmək mümkündür.

MƏTN: – Göründüyü kimi, qədim türk yazılı abidələri yüksək səviyyədə inkişaf edib sabitləşmiş ədəbi dildə tərtib olunmuşdu. Bu onu göstərir ki, qədim türk yazı dili eramızın V əsrindən çox-çox əvvəl meydana gəlmiş və uzun inkişaf yolu keçmişdir. Nitq hissələrinin bir-birindən təcrid olunması danışıq dili meydana çıxdığı gündən başlayır. Deməli, qədim türk yazılı abidələrində rast gəlinən nitq hissələrinin əmələ gəlməsi, onların semantik və morfoloji cəhətdən bir-birindən ayrılıb sabitləşməsi hadisəsinin min illərlə tarixi vardır. Ona görə də türk yazılı abidələrinin həm morfoloji, həm də sintaktik quruluşunu öyrənərkən qədim türk dilinin V-X əsrlərdəki qrammatik quruluşu deyil, həmin dövrlərdən çox-çox əvvəlki dil hadisəsini öyrənmək gərəkdir.

Göytürk əlifbası ilə yazılmış qədim türk abidələrinə təkcə Asiya qitəsində deyil, eləcə də Avropa ölkələrinin müxtəlif bölgələrində rast gəlinib və hələ tapılacağı da güman edilir.

Şərqi Avropada üzə çıxarılan yazılı abidələr türk qəbilələrinin Şərqi Avropa ölkələrində məskənsalma tarixləri, Hun imperatorluğunun eramızdan əvvəl qurulduğu dövrdən başlayır. Bu abidələr indiyədək Volqa boyunda, Dunay sahillərində, Azov gölü ətrafında, Şimali

Qafqazda aşkarlanıb. Dunay çayı sahillərində tapılan yazılı abidələrin əski türk qəbilələrinə – peçeneq və bulqarlara mənsub olduğu aydınlaşdırılıb.

Türkdilli Şərqi Avropa yazılı abidələri əsasən bunlardır:

Volqa çayına yaxın ərazilərdə tapılan yazılı abidələr. Bu yazılı mənbələr vaxtilə Volqa çayının aşağı boyunda X yüzilliyə qədər yaşamış qədim Xəzər dövlətinin türkdilli əhalisinə mənsub olmuşdur.

Şimali Qafqazda və Azov gölü sahillərində tapılan yazılı abidələr. Dunay çayı sahillərində tapılan yazılı abidələr.

Volqaboyu, Dunaysahili görüntülər, Xəzər dövlətinin paytaxtı qədim Sarkəldən. Saray şəhərlərindən tapılan yazılı vazalar, döyüş əşyaları…

MƏTN: – Volqa çayına yaxın ərazilərdə tapılan, üzərində göy-türk əlifbası ilə yazılar həkk olunan qədim əşyalar, Novoçerkasskda su qabı üzərində cızma-oyma üsulu ilə yazılan yazıların da türkcə olduğuna vaxtilə etiraz edənlər vardı. İndi bütün bunlar alimlərin sübuta yetirmiş olduqları həqiqətlərdir. Volqa çayının aşağı axını sahillərində – Sarkəl və Saray şəhərləri xərabəliklərində tapılan kaşı qab qırıntıları üzərində aşkarlanan yazılar Xəzər dövlətinin mövcud olduğu zamanların göstəricisidir. Kim bilir Sarkəlin hələ də üstü açılmamış kurqanlarında qədim tariximizin hansı qatları

yaşayır. Sular altında qalan paytaxt şəhərin – Xəzər dövlətinin başkəndi bizlərdən hələ çox tarixləri gizlədir.

Şimali Qafqazda, xüsusilə, Kumranda tapılan yazılı abidələr, göytürk yazı işarələri söz və kiçik mətnlərdən ibarətdir. Onların içərisində qədim şəhər xərabəliklərindən divar üzərində qalmış bir neçə sətirlik yazılı lövhə nisbətən iri həcmlidir. Dunay çayı sahillərində tapılan yazılı abidələrə Macarıstanın Müqəddəs Nikolay və Nadsen-Miklaş kəndlərində aşkara çıxarılan qızıl və kaşı küplər üzərindəki yazıları da daxil etmək olar.

* * *

NİZAMİ XUDİYEV: – Qədim Göytürk yazısının, əlifbasının yayıldığı geniş məkana Azərbaycanın Mingəçevir bölgəsindən tapılan tarixi abidələri də aid etmək olar ki, bunlar haqqında geniş, əhatəli şəkildə tamaşaçılarımıza məlumat verəcəyik.

Son zamanlar nəşr edilən əsərlərdə göytürk əlifbasının, Orxon-Yenisey abidələrinin dilində leksik, fonetik, morfoloji və sintaktik məsələlərə daha çox fikir verilir, yeni yazılar, yeni abidələr aşkarlanır. Qarşıda bu barədə söhbətlərimiz çox olacaq. Hələliksə, bu müqəddəs yolda ilk addım atanlara – adlarını xatırladığımız, zaman-zaman dünyasını dəyişən dahi elm adamlarına rəhmət diləyib, gələcək araşdırıcılara uğurlar arzulayırıq.

«Bilgə xaqanın» xəzinəsinin araşdırıldığı, məzarların

üstündəki böyük sinə daşlarının qaldırıldığı, balbalların oxunduğu, bərpa işlərinin aparıldığı video lentlər təqdim olunur.

1-Cİ FİLMİN SONU

2006

GÜNDOĞANDAN GÜNBATANA…
QƏDİM VƏ YENİ TÜRKLƏR…

II film

Filmin başlığı. Xüsusi effektlərlə sürətlə yığılan təsvirlər fona verilir. Aparıcı filologiya elmləri doktoru, professor Nizami Xudiyevin çıxışı təqdim olunur.

NİZAMİ XUDİYEV: – Türk dili ən böyük dünya dilləri ailəsindən hesab olunur. Türk dilləri lüğət tərkibi və qrammatik quruluş cəhətdən digər dil ailələrindən fərqlənir. Lüğət tərkibində başqa dillərdə olmayan, yalnız türk dillərinə məxsus sözlər vardır. Məsələn: *baş, su, torpaq, dağ, bir, iki, üç, qara, ağ, qırmızı, qız, oğlan, igid, bu, o, mən* və s.

Türk dilləri tipoloji, yaxud morfoloji bölgüdə aqlünativ iltisaqi dillər qrupuna daxildir. Türk dillərində söz kökləri dəyişməz qalır, şəkilçilər, morfoloji əlamətlər sözlərin sonuna qoşulur. Məsələn: *ək-in-çi-lik-də; ya-ra-dı-ci-lıq-da* və s. olduğu kimi. Azərbaycan dili, türkmən dili, qaqauz dili, karaçay dili, kumık dili, karaim dili, tatar dili, çuvaş dili və s. Bu gün danışılan dillərlə yanaşı danışılmayan, ünsiyyəti tarixin uzaq qatlarında daşlaşmış ölü türk dilləri də mövcuddur.

1. Peçenek dili. XI-XIV əsrlərdə step köçərilərinin dili idi.

2. Poloves dili. Yenə XI-XIV əsrlərdə step köçərilərinin dili olmuşdur.

3. Cağatay dili. XIV-XVI əsrlərdə Orta Asiyada ədəbi dildir.

4. Qədim uyğur dili. IX-XI əsrlərdə Mərkəzi Asiyada böyük dövlətin dili olmuşdur.

5. Bulqar dili. VI-VIII əsrlərdə Volqa və Kama çayı ətrafında əmələ gəlmiş Bulqar dövləti əhalisinin dili idi.

6. Xəzər dili. VIII-X əsrlərdə Volqa və Don çaylarının aşağı məcrasında yaranmış böyük dövlətin dilidir.

7. Orxon dili. VII-VIII əsrlərdə Şimali Monqolustanda Orxon çayı ətrafında yaranmış güclü dövlətin dili olmuşdur. Etimoloji təsnifata görə türk dilləri monqol dilləri ilə bir qrupa, bir ailəyə daxil edilir və Altay dilləri, yaxud Turan dilləri ailəsi adlanır.

Bundan əvvəlki görüşümüzdə türk dillərinin tarixi ilə bağlı müəyyən qədər araşdırmaları, dövrləri diqqətinizə çatdırmışdıq. Sizinlə birlikdə həmin söhbətimizin davam etdirəcəyik.

Türk dillərinin tarixinin öyrənilməsində qədim türk dövrünün uyğur mərhələsi xüsusi yer tutur. Bu dövr təqribən 745-840-cı illəri əhatə edir. Uyğurlar da Tukyu dövlətinin tərkibinə daxil olan tayfalardan biri idi. Onlar Yenisey və Selenqa çayları arasında yerləşmişdilər. Uzun müddət – Hun imperiyasının süqutundan 610-cu ilə qədər jujanlarla mübarizə aparmış, özlərinə,

əlli ilə yaxın davam edən kiçik bir dövlət də qurmuşdular. Sonra isə onlar Tukyu dövlətinin tərkibinə qarışmışlar.

Qədim türk yazı sistemini əks etdirən cədvəllərdən bobsley təqdim edilir.

MƏTN: – Qədim uyğurlar öz əlifbalarında bir neçə yazı sistemindən istifadə etmişlər. «Moyon-Çor» və «Falnamə» kimi qədim uyğur abidələri günümüzə Orxon-Yenisey əlifbası ilə gəlib çatmışdır. Eləcə də bəzi uyğur əlyazmaları brahmi yazısı ilə yazılmışdır. Bu yazı fonoqrafik yazı forması olduğundan digər əlifbalara nisbətən əski türkcənin səs quruluşunu ifadə etmək baxımından çox əlverişli idi. Əski uyğur yazılı abidələrinin çox hissəsi manixey və qədim uyğur əlifbası ilə yazıya alınmışdır.

Qədim Uyğurustan xalq oyunu. Bir kənd məktəbi təqdim olunur.

MƏTN: – Əski türk yazılı abidələri qədim türk ədəbiyyatını, türk şeir texnikasını, onun qanunauyğunluqlarını öyrənmək baxımından böyük elmi əhəmiyyət kəsb edir. Göytürk abidələri qədim xüsusiyyətlərə daha çox malik olsa da, əski uyğur abidələrinin türk xalqları ədəbiyyatı və dilinin tarixində mühüm rolu və əhəmiyyəti olduğunu xüsusi qeyd etmək lazımdır. Hər şeydən əvvəl IX-XII əsrlərdə uyğurlar Mərkəzi Asiya regionunda çinlilərdən sonra ən

mədəni və inkişaf etmiş xalq olmuşdur. Bu fikri XX əsrin ilk illərində Çinin şimal-qərbindəki Turfan əyalətində aparılmış arxeoloji qazıntı zamanı qədim uyğurlara aid əldə olunmuş materiallar da təsdiq edir.

Qədim uyğurlar türk xalqlarının mədəniyyəti tarixində – söz və ozan sənətinin, bədii ədəbiyyatın, onun növ və janrlarının inkişafında böyük xidmət göstərmişlər. Bu məqsədlə onların Çin və hind mədəniyyətinin dünyaca məşhur olan ədəbi incilərini ana dilinə çevirmələri xalqın mədəni inkişafına, ədəbiyyatın və ədəbi dilin zənginləşməsinə az təsir göstərməmişdir.

Qədim türk yazılı abidələrində işlənmiş alınma sözlər əsasən Çin, sanskrit, qismən soğd, Tibet və Toxar sözlərindən ibarətdir. Burada nadir hallarda ərəb və fars dilindən alınmış sözlərə təsadüf edilir. Həmyerlimiz məşhur türkoloq və şərqşünas alim Mirzə Kazım bəy uyğur qəbilələrinin tarixini, yazı mədəniyyətini öyrənmək sahəsində ilk rusiyalı alim hesab edilir. O, 1841-ci ildə «Uyğurlar haqqında tədqiqat» adlı monoqrafiyasını çap etdirir və bununla da Rusiyada uyğurşünaslığın əsasını qoyur. İndiyədək əldə edilən uyğur yazılı abidələri içərisində Çində Turfan vahəsində tapılan uyğur yazıları sayca çoxluğuna görə diqqəti daha çox cəlb edir.

Qədim uyğur maniçi ədəbiyyatından müasir türkcəmizə çevrilən bir ədəbi nümunə ilə o dövrün düşüncə tərzi, tarixi, uyğurların inancından bir soraq… Yeri gəlmişkən, sonra

yaranan burkançı ədəbiyyat daha dini mahiyyət daşıyıb uyğurların bir müddət buddizmə sitayişi ilə bağlı yaranan, dünyagörüşü, ədəbiyyat, sənət nümunələri olacaqdı.

Beləliklə, uyğur maniçi ədəbiyyatından «Xaqana ərz» poeziya nümunəsi:

Bozqurd kimi sənin ilə yüyürəyim,
Qara quzğun kimi torpaq üstə qalayım.
Güclü, elə bəyimizsiniz,
Yenə qələbəlik qoşununuzu
Geniş qoynunuzda
Qorur, gözləyir, tutarsınız.

Uyğurustan görüntüləri, tarixi yerlər, yarısı torpaq altda, yarısı torpaq üstə qədim bəngüdaşlar, məzarlıqlar təqdim olunur.

MƏTN: – Uyğur türkləri 745-ci ildə türk xaqanlığının hakimiyyəti başına keçdikdən sonra Orxon yazısını bir müddət işlətməkdə davam etdilər. Bu dövrdə tikilən bəzi uyğur bəngüdaşlarındakı kitabələr Orxon yazısı ilə yazılmışdır. Bunlardan biri «Tanrıda bulmuş El etmiş Bilgə Xaqan» ünvanı ilə anılan Moyan-Çor xaqana aiddir.

Fəqət üçüncü hökmdarları Böqü xaqan zamanında mani dini qəbul edən uyğurlar milli Orxon yazısını buraxıb indi unudulmuş soqd dilini, yazısını götürdülər və inkişaf etdirdilər.

Uyğur türkləri Altay dil qrupunun Xaqaniyyə ləhcəsində danışırdılar. Qədim türk ədəbiyyatının ən dəyərli əsərləri olan «Divani-

lüğət-it türk», «Kutatqu-bilik», «Atabetül-Haqayiq» kimi qızıl kitablar türkcənin bu ləhcəsi ilə yazılmışdır.

Uyğurlar türklərin milli yazısı olan Orxon əlifbasından sonra soqd əlifbasına, ondan sonra da islamiyyəti qəbul edincə ərəb əlifbasına keçirlər. Xəqaniyyə ləhcəsində danışıqsa davam edir. XV əsrdə daha çox Cağatay ləhcəsi adlanan bu danışıq tərzi Çingiz xan imperatorluğunda və Teymurlularda da rəsmi dil olaraq işlədilmişdir.

Qədim məbədlərdən görüntülər təqdim olunur.

MƏTN: – Turfan ətrafında Bəzəklik və Martuq qazıntılarında tapılan məbədlərdən uyğur dilində yazılmış bir çox əsərlər əldə olunub ki, həmin miniatür və freskalar bu sənət növlərinin ən üstün nümunələridir. Bunlar hind və İran miniatürlərinə də qaynaq və örnək olmuşlar.

Uyğur türkləri yüksək mədəniyyət örnəkləri olan böyük şəhərlər qurmuş, Şərqi Türküstanda Qarabala-saqun, Baş-Balıq, Qaraxoca, Qaraşar, Xotan, Yarkənd, Turfan, Kaşğar, Kamal, Qulça, Urumçi, Ağsu, Suço, Kanço, Çərçən kimi böyük şəhərləri saray və məbədlərlə zənginləşdirmişlər. Şəhərlər bir-birilə düz yollarla bağlanırdı ki, həmin yollar bu gün də işləkdir. Uyğurlar şəhərlərini çox hündür, əlçatmaz divarlarla dövrələyirdilər. Üçqat şəhər divarları ayrıca yeddi qat xəndəklə əhatə olunurdu. Tikililərin, mənzil və hücrələrin böyük bir hissəsi çadır qübbələri şəklində örtülürdü. Göytürklərin ağaca yazdıqları

yazını onlar kağıza yazırdılar və zəmanəmizə qədər çatmış çoxlu kitab çap etmişdilər. Avropalılardan yüzlərcə il öncə kağızı və mətbəəni bilən uyğurlar sonralar bu yeniliyi ərəblərə də öyrətdilər.

NİZAMİ XUDİYEV: – Uyğurlardan sonrakı qədim türk dövrü türk dillərinin tarixində qırğız mərhələsi adlanır. Qırğızların Baykal gölünün qərbində İrtış çayı hövzəsində yerləşmələri haqqında V-VI əsrin Çin mənbələrində çoxlu qeydlərə rast gəlinir. Onlar Muğan xaqanının vaxtında Tukyu dövlətinə tabe idilər. VII əsrdə bu birlikdən ayrılaraq müstəqil dövlət qurmağa nail olan qırğızlar bu müstəqilliyi qoruyub saxlaya bilmirlər və yenidən uyğur xaqanlığına pənah aparıb, Ötükəndə məskən salırlar. Daxili çəkişmələrdə çinlilərin güclü hücumları nəticəsində zəifləmiş Uyğur dövləti 840-cı ildə qırğızlar tərəfindən devrilərək Qırğız xaqanlığının qurulması ilə başa çatır. Onların bu ərazidəki hökmranlığı təqribən 920-ci ilə qədər davam edir. Volqa çayından qərbdə bulqarlar, cənubda xəzərlər və bulqarlar hökmranlıq edirdilər. Bulqarlar və xəzərlər bir-birinə yaxın dildə danışan xalqlar idi. Xəzər xaqanlığı 300 ilə yaxın Şərqi Avropada ilk feodal dövləti kimi hakimiyyətini qoruyub saxlamış, köçəri və yarımköçəri xalqları öz ətrafında birləşdirərək, uzun müddət İran, ərəb xəlifəliyi və Vizantiya ilə müharibə vəziyyətində olmuşdur. Xəzər xaqanlığına daxil olan xalqların əksəriyyəti vaxtilə Hun imperiyasının tərkibində olan, onun

süqutundan sonra bir-birilə vuruşan xalqlar idi. Akatsirlər, saraqurlar, barsillər, savirlər, avarlar, uyğurlar, bulqarlar, kutri-qurlar… – əksəriyyəti türkdilli döyüşkən xalqlardır.

Ərəb tarixçiləri İstəxri və İbn Hövqəl yazırdılar ki, xəzərlərin dili bulqar dilinin eynidir. Bulqarların qərbi türk dillərinə oğuz-qıpçaqlara aid olması mübahisəsizdir. Deməli, xəzər dili də həmin qrupa aid edilə bilər. Suriya tarixçisi İohann Efesin VI əsrə aid edilən «Tarix» eserinin günümüzə yetişən səhifələrindən məlum olur ki, Hun tayfalarından olan üç qardaşdan biri – Bulqar Romanı, qalan iki qardaşsa Bersiliyanı öz hakimiyyətləri altına alır. Bu qardaşlardan birinin adı Xəzər idi, ona görə də xəzərləri çox vaxt türk savirləri adlandırmışlar. Savirlər də Hun qəbilələrinə mənsub olan xalqlardan olub, Qafqaz dağları boyunda məskən salmışdılar.

Tuyku xaqanlığının əsarətindən qurtaran türkdilli bulqar tayfa birlikləri Böyük Bulqariya birliyi yaratmağa nail olurlar. Onların rəhbər və hökmdarları haqqında məlumat zəmanəmizə qədər gəlib çatmışdır. 635-640-cı illərdə Qubrat, Asparux, Batbay hökmdarlıq etmişlər. Elə təqribən Bulqar dövləti yarandığı vaxtlar onlarla qonşuluqda Xəzər dövləti yaranmağa başlamışdı. Xəzərlərin içərisində çoxsaylı bulqar tayfaları da var idi. Bulqar dövləti zəifləyərkən xəzərlər onların ərazilərinin bir hissəsini də tutaraq daha da qüvvətlənib oturaq həyata keçirlər. Bu vaxt onların məşhur qala şəhərləri meydana çıxır – Xəzər kala, Çir-yurt, İtil, Xəmmic, Savqar, Bayda, Sur,

Masmada. Xəzər xalqı haqqında ən mükəmməl məlumat X əsrin ortalarında Xəzər hökmdarı İosifin İspaniyaya, xəlifə III Əbdürəhman Xasdan İbn Şafruniyaya yazdığı məktubda öz əksini tapmışdır. Xəzərlər Dağıstanı, Kuban ətrafını, Qara dənizin şimal ətrafını, Krımın çox hissəsini tutaraq böyük, qüdrətli xaqanlıq – Xəzər xaqanlığı yaradırlar. Onların bu ərazidə hökmranlığı X əsrin 70-ci illərinə qədər davam edir. Tarixdə xəzərlərin rolunu mütərəqqi hesab edən müəlliflər bu nəticələrində haqlıdırlar. Xəzərlər o vaxtlar Dağıstanda yaşayan onlarla tayfanın məhv olunmasının qarşısını almışlar. Onlar bu ərazidə yaşayan türkdilli xalqların formalaşmasında mühüm rol oynamışlar. Volqa, Ural və Dnepr çayları boyunca böyük bir ərazidə müxtəlif qohum və qeyri-qohum xalqları öz ətrafında birləşdirən bulqarlar da müasir tatar, başqırd və qaraçaybalkar dillərinin və xalqlarının formalaşmasında mühüm əhəmiyyət kəsb etmişlər.

Tarixi görüntülər: cilova, yüyənə salınmamış atlar. Çöllər, əzəmətli dağlar, öz adəti, ənənəsi ilə yaşayan insanlar təqdim olunur.

MƏTN: – Bu bütöv tarixi yaradan, özündən sonra böyük bir mədəniyyət, dil, adət-ənənə, yaşam tərzi qoyub gedən insanlar kimlər idi?!

Kimlər qaldı o nəsillərdən?!…

Qədim türklər demiş… uçdu… getdimi… O böyük qəhrəman kişilər yəhərsiz, yüyənsiz, dəliqanlı atların belində?!

Tarix ən qədim, ən sədaqətli, döyüşkən nəsillərini zamanın hansı qatına göndərdi? Niyə onlardan danışılanda belə qısqanclıqla qarşılanır?! Niyə onların tarixini belə ört-basdır edib gizləmək istəyirlər?! Qalan nəsillərini – o keçmişdən, o tarixi bağlardan, böyük kimliklərdən ayırmağa çalışırlar?!

Bu çalışqan, tarix boyu özünü, kimliyini qorumaqdan ötrü döyüşən, qalib gələn, Orxon-Yenisey abidələrini yazmış türklərin mənşəyi haqqında bir neçə əfsanə vardır. Bütün əfsanələrin əsas motivi budur ki, türklər öz mənşələrini dişi qurddan alıblar. Sonralar türklərin öz bayraqlarında qurd başı şəkli çəkmələri də yəqin ki, həmin mifoloji dünyagörüşündən irəli gəlir.

Türk sözü en son araşdırmalara görə qüvvət, qüdrət, güc kimi mənalandırılıb. Qədim Çin mənbələrində türk sülaləsinin əsasını qoyan çox döyüşkən bir qəbilədən danışılır. Tarbaqatay şəhərinin yaxınlığında məğlub olan hunlardan Aşina tayfası adlı bir nəsil sağ qalır. Həmin nəsil, xalq Altay dağlarının ətəklərinə köçür, syanbilər və jujanlar deyilən tayfalardan yarımasılı vəziyyətdə, xana xərac vermək əvəzinə onun üçün dəmir istehsal etməklə məşğul olurlar. Bu qəbilə bir müddət keçdikdən sonra yenə də qüvvətlənir və Dulqa-tuqyuye hakimi Tumın-Orxon-Yenisey abidələrindəki Bumın-kağan jujan sülaləsinin hakimiyyətini yıxıb, özünü İsigixan elan edir.

Çin mənbələrindən məlum olur ki, türklərlə jujanlar arasındakı nifaqa və müharibəyə səbəb jujan xanı Anaxuanın Öz qızım Bumına ərə

verməməsiydi. Lakin bu, yalnız bir bəhanə idi. Əsas səbəbsə türklərin azadlığa can atmalarıydı. Döyüşdə məğlub olan Anaxaun özünü öldürür. Beləliklə, 552-ci ildə Bumın özünü xaqan elan edir, türk sülaləsinin əsasını qoyur və sonralar Mərkəzi Asiyanın siyasi həyatında böyük rol oynayan türk xaqanlığını yaradır. Bumın taxta çıxdıqdan sonra ölkənin qərb hissəsinin idarəsini türk adətinə görə qardaşı İstəmi xaqana tapşırır.

Bumın xaqan 553-cü ilin mart ayında vəfat edir. Onun yerinə İsigixan adlı oğlu taxta çıxır. İsigi xaqandan sonra oğlu Nyetu xan türk xaqanlığının taxt-tacına sahiblik edir. Muyun xanın zamanında türk dövləti daha da güclənir, qüvvətlənir. Dövlətin sərhədləri Mancuriyadan Səmərqənd şəhəri ilə Bəlx arasındakı Dəmir qapıyadək uzanır. Qərbdə Eftalitlər deyilən güclü dövləti məğlub etdikdən və dövlətini daha da genişləndirdikdən sonra Muyun xaqan üzünü Şərqə çevirir. Bu zaman onun əmisi İstəmi xaqan da dövlətin qərb sərhədlərini genişləndirib, qərb dövlətləri ilə, xüsusən Bizans və İranla əlaqələr yaradır. Məsələn, 568-ci ildə Bizans imperatoru türk xaqanlığına səfir göndərib onlar haqqında ətraflı məlumat toplamışdı. Səfirliyin topladığı məlumat Bizans tarixçilərindən Menandr və Feofilakt Simokattanın əsərlərində öz əksini tapmışdı. Hər iki müəllif türklərin son dərəcə yüksək mədəniyyətə malik olduqlarını göstərir.

NİZAMİ XUDİYEV: – Türk dünyası bu böyük keçmişin, keşməkeşli tarixin çiyinləri üzərində

özünü təsdiqləyə-təsdiqləyə, varlığını sübut edə-edə, zamanın ağrı-acısından keçə-keçə möhkəmlənirdi. Orta türk epoxası, yaxud əsas türk qəbilələri dillərinin inkişafı və formalaşması dövrü X-XV əsrləri əhatə edir. Bu əsrlər, illər ərzində çox geniş əraziyə yayılmış türk xalqları həmin yerlərdə X-XII əsrlərdə bir neçə dövlət yarada bilirlər. Bu cəhətdən Qaraxanlı və Səlcuq dövlətləri nəzər-diqqəti daha çox cəlb edir. Bu müddətdə türk dillərinin qrammatik quruluşunda da müəyyən təkmilləşmə, sabitləşmə və cilalanma özünü göstərir. Bunu türk dillərinin fonetik və leksik quruluşuna da şamil etmək olar. Bu dövrdə artıq qədim türk yazısı ərəb əlifbası ilə əvəz olunur. Bu epoxanı da iki dövrə bölmək olar: qaraxanlılar dövrü və monqol dövrü.

Tarixi sənədlər göstərir ki, X əsrdə karluk qəbilə ittifaqı güclənir və Semireçyedə Türk Qaraxanlılar sülaləsi, yaxud İlekxan sülaləsi adı altında əvvəlcə Balasaqunda, sonra isə Kaşğarda qüvvətli dövlət yaradır. Qaraxanlılar öz təsirini Sır-Dərya ətrafına, qərbdə Səmərqənd və Buxaraya yayırlar. Kiçik uyğur xanlıqlarını özlərinə tabe edirlər.

Qaraxanlılar dövründə iki mərkəzdə – Şərqdə Balasaqun və Kaşğarda karluk-uyğur ümumi dialekti əsasında ədəbi dil, qərbdə Xarəzmdə oğuz-qıpçaq ümumi dialekti əsasında başqa bir ədəbi dil yaranır.

Şərqdə karluk-uyğur, qərbdə oğuz-qıpçaq ümumi dialektləri əsasında yaranmış ortaq türk dili XIV-XV əsrlərə qədər – özbək dili

formalaşanadək qalır. XI əsrdə Qaraxanlılar hakimiyyəti zəifləyir və müstəqilliklərini itirirlər. Bu zaman güclənən oğuz qəbilələri, o cümlədən türkmənlər qaraxanlılar dövlətini özlərinə tabe etdirirlər.

XI əsrdə oğuz qəbilələrindən olan səlcuqlar hərəkatı başlayır. XII əsrdə səlcuqlar cənuba və qərbə yayılaraq, Kiçik Asiyanı özlərinə tabe edib Türkiyənin əsasını qoyurlar.

MƏTN: – Bu dövrdə məşhur türk səlcuq dövlətindən başqa Əfqanıstanda hakimiyyəti 969-1187-ci illəri əhatə edən Yeminilər-Qəznəvilər dövlətini də misal göstərmək olar. Bu dövlət Qəznəli Mahmudun vaxtında – 997-1030-cu illərdə daha da məşhurlaşmış, Hindistanı, Xarəzmi, Əfqanıstanı, İranı islamlaşdıra bilmişdi.

XI əsrdə qıpçaqların şərqdən cənubi rus çöllərinə doğru hərəkatı başlayır. Qıpçaqlar tərəfindən darmadağın edilmiş peçeneklərin bir hissəsi daha da qərbə qovulur və macarlar tərəfindən assimilyasiya uğrayır, bir hissəsi isə qıpçaqlara qarışır. Qıpçaq dövləti böyük bir sahəni tutur. Bura müasir Qazaxıstanın cənub-qərb hissəsi, Krımın düzənlik sahəsi, Volqa və Don çaylarının aşağı hissələri daxil olur.

Monqol qəbilələrinin fəallığı X əsrdə başlayır. Monqol qəbilələrindən olan kitaylar Şimali Çini öz təsirləri altına alırlar, oğuzları sıxışdırırlar. Monqolların hücumu ilə Orta Asiya və Şərqi Avropa xalqlarının tarixində dəyişik bir mərhələ başladı. Monqol hökmranlığı zamanında bir-birinin ardınca bir neçə dövlət əmələ gəldi.

Qərb və cənubi-qərbdə monqol istilasından sonra yaranan qüvvətli dövlət – Çığatay dövləti Qızıl Orda, XIV əsrin sonlarında isə Teymurilər dövləti olmuşdur. XV əsrdə Qızıl Orda üç müstəqil xanlığa: 1420-ci ildə Krım, 1433-cü ildə Kazan və 1466-cı ildə Həştərxan xanlıqlarına parçalanır. Qızıl Ordanın da, xanlıqların da rəsmi dövlət dili türk dili idi. Orta epoxada müasir türk dilləri diferensiallaşır: qərbdə bulqarlar, xəzərlər, yakutlar, xakaslar və kırğızlar…

NİZAMİ XUDİYEV: – X-XV əsrlərdə qıpçaq ümumi dili iki qrupa bölünür: birinci qıpçaq-bulqar qrupudur ki, bundan XV əsrdə tatar və başqırd dilləri təşəkkül tapmışdır. İkinci qıpçaq qrupu monqol dövründə iki yarımqrupa bölünür. Qıpçaq poloves yarımqrupu – buna poloves dili və daha sonralar karaim dili, kumuk dili, qaraçay-balkar dili daxil idi. Digər qıpçaq-noqay yarımqrupuna isə noqay dili, kazax dili, karakalpak dili və özbək dilinin qıpçaq dialekti daxil idi.

Oğuz qrupu dillərinin XV əsrdə üç qolu olmuşdur. Oğuz-bulqar, oğuz-səlcuq və karluk-uyğur dilləri.

Orta türk epoxasında bu dillərin yayıldığı geniş coğrafi məkan, tarixi yerlər az qala hüdudsuz idi. Baburun hökmranlığı illərində 1526-1558-ci illərdə Hindistanda yaradılan türk imperatorluğu… Teymurləngin yaratdığı dövlətin Baburun vaxtında 1504-cü ildə özbək Şeybani xan tərəfindən işğal olunması ilə əvvəlcə Səmərqənd və Kunya-Urqenc dövlətlərinə, sonra

isə Buxara, Xavə və Kokand xanlıqlarına parçalanması… Bu inzibati birliklərdə toplanan xalqlar qərbdə oğuz-karluk-qıpçaq, şərqdə qırğız-qıpçaq, xakas, yakut Tuva dil qruplarının nümayəndələri idilər. Məhz buna görə də orta türk dövründə yaranan abidələrdə bu dil qruplarının elementləri öz əksini tapa bilmişdir.

Onu da qeyd etmək lazımdır ki, monqol istilası monqollardan daha çox türkdilli xalqların taleyinə təsir etmiş, onların, yəni monqolların yaratdığı dövlətin dili tədricən türk dili olmağa başlamışdı.

IX-XIII əsrlərdə Misirdə, Suriyada, Hindistanda yaranmış türk dövlətləri, eləcə də Xarəzmşahlar, 1380-1469-cu illərin Qaraqoyunlular və 1350-1502-ci illərin Ağqoyunlular dövlətləri də Orta türk epoxasında yaranan dövlətlər, imperatorluqlar idi. Orta türk epoxasının onlarla yazılı abidələri günümüzə yetişmiş, türkün əzəmətli tarixinə şərəfşan gətirmiş, dünyanın mədəni sərvəti elan edilmişdir.

Haqqında dəfələrlə söz açdığımız Mahmud Kaşğarlının «Divani-lüğət-it-türk»ü, Yusif Balasaqunlunun «Kutat-qu-bilik»i, Əbu Həyyan əl Qarnatinin «Kitabül-əl idrakli-lisanül əl ətrak»ı, «Dədə Qorqud» dastanları, Əlinin «Qisseyi-Yusif» əsəri, «Dastani-Əhməd Hərami», Əhməd Yasəvinin «Divani-Hikmət»i, Seyfi Sarayinin «Gülüstan» əsəri bu böyük xəzinədən bir hissədir.

Qarşıda türk dillərinin tarixi, yeni türk dilləri epoxası ilə bağlı söhbətimiz olacaq. Hələliksə, qədim türklərin adət-ənənəsini, tarixi yaşantılarını

göstərən süjetlə türk adını ilk dəfə dövlət adına ucaldan Göytürklərin zamanına səyahət edəcəyik. Böyük türkün uzaq yaddaşından kiçik bir soraq verəcəyik.

Qədim türklərin adət-ənənəsi, dövlət qurumu, döyüş səhnələrindən görüntülər.

MƏTN: – Göytürklərin adət-ənənəsi, dövlət quruluşu, mədəniyyəti, dini haqqında Orxon-Yenisey abidələrindən, eləcə də Çin mənbələrindən müəyyən qədər məlumat almaq mümkündür.

Göytürk xanədanında oturan şəxs kağan «xaqan», onun arvadı katun «xatun» adlanır. Dövlətin idarəsi iki qola bölünür: dövlətin qərb budağını idarə edən adam yabğu, şərq budağını idarə edən adam şad adlanır. Xaqanın oğulları şahzadələr tikin adlanır. Xaqandan sonra ən böyük rütbə xan sayılır. Orxon-Yenisey abidələrində xanlar barədə az danışılsa da, bəylər haqqında çoxlu məlumat vardır. Abidələrdə bəzən bəylərə xaqan adı verilməsi haqqında fikirlərə də təsadüf edilir: Bars bəg erti, kağan at bunta biz birtimiz – Bars bəy idi, xaqan adını da burada biz verdik… Ən yüksək hərbi dərəcə çor adlanırdı, ondan kiçik olan hərbi rütbə sənün, yəni general adlanırdı.

Türklərin qədim dini haqqında VI əsrin 70-80-ci illərində tərtib edilmiş «Veyşu» və VII əsrin əvvəllərində hazırlanmış «Siyşu» adlı salnamələrdə məlumat verilir.

Türklər göyləri tenri adlandırıb onu müqəddəs sayırdılar. Yer – sub, su – ıduk idi.

Qədim türklərdə ailənin rifahım və uşaqları himayə edən ilahə Umay adlanırdı. Türklərin fikrincə adam öləndən sonra onun həyatı o biri dünyada davam edir, buna görə də adam öləndə onun haqqında öldü yox, yça bardı (uçaraq getdi) ifadəsini işlədirdilər.

Onlar əcdadlarının ruhunu müqəddəs sayırdılar. Türklər ilin müəyyən günlərində bu saydığımız müqəddəslərə qurban kəsirdilər: qurbanlıq ya qoyun, ya da at olurdu.

Adətən bol sulu otlaq yerlərdə məskən salardılar, çünki belə yerlərdə həm ov heyvanları çoxdu, həm də öz sürü və ilxılarını rahat otarmaq mümkün idi. Ovçuluq və maldarlıqla yanaşı, qədim türklər əkinçiliklə də məşğul olurdular. Qədim türk üçün əsas peşə müharibə idi, silahları yay, ox, qılınc, zirehli geyim.

Təkcə Orxon-Yenisey abidələri deyil, bütün dillərdə yazılmış qaynaqlar türklərin cəsur və igid olduğunu göstərir. Namus qədim türklərdə çox müqəddəs tutulurdu. Ruhu ölməz sayır, ölümdən sonrakı o dünya həyatına inanırdılar. Buna görə də meyitin o dünyadakı həyatını yüngülləşdirmək üçün sağlığında istifadə etdiyi əşyalardan ətrafına düzərdilər.

Çin, Bizans, İran və ərəb mənbələrinə görə qədim türklər yüksək mədəniyyətə malik idi. Hələ 563-cü ildə Qərbi Türk xaqanlığından Bizansa elçi göndərilmişdi. Mənbələrin yazdığına görə 568-ci ildə Bizans elçiləri Zemarxın başçılığı ilə Qərbi Türk xaqanlığına göndərilir. Bu elçiliyin hesabatında yazılır ki, türk xaqanları qızıldan

düzəldilmiş taxt üzərində oturarmışlar, xaqanın çadırı rəngarəng xalılarla bəzədilərmiş.

Orxon-Yenisey abidələri və onların yerləşdiyi ərazidə aparılan arxeoloji qazıntılar göstərir ki, V-VIII əsrlərdə türklər dünya əhəmiyyətli yüksək sənət və mədəniyyət nümunələri yaratmışlar. Onlar Çin, Orta Asiya, İran və Şərqi Avropa ölkələrinə də təsir göstərmiş, bir sıra sənət və istehsalat sahələri məhz türklərdən – bu ərazilərdən dünyaya yayılmışdı. Yəhər, bəzək əşyaları, hərbi ləvazimat, geyimlər, ilin təqvimi, məhz qədim türklərin, ulu əcdadlarımızın dünyaya bəxş etdiyi yeniliklər idi.

NİZAMİ XUDİYEV: – Yeni türk dilləri epoxası bütün müasir türk xalqlarının və türk dillərinin tamamilə təşəkkülü ilə xarakterizə olunur. Qərbdə bu dövrdə çuvaş tayfa-qəbilə birləşmələrinin vahid çuvaş xalqına çevrilməsi baş verir. Qıpçaq-bulqar qəbilələri iki böyük xalqı – tatar və başqırdları araya gətirirlər. Bundan əvvəlki epoxada qıpçaq-poloves qrupundan qıpçaq-noqay ittifaqı yaranır, bu da XV əsrdə qazax və noqay xalqlarına ayrılır. Noqay xalqı da XVI əsrdə noqay və karakalpaqlara bölünür. Qıpçaq-poloves qrupu karaimlərə, kumıklara, qaraçaylara, balkarlara, krım tatarlarına ayrılır. Bu xalqların dili artıq öz mimsir xüsusiyyətlərini, xarakterini kəsb edir. XV-XX əsrdə karluk birliyindən tədricən iki xalq – özbəklər və uyğurlar – yeni uyğur dilində danışanlar əmələ gəlir. Bu epoxada şərqdə də türk qəbilələri və dillərinin təşəkkülü prosesi gedir.

Dilləri təşəkkül etməyə başlayan xalqlar üç əsas dil ümumiliyində formalaşır:

1. Uyğur-tukyu ümumiliyi. Bundan qədim uyğur və qədim oğuz dillərindən başqa tuvin və karakas dilləri ayrılır.

2. Yakut dili.

3. Xakas ümumiliyi. Bundan müasir xakas dilinin dialekti, şor dili, altay dilinin şimal dialekti yaranır.

Nəhayət, qırğız-qıpçaq qrupu dillərinə qədim qırğız dili, sonralar qırğız dili və altay dilinin cənub dialekti daxil olur.

Oğuz tayfaları qədim səlcuq, qədim türkmən və qədim bulqar tayfaları əsasında bir neçə qədim və müasir dilin yaranması ilə şərtlənir: qədim Azərbaycan, qədim Osmanlı, qədim türkmən, Azərbaycan, türk, türkmən və qaqauz dilləri. Cağatay, Xaqaniyyə türkcəsi əsasında karluq və uyğur tayfa birliklərindən özbək, yeni uyğur dilləri, eləcə də sarı uyğur və salar dilləri meydana gəlir. Ümumiyyətlə, türk dillərinin tarixində yeni türk dövrü XV-XX əsrləri əhatə edir. Dünyadakı dil ailələri içərisində türk dilləri bir-birinə ən yaxın olan dillərdəndir. Türk sistemli dillər lüğət fondunun və qrammatik quruluşlarının ümumiliyi ilə səciyyələnən, məhz elə bu xüsusiyyətlərə görə əsrlər boyu öz mənliyini qoruyub saxlayan, tarixin bir-biri ilə qohum olan, bir kökdən, bir əsasdan boy verən dillər qrupudur.

NİZAMİ XUDİYEV: – Türk xalqlarının qədim tarixini, dövlətçilik ənənələrini, kimliyini yaşadan, adət-

ənənəsinin, mənəvi dəyərlərinin kökündə dayanan qədim türk tayfaları… Saka türkləri, hunlar, tukyular, göytürklər, on oğuzlar, doqquz oğuzlar bu gün heç yerdə ayrıca xalq kimi təmsil olunmurlar. Onlar tarixin müxtəlif aşırımlarında öz missiyalarını yerinə yetirib, müasir türk xalqlarının içərisində ərimiş, bir hissəsi isə başqa ad altında yenidən tarix səhnəsinə çıxmışdır: Hun-oğuz-türk-türkmən keçidlərində olduğu kimi. Ona görə müasir türk xalqlarından hər biri – böyüklüyündən, kiçikliyindən asılı olmayaraq, əski çağlarda yaranan mədəni abidələrdən özünə pay götürə bilər. Çünki türk-osmanlı, özbək, qırğız, Azərbaycan, qazax, türkmən, qaqauz, tatar, çuvaş, noqay və digər türksoylu xalqların soykökündə eyni bir sak, hun, göytürk, uyğur, qıpçaq, peçenek tayfalarının olduğu şübhəsizdir.

Türkün dünya tarixində rolunu azaltmaq məqsədilə, yaratdığı qədim sənət nümunələrini gözdən salmağa, ya da dil faktoruna görə başqa-başqa xalqların adına çıxmağa təşəbbüs edənlər uzun illər niyyətlərinə nail ola bilmədilər. Türk özünə, kimliyinə döndü. Ulu babalarının al qanı ilə yaradılmış tarixini bir də səhifələdi. Mənəvi dəyərlərini yada saldı, yurd yerlərinə baş çəkdi.

Bu silinməz izlər, bu möhtəşəm tarix, bu ulu dünya hər birimizindir, hər bir türk övladınındır. «Qazax, qırğız, uyğur, tatar, azəri bir soydu», – deyən çox məşhur bir deyimdə olduğu kimi.

SON

2006

MÜNDƏRİCAT

Görkəmli alim, ləyaqətli ziyalı 3
Müəllifdən 32

MƏQALƏLƏR, MÜSAHİBƏLƏR

Müasir Azərbaycanın qurucusu 36
Böyük yolun davamçısı 51
Şah İsmayıl Xətai və Azərbaycan dili 64
«Xudafərin» mənəvi körpüyə çevrilir 77
Cavad Heyət dünyası 82
«Qarabağın keçdiyi tarixi yol» (S. Sərdarniyanin tarixi düşüncələrinə münasibət) 95
Radio və televiziyanın əlifbası proqramlaşdırmadan başlayır 106
Radio və televiziyanın informasiya tarixindən 113
Tarixin səsli salnaməsi 121
Radio və musiqi 136
Teleradiomuz maarifçilik işığında 146
50 il mədəniyyətin keşiyində 153
Xalq yaradıcılığı ənənələrinin televiziyada işıqlandırılması 162
Azərbaycan teleradiosunun musiqi kollektivləri 169
Dövlətçilik, millilik, müasirlik 175
Günümüzün ekran salnaməsi 187
Yeni əsrin televiziyası 200

RƏYLƏR

Müstəqil Azərbaycan dövlətinin yaranması və möhkəmləndirilməsində Heydər Əliyevin rolu.....213
Azərbaycan dilində morfoloji norma 218
Çağdaş türk şeirinin poetikası 222
Orxon-Yenisey abidələri və Azərbaycan dili (leksika).....225
Müasir türk dilində ara sözlər və söz birləşmələri 234
Azərbaycanda təhsil alan türkiyəli tələbələrin dil problemləri 240

ÇIXIŞLAR

Doktor Cavad heyətin Bakıda AMEA-da keçirilən 80 illik yubiley mərasimində çıxışı.....246
Əziz müəllimimiz.....251
Birinci, ikinci, üçüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin iclaslarından bəzi çıxışlar.....252

SSENARİLƏR

Tarixi hünər *(«Əsrin müqaviləsi»nin 10 illiyinə həsr olunur)* 477
Xilaskar (*III film*) 485
Xilaskar (*IV film*).....512
Möhtəşəm türk (İ.Doğramacı – 90) (*I film*).....538
Möhtəşəm türk (İ.Doğramacı – 90) (*II film*) 549
Türkün zəfər dastanı (Çanaqqala) 558
Naxçıvan. Azadlığın addımları (*I film*) 576
Naxçıvan. Azadlığın addımları (*II film*).....589
Naxçıvan. Azadlığın addımları (*III film*).....599

Türk fatehləri Əmir Teymur və İldırım Bəyazit.....628
Çaldırana aparan yol.....652
Gündoğandan günbatana… Qədim türklər… (*I film*) 674
Gündoğandan günbatana… Qədim və
yeni türklər (II film)… 700

N. M. XUDİYEV

ZAMANIN AXARI İLƏ

(V cild) I hissə

«Elm və Təhsil» nəşriyyatının direktoru:
professor Nadir MƏMMƏDLİ

Kompüter dizayneri: **Zahid Məmmədov**
Texniki redaktor: **Rövşanə Nizamiqızı**

Yığılmağa verilmiş **25.04.2013**
Çapa imzalanmış **04.05.2013**
Şərti çap vərəqi **45,2.** Sifariş **№ 179**
Kağız formatı **60x84 1/16.** Tiraj 5**00**

Kitab **«Elm və Təhsil»** nəşriyyat-poliqrafiya müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.
E-mail: elm_ve_tehsil@box.az
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.